ISSN 2221-8432

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Bakı Slavyan Universiteti

HUMANİTAR ELMLƏRİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

(ALİ MƏKTƏBLƏR ARASI ELMİ MƏQALƏLƏR MƏCMUƏSİ)

Актуальные проблемы изучения гуманитарных наук

Межвузовский сборник научных статей

The actual problems of study of humanities

Interuniversity collection of scientific articles

2 /2023

ISSN 2221-8432

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
BAKI SLAVYAN UNİVERSİTETİ

HUMANİTAR ELMLƏRİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

Ali məktəblərarası elmi məqalələr məcmuəsi

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ИЗУЧЕНИЯ ГУМАНИТАРНЫХ НАУК

Межвузовский сборник научных статей

THE ACTUAL PROBLEMS OF STUDY OF HUMANITIES

Interuniversity collection of scientific articles

№2

2023

Məcmuə 1997-ci ildən nəşr olunur.

İldə 4 nömrə çıxır.

Redaksiyanın ünvanı:
Bakı şəh., Rəsul Rza küç., 125/139b
Tel.: 596 21 44
e-mail: mutarjim@mail.ru
www.mutercim.az

Bakı – 2023

Humanitar elmlərin öyrənilməsinin aktual problemləri
Rüblük elmi nəşr

Redaksiya heyəti:

Dilçilik
filol. e. d., prof. **Məmmədov Nəsirağa**
filol. e. d., prof. **Veysəlli Fəxrəddin**
filol. e. d., prof. **Cahangirov Fikrət**
filol. e. d., prof. **Nurqali Kadişa (*Qazaxstan*)**
filol. e. d., prof. **Qurbanova Fidan**
filol. e. d., prof. **Cəfərov Mikayıl**
filol. f. d. dos. **Babaşova Xalidə**
filol. f. d. **Korotışev Aleksandr (*Rusiya*)**

Ədəbiyyatşünaslıq
filol. e. d., prof. **Qocayev Məmməd**
filol. e. d., prof. **Novruzov Rafiq**
filol. e. d., prof. **Xəlilli Şahin**
filol. e. d., prof. **Qeybullayeva Rəhilə**
filol. e. d., prof. **Rəsulov Rüstəm**
filol. e. d., prof. **Travnikov Serqey** (***Rusiya***)
filol. f. d., dos. **Ağamirzəyev Əliş**
filol. f. d., dos. **Carçıyeva İlahə**
filol. f. d., dos. **Hacıyev Kamran**

Pedaqogika
ped. e. d., prof. **Abbasov Akif**
ped. e. d., prof. **Tağıyev Şahin**
ped. e. d., prof. **Xəlilov Vidadi**
ped. e. d., prof. **Cəbrayılov İntiqam**
ped. e. d., prof. **Quliyeva Ellada**
ped. f. d., dos. **Səmədov Oktay**
ped. e. f. d., dos. **Tağıyeva Ellada**

İctimai elmlər
tarix e. d., prof.,
AMEA-nın müxbir üzvü **Qasımlı Musa**
tarix e. d., prof. **İbrahimli Fəzail**
fəlsəfə e. d. **Məmmədov Cahangir**
tarix e. d., prof. **Əmrahov Mais**
fəlsəfə e. d., prof. **Əliyev Məmməd**
tarix e. d., prof. **Məmmədov Habil**
tarix f. d., dos. **Əhməd Əsgər**
siyasi elmlər f. d. **Abdullayev Natiq**

Buraxılışa məsul: filol. e. d., prof. **Cəfərov Telman**

Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məcmuə. **№ 2/2023. – Bakı: Mütərcim, 2023, 420 s.**

Məcmuə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilmişdir.

© Məqalə müəllifləri, 2023
© "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" məcmuəsinin redaksiyası, 2023

Актуальные проблемы изучения гуманитарных наук
Квартальное научное издание

Редакционная коллегия:

Лингвистика
д.н. по филол.н. **Мамедов Насирага**
д.н. по филол.н. **Вейсалли Фахраддин**
д.н. по филол.н. **Джахангиров Фикрет**
д.н. по филол.н. **Нургали Кадиша (*Казахстан*)**
д.н. по филол.н. **Гурбанова Фидан**
д.н. по филол.н. **Джафаров Микаил**
д.филос.по филол. н., доц. **Бабашова Халида**
д.философии по филол. н.
Коротышев Александр (*Россия*)

Педагогика
д.н. по пед.н. Аббасов Акиф
д.н. по пед.н. Тагиев Шахин
д.н. по пед.н. Халилов Видади
д.н. по пед.н. Джабраилов Интигам
д.н. по пед.н. Гулиева Эллада
д. филос. по пед.н., доц. Самедов Октай
д. филос. по пед.н., доц. Тагиева Эллада

Литературоведение
д.н. по филол.н. **Годжаев Мамед**
д.н. по филол.н. **Новрузов Рафиг**
д.н. по филол.н. **Халилли Шахин**
д.н. по филол.н. **Гейбуллаева Рахиля**
д.н. по филол.н. **Расулов Рустам**
д.н. по филол.н. **Травников Сергей (*Россия*)**
д.филос. по филол.н., доц. **Агамирзоев Алиш**
д. филос. по фил.н., доц. **Джарчиева Илаха**
д. филос. по фил.н., доц. **Гаджиев Камран**

Общественные науки
д.н. по ист. н., проф., член-корр. НАНА
Гасымлы Муса
д.н. по ист. н., проф. **Ибрагимли Фазаил**
д.н. по ист. н., проф. **Мамедов Джахангир**
д.н. по ист. н., проф. **Амрахов Маис**
д.н. по филос. н., проф. **Алиев Мамед**
д.н. по ист. н., проф. **Мамедов Хабиль**
д.филос. по ист. Н. **Ахмед Аскер**
д. филос. по полит. н. **Абдуллаев Натиг**

Ответственный редактор: д.н. по филол. н., проф. **Джафаров Тельман**

Актуальные проблемы изучения гуманитарных наук. Межвузовский сборник научных статей. **№ 2/2023. – Баку: Мутарджим, 2023, с. 420**

Сборник включен в Перечень рекомендуемых Высшей аттестационной комиссией при Президенте Азербайджанской Республики научных журналов, в которых должны быть опубликованы основные научные результаты диссертаций.

© Авторы статей, 2023
© Редакция сборника «Актуальные проблемы изучения гуманитарных наук», 2023

The actual problems of study of humanities
Quarterly scientific publication

Editorial board:

Linguistics
D. of Philol., Prof. **Mammadov Nasiragha**
D. of Philol., Prof. **Veysalli Fakhraddin**
D. of Philol., Prof. **Jahanghirov Fikrat**
D. of Philol., Prof. **Nurgali Kadisha *(Kazakhstan*)**
D. of Philol., Prof. **Gurbanova Fidan**
D. of Philol., Prof. **Jafarov Mikayil**
PhD in Philol., Assoc. Prof. **Babashova Khalida**
PhD in Philol. **Korotishev Aleksandr (*Russia*)**

History and criticism of literature
D. of Philol., Prof. **Gojayev Mammad**
D. of Philol., Prof. **Novruzov Rafiq**
D. of Philol., Prof. **Khalilli Shahin**
D. of Philol., Prof. **Geybullayeva Rahila**
D. of Philol., Prof. **Rasulov Rustam**
D. of Philol., Prof. **Travnikov Sergey (*Russia*)**
PhD in Philol., Assoc. Prof. **Aghamirzayev Alish**
Phd in Philol., Assoc. Prof. **Jarchiyeva Ilaha**
PhD in Philol., Assoc. Prof. **Hajiyev Kamran**

Pedagogics
D. of Pedag., Prof. **Abbasov Akif**
D. of Pedag., Prof. **Taghiyev Shahin**
D. of Pedag., Prof. **Khalilov Vidadi**
D. of Pedag., Prof. **Jabrayilov Intigam**
D. of Pedag., Prof. **Guliyeva Ellada**
PhD in Pedag., Assoc. Prof. **Samadov Oktay**
PhD in Pedag., Assoc. Prof. **Taghiyeva Ellada**

Social science
D. of Hist. S., Prof., Cor.-Mem. of NASA **Gasimli Musa**
D. of Hist. S., Prof. **Ibrahimli Fazail**
D. of Philos. in Philos. **Mammadov Jahanghir**
D. of Hist. S., Prof. **Amrahov Mais**
D. of Philos. in Philos. **Aliyev Mammad**
D. of Hist. S., Prof. **Mammadov Habil**
PhD in Hist. S., Assoc. Prof. **Ahmad Asgar**
PhD in Pol. S. **Abdullayev Natig**

Managing editor: D. of Philol., Prof. **Jafarov Telman**

The actual problems of study of humanities. Interuniversity collection of scientific articles. **№ 2/2023. – Baku, Mutarjim, 2023, p. 420**

The collection is included in the list recommended by the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan, scientific journals in which the main scientific results of dissertations should be published.

© Authors of the articles, 2023
© "The actual problems of study of humanities" edition of the collection, 2023

G.H.ADİLOVA
baş müəllim, doktorant
e-mail: gulagh2@.com

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 33)

BAYATILARDA YANAŞMA-UZLAŞMA ƏLAQƏSİNDƏ OLAN İSMİ BİRLƏŞMƏLƏRİN POETİK İMKANLARI

Açar sözlər: *bayatı, poetik nitq, bayatı sintaksisi, yanaşma əlaqəsi, uzlaşma əlaqəsi, qarşılıqlı tabelilik əlaqəsi*
Ключевые слова: *баяты, поэтическая речь, синтаксис баяты, подчинение, согласование, отношение взаимоподчинения*
Key words: *bayaty, poetic speech, syntax of bayaty, adjoining relation, agreement relation, relation of mutual subordination*

Məqalədə Azərbaycan xalqının müəyyən tarixi dövrlərdə yaratmış olduğu bayatı mətnlərində forma rəngarəngliyini, məzmun genişliyini, fikrin obrazlı ifadəsindəki mühüm rolunu üzə çıxarmağa imkan verən qarşılıqlı tabelilik əlaqəsində olan yanaşma və uzlaşma əlaqəli ismi birləşmələrin poetik imkanlarından bəhs edilir.

Bayatılarda məlum dil faktlarına əsaslanaraq, bu əlaqənin daha qədim dövrlərdə formalaşmış olduğu müəyyən edilir. Məlumdur ki, söz birləşmələri bayatı mətnlərinin əsasını təşkil edir. Poetik nitqdə güclü ekspressiya yaratmağa xidmət edən söz birləşmələri bayatıların poetik sintaksisinin təhlili zamanı xüsusi nəzərə çarpan sintaktik vahiddir. Aparılan araşdırmada birləşmələrin bayatıların folklor janrı kimi formalaşmasındakı rolu, həmçinin, kontekstdəki məna çalarlığının, ifadə tarazlılığının cümlənin poetik sintaksisinin müəyyən edilməsindəki əhəmiyyəti göstərilir.

Qarşılıqlı tabelilik əlaqəsində olan birləşmələrin dastanların və sönrakı mənbələrin dilində kifayət qədər işləndiyini, beləliklə də, bu cür əlaqələrin daha qədim dövrlərdə formalaşmış birləşmə modeli olduğunu Q.Kazımov "Azərbaycan dilinin tarixi sintaksisi" adlı tədqiqat əsərində geniş şərh edir [10, s.50]. İlkin poeziya örnəkləri olduğu üçün bayatıların dilində də bu cür birləşmələr yetərincədir.

Şifahi ədəbi dil örnəklərində, o cümlədən bayatı kontekstində qarşılıqlı tabelilik əlaqəsində olan birləşmələrin sıx-sıx işlənməsi məlum dil faktları əsasında ümumxalq dilinin sintaktik qatının poetik mənzərəsini yaradan vasitə kimi diqqət çəkir. Aşağıda verilən bayatı nümunəsinə nəzər salaq:

Yaylığın **ucu** yaşıl,
Dindirmə, dilim çaşır.
Sabah **bayram günüdür,**
Qolun boynumdan aşır [7, s.217].

Bayatının birinci hissəsində *yaylığın ucu* birləşməsi uzlaşma - idarə əlaqəsi ilə, ikinci hissədəki **bayram günüdür** birləşməsi yanaşma və uzlaşma əlaqəsi ilə bir-biri ilə qarşılıqlı tabelilik əlaqəsi yaradıblar.

Q.Kazımov qarşılıqlı tabelilik əlaqəsində olan ismi birləşmələrin iki tipi olduğunu göstərir [9, s.49]. Onlardan birincisi yanaşma və uzlaşma əlaqəli ismi birləşmələrdir.Qarşılıqlı tabelilik əlaqəsində olan ismi birləşmələrin bu tipinin birinci tərəfi qeyri-müəyyən yiyəlik hallı,

ikinci tərəfi isə üçüncü şəxs mənsubiyyət şəkilçili sözlərlə ifadə olunur. Birinci tərəfi ikinci tərəfə yanaşma üsulu ilə, ikinci tərəf də biirinci tərəfə uzlaşma üsulu ilə tabe olur:

Qızım **qızlar ağası**,
Başında var tuması.
Qızıma elçi gəlibdir,
Xanlar, bəylər ağası [7, s.226].

Mətndə yanaşma və uzlaşma əlaqəli **qızlar ağası, xanlar, bəylər ağası** ismi birləşmələrinin istifadə etdiyi mənalarda ümumilik, qeyri-müəyyənlik var. Sonuncu misrada **xanlar – bəylər ağası** birləşməsinin qeyri-müəyyən yiyəlik halda olan birinci tərəfinin cəm şəkilçili qoşa sözlü olması birləşmənin həm özünə, həm də bayatıya forma gözəlləyi ilə yanaşı və məzmun genişliyi qazandırır. Göz önündə ananın gözəlliyini öydüyü qızına gələn elçinin sıradan bir bəy, bir xan deyil, daha cah-cəlallı bir insanın surəti canlanır.

Bayatı kontekstində yanaşma-uzlaşma əlaqəli birləşmələrin tərəfləri ümumi isimlərlə və isimləşmiş digər nitq hissələri ilə ifadə olunur*:*

Daşlar daş altda qaldı,
Qələm qaş altda qaldı.
Heyif **ellər gözəli**
Torpaq, daş altda qaldı [4, s.129].
Payızın əzəlidir,
Yarpağın xəzəlidir,
Coraba naxış vuran
Gözəllər gözəlidir [4, s.163].

Göründüyü kimi, sadə konstruksiyalarda **ellər gözəli, gözəllər gözəli** birləşmələri tərəfləri qarşılıqlı tabelilik əlaqəsində olan yanaşma – uzlaşma əlaqəli birləşmədir. İkinci bayatıda **gözəllər-gözəli** birləşməsinin tərəflərinin yaratdığı melodik ritm, səslərin ahəngi bayatıda ekspressivliyi artırır.

Bayatılarda müşahidə olunan elə yanaşma-üzlaşma əlaqəli ismi birləşmələr də var ki, xalqın deyimində – təbii danışıq dilində sabitləşən, kök salan ifadə tərzi kimi özünü göstərir:

Əzizinəm qara mən,
Oxumuşam qara mən.
Yar üzünə baxmaqdan,
Oldum **üzü qara** mən [7, s.223].

Bayatının iki misra bir cümlə modelində qurulmuş ikinci hissəsində əvvəl yanaşma – uzlaşma əlaqəsində olan **yar üzünə** birləşməsi işlənib, sonra yanaşma əlaqəli **qara üz** birləşməsi **üzü qara** uzlaşma əlaqəli birləşmə şəklində verilib. Nümunədən göründüyü kimi, bayatıda söz birləşmələrinin işlənmə məqamı, sözlərin bir-birinə bağlılığı, tərəflərinin növbələşməsi, inversiyası və s. hadisələr kontekstdə məzmun dolğunluğu ilə yanaşı axıcılıq – melodik ritm yaradıb. Bu hadisələr poetik nitqin ekspressivliyini artırır.

Poetik nitqdə ifadəliliyə nail olmaq təkcə obrazlı sözlər seçməklə mümkün deyil, həm də seçilmiş sözlərin məharətlə birləşdirilməsi tələb olunur. ...sözün mənası yalnız cümlənin qurulmasında başqa sözlərlə birləşdikdə başa düşülür" [5].

Bu gün **pazar ertəsi**
Yandı **yürək ortası**
Əyil bir kez öpəyim
Ayrılıqdır ötəsi [7, s.213].

Kontekstdə sadə konstruksiyalarda verilən **bazar ertəsi, yürək ortası** birləşmələri yanaşma–uzlaşma əlaqəli ismi birləşmələrdir. **Yürək ortası** birləşməsi sadə cümlə mödelində verilən **yandı yürək ortası** frazeoloji birləşmənin tərkibində verilib. Bu deyim el arasında **"ürəyimin başı kabab oldu", "bağrımın başı yandı***"* və ya digər bir bayatıda olduğu kimi:

Qızıl üzük kök qaşı,
Yandı yürəgimin başı [2, s.63]
şəklində işlədilən, kədər, hüzn ifadə edən emotiv duyğuları əks etdirir.

XVI əsrdə yaşayıb – yaradan M.Əmaninin bayatılarında yanaşma və uzlaşma əlaqəli birləşmələr orijinallığı ilə diqqəti cəlb edir:

Yüzün **göz rövşənidür**,
Zülfün **can cövşənidür.**
Xəyalın ilən könlüm
Məhəbbət kövşənidür [6, s.209].

Bayatının birinci hissəsi (sadə konstruksiyalarda) bir misra bir cümlə modelində, ikinci hissəsi isə iki misra bir cümlə modelindədir. Sadə konstruksiyalardan ibarət cümlələrin hər birində qarşılıqlı tabelilik əlaqəsində olan ismi birləşmə var.Yarandığı dövrün dil faktlarını qoruyub saxlayan bayatıda **göz rövşəni, can cövşəni, məhəbbət kövşəni** yanaşma və uzlaşma əlaqəli birləşmələrdir və cümlələrin ismi xəbəri vəzifəsində işlənib.

Professor Q.Kazımov "Kitabi-Dədə Qorqud" da və digər orta əsrlərə aid ədəbi dil nümunələrində birinci tərəfində birinci və ikinci şəxslərə aid mənsubiyyət şəkilçisi olan yanaşma və uzlaşma əlaqəli birləşmələrn olduğunu bildirir [9, s.52-53]. Xalqın çoxəsrlik yaddaşından, dilindən pərvazlanan bayatılarda da birinci tərəfi bu şəkildə olan birləşmələrə rast gəlinir:

Könlüm quşu *dondadı,*
Uçub qona qondadı.
Ay yalnız yatan oğlan,
Mənim gözüm səndədi [7, s.223].

Göründüyü kimi, nümunədəki *könlüm quşu* birləşməsinin birinci tərəfi birinci şəxs mənsubiyyət şəkilçili, ikinci tərəf də üçüncü şəxs mənsubiyyət şəkilçilidir. Adətən bayatının ilk iki misrası sonrakı misralarda ifadə olunacaq əsas fikrin çatdırılması üçün zəmin yaradır. Ancaq yuxarıda verilən bayatının hər iki hissəsi qarşılıqlı şəkildə mətnin ümumi məzmununu açmağa xidmət edir. İlk hissə birbaşa bayatının ümumi məzmununda əks olunan hadisənin özüdür. Kontekstdə üç obraz canlandırılıb: lirik qəhrəman, ruh və qəhrəmanın aşiq olduğu yalnız gəzən oğlan. Birinci misrada lirik qəhrəmanın ruhu quş donu geyinərək eşqin göylərində pərvaz edir. İkinci misrada ruh həmdəminin məkanına qonmaq üzrədir. Üçüncü misra ritorik xitabdır. Dördüncü misrada lirik qəhrəman sevdiyi gəncə eşq elan edir.

Verilən bayatıda forma gözəlliyi, məzmun genişliyi, birləşmələrin işlənmə məqamları, münasibliyi, ifadələrin obrazlılığı kimi poetik yükü iyirmi səkkiz hecaya sığdıraraq dörd misrada makromətn yaratmaq bacarığı təbii xalq dilinin heç bir əndazəyə sığmyan sənətkarlıq xüsusiyyətini üzə çıxarır.

Bayatı mətnlərində misradaxili cümlələri təşkil edən sözlər arasında, söz birləşmələrinin tərəfləri arasında məna və qrammatik əlaqələrin olduğu kimi, bənd daxilində hər misranın özünəməxsus ahəngi, sözlərdəki səslərin bir-birini izləməsi, ritmi, sözlərin bilərəkdən təkrar edilməsi xalq dilinin ahəngdarlığını, ekspressivliyini əks etdirir:

Bağında üzüm suyu
Yeməli üzüm suyu,
Yada qardaş deməkdən,
Qalmadı **üzüm suyu** [3, s.40].

Kontekstdə üç yanaşma-uzlaşma əlaqəli ismi birləşmə işlənib. Son misradakı **üzüm suyu** birləşməsinin birinci tərəfi **könlüm quşu** birləşməsində olduğu kimi, birinci şəxs mənsubiyyət şəkilçili, ikinci tərəfi də üçüncü şəxs mənsubiyyət şəkilçilidir. İstər cümlə daxilindəki sözlərin, istərsə də, birləşmələrin tərəflərini təşkil edən sözlərin hər birində ahəngdarlıq, melodik ritm, axıcılıq gözlənilir.

Yanaşma-uzlaşma əlaqəli birləşmələr cümlənin müxtəlif üzvləri yerində işlənir. Yuxarıdakı hər iki bayatıdaki birləşmələr mübtəda vəzifəsində işlənib.

Ədəbiyyat

1. Azərbaycan bayatıları.Tərtib edənlər: Abdullayev B., Babazadə Q., Məmmədli E. – Bakı: XXI-Yeni Nəşrlər Evi, 2004. – 260 s.
2. Bayatılar və Manilər.Toplayanlar Abdulla.Ş., Əfəndizadə Ş., Axundzadə M.M. – Bakı: Səda, –2005.
3. Bayatılar. Tərtib edəni: Məmmədova A. – Bakı: Elm nəşriyyatı, 1977. – 328 s.
4. Bayatılar. Tərtib edəni: Vəliyev V. – Bakı: 1985, – 112 s.
5. Bobayev T. Adabiyotshunoslik asoslari.T. O'zbekiston. 2002.
6. Əmani Məhəmməd (2005).Əsərləri. – Bakı: Şərq-Qərb, – 224 s.
7. Əmin A. (2007). Türk xalqları ədəbiyyatında mani növü və Azərbaycan bayatılarının xüsusiyyətləri. Seçilmiş əsərləri. – Bakı: Şərq-qərb, – 290 s.
8. Karimova Ş. Poetik sintaksis haqıda. "Fırdavs – snon" nashriyyotı, Ttoshkent – 2020. 251-253.
9. Kazımov Q. Azərbaycan dilinin tarixi sintaksisi. – Bakı: Elm, 2019, – 608 s.
10. Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis. – Bakı: 2004, – 496 s.

Г.Г.Адилова

Поэтические возможности существительных, связанных с соглосованием в баяты

Резюме

В статье говорится о поэтических возможностях именных сочетаний, связанных с подчинением, которые позволяют выявить разнообразие формы, широту содержания, важную роль в образном выражении мысли в приставших текстах, созданных азербайджанским народом в определенные исторические периоды.

На основании известных языковых фактов в баяты определяется, что это родство сформировалось в более древние времена.Известно, что словосочетания являются основой текстов баяты. Словосочетания, служащие для создания сильной выразительности в поэтической речи, представляют собой синтаксическую единицу, особенно заметную при анализе поэтического синтаксиса баяты. В статье взаимоотношение сторон этих сложных слов друг к другу, их структура вовлечены в исследование с лингвопоэтической стороны. В проведенном исследовании показана роль сочетаний в формировании баяты как фольклорного жанра, а также значение нюанса смысла в контексте и баланса экспрессии в определении поэтического синтаксиса предложения.

G.H.Adilova

Poetic opportunities of noun phrases in adjoining-agreements relations in bayaties

Summary

The article deals with the poetic opportunities of noun phrases related to adjoining and agreement relations which allow us to reveal the diversity of form, the breadth of content and the important role in the figurative expression of thought in the texts of bayatiescreated by the Azerbaijani people in certain historical periods.

Based on known linguistic facts in bayaties, it is determined that this relationship was formed in more ancient times. It is known that word combinations form the basis of the texts of bayaties. Word combinations serving to create strong expression in poetic speech are syntactic units especially noticeable during the analysis of the poetic syntax of bayaties. The mutual relation of the parties of these phrases to each other, their structure is involved in the research from the linguo-poetic aspect in the article. The role of combinations in the formation of bayaties as a folklore genre, as well as the importance of the nuance of meaning in the context and the balance of expression in determining the poetic syntax of the sentence are shown in the conducted study.

Rəyçi: filol.e.d., prof. Q.Ş.Kazımov

Redaksiyaya daxil olub: 17.04.2023

C.R.AĞAMALIYEVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

DİALOJİ DİSKURSDA ELLİPSİSİN İŞLƏNMƏSİ

Açar sözlər: *ellipsis, dialoji diskurs, cümlə, mətn, praqmatika, məna*
Ключевые слова: *эллипсис, диалогический дискурс, предложение, текст, прагматика, смысл*
Key words: *ellipsis, dialogical discourse, sentence, text, pragmatics, meaning*

Cümlə daxilində, yaxud cümlədən böyük dil vahidlərinin tərkibində qənaətetmə prinsipləri ellipsis vasitəsilə yerinə yetirilir. Qənaətetmə prinsipləri dedikdə cümlədə, diskursda (və yaxud mətndə) hər hansı bir sözün, cümlə üzvünün buraxılması nəzərdə tutulur. Lakin cümlə üzvünün cümlədə, yaxud diskursda (mətndə) buraxılması, ellipsisin baş verməsi mənfi hal kimi qəbul edilməməlidir, yəni normal qəbul edilməlidir. Bu vəziyyət, yəni ellipsisləşmə müxtəlif səbəblərdən ola bilər və danışanın niyyətindən asılı olaraq asanlıqla bərpa edilə bilir. Ellipsisin bərpası buraxılmış sözün cümlə quruluşundakı mövqeyi vasitəsilə reallaşa bilər. Bu zaman situasiya və kontekst mühüm rol oynayır. Diskursda, xüsusilə dialoji diskursda işlədilən ellipsislər cümlə quruluşu, kontekst və situasiya vasitəsilə bərpa oluna bilər. Ellipsisin işlədildiyi diskursun öyrənilməsi xüsusi diqqət tələb edir. Ümumilikdə, diskurs ellipsislərin işlənməsi baxımından zəngin mənbə hesab olunur.

B.M.Qasparov yazır: "*diskurs dildə insan həyatının elə bir mərkəzi momentidir ki, dildən istifadə edilən hər bir akt (böyük bir əsər və ya dialoq replikası) dayanmadan daim axınla davam edən insan təcrübəsinin ayrılmaz hissəsi sayılır. Bu mənada dil özündə elə bir unikal xüsusiyyətləri ehtiva edir ki, bu xüsusiyyətlər onun nə üçün və necə yarandığını əks etdirir*" [1, s.11]. Dilin yaranmasında aparıcı amillər sırasında o, aşağıdakıları sadalayır: "*1) danışanın kommunikativ niyyəti; 2) danışan və dinləyən arasındakı qarşılıqlı münasibət; 3) bütün mümkün (əsaslı və təsadüfi) amillər; 4) hər hansı bir konkret mühitin və mesajın birbaşa və ya dolayı yolla yönəldildiyi konkret şəxslərin ümumi və ideoloji xüsusiyyətləri və üslubi mühit; 5) məlumatın janr və üslub xüsusiyyətləri və ünsiyyət şəraiti və s.*" [1, s.10].

E.V.Kalaçeva isə, diskurs haqqında bu fikirlərini paylaşır: "*Diskurs, müxtəlif kommunikativ sahələrdə sosial təcrübənin dillə ifadəsidir. Dilin nizamlı və sistemləşdirilmiş formada xüsusi bir şəkildə istifadəsi xüsusi – sosial-ideoloji, mədəni və tarixən formalaşmış düşüncə tərzinə, mentalitetə söykənir*" [2, s.22].

"İzahlı tərcüməşünaslıq terminləri lüğəti"ndə diskursun izahı bu şəkildə verilir: "*Diskurs – discourse, (lat. dis-curere – ora-bura, müxtəlif tərəflərə qaçmaq) fransız dilində ənənəvi olaraq "mühakimə", "fikir yürütmə"* mənalarında işlədilib. Z.Hərrisə görə *"diskurs verbal kommunikasiyada mətnin, qrammatik formaların bir-birinin dalınca sıralanmış frazaların ardıcıllığıdır*" [3, s.132].

Praqmatik xüsusiyyətlər bu tədqiqat işində ön planda dayandığından qeyd edilənlərin ellipsislərə münasibətdə nəzərdən keçirilməsi, araşdırılan və təhlil edilən dil hadisəsinə kompleks yanaşma baxımından xüsusilə əhəmiyyətlidir. Ellipsislərin praqmatik xüsusiyyətlərinin diskurs fonunda araşdırılmasını onunla əsaslandıra bilərik ki, fikrimizcə, mətndə ellipsislərin praqmatik xüsusiyyətləri diskurs qədər geniş açılmır. Bu tədqiqat çərçivəsində biz diskurs dedikdə, onun mətndən əsaslı şəkildə fərqləndirilməsinin tərəfdarıyıq. Bu baxımdan "diskurs" anlayışının bir qədər izahının verilməsinin lazımlı olduğunu düşünürük. Belə ki, "diskurs" termininin müasir dilçilikdə geniş istifadə edilməsinə baxmayaraq, onun fərqli tərif və izahlarına rast gəlmək olur. Bəziləri "diskurs"u daha geniş, bəziləri isə dar mənada təqdim edirlər. T.A. van Deyk monoqrafiyasında diskursu "*özündə mətndən əlavə, həm də mətnin dərk edilməsi üçün vacib olan ekstra-*

linqvistik amillər (dünyagörüşü, şəxsi fikir, adresantın məqsədi, quruluş) ehtiva edən mürəkkəb kommunikativ hadisə" [4, s.8] kimi şərh edir.

V.Z.Demyankov diskursu *"mətnin birdən artıq cümlədən təşkil olunan təsadüfi fraqmenti və əsas konsept ətrafında dövr edən və ümumi konsept formalaşdıran cümlənin (bu cümlədə hadisə iştirakçıları, obyektlər, hadisənin baş vermə şəraiti, zamanı və s. öz əksini tapır) müstəqil bir hissəsi"* kimi izah edir. Bu izahında V.Z.Demyankov diskursun intensional strukturunu əks etdirir, belə ki, onun fikrinə görə, diskursda daha çox danışanın daxili aləmi və şəxsi keyfiyyətləri önə çəkilir. Bununla yanaşı, V.Z.Demyankovun fikrincə, diskurs, həm də məntiqi struktura malikdir: "*Diskursun başlanğıc quruluşu birləşmə, ayrılma və s.-in məntiqi münasibətləri ilə əlaqəli olan elementar propozisiyalar ardıcıllığı formasına malikdir. Diskursun elementləri: təqdim olunan hadisələr, onların iştirakçıları, icraedici məlumatlar və "hadisə olmayan" hallar, yəni, hadisələri müşayiət edən hallar, hadisələri izah edən arxa plan, hadisə iştirakçılarının qiymətləndirilməsi, diskursu hadisələrlə əlaqələndirən məlumatlardır*" [5, s.7].

A.Məmmədovun fikrincə, *"diskursun tədqiqi birdən çox cümlədən ibarət olan, lakin bəzi mövzular sistemi ilə əlaqəli dil vahidlərinin tədqiqidir. Diskursun tədqiqi bəzən daha dar mənada adresatın ifadə etdiyi cümlələrin əlaqəli ardıcıllığının tədqiqi kimi başa düşülür*" [6, s.12]. Qeyd edilən fikirlərdən göründüyü kimi, diskursun ən münasib əlaməti kimi onun anlaşıqlı olmasını təmin edən mətni varlığıdır. "Diskurs" və "mətn" anlayışlarının əlaqəsini təhlil edən V.Q.Borbotko qeyd edir ki, mətn diskursla müqayisədə daha ümumi anlayışdır, çünki mətn müəyyən ardıcıllıqda düzülmüş element tərkibinə malikdir. Alimin fikrincə, "*diskurs da mətndir, lakin dilin kommunikativ vahidlərində – bir-biri ilə qırılmaz semantik əlaqədə olan cümlələr və cümlələrin daha böyük vahidlər şəklində birləşməsindən ibarətdir ki, bunlar arasındakı semantik bağlılıq onu vahid bir tam kimi qavramağa əsas verir*" [7, s.78]. Bununla yanaşı, V.Q.Borbotko diskursu "*dilin daha yüksək səviyyəli kommunikativ vahidi*" [7, s.104] olması statusunu da inkar etmir.

Təbii ki, müasir dilçilik sahəsində aparılan əksər tədqiqatlarda "diskurs" anlayışı haqqında çoxsaylı fikir və mülahizələrə, şərhlərə rast gəlmək olur. Biz "diskurs" haqqında T.A. van Deykin fikrini dəstəkləyirik. Belə ki, o, haqlı olaraq qeyd edir ki, diskurs mətndən əlavə, mürəkkəb kommunikativ hadisədir.

Praqmalinqvistika dialoqu bir-birini ardıcıllıqla əvəzləyən nitq gedişatlarının məcmusu kimi nəzərdən keçirir. Bu cür yanaşma insanlar tərəfindən dilin ictimai fəaliyyət və xüsusi bir müəyyən qanunauyğunluqlar sisteminə əsaslanan ünsiyyət şəraitində qarşılıqlı təsir vasitəsi kimi istifadə edilməsini araşdıran və dilçiliyin xüsusi sahəsi olan praqmalinqvistikanın tərifinə tamamilə uyğundur. Dialoji diskurs nəzəriyyəsi çərçivəsində praqmalinqvistika elminin əsas vəzifələrindən biri də şəxsiyyətlərarası ünsiyyətin qanunauyğunluqlarını müəyyənləşdirməkdir. Bununla bağlı olaraq, ünsiyyət iştirakçıları arasındakı qarşılıqlı münasibəti müəyyən edən, eləcə də ünsiyyəti idarə edən sosial norma və konvensiyaları təyin edən ekstralinqvistik amillər (məqsəd, motiv, maraq, gözlənti) sırasını daha geniş və əhatəli şəkildə götürmək lazım gəlir. Bu, nəinki nitq vasitəsilə ünsiyyət zamanı dil strukturunda, dildaxili sistem əlaqələrində qanunauyğunluqların müəyyən edilməsinə şərait yaradır, həm də daha dərinə gedərək ünsiyyət prosesinin əsasında dayanan idrak və sosial-psixoloji qanunauyğunluqları aşkar etməyə imkan verir.

"*Dialoji diskurs yüksək kommunikativ, praqmatik və ekspressiv potensiala malik olduqca mürəkkəb və çoxtərəfli hadisədir*" [8, s.70]. Dialoji diskurs dedikdə, biz iki və daha artıq fərdin elə bir ünsiyyət mübadiləsini nəzərdə tuturuq ki, buraya nitq yaradıcılığı ilə yanaşı, həm də ötürülən məlumatın adekvat şəkildə dərk edilməsi üçün müəyyən ekstralinqvistik əlamətlər toplusu da daxil edilmiş olsun.

Dialoji nitqdə ellipsislərin fərqli cəhətlərdən tədqiq edilməsi ilə bağlı çoxsaylı tədqiqat işləri mövcuddur [9; 10]. Bu elmi araşdırmalarda ellipsisin təsvir edilməsində münasib olan forma və

məzmun kateqoriyası sintaktik, semantik və praqmatik cəhətdən işıqlandırılmışdır. İngilis və Azərbaycan dillərinin materialları bir daha sübut edir ki, dialoq ikitərəfli (bəzən çoxtərəfli) ünsiyyət aktıdır və bu ünsiyyət aktı zamanı tərəflər bir-birinə nəzərən fərqli mövqelər tutur. Birinci tərəf, yəni adresant (danışan) məlumatı ötürən, ikinci tərəf isə bu məlumatı qəbul edəndir.

İ.Abbasov yazır: "*Hər yeni söyləm əvvəl gələn diskursun və praqmatik kontekstin əsasında qurulmuş konfiqurasiyaya əsaslanır və öz növbəsində, ona (konfiqurasiyaya) əlavə olunması tələb edilən dəyişikliklər haqqında informasiya verir*" [11, s.239]. T.N.Kolokolsevaya görə, "*dialoji diskurs həmişə replikalardan ibarət olur və bu replikalar arasındakı sərhəd həmsöhbətlərdən birinin nitqinin bitməsi, digərininkinin isə başlanmasının göstəricisidir*" [12, s.31]. Dialoji vahidlərin təşkilinin təhlili belə bir nəticəyə gəlməyə əsas verir ki, dialoq mətn vasitəsilə ünsiyyət iştirakçılarının intensiyalarının bir-birilə əlaqəsini əks etdirir. Bu kimi məsələlər müasir dilçilikdə kifayət qədər işıqlandırılmışdır. Dialoji nitq adətən ikitərəfli olur və onun ikitərəfli olması iki fərdin olmasını tələb edir: adresat və adresant. Məqsədinə nail olmaq üçün danışan dil sisteminin element və vasitələrindən optimal şəkildə istifadə etməyi bacarmalıdır. Yəni, dil vahidlərindən təkcə onların semantik tutumunun nitq situasiyası ilə uyğunluğuna əsaslanmamalı, həm də bu vasitələrin nə kimi kommunikativ funksiyaya malik olmasına da diqqət yetirməlidir [14, s.106].

E.A.Gelpeyin müşahidələrinə əsasən, dialoji vahid çərçivəsində replikaların praqmatik əlaqələnməsinin aşağıdakı modelləri qeyd edilə bilər [15, s.51]: 1) sual – cavab; İngilis dilində: "What – you?" "Yes – certainly" [16, s.1632]. (Tərcüməsi: *"Nə – sən?" "Hə – əlbəttə"*). Azərbaycan dilində: *"– Hara belə? – Bura, yaxına, uşaqların yanına"* [17, s.67]. 2) təklif – qərar; İngilis dilində: *"Coming with me?" – Sure."* [18, s.52]. (Tərcüməsi: *"Gəlirsən mənimlə?" – Əlbəttə"*). Azərbaycan dilində: *"– Bunu həll edə bilərsən? – İki günə!"* [19, s.53] 3) sorğu – təsdiq; İngilis dilində: *"And this girl that you love, is she a daughter of the Holy Church?" "No; she is a Protestant." "A heretic?" Arthur clasped his hands in great distress. "Yes, a heretic," he repeated*" [20, s.44]. (Tərcüməsi: *"Sevdiyin bu qız, Müqəddəs Kilsənin qızıdır? – Yox; o bir protestantdır"*. "Bidətçi? (dində olmayan şeyi dinə daxil edən, günahkar? – C.A.)" Artur əllərini sıxıntı içində sıxdı. "Bəli, bidətçi", – deyə təkrarladı). T.V.Titarenkonun fikrincə, "*sual replikası dialoji vahidin dərki istiqamətində üç əsas funksiya yerinə yetirir: 1) Ünsiyyətin yaranması üçün əsas funksiya daşıyır; 2) Ünsiyyət öncəsi situasiyanı formalaşdıraraq, ünsiyyət üçün başlanğıc mənbə yaradır; 3) Ünsiyyətin tema-rema özəyini aktuallaşdırır və onların bir-birini əvəzləməsi üçün şərait yaradır*" [21, s.46].

Dinləyən danışan qarşısında müəyyən dünyagörüşünə, fikrə malik olan fərd kimi dayanır və dialoqun bu tərəfi bütün ünsiyyət növlərində mövcuddur. Hətta, fiziki səviyyədə adresatın olmadığı nitq aktlarında danışan özlüyündə "adresat faktoru"nu işə salır, onu aktuallaşdırır. Buna görə də, danışan hər hansı bir nitq söylədikdə söylədiklərinin dinləyən tərəfindən necə qəbul ediləcəyini nəzərə alaraq, onun verəcəyi reaksiyanı xəyalən də olsa, fikrində canlandırır.

Ədəbiyyat

1. Гаспаров, Б.М. Язык, память, образ. Лингвистика языкового существования. – Москва: "Новое литературное обозрение", 1996. – 352 с.
2. Калачева, Е.В. Когнитивно-прагматическая специфика текста и дискурса // – Курган: Вестник Курганского государственного университета, 2018. № 1 (48), – с. 17-23.
3. Harris, S. Evasive action: How politicians respond to questions in political interviews // In P.Scannell (ed) Broadcast Talk./ S.Harris. – London: – 1991. – p.76-99.
4. Дейк, Т.А. Язык. Познание. Коммуникация / Т.А. ван Дейк. Пер. с англ. /– Москва: Прогресс, 1989. – 312 с.
5. Демьянков, В.З. Прагматические основы интерпретации высказывания // – Москва: Известия АН СССР, Серия лит. и языка, 1981. Т. 40, №4, – с.268-277.
6. Məmmədov, A.Y. Diskurs tədqiqi. Dərs vəsaiti. / A.Y.Məmmədov, M.M.Məmmədov. – Bakı: BDU nəşriyyatı, 2013. – 78 s.

7. Борботько, В.Г. Принципы формирования дискурса: От психолингвистики к лингвосинергетике/ В.Г.Борботько. – Москва: Просвещение, 1981. – 288 с.
8. Лазуткина, Е.М. Культура разговорной речи // – Москва: Культура русской речи: Уч. для вузов / Под ред. Л.К.Граудиной и Е.Н. Ширяева. 1998. – с.58-97.
9. Бутусова, А.С. Прагматический потенциал эллиптических предложений (на материале немецкого бытового диалога): / дисс. канд. филол. наук /. – Ростов-на-Дону, 2003. – 214 с.
10. Вардуль, И.Ф. Основы описательной лингвистики: синтаксис и супрасинтаксис / Ф.И.Вардуль. –Изд. 2-е, стер. – Москва: URSS, 2006. – 353 с.
11. Abbasov, İ. Mental məkanların koqnitiv statusu və konseptual inteqrasiya nəzəriyyəsi // – Bakı: Dilçilik institutunun əsərləri. 2018. № 1, – s. 234-258.
12. Колокольцева, Т.Н. Специфические коммуникативные единицы диалогической речи / Т.Н.Колокольцева. – Волгоград: Изд-во Волгоград, ун-та, – 2001. – 260 с.
13. Агапова, С.Г. Прагмалингвистический аспект английской диалогической речи: / дисс. докт. филол. наук. / – Ростов-на-Дону, 2003. – 235 с.
14. Матвеева, Г.Г. Скрытые грамматические значения и идентификация социального лица («портрета») говорящего: / автореферат дисс. докт. филол. наук / – Санкт-Петербург, 1993. – 32 с.
15. Гаспаров, Б.М. Язык, память, образ. Лингвистика языкового существования. /– Москва: «Новое литературное обозрение», 1996. – 352 с.
16. Twain, M. The complete works of Mark Twain / M.Twain. – London: Delphi Classics, 2013. – 10338 p.
17. Xəlil, Z. Cırtdanla Azmanın sərgüzəştləri. – Bakı: Gənclik, 1988. – 282 s.
18. English fairy tales. / Coll. by Joseph Jacobs; ill. by John D.Batten. – New York: Dover, 2009.–261 p.
19. Rəhman, S. Komediyalar / S.Rəhman. – Bakı: Azərnəşr, – 1967. – 525 s.
20. Voynich, E.L. The Gadfly / E.L.Voynich. – New York: International Book and Publishing Company, 1960. – 400 p.
21. Титаренко, Т.В. Коммуникативно-прагматические аспекты встречного вопроса в немецком языке: / дисс. канд. филол. наук / Кемерово, 2004. 177 с.

Д.Р.Агамалиева

Использование эллипсиса в диалогическом дискурсе

Резюме

В статье речь идет об использовании эллипсиса в диалогическом дискурсе. В нем говорится о важности использования эллипсиса в предложении. Упоминается, что принципы сохранения реализуются через эллипсис в предложении или некоторые другие языковые единицы, такие как дискурс (или текст). В статье также подчеркивается важность использования диалогического дискурса. Речь идет о том, что существует множество исследований по изучению эллипсиса в диалогическом дискурсе с разных сторон. Упоминается, что исследование употребления эллипсиса в диалогическом дискурсе освещено в статье также синтаксически, семантически и прагматически.

J.R.Agamaliyeva

The use of ellipsis in dialogical discourse

Summary

The article deals with the use of ellipsis in dialogical discourse. It states the importance of the use of ellipsis within a sentence. Saving principles are mentioned to be implemented through ellipsis within a sentence, or some other language units such as discourse (or text). The article also highlights the importance of the use of dialogical discourse. It touches upon the fact that there are numerous research works on the study of ellipsis in dialogical discourse from different aspects. The investigation of the use of ellipsis in dialogical discourse are mentioned to have been illuminated syntactically, semantically, and pragmatically in the article as well.

Rəyçi: filol.ü.f.d., dos. S.B.Mustafayeva

Redaksiyaya daxil olub: 12.05.2023

G.H.BABAYEVA
filologiya üzrə fəlsəfə doktoru, dosent
e-mail: gunasha79@mail.ru

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 33)

DİLÇİLİKDƏ SEMİOTİKA VƏ PRAQMATİZM MÜNASİBƏTLƏRİ

Açar sözlər: *dilçilik, paradiqma, koqnitiv, semiotika, dil, praqmatika, sintaksis*
Ключевые слова: *лингвистика, парадигма, познание, семиотика, язык, прагматика, синтаксис*
Key words: *linguistics, paradigm, cognition, semiotics, language, pragmatics, syntax*

60-cı illərdən başlayaraq dilçiliyin tədqiqində əsaslı dəyişiklik baş verdi. Bu zamana qədər abstrakt işarə sistemləri ilə maraqlanan dilçilik indi insan ünsiyyətini, yəni linqvistik ünsiyyət vəziyyətlərində baş verənləri araşdırmağa başladı. Dilin verilmiş kontekstdə necə istifadə olunduğunu və dildən istifadə prinsiplərini araşdıran bu yeni sahə praqmatika adlanır [2, s.27]. Praqmatika "kommunikativ situasiyada danışanların işarələrdən istifadəsini və bu aktla müşayiət olunan müxtəlif hadisələri (motivasiya, qarşılıqlı təsir, reaksiya və s.) öyrənən sahə" kimi müəyyən edilir.

Dili mənadan kənarlaşdırmaqla qiymətləndirmək və təhlil etmək olmaz. Bu, bizə göstərir ki, semiotika mütləq məna və onu tədqiq edən semantikanı ehtiva edir. Semiologiya işarələr və onları şərh edənlər arasındakı əlaqəni araşdıran praqmatika ilə qarşılıqlı əlaqədə olur. Kontekstdə dilin istifadəsini izah etməyə çalışan praqmatika, xüsusilə povest analizində semiotikaya töhfə verir. İşarələr arasında formal və struktur əlaqələri araşdıran sintaksis cümlə səviyyəsində semiotik təhlilə öz töhfəsini verir.

İşarənin praqmatik funksiyası semiopraqmatik metodun müəyyənedici elementidir. Bununla belə, məqsəd əlaməti özündə (və ya kateqoriyalarını) müəyyən etmək deyil, əlaməti hərəkətdə (konkretin anqlo-sakson mənasında aktuallaşmasında) və kontekstində müəyyən etməkdir. Soule həmçinin Karlo Ginzburqa istinad edir, onun üçün indeks paradiqması semiotikaya əsaslanır.

Bu çoxşaxəli ünsiyyət əlaqələrini araşdıran praqmatikanın bütün insan elmləri ilə əlaqəsi var. Onun kökləri dilçilikdən çox-çox uzaqlara gedib çıxır. Praqmatikanın əlaqəli sahələrini aşağıdakı kimi sıralamaq olar:

– dil fəlsəfəsi üzrə müzakirələr (Vitgenşteyn);
– nitq-hərəkət nəzəriyyəsi (Austin və Searl);
– sosiolinqvistika və qarşılıqlı əlaqə tədqiqatları;
– diskurs təhlilləri.

Bu sahələrin ortaq cəhətləri insanların ünsiyyətinin sirlərini həll etməyi hədəfləmələridir. Müxtəlif dövrlərdə meydana çıxan və fərqli perspektivlərlə işləyən bu sahələrin praqmatikanın yuxarı anlayışında birləşməyə başladığı görünür. Məsələn, demək olar ki, indi praqmatika "nitq-fəaliyyət nəzəriyyəsi"nin yerini tutur [2, s.30].

Praqmatika kommunikativ hərəkatdır. Struktur xüsusiyyətlərini araşdıran bu anlayış, ünsiyyət mühitinin danışıq dili və digər şərtlərindən çox yazı dilini araşdırır. Bununla belə, praqmatika şifahi dildən istifadə ilə də məşğul olur və yalnız strukturları araşdırmağın kifayət etməyəcəyini, situasiya və kontekst kimi qeyri-cümlə faktorlarının birlikdə nəzərə alınması lazım olduğunu müdafiə edir. Düzgün və məqsədəuyğun istifadə həm də ünsiyyət mühitinin linqvistik olmayan qaydalarını bilmək tələb edir. Bu biliklərə ünsiyyət bacarığı deyilir. Ünsiyyət qabiliyyəti qrammatik, sosioloji, diskursiv və strateji bacarıqları əhatə edir və dilin danışıldığı cəmiyyətdə ortaq dəyərlərin mənbəyi olan mədəni biliklərdən ibarətdir [5, s.71].

Struktur dilçilikdə, ümumi qrammatikada, kütləvi kommunikasiya semiotikasında yaranan məyusluqdan sonra praqmatizm, frazeologiya və semantika tədqiqatlarından kənara çıxan bir elm sahəsi hesab olunurdu. Onun mənşəyi və inkişafı polimorfikdir. Buna görə də, inteqrasiya olunmuş təqdimatı həyata keçirmək çox çətindir. Bunu analitik fəlsəfə tədqiqatlarında (xüsusilə Karnap, Frege və Rasseldə) görmək mümkündür. Burada riyazi təsvir, filosofların nitqlərində məişət dilinin öyrənilməsi, real danışanların dillə münasibətlərini anlamaq iradəsi şəklində nümunə verilmiş bir dil var. Psixoloji, sosioloji və ya pedaqoji tədqiqatlar ikinci dərəcəli mənbədir. Dilin sosial qeydi, müxtəlif sosial mühitlərin qeyri-bərabər linqvistik resursla təchiz edilməsi və mədəni hökmranlıq uğrunda mübarizə üçün istismar edilməsi Pyer Burdie və ya Basil Bernstein-də ideal dilçiliyə əsas maneələr kimi təqdim olunur.

Ünsiyyətdə dilin istifadəsini, xüsusən cümlələr və onların istifadə olunduğu kontekst və vəziyyətlər arasındakı əlaqələri araşdıran praqmatika aşağıdakı mövzularla məşğul olur [7, s.84]:

– danışanların nitq aktlarından necə istifadə etdiyi və başa düşməsi;

– ifadələrin şərhi;

– cümlə strukturlarının danışan və dinləyici arasındakı münasibətdən necə təsirləndiyi.

Ünsiyyət qabiliyyətinə bir tərəfdən dilin istifadəsinə dair biliklər, digər tərəfdən hər bir nitq topluluğu üçün ənənəvi olan qeyri-dil xüsusiyyətləri daxildir. Ünsiyyət bacarığının əldə edilməsi praqmatik baxımdan vacibdir. Çünki bu anlayışa görə, cümlə strukturları mücərrəd anlayışlardır. Onları müəyyən kontekstdə işlətdikdə cümlələr funksionallaşır və məna qazanır.

Praqmatik fəlsəfə gündəlik dili yalnız tədqiqatçı tərəfindən qurulan situasiya dəyişiklikləri vasitəsilə sorğulayır. Praqmatik semiotika, konteksti nəzərə alaraq məna parçasını (mətni, fotoşəkili, filmi) nəzərdən keçirir, lakin bu hissələrin daxili məna strukturunu açа bilmir. Yazı üslubları və hekayə strukturları dəyişməzdir və bu invariantların aşkarlanması ehtimalı var. Lakin, onlar əsərin mənası haqqında heç nə demirlər, yalnız formal aspektləri əks etdirirlər. Yanlış təsəvvür ondan ibarətdir ki, povest strukturları, məna, ictimai, mədəni və sosial davranış nümunələri bir-birinə bağlana bilər. Semiotika əsasən məzmunun təfsiri üçün nümunələr təşkil edir. Bu, yeganə yoxlama metodu deyil. Bu o deməkdir ki, onlar ictimaiyyətə öz "təsirini" və ya müəlliflərin "niyyətini" qeyd etmədən tərcümə aktını inhisara almağı istəyə bilərlər. Çünki semiotika həmişə tədqiqatçının ideoloji proqnozlarına əsaslanan bir üsuldur.

Bizim nəyi, kimə, hansı məqsədlə, hansı şəraitdə dediyimiz önəmlidir. Praqmatiklərə görə, yalnız bu məqamlar zehnimizdə müəyyən edildikdən sonra hərəkətə keçib demək istədiyimizi uyğun şəkildə ifadə edirik [4, s.54]. Məsələn, bir idarədə işləyən bir qadının əmək hüquqları gender bərabərliyi prinsipi baxımından pozulub və biz, həmin qadına öz hüquqlarını təmin etmək üçün məhkəməyə müraciət etməsini istəyirik. Beynimizdə qurduğumuz bu fikri ifadə edə biləcəyimiz bəzi ifadələri sadalayaq;

a) məhkəməyə müraciət edin!

b) məhkəməyə müraciət edə bilərsinizmi?

c) məhkəməyə müraciət edə bilmirsinizmi?

d) Bu idarədə gender bərabərliyi pozulur.

e) Məhkəmələr qadın hüquqlarına əhəmiyyət vermirlər?

Bu ifadələrinhərbiri ayrıca istifadə dəyərlərinə malikdir. Əlaqə quracağımız insanın vəziyyətindən və danışmaq niyyətimizdən asılı olaraq onlardan birini istifadə edir, fikrimizi hərəkətə çeviririk. Burada insanın sosial mövqeyi, psixi vəziyyəti, düşüncəsi, sosial təbəqəsi kimi bir çox xüsusiyyətlər təsirlidir. (d) və (e) nümunələri cümlələr və ifadələr arasındakı fərqi çox yaxşı göstərir. "*Bu idarədə gender bərabərliyi pozulur*" cümləsi kontekstdən asılı olmayaraq işləndikdə fərqli məna kəsb edir, lakin "*məhkəməyə müraciət edin*!" ifadəsinin məna və funksiyası buradakı kontekstdə yüklənir.Bu misalın oxşarı dillə qurulan bütün ünsiyyət vəziyyətlərində yaşanır. "*Ali təhsiliniz varmı?*" sualının fərqli kontekstlərdə fərqli istifadə dəyərləri ola bilər. Bu sual məlumatı almaq üçün verilən zaman "*bəli var*" kimi cavab, kontekstdən tamamilə kənardır və heç bir istifadə dəyəri yoxdur. Praqmatika cümlə strukturlarının kontekst-

siz rəftarını qeyri-kafi hesab edir və yalnız qrammatik dəqiqliyə görə işləməkdən imtina edir. Dilin ünsiyyət mühitində və müəyyən kontekstdə istifadəsi danışıq dilinə daha çox xasdır. Bu səbəbdən praqmatika şifahi ünsiyyəti və danışıq dilini də öyrənir. Bu yanaşma xarici dillərin tədrisində də öz əksini tapdı və yeni üfüqlər açdı.

İşarələnən və işarələyən anlayışlar arasında səbəb əlaqəsi bəzi hallarda fərqli ola bilər. Məsələn, təbiəti təqlid edən əks səslərlə əmələ gələn sözlər səbəb-nəticə sayıla bilər. Ancaq hər bir dilin təbiəti əks etdirmək üçün istifadə etdiyi sözlər yenə fərqlidir. Bundan əlavə, analogiya münasibətindən asılı olaraq iki ayrı varlıq eyni sözlərlə ifadə oluna bilər. Nişanlar belə yaradılır. Məsələn, ədalətin tərəzi ilə simvollaşdırılması adi haldır. Dəyişən şərtlərdən asılı olaraq bir cəmiyyətin istifadə etdiyi simvollar və ona verilən mənalar zamanla dəyişə bilər. Biz tez-tez dilimizdə və mədəniyyətimizdə hazır işarələrlə qarşılaşırıq və onların hərdən dəyişməsindən heç də məmnun deyilik.Biz elə düşünürük ki, sanki yeni işarə səhv idi, amma köhnə işarə düz idi.Halbuki bu sahədə doğru ilə yanlışı ayırmaq mənasızdır. Bu gün üçün doğru hesab etdiyimiz şeylər 'səbəbsiz' bir fikir birliyi ilə ortaya çıxmış, hətta ilk ortaya çıxdığı zaman yanlış hesab edilmiş ola bilər.

Linqvistik praqmatika (pragmalinguistik) fəlsəfi praqmatizmdən yaranmışdır. Praqmatizm fəlsəfənin hüdudları daxilində hərəkət etmək qabiliyyətini tapıb bir növ konseptual yetkinliyə çatdıqdan sonra ədəbi mətnlərin təhlili üçün möhkəm əsas oldu. Semantika, dili özünəməxsus xüsusiyyətləri ilə araşdırsa da, praqmatikanın kontekst üzərində dayanması onun sabit, dəqiq, düz və hamılıqla razılaşdırılmış istiqamətə (davranış və konsensus nəzəriyyəsindən tutmuş həyat fəlsəfəsinə qədər miqyasda) malik olmadığını təsdiq edir. Çünki kontekstdən asılılıq şərhə açıq olmaq deməkdir. Praqmatikanın müasir elmin yaratdığı vəziyyətə spesifik reaksiya kimi sadə mənada (məsələn, marksizm və ekzistensializm arasında) nəzəriyyə ilə praktika arasında əlaqə qurması gözlənilir.

Dilçilik sahəsində praqmatika ilk dəfə Sanders Pirs (Charles Santiago Sanders Peirce) və Morrisin işarə nəzəriyyəsi ilə gündəmə gəldi. Morris Saussure-in iki ölçülü işarə modelinə struktur və məna şəklində üçüncü ölçü əlavə etdi. Ümumiyyətlə, praqmatika və semiotika münasibətlərindən danışarkən Sanders Pirsin nəzəriyyəsini şərh etməmək mümkün deyildir.

Sanders Pirs, əsrin əvvəllərində praqmatika ifadəsini işlətmiş və əsərlərini oxuyanlara təsir etmişdir. Onun tədqiqat məntiqinə əsaslanan praqmatizmin son məqsədi, konsepsiyanın təcrübə fəaliyyəti vasitəsilə real həqiqəti üzə çıxarmaqdır. Həqiqət və subyektivlik bir-birini istisna edir. Bu şəkildə fərdilik və yalan, Peirce üçün eynidir. İnsanın təcrübəsi o tək olduğu müddətcə heç bir əhəmiyyət kəsb etmir. İnsan başqalarının görə bilmədiyi bir şeyi görəndə buna hallüsinasiya deyilir. Deməli, Peirce üçün "mənim təcrübəm" yox, "bizim təcrübəmiz" var. Buradakı "biz" zəruri qeyri-məhdud imkanları təmin edir. O, eksperimental aydınlaşdırma metodu ilə pozitivizmə yaxın görünsə də, Kant kimi elmin saflaşdırılmış metafizikasını və normativ əsasını özündə saxlayır. O, praqmatizmə qayıdışı qeyri-tənqidi metodlarda və doqmatik ifadələrdə görür. Burada nəzəriyyə sadəcə empirik təcrübəyə istinad etmir, hər ikisini eyniləşdirir. Ona görə də, artıq normativlik və realizm arasında heç bir fərq yoxdur. Peirce üçün "praqmatizm" əvvəlki mövqedən uzaqlaşma demək deyil, əksinə, səhv başa düşülən praqmatizmə qarşı sərhəd deməkdir [6, s.222].

İşarəni təyin etmək üçün Peirce üç (işarə, indeks və simvol) elementar semiotik instansiyaya müraciət edir. Pirs öz praqmatizmindən çıxış edərək bildirdi ki, semioz əlaqəsi işarə, onun obyekti və şərhçidən ibarətdir. Semiotik prosesi daha yaxşı başa düşməyə imkan verən işarənin tərifi belədir: İşarə kiminsə üçün yer tutan və ya başqa bir şeyi təmsil edən bir şeydir (İşarənin subyekti). O, kiməsə ünvanlanır, şüurda ekvivalent və ya daha inkişaf etmiş bir işarə yaradır. Bu işarə, birinci işarənin təfsirçisidir. Təfsirçi işarə ilə onun obyekti arasında mənasını çatdırmaq üçün vasitəçilik edən işarədir. İbtidai işarənin mənasını verən şərh işarənin mənasıdır. Ümumi məfhum olan mənanın işarənin işarəli təsirindən nəticə çıxarma prosesi vasitəsilə əmələ gəlir. Pirs işarəsinin bu tərifi məna prosesini və deməli, təfsir prosesini işıqlandı-

rır. Onun semiotikasında sadəcə təyinat deyil, "burada və indi" məsələsidir. Məna bu üç haldan (və ya kateqoriyadan) birinə uyğun olaraq qurulmalıdır. Pirs semiopraqmatizm metodunun əsas alətləri bunlardır: Peirce işarəsi, işarələrin təsnifatı və iyerarxik quruluşu, abduktiv nəticə, universal kateqoriyalar.

Bu metodu anlamaq üçün bir misal çəkək: Əlimdə tutduğum qələm müəyyən xüsusiyyətlərə malikdir:

– materialı ağacdandır;
– rəngi qaradır (keyfiyyətin varlığı);
– məktub yazmağa yaralıdır (hərəkət-reaksiya varlığı, təcrübə);
– müqəddəs mətnlər rəmzi olaraq onunla yazıldı (qanunun varlığını, simvol);
– qələm qılınca qarşı qoyuldu (maariflənmək və sülh rəmzi).

Mənanı (onun birinciliyini) verən qələmin keyfiyyətləri deyil, onun verilmiş kontekstdə təmsil etdiyi simvol, insanın öz şərhindən meydana çıxan maariflənmək və sülh rəmzidir. Bu rəmz, ziyalıları ədalətsiz müharibələrə qarşı çıxmağa sövq edir. Bu misalda fundamental praqmatik prinsipə əsasən işarə (söz və ya deyim) öz ifadəsi kontekstində öz mənasını (və funksiyasını) əldə edir.

Mətni təhlil etmək, kateqoriyaları müəyyən etmək və onlara semiotik məna verməkdir. Lakin, bu semiotik səciyyələndirmə bizə bu elementlərin onu yaratmaq üçün necə qarşılıqlı əlaqəsi haqqında heç nə demir. Bunun üçün işarə münasibətini və işarənin praqmatik funksiyasını səfərbər edən yeni məntiqi konfiqurasiya tələb olunur. Deməli, semiopraqmatik metod tələb edir ki, semantik vahidlər bölməsinə daxil olub, onlara məna verildikdən sonra, onlar birinci səviyyənin əlaqəli kateqoriyalarına birləşdirilsin və işarə münasibətlərinə uyğun olaraq yenidən konfiqurasiya edilsin. Pirsin fikrincə, onun metodunu yalnız universalların mövcudluğuna, ümumi obyektlərin, aprior təcrübənin formal strukturlarının real mövcudluğuna əmin olduqda başa düşmək və qəbul etmək olar. Çünki "həqiqi universalların varlığına əmin olmayan adamın ağlına praqmatizm heç vaxt gələ bilməz." [6, s.123].

Pirs "sərt almaz" misalı ilə öz fikirlərini sübut etməyə çalışır. "Sərt" sözünün mənası onun müəyyən praktiki əməliyyatlar təcrübəsində müşahidə olunan təsirlərindən irəli gəlir. Lakin, Peirce yazır ki, "faktdır ki, biz onun daşla sürtüldükdə sərtləşdiyini dərk etmirik; əksinə deyirik ki, o, həqiqətən hər zaman sərtdir və almaz olmağa başlayan kimi belə idi." [6, s.155]. Başqa sözlə, sərtlik təcrübə ilə fərdi yoxlamadan asılı olmayan ümumi xüsusiyyətdir.

Semiopraqmatik metodla linqvistik praqmatika arasında hansı əlaqə var?

Peirce deyirdi ki, "*praqmatika işarələr və işarələrin istifadəçiləri arasında əlaqə ilə məşğul olan semiotikanın bir hissəsidir*." [6, s.143]. Morris Pirsin irəli sürdüyü terminlərindən istifadə edərək semiozun üç aspektini təsvir edir:

– semantika (işarənin onun obyektinə münasibəti);
– sintaksis (işarənin cümlədəki digər işarələrə münasibəti);
– praqmatika (işarənin istifadəçilərinə münasibəti).

Bu, mahiyyətcə şərhi idarə edən mülahizəni dəyişir. Bu, artıq şərhçinin bir işarə kimi hərəkəti deyil, daha çox kommunikativ perspektivdə şərhçi-istifadəçinin hərəkətidir [4, s.33].

Marti praqmatika ilə semiotikanın əlaqəsi haqqında belə yazır: "*praqmatikanı sintaksis və semantikanın birləşdirildiyi semiotik təhlil anı kimi qəbul etmək olar*." [4, s.22]. Ona görə, semioza şərhçinin hərəkətini əlavə etmək olar. Çünki "*praqmatika üçü birində olan bir andır*." [4, s.26].

"İnam" və "bəyanat" anlayışları semiopraqmatik üsul üçün vacibdir. Bəyanat aktında inamın rolu üzə çıxır. Semiopraqmatik analiz iki məqamda müdaxilə edir:

– mətn məlumatlarının semiotik xüsusiyyətlərində və onların məntiqinin yenidən qurulmasında meydana çıxan mərhələ;

– müxtəlif empirik kateqoriyalar qurulduqda, onları müqayisə etməklə, öyrənilən fenomenin mənasını müəyyən edən əsas kateqoriyanı ortaya qoyan mərhələ. Qalan – kateqoriyalar əsas kateqoriyanın digər aspektlərini təmsil edən fərdi və ya alt kateqoriyalara çevrilir.

Pierce semiopragmatikasında mətn cümlələrə düzülmüş şərti işarələr olan "sözlərdən" ibarət hiperznakdır. Semiopragmatik tədqiqatçı üçün mətnin təhlili empirik kateqoriyaları müəyyənləşdirmək üçün semantik və sintaktik mətn elementləri əsasında semiotik məna təyin etməklə ona yazılmış müxtəlif kateqoriyaların müşahidəsi və müəyyənləşdirilməsi deməkdir.

Lüdviq Vitgenşteyn, Rasselin izi ilə gedərək ilk dəfə dil və mütənasib məntiqi mənimsəmişdir. Məntiqlə deyilə bilməyən hər şey ifadə olunmazdır və o, sirrin mənanın həddi olduğunu dərk edirdi. Semiotika universal dildə mövcud deyil, fəaliyyət vəziyyətlərində mövcuddur. Məna heç vaxt kontekstsiz deyil. Mesajın daxil olduğu mühit "dil oyunu", sonra isə "həyat tərzi" adlanır. Wittgenstein istifadədən yarana biləcək sürprizləri vurğulamaq üçün, istisnaların siyahısını da təqdim edir: təşəkkür etmək, lənətləmək, salam vermək, əmr etmək və ya itaət etmək, təsvir etmək, fərziyyə etmək, cədvəllərdə təqdim etmək, hekayə uydurmaq, yalvarmaq. Bunlar semiopraqmatik təhlildə mühüm əhəmiyyət kəsb edirlər [3.s.44].

Nəzəriyyələşdirmə səyi, "nitq aktlarını" sadalamaq qayğısı Vitgenşteyn ənənəsinə yaxın olan Con Ostin və Con Searlin işlərinin əsasını təşkil edir. Con Ostin gündəlik dildən linqvistik ifadələrlə rəngləndirməyə çalışdığı təsviri idarəetmə üslubu ("şifahi" ifadə, hadisəni xatırladan, informativ) və operant idarəetmə üslubu ("şifahi" ifadə, təsir) arasında fərq təklif edir. Ostinin işi dil və onun qüdrətinin kompleks tədqiqi və linqvistik hərəkətləri sadə, azalmaz elementlərə bölmək meyli üçün başlanğıc nöqtəsi olmuşdur. Lakin, bu da ziddiyyətlərə səbəb olub. Çünki çox vaxt bir-biri ilə kəsişən və ya sözün ötürülməsi kontekstindən asılı olan fəaliyyətin idarə edilməsi formalarını aydın şəkildə ayırmaq çox çətindir [1, s.66].

Nəticə. Hadisələrin keyfiyyətcə təhlili metodunun inkişafında və xüsusən mətnlərdə yazılmış həyat təcrübəsinin öyrənilməsinə gəldikdə müxtəlif nəzəriyyələrin imkanlarını göstərdik. Peirce fenomenologiyası reallığı təşkil edən kateqoriyaların aydınlaşdırılmasına yönəlmişdir. Kateqoriyanı metodunun mərkəzinə qoymaq, onun funksiyası və spesifikliyidir. Kateqoriya nəzəriyyəsi və işarələrin təsnifatı keyfiyyətli tədqiqatlarda mətn təhlili üçün faydalı olan formal prosedurun əsasını təşkil edir. Çünki onlar oxucunu orada görməli olduqlarını görməyə təşəbbüs edir və sonra ona onu təşkil etmək üçün vasitələr verir. Analitik, mətn və kontekstual semiotizasiya prosesində kəskin bir müşahidə hissinə və universal "məlumatları dinləməyə" sahib olmalıdır. Semiopragmatik metod yeni yaranan məntiqin bir hissəsidir. Bildiyimizə görə, dəyərin qurulması zamanı məlumatları sifariş edə bilən, həmişə bütün əhəmiyyətli elementlərin əlaqələndiricisi olan, lakin, mexanizmləri həmişə aydın olmayan bir neçə üsul var. Rəsmi bir prosedurdan istifadə edərək, semiopragmatik metod, empirik məlumatları şərh etmək üçün "nəzəriyyələr tətbiq etməkdən" çəkinir, hər halda bütün səviyyələrdə özünü göstərəcək tədqiqatçının yaradıcılığına hörmət edir. Bu perspektivdə fenomenologiya, semiotika, linqvistik praqmatika arasındakı əlaqələri, xüsusən də həyat təcrübələrini anlamaqda hələ bir araşdırma aparılmamışdır. Semantika və praqmatika adlanan dilçilik sahələri, semiotika üçün məhdudiyyətlər yaradır və dil problemini daha geniş bir şəkildə əhatə etməklə, mənfi fəaliyyətə gətirib çıxarır. Məna istehsalı və fəaliyyət problemi, şifahi və yazılı dilə insanlararası əlaqə modeli kimi deyil, yalnız insanların qarşılıqlı əlaqə elementi kimi baxan ictimai elmlər tərəfindən həll edilməlidir. Məna müstəvisinə diskurs da daxildir. Amma bunun əksi doğru deyil. Semiotikadan istifadə edən və şərh edən şəxs başa düşərək onu gücləndirə bilər.

Ədəbiyyat

1. Austin, J. L How to do things with words.[Electronic resource] - Oxford: Clarendon Press. 1962. – 174 p. URL: https://archive.org/details/HowToDoThingsWithWordsAUSTIN/page/n5/mode/2up
2. Levinson, S.C. Space in language and cognition: explorations in cognitive diversity. [Electronic resource] - Cambridge: Cambridge University Press 2003. – 315 p. URL: https://www.researchgate.net/publication/240254298_Space_in_Language_and_Cognition_Explorations_in_Cognitive_Diversity

3. Витгенштейн Л. Логико-философский трактат / Пер. с нем. Добронравова и Лахути Д.; Общ.ред. и предисл. Асмуса В.Ф. – М.: Наука, 2009. – 133 с.
4. Григорьева, В.С. Дискурс как элемент коммуникативного процесса: прагмалингвистический и когнитивный аспекты: [Электронный ресурс] / монография / В.С. Григорьева.- Тамбов: Изд-во Тамб. гос. техн. ун-та, 2007. – 288 с.URL: https://www.tstu.ru/book /elib/pdf/2007/k_Grigoreva.pdf
5. Макаров М. Л. Основы теории дискурса. [Электронный ресурс] / М.: ИТДГК «Гнозис», 2003. – 280 с.URL: http://yanko.lib.ru/books/cultur/makarov-osnovu_teorii_diskursa-8l.pdf
6. Пирс, Ч.С. Рассуждение и логика вещей: Лекции для Кембриджских конференций 1898 года / с «Введением» К.Л.Кетнера и Х.Патнема и «Комментариями к лекциям» Х.Патнема; науч. ред. Д.Г.Лахути и В.К.Финна; пер. с англ. Д.Г.Лахути и др. – М.: РГГУ, 2005. – 376 с.
7. Чернявская, В. Е. Дискурс власти и власть дискурса-/ М.: Флинта: Наука, 2006. – 136 с.

Г.Х.Бабаева

Соотношение семиотики и прагматизма в лингвистике

Резюме

Прагматика исследует отношения между языком и его пользователями, дискурсом и его контекстом. Семантика касается отношений между знаком и объектом, синтаксис – отношений между знаком и другими знаками, а прагматика – отношений между знаком, его пользователями и ситуациями. Семиотика тесно связана с прагматикой и синтаксисом. Семантика, являющаяся разделом языкознания, имеет общие черты с семиотикой. Они имеют дело со значениями знаков. Однако некоторые лингвисты различают их, заявляя, что семантика связана с тем, что означают слова, а семиотика связана с тем, как означают знаки.

G.H.Babayeva

Correlation of semiotics and pragmatism in linguistics

Summary

Pragmatics explores the relationship between language and its users, discourse and its context. Semantics concerns the relationship between a sign and an object, syntax concerns the relationship between a sign and other signs, and pragmatics concerns the relationship between a sign, its users and situations. Semiotics is closely related to pragmatics and syntax. Semantics, which is a branch of linguistics, has common features with semiotics. They deal with the meanings of signs. However, some linguists distinguish between them, stating that semantics is related to what words mean, and semiotics is related to how signs mean.

Rəyçi: filol.f.dok., prof. N.Ş.Məmmədov

Redaksiyaya daxil olub: 24.02.2023

P.M.CƏFƏROVA
müəllim
e-mail: tunaresger.esgerov@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

İNGİLİS DİLİ DİFTONQLARININ ƏSAS XÜSUSİYYƏTLƏRİNƏ DAİR

Açar sözlər: *diftonq, sait, tələffüz,monoftonq, nüvə, sürüşkən*
Ключевые слова: *дифтонг, гласный, произношение, монофтонг, ядро, фрикативный*
Key words: *diphthong, vowel, pronounciation, monophthong, nucleus,fricative*

Qeyd etmək lazımdır ki, sözün səs tərkibi, sözün səs toplusundan, səs kompleksindən ibarət olması dedikdə onun fonetik tərkibi nəzərdə tutulur. Söz həmişə müəyyən fonetik tərkibə, quruluşa malikdir. Buna görə də öyrənilən dilin fonem sistemini araşdırmaq vacibdir. İngilis dilində diftonqlar elə sait səslərdir ki, onların tələffüzündə danışıq üzvləri bir saitin tələffüz məxrəcindən digər saitin tələffüz məxrəcinə hərəkət edir, sait səsin tələffüz məxrəcində dəyişmə baş verir. Azərbaycan ədəbi dilində diftonq yoxdur. Diftonqlar iki elementdən ibarət olur; birinci element qüvvətli, ikinci element isə zəif adlanır. Qüvvətli elementə nüvə, zəif elementə isə sürüşkən element deyilir. Ümumiyyətlə, diftonqlar elementlərinə görə dünya dillərində enən və qalxan diftonqlara bölünür. Birinci elementi qüvvətli, ikinci elementi zəif olan diftonqlar enən diftonlar adlanır. İngilis dili diftonqları enən və ya düşən diftonlardır. Birinci elementi zəif, ikinci elementi qüvvətli olan diftonqlar isə qalxan diftonqlar adlanır. Qalxan diftonqlara italyan vədigər dillərdə rast gəlmək olur.

İngilis dilindəki diftonqlara monofonemik bütövluklər kimi baxsaq diftonqlar ilə əlaqəli olan morfofonoloji problemi, yəni sözlərdə ingilis dilindəki diftonqlarin fonemik statusunu müəyyən etmək vacibdir. Morfoloji məktəbin fikrinə görə, belə sözlər biofonemik mürəkkəb səsləri özündə saxlayır və hər sait elementinin fonemik statusu güclü metod mövqeyi ilə əsası qoyulur. Beləliklə,theatre ve real kimi sözlərdə [ɪə] mürəkkəb səsi ɪ və æ foneminin variantından ibarət olur. Çünki onların düzəltmə birləşmələrində the atrical [θɪ'ætrɪkəl] və reality [rɪælɪtɪ] sözlərində æ saiti vurğu altındadır. Eyni səs kompleksi [ɪə] curious [kjurɪəs] sözündə / ɪ/ və /ɒ/ foneminin variantından ibarət olur, çünki düzəltmə birləşməsində /ɒ/ sait səsi vurğuludur.

D.Counz diftonqları heca yarada bilməyən səslər kimi müəyyən edir. N.Trubeskoy həmçinin diftonqları heca yarada bilməyən səslər olaraq təyin edir və bir diftonqun hissələrinin iki hecaya aid ola bilməyəcəyini vurğulayır. L.Zinder əlavə edir ki, fonemik diftonqlar morfoloji cəhətdən bölünməyən səslərdir [6, s.31].

İngilis dili diftonqları birinci elementinə görə ön sıra və arxa sıra diftonqlarına bölünür. Sürüşkən elementinə görə isə üç qrupa – sürüşkən elementi /ə/ ilə bitən / ɪə, ɛə, ʊə/, sürüşkən elementi /i/ ilə bitən / eɪ, aɪ, ɔɪ/, sürüşkən elementi / ʊ/ ilə bitən/oʊ, aʊ / diftonqlara bölünür.

Artikuyator nöqteyi nəzərdən ingilis dilindəki diftonqlar bölünməz, bütöv, fonetik vahiddir. İngilis dilindəki diftonqların artikulyator bölünməzliyi onların sillabik və morfonoloji bölünməzliyini bəyan edir; paying [peɪ-ɪŋ], flying [flaɪ-ɪŋ], bowing [baʊ-ɪŋ], lower [loʊ-ə], hearing [hiə-rɪŋ], daring [dɛə-rɪŋ], roaring [r ɔə-rɪŋ].

İngilis dili diftonqları sözlərdə müxtəlif mövqelərdə işlənir və diftonqlar bir və ya bir neçə hərf birləşməsinin tələffüzü ilə yaranır. "o" hərfi sözlərin sonunda vurğusuz mövqedə adətən [oʊ] kimi oxunur. Məsələn, photo [foʊtoʊ], potato [pəteɪtoʊ].



The eight English diphthongs

Redrawn by UKT from p.020 , 090626

İkihecalı sözlərin sonunda gələn “ow” hərf birləşməsi də [oʊ] kimi oxunur. Məsələn, window [wɪndoʊ], fellow [feloʊ].

“a ʊ”, “o ʊ”, “ɔɪ”, “ʊə” diftonqları əsasən vurğulu hecalarda işlənir. Məsələn, sound [saʊnd], found [fɑʊnd], count [kaʊnt], noun [naʊn], coat [kəʊt], soul [soʊl], stone [stəʊn], note [noʊt], toy [tɔɪ], point [pɔɪnt], noise [nɔɪz], spoil [spɔɪl], pure [pjʊə˞], moor [mʊə(ɹ)], cruel [krʊəl], cure [kjʊə(ɹ)].

[iə] diftonqu morfemdə və vurğulu mövqelərdə istifadə olunur. [ˌendʒɪ' nɪə] – engineer, [ˌbrigə' diə] – brigodier. Müasir ingilis dilində olan [uə]diftonqunu müstəqil fonem kimi sübut etmək çətindir, çünki çoxlu sözlərdə [uə] saitinin[ɔə], [oə] və [ɔ:] kimi tələffüz variantları vardır. Məsələn: sure sözü [ʃuə], [ʃoə], [ʃɔə], [ʃɔ:] və hətta [ʃə:] kimi tələffüz oluna bilər.

[uə] diftonqu çox hallarda [ɔ:] və digər fonemik variantlar tərəfindən əvəz oluna bilir. Məsələn, Bourne mouth [`bɔ:nməθ], [`boəməθ] [buəməθ]. Ancaq bəzi sözlərdə isə [uə]-nin variant tələffüzləri yoxdur və bu onun fonem kimi qalmağına kömək edir. Bundan başqa digər hallar da vardır ki, [uə] diftonqu [u:] və digər fonemlər ilə qarşılaşa bilər. Məsələn pooh [pu:], poor [puə], paw [pɔ:].

eɪ//ə və æ//ə qeyri-müyyən artiklın güclü formaları a [eɪ], an [æn], qeyri-müəyyən artiklın zəif formaları a [ə], an [ən] [3, s.60].

D. Counz “The English Diphthongs in Detail” də 12 diftonqu təsvir etmişdir. O[ei, ou, ai, au, ɔi, iə, ɛə, ɔə, uə] diftonqlarını enən, [iə], [ŭə] və [ŭi] diftonqunu isə qalxan diftonq adlandırmışdır.

Bunlardan başqa, D.Counz “Other Diphtongs” başlığı altında digər 6 diftonqu xatırlatmışdır: [oi/ŏi], [eə/ĕə], [oə/ŏə].

Bunları üçü enən, digər üçü isə qalxandır. D.Counz başlıca olaraq bu diftonqların keyfiyyətini və fonemik statusu olmadığını vurğulayır. Çox hallarda onun qeydləri göstərir ki, bu diftonqların fonemik təbiəti şübhə altındadır [2, s.63].

İngilis dilində danışanların tələffüzündə [ɔə] fonemi [ɔ:] fonemi vasitəsilə əvəz olunur: more [m ɔə] və [mɔ:]. Bu səbəbə görə [ɔə] fonemi ingilis dilində fakultativdir, yəni qeyri-məcburidir [1, s.21]. Vahid fonem kimi diftonqun sillabik və morfofonoloji bölünməzliyi bütün dillərdə bu faktla sübut oluna bilər ki həqiqi diftonqlar yoxdur , yalnız mürəkkəb səs kimi bifonemik diftonq mövcuddur.İngilis dilindəki diftonq elementlərin çox aşağı birləşmə və dəyişkənlik dərəcəsi var. Beləliklə, sürüşkən [ɪ] yalnız özündən əvvəl gələn bu sait fonemləri ilə

[e, a, ɔ] birləşdirilə bilər ,ancaq RP-də æı, əı, ʊı belə sait birləşmələri yoxdur; sürüşkən [ʊ] ancaq özündən əvvəlki [a, o] sait elementləri ilə birləşdirilir; ıʊ, eʊ sait birləşmələri mövcud deyil [5, s.28].

İngilis dili [aı] diftonqunun birinci elementi monoftonq kimi işlənməyən açıq, ön sıra saitidir. [aı] diftonqunun tələffüzündə y, i, ei hərf və hərf birləşmələri iştirak edir: fly, pride, height [7, s.98]. Bundan başqa ai, ey, ye, ie, uy, ei hərf birləşmələri bu diftonqun tələffüzündə iştirak edir: aye, eye, dye, die, buy, height.[aı] diftonqu sözün bütün mövqelərində reallaşır. Məs, ice, Friday, lie, tie. İngilis dili [aʊ] diftonqu au, ou, ough hərf birləşmələri vasitəsilə tələffüz edilir. Məsələn, Faust, loud, round, crowd, bough. [aʊ] diftonqu dodaq, dil, dilönü, apikal, qırtlaq samitlərindən əvvəl və sonra gəldikdə variativləşir. Məsələn, pound, bound,town, round, shout, cow, mouth, how, crowd, pouch.

İngilis dilində üç arxa sıra diftonqu vardır:/ɔı, ʊə, oʊ,/. İngilis dili /ɔı/ diftonqu sözün bütün vəziyyətlərində reallaşır.Məsələn,oil, coin, boy. Bu diftonq həm acıq,həm də qapalı hecalarda işlənir.Məsələn, joy, enjoy, destroy, moist, oyster, exploit, choice. /ɔı/diftonqu oi, oy hərf birləşmələrini təmsil edir: oil, boy.

İngilis dili /o ʊ/ diftonqu açıq və qapalı hecalarda reallaşır, /o ʊ/diftonqunun nüvəsi açıq hecada daha uzun, cingiltili samitlərdən əvvəl qapalı hecada daha qısa, kar samitlərdən əvvəl isə lap qısa tələffüz olunur. Məsələn, low-loud-loaf, bow-bone-boat, toe-toad-toast. /oʊ/ diftonqu da həm təkhecalı sözlərdə, həm də vurğulu hecalarda reallaşır. Məsələn, below, dough. Həmçinin o hərfi bu diftonqun tələffüzündə istifadə olunur. Məsələn, so, comb, coast, mode, lonely. Vurğusuz hecalarda isə /oʊ/ diftonqunun ikinci elementi düşür. Məsələn, window, pillow, potato. Bundan başqa eau, oe, oo, ou, ow, ough, ew, oa hərf birləşmələri bu diftonqun səsini verir: beau, hoe, brooch, mould, though, throw, sew, boat.

[oʊ] diftonqu dodaq, dil, dilönü, apikal samitlərdən sonra və əvvəl işləndikdə variativləşir: bow, foe, road, show, go, hoe, loaf, wrote, coach, oak.

İngilis dili [ʊə] diftonqu sözün bütün mövqelərində realizə olunur. Məs, Urdu, care, curious. [ʊə] diftonqu dodaq, dil, dilönü, apikal, qırtlaq samitlərindən sonra və əvvəl gəldikdə variativləşir: poor, tour, sure, houry; gourmand, bourn, rural.

Vurğulu hecada [ʊə] diftonqu [oə] və hətta [ɔ:] kimi tələffüz edilə bilər: sure [ʃuə]-[ʃ oe]-[ʃ ɔ], doer [duə]-[doə]-[d ɔ]. [ʊə] diftonqu bəzən [u] kimi tələffüz olunur: usual [juʒuəl]-[juʒul].

Bir çox sözlərdə [ʊə] diftonqunu [ɔə] kimi tələffüz edirlər. Məs, poor, sure, moor, boor. Lakin bu sözlərin mənasının qarışdırılmasına gətirib çıxarır.

Poor [pʊə] – pour [pɔ:]

Sure [ʃ ʊə] – shore [ʃ ɔ:].

Aparılan araşdırmalardan belə bir nəticəyə gəlmək olar ki, ingilis dili diftonqlarının sözlərdəki mövqeyi fərqlidir və onların hər birinin yaranması fərqli hərf birləşmələri ilə reallaşır. İngilis dili diftonqlarının sözlərdə monoftonqlarla əvəzlənmələri fonomatik səhvlərə səbəb olur. Diftonqların statusu barədə isə hələ də fikir ayrılıqları mövcuddur.

Ədəbiyyat

1. Gimson A.G. A practical course of English promuncation. London, 1975, – 80 p.
2. Gones D. Cambridge English Pronouncing dictionary. 16 th edition. Cambridge University press 2002, – 606 p.
3. Kruisinga E. The phonetic structure of English words. Bibliotheca, Anglicana. vol. 2, 1942, – p. 141-148.
4. Leontyeva S.F. A theoretical course of English phonetics. M., 1988, – 272 p.
5. Roach P. English phonetics and phonology.Cambridge University Press, 2002, – 203 p.
6. Sokolova M.A et. al. English phonetics. (A theoretical course) M., 1996, – 286 p.
7. Vassilyev V.A. English phonetics. (A theoretical course). M., "Higher school Publishing House", 1970, – 324 p.

П.М.Джафарова

Об основных особенностях английских дифтонгов

Резюме

В статье речь идет о количестве и разделении дифтонгов в английском языке. В статье предпринята попытка изучить основные особенности дифтонгов в английском языке. Анализируются типы английских дифтонгов. Английские дифтонги также изучались в работах известных ученых. В английском языке двадцать гласных. Количество дифтонгов считается одной из важнейших проблем языкознания. В статье на большом количестве примеров показано положение английских дифтонгов в словах.

P.M.Jafarova

On the main peculiarities of english diphthongs

Summary

The article deals with quantity and division of diphthongs in the English language . In the article an attempt is made to study the main pecularities of diphthongs in English. Types of English diphthongs are analyzed. In English there are twenty vowels. The quantity of diphthongs is considered one of the most important problems in linguistics. English diphthongs have also been studied in the works of the famous scholars. In the article the position of English diphthongs in the words are based on a lot of examples.

Rəyçi: filol.f.d., dos. K.A.Alırzayeva

Redaksiyaya daxil olub: 07.03.2023

G.A.ƏZİZOVA
müəllim
e-mail: azizovagun@gmail.com

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 33)

FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN TƏRCÜMƏSİ ZAMANI QARŞILAŞDIĞIMIZ ÇƏTİNLİKLƏR

Açar sözlər: *frazeoloji birləşmələr, frazeologiya, idiomlar, məsəllər, ifadələr, tərcümə, tərcüməçi, tərcümədə çətinliklər, ekvivalent*

Ключевые слова: *фразеологизмы, фразеология, идиомы, пословицы, перевод, переводчик, трудности в переводе, эквивалент*

Key words: *phraseological units, phraseology, idioms, proverbs, translation, translator, challenges of translation, equivalent*

Frazeoloji birləşmələrin tərcüməsi zamanı qarşılaşdığımız çətinliklərdən bəhs etməzdən əvvəl, ümumilikdə frazeologiya anlayışı özündə nəyi ehtiva edir, nədən bəhs edir və yaranma tarixi haqqında yaranan suallara cavab vermək məqsədəuyğun olardı.

Linqvistikada frazeologiya qədim yunan sözü olub phrásis – danışıq, nitq, logos – elm, izahat, anlayış mənasını daşıyaraq idiom, frazeoloji ifadələr, sabit söz birləşmələrini özündə birləşdirir. Frazeologiya sözü elmdə bir termin olaraq iyirminci əsrdən etibarən işlənməyə başlamışdır. Belə ki, ilk dəfə fransız əsilli isveçrəli alim Şarlz Balli "locutions phraseologyques" anlayışını işlətmişdir. Daha sonralar bu ifadə Keçmiş Sovet Birliyi və daha sonra Şərqi Avropa ölkələrində daha da yayılaraq geniş istifadə olunmağa başlanmışdır. Beləliklə, günümüzə qədər müxtəlif ölkələrdən olan fərqli dilçi və linqvistlər bir tədqiqat obyekti olaraq frazeologiya anlayışı üzərində fərqli araşdırmalar aparmaqdadırlar.

Frazeoloji birləşmə sabit leksik tərkib hissəyə və qrammatik struktura malik söz birləşməsidir [5, s.140]. Frazeoloji birləşmələr bir neçə sözün qrup şəklində işlədilərkən müəyyən məna qazanaraq hansısa dil qrupunda işlək hal alması nəticəsində ortaya çıxır. Frazeoloji birləşmələrdən bəziləri qədim zamanlardan dilimizdə formalaşmış, bir hissəsi digər dil qrupundan dilimizə keçmiş, bəziləri hansısa tarixi hadisədən sonra yadda qalmışdır. Hətta bugün də elm və texnologiyanın inkişafı, mədəniyyətlərin inteqrasiyası ilə əlaqədar olaraq dilimizdə yeni sözlər formalaşdığı kimi yeni frazeoloji birləşmələr də formalaşır və işləklik qazanır.

Günümüzdə frazeoloji birləşmələrin tərcüməsi müasir mütərcimlik sənətində mühüm rol oynayır. Məhz buna görədir ki, uzun illər boyuncu müxtəlif linqvist və tərcüməçilər söz birləşmələrinin ümumi kəsb etdiyi mənanı tərcümə etməli, yoxsa onun qarşılıqlı ekvivalentini istifadə etməli olduqları barədə mübahisələr aparmaqda, fikir bildirməkdədirlər. Çox zaman frazeoloji birləşmələrin hərfi tərcüməsini vermək mümkün olmur və onlar tərcüməsi çətin olan ifadələr arasında birinci sırada yer alır. Məhz buna görədir ki, bəzi elm adamları frazeoloji birləşmələri və idiomları qanadlı ifadələr adlandırırlar. Bədii publisistik əsərləri tərcümə edərkən bu cür qanadlı ifadələrə çox tez-tez rast gəlmək mümükündür; məsələn, *Achilles' heel – Axilles dabanı, the ends of the Earth – dünyanın o tayı, in the course of nature –təbiətin qanuna uyğun* və s. Professor A.V.Kunin frazeoloji birləşmələrin tərifini aşağıdakı şəkildə verir: "Frazeoloji birləşmələr və ya ifadələr – mənasını qismən və ya tamamilə dəyişmiş ayrıca dil vahidləridir" [5, s.15].

Frazeoloji birləşmələrin tərcüməsi zamanı əsas məqsəd ifadənin qarşı dildə analoqunu tapmaq, obrazlılığı və stilistik funksiyanı qoruyub saxlamaqdır. Bəzən frazeoloji birləşməni

tərcümə etmək üçün seçilmiş tərcümə metodu mətnin üslubuna görə də dəyişir. Bunu aşağıda gətirəcəyimiz nümunələr əsasında təhlil edəcəyik.

Bir çox dilçilər frazeoloji birləşmələrin tərcümə yollarının aşağıdakı təsnifatını vermişdir;

a) qarşı dildəki ekvivalentdən istifadə etməklə;

b) qarşı dildəki analoqdan istifadə etməklə;

c) tərcümə dilində uyğun ekvivalent, və ya analoq olmadıqda birləşmənin izahını vermək yolu ilə.

a) Frazeoloji ekvivalent dedikdə, tərcümə dilindəki ifadənin aspekt və semantika baxımdan tərcümə olunan frazeoeloji birləşməyə oxşar olması başa düşülür. Müxtəlif dillərdəki ifadələrin leksik və qrammatik struktur baxımdan bənzərliyi aspekt bənzərliyi adlanır. Belə ki, müxtəlif dil qruplarına aid olmasına baxmayaraq bəzən birləşmənin tərkib hissələri belə oxşar olur. Məsələn: *vivid imagination – aydın təxəyyül, black market – qara bazar, a fast reader – sürətli oxucu.*

b) Bir çox frazeoloji birləşmələrin tərcüməsi analoqun seçilməsi yolu ilə həyata keçirilir. Linqvistikada frazeoloji analoq dedikdə, ifadələrin tərkib hissələrinin leksik, qrammatik struktur, ifadəlilik baxımından fərqli olsa da, eyni mənanı kəsb etməsi başa düşülür. Məsələn: *feel like a wet rag – çox yorğun hiss etmək, catch smb's imagination – kiminsə marağını çəkmək, hammer into smb's head – kiminsə beyninə yeritmək.*

c) Sonuncu üsul frazeoloji birləşmənin ekvivalenti və ya analoqu olmadıqda təsvir, izah, leksik mənanın müxtəlif yollarla çatdırılması yolu ilə olunan tərcümə üsuludur. Bu üsul həm də kombinləşdirilmiş üsul adlanır. Məsələn: *at breakneck pace* frazeoloji birləşməsinin dilimizdə ekvivalenti, analoqu olmadığı üçün tərcüməsi üçün ya izahlı, ya da təsviri üsulla verilməyə ehtiyac duyulur. Əgər birləşmənin tərkib hissələrinin leksik mənasına nəzər salsaq, *boyun qırılacaq dərəcədə sürətlə hərəkət etmək, ehtiyatsız dərəcədə sürətlə getmək* kimi tərcümə edə bilərik.

Bir neçə nümunəyə nəzər salaq; *the carrot and the stick* frazeoloji birləşməsinin hərfi tərcüməsini versək, *yerkökü və çubuq* kimi dilimizdə məna kəsb etməyən bir ifadə ilə qarşı – qarşıya qalırıq. Bu cür frazeoloji birləşmənin tərcümə olunan dildə qısa izahı verilsə, daha məqsədəuyğun olardı. Belə ki, ifadənin izahı *hansısa əmələ görə mükafatlandırılma, hansısa əmələ görə isə cəzalandırılma, hədə – qorxu gəlmə* kimi verilə bilər. İfadənin tarixçə və etimologiyasına gəldikdə isə bu söz birləşməsinin kənd həyatı ilə bağlı olub uzunqulağı idarə etmək üçün bir tərəfdən yerkökü vermək, digər tərəfdən isə çubuqla döymək və ya çubuğun ucuna yerkökü asmaqla uzunqulağı istiqamətləndirmək mənasında işlənib. Frazeoloji birləşmənin azərbaycan dilində analoquna gəldikdə isə qeyri-formal üslubda *başını yarıb ətəyinə qoz tökmək* frazeoloji birləşmə ilə tərcümə etmək olar. Bəzən bu ifadə siyasi kontekstdə *the carrot and the stick policy, the carrot and the stick approach, the carrot and the stick principle* kimi də işlədilir. Bu zaman yuxarıda göstərdiyimiz tərcümə qeyri-formal üslubda olduğu üçün uyğun hesab olunmaz və buna görə də biz izahlı tərcümə metoduna müraciət edərək ifadəni *mükafat və cəza* kimi tərcümə edə bilərik. Məs: *Carrot and stick principle is in effective when it comes to management. – İdarəçilikdə mükafat və cəza prinsipi effektivtivdir.*

Troyan horse frazeoloji birləşməsinə nəzər salaq. Bu ifadənin tərcüməsinə gəldikdə azərbaycan dilinə *Troya atı* kimi tərcümə oluna bilər, lakin bu birləşmənin də bir qədər izaha ehtiyacı vardır. Etimologiyasına nəzər salsaq, ifadənin tarixçəsi e.ə. 1193-1183-cü illərdə baş vermiş Troya müharibəsinə qədər gedib çıxır. Belə ki, yunanlılar Troya şəhərini işğal etmək üçün hiyləyə əl atırlar, özlərini məğlubiyyətə təslim olmuş kimi göstərib troyalılara taxtadan düzəldilmiş nəhəng at hədiyyə gətirirlər, gecə ilə atın içərisində gizlənmiş əskərlər çıxıb Troya şəhərini ələ keçirirlər. *Troyan horse* frazeoloji birləşməsi də məhz bu səbəbdən *hiylə gəlmək, aldatmaq* kimi tərcümə oluna bilər, lakin bu tarixi hadisə haqqında insanların məlumatı olduğu üçün üslubdan asılı olaraq elə hərfi tərcüməsi də verilə bilər. Eyniadlı hadisə ilə əlaqədar eyni mənanı daşıyan *Greek gift* frazeoloji birləşməsi də mövcuddur. *Beware of*

greeks bearing gifts [8] məsəli də – *Hədiyyə gətirən yunanlılardan ehtiyatlı olun* mənasında işlədilir. Şahmat oyununda *greek gift sacrifice* ifadəsi bir həmlə geri çəkilib nəticədə qələbəyə doğru çox irəliləmək mənasında işlədilir.

Növbəti frazeoloji birləşmə kimi *cheat a death* ifadəsinə nəzər salaq. İfadə möcüzəvi şəkildə sağ qalmaq mənasını daşıyır. Birləşmənin hərfi tərcüməsini versək, *ölümü aldatmaq* kimi tərcümə edə bilərik, lakin bu cür tərcümə ilə obrazlılığı çatdırmaq mümkün deyil. Ona görə də, biz dilimizdə bu birləşmənin analoqunu – *ölümdən dönmək, ölümdən qayıtmaq* kimi frazeoloji birləşmələri istifadə edə bilərik. Məs; *He was involved in many serious crashes and had cheated death on several occasions. – O, bir neçə dəfə ağır qəzaya uğrayıb və dəfələrlə ölümdən qayıdıb.*

A white elephant frazeoloji birləşməsinə gəldikdə, ifadənin hərfi tərcüməsi *ağ fil* kimi verilir, lakin bu tərcümə birbaşa tərcümədir. Frazeoloji birləşmənin dolayısı yolla qısa izahını versək, *lazımsız bir yük, işə yaramayan bir əşya* kimi tərcümə edə bilərik. İfadənin etimologiyası isə daha Cənubi Asiyaya – Siama qədər gedib çıxır. Belə ki, burada fillər işçi heyvanlar hesab olunur. Lakin ağ fillər bu yerlərdə müqəddəs hesab olunduğu üçün onlardan ağır işlərdə istifadə etmirdilər. Məhz buna görə ağ fil ifadəsi çox xərc aparan lazımsız, işə yaramayan bir əşya mənasında istifadə olunur. Cümlədə işlənməsinə baxaq; *Please, donate all your white elephants for us to sell in our charity shop. – Xahiş edirəm, bütün lazımsız əşyalarınızı xeyriyyə dükanımızda satmağımız üçün bizə bağışlayın.*

Frazeoloji birləşmələrin tərcüməsi zamanı istifadə etdiyimiz *ekvivalent və analoqların* aşağıdakı növlərinə rast gəlmək mümkündür;

1) alınma frazeoloji birləşmələr

2) dildə mövcud frazeoloji birləşmələr

Alınma frazeoloji birləşmələr dedikdə daha qədim zamanlardan başlayaraq mədəniyyətlərin və dillərin inteqrasiyası, dastanların, əfsanə, mif və müxtəlif əsərlərin dildən dilə tərcüməsi, görkəmli tarixi şəxsiyyətlər və mədəniyyət xadimlərinin söylədikləri deyim və ifadələrin istər şifahi, istərsə də yazılı olaraq bir dildən başqa dilə ötürülərək mənimsənilməsi nəticəsində ortaya çıxır. Bu cür deyim və ifadələrin mənimsənilməsi bir növ insanların ortaq həyat şəraiti və düşüncə tərzi, əmək fəaliyyəti nəticəsində baş verir. Yuxarıda nümunə gətirdiyimiz *Troyan horse, Greek gift, Achilles' heel* məhz Yunan mədəniyyətindən və tarixindən dünya ədəbiyyatına və dilçiliyinə inteqrasiya olmuş frazeoloji birləşmələrdəndir.

Həmçinin Roma mədəniyyəti də beynəlxalq dünya linqvistikasına, xüsusilə də ingilis leksilogiyasına öz töhvələrini vermişdir. Nümunə olaraq, *a bed of roses, to burn one's boats behind one, to fiddle while Rome burns* frazeoloji birləşmələrini göstərə bilərik. Bu frazeoloji birləşmələrin yaranma tarixçəsinə nəzər salaq.

A bed of roses frazeoloji birləşməsi qədim Romada varlı zadəganların yataqlarına qızılgül ləçəkləri səpməsi ilə ortaya çıxmış və hətta bu ifadə ingilis dilində də geniş istifadə olunmağa başlanmışdır. Məsələn; *Life isn't a bed of roses* [9]. Bu frazeoloji birləşmə ingilis dilində geniş istifadə olunsa da, dilimizdə ekvivalenti və ya analoqu olmadığı üçün kombin üsulundan istifadəyə ehtiyac duyulur; *Həyat gül-çiçəkdən / gözəlliklərdən ibarət deyil.*

To burn one's boats behind one və ya to burn the bridges behind one frazeoloji birləşmələri tək roman-german dil qrupuna deyil, slavyan və türk dil qruplarına gəlib çıxmışdır. Belə ki, ifadə Roma generallarının, həmçinin Yuli Sezarın hansısa torpaqları işğal etdikdən sonra gəmiləri və körpüləri yandırması ilə bağlı yaranmış idiomdur, mənası *geri dönüş yoxdur* kimi başa düşülür. Bu frazeoloji birləşmənin *gəmiləri / körpüləri yandırmaq* şəklində dilimizdə də işlənməsi nadir hal deyildir. Həmçinin, rus dilində də *сжечь мосты*, türk dilində *gemileri yakmak* şəklində rast gəlinir. Bu frazeoloji birləşmənin dilimizdə işlənən ekvivalenti də alınmadır.

Yuxarıda nümunə göstərdiyimiz *the carrot and the stick* ifadəsinin tərcüməsini *başını yarıb ətəyinə qoz tökmək* kimi verərək dilimizdə artıq mövcud olan frazeoloji birləşmədən istifadə etdik. Bu timsalda saysız-hesabsız nümunələr gətirə bilərik; *the bread and butter* –

çörək ağacı, not sleep a wink – gözünü belə qırpmamaq (yata bilməmək), not do a stroke of work – bir çöpün qulpundan yapışmamaq / bir işin qulpundan yapışmamaq, not enough room to swing a cat – iynə atsan yerə düşməz və s.

Ekvivalent və ya analoq olmadığı halda frazeoloji birləşmənin tərcüməsi aşağıdakı yollarla aparılır;

1) tərcümə olunan dildə ifadə frazeoloji birləşmə şəklində, tərcümə olunacaq dildə isə söz şəklində olanda leksik tərcümənin verilməsi yolu ilə;

At last – sonda
In cash – nəğd
A bad loser – cığal

2) kalka üsulu və ya hərfi tərcümə yolu ilə;

Be imprinted on smb's memory – yaddaşa həkk olmaq
A bird's-eye view – quş baxışı
Under the same roof – eyni dam altında

Bu üsuldan həmçinin obrazlılığı itirməmək üçün də istifadə olunur.

At a snail's pace – ilbiz sürətilə (çox yavaş)

3) tərcüməni bütün mümkün üsullardan – təsvir, ətraflı izah yolu ilə vermək;

Spectator sport – çoxlu sayda insanın qrup şəklində izlədiyi idman növü
Be up to one's ears in work – qulağına qədər işin içində olmaq, çox məşğul olmaq

4) üslubdan asılı olaraq bir neçə tərcümə variantından birini seçmək yolu ilə;

At the break of the day – səhər açılanda
At dawn – sübh tezdən
Early in the morning – səhər erkəndən
At sunrise – gün çıxanda
At the crack of dawn – sübhün açılması ilə, şəfəqin saçması ilə

Yuxarıda göstərilən eyni məna kəsb edən frazeoloji birləşmələrin müxtəlif üslubda tərcümələri verilmişdir. Tərcüməçi mətnin mövzusundan, stilistika və üslubundan asılı olaraq bu birləşmələrdən birini istifadə edə bilər.

Frazeoloji birləşmələrin tərcüməsini çətinləşdirən problemlərdən biri də onların yarandığı, qaynaqlandığı mənbələrin müxtəlifliyidir və bu xüsusiyyətinə görə frazeoloji birləşmələrin aşağıdakı təsnifatını verə bilərik;

1) Toponim və yer adları ilə əlaqəli yaranmış frazeoloji birləşmələr.

Buraya tərkib hissəsinə şəhər, ölkə, çay, göl adları, coğrafi toponimlərin daxil olduğu frazeoloji birləşmələr aiddir. Məsələn: *a Dutch bargain* [10] frazeoloji birləşməsinin birinci hissəsi *Dutch – hollandiyalı* mənasındadır, *birinin daha çox xeyir əldə etdiyi sövdələşmə* mənasında işlədilir. Ümumiyyətlə, ingilis dilində tərkib hissəsinin biri *Dutch* sözündən ibarət olan bir çox frazeoloji birləşmələr vardır ki, bu da XVII əsr İngilis-Holland münaqişələri nəticəsində yaranmışdır və onların əksər hissəsi neqativ məna kəsb edir. [10] *Dutch courage – içkili, Dutch auction – sövdələşmə zamanı kimin daha az məbləğ təklif edəcəyi* mənasında işlənir. Digər ifadə – *bring coals to New Castle/ carry coals to New Castle/ take coals to New Castle* frazeoloji birləşməsinin tərkib hissəsindən biri toponimlə verilmişdir. Bu ifadəni tərcümə etmək üçün təsviri, izahlı tərcümə üsulundan istifadə etməyə ehtiyac duyulur. İngiltərədə yerləşən Nyu Kaslın özündən digər rayonlara kömür daşındığı üçün Nyu Kaslın özünə kömür daşımaq lazımsız bir iş hesab olunur və mənasını da elə *lazımsız bir işlə məşğul olmaq* kimi vermək olar.

2) Hər hansı bir region üçün səciyyəvi olan mədəniyyət, din və adət-ənənələrin xüsusiyyətlərinin yer aldığı frazeoloji birləşmələr.

Bu cür frazeoloji birləşmələrdən *be the jewel in the crown, drama queen, to hold court, forbidden fruit, to break one's fast* ifadələrini nümunə gətirmək olar. Bu birləşmələrdən *be the jewel in the crown, drama queen* saray həyatı ilə əlaqədar yaranmış frazeoloji birləşmələrdəndir. *Be the*

jewel in the crown frazeoloji birləşməsi *ən dəyərli* mənasını verir, dilimizə tərcümə edərkən analoqu *baş tacı* söz birləşməsindən istifadə etmək olar. *To hold court* frazeoloji birləşməsi *izdihamın diqqətini cəlb etmək* mənasını ifadə edir, etimologiyası saray alilərinin əyanları toplaması və ya hakimin məhkəməni başlaması ilə əlaqələndirilir. *Forbidden fruit* frazeoloji birləşməsi dinlə əlaqələndirilərək Adəmin meyvə yeməsinin qadağan olunduğu dini rəvayətlərdən irəli gəlir, tərcüməsi dilimizdəki ekvivalenti *qadağan olunmuş meyvə* kimi verilə bilər.

3) Tərkib hissəsinin birinin xüsusi adların təşkil etdiyi frazeoloji birləşmələr.

İngilis dilində bu cür ifadələrə tez-tez rast gəlinir; *Jack the Lad, moaning Minnie, Adam's ale, Damocles'* [10] *sword* belə frazeoloji birləşmələrdəndir. *Jack the Lad* ingilis dili üçün səciyyəvi olub *özündən razı olub heç kəsə əhəmiyyət verməyən gənc* haqqında deyilir. Bu frazeoloji birləşməni dilimizə analoqları *ağlı bir qarış havada* və ya *Araz aşığından, Kür topuğundan* kimi ifadə və ya deyimlə tərcümə etmək olar. *Moaning Minnie* frazeoloji birləşməsi *daima şikayətlənən biri* haqqında istifadə olunur; *Stop being such a moaning Minnie.– Bəsdir mızmızlandın/ deyindin/ şikayətləndin. Adam's ale sadə su* mənasında işlədilir. Bu birləşmə həm dini mənbələrdən qaynaqlanır, həm də tərkib hissələrdən biri xüsusi adla verilmişdir. Dini mənbələrdə Adəmin ancaq təmiz su içdiyi söyləndiyi üçün təmiz suya istinadən belə bir ifadə yaranmışdır.

4) Rəvayətlərdən, əfsanələrdən, ədəbiyyat nümunələrindən qaynaqlanmış frazeoloji birləşmələr.

Bu cür frazeoloji birləşmələrə *Achilles' heels, Adam's ale, Damocles' sword* rəvayət və əfsanələrdən qaynaqlanmış ifadələrdir. Həmçinin, Şekspirin "Otello" əsərindən *to vanish into thin air, the green-eyed monster* [11], "Hamlet" əsərindən *in my heart of heart, wear my heart upon my sleeve* [11] ifadələrini nümunə gətirə bilərik. *To vanish into thin air* frazeoloji birləşməsi klounun musiqiçilərə yox olun əmri verərkən istifadə olunmuşdur və dilimizdəki analoqu *havaya sovrulub yox olmaq* kimi, *the green-eyed monster* birləşməsi İaqonun Otellonun ürəyinə şübhə səpməsi zamanı istifadə olunur və tərcüməsi *qısqanc, paxıl* kimi verilir. *In my heart of heart* frazeoloji ifadəsini Şekspir Hamletin dərin düşüncələrindən bəhs edərkən istifadə edir və dilimizə tərcüməsi analoqu *ürəyimin/ qəlbimin dərinliklərində* kimi verilir. *Wear my heart upon my sleeve* ifadəsi isə İaqonun dilindən verilir, izah yolu ilə tərcüməsi *hislərini açıq şəkildə göstərmək* kimi verilə bilər.

Yuxarıda göstərdiyimiz nümunələrdən də belə aydın olur ki, frazeoloji birləşmələrin etimologiyasından, leksik-semantik quruluşundan və qrammatik strukturundan asılı olaraq tərcümə üsulu da dəyişir, əksər hallarda izaha ehtiyac duyulur. Bu zaman tərcüməçi tərcümənin ən dəqiq, ən obrazlı şəklini dinləyiciyə çatdırmaq üçün ən uyğun metoda əl atır.

Zaman-zaman frazeoloji vahidləri düzgün və səlis tərcümə etmə prossesi kifayət qədər çətin olur. Bəs bunu asanlaşdırmaq üçün tərcüməçi nələrə diqqət etməlidir? İlk növbədə frazeoloji vahidləri və sözlərin sabit hissəsini düzgün müəyyən edilməlidir. Daha sonra isə frazeoloji vahidin tərcüməsi elə düzgün seçilməlidir ki, obrazlılıq, üslub və stilistikaya zərər gəlməsin.

Sözsüz ki, azərbaycan və ingilis dillərinin müqayisəsi zamanı frazeoloji birləşmələrin qram-matik strukturunda fərqlilik müşahidə edirik. Lakin bəzən qrammatik struktur oxşar olsa belə, hərfi tərcümə zamanı biz tamamilə başqa bir məna ilə rastlaşırıq. Məsələn: *hardened criminals* birləşməsini tərcümə edərkən *bərkimiş cinayətkarlar* kimi tərcüməylə üz-üzə qalırıq. Əslində isə, ifadənin mənası *bir çox cinayətlərdə əli olan cinayətkarlar* mənasında işlənmişdir.

Yuxarıda göstərdiyimiz təsnifatda da verildiyi kimi, bir çox frazeoloji birləşmələr o qədər qədim və dərin məna çalarlarına malikdir ki, onların mənasını anlamaq, izahını vermək üçün etimologiyalarına müraciət etmək qaçılmazdır. Bu da müasir dövrümüzdə, XXI əsr tərcüməçilərinin ən tez-tez qarşılaşdığı problemlərdəndir. İngilis dilində hətta elə qədim frazeoloji birləşmələr mövcüddur və o qədər az işlənilir ki, işləklikdən çıxmaq üzrədirlər. Bu cür frazeoloji birləşmələrdən *pearls before swine, nailing your colors to the mast, pip pip, know your onions* birləşmələrini nümunə gətirmək olar. Britaniyada 2000 orta yaşlı ingilislər arasın-

da aparılan milli sorğuya görə onların 78%-i həyatlarında heç vaxt *pearls before swine* frazeoloji birləşməsini işlətməyiblər. Birləşmənin mənası *birisinə dəyərli bir əşya vermək və ya yardım etmək mənasızdır və o insan buna dəyər verməyəcək* deməkdir. İfadə 1526-cı ildə Vilyam Tindalın Bibliyanı tərcüməsi zamanı yaranmışdır, daha sonralar Şekspir və Dikenzin əsərlərində də rast gəlinmişdir. *Nailing your colors to the mast* frazeoloji birləşməsi 71% müasir Britaniyalılar tərəfindən işlədilmir. Etimologiyası 17-ci əsrlərə dayanan bu frazeoloji birləşmə *öz inanclarını açıq-aşkar elan etmək,* həmçinin dənizçilikdə də istifadə olunaraq *təslim olmamaq* mənasında işlənmişdir. Adətən sağollaşarkən işlədilən *Pip pip* ifadəsi 70% Britaniyalı tərəfindən ümumiyyətlə bilinmir. Tarixçəsi 1907-ci ilə gedib çıxan bu ifadənin maşın siqnalının imitasiyası olduğu düşünülür. 68% Britaniyalı *know your onions* ifadəsindən xəbərdar deyil, mənası *bir kəsin öz sahəsində/peşəsində bilikli, təcrübəli olması* deməkdir. Bəzi fikirlərə görə ifadə 1960-cı ildə Britaniyalı dilçi S.T.Onyanın İngilis Oksford Lüğəti üzərində çalışmasından sonra meydana gəlmişdir. Digər mənbələrə görə isə frazeoloji birləşmə ilk dəfə 1922-ci ildə Birləşmiş Ştatlarda "Harperz Bazaar" adlı jurnalda istifadə olunmuşdur. Daha sonra *know one's oats, know one's oil* və digər formalarda da işlədilmişdir [12].

Həmçinin, *a nod is a good wink – bir eyhamdan, işarədən anlamaq, a stitch in time saves nine – problem vaxtında həll edərlər, mad as a hatter – dəli, curtain twitcher – qonşularının hər işi ilə maraqlanan, onların hər addımını izləyən insan* frazeoloji birləşmələri də bu qəbildən olan ifadələrdəndir.

Bəzi frazeoloji birləşmələrin öz işləkliyini itirib arxaikləşməsiylə yanaşı yeni frazeoloji birləşmələrin – neologizmlərin də yaranmasını müşahidə edirik. Elmin, texnologiyanın, tibbin inkişafı ilə əlaqədar yeni sözlərlə yanaşı, frazeoloji birləşmələr də yaranıb işləklik qazanır ki, bu da gənc tərcüməçilər üçün müəyyən çətinliklər törədə bilər.

Nümunə olaraq, 2020-2022-ci illərdə qlobal pandemiya ilə əlaqədar olaraq, *quarantine pod/ quarantine bubble, social distancing, contact tracing, super spreader event* kimi yeni frazeoloji birləşmələr ingilis dilində yer alıb beynəlxalq konfransların, araşdırmaların işlək terminlərinə çevrilməsini misal gətirə bilərik. *Quarantine pod və quarantine bubble* ifadələri *karantin kapsulası/çevrəsi, pandemiya zamanı yoluxmanın qarşısını almaq üçün insanlarla təmasdan yayınmaq* mənasını verir. *Social distancing* frazeoloji birləşməsinin dilimizdəki ekvivalenti *social təmas/yaxınlıq* şəklində olacaq. *Contact tracing* ifadəsi altında *xəstə insanlarla təmasda, ünsiyyətdə olan şəxslərin müəyyən olunması* başa düşülür. *Super spreader event* frazeoloji birləşməsi isə *bir nəfərin maksimal sayda insanı yoluxdurması* mənasını verir.

Digər yeni işlək hal almış frazeoloji birləşmələrdən *paddle your own canoe, cup of joe, pound the pavement, spoon-feed someone, beat around the bush* kimi ifadələri misal gətirə bilərik. *Paddle your own canoe – hər işin öhdəsindən təkbaşına gəlmək, cup of joe – bir fincan kofe, pound the pavement – iş axtarmaq üçün bütün küçələri gəzmək, spoon-feed someone – bir kəsin əvəzinə hər işi görmək, beat around the bush – mövzudan yayınmaq* mənalarında işlənir. Yeni yaranmış frazeoloji birləşmələr də müasir dilçilikdə tərcüməsi çətinlik yaradan aktual məsələlərdən biridir.

Beləliklə, bu elmi məqalədə müasir dövrümüzdə frazeoloji birləşmələrin və ifadələrin tərcüməsi zamanı frazeoloji birləşmələrin növlərinə, işlək olub-olmamağına, leksik-semantik quruluşu, qrammatik strukturuna əsaslanaraq tərcüməçinin qarşılaşa biləcəyi çətinlik və problemlər təhlil olunub araşdırıldı. Arxaik və işlək, alınma və dildə mövcud frazeoloji birləşmələrdən müxtəlif nümunələr göstərilərək, onların tarixçəsi, etimologiyası və tərcüməsi zamanı çətinliyə səbəb olan problemlərə toxunuldu və tədqiq olundu. Bütün bunlarla yanaşı, bu məqalədə frazeoloji birləşmələrin tərcüməsi metodu və üsullarından bəhs olundu və mümkün qədər maraqlı şəkildə onların həlli yollarının təhlili aparıldı.

Ədəbiyyat

1. İngilis dilində feli frazeoloji birləşmələr və onların azərbaycan dilində ifadəsi, E.Mehdiyeva (2005)
2. Müasir Azərbaycan ədəbi dili, I cild A.Qurbanov (2003)
3. Müxtəlif sistemli dillərdə frazeologizmlərin tipoloji ekvivalentliyi, V.Həsənova (2015)
4. Poetik tərcümələr, I toplu H.İsaxanlı (2005)

Rus dilində ədəbiyyat

5. Англо-русский фразеологический словарь, А.В.Кунин (1984)
6. Перевод русских фразеологизмов на английский язык, С.С.Кузьмин (1977)
7. Практикум по переводу с английского языка на русский, В.Н.Крупнов.

İnternet resursları

8. www.hal.archives-ouverts.fr
9. www.collinsdictionary.com
10. www.dictionary.cambridge.org
11. www.businessinsider.com
12. www.dailymail.co.uk
13. www.about-english.com
14. www.bloglingoda.com

Г.А.Азизова

Трудности при переводе фразеологизмов

Резюме

В данной статье после предоставления краткой информации о фразеологических сочетаниях в научных исследованиях, были сопоставлены и показаны на примерах используемые методы при их переводе с английского на азербайджанский язык.

Также в статье были исследованы и проанализированы проблемы и трудности, возникающие в плане лексико-семантического строения и грамматической структуры при переводе архаичных, новых и заимствованных фразеологических единиц английского языка. Необходимо отметить что, ни один словарь не может точно передать значение фразеологических единиц в конкретном тексте и поэтому в процессе перевода делается упор на эквивалентность фразеологизмов. Исходя из этого, в статье наряду с вышесказанным были обсуждены существующие формы поликультурной идиоматической эквивалентности во фразеологических сочетаниях и дана сравнительная классификация этой эквивалентности при их переводе на азербайджанский язык.

Кроме того, в исследовательской работе фразеологические единицы были разделены на типы по своему составу и этимологии, наглядно показаны приемы и способы подбора и применения подходящих эквивалентов и аналогов при переводе с английского на азербайджанский язык.

G.A.Azizova

Challenges of phraseological translation

Summary

In this article, after providing brief information on phraseological combinations, the methods used in their translation from English into Azerbaijani were analysed and shown in examples.

Also in this article, the problems and difficulties of the translation of archaic, new and borrowed phraseological units of the English language were researched and analysed in the terms of lexical-semantic and grammatical structure. It is also necessary to note that, no dictionary can accurately convey the meaning of phraseological units in a particular text, and therefore, in the process of translation, emphasis is made on the equivalence of phraseological units. Based on the above mentioned fact, a comparative classification and the existing forms of multicultural idiomatic equivalence of phraseological combinations were discussed and explained in this article.

In addition, in the article, phraseological units were divided into different types according to their etymology, the techniques and methods of selecting and using suitable equivalents and analogues were clearly shown.

Rəyçi: f.f.d. X.A.İbrahimova

Redaksiyaya daxil olub: 22.02.2023

A.Y.HACIZADƏ
filologiya üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

ŞİFAHİ VƏ YAZILI NİTQDƏ BİRLƏŞDİRİCİ VASİTƏ KİMİ İŞLƏDİLƏN NİTQ HİSSƏLƏRİ

Açar sözlər: *danışıq, şifahi, yazılı, birəşdirici vasitələr, nitq hissələri, məna*
Key words: *speech, oral, written, connecting markers, parts of speech, meaning*
Ключевые слова: *речь, устная, письменная, соединительные маркеры, части речи, значение*

Danışıq dili şifahi diskurs vasitəsilə həyata keçirilir. Bu zaman danışanlar müxtəlif vasitələrdən istifadə edirlər.

Müzakirəni tam başa düşmək üçün onu "kontekstində" başa düşmək lazımdır. Bununla belə, dilçilik, diskurs tədqiqatları, danışıq təhlili, psixologiya və sosial elmlər onilliklər ərzində nitqin və ya mətnin xüsusiyyətlərinə ətraflı diqqət yetirdiyi halda [1, s.7], dildən istifadə kontekstləri adətən nəzərə alınmır və onlar sosial vəziyyətin təcrid olunmuş "dəyişənləri" kimi təqdim edilir və ya öyrənilir.

İstənilən diskurs konteksti müxtəlif birləşdirici vasitələrdən ibarət olur.

Diskurs markerləri (yaxud birləşdirici vasitələr) sözlərdən və ifadələrdən təşkil olunur. Onların əsas vəzifəsi müxtəlif cümlələri, mətnləri, hətta fikirləri belə bir-birinə bağlamaqdır. Diskurs markerləri əsasən şifahi danışıqda (yazılı nitqdə də olmaq şərtilə) danışanlar arasında istifadə olunur. Diskurs markerlərində istifadə olunan sözlərdən aşağıdakıları göstərmək olar:

Anyway	Hər halda
Because	Çünki
Fine	Gözəl, əla, yaxşı
Good	Gözəl, əla, yaxşı
Great	Gözəl, əla, yaxşı
Like	Belə
Now	İndi
Oh	Ah
Okay	Oldu
Right	Düzdür
So	Beləliklə
Well	Oldu; yaxşı

İfadələr (frazalar)

You know	Bilirsən
I mean	Bunu ifadə etmək istəyirəm
As I say	Dediyim kimi
For a start	Başlanğıc üçün
Mind you	Diqqət edin

Sözlərdən də göründüyü kimi, diskurs markerləri müxtəlif nitq hissələrindən ibarət olur.

Məlum olduğu kimi, müasir ingilis dilində nitq hissələri əsas, köməkçi və müstəqil olmaqla üç yerə bölünür. Əsas nitq hissələri, məsələn, isim, say, əvəzlik və s. (sayı 7), köməkçi nitq hissələri, sözönü, bağlayıcı və s. (sayı 4), müstəqil nitq hissələri modal sözlər və nidalar

olmaqla ümumilikdə 13 nitq hissəsidir. Nitq hissələrinin müəyyən bir qismi diskurs markeri kimi istifadə olunur.

İndi həmin nitq hissələrindən bəzilərini nəzərdən keçirək. Ən çox işlədilən diskurs markerlərindən *müstəqil* (independent parts of speech) nitq hissələrini qeyd etmək olar. İngilis dilinin qrammatikasında iki müstəqil nitq hissəsi vardır. Onlardan biri "Nidalar" (the Interjections), digəri isə "modal sözlər"dir (Modal Words). Nidalar haqqında müəyyən məlumat verək və sonra onların diskurs markerləri kimi istifadəsini nəzərdən keçirək.

O.Musayev yazır ki, nidalar bütün dillərdə olduğu kimi, ingilis dilində də fərqli hiss-həyəcanı ifadə edir [2, s.291].

L.V.Kauşanskaya da nidaları belə ifadə edir: *"Nidalar qrammatik cəhətdən müstəqil olan sözlər və ya ifadələrdir. Onlar mənadan daha çox hiss-həyəcan ifadə edir"* [3, s.190].

Nidalara aid olan xüsusiyyətləri belə ifadə edə bilərik: onlar müstəqil şəkildə cümlə üzvü ola bilmir; cümlənin başqa üzvləri ilə sintaktik əlaqələri olmur; onlara aid olan xüsusi sözdüzəldici şəkilçiləri olmur; onların qrammatik kateqoriyaları da yoxdur [2, s.292].

Nidalar diskurs marketləri kimi şifahi danışıqda geniş işlədilir [4].

Müasir ingilis dilində nidalar bir neçə qrupa bölünür:

1) hiss-həyəcan ifadə edən nidalar. Məsələn: *ah!, oh!, alas!, hurrah!, ugh!, huzza!* və s.

2) əmr-təkid, razılıq və s. bildirən nidalar. Məsələn: *hey!, hush!, sh!,well!, why!, hey!, here!, come!* və s.

Dildə ifadə etdikləri mənalara görə nidalar əsli və törəmə olmaqla iki qrupa bölünür. Əsli nidalar sırf nidalar hesab olunduğu halda, törəmə nidalar digər nitq hissələrindən yaranır. Qeyd edək ki, nidaların hər iki növü diskurs markerləri kimi şifahi diskursda, həm də yazılı diskursda geniş şəkildə işlədilir.

Diskursun həm şifahi, həm də yazılı növlərində rast gəlinən diskurs markerlərinin növbəti növlərindən biri də nitq hissələri içərisində geniş rast gəlinən bağlayıcılardı. Məlum olduğu kimi, *bağlayıcılar* (The Conjunctions) köməkçi nitq hissələrindən biri hesab olunur.

Müasir ingilis dilində bağlayıcıları təsnif etmək üçün müxtəlif üsullardan istifadə olunur: morfoloji quruluş baxımından və ifadə etdikləri qrammatik məna və əlaqə baxımından [5, s.327]. Morfoloji quruluş baxımından bağlayıcılar sadə (and, that, so, if və s.), düzəltmə (until, unless, because və s.) və mürəkkəb (whoever, whatever, whereas və s.) olur. Bundan əlavə, müasir ingilis dilində tərkibi bağlayıcılar da mövcuddur. Onlara nümunə kimi *as soon as, as ....as, as long as* və s. göstərə bilərik. Müasir ingilis dilində qoşa bağlayıcılar da vardır. Onlara nümunə kimi *either ...or, neither ....nor, not only .... but* (also) və s. göstərmək olar.

Bağlayıcılar *tabesizlik əlaqəsi bildirən və tabelilik əlaqəsi bildirən* olmaqla ifadə etdikləri məna baxımından iki qrupa bölünür.

Bağlayıcılar da çox istifadə olunan diskurs markerləri arasında yer tutur. Məsələn, onlardan bəzilərini nümunə verə bilərik: *because, anyhow, but, and, whereas, when, whenever, wherever, whoever* və s. [6, s.135]

Köməkçi nitq hissələrindən olan ədatlar (The particles) da diskurs markerləri kimi çox istifadə olunur. Ədatlar haqqında qısa məlumat verək.

Digər köməkçi nitq hissələri kimi ədatların da cümlədə müstəqil funksiyaları olmur. Onların qrammatik kateqoriyaları və morfoloji funksiyaları yoxdur. Bu səbəbdən də onlar cümlədə müstəqil üzv ola bilmir. Cümlədə aid olduğu sözə, yaxud cümləyə əlavə məna, ifadə vermək ədatlara məxsusdur. Onlar aid olduqların sözün, cümlənin, ifadənin mənasını qüvvətləndirə, məhdudlaşdıra, inkar edə bilir. Onlar eyni zamanda cümlələr arasında əlaqə yarada, onları bir-birinə bağlaya bilər.

Müasir ingilis dilində ədatların bir neçə növü var: 1) qüvvətləndirici; 2) məhdudlaşdırıcı; 3) bağlayıcı; 4) inkar; [7, s.333]. Ədatlar əsasən omonim olaraq işlədilir. Ədatlara aid nümunəni belə təqdim edə bilərik: *just, even, yet, only, simplt, still, but, merely, also, too, not never, else* və s.

Diskurs markerləri danışıq zamanı müxtəlif seqmentləri bir-birinə bağlayır. İngilis dilinin Kembric qrammatikasında diskurs markerləri müxtəlif cümlələri, abzasları bir-birinə bağlayan vasitələr kimi təqdim olunur.

Diskurs markerləri danışana diskursda nəzarəti həyata keçirməyə imkan verir və onlar güclə bağlıdır. Məsələn, sinifdə adətən bu cür nəzarəti nitqlə ifadə edə bilən yalnız müəllim olur. Bir dialoqu nəzərdən keçirək:

"We are going to have a demo lesson ***today. Right.*** *You should be ready for it.* ***Right.*** *You should wear white shirts and black skirts.* ***Right.*** *Put some flowers into the vase* ***and*** *put it on the table.* ***Right. So,*** *we will have some guests* ***too. Right. Then*** *at the end of the lesson I will put you some marks.* ***Right." (****Bu gün açıq dərsimiz olacaq. Oldu. Buna hazır olmalısınız. Oldu. Ağ köynək və qara ətək geyinməlisiniz. Anladınız. Vazaya çiçək qoyarsınız və onu da masaya qoyarsınız. Aydındır. Bilin ki, bizim bir neçə qonaqlarımız da olacaqdır. Oldu. Sonra dərsin sonunda sizə qiymətlər də yazacağam. Aydındır).*

Təqdim edilən mətndə markerlərin işlədilməsindəki məqsəd tam aydındır. Mətndə işlədilən cümlələr arasında əlaqə yaratmaq, onların mənalarını daha təsiredici etmək, həmçinin dinləyənə, yaxud oxuyana təsiredici güc göstərmək.

Diskurs markerləri bizim hər zaman istifadə etdiyimiz və bir növ ingilis dilinin lüğət tərkibinin müəyyən hissəsini təşkil edən terminlərdir. Bu sözlər və ifadələr bizə fikirlərimizi qurmağa və fikirlərimizi aydın ifadə etməyə kömək edir. *Diskurs markerləri* əsasən danışarkən istifadə olunan "Belə ki…", və yaxud "Yaxşı…" kimi qeyri-rəsmi sözlər ola bilər. Onlar həmçinin esselərdə və daha rəsmi yazılı vasitələrdə istifadə olunan "Mənim fikrimcə…" və ya "Əksinə…" kimi daha rəsmi ifadələr də ola bilər.

Diskurs markerləri dediklərimizi təşkil etmək və əlaqələndirmək üçün yazılı və şifahi ingilis dilində istifadə etdiyimiz sözlər və ifadələrdir. Biz onları "keçid sözləri", "siqnal sözləri", "bağlayıcı sözlər" və ya hətta "doldurucu sözlər" kimi də adlandıra bilərik.

Qeyd edək ki, diskurs markerləri ümumiyyətlə cümlənin daxili mənasını dəyişdirmir, baxmayaraq ki, bəzən onlar fikirlərin aydınlığı və məntiqi əlaqələndirilməsi üçün vacibdir. Məsələn, belə nümunə verək:

My sister broke her arm yesterday. She goes to the gym every week. (Bacım dünən qolunu sındırıb. O, hər həftə idman zalına gedir).

Bu cümlələr qrammatik və quruluş baxımından düzgündür, lakin əslində tam mesajı çatdıra bilmir. Bunun əvəzinə belə demək olar:

Despite the fact that *my sister has broken her arm, she* ***yet*** *goes in for sports to the gym (Bacım qolunu sındırmasına baxmayaraq, hələ də idman zalına idmanla məşğul olmağa gedir).*

Bu diskurs markerlərini (***Despite the fact that..., yet)*** əlavə etməklə, icraçının işində necə də fədakar olduğunu, işini necə sevdiyini vurğulamış oluruq və biz buna bu məsələni birbaşa ifadə etmədən nail olmağı bacarırıq.

Danışıqda istifadə olunan diskurs markerlərinin növləri çox vaxt yazıda istifadə olunanlardan tamamilə fərqlidir.

Diskurs markerləri rəsmi olmur və aşağıdakıları ehtiva edə bilər:

Nidalar (interjections): *Ah! (Ah); wow! (Vay!); Ouch! (Uf!); Hurrah! (Ura)* və s.

Tərəddüd ifadə edən sözlər (hesitators): *Ummm, Er; Erm; Hmmm, Well, here, come* və s.

And və ya söyüş ifadə edən sözlər (expletives): *Damn! (lənətə gəlmiş/gələn), My God! (Aman Allah); Goodness me! (Allahım sən qoru!); Oh no! (Aman Allah, ola bilməz!)* və s.

Diqqət cəlb edən sözlər (vocatives): *Hey! (Ey!); Wait! (Gözlə!); Dude! (dostum); Mate! (yoldaş!); Oi! (Oy!)* və s.

Diskurs markerlərinin bu nümunələri adətən yalnız danışıq və ya qeyri-rəsmi yazılı mesajlarda istifadə olunur. Təbii ki, danışıqda yazıda istifadə olunan hər hansı əlaqələndirici ifadələr də işlədilə bilər, lakin ifadə nə qədər formaldırsa, onun normal söhbətdə istifadə olunma ehtimalı bir o qədər azdır.

Esselərdə və rəsmi yazılarda diskurs markerlərinə gəldikdə, onlar oxucunu müəllifin düşüncə prosesində istiqamətləndirmək üçün diqqətlə seçilməli və məqsədyönlü şəkildə yerləşdirilməlidir. Yaxşı istifadə olunduqda, onlar daha effektiv ola bilir. Bununla belə, diskurs markerlərinin həddən artıq istifadəsində diqqətli olmaq lazımdır.

Qeyd etmək lazımdır ki, həm yazıda, həm də danışıqda çox istifadə olunan bağlayıcı (birləşdirici) sözlərdən, daha dəqiqi diskurs markerləri kimi işlədilən sözlərdən aşağıdakıları nümunə göstərmək olar:

Əlavə şərh və ya fikir bildirənlər	Additionally (əlavə olaraq); also (həmçinin); moreover (üstəlik); again (yenidən); further (əlavə); then (o zaman); besides (bundan başqa); too (həmçinin); similarly (oxşar olaraq); corresponding (müvafiq olaraq) və s.
Seçim bildirənlər (alternativlər)	Whereas (halbuki); conversely (əksinə); in comparison (müqayisə); by contrast (əksinə); another view is… (digər fikir belədir ki…); alternatively (alternativ olaraq); although (baxmayaraq); otherwise (əks halda); instead (əvəzinə, yerinə) və s.
Nəticə bildirənlər	Therefore (ona görə də); accordingly (müvafiq olaraq); as a result of (nəticədə); the result is/are (nəticə/nəticələr belədir ki...); the consequence is…(nəticəsidir ki…); resulting from (nəticəsində yaranır…); consequently (nəticədə); it can be seen (görmək olar); evidence illustrates that (sübut göstərir ki); because of this (bu səbəbdən); thus (beləliklə); hence (deməli); for this reason (bu səbəbdən); this suggests that (bu onu bildirir ki); it follows that (bundan irəli gəlir ki); otherwise (əks halda); in that case (o halda ki); that implies (bu onu nəzərdə tutur ki); və s.
Səbəb/nəticə	As a result of (nəticədə); because (çünki);
Müqayisə	Compared with (…müqayisədə); in the same way (eyni yolla, eyni cür); likewise (eynilə);
Ziddiyyət	By contrast (əksinə); although (baxmayaraq); compared with (…müqayisədə); conversely (əksinə); despite (baxmayaraq); however (lakin, amma); nevertheless (buna baxmayaraq); yet (hələ); və s.
Təsir/nəticə	As a result (nəticədə); therefore (ona görə ki); thus (beləlilə) və s.
Daha əvvəl vurğulananlar	However (baxmayaraq); nonetheless (buna baxmayaraq); furthermore (əlavə, üstəlik); in the final analysis (yekun təhlildə); despite (baxmayaraq); notwithstanding (baxmayaraq); və s.
Nümunələrin təqdim edilməsi	For example (missal üçün); for instance (məsələn); namely (yəni, məhz); such as (belə ki); as follows (göstərildiyi kimi); as exemplified by (missal kimi); including (daxil olmaqla); particularly (xüsusilə); in particular (xüsusilə); notably (xüsusilə); mainly (əsasən); və s.
Yenidən ifadə edən ifadələr	In other terms (başqa sözlərlə); rather (daha doğrusu); or (yaxud); better (daha yaxşı); in view of this (bunu nəzərə alaraq); in contrast (əksinə); və s.
Sıralama bildirən ifadələr	Firstly (ilk olaraq); secondly (ikincisi); thirdly (üçüncüsü); another (digər, başqa); additionally (əlavə olaraq); finally (nəhayət); moreover (üstəlik); also (həmçinin); subsequently (sonra); even (hətta; üstəlik); və s.
Xülasə və ya nəticə	In conclusion (nəticədə); therefore (nəticədə); to conclude (yekunlaşdırmaq); on the whole (ümumən); hence (nəticədə); thus to summarise (beləliklə ümumiləşdirmək üçün); after analysis (təhlildən sonra) və s.

Bu bağlayıcı (birləşdirici) sözlər, yaxud ifadələr həm yazılı, həm də şifahi diskursda geniş istifadə olunur. Onların bədii ədəbiyyatda da istifadəsi təbii ki, olduqca rast gəlinəndir.

Ədəbiyyat

1. Dijk T.A. The Study of discourse // Discourse studies: A multidisciplinary introduction: In 2 vol. /Ed. By T.A.van Dijk. Vol.1. Discourse as structure and process, – London: Saga, 1997. – p. 1-34.
2. Musayev O. İngilis dilinin qrammatikası. – Bakı: Qismət, 2008. – 359 s.
3. Каушанская Л.В. A Grammar of the English language. – Москва: Прогресс, 2008. – 358 с.

4. https://www.sciencedirect.com/science/article/pii/S0378216608001859/pdf?md5=7b9cc982c94b78bd05a485addcb70f16&pid=1-s2.0-S0378216608001859-main.pdf
5. Collins P. English Grammar. London: Longman, 1999, – 918 p.
6. Greenbaum S., Nelson G. An introduction to English Grammar. London: Routledge, 2016, – 335 p.
7. Hurford J. Grammar: A student's guide. Cambridge: Cambridge University Press, 1994, – 288 p.
8. Kroeger P.R. Analysing Grammar: An Introduction. Cambridge: Cambridge University Press, 2005, – 384 p.

А.Я.Гаджизаде

Части речи, используемые в качестве связующих маркеров в устной и письменной речи

Резюме

В статье рассматриваются части речи, используемые в качестве соединительных маркеров в устной и письменной речи.

В статье указано, что дискурсивные маркеры (или связующие маркеры) не входят в структуру предложения. Читая статью, становится понятно, что дискурсивные маркеры служат для обозначения разного рода отношений между высказываниями и одновременно обозначают социальные отношения относительно власти и формальности. Другими словами, дискурсивные маркеры позволяют говорящему осуществлять контроль над дискурсом, как устным, так и письменным.

Упоминается, что большинство дискурсивных маркеров образуются из таких частей речи, как междометия, союзы, частицы и т. д. Каждый из этих маркеров проанализирован в статье как дискурсивный маркер на примерах из разных источников.

A.Y.Hajizade

The Parts of Speech used as connecting markers in oral and written speech

Summary

The article deals with the Parts of Speech used as connecting markers in oral and written speech.

The article states that discourse markers (or connecting markers) do not enter the structure of the sentence. Reading the article, it becomes clear that discourse markers serve to indicate various kinds of relationship between utterances, and simultaneously indicate social relations regarding power and formality. In other words, discourse markers enable the speaker to exercise control in the discourse, either oral or written kinds.

Most of the discourse markers are mentioned to be formed from the parts of speech such as interjections, conjunctions, particles, etc. Each of these markers have been analyzed as discourse markers in the article basing on examples from different sources.

Rəyçi: filol.f.d., dos. İ.M.Nuriyeva

Redaksiyaya daxil olub: 01.05.2023

Ə.Z.HƏSƏNOV
e-mail: azamathasanov1989@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

MORFEM NƏZƏRİYYƏSİ: TARİXİ VƏ LİNQVİSTİK ASPEKTLƏRİN PRİZMASINDA

Açar sözlər: *morfem, fonem, struktur, morfologiya, söz yardıcılığı, morfoloji səviyyə*
Ключевые слова: *морфема, фонема, структура, морфология, словообразование, морфологический уровень*
Key words: *morpheme, phoneme, structure, morphology, word formation, morphological level*

Morfologiyanın xüsusi bir elm sahəsi olaraq tanınmasına ehtiyac vardır. Bu elm sahəsi başqa elm sahələrində ancaq ehtiyac duyulanda və səthi bir şəkildə ələ alınan şeyləri özünə başlıca mövzu edərək digər elm sahələrində dağınıq olan şeyləri yığışdırar. Təbii obyektləri rahat və uyğun bir şəkildə analiz etməyi təmin edən yeni baxışı ortaya qoyar. Maraqlandığı faktlar olduqca mənalıdır, faktları qarşılaşdırmaq üçün istifadə etdiyi metodlar insan təbiətinə uyğundur və onun xoşuna gələr. Belə ki, uğursuzluğa uğramış bir cəhd belə faydalılıq və gözəlliyi birləşdirir.

Göte

İnsanlar ünsiyyət zamanı kommunikativ vahid cümlələri seçdikləri sözlər əsasında qurular. İlk baxışdan çox sadə görünən bu proses, əslində, ünsiyyət aktına, söz seçiminə, danışıq aktında dilin struktur vahidlərinin funksionallaşmasına, söyləmlərin danışıq anı və konsituasiyadan asılı olaraq müxtəlif semantik çalarlara malik olmasına diqqət etsək, onda məsələnin göründüyü qədər də bəsit olmadığı məlum olur.

Nominativ vahidləri təmsil edən sözlərin, demək olar ki, hər birinin özünəməxsus daxili strukturu vardır. Sözlərin individual strukturunu yalnız digər və ya digərlər sözlərlə müqayisədə aşkara çıxara mümkündür. Leksemlər ən azı bir morfemdən, morfemlər isə ən azı iki və daha artıq fonemlərin kombinasiyasından ibarətdir. Məna ilə birbaşa əlaqəsi olmayan fonemlərdən fərqli olaraq, morfem forma və mənanın vəhdətindən yaranmış dil vahidləridir. Başqa sözlə, morfem dil sistemində mənaya malik ən kiçik struktur vahiddir.

H. Qlison morfem haqqında fikrini belə ifadə edir: "...morfem ifadə sisteminin əsas vahididir. ...ifadə sisteminin vahidi kimi morfem dilin məzmun sistemi ilə əlaqəyə girir. ...morfemlər özlüyündə fonemlərin qısa ardıcıllığını təmsil edirlər" [13, s.91].

Xüsusi işarələr sistemini təmsil edən təbii dil müxtəlif səviyyələrdən təşkil olunmuşdur. İyerarxik münasibətlərəəsaslanan dil sisteminin ilk səviyyəsi fonologiji səviyyədir. Fonologiyanın əsas vahidi fonem variantlara, morfem isə allomorflara xas ümumi əlamətləri özündə birləşdirərək invariant kimi çıxış edir. İyerarxik sıralamada fonologiyanı dilin ilk səviyyəsi, morfologiyanı isə ikinci səviyyəsi kimi qəbul edirlər.

Morfoloji səviyyənin vahidi morfemdir. Bu məqalədə dilin morfoloji səviyyəsi, daha doğrusu, morfoloji səviyyənin vahidi morfemdən bəhs etməyə çalışacağıq. Bu məqsədlə morfem anlayışının dilçilik elminə gətirilməsi, mahiyyəti, müxtəlif dilçilik cərəyanlarının nümayəndələrinin morfem nəzəriyyəsinə münasibəti, morfem anlayışının Azərbaycan dilçiliyinə gətirilməsi, morfemin növləri, Azərbaycan dilində sözün morfem tərkibi, bir-, iki-, üç- və daha artıq morfemli sözlərin struktur xüsusiyyətlərini konkret mənbələr əsasında araşdırmağa cəhd edəcəyik. Bundan başqa, ümumdilçilik baxımından da morfem nəzəriyyəsinin mahiyyəti, istiqaməti və morfemlə bağlı son fikirlərə toxunmağa çalışacağıq.

Dillərin morfoloji strukturu, onların morfoloji sistemlərinin təkrarsızlığı bu istiqamətdə aparılan tədqiqatların ana xəttini təşkil etmişdir. Dilçilərin morfoloji tədqiqatlara üstünlük verməsi, morfoloji araşdırmaların linqvistik müstəvidə daima aktual və "həmişəcavan" olmasının səbəbi dünya dillərinin tipoloji atlasını formalaşdırmaq cəhdi ilə izah etəmk olar. Təsadüfi deyildir ki, morfoloji araşdırmalarda məqsəd dünya dillərini fundamental şəkildə təhlil etmək, əksər dilləri əhatə edən universal tipologiyanı yaratmaq prioritet məsələlərdəndir.

Leksik qatdakı sözlərin proqnozlaşdırıla bilən struktur xüsusiyyətlərini müfəssəl şəkildə təyin etməyə imkan yaradan morfoloji qaydaların aşkar edilməsi, yeni sözlərin yaranma modellərinin dillərin tipoloji xüsusiyyətlərinəəsasən şərh etmək meyarlarının müəyyənləşdirilməsi morfoloji tədqiqatların əsas qayəsidir.

Məsələn, ingilis dilçisi A.Ç.Makkartinin fikrincə, "morfologiyanın mövcudluğu ilə bağlı suallar dilin mövcudluğuna dair suallara bərabərdir" [1, s.6].

Sözün xətti ardıcıllıqda struktur təşkilini tədqiq edən morfologiya əsas tədqiqat materialı dilin mənalı vahidləri, yəni morfemlər çıxış edir. Morfologiya sözləri, onların qurluşunu, formasını, yaranma xüsusiyyətlərini, başqa sözlərlə qarşılıqlı əlaqələrini araşdırır. Sözləri əmələ gətirən kök və affiksal morfemlərin formal xüsusiyyətlərini təhlil edir. Morfemlərin söz yaradıclığında iştirakı, morfemlər vasitəsi ilə dildaxili sözyaratma imkanları məsələləri isə derivatologiyada tədqiq edilir.

Müasir dilçilik dillərin söz yaradıcılığı qabilliyini ətraflı öyrənmək, bu məsələni çağdaş elmi-linqvistik prizmadan nəzərdən keçirmək üçün daim morfoloji zəmində təhlillərə ehtiyac duyur. Sovet linqvisti N.A.Baskakov bu məsələyə ciddi önəm vermişdir. O, nitq hissələrinin yaradılması prosesində söz yaradıcılığının çox böyük əhəmiyyət malik olduğunu yazırdı. Nitq hissələrinin təsnifində ən əvvəl sözün təbiətindən, mahiyyətindən, onun leksik və qrammatik məzmunu izah etməkdən, onun maddi quruluşundan və nəhayət, vəzifəsini öyrənməkdən başlamağı məqsədəuyğun hesab edir. O, dilçilik araşdırmalarında istər dillərin tipologiyası məsələlərində düzgün yol tutmaq, dillərin qohumluq əlaqələrini aşkara çıxarmaq, istərsə də nitq hissələrinin təbiətini, mahiyyətini təyin etmək üçün sözləri morfoloji cəhətdən analiz etməyin vacibliyini, morfoloji araşdırmaların əhəmiyyətini önə çəkirdi.

N.A.Baskakov sözün kök və şəkilçi, birinci əsas, ikinci əsasdan ibarət olduğunu, birinci əsasın kök və leksik-qrammatik şəkilçilərdən əmələ gəldiyini, ikinci əsasın isə birinci əsas üzərində vəzifəvi-qrammatik (forma düzəldən) şəkilçilərin əlavəsi ilə yarandığını qeyd edir. O, bu qərara gəlirdi ki, nitq hissələri problemini ancaq sözün sözyaratma və sözdəyişdirmə prosesində meydana çıxan bütün leksik-qrammatik və funksional-qrammatik kateqoriyalarını və quruluşunu morfoloji aspektdən dəqiq müəyyənləşdirmək, öyrənmək əsasında həll etmək olar [14].

İngilis dilində "morphology", "morphological" və "morphologicaly" terminləri XIX əsrin əvvəllərində müxtəlif elm sahələrinə aid terminlər kimi dildə mövcud idi. XIX əsrin ortalarından, daha dəqiqi, 1860-cı illərdən etibarən "morfologiya" termini dilçilik sahələrində sözlərin müxtəlif formaları, quruluşu ilə maraqlanan, sözün daxili strukturunun yaranmasını və sözün yaranmasında yer alan zehni mexanizmləri izah edən dilçilik sahəsini ifadə etmək məqsədilə istifadə olunmağa başlanılmışdır.

Müəyyən mənbələrdə hələ qədim Hindistanda dilçiliklə bağlı araşdırmalarda morfoloji cəhətə, sözlərin tərkibini yöndən təhlilinə ağırlıq verildiyinə dair dilçilik tarixi əsərlərində məlumatlar vardır. Müasir dilçilikdəki sıfır morfem anlayışının qədim hind dilçisi Panini tərəfindən elmə gətirildiyi də bəzi mənbələrin iddiaları sırasındadır: "... qədim hindlilər qrammatika sahəsində bir sıra araşdırmalar aparmışlar ki, bu sahədə də Panininin xidmətləri müstəsnadır. O, sözləri nitq hissələrinə görə adlara və feillərə bölmüşdür. Eləcə də sözün əsası, kök və şəkilçini bir-birindən fərqləndirmiş, hal, şəkil və zaman kateqoriyalarından bəhs etmişdir. Bütün bunlardan başqa, Panini dilçiliyə sıfır morfem anlayışını gətirmişdir. O həm də dili sistem kimi başa düşürdü" [15, s.4].

Morfem fransız dilində “morphème”, rus dilində “Морфема”, ispancada “morfema”, türk dilində “biçimbirim”, ingiliscədə “morpheme”, alman dilində “morphem” sözləriylə adlandırılır.

Dilçilikdə morfologiya sözlərin strukturunu təhlil edən sahə kimi 1880-ci illərdən işlədilməyə başlanmışdır. “Morfem” terminin dilçiliyə kim tərəfindən gətirilməsi ilə bağlı tədqiqatçılar arasında ortaq fikir yoxdur. F.Y.Veysəllinin fikrincə, “morfem” termini dilçiliyə İ.A.Boduen de Kurtene gətirmişdir [2, s.204].

Əlavə etmək istərdik ki, morfem anlayışının bugünkü anlamda dilçiliyə İ.A.Boduen de Kurtene tərəfindən gətirilməsi iləəksər dilçilər həmfikridirlər, çünki dilçilik tarixi üzrə araşdırmalar bu qənaəti təsdiq edir. Morfem anlayışından ətraflı şəkildə, müasir dilçilikdəki mənada dilçilik termini kimi konseptual şəkildə ilk dəfə İ.A.Boduen de Kurtene tərəfindən işlədilməsi onu morfem nəzəriyyəsinin banisi hesab etməyəəsas verir. Morfemlə bağlı çalışmaları dilçilik tarixində önəmli mənbələr hesab edilsə də, istər A.Norenin, istərsə də A.Svitin əsəri İ.A.Boduen de Kurtenenin əsərlərindən xeyli sonralar işıq üzü görmüşdür. Bunu F.Y.Veysəlli belə izah edir: “...morfem anlayışını dilçiliyə A.Noren gətirməyib. Əvvəla, A.Norenin əsəri İ.A.Boduen de Kurtenenin morfologiya və morfem haqqında irəli sürdüyü fikirlərdən düz 22 il sonra çap olunub. İkincisi, A.Norenlə razılaşsaq belə, guya A.Svitin konsepsiyasında sözün təyin edilməsi onun işlətdiyi morfemə uyğun gəlir, yenə də tarixi faktlar İ.A.Boduen de Kurtenenin daha öncül olmasını sübut edir, çünki A.Svitin əsəri İ.A.Boduen de Kurtenenin əsərindən düz on il sonra işıq üzü görüb” [3, s.126].

F.Y.Veysəllinin morfem anlayışının dilçiliyə gətirilməsi tarixi ilə bağlı qeydləri sadə və tutarlı şəkildə məsələni aydınlaşdırır. Dilçi alim Struktur dilçiliyin əsaları (morfemika, sintaqmatika) monoqrafiyasında morfem nəzəriyyəsinin ümumi dilçilikdə müasir linqvistikada başa düşülən mənada İ.A.Boduen de Kurtene tərəfindən istifadəsinin tarixçəsi və mahiyyəti barədə müfəssəl məlumatlar vermişdir. Göründüyü kimi, İ.A.Boduen de Kurtene hələ morfem terminindən istifadə etmir. Düz on il sonra o, “Slavyan dillərinin müqayisəli qrammatikasının bəzi bölmələri” adlı əsərində “morfem” terminindən istifadə edir. Dilin ikili üzvlənməsindən danışan İ.A.Boduen de onları antropofonik və fonetik-morfoloji üzvlənmə adlandıraraq yazır ki, birinci üzvlənmədə dil antropofonik sözlərə, bunlar öz növbəsində antropofonik hecalara, hecalar isə səslərə bölünürlər. Fonetik-morfoloji (semasioloji və sintaktik) üzvlənmədə danışıq aktı cümlələrə və ya mənalı frazalara (söyləmlərə – F.V.), cümlələr mənalı sözlərə, sözlər isə morfoloji hecalara və ya morfemlərə bölünür [3, s. 40].

A.Qurbanov da “morfem” termininin dilçiliyə XIX əsrin 80-cı illərində məhz İ.A.Boduen de Kurtene tərəfindən gətirildiyini yazmışdır: ““Morfem” terminini dilçiliyə XIX əsrin 80-ci illərində Boduen de Kurtene gətirmişdir. Sözün müəyyən mənaya malik olan və kiçik ünsürlərə bölünə bilməyən hissəsinə morfem deyilir. Məsələn: yaz-ı-çı-lıq, yaxşı-laş-dır-ıl-mış-dır, əzəmət-li, məktəb-li-lər” [4, s.238].

Qeyd etdiyimiz kimi, İ.A.Boduen de Kurtene morfem terminini ilk dəfə 1877-1878-ci tədris ilində Qazan universiteti üçün hazırladığı mühazirə proqramında işlətmişdir. İ.P.Susovun da qeyd etdiyi kimi, “o, sözün hissələrini təşkil edən kök, suffiks, prefiks, fleksiya (şəkilçi) elementlərini bir ad altında birləşdirərək bu mənalı, kiçik və bölünməz “ünsür”ü morfem adlandırmışdır” [5, s.181].

Morfemin mahiyyətinin şərhində dilçilər arasında fərqli yanaşmalar davam edilməkdədir. Morfem nəzəriyyəsi dilçilikdə fərqli şəkildə yorumlanan, hətta eyni dilçilik cərəyanlarının nümayəndələri arasında da yanaşma fərqləri müşahidə edilən bir məsələdir. Gənc qrammatiklərin morfemə baxışı ilə Amerika deskriptivistlərinin mülahizələri arasında fərqlər vardır. Məsələn, gənc qrammatiklərə görə, morfologiya qrammatikanın bir hissəsi kimi söz formalarını öyrənməklə məşğul olduğu halda, deskiptivistlərin qənaətinə görə isə qrammatikanın son məqsədi morfemləri və onların kombinasiyalarını izahlı, hərtərəfli şəkildə təsvir etməkdir. Amerika deskriptivistlərinin nümayəndəsi, L.Blumfid morfemi belə təsvir etmişdir: “Minimal

forma morfemdir, onun mənası sememlərdən təşkildir. Beləliklə, morfem, öz növbəsində, kiçik təkrarlananlara bölünə bilməyən təkrarlanan formadır. Buradan belə çıxır, hər bir bölünməz söz, yaxud forma morfemdir" [6, s.202].

İ.A.Boduen de Kurtenenin morfemin mahiyyəti ilə bağlı verdiyi izah müasir dilçilikdə də əsasən qəbul edilir: "...anlaşılan sözlər istər cümlə üzvləri olsunlar, istərsə də cümlədən qəti asılı olmasınlar, onlar, bir tərəfdən, deyilənin və eşidilənin arasıkəsilməz ardıcıllığıdır, digər tərəfdən isə morfoloji və semasioloji cəhətdən bölünməz vahidlərdən ibarətdir ki, onları biz morfem adlandıracağıq" [7, s.121].

Göründüyü kimi yuxarıdakı fikrində İ.A.Boduen de Kurtene morfemi mahiyyətcə "deyilənin və eşidilənin arasıkəsilməz ardıcıllığı, ...morfoloji və semasioloji cəhətdən bölünməz vahidi" [7] adlandırır. İ.A.Boduen de Kurtenenin başqa bir məqaləsində isə həmin "morfoloji və semasioloji cəhətdən bölünməz vahid"ə, yəni morfemə "dil bütövlərinin tikinti elementi" [8] kimi yanaşdığını görürük. O yazır: "Bununla da mən dil bütövünü tələffüz-eşitmə və yaxud da fonetik baxımdan parçalanmasını başa çatdırıram. Amma istənilən dil bütövü yalnız o halda gerçəkləşən dilə aiddir ki, həmin halda o, bir tərəfdən, dildənkənar aləmlə (fiziki, sosial, şəxsi-psixi və s.), digər tərəfdən, dilin morfologiya dünyası, yəni dil bütövlərinin struktur və ya tikinti elementlərinə üzvlənmə təsəvvürləriləassosiasiya yaradır" [8, s.159].

Birinci fikri ilə ikincinin birləşməsi bizdə İ.A.Boduen de Kurtenenin fikrincə istər fonemlər, istərsə də morfemlər dil bütövlərinin üzvlənməsi nəticəsində ortaya çıxması qənaətini möhkəmləndirir. Əks mülahizə yürüdəndəbelə fikir hasil olur ki, həm fonem, həm də morfem dil bütövlərinin, dilin yuxarı səviyyələrinin vahidlərinin yaranmasında isitfadə edilən "tikinti" materialıdır. Fonem ən kiçik, "mənasız", morfem isəən kiçik mənalı dil vahididir və eləcə də "morfoloji və semasioloji cəhətdən bölünməz"-dir, yəni, daha kiçik mənalı dil vahidinə üzvlənə bilmir.

İ.A.Boduen de Kurtene yaradıcılığında dili və ona antropoloji təsirləri müxtəlif aspekt və dil səviyyələrinə müvafiq şəkildə araşdırır: "Antropofonetik baxımdan bölünməyən səs, fonetik nöqteyi-nəzərdən bölünməyən fonem, morfoloji nöqteyi-nəzərdən bölünməyən isə morfemdir" [7, s.121].

L.Blumfildin anlamında isə morfem *"*hər hansı bir digər forma ilə qismən fonetik və semantik oxşarlıqdan məhrum olan dil forması sadə formadır" [9, s.168].

İ.A.Boduen de Kurtenenin morfemə yanaşması ilə L.Blumfildin "morfem"ə yaraşmaları arasındakı aşkar fərq göz önündədir, çünki onlardan birincisi morfemə "morfoloji və semasioloji cəhətdən bölünməz vahid" [7], ikinci isə "hər hansı bir digər forma ilə qismən fonetik və semantik oxşarlıqdan məhrum olan dil forması" kimi yanaşır [9].

V.Skalkiçka morfem anlayışına münasibətində yazırdı: "qrammatika sistemdirsə, bu zaman həmin sistemin ən kiçik vahidlərini aşkar etmək lazımdır. Bu cür ən kiçik vahid morfem hesab edilə bilər" [10, s.135].

Əlavə etmək istərdik ki, morfemə verilmiş tərifl ərdə lakonikliyi və məzmun dolğunluğuna görə Y.S.Maslovun tərifi daha təqdirəlayiqdir. Onun fikirincə, "morfem dilin minimal və elementar ikitərəfli vahididir: (a) müəyyən eksponent bu vəya digər mənaya bağlıdır, onun daşıyıcısıdır və (b) o, özü kimi xüsusiyyətlərə malik olan daha sadə hissələrə bölünmür" [11, s.131].

Göründüyü kimi, Y.S.Maslovun morfem haqqındakı izahı müəyyən mənada İ.A.Boduen de Kurtenenin morfemə yanaşması ilə eyniyyət təşkil edir, çünki müəllif "özü kimi xüsusiyyətlərə malik olan daha sadə hissələrə bölünmür"deməklə morfemin morfoloji və semasioloji cəhətdən bölünməzliyi cəhətini önə çəkir.

Söz və morfemi bir-birindən fərqləndirən cəhətlərin nəzəri və praktik şərhi dilçilərin diqqət mərkəzində olmuşdur. Bu barədə İ.P.Susov yazır ki, "morfem anlayışının dilçiliyə gətirilməsinin nəticəsi olaraq sözlə morfem qrammatik təhlilin nüvəsində dayanmağa başladı" [5, s.181]. O qeyd edir ki, "buna baxmayaraq milli dilçilik ənənələrində müəyyən fərqlərin mövcud olmaması mümkünsüzdür " [5, s.181].

Doğrudan da, sovet dövründə dilçilikdə dilin mərkəzi vahidi söz hesab edilirdi. Almaniyada da bu, belə qəbul olunmuşdu. Morfemə sözdən ayrılıqda yanaşaraq ona ikincidərəcəli vahid kimi münasibət bəslənilirdi. Lakin Amerikan və Fransa dilçiliyində morfem öndə tutulmaqla sözə morfemlər vasitəsi ilə yaradılmış sintaktik konstruksiya kimi yanaşılmışdır.

Dilçilikdə morfem nəzəriyyəsi strukturalizmdən çox əvvəllər yaransa da, strukturalizmin bir çox nümayəndələri dəəsərlərində morfemə dair mülahizələr irəli sürmüşlər. Bu da təbiidir, çünki mahiyyət etibarı ilə morfem dilin strukturuna daxildir.

İ.P.Susov XX əsrdə dilçiliyin maraq sahələrində müəyyən dəyişmələr olduğunu yazır. Onun fikrincə, "1950-ci illərin sonunda N.Xomskinin inqilabi əsərləri meydana çıxdıqdan sonra dilçilikdə generativizmin bərqərar olması ilə hakim mövqe sintaksisə keçdi. Dil vahidlərinin tədqiqində diqqət fonem və morfemdən cümləyə keçdi" [12, s.9]. Müəllifin bu fikrində müəyyən qədər həqiqət vardır, çünki dilçilikdə linqvosentrizmdən antroposentrizmə doğru meyillənmə bunu labüd edirdi.

Beləliklə, demək olar ki, dilçilikdə morfemlə bağlı vahid fikrin olmamasına rəğmən belə, əksər dilçiləri onu dilin struktur vahidi kimi qəbul edir. Morfem forma və məna qatına malik ikitərəfli minimal vahid kimi qəbul edilir.

Ədəbiyyat

1. Makkarti A.Ç. Morfologiyanın təkamülü. Oksford Universiteti Nəşriyyatı, Oksford, 2010, – 265 s.
2. Veysəlli F.Y. Dilçiliyəgiriş. Bakı: Mütərcim, 2013, – 448 s.
3. Veysəlli F.Y. Azərbaycan dilinin funksional qrammatikası: fonemika və morfemika. Bakı: Prestige çap evi, 2014, – 530 s.
4. Qurbanov A. Ümumi dilçilik. I cild (3 cilddə). Bakı, 2019, – 238 s.
5. Сусов И.П. Введение в языкознание. М.: Восток-Запад, 2007. – 379 с.
6. Звегинцев В.А. История языкознания XIX-XX веков в очерках и извлечениях», ч II. М.Просвещение, 1964. – 496 с.
7. Бодуэн де Куртенэ. Избранные труды по общему языкознанию. Том II. М.: Изд-во Академии наук СССР, 1963. – 391 с
8. Boduen De Kurtene İ.A., Ümumi dilçilik üzrəəsərləri (tərc: F.Veysəlli, C.Babayev, N.M.Abdullayev). Bakı: Prestige, 2014, – 336 s.
9. Blumfild L. Dil. İngilis dilindən tərcümə edənlər: V.Ərəbov və Q.Heybətov. Bakı, 2014.
10. Скалицка В. О грамматике венгерского языка. М.: Прогресс, 1967, – 196 с.
11. Маслов Ю.С. Введение в языкознание. М.: Высшая школа, 1987. – 272 с.
12. СусовИ. П. Лингвистическая прагматика. Тверь, 2006, – 200 с.
13. Глисон Г., Введение в дескриптивную лингвистику. М.: Изд-во иностранной литературы, 1959, с. 496
14. Баскаков Н. А., Морфологическая структура слова и части речи в тюркских языках, М., 1954.
15. Cəfərov Q., Ümumi dilçilik etüdləri, Bakı: "Elm və təhsil", 2020, – 168 s.

А.З.Гасанов

Теория морфем: сквозь призму историко-лингвистических аспектов

Резюме

В статье рассматривается введение термина «морфема» в языкознание и становление теории морфем. В статье также рассматривается история идеи морфемы, первые соображения относительно ее использования в лингвистике в современном понимании, различные подходы к морфеме в разных лингвистических школах, ее развитие как лингвистического понятия. Помимо идей основоположника теории морфем И.А.Бодуэна де Куртенэ, рассматриваются также определения и интерпретации, данные морфеме отдельными лингвистами и школами.

A.Z.Hasanov

Morpheme theory: in the prism of historical and linguistic aspects

Summary

It was talked about introducing of the term "morpheme" to linguistics and the formation of the morpheme theory in the article. The article investigates the history of the idea of morpheme, the first considerations regarding its use in linguistics in the modern sense, different approaches to morpheme in different schools of linguistics, and its development as a linguistic concept. In the article, in addition to the founder of morpheme theory I.A.Baudouin de Courtenay's views on morphemes, definitions and interpretations given to morphemes by individual linguists and schools are also considered.

Rəyçi: filol.f.d. C.M.Babayev

Redaksiyaya daxil olub: 01.05.2023

İ.T.HEYBƏTOV
e-mail: ilham.heybatov.t@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

EDUARD SİVERS VƏ ONUN FONOLOJİ GÖRÜŞLƏRİNƏ DAİR

Açar sözlər: *dilçilik məktəbləri, gənc qrammatiklər, fonetika, fonologiya, səs, qarşılaşdırma, Eduard Sivers*
Ключевые слова: *лингвистические школы, младограмматики, фонетика, фонология, звук, сопоставления, Эдуард Сиверс*
Key words: *linguistic schools, neogrammarians, phonetics, phonology, sound, comparison, Eduard Sievers*

Almaniyanın ən tanınmış dilçilik məktəblərindən biri olan "Gənc qrammatiklər" *(Junggrammatiker)* Leypsiq Universitetinin bir sıra dilçiləri – A.Leskin, K.Bruqman və H.Osthof – tərəfindən 1870-ci illərin sonunda yaradılmışdır. "Səs qanunlarının istisnasızlığı" *(Ausnahmslosigkeit der Lautgesetze)* adlanan fərziyyə ilə onlar bu vaxta qədər təbiət elmləri kimi müəyyənləşmiş dilçiliyi yenidən əsaslandırmağa çalışırdılar. Bu cür inkişaf humanitar və təbiət elmləri arasında artan rəqabətin meydana çıxmasına səbəb olmuşdur. Bu dilçilik məktəbinin bu cür adlanması germanist F.Çarnkenin adı ilə bağlıdır. Belə ki, o, yaşlı nəslə qarşı çıxan və mövcud dilçilik fikirləri tənqid edən yeni cərəyanın nümayəndələrini istehza ilə "Gənc qrammatiklər" *(Junggrammatiker)* adlandırmışdır. Sonradan isə zarafatla deyilmiş bu söz həmin məktəbin adına çevrilmişdir. Bu məktəbin əsas nümayəndələri kimi A.Leskinin, B.Delbrükün, H.Paulun, H.Osthofun, K.Bruqmanın, V.Braunenin və E.Siversin adları çəkilir.

Biz bu məqaləmizdə bu dilçilik məktəbinin parlaq nümayəndələrindən biri olan E.Siversin fonoloji görüşləri ilə bağlı mövcud fikirlərə toxunmaq istərdik.

F.Veysəlli qeyd edir ki, XIX əsrin 80-ci illərinin ortalarında Avropada fonem anlayışının meydana gəlməsi üçün münbit zəmin yaranmışdı [9, s.177]. Məsələ burasındadır ki, bir tərəfdən Almaniyada, özü də gənc qrammatiklərin formalaşmağa başladığı dövrdə onların mərkəzində – Laypsiqdə eyni vaxtda iki əsər çapdan çıxmışdır [9, s.177]. Onların hər ikisində dolayısı ilə olsa da fonem anlayışına yaxınlaşma müşahidə olunur. Bunlardan biri J.Vinteler idi. O, özünün Kerenz dialektinə həsr olunmuş əsərində bu alim "assidental features" (variasion-variativ) əlamətləri "esential proporties" (invariants-invariant) əlamətlərdən fərqləndirməyi vacib sayırdı [9, s.178]. Həmin ildə Laypsiqdə çap olunan german dilləri sahəsində ilk elmi fonetikanın müəllifi E.Sivers alman dilində fonemin ekvialenti olan "Sprachlaut" (dil səsi) terminindən istifadə edirdi. E.Sivers "dil səsi" dedikdə, təzyiqin səs aparatının müəyyən hissələrindən keçməsi nəticəsində, ləngiməyə və rezonansın yaranmasına xidmət edən səsləri başa düşür [7, s.34]. E.Sivers "Sprachlaut"un (dil səsi) digər səslərə münasibətini daxili bağlılıq baxımından şərh edərək yazırdı: "Dil səslərinin yuxarıda göstərilən reduksiyası ilə onların tiplərinin nəzərə çarpan minimumunu müəyyənləşdirmək sahəsində çətinliklər tükənməyib, bu çətinliklər dil səsləri sisteminin müəyyənləşməsi yolunda ləngidicidir. Bunu deyəndə elə bir nizamlanma başa düşülür ki, burada hər bir tipin və ya dil səsinin hər zaman öz möhkəm yerini göstərmək olar" [9, s.178].

XIX əsrin ortalarına qədər dillərin tədqiqində yazı əsas götürüldüyü üçündilçilərin əksəriyyəti hərflə səsi ayıra bilmirdilər. Ancaq gənc qrammatiklər səsli dilə və fonetik rekonstruksiya məsələlərinə diqqəti artırırdılar [10, s.61]. F.Y.Veysəllinin qeyd edir ki, elə bunun nəticəsi idi ki, dünyada ilk fonetika kitabı olan "Səs fiziologiyasının əsasları" *(Grundzüge der Lautphysiologie)* 1874/75-ci ildə alman alimi E.Sivers tərəfindən yazıldı. E.Sivers, A.Leskin, V.D.Uitni, E.Vindiş və digər eyni əqidəli dilçilər tərəfindən planlaşdırılmış və 1901-ci ildə nəşr olunmuş "İndogerman dillərinin qrammatikasının kitabxanası" əsərinin ilk cildi olaraq bu

kitab proqrammatik məzmun daşıyırdı [2, s.45]. Bu kitab qrammatika oxucularına fonetikanın əsasları və problemləri ilə tanış olmağa və eyni zamanda vahid bir terminologiyanın qurulmasına imkan verirdi. P.Qants qeyd edir ki, E.Siversin kitabının 2-ci nəşrindəki "Səs fiziologiyası" termini, artıq burada "Fonetika"ilə əvəz olunmuşdu və əslində bu kitab "tarixi fonetika" əhəmiyyəti daşıyırdı [2, s.45]. F.Veysəlli hesab edir ki, bu dövrdə fonetik araşdırmalar daha geniş vüsət alır və fonem anlayışı dilçiliyə təzəcə yol tapırdı. F.Veysəllinin fikrincə, ancaq hələ tam fonologoyalaşmadan danışmaq olmazdı. E.Sivers kortəbii olsa da, fonemi dərk edirdi [10, s.61]. O, dil səslərinin sistemindən, variantlardan, onların daha yüksək səviyyədə birləşərək fonem inventarını yaratmasından danışırdı. F.Veysəlli onun kitabını german dillərinin fonetik sistemini artikulyator aspektdə təsvir edən ilk sanballı əsər hesab edir [10, s.62].

Artıq yaşlı vaxtında məşhur alman filoloqu F. fon der Leyen E.Siversin fonetikadan olan mühazirələrini xatırlayaraq yazırdı: "Biz onun fonetika üzrə dərsliyini mühazirələrə gətirirdik. E.Siverin ilk sözü – kitablarınızı bağlayın və yazmayın, Siz eşitməyi öyrənməlisiniz. O, bizə səslərin fizioloji yaranmasını və xüsusiyyətlərini göstərirdi. O, bizə hər bir şeyi, həmçinin dialektlərin fonetik özünəməxsusluğunu və müxtəlifliyini göstərirdi. Hər şey o qədər canlı və inandırıcı idi ki, istər-istəməz qəbul etməliydin. Mən dərsin bu həyacanından onun dil tarixindən olan mühazirələrində də zövq alırdım. Seminarlardan sonra E.Sivers oz tələbələri ilə birgə oturardı və bu zaman da söhbət yalnız elmdən və onun nümayəndələrindən gedirdi. Ustad öz peşəsindən tamamilə zövq alırdı" [2 , s.45].

L.R.Zinder qeyd edir ki, özünün "Grundzügü der Phonologie" kitabında N.S.Trubeskoy bu elm sahəsinin sələfləri qismində H.Sviti, O.Yesperseni və Y.Vinteleri göstərir və E.Siversin adı isə burada ümumiyyətlə çəkilmir [8, s.368]. Bu, eyni zamanda tam şəkildə müasir fonoloji yazılara da aiddir. L.R.Zinderin fikrincə, bu faktı izah etmək çox çətindir, hərçənd ki, E.Siversin məşhur fonetika kitabı bu gün üçün də aktual olanfonoloji fikirləri özündə ehtiva edir [8, s.368].

L.R.Zinder qeyd edir ki, E.Siversin fonetika/fonologiya ilə əlaqədar düşüncələrinin təsdiqi üçün, onun fonetika/fonologiyaya dair fikirlərini sitat göstərmək kifayət edir [8, s.368]. Belə ki, N.S.Trubeskoyun fonetikanın fonologiyaya olan münasibəti ilə bağlı tesislərini müvafiq dəyişikliklərlə E.Siversin 1876-cı ildə çap olunmuş "Səs fiziologiyasının əsasları" adlı kitabının ilk nəşrində tapmaq olar. Burada E.Sivers qeyd edir:"dil tədqiqatçısı üçün səs fiziologiyası yalnız köməkçi elm sahəsidir. Onun üçün tək bir səs yox, ayrı-ayrı dil vahidlərinin səs sitemi, onların bir-birinə münasibəti və onların tədqicən bir-birinə qarışması dəyər daşıyır. Digər sözlə, bu mövcud olan, birbaşa müşahidə edilən dil materialından çıxış etməklə ümumi qanunları müəyyən edən və formalaşdıran təbiət elmlərinin vəzifəsidir. Bu vəzifə də bizim elm sahəsinin sonrakı inkişafı üçün zəruri əsasdır." [8, s.368]. E.Siversin fikrincə, dilçi ilk öncə bu fundamental tədqiqatla tanış olur. Onun faktik və əsas vəzifəsi, bunu əsasında əvvəl mövcud olmuş haldan çıxış etməklə hal-hazırki inkişafı izləməkdən ibarətdir. L.R.Zinder daha sonra yazır ki, E.Siversin bu fikri müəyyən qədər gənc qrammatiklərin fikrilərinə yaxındır, ancaq dil səsinin obyektiv əlamətlərinin tədqiqi təbiət elmlərinin tapşırığıdır. Bu isə N.S.Trubeskoyun ideyasına uyğun gəlir [8, s.369].

E.Sivers N.S.Trubeskoyun fonoloji görüşlərinə müvafiq olaraq ayrı-ayrı səslərdən fərqli olaraq sistemin vacibliyini irəli sürür. E.Sivers vurğulayır ki, səs fiziologiyasının vəzifəsi təkcə ayrı-ayrı səslərin sırf statistik müəyyən edilməsi və onların dəyişdirilməsi ilə həll edilə bilməz [8, s.369]. Onun fikrincə, ümumilikdə müəyyən qüvvədə olan dəyişmə qanunlarına məruz qalan ayrı bir səs deyil, adətən müvafiq səs sıralarının müvafiq inkişafı baş tutur. E.Sivers qeyd edir ki, bir qayda olaraq xüsusi nöqteyi-nəzər tapılmalıdır ki, onun köməkliyi ilə sistemin ümumi xüsusiyyətlərindən və onda mövcud olan həmin sıranın xüsusi mövqeyindən olan belə bir səs sırasının dəyişikliyin izah edilə bilər [8, s.369].

L.R.Zinder xüsusilə, E.Siverin dil səsi məfhumunun təhlili zamanı tətbiq etdiyi sistem ideyasını maraqlı hesab edir. Sistemin üzvü qismində dil səsi fizioloji olaraq yox, onun bu sis-

temdə mövqeyindən, onun digər dil səsləri ilə qarşılaşdırılması zamanı müəyyən edilir. Bununla bağlı E.Sivers yazır: "Bizə ümumiyyətlə neçəsait nüansının olmasını deyil, yalnız vahid dil birliyinin sait sisteminin hansı yolla birləşməsini – yəni bu dildə neçə sait fərqləndirilir və bunlar bir-biri ilə necə əlaqələndirilir – və bu sistemin başqa eyni sistemlərlə münasibətdə özünü necə aparmasınıbilmək lazımdır"[8, s.369].

L.R.Zinder E.Siversin səs (Einzellaut) problemini və yalnız səsə necə tərif verməsini yüksək qiymətləndirərək, bu məsələ ilə bağlı onun kitabından sitat gətirir. "Ümumi qrammatika adətən hərf və yaxud səslərdən çıxış edir. Özü-özlüyündə aydındır ki, ciddi sistematik fonetika cümlə tədqiqqində başlamalıdır, çünki cümlə özü danışıq dilində birbaşa müşahidə edilən obyektdir. Söz, heca, səs cümlədə müxtəlif formalara malik olurlar və mütləq formada səs dildə heç də təcrid olunmuş şəkildə mövcud deyildir. Beləcə, ilk növbədə cümlə tədqiq edilməlidir. Bundan sonra isə hecaların və onları təşkil edən ayrı-ayrı səslərin analizi aparıla bilər" [8, s.370].

E.Sivers "ayrı-ayrı səslər" nədir sualına cavab verərkən qeyd edir ki, müəyyən bir səs və yaxud element dedikdə, ciddi nəzəri baxımdan təcrid olunmuş nəsə – səs başa düşülməlidir. Onun fikrincə,ümumiyyətlə saysız-hesabsız səslərə diqqət yetirmək üçün, müəyyən sayda olan yaxın səsləri bir qrupda və yaxud kateqoriyada birləşdirirlər və onları səslər (Einzellaute) kimi nəzərdən keçirirlər. Belə ki, müəyyən yaranma mövqeyi, ton, güc naxımından eyni olan səsləri */a/* səsi adı altında mücərrədləşdirilir. E.Sivers qeyd edir ki, dil yaranmanın müəyyən faktorları bu müəyyənləşdirmə üçün ikinci dərəcəli olaraq inkar edildiyi halda belə bir ümumiləşdirmə baş verə bilərdi. Bu prosedur öz-özlüyündə yaranmır, ancaq praktik şəkildə əsaslandırılır ki, *a* müxtəlif mövqelərdə işlənsə belə, həqiqətən də danışan və dinləyən şəxs tərəfindən eyni bir səs kimi qəbul edilir və buna müvafiq olaraq da bir-birinə qarşı qoyulmur. Ayrı-ayrı səs nümunələrinin fərqləndirici əlamətlərindən neçəsinin bir-birinə qarşı qoyulması və əhəmiyyətli olmasını ümumi şəkildə müəyyən etmək mümkün deyil.

L.R.Zinder qeyd edir ki, yuxarıda göstərilmiş sitatların E.Siversin kitabından götürüldüyünü bilməsək, onların hər hansı bir fonoloji əsərlərdən götürüldüyünü güman etmək olar [8, s.371]. L.R.Zinderin fikrincə, E.Siversin kitabında göstərilmiş "Gegensatz" bugünki fonologiyada işlənən "Opposition" *qarşılaşdırma* və yaxud "Unterscheidungsmerkmale" *fərqləndirici əlamətlər*isə "relative oder distinktive" Merkmale terminləri ilə eynidir.

L.R.Zinder dil səslərinın variasiyası ilə bağlı E.Siversin aşağıdakı fikrini sitat göstərir: "təcrübənin nəzəriyyə ilə üst-üstə düşməsi göstərir ki, öz-özlüyündə fərqlənən "dil səslərinin" sayı qeyri-məhdud adlandırlmalıdır. Ancaq bu sonsuz saydan praktika ilk növbədə yalnız məhdud saya malik bir-birinə qarşı qoyulmuş tiplər və yaxud kateqoriyaları seçir. Beləcə onların spesifik xarkteristikası ilə onların müəyyənləşməsi bağlanır. Geniş anlamda hər bir ayrı dil səsi üçün onun alt qrupu və yaxud variantlarının mövcud olduğu müəyyən bir işlənmə sahəsi qalır. Bu variantlar bir və yaxd müxtəlif dillərdə üzə çıxır və onların dəqiq müəyyən edilməsi isə təsviri fonetikanın əsas vəzifələrindən biridir" [8, s.371].

L.R.Zinder qeyd edir ki, E.Siversin fikirlərini heç də elmin keçmişi və tarixi ilə bağlamaq düzgün deyildir. Belə ki, onun bir çox fikirləri fonologiyanın müxtəlif aspektlərinin inkişafı üçün bu gün də aktualdır [8, s.371]. O, buraya həmçinin relevant və irrelevant əlamətləri aid edir. L.R.Zinderin fikrincə, E.Siversin relevant əlamətlər ilə bağlı ideyası daha aydın özünü aşağıdakı sitatda büruzə verir: "biz gördüyümüz kimi, hər bir dil səsi müxtəlif düzəltmə faktorlarının qarşılıqlı təsirinin məhsuludur. Bunlardan hansının daha yüksəkdə durması və hansının daha əhəmiyyətli olması və hansının sistemin qurulması üçün ilk növbədə əhəmiyyətli olması vacibdir"[8, s.372].

L.R.Zinder daha sonra yazır ki, E.Siversin aşağıdakı fikri daha çox fonoloji əhəmiyyət daşıyır: "biz əvvəlcədən sırf artikulyasiya formasını dil səslərinin bölgüsü üçün baza rolunu oynamasını rədd etməliyik, çünki bu forma heç də həmişə səslərin xarakteristikası üçün kifayət etmir və qarşılaşdırma vasitəsil olan tətbiq emprik dili fərqləndirir. Qarşılaşdırma vasitəsi-

lə olan bu tətbiq bizim səs kimi müəyyən etdiyimiz fonetik hadisə və bu səsin variasiyaları arasında olan tətbiq etmədir" [8, s.372].

L.R.Zinder son olaraq qeyd edir ki, E.Siversin yuxarıda göstərilmiş fikirləri aydın şəkildə onun adının təkcə fonologiyanın sələfləri arasnda deyil, ən mühüm sələflərindən biri olaraq çəkilməlidir [8, s.372]. Bu dilçinin fonoloji fikirlərində çatışmayan cəhət, "qarşılaşdırma vasitəsilə tətbiq etmə" anlayışının semantik ifadəsidir. Bu isə onu İ.A.Boduen de Kurtene və L.V.Şerba ilə birlikdə fonem nəzəriyyəsinin yaradıcıları ilə birlikdə adının çəkilməsi olardı [8, s.372].

Beləliklə, E.Siverslə bağlı müxtəlif dilçilərin fikirləri ilə tanış olduğumuz və eyni zamanda onun "Fonetikanın əsasları" əsərini diqqətlə oxudumuz zaman, orada həqiqətən də bugünki fonologiya məsələləri ilə bağlı dəyərli fikirlərə rast gələ bilirik.

Ədəbiyyat

1. Brugmann K. Zum heutigen Stand der Sprachwissenschaft. Cambridge University Press, 2009, – 153 s.
2. Ganz P. Eduard Sievers. In: Beiträge zur Geschichte der deutschen Sprache und Literatur. 1978, – s. 40-85.
3. Helbig G. Geschichte der neueren Sprachgeschichte. Unter dem besonderen Aspekt der Grammatik-Theorie. Leipzig, 1970, 392 s.
4. Helmut H. Germanische und deutschePhilologie im Zeichen der Junggrammatiker. Beiträge zur Methodengeschichte der neueren Philologien. Zum 125jährigen Bestehen des Max Niemeyer Verlages. Hrsg. v. RobertHarsch-Niemeyer,Tübingen, 1995, – s. 1-30
5. Putschke W. Die Arbeiten der Junggrammatiker und ihr Beitrag zurSprachgeschichtsforschung. In: Sprachgeschichte: ein Handbuch zur Geschichte der deutschen Sprache und ihrer Erforschung / hrsg. von Werner Besch ... Berlin; New York: de Gruyter, Band. 2., Teilband. 1.-2., vollst. neu bearbeitete und erweiterte Auflage, 1998, – s. 474-494
6. Schneider G. Die Junggrammatiker. In: Lexikon der romanistischen Linguistik. Hrsg. von Günter Holtus, Bd. 1. 1. Geschichte des Faches Romanistik; Methodologie (das Sprachsystem), Max Niemeyer Verlag Tübingen 2001, – s. 176-189.
7. Sievers E. Grundzüge der Phonetik. Zur Einführung in das Studium der Lautlehre der indogermanischen Sprachen. Leipzig. In: Bibliothek indogermanischer Grammatiken, Band. 1, Leipzig, 1901, – 328 s.
8. Sinder L.R. Eduard Sievers und die Geschichte der Phonologie. Zum 50. Todestag von Eduard Sievers. Phonetica № 39, Leningrad, 1982, – s. 368-373
9. Veysəlli F.Y. Struktur dilçiliyin əsasları. Bakı: Təhsil, 2005, – 344 s.
10. Veysəlli F.Y. Dilçiliyin əsasları. Studia Philologica. VI, Bakı: Mütərcim, 2013, – 420 s.

И.Т.Гейбатов

Об Эдуарде Сиверсе и его фонологических воззрениях

Резюме

Термин «молодые грамматики» обозначает группу лингвистов, сформировавшуюся в Лейпциге в 70-х годах XIX века. Молодые грамматики рассматривают языкознание исключительно как диахроническую, историко-сравнительную дисциплину. Это выражено в наиболее важной работе того времени, «Принципы языковой истории» Германа Пауля. Одним из наиболее известных представителей юных грамматиков был. Э.Сиверс. Он был лингвистом с акцентом на германские языки и был одним из лейпцигских «юных грамматиков». Используя статистические методы и эксперименты, он стремился сформулировать законы мелодических и ритмических элементов языка. В своей работе «Основные черты звуковой физиологии» Э.Сиверс ввел понятие состояния безразличия для состояния покоя органов речи. В области голосообразования термин используется для обозначения среднего уровня голоса речевого голоса. Э.Сиверс получил международное признание благодаря своему сборнику эссе «Ритмично-мелодические исследования», в котором он исследует мелодию в разговорном языке.

I.T.Heybatov

About Eduard Sievers and his phonological views

Summary

The term "young grammarians" refers to a group of linguists that formed in Leipzig in the 1970s.Young grammarians consider linguistics exclusively as a diachronic, historical-comparative discipline. This is expressed in the most important work of the time, “Principles of Linguistic History” by Herman Paul. One of the best known representatives of the young grammaticians was E.Sievers He was a linguist with an emphasis on Germanic languages and was one of the Leipzig neogrammarians. Using statistical methods and experiments, he sought to formulate the laws of melodic and rhythmic elements of language.In his work “Grundzüge der Lautphysiologie” E.Sievers coined the concept of the position of indifference for the resting position of the speech organs. In the field of voice formation, the term is used for the middle position of the spoken voice. E.Sievers gained international attention with his collection of essays Rhythmisch-melodische Studien, in which he explores melody in spoken language.

Rəyçi: filol.e.d., prof. F.Veysəlli

Redaksiyaya daxil olub: 01.05.2023

A.H.KƏRİMOV
baş müəllim
e-mail: aydin_eng@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

İNGİLİS DİLİNİN KANADA VARİANTININ SAİT VƏ SAMİT İNVENTARININ BƏZİ FƏRQLİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *distribusiya, diftonqlaşma tendensiyası, homofon, vurğu*
Ключевые слова: *распределение, тенденция к дифтонгизации, омофон, ударение*
Key words: *dsitribution, dipthongization tendency, homophone, stress*

İngilis dilinin milli variantları arasında Amerika, Avstraliya, Yeni Zelandiya variantları ilə bərabər Kanada variantı da fəaliyyət göstərir və bu variant özünəməxsus xüsusiyyətlərə malikdir.

Bundan əvvəlki məqaləmdə Kanada variantının yaranması, ona təsir edən faktorlar və orada yaşayan əhalinin daha çox hansı varianta üstünlük verməsi barədə ümumi məlumat verilmişdir.

Bu məqalədə əsas məqsəd Kanada ingiliscəsinin samit və sait səslər inventarını, vurğu və intonasiya, tələffüz xüsusiyyətlərini RP (Received Pronunciation) və GA (General American) variantları ilə müqayisə etmək, Kanada variantının özünəməxsus xüsusiyyətlərini təhlil etməkdən ibarətdir.

Kanada samitlər sisteminə nəzər salsaq, burada RP və GA variantından fərqli xüsusiyyətlərə malik olan samitlərin aşağıdakılar olduğunu görə bilərik.

[t], [L], [h], [s], [w, ʍ], [ð], [ʃ]

CE (Canadian English) **[t]** səsi RP-dən daha çox GA **[t]** səsinə meyillidir: **[t]** - iki sait arasında **[d]** səsinə çevrilib zəifləyir və **[ţ]** kimi işarə olunur. **[t]** səsi **[r]** səsinə qədər dəyişə bilər (yəni dilin ucunun titrəməsi ilə tələffüz oluna bilər).

[t] səsi **[n]** səsindən sonra gələrsə, tam zəifləyə bilər.

CE	AE	RP
bitter **[ˈbɪţɚ]**	**[ˈbɪţəɚ]**	**[ˈbɪtɚ]**
latter **[ˈlæţəɚ]**	**[ˈlæţɚ]**	**[ˈlætə]**
Ottawa **[ˈɒţəwə]**	**[ˈɑţəwə]**	**[ˈɒtəwə]**

nt samit birləşməsi iki sait arasında gələrsə, **[t]** səsi **[nţ]** kimi tələffüz olunur və ya tamamilə atılır. **[ˈtwenţi] – [ˈtweni]** – twenty

CE (Canadian English) **[t]** səsinin RP və GA variantlarındakı **[t]** səsindən daha bir fərqli xüsusiyyəti onun intrusiv xarakterli olmasıdır.

Məsələn, also **[ˈɔ:Iţsoʊ]**, sense **[senţs]**, Wilson **[ˈwɪLţsn̩]** kimi sözlərdə əlavə olunan **[t]** səsi intrusiv səsdir.

CE variantında **[L]** səsi GA-da olduğu kimi bütün pozisiyalarda qalın (dark) variantda tələffüz olunur. Məsələn, *bells – bellies, fell – feelings.*

Bu sözlərdə sözdəki mövqeyindən asılı olmayaraq, **[L]** səsi qalın variantda tələffüz olunur.

Lakin RP-də *"bells, fell"* sözlərindəki **[L]** səsi qalın *(dark), "bellies, feelings"* sözlərində isə incə *(light)* variantda tələffüz olunur.

[h] səsinin tələffüz variant ziddiyətlidir. Belə ki, RP GA dildaşıyıcıları kimi kanadalılarda "heir, honest, honourable, hour" sözləri RP-də **[h]** səsi ilə tələffüz olunduğu halda, GA variantında bəzən atılır.

Kanadalılar **[s]** səsinin tələffüzündə bir sıra sözlərdə onun **[ʃ]** ilə əvəzlənməsinə üstünlük verirlər.

	CE	AE	RP
issue	**[ˈɪ ʃu:]**	**[ˈɪ ʃu:]**	**[ˈɪ sju:]**

Müasir lüğətlərdə hər iki variant qəbul olunur (5).

[j] səsinin tələffüz variantında kanadalılar bir qərara gələ bilmirlər. Belə ki, RP-də **[u]** səsi qarşısında **[j]** samit səsi işlənir.

Məsələn, tune **[tju:n]**, due **[dju:]**, dew **[dju:]**, few **[fju:]**

GA-da isə bu kimi sözlərdə **[j]** səsi atılır.

CE-də **[j]** səsinin tələffüz müxtəlifliyinə rast gəlinir. Belə ki, **[j]** səsi **[t, d, n, s, l]** səslərindən sonra tələffüz edilir və bu variantda **[j + u]** variantına əksər elm adamları tərəfindən üstünlük verilir. Lakin due **[du]**, dew **[dju:]** kimi sözləri tələffüzə görə fərqləndirənlər də vardır. Halbuk ki, RP-də bu sözlər homofon sözləridir, hər ikisi **[dju:]** kimi tələffüz olunur.

[j + u] variantı AE-də, xüsusilə, Ontario əyalətində *"moon, noon, too"* kimi sözlərə də şamil edilir və bu sözlər **[mjun], [njun], [tju]** variantında tələffüz edilir, lakin standart variant kimi qəbul edilmir.

[ʍ] səsinin tələffüzündə AE variantına meyillilik daha çoxdur, belə ki, o cingiltili **[w]** səsinin kar variantına çevrilir. Belə səs CE və AE variantlarında *"wh"* ilə başlayan sözlərdə tələffüz olunur.

[ð] dişarası, cingiltili samit səsi hər üç variantda (RP, AE, CE) artikulyator-akustik xüsusiyyətinə görə bir-birinə uyğun gəlir. Lakin bəzi sözlərdə, məsələn, *"without"* sözündə olan **[ð]** səsi kar variantlı **[θ]** səsinə çevrilir. **[wɪðąʊt] – [wɪθąʊt]**

Bu əvəzlənmə əsasən Cənubi Amerika ingilis variantının işləndiyi bir neçə əyalətində (Virciniya, Cənubi Karolina, Corciya) dominantlıq təşkil edir [6, s.179].

[ʃ] səsi CE-də AE-də olduğu kimi **[ʒ]** səsinə dəyişir.

Asia **[ˈeɪʃə] > [ˈeɪʒə]**, version **[ˈvɜ:ʃn̩] > [ˈvɜ:ʒn̩]**.

Müasir Lüğətlərdən olan "Cambridge English Pronouncing Dictionary" (Daniel Jones) lüğəti də hər iki variantı düzgün, standart kimi qəbul etmişdir [5, s.34; 544]. CE-də *"shedule"* sözü AE **[ˈskedʒul]** deyil, RP variantı olan **[ˈʃedjʊL]** kimi tələffüzünü saxlamışdır ki, bu da Ontario tələffüz variantına uyğundur [6, s.179]. Yerli kanadalıların tələffüzündə kar səslərin cingiltili səslərlə əvəzlənməsinə meyillilik daha üstünlük təşkil edir.

Məsələn, luxury **[ˈlʌgʒ̲əri]**, significant **[sɪgˈnɪfɪg̲ənt]**.

Aparılmış müqayisələrdən göründüyü kimi CE variantı RP-dən daha çox AE variantının təsirinə məruz qalmışdır.

İngilis dilinin bu üç variantını RP (Received Pronunciation), AE (American English), CE (Canadian English) müqayisə etdikdə görmək olar ki, onların sait səslər sistemində, onların keyfiyyət və distribyusiyasında fərqli cəhətlər özünü göstərir.

Sait səslərin uzun variantda tələffüzü *"is – ease, cot – caught, pull – pool"* kimi sözlərin fərqləndirilməsini çətinləşdirir və onların homofon sözlər kimi tələffüzünə gətirib çıxarır.

[i] səsi hər üç variantda (RP, AE, CE) bir çox mövqelərdə eyni tələffüzə məxsusdur. Lakin onun son mövqedə və cingiltili samit qarşısında diftonqlaşma tendiyası daha qüvvətlidir.

Məsələn, see **[sɪi]**, been **[bɪin]**.

[i] səsinin müxtəlif variantda tələffüzünün eyni bir sözün hər üç variantda fərqli tələffüz olduğunda görə bilərik.

CE	AE	RE
evolution **[ˌevəˈLu:ʃ(ə)n]**	**[ˌevəˈLu:ʃ(ən)]**	**[ˌi:vəˈLu:ʃ(ə)n]**
epoch **[ˈepək]**	**[ˈepək]**	**[ˈi:pɒk]**
Zebra **[ˈzebrə]**	**[ˈzibrə]**	**[ˈzi:brə]**

"Greek, sleek" sözlərində **[i]** səsinin tələffüzü RP-də olduğu kimi, AE-də isə **[krık], [slık]** variantında tələffüz olunur.

[ı] qısa sait səsin tələffüzü AE-də olduğu kimidir, lakin *"bit, sit"* sözlərində həmin səsin uzadılması diftonqlaşmaya gətirib çıxarır: **[bıət], [sıət].**

[e] saiti *"bet, pen"* sözlərində tələffüz olunan RP önsıra, yarıaçıq **[e]** kimi və ya AE-də olduğu kimi açıq variantlı **[ɛ]** səsinə uyğun variantda tələffüz olunur.

[æ] sait səsinin tələffüzündə RP və CE variantları arasındakı mühüm fərq onun bir sıra sözlərdə **[ɑ:]** tələffüzünə məxsus olduğu halda **[æ]** kimi tələffüz olunmasındadır.

Məsələn, class **[klæs]**, dance **[dæns]**, bath **[bæθ]**

Lakin: class **[kla:s]**, dance **[da:ns]**, bath **[ba:θ]**

CE-də **[æ]** səsindən əvvəl **[r]** samiti gələrsə, dodaqlar dairəvi forma olur.

RP **[ɑ:]** uzun variantlı səs CE-də az təsadüf edilir. Bu variant adətən yüksək səviyyəli dairələrdə öz tələffüzlərini Britaniya variantına uyğunlaşdırmaq istəyən şəxslər tərəfindən istifadə edilir.

AE-də olduğu kimi CE variantında da *"Harry, marry"* sözləri RP-dən fərqli olaraq **[ˈhæri], [ˈmæri]** deyil, **[ˈheri], [ˈmeri]** kimi variantda tələffüz edilir.

[ɒ] səsi CE-də, RP **[ɒ]** və AE **[ɑ]** səsləri arasında orta mövqeli bir səs kimi tələffüz olunur.

Kanadalılar *"cot – caught, collar – caller"* sözlərini eyni cür tələffüz etdikləri halda, RP-də həmin sözlərin tələffüzündə kəskin fərq özünü göstərir. **[kɒt], [kɔ:t], [ˈkɒLə], [ˈkɔ:Lə]**

CE-də **[ɒ]** səsi variativliyə məxsus bir səsdir və **[ɑ]** səsi ilə təzad təşkil edir.

CE

long **[Lɑŋ]**

gong **[gɑŋ]**

CE-də *"horse – hoarse, morning – mourning, border – boarder"* kimi sözlər eyni tələffüzə məxsus olduğu halda, Amerikanın cənub hissəsində bu sözlər tələffüzə görə fərqlənirlər.

horse **[hɔs]** – hoarse **[hɔəs]**

morning **[ˈmɔnıŋ]** – moarning **[ˈmɔənıŋ]**

border **[ˈbɔdə]** – boarder **[ˈbɔədə]**

CE variantı ilə digər iki variant (RP, AE) arasında ən nəzərə çarpan fərq **[aı]** və **[aʊ]** diftonqlarının tələffüzündədir. CE-də bu diftonqların birinci elementi orta sıra səsləri kimi, yəni **[ąʊ] > [ʌʊ], [ɜʊ] > [əʊ]** kimi, **[ɑı] > [ɜı]** və ya **[əı]** variantında tələffüz olunur.

Diftonqların birinci elementinin orta sıra səsi kimi tələffüzü daha çox onların kar samitlərin qarşısında, bəzən isə bütün mövqelərdə rast gəlinir.

rite **[rɜıt]** or **[rəıt]**

ride **[rɜıt]** or **[rəıd]**

ice **[ɜıs]** or **[əıs]**

[ʌʊ] və **[ɜı]** variantları sırf Kanada variantıdır. CE-də *"hurry, courage, worry"* kimi sözlərdə AE tələffüz modeli **[ɝ]** RP-də tələffüz olunan **[ʌ]** ya **[ɑ]** ya nisbətən daha çox işlənir.

CE	AE	RP
hurry **[hɜ˞i]**	**[hɝi]**	**[hʌri]**

AE tələffüz variantının üstünlük təşkil etdiyi "bird **[bɜ˞d]**, sister **[sıstə]**" kimi sözlərdə işlənən retrofleks **[ɝ]** və **[ɚ]** RP-də işlənmədiyi halda CE üçün xarakterikdir. RP: **[bɜ:d]**, **[ˈsıstə]** CE-də **[ɔ + r] > [ɔr], [ɑ + r] > [ɑr], [I + r], > [ir], [ʊ + r] > [ʊr], [ɛ + r] > [ɛr]** kimi birləşmələrdə **[r]** səsinin tələffüzü mümkündür.

CE	AE	RP
cart **[kɑrt]**	**[kɑrt]**	**[kɑ:t]**
here **[hir]**	**[hır]**	**[hıə]**
poor **[pʊr]**	**[pʊr]**	**[pʊə]**

CE variantının saitlər sisteminin RP və GA (General American) variantları ilə müqayisəsi CE saitlərinin qarışıq xarakterə malik olduğunu üzə çıxarmağa imkan yaradır. Güclü Amerikan tələffüzü ilə yanaşı RP-yə məxsus xüsusiyyətlər də mövcuddur.

CE və RP və AE variantlarının aksentual quruluşunda o qədər də nəzərə çarpacaq fərq hiss olunmur. Lakin hecaların sayından asılı olaraq bəzi sözlərdə vurğunun yerinin dəyişilməsi nəzərə çarpır.

address **[ˈædrɛs]** (CE, GA) – **[əˈdres]** (RP)

artisan **[ˈartəzn]** (CE, GA) – **[ˌɑ:tiˈzæn]** (RP)

Bütün deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, ingilis dilinin Kanada variantı GA (General American) variantına daha çox meyillidir və orada amerikanizmlər daha üstünlük təşkil edir.

Ədəbiyyat

1. Antipova E.Ya and others. English Intonation. M., 1974.
2. Babayev S.M. Major problems of oral communication in foreign languages. Foreign language teaching issues (FLTI). Tabriz, 1992.
3. Crystal D. Prosodic Systems and Intonation in English. Cambridge, 1969.
4. Hancock M. English Pronunciation in use. Cambridge University Press, 2004.
5. Jones D. Cambridge English Pronouncing Dictionary. Cambridge University Press, 2006.
6. Mc.David R.I.Jr Some Social Differences in Pronounciation – Applied English Linguistics, N.Y. 1958.
7. Scargill M.H. Canadian English and Canadian Culture in Alberta. J.CLA, I, 1955.
8. Thomas C.K. The Phonetics of American English.

А.Г.Керимов

Некоторые отличительные особенности набора гласных и согласных канадского варианта английского языка

Резюме

В статье рассматриваются различия системы согласных и гласных в канадском, общеамериканском и британском вариантах английского языка.

Автор сравнил характерные особенности инвентаря согласных и гласных трёх вариантов английского языка, приведя разные примеры в разном произношении. Проанализировано предпочтение американизмов в канадском английском языке. Особо были отмечены основные различия в инвентаре гласных.

A.H.Karimov

Some distinctive features of the vowel and consonant inventory of the Canadian variant of English

Summary

The article deals with the consonant and vowel system differences of Canadian, General American and British variants of English.

The author compared the characteristic features in the consonant and vowel inventories of three variants of English giving different examples in different pronunciations. Preference of americanizms in Canadian English was analyzed. Main differences in vowel inventory were especially noticed.

Rəyçi: filol.e.d., prof. F.Veysəlli

Redaksiyaya daxil olub: 10.05.2023

A.H.KƏRİMOV
baş müəllim
e-mail: aydin_eng@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

İNGİLİS DİLİNİN KANADA TƏLƏFFÜZ VARİANTINA DAİR BƏZİ QEYDLƏR

Açar sözlər: *Kanada ingiliscəsi, sait səslər inventarı, samit səslər inventarı*
Ключевые слова: *Канадский английский, перечень гласных звуков, перечень согласных звуков*
Key words: *Canadian English, inventory of vowel sounds, inventory of consonant sounds*

Dil ictimai alət və ya ictimai orqanizm kimi ondan istifadə edən cəmiyyətin məhsuludur. Dil özünün yazılı və şifahi formasında ondan istifadə edən xalqın mədəniyyəti və onlara xas olan psixologiyasını əks etdirir.

İngilis dili Hind-Avropa dilləri ailəsinin German dilləri qrupuna daxildir və o öz inkişaf prosesində uzun, mürəkkəb bir yol keçmişdir.

İngilis dilinin yaranma tarixinə nəzər salsaq, onun üç dövrə bölündüyünü görmək olar: *1) Qədim ingilis dili dövrü, 2) Orta ingilis dili dövrü, 3) Yeni ingilis dili dövrü.*

Qədim ingilis dili dövrü V əsrdən XI əsrin sonuna qədər olan dövrü əhatə edir. Bu dövrdə Britaniya german tayfaları tərəfindən fəth edilmişdir və ingilis dili german dillərinin güclü təzyiqinə məruz qaldığından orada german dilində danışanların dili hakim mövqe tutmuşdur.

Orta ingilis dili dövrü XI əsrin sonundan XV əsrin sonlarına qədər olan dövrdür. Bu dövr fransız dilində danışan normanlar İngiltərəni fəth etdikdən sonra onun lüğət tərkibinə çoxlu fransız sözlərinin daxil olunması ilə fərqlənir.

Yeni ingilis dili dövrü XV əsrin sonlarından hal-hazırkı dövrə qədər olan dövrü əhatə edir. Bütün bu dövrlər ərzində ingilis dili sabitləşib zənginləşmiş və müəyyən bir normaya uyğun formalaşmış zaman keçdikcə dəyişmiş və təkmilləşmişdir.

Hazırda ingilis ədəbi dilinin əsasını London dialekti təşkil edir və bu ədəbi dilin tələffüz norması hesab edilir.

İngilis dilinin müxtəlif variantları mövcuddur. Onlardan biri də Kanada ingilis dili variantıdır. Kanada ingiliscəsinin ingilis dilinin ədəbi dil variantı olması mübahisəli məsələ olaraq qalmaqdadır. Kanada ingiliscəsinin müstəqil ədəbi dil variantı olmadığı nəzəriyyəsinin tərəfdarlarının əksinə olaraq, onun Britaniya və Amerika ingilis dilləri variantlarından törəmə "hibrit" bir variant olduğunu təsdiqləyənlər daha çoxluq təşkil edir. Ölkənin özündə aparılan və sayca çox olmayan tədqiqatlar Kanada ingiliscəsinin Britaniya və Amerika ingiliscəsi arasında aralıq bir mövqe tutduğunu və onda Amerika variantının dominantlıq təşkil etdiyini və onun standart ingilis dilinin variantı olduğu fikrini irəli sürür [10].

Kanada ingiliscəsinin mənşəyi haqqında nəzəriyyələr kanadalıların bir millət kimi inkişafının müxtəlif mərhələləri ilə üst-üstə düşür. Müstəmləkə dövrünə əsaslanan belə bir nəzəriyyəyə görə Kanada ingiliscəsi sırf Britaniya ingiliscəsidir. Belə bir yanaşma Kanadada elm adamları arasında uzun müddət üstünlük təşkil etmişdir. Belə ki, Kanada məktəblərində şüurlu, düşünülmüş surətdə Amerika ingiliscəsindən uzaqlaşaraq ingilis variantına üstünlük vermişlər. Belə oxşar nöqteyi-nəzərlər Kanadada danışılan ingilis dilinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Kanada məktəblərində tədris olunan rəsmi orfoqrafiya Britaniya yazı forması olmuş, istifadə olunan rəsmi lüğətlər isə Britaniyaya məxsus olmuşdur. Britaniya ingiliscəsinin Kanada da tədrisi təcrübəsinin uzun bir tarixi yolu vardır. Tarixdən gələn məlumatlara əsasən Kanada ingiliscəsinin Britaniya ingiliscəsi olması bir çox alimlər tərəfindən heç bir etiraz olmadan qəbul edilmişdir.

Kanadanın tarixi inkişafı prosesində Britaniya imperiyasının süqutu və yetkinləşən ruh yüksəkliyi Kanada xalqının İngiltərənin onların yeganə mənəvi və mədəni "evi" olduğu fikrinə inamını azaltdı. Amerikan danışıq tərzi Kanada ingiliscəsinin həqiqi bir elementi kimi tanınmağa və qəbul edilməyə başlandı. Zaman keçdikcə Kanada ingiliscəsinin daha çox Amerikan variantına uyğun olduğu fikri inkişaf etdi və XVIII əsrdə onun mənşəyi aşkarlandı.

Bu səbəbdən Kanada linqvisti Blumfild belə yazırdı: *"Kanada ingiliscəsi başlıca olaraq (South) Cənubi İngilis standartı əsasında formalaşmış və şotlandlar tərəfindən tədris olunan ingilis dili XVIII əsr ingilis dilidir"* [4, s.59-67].

İnjilis dilinin Kanada variantının mənşəyi hələ də sual olaraq qalır. Buradan belə bir fikrin sübutu ortaya çıxır: Kanada torpağı öz inkişaf tarixində iki fəaliyyətdə olan Britaniya ingiliscəsi ilə Amerikan ingiliscəsi əsasında orada yaranmış "yeni" bir dilin doğulmasına səbəb oldu. Buna görə də, Kanada tələffüzündə həm Britaniya, həm də amerika ingiliscəsinin elementləri mövcuddur. Bu həm Böyük Britaniyadan, həm də Amerikadan olan əhalinin Kanadada məskunlaşması və Kanada tələffüzünün bu iki dilin təsirinə məruz qalmasından irəli gəlir. Bundan əlavə bir sıra elmi və sosial səbəblər də mövcuddur.

Kanada linqvistik Walter Avis belə bir nəticəyə gəlmişdir ki, Britaniya və ya Amerikan ingitliscəsinin istifadəsi danışan şəxsin sosio-iqtisadi mövqeyindən və səviyyəsindən asılıdır. O deyirdi: *"Az istifadə olunan və ədəbi normaya uyğun sözdürsə Britaniya, ümumişlək sözdürsə Amerika variantı üstünlük təşkil edir. Nəticədə Britaniya tələffüz variantı sosial piramidanın ən yüksək nöqtəsində Amerikan variantı isə geniş yayılmış formada özünü büruzə verir"* [2, s.40].

Bir zamanlar yüksək təbəqə və yüksək cəmiyyətdə istifadə olunan tələffüz forması indi öz növbəsini Amerikan tələffüzünə yönəltmişdir. Kanada bu gün demək olar ki, mədəni, siyasi, iqtisadi və linqvistik cəhətdən Amerika yönümlü bir ölkə olmuşdur. Kanadalıların danışıq tərzi daim amerikanizmlərlə zənginləşir. M.H.Scarghilə (Alberta University) görə informantların demək olar ki, $\frac{2}{3}$ hissəsi Amerikan, $\frac{1}{2}$ hissəsi Britaniya, $\frac{1}{3}$ hissəsi isə, onun sözləri ilə desək, "a free pronunciation" yəni, həm Britaniya, həm də Amerikan tələffüzünə malikdir (Scarghil M.H. Canadian English and Canadian Culture in Alberta – J.CLA, I, 1955).

Kanadada RP (Received Pronounciation) variantından məhdud sayda sosial qruplar tərəfindən istifadə olunur və burada British English (yəni ingilis dilinin Britaniya variantı) o qədər də geniş yayılmamışdır və Amerika ingiliscəsi daha çox istifadə olunan və dominantlıq təşkil edən bir variantdır.

Rəsmi British English variantı əsasən radio və televiziya diktorlarının nitqində istifadə olunur.

Kanadada ikinci rəsmi dil fransız dilidir. Onun rəsmi dil kimi bir əyalətdə danışılmasına baxmayaraq geniş yayılmışdır. Bundan əlavə, Qücbek ingilis dili bir sıra əyalətlərdə – Ontario və digər böyük sənaye şəhərlərinin yerləşdiyi əyalətlərlə sərhəddə istifadə olunur. Beləliklə, Kanada ingiliscəsi bir çox ekstralinqvistik faktorlara əsaslanaraq müxtəlif dillərin təsirinə məruz qalmışdır. Bu sahədə elmi araşdırmalar kifayət qədər olmadığından Kanada ingiliscəsi Amerika variantı ilə eyniləşdirilir (Xüsusilə Şimali Amerika).

Müxtəlif faktorlara əsaslanaraq belə bir fikir formalaşır ki, Kanada əhalisinin böyük əksəriyyəti "Amerikan ingiliscəsinə daha yaxın" hər hansı bir ingilis dilindən istifadə edirlər.

V.S.Avis yazır: *"Ontario ingiliscəsi (ümumilikdə Kanada ingiliscəsi) nə Britaniya, nə də Amerikan variantıdır. Lakin bu iki dilin kompleksi onların hər ikisinin lüğət tərkibinə, qrammatikasına, sintaksis və tələffüz müxtəlifliyinə görə fərqlənir"* [2, s.42].

Bütün bu deyilənlərdən əsas məqsəd Kanada ingiliscəsinə həm Britaniya, həm də Amerika variantının təsiri olduğunu və onun hansı variantda meyilliyinin güclü olduğunu aşkar edib. Kanada ingiliscəsinin özünəməxsus keyfiyyətlərinin mövcudluğunu sübut etməklə onun milli variant statusuna malik olduğunu müəyyənləşdirməkdir.

Bu məqsədlə Kanada ingiliscəsinin samit və sait sistemlərini, vurğu, intonasiya tələffüz xüsusiyyətlərini RP (Received Pronunciation) və GA (General American) variantları ilə müqayisə edib Kanada variantının özünəməxsus, ümumi xüsusiyyətlərini analiz etmək lazımdır.

Kanada samitlər sistemi ilə RP və GA samitlər sistemi arasında fərqlər samitlərin keyfiyyət və paylanmasında daha çox nəzərə çarpır. Bu fərqlilik özünü əsasən aşağıdakı samitlərdə daha çox büruzə verir.

[t], [L], [h], [s], [w, ʍ], [ð], [ʃ]

Sait səslər inventarında olan fərqlilik əsasən onların uzun variantda tələffüz edilməsidir ki, bu da sözlərin fərqləndirilməsini çətinləşdirir.

Məsələn, is – ease **[ɪz – i:z]**, cot – caught **[kɒt - kɔ:t]**, pull – pool **[pʊl – pu:l]** kimi sözlər eyni cür tələffüz olunur ki, bu da anlaşmada çətinlik törədir. Növbəti məqalədə bu üç variant: RP (Received Pronunciation), AE (American English) və CE (Canadian English) variantlarının samitlər və saitlər sistemlərində olan fərqli cəhətlər təhlil ediləcəkdir.

Ədəbiyyat

1. Antipova E.Ya and others. English Intonation. M., 1974.
2. Avis W.S. Op.Cit.
3. Babayev S.M. Major problems of oral communication in foreign languages. Foreign language teaching issues (FLTI). Tabriz, 1992.
4. Bloomfield M.W. Canadian English and its Relation to Eighteenth Century American Speech – JEGP, I, 1948.
5. Crystal D. Prosodic Systems and Intonation in English. Cambridge, 1969.
6. Hancock M. English Pronunciation in use. Cambridge University Press, 2004.
7. Jones D. Cambridge English Pronouncing Dictionary. Cambridge University Press, 2006.
8. Scargill M.H. Canadian English and Canadian Culture in Alberta. J.CLA, I, 1955.
9. Christophersen P. An English Phonetic Course. London, 1975.
10. Попова Л.Г. Некоторые лексические особенности канадского варианта современного английского языка. Автореф. канд. дисс. М.1974.

А.Г.Керимов

Некоторые заметки о канадском произношении английского языка

Резюме

В статье рассматриваются некоторые особенности канадского варианта английского языка. Автор проанализировал три периода в развитии английского языка и его развитие в Канаде. На канадский английский повлияли варианты английского языка RP (Received Pronunciation) и GA (General American).

Будучи доминирующим в Канаде, вариант GA используется гораздо чаще в повседневной жизни. Британский вариант в основном используется на радио и телевидении.

A.H.Karimov

Some notes on the Canadian variant of English

Summary

The article deals with some features of Canadian variant of English. Three periods in the development of the English language and its increase in Canada were analysed by the author. Canadian English was influenced both by RP (Received Pronunciation) and GA (Ageneral American) variants of English.

Being dominant in Canada GA variant is spoken much more in everyday life. British variant is mostly used in radio and TV.

Rəyçi: filol.e.d., prof. F.Veysəlli

Redaksiyaya daxil olub: 10.05.2023

A.V.MƏMMƏDLİ
baş müəllim
e-mail: mammadli.aliya@outlook.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

İNGİLİS DİLİNİN AMERİKAN VARİANTINDA İŞLƏNƏN ONOMASTİK REALİLƏR

Açar sözlər: *onomastik reali, transliterasiya və transkripsiya, struktur, abreviatura*
Ключевые слова: *ономастические реалии, транслитерация и транскрипция, структура, аббревиатура*
Key words: *onomastic realia, transliteration and transcription, structure, abbreviation*

Realilər xalq dili sözləri olub, coğrafi mühitə, mədəniyyətə, maddi məişətə, yaxud xalqa, millətə, ölkəyə aid əşya, anlayış və hadisələrin adlarıdır, yerli və tarixi koloritin daşıyıcılarıdır. Bu leksik realilərin başqa dillərdə qarşılığı yoxdur.

Realilərin milli mənsubiyyəti olur, hansı xalqın dilində yaranıbsa, o xalqa da mənsub olur. Başqa xalqların dillərinə ədəbiyyat və kütləvi informasiya vasitəsilə daxil olur. Həmin realilər işləndikləri dillərdə ya müvəqqəti, ya da həmişəlik yaşayırlar, alınma söz kimi o dilləri zənginləşdirirlər.

Tea Şippan realiləri "Bezeichnungexotismen" adlandıraraq onların başqa ölkədə yarandığı kimi işlədilməsini qeyd etmişdir. Q.V.Çernov milli koloritli realiləri "ekzotik" sözlər kimi qeyd edir. A.D.Şveyser isə bu tipli sözləri "ekvivalentsiz leksika" adlandırır. A.V.Fyodorov yalnız yerli xalqa məxsus, digər xalqların məişətində mövcud olmayan milli xüsusiyyətli sözləri realilər adlandırmışdır.

Realini söz-leksik vahid hesab edən müəlliflər də vardır. E.M.Vereşaqinin fikrincə, nominativ sözbirləşməsi əslində semantik cəhətdən bərabər yüklü sözlərin birləşməsidir ki, reali rolunda çıxış edir [2, s.71].

Realilərin başqa bir forması ixtisarlardır (abreviatura). Onların realilərin tərkibinə daxil edilməsi, əlbəttə, məntiqidir. Bu ixtisarlar çoxlu leksik realiləri özündə birləşdirən hər hansı bir sahəyə aid təkcə ad yox, eyni zamanda məzmun daşıyıcılarıdır. Nominativ birləşmə hesab edilən belə ixtisarlar əslində söz kimi anlaşılır. Məsələn, YUNESCO, ZAQS və s.

Realilərin formasına gəldikdə, nəzərdə fonetik və qrafik forma tutulur. Transkripsiya, daha doğrusu, transliterasiya realinin tələffüzünü tərcümə dilində imkan qədər orijinal mətndəki tələffüzə daha yaxın, maksimum oxşar formada saxlamağı nəzərdə tutur.

Alınma realilərin forması məsələsinin həllinə gəldikdə, bu məsələ realinin tərcümə dilinə məxsus lüğətdə olub-olmamasından çox asılıdır. Çünki lüğət realiləri tərcümə dilinin leksik tərkibinə daxildir, deməli, artıq müəyyən formaya malikdir, bu dilin orfoqrafik və fonetik qaydaları ilə möhkəmlənib. Bununla belə, bu qəbildən olan realilər, yəni alınma realilər tərcümə dilinin öz doğma realilərindən az-çox fərqlənə bilər. Bu da təbii hesab edilir. Çünki belə realilər müxtəlif dillərin fonetik qaydalarına tabe olan realilərdir. Yad realilər tərcümə dilinə daxil olan kimi mühitə yavaş-yavaş uyğunlaşır, təzə şəraitə düşsə də özünü doğma mühitdəki kimi hiss edir, doğma dilin realilərinin istifadə etdiyi bütün imtiyazlardan o da istifadə edir.

Realilər milli koloriti daha aydın əks etdirən sahədir. Kolorit adətən ədəbiyyata, bədii tərcümələrə şamil edilir.

Hər bir mədəniyyətin öz çərçivəsinə uyğun olaraq özünün çoxsaylı millispesifik realiləri mövcuddur. Məhz bu realilər məişətə, insanın mənəvi həyatına, dünyəvi təbiətə uyğun olaraq müxtəlif qruplara bölünə bilərlər.

Realilər coğrafi və etnoqrafik, folklor və mifoloji anlayışlar, məişət, ictimai və tarixi anlamda bir sıra leksik-semantik qruplara bölünür. Onomastik realilər xüsusi adlar da leksik – semantik qruplara bölünür. İnsan adları, coğrafi adlar, şəhər adları, qəzet və jurnal adları, gəmi və təyyarə adları, firma və şirkət adları. Realilərin adlarını tərcüməsinin dörd halda mümkünlüyünü müşahidə etmək olar [3, s.150]

I Transliterasiya və transkripsiya – verilmiş realilərin tərcümə olunmuş dilə uyğun şəkildə hərflərlə verilməsidir.

II Perifrastik, təsviri – dildə mövcud olan elementlərin köməyi ilə verilmiş realilərin yeni və ya mürəkkəb sözlərlə veriləmsi;

III Funksiyasına görə bir qədər realilərə yaxın olan sözlərin köməyi ilə verilməsi;

IV Hiponomik – realilərin tərcüməsinə qismən yaxın olan tərcümə.

Hətta ingilis dilinin müxtəlif variantlarının belə fərqli etnolinqvistik, psixolinqvistik, kulturoloji və s. leksik laylara malik olduğu məlumdur ki, bu da həmin variantlarda danışan xalqların özünəməxsus həyat tərzi, tarixi ilə bağlı olmuşdur. İngilis dilinin bir variantında müəyyən məfhumu bildirən söz olduğu halda, başqasında yoxdur. Misal üçün, Amerika ingiliscəsindəki downtown sözünün ifadə etdiyi məfhumu Britaniya ingiliscəsində bir sözlə ifadə etmək mümkün deyildir, o təsvir vasitəsilə ifadə olunur: “the business centre of a town or a city”. Amerika ingiliscəsində işlənən disaster area və yaxud distressed area ingilis dilinin Britaniya variantında bütöv bir cümlə ilə ifadə oluna bilər: “a place which has suffered a lot of damage because of a disaster such as a flood”. Hər hansı bir sözün semantik yükündə müəyyən predmet və ya hadisənin əlamətlərinin kompleks halda ifadə olunmasını onun aid olduğu xalqın həyat tərzinin milli spesifikası ilə bağlamaq mümkündür. Bütün dillərdə olduğu kimi, ingilis dilinin Amerika variantında da onu başqa dillərdən fərqləndirən etnolinqvistik, kulturoloji və s. amillərlə bağlı realilər tarixən yaranıb formalaşmışdır. Amerika ingiliscəsindəki realilər üçün fon rolunu ölkəni məskunlaşdıran Avropa dilləri, yerli hindu dilləri, XVII-XVIII əsrlərdə və daha sonra formalaşan Amerika cəmiyyətinin yeni həyat tərzi, mədəni, əxlaqi və dini baxışları və digər amillər oynamışdır. Bu səbəbdən də ingilis dilinin bu variantında realilər və onların şərhi məqsədilə belə realilərin meydana çıxdığı tarixə, ictimai-siyasi və mədəni mühitə nəzər salmaq məqsədəuyğundur. Tərcüməşünaslıq ədəbiyyatında realilərin tərcüməsinin müxtəlif üsulları göstərilir. Qeyd edilən məsələyə münasibətdə tədqiqatçıların fikirlərində ümumi cəhətlər çox olsa da, fərqli yanaşma da özünü göstərir.

Funksional uyğunluğu təmin edən ifadə vasitələri bir dildən başqa bir dilə hərfi tərcümənin yaratdığı anlaşılmazlığın qarşısını almağa və orijinalın düzgün tərcüməsinə kömək edir. N.İ.Pomorozskayanın fikrincə, yalnız konkret xalqın, ölkənin həyatı ilə bağlı olan və məhz bu xalqın dilində öz əksini tapan denotativ realilər milli-tarixi koloritə malik olduğundan bədii əsərlərdə milli fonu yaradan bir amildir. E.İ.Şumager fon leksikasının ölkəşünaslıq haqqında zəngin informasiyaya malik olduğunu qeyd edir və “söz vasitəsilə” başqa bir xalqın həyatına nüfuz etmək, sözdə maddi, ictimai və mənəvi prosesləri müşahidə etməyin mümkün olduğunu göstərir. Bir dildən başqa dilə tərcümə yalnız iki dilin qrammatik strukturlarının deyil, həm də onların mədəniyyətlərinin qarşı-qarşıya gəlməsi, müqayisəyə cəlb olunmasıdır. Tərcümə prosesində tərcüməçi dərhal tərcümə oluna bilməyən bir qrup dil elementləri ilə rastlaşır. Bu onunla əlaqədardır ki, orijinal dildə mövcud olan məfhumların heç də hamısı tərcümə edilən dildə rast gəlinmir.

Milli-spesifik realilərə başqa dildə leksik ekvivalenti olmayan leksemlər və yaxud denotasiyalar, eləcə də konnotasiyalar – konkret bir dilin sözlərinin əldə etdiyi məcazi emosional mənalar daxildir. Göründüyü kimi dilçilər realilərin tərcüməsinin bır sıra üsullarına önəm vermişlər. Onlar arasında xüsusilə geniş yayılanlar transliterasiya, transkripsiya, kalka, təsviri və yaxud izahlı tərcümə, realinin reali vasitəsilə tərcüməsi və təxmini tərcümə üsullarıdır. Əgər eyni bədii əsər ingilis dilindən Azərbaycan dilinə müxtəlif müəlliflər tərəfindən tərcümə edilmişdirsə, onda bu müəlliflərin hər birinin tərcüməsi nəzərə alınır. Realilərin başqa dildə verilməsinin müxtəlif üsullarının əsas xüsusiyyətlərini və mahiyyətini aydınlaşdırmağa çalışaq.

Transkripsiyanın başlıca cəhəti mənbə dilin fonemlərinin obyekt dildə müvafiq fonemi ifadə edən qrafemlərlə verilməsidir. Transkripsiyanı transliterasiyadan fərqləndirən əsas xüsusiyyət sözün mənbə dildəki səslənməsini saxlamaqla onun koloritini, etnokulturoloji mahiyyətini qorumaqdır. Realilər müxtəlif sahələrə aid olur. Onların bilavasitə şəxs adları, soyadları, yaşayış məskənləri, küçə və başqa bu tipli onomastik vahidləri adlandıran hissəsinin transkripsiya ilə verilməsi vacib şərtlərdəndir. Bununla yanaşı, bədii əsərlərdə müəllif özü müxtəlif adlardan, real gerçəklikdə olmayan adlardan istifadə edir. Əsərdə belə adların işlənməsi üslubi xüsusiyyətlərdən irəli gəlir. Bəzən belə adlar müəllifin intensiyası ilə bağlı meydana çıxır. Realilərin transkripsiya vasitəsilə verilməsi də ümumi məzmunun, bədii əsərin etnokulturoloji, etnoqrafik xüsusiyyətlərini tərcümədə saxlamağı tələb edir. Realilərin transkripsiya ilə verilməsini konkret nümunələr üzrə nəzərdən keçirək. Cerom Devid Selincerin "Çovdarlıqda uçurumdan qoruyan" əsərindəki bəzi onomastik vahidlərin Azərbaycan dilində verilməsinə aid nümunələrə baxaq. And all that David Copperfield kind of crap… – "və qısası Devid Kopperfildin sicilləməsi". Bu parçada ingilis dilindəki "David Copperfield" antroponimi transkripsiya edilmişdir. Əgər transliterasiya əsas götürülsəydi ad "David Kopperfield" şəklində veriləcəkdi. Qeyd edək ki, ingilis "David" transkripsiyada Azərbaycan dilində "Deivid" şəklində olmalıdır. Lüğətdə bu adın iki variantda verilməsinə rast gəlinir. David [deıvid] Deyvid, David [5].

Ədəbiyyat

1. Abbasova A. İngilis və Azərbaycan antroponimlərinin semantik və üslubi xüsusiyyətləri. Bakı: Elm, 2004.
2. Çobanov M.Azərbaycan antroponimiyasının əsasları. Bakı, 2017, – 411 s.
3. Qurbanov A. Azərbaycan onomalogiyası məsələləri. Bakı, 1986, – 100 s.
4. Qurbanov A. Azərbaycan onomastikası Bakı: APİ, 1986, – 116 s.
5. Mikayılova Ə.N. Onomastik realilərin üslubi imkanları (XIX əsrin II yarısında yaranmış nəsr əsərlərinin materialları əsasında linqvistik tədqiqat). Bakı: "Memar Nəşriyyat Poliqrafiya" MMC. 2008, – 302 s.

A.B.Мамедли

Ономастические реалии, используемые в американском варианте английского языка

Резюме

Английский язык включает в себя широкий лексический пласт, неразрывно связанный с национальной культурой людей, говорящих на нем, несущий богатую информацию об опыте общественной жизни, повседневной жизни, особенностях и различиях их религии и верований, а потому не вполне понятно для представителей других народов. Этнография, являющаяся важной частью английской культуры, как и все национальные культуры, является отражением истории и жизненного опыта народа, которому она принадлежит, и обусловливает создание широкого лексико-семантического поля с национальным колоритом в лексика языка. Адекватное знакомство с национально-окрашенными словами, выражениями и фразеологией, также известными как «реалии» в терминологии языкознания, определяет степень успешности англоязычного общения и перевода с английского на родной язык.

A.V.Mammadli

Onomastic realias used in the American variant of the English language

Summary

The English language includes a wide lexical layer that is inseparably united with the national culture of the people who speak it, which carries rich information about the social life experience, everyday life, the peculiarities and differences of their religion and beliefs, and therefore is not fully un-

derstandable for representatives of other nations. Ethnography, which is an important part of English culture, like all national cultures, is a reflection of the history and life experience of the people to which it belongs, and it determines the creation of a wide lexical-semantic field with a national color in the lexicon of the language. Adequate familiarity with nationally colored words, expressions and phraseology, also known as "realia" in linguistics terminology, determines the degree of success of English communication and translation from English to the native language.

Rəyçi: filol.f.d. A.Ağazadə

Redaksiyaya daxil olub: 17.04.2023

G.H.MƏMMƏDOVA
e-mail: gularemammed@yahoo.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

MÜASİR İNGİLİS DİLİNDƏ MÜRƏKKƏB İSİMLƏRƏ AİD XÜSUSİYYƏTLƏR

Açar sözlər: *isim, sadə, mürəkkəb, morfoloji, məna, növ*
Ключевые слова: *существительное, простое, составное, морфологическое, значение, тип*
Key words: *noun, simple, compound, morphological, meaning, type*

İsim əsas nitq hissələrindən biri olub, şəxs, yer, əşya və ya fikir kimi məfhumları adlandıran sözdür. Cümlədə isimlər subyekt, bilavasitə obyekt, subyekt tamamlayıcı, obyekt tamamlayıcı, müsbət və ya sifət rolunu oynaya bilər.İsimlər ingilis dili lüğətinin böyük bir hissəsini təşkil edir və onlar müxtəlif növlərdə olur: 1) isimlər insanı adlandıra bilər: *Corc, Braun, İlham* və s.; 2) isimlər yeri adlandıra bilər: *mənim otağım, Disneyland, Şuşa* və s.; 3) isimlər şeyləri də adlandıra bilər, baxmayaraq ki, bəzən anlayışlar, fəaliyyətlər və ya proseslər kimi qeyri-maddi şeyləri də ifadə edə bilərlər. Bəziləri hətta hipotetik və ya xəyali şeylər də ola bilər: *ayaqqabı, dolab, azadlıq, konsept, futbol* və s.

Bundan əlavə, isimlər *ümumi (common)* və *xüsusi (proper)* olmaqla iki yerə bölünür.

Xüsusi isim şəxsin, yerin və ya əşyanın xüsusi adıdır və həmişə böyük hərflə yazılır. Xüsusi ismin əksi isə ümumi isimdir.

Ümumi isim sinif və ya qrupdakı elementin ümumi adıdır və cümlənin əvvəlində və ya başlıqda olmadığı halda qədər böyük hərflə yazılmır.

Ümumi isimlər bir neçə yerə bölünə bilər: *konkret isimlər, mücərrəd isimlər* və *kollektiv (toplu) isimlər*.

Konkret isim hisslərlə qavranılan bir şeydir; fiziki və ya real olan bir şeyi əks etdirir.

Mücərrəd isimlər isə hisslərlə qavranmayan bir şeydir.

Kollektiv isim bir qrup və ya insanlar və ya əşyalar toplusunu bildirir.

Müasir ingilis dilində isimlər morfoloji quruluşuna (according to its morphological structure) və mənasına (according to its meaning) görə təsnif olunur.

Morfoloji quruluşuna görə isimlər *sadə (simple), düzəltmə (derivative)* və *mürəkkəb (compound)* olmaqla üç yerə bölünür [1, s.6].

Əsas nitq hissələrindən olan isim əsasən əşyalılıq bildirir. Əşyalılıq məfhumuna yalnız konkret şeylər deyil, həm də əşyalara xas olan keyfiyyət, əlamət, hərəkət adları və eləcə də mücərrəd məfhumlar daxildir. Məsələn: *a boy, a girl, butter, snow, the sun, beauty, heroism, highness, running, conversation, love, hate, permission, friendship, childhood* və s.

Müasir ingilis dilində ismə məxsus olan əlamətlər aşağıdakılardır [3, s.90]:

1) isim *-er (-or), -ness, -ment, -hood, -ism, -ance, -ing* şəkilçiləri vasitəsilə düzəldilə bilir. Məsələn: *writer, sailor, government, darkness, boyhood, heroism, attendance, the writing*və s.

2) ismin qarşısında ya qeyri-müəyyənlik, ya da müəyyənlik ariklı işlənir. Məsələn: *a lake, a building, a woman, the moon, the earth, the world* və s.

L.V.Kauşanskaya yazır ki, bəzən ancaq sözün qarşısında işlənmiş artikl onun isim olmasını bildirir [4, s.16]. Məsələn: ***A*** *four is a good mark (Dörd əla qiymətdir). He got* ***a*** *two in mathematics (O, riyaziyyatdan iki aldı).*

3) isim əşya bildirdiyi üçün onun qarşısında əlamət və ya keyfiyyət bildirən təyin işlənə bilir. Məsələn: *a* ***deep*** *river (dərin çay), an* ***old*** *building (köhnə bina), a* ***beautiful*** *woman (gözəl qadın)* və s.

4) isim (sayıla bilən) tək və cəm formada işlənə bilir. Məsələn: *a chair – chairs, a girl-girls, a fox- foxes, a dress – dresses* və s.

5) isim sözönü ilə işlənə biliur. Məsələn: *of the garden (bağdan), to the park (parka), in the street (küçədə), on the wall (divarda), at the bench (skamyada), under the table (stolun altında), with a friend (dostumla), by the river (çayın yanında)* və s.

6) isim cümlədə *mübtəda, tamamlıq, predikativ, təyin və zərflik (sözönü ilə birlikdə)* funksiyasında işlənə bilir.

Bu qeyd etdiyimiz əlamətlər müasir ingilis dilində ismi formaca ona bənzər nitq hissələrindən fərqləndirməyə kömək edir. Bu əlamətlərdən ən azı birinə malik olan söz müasir ingilis dilində isim, yaxud isimləşmiş söz hesab edilir.

Müasir ingilis dilində isimlər morfoloji quruluşuna və mənasına görə aşağıdakı qruplara bölünür:

1) Sadə isimlər – bu isimlər yalnız bir kökdən ibarət olur. Məsələn: *a city (şəhər), a book (kitab), a tree (ağac), a bird (quş), a pen (qələm), a paper (kağız), a woman (qadın), a table (stul)* və s.

2) Düzəltmə isimlər – bu isimlər kök və affiksdən ibarət olan isimlər hesab olunur. Məsələn: *a teacher (müəllim), friendship (dostluq), freedom (azadlıq), translation (tərcümə), disarmament (tərksilah), reconstruction (yenidənqurma)* və s.

3) Mürəkkəb isimlər – iki və daha artıq kökdən ibarət olan isimlərə mürəkkəb isimlər deyilir. Məsələn: *a bluebell, a pickpocket, a dancing-girl, an English man* və s.

Mürəkkəb isim iki və ya daha çox sözlə düzələn isimdir. Mürəkkəb isim adətən [isim + isim] və ya [sifət + isim] olur, lakin başqa birləşmələr də var. Mürəkkəb isimləri tanımaq vacibdir. Hər bir mürəkkəb isim bir vahid kimi çıxış edir və sifətlər və digər isimlərlə dəyişdirilə bilər.

Mürəkkəb isimlərin bir neçə forması var [5, s.45]:

1) açıq və ya aralı – sözlər arasında boşluq olan mürəkkəb isimlər, məsələn, *tennis shoe (tennis ayaqqabısı);*

2) defislə yazılan mürəkkəb isimlər, məsələn, *six-pack (altı paket);*

3) sözlər arasında boşluq və defis olmayan mürəkkəb isimlər, məsələn, *bedroom (yataq otağı)* və s.

İndi isə mürəkkəb isimlərə aid bəzi nümunələri nəzərdən keçirək (6):

Noun	+	Noun	Bus stop	Is this the bus stop for the number 10 bus? (Bu 10 nömrəli avtobusun dayanacağıdır?)
			Fire-fly	It is possible to see fire-flies at night (Gecələr atəşböcəyi görmək mümkündür).
			Football	Will they play football today? (Onlar bu gün futbol oynayacaqlar?)
adjective	+	Noun	Full moon	He always feels crazy at full moon (O, bədir ayı doğanda həmişə özünü narahat hiss edir).
			Blackboard	Clean the blackboard, please (Zəhmət olmasa, yazı lövhəsini təmizləyin).
			Software	He could not install this software on my PC (O, bu proqramı mənim kompüterimə quraşdıra bilmədi).
Verb (-ing)	+	Noun	Breakfast	They always eat breakfast at 9 am. (Onlar həmişə səhər 9-da səhər yeməyi yeyirlər).
			Washing machine	Put the clothes in the green washing machine (Paltarları yaşıl paltaryuyan maşına qoyun).
			Swimming pool	He has got a beautiful swimming pool (Onun gözəl hovuzu var).

Noun	+	Verb (-ing)	Sunrise	She likes to get up at sunrise (O, günəş çıxanda qalxmağı sevir).
			Haircut	He needs a new haircut (Ona yeni saç düzümü lazımdır).
			Train-spotting	His hobby is train-spotting (Onun hobbisi qatarları müşahidə etməkdir).
Verb	+	preposition	Check-out	Please try to remember that check-out is at 12 noon (Xahiş edirik unutmayın ki, yoxlama günorta saat 12-dir).
Noun	+	Prepositional phrase	Mother-in-law	Does your mother-in-law live with you? (Qaynanan sənlə yaşayır?)
Preposition	+	Noun	Underworld	He does not think they will accept money from the underworld (O, yeraltı dünyadan pul qəbul edəcəklərini düşünmür).
Noun	+	Adjective	Truckful	He needs 10 truckfuls of bricks (Ona kərpiclə dolu 10 yük maşını lazımdır).

İsimlərin mürəkkəbləşməsi çox məhsuldar söz yaratmaq prosesi hesab edilir. Məhsuldarlıq *"insan dilinin müəyyənedici xüsusiyyətlərindən biridir və bu, ana dilində danışan şəxsə generativ qrammatika qaydalarına uyğun olaraq çoxlu sayda söz və cümlələr yaratmağa imkan verir"* [7, s.84].

İngilis dilində mürəkkəbləşmə (isimlərin mürəkkəbləşməsi) yolu ilə yaranan çox sayda söz var.

Mürəkkəbləşən isimlərin ümumi xüsusiyyətləri

İki və ya daha çox sadə və ya mürəkkəb söz kökünün birləşərək morfoloji vahidə çevrildiyi zaman yaranan birləşmələr mürəkkəbləşən sözlər kimi qəbul edilir. Beləliklə, birləşmə birdən çox əsasdan ibarətdir, məsələn, *a letter-box* (məktəb qutusu), *fingertip* (barmaq ucu), *term paper* (kurs işi) və s. Mürəkkəbləşən sözlərin əsasları həm qrammatik, həm də semantik cəhətdən vahid söz kimi fəaliyyət göstərir.

R.Qvirk və digərləri yazırlar ki, müasir ingilis dilində mürəkkəbləşmə adətən yalnız iki əsasdan ibarət olur, lakin prinsip etibarilə buraya iki və daha artıq tərkibli sözlər də daxil ola bilər [8, s.567]. Mürəkkəb sözlər bir təyinedici və təyin olunmuş hissədən ibarət olur. Təyinedici adətən təyin olunan əsas sözdən [head word [əsas söz, yaxud determinatum] əvvəl işlədilir. Əsas söz, yaxud determinatum mürəkkəbin birinci sözü ilə təyin olunan qrammatik dominant hissə hesab olunur. Məsələn: *bedroom* (yataq otağı), *computer freak* (kompüterin qeyri-adiliyi), *daylight* (gün işığı) və s. Bu o deməkdir ki, birləşmənin prototipi ümumiyyətlə xüsusi hal olan yeni bir şey haqqında məlumat verir. Məsələn, əgər biz *small talk* (kiçik söhbət) nümunəsini veririksə, aydındır ki, burada söhbətin xüsusi bir növü nəzərdə tutulur. Yaxud *a blackbird* (qara quş) xüsusi bir quş növü nəzərdə tutulur.

R.Qvirk və digərləri yazırlar ki, istənilən sözü bir birinin ardınca qoymaqla mürəkkəb isim yaratmaq olmaz [8, s.68]. Mürəkkəbləşən sözlər arasında müəyyən məntiqi ardıcıllıq olmalıdır, yəni istənilən sözlərin ardıcıl düzlməsi mürəkkəb söz yaratmaq kimi qəbul edilməməlidir. Məsələn, *table glass* (masa şüşəsi) sözünü bu cümlədə işlətməklə mürəkkəb isim yaratmalı olduğumuzu düşünə bilmərik. Nümunə: *She puts the glass on the table (O, stəkanı stolun üstünə qoyur).*

Mürəkkəb isimlər müəyyən mənada sintaktik qruplara çox bənzəyir. Bir neçə nümunə verək:

Mürəkkəb sintaktik qrup birləşməsi: *a dark room = a darkroom (qaranlıq otaq), a green fly = a greenfly (yaşıl milçək), a black bird = a blackbird* və s.

Müəyyən dərəcədə mürəkkəb birləşmələri sintaktik qruplardan ayırmaq çətindir. Lakin mürəkkəb birləşmələr və sintaqmlar arasında fərq qoymaq üçün istifadə edilə bilən dörd meyar var. Bunlar məna, sintaktik quruluş və ya elementlərin ardıcıllığı, vurğu və yazı üslubudur. Bunlar semantik və formal meyarlardır və onların hər biri nəzərə alınmalıdır, çünki ayrıseçkilik etmək üçün tək bir meyar kifayət deyil.

Birləşmələri və sintaktik qrupları fərqləndirmək üçün əsas meyar mənadır. *Dancing-girl* (rəqs edən qız) və *a dancing girl* sintaqmasına nəzər salsaq, iki fərqli məna çıxarmaq olar. Birləşmə (sintaktik qrupdan fərqli olaraq) hazırda rəqs edən qız deyil, işi rəqs etmək olan qadın deməkdir.

Oxşar olmayan mənalara başqa bir misal *glass-case* (şüşə qab) və sintaqmdır.

A glass case – bu mürəkkəb söz "şüşə qutu" mənasını ifadə edir, lakin sintaktik qrup kimi "şüşədən hazırlanmış qutu" mənasını verir.

Sintaqm birləşmələr də tez-tez frazeologizmlərlə qarışdırılır. Bunlar birləşmələr kimi oxşar formaya malik idiomatik və leksikləşmiş söz qruplarıdır. Lakin yenə də məna frazeologizmləri və birləşmələri ayırmağa kömək edir. Məsələn, *a darkroom* (qaranlıq otaq) və *a dark horse* (qara at) nümunələri bunları çox aydın göstərir. *A darkroom* – fotoqrafik iş üçün istifadə olunan gündüz işığı olmayan otaq, lakin frazeologizm olan *a dark horse* sözünün qara və ya qəhvəyi olan bir atla heç bir əlaqəsi yoxdur. A dark horse frazeoloji birləməsi belə məna ifadə edir: "az tanınan, lakin gözlənilmədən qalib gələn və ya uğur qazanan namizəd və ya rəqib".

Bir çox mürəkkəb birləşmələrdə sintaktik qrupların mövcud olmadığı xüsusi sıra və ya tərkibi birləşmələr vardır. Məsələn, meat-eating eating meat sintaktik birləşməsində fərqli bir məna ifadə edir. *Sightseeing* və *seeing the sights*, yaxud *hard-boiled* və *boiled hard* birləşmələrində də bu vəziyyət belədir.

Bundan əlavə, mürəkkəb birləşmələri ayırmaq mümkün deyil. *A cold darkroom* (soyuq qaranlıq otaq) birləşməsini hissələrə bölə bilmərik, əgər bölsək onların mənaları fərqli olacaqdır.

Sintaktik qruplarla mürəkkəbləşən birləşmələr arasında başqa bir təzad da onların müxtəlif vurğulara malik olmasıdır. Sintaqmalarda ikinci dərəcəli vurğu müşahidə olunur, lakin demək olar ki, bütün birləşmələr isim, sifət və ya feil olsun, ilkin vurğuya malik olur.

Mürəkkəb isimlər adətən iki hissədən ibarət olur. Birinci hissə onun hansı obyekt və ya şəxs olduğunu və ya məqsədinin nə olduğunu izah edir. İkinci hissə sözügedən obyekti və ya şəxsi müəyyən edir. Mürəkkəb isimlər çox vaxt iki ayrı sözdən fərqli və ya daha konkret məna daşıyır. Göründüyü kimi, mürəkkəb isim ya tək sözlə, tire çəkilmiş söz kimi, ya da iki sözlə yazıla bilər. Qeyd edək ki, bu məsələ ilə bağlı dəqiq qayda yoxdur. Ən yaxşı variant budur ki, çox yayılmış mürəkkəb isimləri bir söz, digərlərini isə iki söz kimi yazmaq yaxşı olar.

Ədəbiyyat

1. Musayev O. İngilis dilinin qrammatikası. – Bakı: Qismət, 2008. – 359 s.
2. Hüseynov A.R. İngilis dilinin nəzəri qrammatikası üzrə mühazirələr toplusu. Bakı: Mütərcim, 2015, – 376 s.
3. Kroeger P.R. Analysing Grammar: An Introduction. Cambridge: Cambridge University Press, 2005, – 384 p.
4. Каушанская Л.В. A Grammar of the English language. Москва: Прогресс, 2008. – 358 с.
5. Collins P. English Grammar. London: Longman, 1999, – 918 p.
6. https://www.englishclub.com/grammar/nouns-compound.php
7. Bauer L. A Glossary of Morphology. Edinburgh: Edinburgh University Press, 2004, – 140 p.
8. Quick R., Greenbaum S., Leech G. and Svartvik J. A Comprehensive Grammar of the English Language. London: Longman, 1985, – 897 p.

Г.Г.Мамедова

Некоторые характеристики сложных существительных в современном Английском языке

Резюме

В статье рассматриваются некоторые характеристики составных существительных в современном английском языке. Имя существительное является одной из основных частей речи и представляет собой слово, обозначающее такие понятия, как человек, место, вещь или идея. В предложении существительные могут выступать в роли подлежащего, прямого дополнения, подлежащего дополнения, дополнения дополнения. Существительные составляют большую часть словарного запаса английского языка.

В современном английском языке существительные по своему морфологическому строению и значению делятся на следующие группы: простые, производные, составные. Сложные существительные состоят из двух и более корней. У них есть свой способ использования в английском языке.

G.H.Mammadova

Some characteristics of compound nouns in modern English

Summary

The article deals with some characteristics of compound nouns in modern English. A noun is one of the main parts of speech, and it is a word that names concepts such as a person, a place, a thing or an idea. In a sentence, nouns can act as subject, direct object, subject complement, object complement. Nouns make up a large part of the English vocabulary.

In modern English, nouns are divided into the following groups according to their morphological structure and meaning: simple, derivative, compound.Compound nouns consist of two or more stems. They have their own way of usage in English.

Rəyçi: filol.f.d., dos. S.B.Mustafayeva

Redaksiyaya daxil olub: 28.04.2023

L.S.MƏMMƏDOVA
müəllim
e-mail: leyla.sadixova.92@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

ANTROPOSENTRİZM FRAZEOLOJİ VAHİDLƏRİN SEMANTİKASININ ƏSASI KİMİ

Açar sözlər: *antroposentrizm, koqnitivlik, ünsiyyət, rasional təcrübə, metafora*
Ключевые слова: *антропоцентризм, познание, общение, рациональный опыт, метафора*
Key words: *anthropocentrism, cognition, communication, rational experience, metaphor*

Müasir dilçiliyin fərqləndirici xüsusiyyətlərindən biri də onun antroposentrizmliyidir, yəni insanın kainatın mərkəzi və ali məqsədi olaraq dünyada baş verən bütün hadisələr fonunda onun müəyyən mövqe nümayiş etdirməsidir [1, s.34]. XX əsrin sonlarında bir çox fundamental elmlərdə antropoloji tədqiqatların aparılması sürətlənməyə başladı. Koqnitiv-diskursiv paradiqma insana, onun ehtiyac və tələbatlarına fəaliyyətin determinantı kimi yanaşır, və nəticədə bu da insanı müxtəlif hadisələrin perspektivini və son məqsədlərini müəyyən edən ölçü mövqeyinə qoyur.

Antroposentrizm bizlər tərəfindən insanın ətraf reallığı dərk etmək, onu şüurunun prizması vasitəsilə refraksiya etmək və dünya haqqında öz təsəvvürünü yaratmaq qabiliyyəti kimi qəbul olunur. Deməli, insanın dünya haqqında öz mənzərəsini yaratmaq və ya şüurunda dünyanın xəritəsini cızmaq qabiliyyəti onun nitq və təfəkkür fəaliyyətində reallaşır.

Səbəb-nəticə əlaqələrinə əsaslanaraq dunyanın mənzərəsinin əsas antroposentrik quruluşu reallığın insan şüuru tərəfindən əks olunması xüsusiyyətidir, yəni birbaşa hiss təcrübəsinin hüdudlarından kənara çıxaraq mücərrəd rasional təcrübə sahəsinə keçməsi və reallığın kompleksində əks olunmasıdır. Bu mənada dil insanın özünün və ətrafının dərk olunmasında güzgü rolunu oynayır.

Məlumdur ki, dil cəmiyyət həyatında önəmli funksiya daşıyır. Deməli, cəmiyyət özünün mövcudluğu, inkişafı üçün dilə borcludur. Əgər dil olmasaydı, insanlar nəinki müasir inkişaf mərhələsinə çata bilməzdilər, habelə kollektiv şəkildə də birləşə bilməzdilər. Yəni dil-ünsiyyət olmasa, insanlar cəmiyyət üzvü ola bilməzdilər. Bəşəriyyətin inkişafında çoxlu kəşflər olmuşdur. Lakin bütün bəşəriyyətin kəşflərinin heç biri öz əhəmiyyətinə görə dillə müqayisə edilə bilməz. Əslində dil və cəmiyyət qarşılıqlı asılılıq münasibətindədir. Dil cəmiyyətin varlığı üçün hansı rolu oynayırsa, cəmiyyət də dilin yaşaması və inkişafı üçün həmin rolu oynayır. Dil olmasa, insanlar bir-biri ilə yalnız heyvanların olduğu səviyyədə anlaşa bilərdilər.

Hal-hazırda Yer üzündə üç minə qədər dil vardır. Bunlar vasitəsilə Yer kürəsinin bütün guşələrində olan adamlar bir-biri ilə ünsiyyət yarada bilir. Bir xalqın həyatında dil hansı rolu oynayır? Yaxşı deyilmişdir ki, dil millət varlığının birinci, bəlkə də yeganə amilidir. Xalqın müstəqilliyi – formalaşmış olması onun ana dilinin varlığından asılıdır. Əgər bir xalqın ana dili yoxdursa, həmin xalq yaşaya bilməz. Burada ana dili ilə ana vətəni müqayisə etmək olar. Vətənin millət və ya xalq üçün əhəmiyyətini kiçiltmədən demək olar ki, onların varlığı üçün dil daha vacibdir. Belə ki, tarix neçə-neçə vətənsiz xalq tanıyır. Amma onlar ana dilləri əsasında nəinki öz milli varlıqlarını qoruyub saxlamışlar, habelə milli mədəniyyətlərini də yaratmışlar.

Qeyd edək ki, dilin bir nəfər üçün də əhəmiyyəti vardır. Doğrudur dil ümumi cəmiyyətə məxsusdur. Bununla belə, ayrı-ayrı fərdlərin cəmiyyət üzvü ola bilməsi üçün onun dilini bilməsi vacib şərtdir. Nahaq yerə demirlər ki, dil hünər sahibi xəzinəsinin açarıdır. Neçə dil bilsən bir o sayda adamsan və s. [2, s.119]

Yuxarıda deyilənlər dillə bağlı bir sıra məsələləri, eləcə də "Dildə insan" prinsipi məsələsini qabartmağı zəruri edir. Bu prinsipə görə dil insanlar tərəfindən yaradılmışdır, subyektiv xarakter daşıyır və ünsiyyətdə olan şəxs dili ondan istifadə prosesində mənimsəməyi bacarır [3, s.154]

V.I.Postovalova qeyd edir ki, "hər bir konkret tarixi dövrün hər bir fərdinin bütün canlılar kimi dünya haqqında öz vahid mənzərəsi var. O, dünya ilə bilavasitə təmaslarının və həyat fəaliyyəti hərəkətlərinin nəticəsi kimi, dünya haqqında intuisiyaya əsaslanan dünya mənzərəsinin bütün məlum nümunələrini və variantlarını özündə ehtiva edən mövcud mədəniyyət materialından konkretləşir." [4, s.54]

Müasir dilçilikdə antropoloji tədqiqatların formalaşması və inkişafı bizə dil şəxsiyyəti probleminin, dünyanın linqvistik mənzərəsinin və onların fonunda dilin sistemililik xüsusiyyətinin tədqiqini aparmağa təkan verir. İndi isə ingilis dilinin frazeoloji qatında təzahür edən antroposentrizm əlamətlərini nəzərdən keçirək.

İstənilən bir dilin frazeoloji vahidlərindən ibarət frazeoloji sistemi dünyanın frazeoloji mənzərəsini təşkil edir ki, bu da "milli dünyagörüşünün xüsusiyyətlərini ifadə edən xüsusi dil vahidlərinin obrazlı sistemi " kimi başa düşülür. Onun ən mühüm fərqləndirici xüsusiyyətləri universallıq, antroposentrizm və ifadəlilikdir ki, bura obrazlılıq və modallıq da daxildir. Dilin frazeoloji sisteminin əsasını təşkil edən idiomlar və idiomatik ifadələr milli mədəni irsin linqvistik hadisəsi kimi dünyanın milli spesifik mənzərəsini yaradır. Mədəniyyət və həyat hadisələrinin təsiri altında meydana çıxan bu ifadələr çoxəsrlik kollektiv dərketmə və çevrilmə prosesində formalaşan dünyaya obrazlı baxışa əsaslanır.

Məlumdur ki, dildə obrazlılığın yaradılmasında metaforalar mühüm rol oynayır. Ətraf aləm, zaman və məkan, bir sözlə bütün reallıq insan beynində əks olunduğu şəkildə qavranılır, başqa sözlə ümumi prinsiplər əsasında dərk olunur. Bu cür konstruksiyalar "oriyentasiyalı metaforalar" adlandırılır, onların mənşəyi və qurulma məntiqi "bədənimizin bizi əhatə edən fiziki aləmdə müəyyən şəkildə müəyyən xassələrə və funksiyalara malik olması ilə izah olunur".

V.Teliya qeyd edir ki, sabit mədəni konnotasiyalar əldə edən məkan koordinatları insanda yüksək və ya aşağı" dəyər kimi yenidən düşünülür, qarşıda olanlar gələcək, geridə qalanlar isə keçmiş kimi tanınır.

Qeyd edək ki, ingilis frazeoloji vahidlərinin antroposentrik xüsusiyyəti onun semantikasında öz əksini tapır.

Bir insanı və onunla əlaqəli əksər məfhumları ifadə edən idiomların sayı digər frazeoloji vahidlərin sayından bir neçə dəfə çoxdur ki, bu da ingilis frazeoloji sisteminin antroposentrik təbiətini bir daha təsdiqləyir [5, s.103]

Belə ki, insanın keyfiyyətlərini, xassələrini, hallarını, hərəkət və əməllərini, sosial və şəxsiyyətlərarası qarşılıqlı əlaqələrini, vəziyyətlərini, artefaktları və ictimai qurumları modelləşdirən frazeoloji vahidlər dil sistemində vacib rol oynayır. Aşağıdakı nümunələri nəzərdən keçirək.

A secluded man /unsociable man *– qılaflı adam (cəmiyyətdən, geniş ünsiyyətdən uzaq olan adam)*

Alive and kicking! *– top kimi, tam sağlam*
Safe and sound *– sağlam və qıvraq*
Gentle as a lamb *– quzu kimi həlim, üzüyola*
To cream someone – məğlub etmək
Kent makes something out of nothing *– Kent milçəkdən fil düzəldir.*
A witty remark *– müdrik kəlam*
As cool as cucumber *– soyuqqanlı, təmkinli*
To tell stories *– özündən toxumaq, qeyri-real danışmaq*
As cold as a fish *– daşürəkli, rəhmsiz, mərhəmətsiz*
A rising star *– parlayan ulduz*
To live a hard life *– pis gün görmək*
Make it hot for someone *– pislik etmək*

Easy as pie *– çox asan, yüngül*
To throw a bomb into a splash *– sensasiya yaratmaq*
To overstep the limits *– sərhədi keçmək, pərdəni götürmək*
You are one in a million! *– Səndən yoxdur!*
A strong-willed person *– iradəli adam*
İşbaz (fırıldaqçı) *– a big operator*
To get the bird *– işdən azad olunmaq*
To set one's back against a brick wall *– işləri daşa dirənmək*
To be on the carpet/ be under discussion *– **gündəmdə qalmaq***
To be in the blues/ to feel blue *– kefi olmamaq*
Break a leg *– uğurlar, ən xoş arzular, bir performansdan əvvəl birinə şans diləmək*
Hit the books *– çox çalışmaq, çalışmağa başlamaq, kitab oxumaqla məşğul olmaq*
Let the cat out of the bag *– bir sirri açmaq, gizli bir şeyin ortaya çıxmasına səbəb olmaq, gizli olan bir şeyin aşkarlanmasına icazə vermək, ya təsadüfən ya da sürpriz olaraq bir şeyi aşkar etmək*
Hit the nail on the head *– hər hansı bir mövzuda doğru olmaq, dəqiq cavabı tapmaq, tam olaraq düzgün olanı etmək və ya demək, problem və ya situasiyanı tam dəqiqliyi ilə izah etmək*
When pigs fly *– heç vaxt reallaşmayacaq bir şey, imkansız, reallaşma ehtimalı az olan bir şey*
Old hat *– köhnə modda geyinən birisi və ya xarab olmuş, köhnəlmiş bir şey*

Bu deyimlərdə modelləşdirmə obyektləri daha məhdud obrazlı diapazona malikdirlər. Deməli, heyvan və ya artefakt əsasən deyimlərdə obyekt və ya artefakt vasitəsilə, obyekt isə başqa bir obyekt vasitəsilə irəli sürülür.

Göründüyü kimi insan mövzu olaraq geniş obrazlarda əks olunur. Məsələn, fiziki vəziyyət, maddi vəziyyət, hərəkətlərin xarakteri və ya sosial iyerarxiyada yer və mövqe bir çox frazeoloji vahidlərdə təqdim olunur.

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, insanın həyatı və onunla bilavasitə bağlı olan hər şey ingilis dilinin frazeoloji fondunda insanla birbaşa əlaqəsi olmayan ətraf aləmin cisim və obyektlərindən daha dolğun əks olunur. Bu, ingilis frazeoloji vahidlərinin antroposentrik xarakterini müəyyənləşdirir.

Ədəbiyyat

1. Кубрякова Е. Роль человеческого фактора в языке. Язык и картина мира/Отв.ред. Б.А.Серебренников. М.: 1987. – с.133-134
2. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı: Elm və Təhsil 2011, – 621 s.
3. Джонсон М. Метафоры, которыми мы живём. М.: 2002, – 251 с.
4. Постовалова В.И. | Сущность, развитие и функции языка. М.:1989
5. Телия В.Н. Метафоризация и её роль в создание языковой картины мира. /Отв.ред. Б.А.Серебренников. М.: 1987. – с.103.
6. Valiyeva N.Azerbaijani-English-Russian Dictionary of Idioms/Baku -2010

Л.С.Маммедова

Антропоцентризм как основание семантики фразеологических единиц

Резюме

В статье ставится цел доказать антропоцентрический характер семантики английских фразеологических единиц. Полученные таким способом данные подтверждают тезис об антропоцентрической природе английских фразеологизмов. Практическая значимость работы состоит в возможности широкого применения её результатов при исследовании английской идиоматики, а также в рамках сопоставительной фразеологии.

L.S.Mammadova

Anthropocentrism as the basis of the semantics of phraseological units

Summary

The aim of the article is to prove the anthropocentric nature of the semantics of English phraseological units. The data obtained in this way confirm the thesis about the anthropocentric nature of English phraseological units. The practical significance of the work lies in the possibility of wide application of its results in the study of English idioms, as well as in the framework of comparative phraseology.

Rəyçi: filol.f.d., dos. R.Şabanov

Redaksiyaya daxil olub: 15.02.2023

S.S.MƏMMƏDOVA
baş müəllim

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

İNGİLİS DİLİNDƏ OKKAZİONALLIQ HADİSƏSİ

Açar sözlər: *okkazional sözlər, potensial vahidlər, üslubi xüsusiyyət, kontekst, okkazional çevrilmə*
Ключевые слова: *окказионализмы, потенциальные единицы, стилистический признак, контекст, окказиональная конверсия*
Key words: *occasional words, potential units, stylistic property, context, occasional transformation*

Okkazionalizm sözünü ilk dəfə İ.Feldman "Okkazional sözlər və leksikoqrafiya" adlı məqaləsində istifadə etmişdir [7, s.62]. Okkazionalizmi o, ideyaların ötürülməsi, okkazional sözləri isə bədii obraz yaratmaq üçün formalaşan sözlər hesab edirdi. İ.Feldman okkazionalizmləri qısamüddətli sözlər kimi kontekstdən kənar mövcud olmayan sözlər adlandırmışdır.

Okkazional sözlər "potensial söz – okkazionalizm – neologizm" zəncirinin tərkib hissəsi kimi başa düşülür. Potensial sözlər nitq vahidləri, lakin dilə münasibətdə potensial vahidlər hesab olunur.

Dilçilikdə potensiallığın geniş tərifi mövcuddur. A.İ.Smirnitskiyə görə dilin söz yaradıcılığı sistemində potensial sözlər konkret modellər əsasında formalaşan və artıq yaranmış, lakin dilə daxil olmayan sözlərdir [6, s.102]. O.S.Axmanova belə hesab edirdi ki, potensial sözlər canlı nitqdə hələ də işlədilməyən sözlərdir [4, s.202].

"Potensial söz – okkazionalizm – neologizm" zəncirinin tərkib hissəsi olan okkazional sözlər istifadə olunduğu xüsusi, fərdi kontekstlə xarakterizə olunur. Bu nitqdə geniş, kütləvi istifadə ilə xarakterizə olunan sözlərə ziddir. Təbii olaraq sual meydana çıxır.... – Bəs okkazional sözlərin müəllifi kimdir?

Bəllidir ki, toplum okkazional sözlərin müəllifi sayıla bilməz. Okkazionalizmlər müxtəlif yollarla əmələ gəlir və söz yaradıcılığının ümumi və şərti qaydalarına tabe olmur. Bununla yanaşı onlar təsadüfiliyin mahiyyətini müəyyən edən xarakterik xüsusiyyətlərə malikdirlər. Birincisi, belə sözlər nitqin müəyyən bir hissəsinə aid olurlar, onlar fərdi və unikaldırlar. İkincisi, okkazionalizmləri "qeyri-normativlik" kimi adlandırmaq olar, çünki onlar lüğətlərdə təsbit edilməmişdir və buna görə də dilin norması hesab olunmurlar. Okkazionalizmlər yalnız konkret şəraitdə, konkret hadisəni və ya vəziyyəti təsvir etmək üçün uyğundur. Üçüncüsü, okkazionalizmlər üslub yükünə və ifadəli məzmuna malikdirlər.

Beləliklə, okkazionalizmlər ümumi istifadəyə daxil olmayan, yalnız müəyyən kontekstdə mövcud olan, təkrar olunmayan, ifadəli və birdəfəlik nitq vahidi kimi qəbul edilə bilər.

Qeyd edək ki, bəzən okkazionalizmlər neologizmlər kimi dərk olunur. Lakin okkazionalizmləri neologizmlərdən fərqləndirmək lazımdır. Bu terminləri ayırd edə bilmək üçün aşağıdakı meyarları nəzərə almaq lazımdır:

1. Leksik vahidin dilə və ya nitqə mənsub olması. Neologizmlərin okkazional və potensial sözlərdən əsas fərqli xüsusiyyəti F. de Sössürün irəli sürdüyü nitq və dilin ziddiyyətinə əsaslanır. Neologizmlər dil sisteminin hadisəsi hesab olunur, okkazionalizmlər və potensial sözlər isə dilə daxil olmayan nitq hadisələri kimi müəyyən olunur.

2. Söz yaradıcılığının məhsuldarlığı. Məhsuldarlıq neologizmlərin məcburi keyfiyəti deyildir. Neologizmlər dilin söz yaradıcılığı vasitələrinin köməyi ilə yarana bilir və eyni zamanda qeyri-törəmə vahidlər ola bilirlər, məsələn başqa dillərdən gələn sözlər. Okkazional sözlərə gəldikdə isə, onların tədqiq olunmasında iki yanaşma vardır: leksik və söz yaradıcılığı.

Leksik yanaşmanın tərəfdarları dilin lüğət tərkibinə daxil olmayan istənilən hər hansı sözü okkazional söz hesab edirlər. Söz yaradıcı yanaşmaya görə isə, okkazional və potensial sözlər həmişə alınma sözlər olur və söz yaradıcılığının qanunlarına ciddi əməl etməklə qurulan sistem törəmələrindən fərqli olaraq, "nitqdə danışan tərəfindən lazım gəldikdə formalaşdırılan, izahlı və digər lüğətlərdə təsbit edilmiş kontekstli törəmələrdir".

3. Dil sisteminin qanunlarına uyğunluq. Burada okkazional və potensial sözlər arasında mühüm bir fərq özünü göstərir. Potensial sözlər çox məhsuldar söz yaradıcılığı növləri modeli əsasında meydana çıxır.

4. Söz artıq formalaşıb və ya sadəcə meydana çıxıb. Neologizmlər və okkazionalizmlər lüğətləri xüsusi vahidləridir. Neologizmlər müəllif tərəfindən artıq formalaşmışdır və istifadə olunur, hətta artıq dilə daxil edilir.

5. Kontekstdən asılılıq. Neologizmlər dil faktları kimi heç bir kontekstlə bağlı deyil ayrı-ayrılıqda istifadə oluna bilirlər. Potensial sözlər də kontekstən asılı deyil, hətta ayrı-ayrılıqda işləndikdə belə mənası başa düşülür. Bu faktor isə potensial sözlərin frazeoloji semantikadan məhrum olması ilə izah olunur və belə bir törəmənin mənası onun ayrı-ayrılıqda komponentlərinin dəyər cəmindən alınır.

Həm neologizmlərin, həm də okkazionalizmlərin müstəqil şəkildə mövcudluğu və parlaqlığı asanlıqla başa düşülür. Neologizmlər dildə çox əvvəldən meydana gələn sözlər deyil. Neologizm anlayışından dil tarixinin müxtəlif dövrlərində dilin lüğət tərkibinin zənginləşdirilməsini xarakterizə etmək üçün tez-tez istifadə olunur.

Çox inkişaf etmiş söz əmələ gətirmə sisteminə malik müasir dillərdə hər il on minlərlə neologizm meydana çıxır. İnsanların həyatında daim yeni hadisələr və obyektlər yaranır və buna uyğun olaraq sözlər onları adlandırır. Müəyyən bir müddətdən sonra bu sözlər yeni olmaqdan çıxır, köhnəlir və yeni formalaşmaların bir hissəsi qısa ömrünü dayandırır, digər hissəsi isə dildə sabitləşir və beləliklə də geniş şəkildə istifadə olunaraq insanların həyatının ayrılmaz hissəsinə çevrilir.

Okkazional söz və ifadələri nəzərdən keçirərkən okkazionallığın əsas müddəalarına diqqət yetirmək lazımdır:

O.S.Axmanova lüğətində okkazional sözlərin, söz birləşmələrinin adi olmadığını, ümumi istifadəyə daxil olmadığını, sırf fərdi zövqlə səciyyələndiyini, yalnız müəyyən şəraitdə və müəyyən situasiyada istifadə olunduğunu bildirmişdir. Bununla belə okkazionalizm nitq faktıdır və dil sitemi ilə müəyyən edilir. Okkazionalizm dilin inkşafının xüsusiyyətlərinin – semantik, qrammatik və söz yaradıcılığının əksidir.

Dil sistemində okkazionalizmlər "işarə"dirlər, onlar müəlliflərin əsərlərində özünü göstərir, müəllif ifadələridir və potensialı aktuala çevirirlər.

Müxtəlif tipli okkazionalizmlərin təhlili daha çox semantik hesab edilə bilər və onlar söz yaradıcılığının təhlili, funksional və qrammatik təhlil kimi tədqiqat metodlarından istifadə etməklə həyata keçirilir. Okkazionalizmlərin struktur-semantik tədqiqi ədəbi-üslubi təhlil ilə birbaşa bağlıdır. Bədii, estetik əhəmiyyət kəsb edən okkazionalizmlər semantik baxımdan son dərəcə tutumlu, mühüm mətn yaradan vasitə hesab edilir.

Okkazionalizm nəzəriyyəsində okkazionalizmlərin aşağıdakı növləri ayrılır:

1) Fonetik okkazionalizmlər;
2) Leksik okkazionalizmlər;
3) Qrammatik okkazionalizmlər;
4) Semantik okkazionalizmlər.

Sözlərin okkazional birləşmələri leksemlərin qovuşmasıdır ki, onların leksik mənalarında ümumi semalar olmadığından semantik koordinasiya qanununa zidd olduğu üçün onların uyğunluğu qeyri-mümkündür. Kontekstlə şərtlənmiş semantik sürüşmələrin yaranması ilə əlaqədar olaraq ifadənin asılı komponentində ümumi terminlər meydana çıxır.

Dilçilikdə sözlərin okkazionallığının müxtəlif dərəcələri fərqləndirilir:

I. *Birinci dərəcə.* Birinci dərəcəli okkazionalizmlərin bu qrupuna müasir dilin söz yaradıcılığı normaları və qaydaları ilə tam uyğun şəkildə yaradılmış və istifadə olunan standart, potensial birləşmələr daxildir. Məsələn, cat-Napper.

II. *İkinci dərəcə.* Bu dərəcədə dilin törəmə normasından yeni sözün əmələ gəlməsində baş vermiş kənarlaşmalar ola bilər, lakin semantik qavrayışda çətinlik yaratmır.

III. *Üçüncü dərəcə.* Bu sözlər qrupuna tamamilə qeyri-standart və qeyri-adi, semantik təfsiri kifayət qədər vaxt aparan, törəmə normadan kənara şıxması vacib olan okkazional birləşmələr daxildir.

Okkazional söz yaradıcılığı dildə fəaliyyət göstərən modellərin istifadəsinə əsaslanır və bir sıra fərqli xüsusiyyətlərin mövcudluğuna baxmayaraq məhsuldar hesab olunur. Bunlar aşağıdakılardır:

1) Affiksasiya;
2) kompozisiya üsulu;
3) sıxılma və ya qısaltma;
4) semantik törəmə;
5) çevrilmə;
6) semantik reduksiya;
7) təkrarlama.

Affiksasiya yeni leksik vahidlərin əmələ gəlməsinin ən məhsuldar üsullarından biri hesab olunur.

Ümumiyyətlə, söz yaradıcılığında müxtəlif çoxkomponentli, mürəkkəb strukturların yaradılması tendensiyası nəzərə çarpır, onlar məhsuldarlığı ilə fərqlənir. Bu mürəkkəb strukturlarda məlumat məzmunu, tutum, ifadəlilik və emosionallıq özünü göstərir. Bununla yanaşı onlarda stilistik reduksiya və emosionallıq effekti üzə çıxır. Məsələn, "stick-insert-legged".

Qeyd edək ki, bu birləşmələrin məhsuldarlığı ingilis dilinin tipoloji xüsusiyyətlərinə əsaslanır, bunun əsas göstəricisi onun bir morfemik quruluşu və sintaktik ünsiyyət üsulu kimi bitişikliyidir. İngilis dilinin bu xüsusiyyəti həm də paradiqmanın dəyişdirilməsi zamanı leksik vahidin başqa nitq hissəsinə qeyri-affiks keçidinə əsaslanan söz əmələ gətirmə üsulu kimi okkazional çevrilmənin məhsuldarlığı ilə bağlıdır.

E.Kubryakova konversiv törəməli semantik yerdəyişməni metonimik xarakterli mövqedən nəzərdən keçirir. Məsələn, *a gun 'gun'=a gun 'shooter'; i.e. 'the man with the gun'.* [5, s.57].

Söz əmələ gəlməsinin daha bir standart üsulu reduplikasiyadır, başqa sözlə açıq və gizli ekspressivlik və aksiologiya. Məsələn, *musi-pusi, the main muck*. Mürəkkəb okkazional təkrarlamanın ritmi və qafiyəsi uşaqlara müraciət edərkən uşaqların və böyüklərin nitqindəki reduplikasiyanın məhsuldarlığını müəyyən edir:

Should we play fairies? Rebecca was Trilling, changing tactics, trying to take Constance by the hand."You live in a fairy tale castle? Is Harry a fairy, too? Where are your magical hairy friends?"

Ədəbiyyat

1. Babayev A.M. Nitq və mədəniyyət. Bakı: BDU nəşriyyatı, 2000.
2. Cəfərov S. Müasir Azərbaycandilininleksikası. Bakı, 1968.
3. Амосова Н.Н. Основы английской фразеологии. М.: Просвещение, 1968.
4. Ахманова.О.С.Словарь лингвистических терминов. Издательство «Советская энциклопедия» Москва: Либроком: USSR, 2009.
5. Кубрякова Е. Роль человеческого фактора в языке. Язык и картина мира/Отв.ред. Б.А.Серебренников. М.:1987.
6. Смирницкий А.И. Лексикология английского языка. М.: Наука, 1956.
7. Feldman N.I.Occasional words and lexicography// Questions of Linguistics, 1957.

С.С.Маммедова

Явление окказионализма в английском языке

Резюме

В английском языке окказионализмы возникают по разному и, как правило, не подчиняются общепринятым законам словообразования. Итак, существуют специфические черты, характеризующие сущность окказионализмов. Во первых, они индивидуальны и неповторимы, а во-вторых не могут считаться нормой языка из-за того, что не зафиксированы в словарях.

S.S.Mammadova

The case of occasionalism in English

Summary

In English occasionalismsarize in a variety of ways and, as a rule, do not obey the conventional laws of word formation. So, there are specific features that characterize the essence of occasionalisms. Firstly, they are individual and unique, and secondly, they cannot be considered as the norm of the language due to the fact that they are not fixed in dictionaries.

Rəyçi: dos. K.Cəfərova

Redaksiyaya daxil olub: 15.05.2023

S.M.MİRZƏYEVA

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 33)

İNGİLİS VƏ AZƏRBAYCAN XALQ NAĞILLARININ DİLİNDƏ "İNAM/İNANC" METAKONSEPTİ

Açar sözlər: *Azərbaycan dili, metakonsept, teonim və demonimlər, xristianlıq, İslam və bütpərəstlik*
Ключевые слова: *азербайджанский язык, метаконцепт, теонимы и демонимы, христианство, ислам и язычество*
Key words: *Azerbaijani language, metaconsept, theonym and demonim, Christianity, Islam and paganism*

İngilis və Azərbaycan xalq nağıllarının dilində verballaşma qazanmış "İnam/İnanc" metakonseptinin reallaşma strukturu, yəni həmin makrokonsepti təşkil edən mikrokonseptlərin daxili strukturlaşması monoteizmdən qaynaqlanan ortaq cəhətlərə malik olduğu kimi, eləcə də İslam və xristianlıq dininin yetərincə fərqlənən doqmalarına istinad edən müxtəliflikləri də malikdir. Bu baxımdan biz, Azərbaycan xalq nağıllarının dilindəki bilavasitə "İslam" konseptsferasına daxil olan leksik vahid və ifadələri (məsələn, molla, kəbin, namaz, sübh namazı və s.) və xristianlıq doqmaları və dini idarəçiliyi ilə bağlı termin və frazeologizmləri (abbot, church, Christendom, Christian man, və s. qeyd edə bilərik.

And they reached home, and the good queen, their mother, and Burd Ellen never went round a ***church*** *widershins again*. [1]; *I smell the blood of a* ***Christian man*** [1]; *The queen* ***would not christen*** *the boy till the king came back, and she said, "We will just call him Nix Nought Nothing until his father comes home*. [2]. Sonuncu nümunədə biz, "xaç suyuna çəkilməsi" ritualı ilə bağlı ifadəni müşahidə edirik ki, bu da monoteist – İbrahimi xristian və İslam dinlərinin terminologiyasının fərqlərini təmin edən məqamlardan birinə dini rituallara söykənən müxtəlifliyi nümayiş etdirir. İstər Azərbaycan, istər ingilis xalq nağıllarının dilində "İnam" metakonseptinin müqayisəli təhlili burada qohum və ya qonşu dillərlə müəyyən əlaqənin olması, və ya ən azından genetik, linqvokulturoloji ortaqlıqdan doğan korrelyasiyaların yer almasını söyləməyə əsas verir. Belə ki, A.A.Piçuqinanın da qeyd etdiyi kimi, Britaniya yarımadası ərazisində yaşayan xalqların inanclarının, mifologiyasının təsiri ingilis linqvokulturologiyasında bir növ subsrat təsirinə yol açmışdı. Belə ki, əslində bir çox ingilis xalq nağılları ya kelt mifologiyasına istinad edir, ya da bilavasitə şotland, irland xalq nağıllarının anqlosaksonlaşmış variantı kimi ortaya çıxır [4; s.12].

Xatırladaq ki, ingilis folklor mətnlərinə istinadən ikidinliliyin verbal təzahür formalarını müqayisəli şəkildə izləmiş dilçilər aşağıdakı xronoloji-mərhələli fərqləndirməni təklif etmişlər: 1) adstrat mərhələsi: Britaniya ərazisində həm bütpərəstlik, həm də xristianlığın müştərək şəkildə var olması və qarşılıqlı təmas mərhələsi; 2) substrat mərhələsi: dinlərdən birinin, konkret olaraq, ingilis folklor mətnlərinə nəzərən, məhz, bütpərəstliyin, xristianlığa nəzərən, subordinativ duruma "düşməsinin" başlanğıcı mərhələsi; 3) superstrat mərhələsi: dinlərdən birinin digəri üzərində dominantlığının şəksiz və birdəfəlik təsbiti mərhələsi [5]. Məsələn, məlumdur ki, "**Childe Rowland"** nağılı ilk dəfə şotland folklor nümunəsi kimi qeydə alınmış, sonradan Jacobsun toplumsuna ingilis xalq nağılı kimi müəyyən dəyişikliklərlə daxil edilmişdi [6]. Bu mənada təsadüfi deyil ki, kelt mifologiyası, o cümlədən kelt inanc sistemi ingilis xalq nağıllarında öz təzahürünü tapmışdı ki, bu sırada məhz, daha öncə izlədiyimiz dil faktlarını: elflər (pərilər), cadugərlərlə (o cümlədən, Merlin) bağlı söz və ifadələri, habelə Luciferin "antroponikləşməsini" qeyd edə bilərik. Azərbaycan xalq nağıllarının dilinin ümumtürk konseptsferası, xüsusilə də "İnam" konseptinin reallaşma mexanizmlərinin müxtəlifliyi fonunda dəyərləndirsək, burada ortaq türk, İslam dini termin və ifadələrinin izlənildiyini təsbit edə bi-

lərik (müqayisə üçün türk quranizm-frazeologizmləri ilə bağlı daha ətraflı bax: [7; s.69-78]). Bu sırasda biz, həmçinin ümumtürk teonimi olan və bilavasitə Tanrıçılıq (Tenqri) dini inanclar sisteminə söykənən Tanrı teoniminin yetərincə yüksək işlənmə tezliyinə diqqət çəkə bilərik: *Bir **Tanrı bəxtəvəri** gəlib xalqın üstünə gül səpdi, bizim üstümüzə də kül. İndi də gözlərimizi təmizləyə bilməmişik*. [8]. Konkret olaraq, Tanrı bəxtəvəri ifadəsi ilə bağlı onu da qeyd edək ki, müasir Azərbaycan ədəbi dili üçün arxaikləşmiş olan bu frazeologizm variantının əvəzinə, hal-hazırda dilimizdə ***Allahın bəxtəvəri*** ifadəsindən istifadə edilməkdədir. (bax: "*bəxti gətirən, tale hər zaman üzünə gülən, Allahın sevimli bəndəsi*" mənasında [9]. Burada da biz, Azərbaycan frazeoloji sistemi üçün xarakterik olan **Allah(ın)+isim** daxili strukturlu (məsələn: *Allah adamı, Allahın fağırı, Allahın heyvanı, Allahın (verən) günü* və s.) frazeoloji modeli ilə qarşılaşırıq. Həmin model əsasında yaranmış frazeologizmlərin Allah/Tanrı komponent variantlılığı bu teonimlərin korrelyasiya potensialının yüksək olamasına dəlalət edir. Bu modeldən inisial formalarda geniş şəkildə istifadə edilirdi. Belə ki, "Kəsik baş", "Naxırçı", "Göyçək Fatma" nağıllarında: "*Biri varıydı, biri yoxuydu, **Allahın bəndəsi** çoxuydu*." Və ya "Naşükür qız" nağılında olduğu kimi, bu frazeologizmin cəm kateqoriyası formantlı variantının yer aldığı (*Biri varıymış, biri yoxuymuş, **Allahın bəndələri** çoxuymuş*.) inisial formalarına təsadüf edilir [10].

Artıq qeyd etdiyimiz kimi, Azərbaycan xalq nağıllarının dilində həm İslama əsasən, ərəb dilindən mənimsənilmiş teonim, həm də ümumtürk teoniminin eyni mətn, eyni kontekst çərçivəsində paralel işlədilməsi halları müşahidə edilir. Bu da ilk növbədə həmin teonimlərin yer aldığı ifadədə əks olunmuş intensiyanın (məsələn, xahiş nitq aktının illokutiv semantikasının) intensivləşdirilməsinə xidmət edirdi. *Gəl **sən Allaha bax, Tanrıya bax**, məni öldürmə* [11]. Xatırladaq ki, **Sən Allaha bax // Sən Tanrıya bax** frazeologizmləri müasir Azərbaycan dilində daha lokonik formada işlənən və məişət üslubunda yetərincə yüksək işlənmə tezliyi nümayiş etdirən **Sən Allah** frazeologizminin praformasını təşkil edir. Qeyd edək ki, nağıl və dastanlarımızın dilinə istinadən tərtib edilmiş frazeologizmlər lüğətində, N.Seyidəliyev bu frazeologizmin "yalvarış, rica bildirdiyini" qeyd edir. Dilçi izahının təsdiqi kimi, "Şah oğlu Bəhramın nağılı"ndan aşağıdakı iqtibası təqdim edir: "*Sən Allah mənə dəymə, vaxtında sənə lazım olacağam*" [17, s.214]. Digər nağıllarda da biz, həmin frazeologizmin ellipsisə uğramış lakonik variantına təsadüf edirik: *... – **Sən Allah**, məni anamın yanına apar, onu görüm, yenə qayıdaq*. [18]. Lakin müqayisə üçün deyək ki, arxaik forma daha yüksək işlənmə tezliyi nümayiş etdirir.

*Kişi deyir: – Ay arvad, **Allaha bax, Tanrıya bax**, quş da çarıx geyərmi*? [19]; *Şəftən ərz elədi ki: – Ay usta, **tanrı səndən razı olsun*** [20].

Xatırladq ki, qədim türklərin istinad etdiyi "Tanrıçılıq/Tenqriçilik" inanc sistemi, əslində öz mahiyyəti etibarı ilə monoteist din elementlərini ehtiva etməklə yanaşı, bəzi tədqiqatçılara görə, bütövlükdə dünyagörüşü sistemini formalaşdırırdı [21]. Bu mənada Azərbaycan xalq nağıllarının dilində bir çox halda Allah teoniminin semantik mövqeyində onun **Tanrı** teonimi tərəfindən asanlıqla əvəzlənə bilməsi təkcə terminoloji paralellizmdən deyil, eləcə də Tenqriçiliyin İslamla müəyyən ortaq cəhətlərinin olmasına və bu ortaq cəhətlərinin əsrlər öncədən, müsəlman olan Azərbaycan dili daşıyıcıları tərəfindən təsbit edilməsi anlamına gəlir. Məsələn, eynilə ərəb mənşəli teonim kimi, ümumtürk **Tanrı** teonimi də Azərbaycan xalq nağıllarının inisial formullarının yaradılmasında aktiv iştirak etmişdi: ***Biri var idi, biri yoxdu, tanrı var idi, bəndəsi çox idi***. [22]. Müqayisə edək: ***Biri vardı, biri yoxdu, Allah vardı, şəriki yoxdu*** [23].

Analoji hal dilimizdə yüksək işlənmə tezliyi ilə seçilən teonim komponentli frazeoloji vahidlərlə də baş verir. Məsələn, dilimizdə Azərbaycan linqvokulturoloji mühiti üçün xarakterik olan qonaqqarşılama ritual ifadələrindən sayılan, yəni bir növ frazeorefleks mövqeyində çıxış edən: ***Allaha da qurban olum, qonağına da*** ifadəsinə nəzər salaq.

Çıraxlı İsanın nənəsi dedi: – Ay bacı, ***Allaha da qurban olum, qonağına da****, buyur içəri*. [24]. Nağıllarımızda həmin frazeologizmin Tanrı komponentli variantına da təsadüf edilir: *Qarı cavab verdi: –* ***Tanrıya da qurban olum, qonağına da*** [25].

Onu da qeyd edək ki, müasir Azərbaycan dilində sonucu variant demək olar ki, arxaikləşmişdi. Bundan başqa, **Allah yar olsun** ifadəsinin də **Tanrı** teonim komponentli variantı ilə müvazi işləkliyi müşahidə olunur: *Sən get,* ***Tanrı yar olsun*** [26]; *Devin bir bərk yüyürən atı var, onu minərik, bəlkə* ***Allah yar oldu****, dev bizi tuta bilmədi* [27].

Maraqlıdır ki, bəzi tədqiqatçılar bu inanc sisteminin əsl monoteizmdəki İlahi Qüvvə sakrallığının səviyyəsindən daha aşağı səviyyədə "müqəddəsləşdirmə" ortaya qoyduğunu, hətta bununla da bir növ, A.A.Kodarın sözləri ilə desək, "monoteist ateizmi" [28] təcəssüm etdirdiyini də vurğulamışlar. Bu məqam məhz, **Tanrı** və **Allah** sözlərinin işlənmə mövqelərində də özünü göstərməkdədir. Belə ki, Azərbaycan frazeoloji sistemində **Tanrıya təpik atmaq /Tanrısına təpik atmaq** ifadəsi yer aldığı halda, bilavsitə İslam termini olan **Allah** teonimin iştirakı ilə bu ifadənin istifadəsi qeyri-mümkündür. Xatırladaq ki, **tanrıya təpik atmaq** peyorativ anlamlı frazeologizmi "*naşükür, nankor olmaq, qudurmaq; ~ cızığından çıxmaq, yolunu azmaq, həddini aşmaq*" mənasını ifadə edir [29]. Lakin, Azərbaycan xalqının dünyanın dil mənzərəsində Allahın sakrallığı, toxunulmazlığı, belə bir kinayəli, peyorativ məzmunlu ifadədə obyekt kimi işlənilə bilməməsi məhz, İslam teonimin istifadəsinə tabu qoyurdu. Maraqlıdır ki, Azərbaycan xalq nağıllarının dilində həmin Tanrı teonimin semantik mövqeyində evfemizmin istifadəsi halları müşahidə olunur: *İndi mənnən saa amanat, nə badə* ***baxdına təpik atasan****, onda işin düz gətirmiyəjək* [30].

Azərbaycan nağıllarında "İslam" konseptinə daxil olan, lakin mahiyyət etibarən sırf müsəlman dini, tarixi, mədəni-intellekstual irsinə aid olamayan anlayış və presedent onimlərlə də qarşılaşırıq. Bu sırada Azərbaycan xalq nağıllarının dilində xatırladılma səviyyəsinə görə ön plana çıxan Süleynam Peyğəmbər presedent onimini xüsusilə qeyd edə bilərik. *At* ***Süleyman peyğəmbərin*** *adını eşitcək dayandı* [31]; *–* ***Süleyman peyğəmbərin*** *eşqinə, məni apar Pərilər vilayətinə* [32]; *Dedi: – Xəlçə,* ***Süleyman peyğəmbər eşqinə****, ol Sumanın qapısında* [33]. İşlənmə tezliyinə görə, İslam dinini yaymaq üçün göndərilmiş Peyğəmbərin – Məhhəmməd Peyğəmbərin presedent onimindən daha üstün leksik-statistik göstərici nümayiş etdirən bu presedent onimin özü "İslam" makrikonseptinə daxil olmaqla bərabər, xalq nağılllarımızın konseptsferasında müstəqil mikrokonsept də formalaşdırmışdı. Həmin mikrokonseptə bilavasitə "Süleyman Peyğəmbər" presedent onimindən başqa, "**Süleyman Peyğəmbəri üzüyü", "Süleyman Peyğəmbəri üzüyünün naxışı", "Süleyman Peyğəmbərin başının çıqqası**" və s. bu kimi ifadələri, habelə həmin anlayışlarla bağlı olan freym-ssenarilər də daxildir. Maraqlıdır ki, bəzi məqamlarda Məhəmməd Peyğəmbərin adının zikr edilməsinə tabu ilə qarşılaşırıq ki, bu da əslində monoteist dinlər üçün xarakterik olan ortaq cəhət sayıla bilər. Hind-Avropa dillərində teonim və demonimlərin evfemikləşməsini prosesini araşdırmış Y.M.Çernikovanın qeyd etdiyi kimi, məhz, tez-tez zikr edilmənin qarşısının alınması üçün bu dillərdə İsa Peyğəmbər teoniminin ***Jeez. Gee Jeepeii cheesy, G, jemmy, ginger*** "alternativləri" formalaşmışdır [13]. Bu mənada təsadüfi deyil ki, bəzi məqamlarda Azərbaycan xalq nağıllarının dilində Məhəmməd Peyğəmbərin adı "ixtisar edilir".

– Nisə, gəl ***Allah yolu ilə, peyğəmbər şəriəti*** *ilə get mənə!*

Nisə razı olub kəbinini kəsdirdi ("Ceyranın nağılı"). Burada təbii ki, Məhəmməd Peyğəmbər nəzərdə tutulur. Lakin qeyd etdiyimiz məlum fakultativ tabu "rejiminə" uyğun olaraq, onun adının tez-tez zikr edilməsi məqbul sayılmadığından və ən əsası bu ifadə kontektində müsəlmanlar üçün Allahın elçisinin məhz, Məhəmməd Peyğəmbər olmasının yəqinliyi fonunda onun adının təkrar dəqiqləşdirilməsinə ehtiyac qalmadığlndan həmin "daşlaşmış" ifadədə teonimim antroponim ixtisar edilir. Azərbaycan xalq nağıllarının dilində "İslam" konseptinə daxil olan bir çox digər terminlərin istifadəsini, habelə "Dini kəbin" freym-ssenarilərinin reallaşmasını (***Allah yolu ilə, peyğəmbər şəriəti*** *ilə* – ifadəsi məhz bu intensiyaya xidmət edir) izləyirik.

"İslam" konseptinə daxil olan bəzi leksik vahidlər xüsusilə yüksək işlənmə tezliyi ilə seçilirlər ki, bu sırada biz, **molla, kəbin, Quran, qazı, namaz** (o cümlədən, **sünh namazı**) və s. bu kimi dini anlayışları əhatə edən leksik vahidləri qeyd edə bilərik. Onu da qeyd edək ki, xalq nağıllarının dilində bilavasitə "Quran" iqtibası olan və ərəbcədəki orijinal mətnə istinad edən, habelə ərəb dilindəki izafət strukturuna uyğun şəkildə mənimsənilmiş ifadələr də işlədilir.

Yekun olaraq, onu qeyd edə bilərik ki, istər Azərbaycan, istər ingilis xalq nağıllarının dilinin müqayisəli təhlili bu mətnlərin leksik-frazeoloji inventarının dil daşıyıcılarının etnokulturoloji, etnomental kimliyinə uyğun şəkildə tərtibləndiyini; habelə özündə həmin xalqların tarixi ilə bağlı, xüsusilə də dini inancları ilə əlaqədar çoxsayda informativ yüklü leksik vahidləri ehtiva etdiyini əyani şəkildə ortaya qoyur.

Ədəbiyyat:

1. Childe Rowland https://www.gutenberg.org/files/7439/7439-h/7439-h.htm
2. Nix Nought Nothing https://www.gutenberg.org/files/7439/7439-h/7439-h.htm
3. Пичугина А.А. Влияние кельтской мифологаи па английские лексические цветообозначения // Научно-теоретический журнал Вестник ВУиТ Волжского Университета им. В.Н. Татищева Серия «Гуманитарные науки и образование» Вьшуск 8. Тольятти 2011. С. 80-84.-https://cyberleninka.ru/article/n/vliyanie-keltskoy-mifologii-na-simvoliku-angliyskih-leksicheskih-tsvetooboznacheniy
4. Пичугина А.А. Влияние кельтского элемента мифологической культуры Британских островов на символику английских лексических цветообозначений, Автореф диссер. ..канд. филол.наук., Самара-2012, 25 с.
5. Королева Е.П. Двуверие и проблема авторства древнеанглийской поэмы «Беовульф» // Вестник МГГУ им. М.А. Шолохова, серия филологические науки. 2013 № 1. – с. 37-46 https://cyberleninka.ru/article/n/dvoeverie-i-problema-avtorstva-drevneangliyskoy-poemy-beovulf
6. Joseph Jacobs. XXI. Childe Rowland http://www.e-reading-lib.com/chapter.php/102770/68/joseph-jacobs-english-fairy-tales.html
7. Покровская И. Турецкая фразеология и паремиология коранического происхождения как фрагмент языковой картины мира // KARADENİZ (Black Sea-Черное Море) Yıl 5 Sayı 17. S.69-78 https://dergipark.org.tr/tr/download/article-file/155294
8. Bacı və qardaş http://www.nagillar.az/article/a-202.html
9. Allah // Азербайджанско-русский словарь https://obastan.com/allah/577654/?l=ru
10. http://www.nagillar.az/article/
11. "Yusiflə Sənubər" nağılı http://www.nagillar.az/article/a-172.html
12. Qara ilan http://www.nagillar.az/article/a-244.html
13. http://www.nagillar.az/article/a-235.html
14. Reyhanın nağılı http://www.nagillar.az/article/a-205.html
15. İskəndər zülqərneyn http://www.nagillar.az/article/a-179.html
16. Üç şahzadə http://www.nagillar.az/article/a-42.html
17. Seyidəliyev N.F. Frazeologiya lüğəti. (Azərbaycan dastan və nağıllarının dili əsasında), Bakı: Çıraq, 2004, – 272 s.
18. "Təpəgöz" nağılı http://www.nagillar.az/article/a-247.html
19. Hillilimnən güllülüm http://www.nagillar.az/article/a-186.html
20. "Axvay" nağılı http://www.nagillar.az/article/a-9.html
21. Аюпов Н.Г. Тенгрианство как религиозная система, автор. диссер…канд.фил.наук, Алма-Ата, http://cheloveknauka.com/tengrianstvo-kak-religioznaya-sistema
22. Noxudu keçəl http://www.nagillar.az/article/a-55.html

23. Quş dili bilən İsgəndər http://www.nagillar.az/article/a-207.html
24. Çarıxlı İsa http://www.nagillar.az/article/a-226.html
25. Nuşapəri xanımın nağlı http://www.nagillar.az/article/a-79.html
26. Barxudarın baxtı" nağılı http://www.nagillar.az/article/a-32.html
27. Yetim İbrahim və sövdəgər http://www.nagillar.az/article/a-200.html
28. Кодар А.А. Тенгрианство в контексте монотеизма // Информационный гуманитарный портал «Знание. Понимание. Умение». 2008. № 1(2). http://www.zpu-journal.ru/e-zpu/1(2)/Kodar/
29. Tanrısına təpik atmaq // Azərbaycan dilinin frazeologiya lüğəti https://obastan.com/TANRISINA%20T%C6%8FP%C4%B0K%20ATMAQ/915971/?l=az
30. Naşükür qız http://www.nagillar.az/article/a-195.html
31. "Hazarandastan bülbülü" nağılı http://www.nagillar.az/article/a-43.html
32. "Gül və canavar" http://www.nagillar.az/article/a-240.html
33. Gül sumana neylədi? http://www.nagillar.az/article/a-18.html

S.M.Мирзаева

Метаконцепт «Вера/Верь» в языке английских и азербайджанских народных сказок

Резюме

В статье исследуется метаконцепт «Вера/Верь» в языке английских и азербайджанских народных сказок. В рамках статьи исследуются механизмы реализации данного понятия, лексико-фразеологический инвентарь. Сравнительный анализ языка азербайджанских и английских народных сказок наглядно показывает, что лексико-фразеологический инвентарь этих текстов составлен в соответствии с этнокультурной, этноментальной идентичностью носителей языка, а также содержит в себе множество информативно заряженных лексических единиц, связанных с историей этих народов, особенно с их религиозными верованиями.

S.M.Mirzayeva

Metaconcept "Inam/Inan" in English and Azerbaijani folk tales

Summary

The article examines the metaconcept "faith/faith" in English and Azerbaijani folk tales. Within the framework of the article, the mechanisms of realization of this concept, the lekisk-phraseological inventory are investigated. A comparative analysis of the language of both Azerbaijani and English folk tales clearly reveals that the lexical-phraseological inventory of these texts is compiled in accordance with the ethnoculturological and ethnomental identity of the language carriers, as well as contains many informative loaded lexical units related to the history of these peoples, especially their religious beliefs.

Rəyçi: filol.e.d., prof. H.M.Zərbəliyev

Redaksiyaya daxil olub: 16.05.2023

L.Ə.MUSTAFAYEVA
dissertant
e-mail: laye_mustafayeva@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

ZEVQMA VƏ DİGƏR LEKSİK ÜSLUBİ VASİTƏLƏR

Açar sözlər: *üslub, vasitə, cümlə, zevqma, metafor, məna, mətn*
Ключевые слова: *стиль, средство, предложение, zeugma, метафора, смысл, текст*
Key words: *style, means, sentence, zeugma, metaphor, meaning, text*

Üslub həmişə dil istifadəçilərinin saysız-hesabsız kommunikativ məqsədlərinə xidmət edən müxtəlif dil vasitələrinin (ifadə resurslarının) seçimi və birləşməsi prinsipi ilə xarakterizə olunur. Stilistikanın məzmunu yalnız üslubun tədqiqi ilə məhdudlaşa bilməz. Buraya həm də təəssürat yaratmaq məqsədi daşıyan nitqin müxtəlif sferalarında istifadə olunan ifadə vasitələrinin və üslub vasitələrinin öyrənilməsi daxildir. Ona görə də onlar tək müəyyən üslubla bağlı deyil. Stilistikanın əsas anlayışları obrazlılıq, ifadəlilik, qiymətləndirmə, emotivlik, ifadəli vasitələr və üslub vasitələridir. Stilistika mətnin dilini aydınlaşdırır.

Stilistikanın problemləri ilə məşğul olan dilçilər arasında üslub vasitələrinin təsnifatı ilə bağlı yekdil fikir yoxdur. I.V.Arnold xüsusi üslub funksiyasını yerinə yetirən leksik və sintaktik şəkilli və ifadəli vasitələr kimi başa düşülən fiqurları vurğulamağa üstünlük vermişdir [1, s.148].

Y.M.Skrebnev "vahidlər" və "sətirlər" stilistikası kimi baxılan sintaqmatik və paradiqmatik üslub vasitələrini fərqləndirmişdir. O, üslub vasitələrini aşağıdakı kimi təsnif etmişdir [2, s.102]:

1) Figures of quantity – Kəmiyyət fiqurları;
2) Figures of quality – Keyfiyyət fiqurları.

İ.R.Qalperin qrammatika və lüğətlərdə qeydə alınmış nitqin emosional və məntiqi gücləndirilməsinə xidmət edən dilin ekspressiv vasitələri ilə dil faktlarının şüurlu ədəbi işlənməsi olan üslub vasitələri arasındakı fərqi vurğulamışdır.İ.R. Qalperin üslubi vasitələri dildə obyektiv mövcud olan vasitələrin ümumiləşdirilməsi, tipləşdirilməsi və onların keyfiyyətcə transformasiyası, "ümumiləşdirmə və tipləşdirməyə çatan dil vahidinin hər hansı tipik struktur və ya semantik xüsusiyyətinin şüurlu və düşünülmüş şəkildə gücləndirilməsi, beləliklə generativ modelə çevrilməsi" [3, s.30] hesab etmişdir. O, üslub vasitələrini 3 qrupda təhlil etmişdir:

1) Fonetik üslubi vasitələr;
2) Leksik üslubi vasitələr;
3) Sintaktik üslubi vasitələr.

A.N.Moroxovski üslub vasitələrinə praktiki və nəzəri baxımdan yanaşmışdır. Praktiki baxımdan üslub vasitələrini belə müəyyənləşdirmişdir:

a) Troplar;
b) Nitq fiqurları.

Nəzəri cəhətdən üslub vasitələri isə bunlardır:

1) Fonetik vasitələr;
2) Qrafik vasitələr;
3) Leksik vasitələr;
4) Sintaktik vasitələr;
5) Leksik-sintaktik vasitələr [4, s.54].

Azərbaycan dilçiliyində Ə.Dəmirçizadə üslubi vasitələri nəzərdən keçirərkən onları üslubiyyatın predmeti kimi götürmüşdür. O, bədii üslub vahidləri adı altında fonetik, leksik və qrammatik üslub vasitələrini tədqiqata cəlb etmişdir [5, s.21].

Bu üslub vasitələri arasında leksik üslubi vasitələrin əhəmiyyəti böyükdür. Oxucunun şüurunda yazıçının oxucusunun başa düşməsini və ya qəbul etməsini istədiyi fikri təmsil edən aydın təsəvvür yaratmasına imkan vermək üçün obrazlılıqdan və ya təsvirlərdən istifadə edilə bilər. Təsvir çox vaxt kifayət qədər emosional olur, ona görə də ondan müəyyən hissləri ifadə etmək və ya oxucuda emosional reaksiya oyatmaq üçün də istifadə oluna bilər. "Obrazlılıq funksiyasına malik üslubi vasitələr təsvir olunan mövzu və ya fenomen haqqında hiss olunan təsəvvür yaratmaq deməkdir" [6, s.115].

Leksik üslubi vasitələrin işlədilməsində aşağıdakı məqsədlər ortaya çıxır:

a) Müxtəlif növ leksik mənaların qarşılıqlı təsiri;

b) Təsvir edilən hadisələrin xarakterik əlamətlərinin intensivləşməsi;

c) Müxtəlif üslubi aspektli sözlərin qəsdən qarışdırılması.

Bu məqsədləri nəzərə alaraq, leksik üslubi vasitələrin 3 qrupda təsnifatı mövcuddur:

1. Müxtəlif leksik məna növlərinin qarşılıqlı təsiri.

a) ilkin və törəmə məna (zevqma və söz oyunu);

b) lüğəvi və kontekstual məna (metafora, metonimiya, ironiya);

c) məntiqi və emotiv məna (epitet, oksimoron);

d) məntiqi və nominativ məna (antonomasiya);

2. Xüsusiyyətin intensivləşməsi (bənzətmə, hiperbola, perifraz).

3. Çoxluq ifadələrinin özünəməxsus istifadəsi (klişe, atalar sözləri, epiqram, sitat).

Zevqma bir feilin müxtəlif semantik məna daşıyan iki isimlə birləşməsidir. Semantik əlaqə bir tərəfdən hərfi, digər tərəfdən isə metaforikdir. Zevqma cümlədəki bir sıra elementlərin ortaq bir sözlə bir-birinə bağlandığı bir üslubi vasitədir. Zevqma bir-birinə feillə, əvəzlikləri isimlərlə, birbaşa obyektləri feillərlə və ya sifət ifadələrini feillə birləşdirən subyektləri əhatə edə bilər. Əslində ən çox yayılmış üslubi vasitələrdən biri olaraq feilin təkrarını aradan qaldırmaq üçün istifadə edilir.

Zevqma struktur baxımından ən azı üç komponentdən ibarət ola bilir. Onun əsas sözü bir neçə bitişik sözlə eyni qrammatik, lakin fərqli semantik əlaqələrdə işlənir. Əsas söz birinci bitişik sözlə birləşərək frazeoloji söz birləşməsini əmələ gətirir. Eyni əsas söz ikinci bitişik sözlə birləşərək sərbəst söz birləşməsini əmələ gətirir. Ünsiyyət zamanı iki sintaktik strukturun oxşarlığı və semantik əlaqəliliyi arasında ziddiyyət yolu ilə əldə edilən yumoristik effekt yaratmaq üçün zevqmadan istifadə olunur.

Söz oyunu (Pan) səs baxımından eyni olan, lakin mənaca fərqli və ya eyni sözün müxtəlif mənalarının işlədilməsindən ibarət olan bir fiqurdur. Söz oyunu istər yumoristik, istərsə də ciddi ritorik təsir üçün oxşar sözlərin və ya ifadələrin qəsdən qarışdırılmasından ibarət nitq fiqurudur. Bu, bir sözün, cümlənin və ya diskursun iki və ya daha çox müxtəlif mənaları əhatə etməsi üçün dilin xüsusiyyətlərindən istifadə etməyin bir yoludur. Belə ki, yumoristik və ya söz oyunlarının yaratdığı hər hansı digər effektlər sözlərin gətirdiyi qeyri-müəyyənliklərdən asılıdır.

D.Delabastitaya görə söz oyunu dörd kateqoriyaya bölünür [8, s.128]:

1. Omonimiya (eyni səslər və eyni yazılış);

2. Homofoniya (eyni səslər, lakin fərqli yazılışlar);

3. Homoqrafiya (fərqli səslər, lakin eyni yazılış);

4. Paronimiya (həm orfoqrafiyada, həm də səsdə cüzi fərqlər var).

Ümumilikdə söz oyunu müxtəlif şəkildə təsnif edilmişdir. Bütün formaların bu şəkildə müəyyənləşməsi daha məqsədəuyğundur:

1. Leksik-semantik söz oyunu;

2. Struktur-Sintaktik söz oyunu;

3. Struktur-Semantik söz oyunu;

Dilin bir xüsusiyyəti olaraq, bir söz və ya ifadə birdən çox mənaya malik olduqda və müvafiq olaraq bir linqvistik ifadə birdən çox anlayış və ya şərhə imkan verəndə qeyri-müəyyənlik yaranır. Beləliklə, qeyri-müəyyənlik bir oyun konvensiyasıdır, lakin S.Attardonun qeyd etdiyi kimi, hər ikimənalı söz söz oyununu təşkil etmir [9, s.133]. Qeyri-müəyyənlik əksər hallarda zarafatların yaradılmasında onların uğurlu tətbiqlərinə əsaslanır. Buna görə də bu cür qeyri-müəyyənlik dildə qarşısını almaq əvəzinə istifadə edilməli bir şey kimi qəbul edilir. Linqvistik qeyri-müəyyənlik daha çox leksik, qrammatik və ya sintaktik kimi qeyri-müəyyən "elementlər" vasitəsilə yaranır. Söz və ya söz birləşməsinin leksik qeyri-müəyyənliyi, sözün mənsub olduğu dildə onun birdən çox məna daşıması ilə əlaqədardır. Semantik qeyri-müəyyənlik o zaman baş verir ki, bir cümlədə qeyri-müəyyən bir söz və ya ifadə özündə birdən çox məna daşıyan söz və yaxud da söz birləşməsini ehtiva etsin. Sintaktik qeyri-müəyyənlik o zaman yaranır ki, cümlə, cümlənin strukturuna və onun sintaksisinə görə iki və ya daha çox müxtəlif məna daşıya bilər.

Sözün lüğəvi mənası ilə kontekst mənası arasında əlaqə müxtəlif xətlər üzrə davam etdirilə bilər: yaxınlıq prinsipi əsasında, yaxınlıq və ya simvol – istinad əlaqələri, ya da ziddiyyət. Beləliklə, birinci prinsipə əsaslanan üslub vasitəsi metafor, ikinci prinsipdə metonimiya, üçüncü prinsipdə isə ironiyadır.

Metafora iki uyğun anlayışın müəyyən xassələrinin və ya xüsusiyyətlərinin yaxınlığına və ya oxşarlığına əsaslanan lüğəvi və kontekstual məntiqi mənalar arasında əlaqədir. Bu, oxşarlıq assosiasiyasına əsaslanan bir adın ötürülməsidir və buna görə də əslində gizli bir müqayisədir. Bir şeyi başqa bir şeymiş kimi istinad edərək digərinə bənzədən təsvir üsulu təqdim edir. V.V.Vinoqradov yazır: "...metafora, şablon deyilsə, fərdi dünyagörüşünün təsbit edilməsi aktıdır, subyektiv təcrid aktıdır... Ona görə də söz metaforası dar, subyektiv qapalı olur, ...obyekt və ya hadisə və onun semantik əlaqələri haqqında oxucuya subyektiv baxış tətbiq edir" [7, s.167].

Metaforun ifadəliliyi hər iki obyektin - əslində adlandırılan və öz "qanuni" adını verən obyektin təsvirlərinin gizli mövcudluğu ilə dəstəklənir. Beləliklə, formal olaraq adın ötürülməsi ilə iki fərqli varlıq üçün ümumi olan bir xüsusiyyətin oxşarlığına əsaslanaraq mürəkkəblik yaradılır. Əlaqədar obyektlər arasındakı uyğunsuzluq nə qədər geniş olarsa, metafor bir o qədər təəccüblü və gözlənilməz, daha ifadəli olar.

Şəxsləndirmə (Personification) bir növ metafordur. Bu, cansız cisimlərin və ya mücərrəd fikirlərin canlı varlıq kimi təmsilidir. Mücərrəd fikirlər çox vaxt böyük hərflə yazılır və o, əvəzliklər ilə əvəz edilə bilər. Şəxsləndirmə tez-tez cansız obyektə və ya mücərrəd fikrə birbaşa müraciət etməklə həyata keçirilir. Metafor və şəxsləndirmənin üslub məqsədləri müxtəlifdir. Onlar təsvirə dinamik güc vermək, obraz yaratmaq, insanları və ya obyektləri xarakterizə etmək, tamaşaçının xüsusi əhval-ruhiyyəsini canlandırmaq üçün istifadə olunur.

Metonimiya lüğətlə kontekstual mənalar arasında fərqli münasibət növünə, eyniləşdirməyə deyil, bu mənaların təmsil etdiyi iki anlayışı birləşdirən bir növ assosiasiyaya əsaslanan münasibətə əsaslanır. Metonimiyada adların köçürülməsi metaforda olduğu kimi iki müxtəlif sözün onların semantik quruluşunda ümumi komponentə malik olması zərurətini nəzərdə tutmur, reallıqda iki obyektin (hadisələrin) ortaq mövcudluq əsaslarına malik olmasından irəli gəlir. Metonimiya ("ad dəyişikliyi") reallıqda ümumi mövcudluq əsaslarına malik olan obyekt və ya hadisələrin yaxınlığına əsaslanan adların köçürülməsidir. Metonimiya əmələ gətirən münasibətlər bunlardır: gözə çarpan əlamətin şəxs üçün seçilməsi, yaradılmış şeyin əvəzinə müəllifin adı, hərəkətlərin adları əvəzinə alətlərin adları, ondan hazırlanmış əşyanın əvəzinə material, hərəkət əvəzinə hərəkət mənbəyi, (reklamda) məhsul əvəzinə arzu olunan effekti işlənə bilər.

Metonimiyanın bir növü də sinekdoxadır. *Sinekdoxa*hissə və bütövlük arasındakı münasibətlərə əsaslanır. Həm metonimiyadan, həm də sinekdoxadan aşağıdakı hallarda istifadə olunur:

a) Təsəvvür yaratmaq;

b) Konsepsiyanın xüsusiyyətini və ya vacib keyfiyyətini vurğulamaq;

c) Kimisə onun tək bədən hissəsinə və ya xüsusiyyətinə istinad edərək dolayısı ilə xarakterizə etmək;

d) Linqvistik ifadəyə hər hansı xüsusi qüvvə vermək.

*İroniyada*sözün kontekstdəki mənası lüğətdəki mənanın əksi kimi qəbul edilir.İroniya iki bir-birinə zidd olan lüğət və kontekstual məntiqi mənanın qarşılıqlı təsirinə əsaslanır. İroniya kontekstdən kənarda mövcud deyil. İroniya yumorla qarışdırmaq olmaz. Onların çoxlu ortaq cəhətləri var. Belə hallarda ironiyanın təsirini bütün mətn yaradır.

Epitet (Epithet) obyektin həm mövcud, həm də xəyali xüsusiyyətlərini ifadə edir. Onun əsas xüsusiyyəti onun emotivliyi və subyektivliyidir. Onu təyin etmək üçün obyektə əlavə olunan xüsusiyyət həmişə danışanın özü tərəfindən seçilir.

Epitet əsrlər boyu ən çox istifadə olunan leksik üslubi vasitə olaraq qalmışdır. Uzun və təkrar istifadə nəticəsində epitetlər sabitləşir. Homer poeziyasında ilk dəfə rast gəlinən və o vaxtdan bəri təkrarlananlar Homer epitetləri kimi tanınır: "swift footed Achilles" ("sürətli ayaqlı Axilles"), "rosy fingered dawn" ("qızılbarmaqlı şəfəq").

Epitetlərin quruluşu və semantikası son dərəcə dəyişkəndir ki, bu da onların uzun və geniş istifadəsi ilə izah olunur. Semantik olaraq iki əsas qrup fərqləndirilməlidir, onlardan ən böyüyü affektiv (yaxud emosional) qruplardır. Bu epitetlər danışan tərəfindən obyektin emosional qiymətləndirilməsinə xidmət edir. Lüğətdə rast gəlinən seçici sözlərin əksəriyyəti affektiv epitetlər kimi istifadə olunur: "gorgeous" (möhtəşəm), "nasty" (murdar), "magnificent" (möhtəşəm), "atrocious" (vəhşi) və s.

İkinci qrup – məcazi və ya köçürülmüş epitetlər sifətlərlə ifadə olunan metafor, metonimiya və bənzətmələrdən əmələ gəlir. Məsələn, "the smiling sun" ("gülümsəyən günəş"), "the sleepless pillow" ("yuxusuz yastıq"). Metafor, metonimiya və bənzətmə kimi, uyğun epitetlər həm də birinci halda iki obyektin xüsusiyyətlərinin oxşarlığına, ikinci halda ixtisaslaşdırılmış obyektlərin yaxınlığına əsaslanır.

Beləliklə, epitet məntiqi və emosional mənanın qarşılıqlı təsirinə əsaslanır. Sonrakı kontekstdə doğulur və məntiqi mənaya üstünlük verir. Epitetlər portretləri ictimai mövqe, milliyyət, həyat təcrübəsi və "daxili aləmi", fiziki vəziyyəti və yaşı haqqında bəzi məlumatlar ilə tamamlayır. Epitet yazıçıya parlaq və canlı xarakter portretini yaratmağa kömək edir və eynisi bütün roman boyu təkrarlana bilər. Bu halda personaj ona məxsus olan müəyyən bir təsvir işarəsi ilə təmin edilir ki, bu da oxucunun xarakterini asanlıqla müəyyən edə bilər.

Oksimoron (Oxymoron) əks və ya ziddiyyətli sözlərin, terminlərin, ifadələrin və ya fikirlərin paradoksal vasitələrlə ritorik təsir yaratmaq üçün birləşdirildiyi ədəbi nitq obrazıdır. Oksimoron "ziddiyyət" adlanan ifadələrin uyğun alt çoxluğudur. Oksimoronu digər paradoks və ziddiyyətlərdən fərqləndirən cəhət ondan ibarətdir ki, onlar qəsdən, ritorik təsir üçün istifadə olunur və ziddiyyət yalnız açıq-aydın görünür, çünki terminlərin birləşməsi hansısa anlayışın yeni ifadəsini təmin edir [10, s.2].

Oksimoronu təşkil edən iki termin arasında əldə edilən məna əlaqəsindən asılı olaraq iki növ oksimoronu ayırd etmək olar: birbaşa və dolayı. Birbaşa oksimoronda birbaşa antonimlər müəyyən ölçüdə iki əks qütbü təmsil edən iki leksik element başa düşülür: "wet dryness" ("nəm quruluq") and "sound silence" ("səsin sükutu"). Dolayı oksimoron zamanı antonim mənalı sözlər birləşmir. Həmin hallarda dolayı antonim münasibəti daha dəqiq müəyyən etmək üçün məna əlaqəsinin başqa bir növü olan hiponimiyadan istifadə olunur. Hiponimiya xüsusi və ümumi leksik elementlər arasında yaranan əlaqədir ki, birincisi ikinciyə daxil edilir. Hiponimiyanın məna əlaqəsini nəzərə alaraq, dolayı oksimorona birinin digərinə birbaşa təsirini göstərmək olar: "whistling silence" ("fısıldayan səssizlik"), "sunny coldness" ("isti soyuqluq").

Bənzətmə (Simile) iki obyektin qismən eyniliyinin (yaxınlıq, oxşarlıq) açıq ifadəsidir. Eynilik sözü yalnız müqayisə edilən obyektlərin müəyyən xüsusiyyətlərinə şamil edilir: əslində, obyektlər eyni ola bilməz; onlar yalnız oxşardırlar, bəzi eyni xüsusiyyətlərə görə bir-birinə bənzəyirlər. Bənzətmə müxtəlif formalara, semantik xüsusiyyətlərə və ifadəli məqsədlərə ma-

likdir. Bənzətmə başqa bir üslub vasitəsi ilə birləşdirilə və ya müşayiət oluna bilər və ya bu və ya digər üslub effektinə nail ola bilər. Beləliklə, çox vaxt təsvir olunan xüsusiyyətlərin şişirdilməsinə əsaslanır.

Hiperbola (Hyperbole) qəsdən şişirtmə yolu ilə vurğunun aktiv olduğu leksik üslubi vasitədir. Burada danışanın hissləri və duyğuları o qədər cəmləşmişdir ki, onun nitqində obyektin kəmiyyət və ya keyfiyyət tərəfini gücləndirməyə müraciət edirlər. Hiperbola "ontoloji istinadı nəzərə alınmaqla əsaslandırılmışdan daha ifrat olan ifadə"dir [11, s.166]. Şişirtmə hiperbolanın ilk elementidir Hiperbolik mətnlərdə natiq element və ya xüsusiyyəti şişirdir. Yazıçılar şişirtdikdə, adətən bir şeyin əhəmiyyətini vurğulamaq istəyirlər .

Perifraz (Periphrasis) bir sözün və ya ifadənin mənasının dolayı yolla bir neçə və ya bir çox sözlə ifadə olunduğu üslub vasitəsidir. Nitq obyektinin müəyyənləşdirilməsinin bu üsulu metonimiya ilə bağlıdır. Bu iki termin arasındakı fərq ondan ibarətdir ki, perifraz bir dil vahidi ilə ifadə edilə bilməz; həmişə birdən çox sözdən ibarətdir. Müasir nəsrdə perifrazdan bu məqsədlərlə istifadə olunur:

a) verilmiş obyektin bəzi xüsusiyyətlərini və ya xassələrini ortaya çıxarmaq və gücləndirmək,

b) monoton təkrarlardan qaçmaq.

Perifraz obrazlı və məntiqi olaraq təsnif edilə bilər. Obrazlı perifraz ya metaforaya, ya da metonimiyaya əsaslanır. Məntiqi perifraz təsvir olunan obyektin xas xüsusiyyətlərindən birinə və ya keçici xüsusiyyətinə əsaslanır.

Ümumilikdə müasir ingilis dilində leksik üslubi vasitələr mətnin müxtəlif növlərində geniş şəkildə istifadə olunur. Onların işlədilməsindəki əsas məqsəd mətnə bədiilik, obrazlılıq verməkdir. Eyni zamanda onlar mətndə ifadə olunan mənanın açılmasında da xüsusi rola malikdir.

Ədəbiyyat

1. Арнольд И.В. Семантика. Стилистика. Интертекстуальность. Москва: Книжный дом «ЛИБРОКОМ», 2010, – 448 с.
2. Скребнев, М. Основы стилистики английского языка. Москва: Астрель АСТ, 2003, – с.102-103.
3. Galperin I.R. Stylistics. Moscow: Vysshaia Shkola, 1981. – 334 p.
4. Москалькая О.И. Грамматика текста. Москва: Высшая школа. 1981, – 154 с.
5. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı: Azərtədrisnəşr, 1962. – 121 s.
6. Ashurova D.U. Text linguistics. T.: Taffakur qanoti. 2012, – 204 p.
7. Виноградов В.В. О языке художественной литературы. Москва: Гослитиздат, 1959, – с.167-258.
8. Delabastita, D. Word play and Translation: Introduction. In The Translator. Studies in Intercultural Communication. Volume 2, Number 2; special issue. Manchester: St. Jerome Publishing, 1996, – p.128-136.
9. Attardo S. Linguistic Theories of Humour. Berlin: Mouton de Gruyter, 1994, – 256 p.
10. Small K. Oxymoron. 2008, URL:http://www.squidoo.com
11. Burgers C., Brugman B.C., Lavalette K.Y. & Steen G.J. HIP: A Method for Linguistic Hyperbole Identification in Discourse. Metaphor and Symbol, 2016, 31(3), – p. 163-178.

L.A.Mustafayeva

Зевгма и некоторые другие лексико-стилистические средства

Резюме

В статье рассматриваются лексико-стилистические средства в современном английском языке. Во-первых, это дает некоторую информацию о стиле в языке. В нем утверждается, что стиль всегда характеризуется принципом отбора и сочетания различных языковых средств (средств выражения), которые служат бесчисленным коммуникативным целям пользователей языка.

В статье проанализированы такие лексико-стилистические средства, как зевгма, игра слов, метафора, а также метонимия и другие.

L.A.Mustafayeva

Zeugma and some other lexical-stylistic means

Summary

The article deals with lexical-stylistic means in modern English. It firstly gives some information about the style in the language. It states that style is always characterized by the principle of selection and combination of various language means (expression resources) that serve the countless communicative purposes of language users.

The lexical-stylistic means such as zeugma,pun, metaphor as well as metonymy and others have been analyzed in the article.

Rəyçi: filol.e.d. L.M.Cəfərova

Redaksiyaya daxil olub: 13.04.2023

D.NAĞIYEVA
filologiya üzrə fəlsəfə doktoru, dosent

V.VƏLİYEVA
baş müəllim

Azərbaycan Tibb Universiteti
(Bakı şəh., Səməd Vurğun, 167)

N.VƏZİROVUN PYESLƏRİNİN FİZİOLOJİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *frazeoloji ifadə, bədii dil, atalar sözləri, sinonim*
Ключевые слова: *фразеологическое выражение, художественный язык, пословицы, синоним*
Key words: *frazeological expression, artistic language, proverbs, synonym*

Frazeologiya dilin ən spesifik və milli özünəməxsusluğa malik sahələrindən biridir və dilçiliyin bu şöbəsi haqqında alimlər arasında fikir müxtəlifliyi mövcuddur. Bir qisim alimlər frazeologiyanı çox geniş mənada götürür, yəni onun tərkibinə dildə işlənən sabit söz birləşmələrinin hamısını daxil edir; digər bir qismi isə frazeoloji vahidlərin çərçivəsini sabit söz birləşmələrinin yalnız müəyyən bir qrupu ilə məhdudlaşdırır. Eləcə də, bəzi alimlər dilin frazeologiyasına atalar sözlərini, zərbi-məsəlləri, aforizmləri, hikmətli sözləri, qoşa sözləri, tapmacaları aid etdikləri halda, bunları frazeologiya hesab etməyənlər də çoxdur. Sadəlik, yığcamlıq, ifadəlilik frazeologizmlərə xas olan xarakterik xüsusiyyətlər olduğundan ondan ədəbi dilin bir çox üslublarında, xüsusilə bədii üslubda dilin canlılığını, obrazlılığını, emosionallığını ifadə etmək üçün istifadə olunur. "Hər hansı milli dilin frazeologiyasının dərindən öyrənilməsi həmin dilin mənimsənilməsində əsas halqadır və eləcə də o dilin daşıyıcılarının zəngin, rəngarəng və bir o qədər də sirli aləminə açılan pəncərədir" [6, s.25].

M.F.Axundovun ən yaxın sələflərindən olan N.Vəzirovun yaradıcılığı XIX-XX əsrin əvvəli Azərbaycan ədəbiyyatında maarifçi cərəyanının ən yüksək zirvədə olduğu dönəmə təsadüf edir. İctimai həyatın bütün sahələrində özünü göstərən qarşıdurma və ziddiyyətlər ədəbi dil məsələləri ətrafında daha güclü şəkildə cərəyan edirdi. Bir qisim ziyalılar panislamizm, panturkizm mövqeyində dayanaraq Azərbaycan ədəbi dilini ərəb, fars, türk sözləri ilə zənginləşdirməyi təbliğ edir, bir qismi isə rus-avropa sözlərini vurğulamağa və ədəbi dilə gətirməyə çalışırdılar. Bunların əksinə olaraq, Ə.Haqverdiyev, N.Nərimanov, C.Məmmədquluzadə və başqaları kimi, N.Vəzirov də yaradıcılığının ilk günlərindən əsərlərini xalq dilinə, canlı danışıq dilinə son dərəcə yaxın bir şəkildə yazır, ədəbi dili milli zəmin üzərində möhkəmləndirmək, sabitləşdirmək xətti yeridirdi. İlk yaradıcılıq nümunələrindən başlayaraq orijinal bir yol tutan ədib xalq dilinin gözəlliyini, təbiilik, şirinlik və ifadəlilik kimi keyfiyyətlərini ədəbiyyata gətirməklə M.F.Axundovun başlamış olduğu böyük işi inamla, ustalıqla davam etdirirdi. O, həyatın, məişətin və əxlaqın realist səhnədəki əhatə çərçivəsini daha da genişləndirir, ona yeni janrlar, üslub, dil fərdiliyi artırmaqla xəlqiliyi gücləndirirdi.

Vəzirovun əsərləri obrazlarının reallığı, xəlqiliyi ilə seçildiyi kimi, dili də Azərbaycan folklorunun ən kiçik vahidlərindən tutmuş cümlə konstruksiyalarına, idiomlara, frazeoloji ifadələrə, atalar sözü və məsəllərə önəm verilməsi ilə diqqəti cəlb edir. Bədii əsərin frazeoloji semantikası ümumxalq dilinin zəngin frazeoloji materialı ilə, bədii əsərin yarandığı dövrə xas ümumxalq ifadə vasitələri ilə xarakterizə olunur. "Buna görə də bədii əsərin frazeoloji materialının tədqiqi yazıçının ümumxalq dili frazeologiyasından necə istifadə etdiyini, ifadənin semantik imkanlarını necə nəzərə aldığını, söz və ifadələri seçib götürmə bacarığını müəyyənləşdirməyə kömək edir, xalq dilinin həmin mərhələsində sözün, ifadənin hansı semantik istiqamətdə ünsiyyətə xidmət etdiyi aşkar olur, dövr keçdikcə leksik və frazeoloji vahidlərin mə-

nasında dəyişmələr – daralma, genişlənmə, məcazlik halları lüğət tərkibindəki ayrı-ayrı vahidlərin məna həcmini izləməyə imkan verir" [4, s.171]. N.Vəzirovun dram əsərlərinin dilini öyrənərkən bu qənaətə gəlmək olur ki, müəllif ilk dram əsərlərindən başlayaraq, böyük mütəfəkkir M.F.Axundovun "canlı dili ədəbiyyata daxil etmək" (B.Çobanzadə) yolunda şərəfli işini davam və inkişaf etdirmək sahəsində böyük xidmət göstərmişdir. V.Vinoqradovun fikrincə, bədii əsərlərin linqvostilistik öyrənilməsi ilk növbədə dil vasitələrinin özünəməxsus dərketmə priyomlarını və istifadə üsullarını üzə çıxarır.

Vəzirovun pyeslərinin dilində elə məqamlar var ki, bütünlüklə folklor nümunələrindən, xalq söz və ifadələrindən ibarətdir. Təbii ki, yazıçının əsərlərini nəzərdən keçirərkən ilk diqqət çəkən məqam əsərlərini əksər hissəsinin adının atalar sözü və məsəllərdən götürülməsidir. "Atalar sözləri "həyatın müxtəlif məsələlərinə aid ibrətamiz məzmunlu qısa kəlam, hikmətli sözlər", xalq müdrikliyinin ümumiləşdirilmiş bədii ifadəsini, xalqın dühasını", yaxud "xalqın həyat təcrübələrinin nəticələrini" başqa sözlə "xalqın ümumiləşdirilmiş təcrübəsini əks etdirən" qısa, dolğun, yığcam, konkret, mənalı, son dərəcə hakimanə aforistik ifadələrdir" [2, s.5]. N.Vəzirov bədii irsində mühüm yer tuttan pyeslərə hikmətli söz və ifadələrdən başlıqlar seçməklə sanki bu əsərlərin məğzini açmış olur. "Daldan atılan daş topuğa dəyər", "Yağışdan çıxdıq, yağmura düşdük", "Nə əkərsən, onu biçərsən", "Sonrakı peşmançılıq fayda verməz" və s. Kimi başlıqlar ədibin xalq ədəbiyyatına, folkloruna olan marağını əks etdirir. Lakin bu maraq təkcə əsərlərin başlıqları ilə məhdudlaşmır, pyeslərin özü də hikmətli söz və məsəllərin, frazeoloji ifadələrin çəkisi ilə ədibin digər nəsr nümunələrindən fərqlənir. Sadə məişət üslubuna əsaslanan ədib əsərlərində dövrün səciyyəsini verməyə müvəffəq olur:

Xırda xanım. *Sənin kimi kişini çay aşağı axıdım, çay yuxarı axtarım. Şükür Allah, sənə! Mənə bax, sahibimə bax!*

Əbdürrəhim bəy. *Arvad, sən atayın goru bir mənə de görüm başına at təpib, ya ki soyux dəyib? Axır məndən nə istəyirsən?*

Xırdaxanım. *Sən nə kişisən ki, mən səndən nə istəyim... Bilməzsən nə var, nə yox, bilməzsən arvadın dərdi nədi, uşağın dərdi nədi. Gündüz axşama kimi 83asin qarışıb gədə-güdəyə, uşaq-muşağa. Gecə qumar, gündüz qumar.*

Əbdürəhim bəy. *Axı evdə nə dərd var ki, mən onun fikrinə qalam?.. Təvəqqe eləyirəm ki, ağzını göyə tutmayasan!*

Xırdaxanım. *Qırqovul 83asin kola təpər, daldan xəbəri olmaz. Daş başıma salasan. (Ə b d ü r r ə h i m çubuğu gətirir, gedir) [7, s.25]*

"Daldan atıln daş topuğa dəyər" komediyasından seçdiyimiz parçada işlənən başına at təpmək, ağzını göyə tutmaq, başı qarışmaq, tor atmaq, başına daş salmaq kimi zərb-məsəllər və frazemlər yazıçının düşüncəsini, ortaya çıxarmaq istədiyi məqamı bir daha vurğulayır:

Cənnətəli ağa. *Mən ancaq dünən bilmişəm başıma nə daş düşübdür... Borc, borc kimi deyil ki! M i r z ə , sən özgəsi deyilsən, evim yıxılıbdır.*

Mirzə Əsgər. *Ağa, sən Allah elə danışma. Sənə nə olubdur ki, evin yıxıla... Borcsuz düşmənin olsun. Onun üçün ki, deyirlər borcum var, etibarım var... Bu halda borcsuz kimdir? Tamam xanlar, bəylər boğazacan borca batıblar, bir siz deyilsiz.*

Xanpərvər bəyim. *Ay kişi, bəsdir sən Allah, onsuz da bu gün mənim kefim yoxdur... Allahqulu, Allahqulu, a gədə, bir qəlyan gətir... Kişi bir sözün ucundan tutub dəxi qurtarmaq bilmir... Pul yiyəsinin canı çıxsın, bizi də buradan köçürtməyəcəkdir.*

Cənnətəli ağa. *Köçürdər də, hələ desən adamın gözünə ağ da salar! Kafir uşaqları bilmirsən adamın başına nə iş gətirirlər...[7, s.73]*

Obrazların səciyyəsinin hərtərəfli işıqlandırılmasında əhəmiyyətli rol oynayan bu ifadələrin – dolayısı ilə frazeoloji birləşmələrin öyrənilməsi xalqın tarixi, məişəti etnoqrafiyası ilə bağlı məlumatların əldə edilməsində mühüm rol oynayır. Daha doğrusu, "dildəki frazeoloji vahidlər dilin daşıyıcısı olan xalqın tarixi, adət-ənənəsi, psixologiyası və düşüncə tərzinin ifa-

dəsi olduğundan hər hansı xalqın dilindəki frazeoloji vahidlərin linqvistik araşdırılması, nəticədə həmin xalqın tarix və etnoqrafiyasının, həyat və yaşayış tərzinin öyrənilməsinə gətirib çıxarır" [5, s.27-28].

N.Vəzirovun əsərlərindəki frazeoloji ifadələri nəzərdən keçirərkən frazeoloji sabit ifadə və ibarələrin söz birləşmələri ilə bağlı olan fərqli məqamları diqqəti cəlb edir. Ən əsası da odur ki, Vəzirovun dilində əsas bu tip ifadələr üstünlük təşkil edir. "Öz lüğəvi tərkibinə və qrammatik qovuşmasına görə möhkəm, həm də aydın, obrazlı olan ifadələrə frazeoloji sabit ifadə və ibarələr deyilir. Frazeoloji sabit ifadələrə atlar sözləri, məsəllər, yazıçıların yaratdıları aforizmlər, rəvayətli ifadələr, ştamp vəya klişa adlanan ifadələr, ədəbi sitatalar və s. daxildir" [3, s.272].

Xırdaxanım. *Nurcahan, bizə yatmaq kar verməz; gərək elə bu gündən başlayaq tor atmağa…*

Fatmaxanım. *Səndə taxsır yoxdu. Taxsır mənim o arvadağızdı oğlumdadı. Elə oğlun boyuna ip ölçüm... Mən öz əlimlə öz başıma daş salmışam, sənin ananı görə-görə, gedib səni alanda [7, s.44].*

Səfiqulu. *Mən neyləyim, mən başıma nə daş salım, başuna dönüm?.. Bir belə ziyanlığı görəndə vallah istədim o saat qara köpəyi tüfənginən vurum öldürüm.*

Cənnətəli ağa. *Qara köpəyi sənin kimi yüz nökərə vermərəm, çölə çıx axmaq. Bir durum, gör sənin başına nə iş gətirəcəyəm, ölənəcən dadı damağından getməsin.*

Səfiqulu *(gedə-gedə). Ev ev deyil ki! Mən başıma nə kül töküm?.[7, s.59]*

Birinci cümlədəki *tor atmaq* ifadəsi həqiqi mənada deyil, məcazi anlam daşıyaraq kimisə tora salmaq ifadəsinin praktiki formasını ifadə edir. Boyuna ip ölçmək, başına daş salmaq, başına kül tökmək, dadı damağından getməmək kimi sabit söz birləşmələri əsərə həyatilik, canlılıq gətirir, qəhrəmanların dünyagörüşünün əks olunmasına xidmət edir. Lakin N.Vəzirovun dilində özünü göstərən xüsusiyyətləndirən biri də ondadır ki, əsər boyu lazım gəldikcə müxtəlif frazeoloji ifadələrdən istifadə edilib müəyyən mətləblər çatdırılsa da. Müəyyən məqamlarda atalar sözü və məsəllərlə deyilən fikirlər yekunlaşdırılır. "Dilimizdəki atalar sözləri frazeologiyanın zənginləşdirilməsində mənbə rolunu oynayır" [3, s.273].

Heydərqulu ağa. *…… Bu işdə ölmək var, dönmək yoxdur…*

Allahqulu. *Arığın nə işi var qoruqda ki, vuralar qıçı sına. Allah vara ata-oğul bir-birinin ətini yeinlər, bizə nə var, canları cəhənnəmə…[7, s.72].*

Əsərdə bu tip frazeoloji vahidlərdən hazır, yaxud dəyişmiş transformasiya olunmuş şəkildə istifadə edərkən müəlliflər dilin estetik-bədii keyfiyyətlərini qabardır və onlardan bədii-üslubi effektiv yaratmaq üçün istifadə edir.

Pyesdəki frazeoloji vahidlərin müəyyən qismi subyektin obyektə, muxtəlif predmet və hadisələrə münasibətini bildirir. Belə frazeoloji vahidlər alqış, qarğış, and, dua, yalvarış, çağırış və s. kimi mənalara malik olub, obrazın daxili həyəcani vəziyyətini ifadə edir. Müəllif belə frazeoloji vahidlərin üslubi imkanlarından bacarıqla istifadə edə bilmiş, xüsusən fərdiləşdirmə məqamında bunlara daha çox diqqət yetirmişdir. Məsələn, qadan alım, qurban olum, başına dönüm, sən allah, anan sənə qurban kimi əzizləmə mənalı frazeoloji vahidlər əsasən qadınların – Xırdaxanımın, Nurcahanın ("Daldan atılan daş topuğa dəyər"), Xanpərvər bəyimin ("Adı var, özü yox") və s. dilində işlənmişdir. Bunlarda daha çox əzizləmə, and və yalvarış məzmunu vardır. Bunun əksinə olaraq Səfdərqulunun, Bayraməli bəyin ("Ev tərbiyəsinin bir şəkli"), Fatma xanımın ("Sonrakı peşmançılıq fayda verməz") dilində qarğış və söyüş bildirən frazeoloji vahidlər əsas yer tutur. Yazıçı ailə üzvlərinə olan hirsini, övladlarından, qardaşından narazılığını bildirmək üçün Səfdərqulu və Bayraməli bəyin dilindən verdiyi – axmaq oğlu axmaq, heyvan oğlu heyvan, Fatma xanımın dilindən mürtədin balası, cin sifətli, adı batmış oğlum, südüm gözünə dursun, və s. ifadələri obrazların dünyagörüşü, təhsilinə, düşüncəsinə uyğun istifadə edildiyindən təbiiliyin qorunmasına nail olmuşdur.

Frazeoloji vahidlərin semantik xüsusiyyətləri də polisemantizm, omonimlik, sinonimlik və antonimlik əsasında daha geniş məcrada şərh olunur. Pyeslərdə işlənən frazemlərin sinonimliyi əsərlərin əsas özəlliklərindəndir. Frazeoloji vahidlər yalnız ayrı-ayrı sözlərin sinonimləri olmaqla qalmır, bir-biri ilə sinonim münasibətdə olmaqla, xüsusən bədii əsərdə obrazlılıq, ifadəlilik vasitəsi kimi mühüm rol oynayır. Hətta faktlar göstərir ki, bu cəhət – frazeoloji vahidlərin sinonimliyi bədiilik vasitəsi kimi yazıçıya daha çox imkan verir; dilin sinonimik imkanları, üslubi funksiyalarının yaxşı mənimsənilməsi nəticəsində yazıçılar nəzərdə tutduğu fikri dinləyiciyə çatdırmaq üçün söz seçməkdə çətinlik çəkmir, zəngin, emosional və ekspressiv ifadə vasitələrindən bacarıqla istifadə edə bilir ki, bu da müəllif dilinin təsir gücünü artırır. Sinonim frazeoloji cərgələr sanki təbiətən bədii əsər üçün yaranmışdır. Bunu əsərdəki canını boğazına yığmaq – təngə gəlmək, canına od düşmək – ciyərin od tutub yanmaq, haramın olsun – burnundan gəlsin, qadan alım – başına dönüm – qurbanım olum – (anam) gözlərinə qurban və s. saysız-hesabsız sinonim sıralar da təsdiq edir. Sinonim frazeoloji vahidlər nitqin emosionallığını, təsir gücünü, ifadəliliyini artırır, onun xəlqiliyini təmin edir. Frazeoloji vahidlərin üslubi imkanları genişdir və fikrin emosional, yığcam, dəqiq, obrazlı ifadəsi, müəyyən anlayışın əsas cəhətlərinin incəliklərinə qədər nəzərə çarpdırılması üçün bunlardan bədii əsərdə istifadə edilməsi həyati bir zərurətdir. Prof. Ə.Dəmirçizadə frazeoloji vahidlərin bu xüsusiyyətini müşahidə edərək: "İdiomların üslubi imkanları, hər şeydən əvvəl, onların ayrı-ayrı sözlərə, ifadələrə sinonim ola bilməsi ilə izah edilir və məhz sinonimliklə də onların üslubi imkanları müəyyənləşir" [1, s.169] qənaətinə gəlir.

Bədii dil üzərində əməli işi və pyeslərdəki leksik və frazeoloji vahidlərin təhlili və bunların semantik xüsusiyyətləri sübut edir ki, N.Vəzirov ziddiyyətli və mürəkkəb bir zamanda yaradıcılıqla məşğul olsa da, M.F.Axundovla güclənən milli ədəbi dilimizin nailiyyətlərini qoruyub saxlamaq səyi ilə kifayətlənməmiş, həm də xalq dilinin bitməz-tükənməz xəzinəsinə əsaslanaraq, milli ədəbi dilimizi material və quruluş cəhətdən zənginləşdirmək, sağlam bir yolla inkişaf etdirmək sahəsində çox böyük iş görmüşdür. N.Vəzirovun pyeslərinin orijinallığı, həyatiliyi və gücü təkcə onun əsərlərində qoyulan əsas məsələlərdə və həmin məsələlərin xalqın xeyrinə necə həll edilməsində deyil, həm də bu əsərlərdə istedadla istifadə edilmiş dildə – ümumxalq Azərbaycan dilinə məxsus xüsusiyyətlərdə təzahür edir.

Ədəbiyyat

1. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı, Bakı, 1962
2. Hüseynzadə Ə. Atalar sözü. Bakı: Yazıçı, 1981, – 336 s.
3. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası, Bakı: Nurlan, 2008, – 442 s.
4. Kazımov Q. Seçilmiş əsərləri, I cild, Nurlan, 2008, – 560 s.
5. Mahmudova Q. Qıpçaq qrupu türk dillərini frazeologiyası, Bakı, 2009
6. Mirzəliyeva M. Türk dilləri frazeologiyasının nəzəri problemləri, Bakı, 2009
7. Vəzirov N. Əsərləri. Bakı: "Şərq-Qərb", 2005, – 304 s.

Д.Нагиева, В.Велиева

Физиологические особенности пьес Н.Везирова

Резюме

Оригинальность и мощь пьес Н. Везирова отражены не только в основных проблемах, стоящих там, но и в том, как решать эти вопросы в пользу народа, а также в особенностях азербайджанского языка. Язык пьес Везирова состоит исключительно из фольклорных образцов, народных слов и фраз. В этом аспекте фразеология в пьесах Н.Везирова дает богатый и своеобразный материал для исследования. Изучение фразеологических единиц в пьесах Н.Везирова помогает выбрать способы включения фразеологических единиц в тексты. Анализ языка работ показывает, что слова наших предков играют важную роль в обогащении фразеологии. Отмечается, что писатель заботится о фразеологических единицах, использует их, чтобы различать

разные ситуации и персонализировать свои образы. Синонимические фразеологические единицы, используемые в этих пьесах, увеличивают эмоциональность, силу удара, выражение речи. В статье рассматривается использование автором эстетических и художественных качеств языка и их использование для создания эффекта художественного стиля при использовании этого типа фразеологической единицы в готовом или транскрибированном виде. Изучение лексических и фразеологических единиц и их семантических особенностей в статье предполагает, что Н.Везиров проделал большую работу по обогащению нашего национального литературного языка и его здоровому развитию.

D.Nagiyeva,V.Veliyeva

Physiological features of N.Vezirov's plays

Summary

The originality and power of N.Vezirov’s plays are not only reflected in the main issues set out there, but also in how to deal with these issues in favor of the people, but also in the features of the Azerbaijani language. In this aspect, phraseology in N.Vezirov’s plays gives rich and peculiar material for investigation. Investigation of phraseological units in N.Vezirov’s plays helps to choose the ways of including phraseological units in the texts. The language of Vezirov’s plays consists entirely of folklore samples, folk words and phrases. The analysis of the language of the works shows that the words of our ancestors play an important source in the enrichment of phraseology. It is pointed out that the writer cares about phraseological units, uses them to differentiate different situations, and personalize their images. The synonymic phraseological units used in these plays increase the emotionality, impact strength, expression of speech. The article examines the author’s use of the aesthetic and artistic qualities of the language and the use of them to create an artistic-style effect when using this type of phraseological unit in the ready or transcribed way. Investigating the lexical and phraseological units and their semantic features in the article suggests that N.Vezirov has done a great job in enriching our national literary language and developing it in a healthy way.

Rəyçi: dos. L.V.Qocayeva

Redaksiyaya daxil olub: 15.05.2023

A.F.QASIMOVA
baş müəllim
e-mail: a qasimova1973@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)
(Şəki şəh., M.Rəsulzadə küç., pr.305)

ŞƏXSSİZ CÜMLƏLƏRİN AZƏRBAYCAN VƏ FRANSIZ DİLLƏRİNDƏ MÜQAYİSƏSİ

Açar sözlər: *şəxssiz, feil, şəxsli, cümlə, şəxssiz ifadələr*
Ключевые слова: *безличный, глагол, личный, предложение, безличные выражения*
Key words: *impersonal, verb, personal, sentence, impersonal expressions*

Azərbaycan dilində sintaksisdə şəxs dedikdə mübtəda nəzərdə tutulur. Cümlənin şəxsə görə növləri də mübtədanın olması və ya onun təsəvvür olunması dərəcəsinə görə müəyyənləşir. Sadə cümlənin şəxsə görə növləri aşağıdakılardır: Müəyyən şəxsli cümlə, Qeyri-müəyyən şəxsli cümlə, Ümumi şəxsli cümlə, Şəxssiz cümlə, Adlıq cümlə (mübtəda əsasında formalaşır) və söz cümlələr. [1, s.382] Müəyyən şəxsli cümlələrin həm mübtədası, həm də xəbəri olur; qeyri-müəyyən şəxsli, ümumi şəxsli, şəxssiz cümlələrdə isə yalnız xəbər olur. [2, s.79] **Şəxssiz cümlə:** Mübtədası olmayan, təsəvvür olunması da qeyri-mümkün olan sadə cümlələr şəxssiz cümlələr adlanır. Şəxssiz cümlələr də xəbər əsasında formalaşır, mübtədası olmur. Xəbəri III şəxsin təkində olur. Şəxssiz cümlələr xəbərlərinin ifadəsinə görə iki cür olur. Şəxssiz cümlələr ismi və feli xəbərli olur. Belə cümlələrin xəbəri frazeoloji vahidlərlə də ifadə olunur. Müxtəsər və geniş ola bilir.

1. İsmi xəbərli şəxssiz cümlələr. Səhərdir, Qış axşamı idi. Baharın ilk günlərindən biri idi. İsti yay günlərindən biridir. Vaxtıdır. Kənddə toydur. Bu gün ayın üçüdür.

2. Feli xəbərli şəxssiz cümlələr. Belə cümlələr, bir qayda olaraq, iki cürdür:

1. Xəbəri şəxssiz feillərlə ifadə olunan şəxssiz cümlələr. Sənədlərə baxıldı. İclasda bu məsələyə toxunulmadı. Onun dediklərinə məhəl qoyulmadı. Bizə qüvvəmizi göstərməyə imkan verilmədi. Bu materiallardan tikintidə indi daha istifadə olunmur.

2. Xəbəri frazeoloji birləşmələrlə ifadə olunan şəxssiz cümlələr. Mənim ona yazığım gəlir. Müəllimin onun cavabından xoşu gəldi. Ona rəhmim gəlir. Ondan zəhləm gedir.

Şəxssiz cümlələrdə müxtəsər və geniş ola bilir: Vaxtdır. (müxtəsər) Səhərdir.(müxtəsər) Ulduzlu bir yay gecəsi idi. (geniş) İndi belə sözlərə əhəmiyyət verilmir. (geniş)

Şəxssiz cümlələrin mübtədası olmur və onun təsəvvür edilməsi də qeyri- mümkündür. Belə cümlələrin xəbəri üçüncü şəxsin təkində olur. Bu cümlələrin xəbəri, çox vaxt şəxssiz növdə olan feli xəbərlər və adlarla ifadə olunan ismi xəbərlər olur. Məsələn, Ərizəyə baxıldı. Hər yerdə sakitlikdi. Bayırda soyuqdur. Gecədən xeyli keçmişdi. Bütün şəxssiz cümlələrin xəbəri III şəxsin təkində olur, ancaq xəbəri III şəxsin təkində olan bütün cümlələr şəxssiz olmur. Şəxssiz cümlələrin xəbəri frazeoloji birləşmələrlə də ifadə olunur. Məsələn, Mehribanın ona yazığı geldi. Atasının ona acığı tutdu. Dərsini yaxşı oxuyan uşaqdan hamının xoşu gəlir. Şəxssiz cümlələr müxtəsər və geniş ola bilir. Məsələn, Səssizlikdir. Axşamdır – müxtəsər və şəxssiz cümlələr. Kənddə toydur. İsmayılzadənin trestində sakitlikdir. – geniş səxssiz cümlələr.

Fransız dilində şəxssiz cümlələrin mübtədası var **(il)**, lakin o, heç bir şəxsi ifadə etmir. Bu cümlələrin xəbəri **III şəxsin** təkində olur. [3, s.192] Şəxssiz cümlənin mübtəda kimi "o" şəxs əvəzliyi var. Bu mübtəda heç nəyi və heç kimi təmsil etmir, qeyri-müəyyəndir. "O" şəxs əvəzliyini isimlə əvəz etmək mümkün deyil. Şəxssiz fellərin feili bağlama və əmr forması yoxdur. Felin heç kimə aidiyyatı olmadığı üçün şəxssiz olduğunu deyirik. Bu mübtəda neytraldır və nə heyvanı, nə insanı, nə də müəyyən bir şeyi təmsil edir.

Misal: Bütün gecə qar yağdı!

Bu fellərin əksəriyyəti hava və ya digər təbiət hadisələrini ifadə edir. Onlar mahiyyətcə şəxssizdirlər, yalnız təkdə istifadə olunur.

İl fait beau – Hava xoşdur. İl fait chaud – Hava istidir. İl fait frais – Hava sərindir. Fransız dilində feillər şəxsli və şəxssiz olur. Aşağıda göstərilən feillər tamamilə şəxssiz feillərdir: Neiger – qar yağmaq, pleuvoir – (yağış yağmaq), falloir – (lazım olmaq), geler – (şaxta olmaq). İl neige – Qar yağır. İl pleut – Yağış yağır. İl gele – Şaxtadır. brouillasser, bruiner, brumer, brumasser, crachiner, dracher, falloir, grêler, neiger, neigeoter, pleuvasser, pleuviner, pleuvioter, pleuvoter, pluviner, urger, vaser, venter, verglacer

Bəzi pronominal feillər şəxssiz olur: s'avérer (çevrilmək), se produire (baş vermək), se raconter (söyləmək), s'ensuivre (izləmək), s'agir de (söhbət getmək), se pouvoir (bacarmaq)

Il s'agit de finir le plus tôt possible.

Il s'avère que nous n'aurons pas assez de temps.

Il s'en est fallu de peu!

Il s'est produit un étrange phénomène.

Il se pourrait qu'on ne puisse pas repartir aujourd'hui.

S'agir de – kimisə və ya nəyisə təqdim etməkdir: Il s'agit d'un roman historique. – C'est un roman historique. Tarixi bir romandan söhbət gedir. – Bu tarixi romandır. İl se peut, il semblerait – qeyri-müəyyənliyi ifadə edir. Biz mümkünlüyü, qeyri-müəyyənliyi ifadə etmək üçün şəxssiz formada se pouvoir felindən istifadə edirik. Bu halda onun ardınca subjonctif présent gəlir.

Il se peut qu'elle vienne.

Nəticəni ifadə edən feillər: Résulter, découler.

Passiv formada olan bəzi fellər (Certains verbes à la forme passive): prouver, rappeler, défendre, autorisé, permettre. Il est prouvé – Sübut olunur, il est rappelé-xatırlanır, il est défendu – qadağandır /autorisé – icazəlidir:

Il est défendu de prendre des photos. Şəkil çəkmək qadağandır.

Il est rappelé que fumer est interdit dans ces locaux. Xatırladaq ki, bu otaqlarda siqaret çəkmək qadağandır.

Bəzi felillər həm şəxsli həm də şəxssiz ola bilər.

Faire – İl fait son devoir. – O, tapşırığını edir. İl fait du vent. – Külək əsir.

Avoir – Il a un livre. – Onun bir kitabı var. Il y a des livres sur la table. – Stolun üstündə kitab var.

Être – Il est élève. – O, şagirddir. Il est deux heures. – Saat ikidir.

Rester – Il reste à la maison. – O, evdə qalır. Il reste 10 minutes pour le commencement du match. – Yarışın başlanmasına 10 dəqiqə qalır.

Arriver – Il arrive à temps. – O, vaxtında gəlir. Qu'est-ce qu'il arrive? – Nə baş verir? **Manquer** – Il manque le train. – O, qatara gecikir. Il manque deux pages dans ce livre. – Bu kitabın iki səhifəsi çatmır. [3, s.192]

Tomber – İl tombe dans la rue. – O, küçədə yıxılır. Il tombe des cordes. – Kəndir yağır.

Fransız dilində – les expressions impersonnelles – şəxssiz ifadələr vardır.

Paraître – İl paraît dans le parc. – O parkda görünür. Il paraît que Marc part à Londres demain. – Görünür ki, Mark sabah Londona yola düşür.

Sembler – İl semble comme malade – O xəstə görünür. – Il semble qu'il fasse plus froid. – Hava daha soyuq görünür.

İl me semble – Mənə elə gəlir ki. İl est midi – Günortadır. İl est tard – Gecdir. İl est tôt – Tezdir. İl faut – Lazımdır. İl y a – Var. İl fait beau – Hava yaxşıdır. İl fait froid – Hava soyuqdur. İl fait du vent – Külək əsir. İl y a de la pluie – Yağış yağır. İl pleut – Yağış yağır. İl est possible – Mümkündür. İl est impossible – Mümkün deyil. Il est agréable – Xoşdur. Il est interdit – Qadağandır. Il est amusant – Gülməli. Il est bon – Yaxşıdır. Il est dangereux – Təhlükəlidir. Il est défendu – Müdafiə olunur. Il est inutile – Faydasızdır. Il est nécessaire –

Vacibdir. Il est pénible – Ağrılıdır. Il est difficile – Çətindir. Il est facile – Sadədir. Il est fantastique – Fantastikdir. Il est prudent – Ehtiyatlıdır. Il est remarquable – Diqqətəlayiqdir. Il est super – Əladır. Il faut – Lazımdır. Il est utile – Faydalıdır. Il est formidable – Fantastikdir. Il est génial – Möhtəşəmdir. Il est important – Vacibdir.

Şəxssiz ifadələrdən sonra **de** sözönü sonra məsdər işlənir. Məsələn: Il est important de protéger l'environnement. Il n'est pas facile de changer le monde. Il s'agit de préserver notre vie.

İstisna: Il faut-Il faut réduire la pollution.

İnkar forma məsdərin qarşısında işlənə bilir. Məs: Il est préférable de ne pas polluer. Il est bon de ne pas prendre de longue douche. Il est important de ne pas oublier notre avenir.

Şəxssiz ifadələrdən sonra əgər **que** bağlayıcısı gələrsə onda feil subjonctif présent işlənir. Məs: Il faut que je réduise mes déchets. Il est formidable que vous recycliez le papier. Il est bon qu'ils n'utilisent pas leur auto pendant les fins de semaine.

Bəzi məqamları qarışdırmamaq lazımdır. Bir metaforada bu feillərdən bəzilərini məcazi mənada şəxsi istifadə də tapa bilərik. Məs: Tənqidlər yağırdı. Alqışlar gurlayırdı.

Nəticə: Azərbaycan və fransız dillərində şəxssiz cümlələrin oxşar və fərqli cəhətləri vardır. Hər iki dildə feillər şəxsli və şəxssiz olur. Hər iki dildə şəxssiz cümlələr də xəbər əsasında formalaşır, Xəbəri III şəxsin təkində olur. Şəxssiz feillər bütün zamanlarda işlənə bilir. Avoir, être, faire, aller, venir, tomber, paraître, sembler – feilləri həm şəxsli, həm də şəxssiz ola bilir. Bəzi pronominal feillər də şəxssiz ola bilər.

Ədəbiyyat

1. İ.Ə.Əhmədzadə.Mənbə: Azərbaycan dili qəbul imtahanlarına hazırlaşanlar, yuxarı sinif şagirdləri və müəllimlər üçün vəsait, Bakı, 2012.
2. Kamran Əliyev. Mənbə: AZƏRBAYCAN DİLİ, abituriyentlər üçün köməkçi vəsait, Bakı: Elm, 2011.
3. Məmmədova Güldəstə. Mənbə: Le français pour tous – Ləman nəşriyyat Poliqrafiya, 2019.
4. https://www.google.com/url?sa=t&source=web&rct=j&url=https://lah.elearningontario.ca/CMS/public/exported_courses/FSF4U/exported/FSF4UU01/FSF4UU01/FSF4UU01A03/_teacher/Expressionsimpersonnelles.pdf&ved=2ahUKEwiw5Kvg8K3-AhXQSfEDHcGHBXQQFnoECD0QAQ&usg=AOvVaw3RYsKk-XgwdNvEeg2r701o
5. https://www.francaisfacile.com/exercices/exercice-francais-2/exercice-francais-102007.php

A.Ф.Гасымова

Сравнение безличных предложений в азербайджанском и французском языках

Резюме

Безличные предложения в азербайджанском и французском языках имеют сходства и различия. В обоих языках глаголы бывают личными и безличными. В обоих языках безличные предложения образуются на основе новостей. Новости стоят в третьем лице единственного числа. Безличные глаголы могут употребляться во всех временах. Глаголы иметь, быть, делать, идти, приходить могут быть как личными, так и безличными. Некоторые местоименные глаголы также могут быть безличными.

A.F.Gasimova

Comparison of impersonal sentences in Azerbaijani and French languages.

Summary

Impersonal sentences in Azerbaijani and French languages have similarities and differences. In both languages, verbs are personal and impersonal. In both languages, impersonal sentences are formed on the basis of news. News is in the third person singular. Impersonal verbs can be used in all tenses. The verbs to have, to be, to make, to go, to come can be both personal and impersonal. Some pronominal verbs can also be impersonal.

Rəyçi: filol.ü.f.d., dos.U.B.Mürşüdova
Redaksiyaya daxil olub: 09.05.2023

A.Ə.QULİYEVA
e-mail: ayselabdulla84@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

SEMİOTİK NÖQTEYİ NƏZƏRDƏN DANIŞIQ AKTLARININ KODLAŞMA VƏ DEKODLAŞMA PRİNSİPLƏRİ

Açar sözlər: *praqmatika, danışıqaktı, kodlaşma, dekodlaşma, propozisiya, presuppozisiya*
Ключевые слова:*прагматика, речевой акт, кодирование, декодирование, пропозиция, пресуппозиция*
Key words: *pragmatics, speech act, encoding, decoding, proposition, presupposition*

Praqmatika dil işarələri ilə onlardan ünsiyyət məqsədi ilə istifadə edənlər (danışan və dinləyən) arasındakı münasibətləri öyrənən elmdir. Praqmatik yanaşmada dil işarələrini işlədənlərin (danışanlar), (yazanlar) hansı mənanı hansı söz,söz birləşməsi,söyləm və cümlələrlə ifadə etmələri əsas yer tutur. Deməli, "*Praqmatika danışanın ifadə etdiyi mənanı öyrənir. Danışanlar qırıq-qırıq cümlələrdən, yarımçıqsözlərdən deyil, onları müvafiq qayda üzrə müəyyən mətndə, kontekstdə və məqamda işlətməklə oz fikrini izah edirlər. Bu zaman kim danışır, nə danışır,nə zaman danışır, hansı şərtlər daxilində danışır kimi məsələləri nəzərə aldığı üçün praqmatika mənanın kontekstual öyrənilməsidir. Danışılana dinləyənin necə varid olmasını,onu başa düşüb qavramasını və ünsiyyətin uğurlu olmasını təmin etmək kimi şərtləri nəzərə alan praqmatika ünsiyyətin baş tutması qaydalarını öyrənir. Deyilənlə deyilməyən arasındakı əlaqələr, habelə deyilməsə belə kontekst və məqamla bağlı, hansı məsafədən, hansı sosial amillər daxilində deyilənlə deyilməyən ünsiyyətdə yerini öyrənən sahə praqmatikadır* [6, s.191].

İnsan ünsiyyətinin sxemi texniki sxemdir: Məlumatı göndərən, yəni məlumatı kodlaşdıran, əlaqə kanalı,məlumatı alan-dekodlaşdıran.

Məlumat 1→Kod → Dekod →Məlumat 2

"*Danışanda məlumat yaranır,danışıq orqanları vasitəsi ilə kodlaşdırılır və siqnal yaranır. Siqnal havada əlaqə kanalı ilə ötürülür. Dinləyici tərəfindən qəbul olunur və dekodlaşdırılır. Beləliklə məlumat 2 yaranır. Dinləyici ilə danışanın bir birini başa düşməsi üçün vahid koddan istifadə olunmalıdır. Çünki anlaşılmayan siqnallar reaksiya yaratmır*" [3, s.38].

Buna əsasən deyə bilərik ki, ünsiyyət müəyyən modellərə malikdir. R.Kraus və S.Fussel ünsiyyətin 4 modelini təsnifləndirmişlər:

" *– Kodlaşma – dekodlaşma model-ünsiyyət prosesində kodun vasitəsilə gizlədilmiş sözün izahı başa düşülür. Gizlədilmiş kodun açılması dekodlaşma adlanır;*

– Niyyət yönümlü model – ünsiyyət prosesində kommunikatorun niyyətinin qəbul edənə ötürülə bilməsi ilə əlaqədardır;

– Qəbulun perspektiv modeli – ünsiyyətin uğurlu olub-olmaması və buna necə nail olmaqla əlaqədar;

– Dialoq modellər – ünsiyyət əməkdaşları arasında real situasiyanın necə baş verməsi ilə əlaqədar" [2, s.83]. Bu ünsiyyət modellərinin hər biri kodlaşma və dekodlaşma əsasında mümkün olur. Kodlaşmanın informasiya daşıması işarələr vasitəsi ilə gərçəkləşir.

Dünyada həqiqi və yalnış olanlar haqqında məlumatı dinləyən danışanın ifadə etdiklərinə münasibət göstərə bilir. Danışan ötürdüyü informasiyalarını dinləyənə onun qəbul edə biləcəyi formada çatdırmalıdır ki, nəticədə ünsiyyət yarana bilsin.

Ünsiyyətin sadəliyi və ya mürəkkəbliyi onun ifadə olunma tərzindən çox asılıdır. Bəzən danışan düşündüklərini deyil,başqa ifadələr işlədir. C.Syörlə görə düşünülənləri ifadə etmək mümkündür və bu "ifadəlilik prinsipi" adlanır. Lakin bütün düşünülənləri ifadə etmək müm-

kündürmü? Bu sualın cavabını ifadədə propozisiya müəyyən edir. Məntiqi yanaşma olan propozisiya ifadə olunmuşların reallığa uyğunluğunun göstəricisidir.

"*Əgər propozitiv analizdə anlamın "məntiqi əsasları"özünü doğruldursa,deməli həmin ifadənin propozisiyası həqiqətə tam uyğun olacaqdır. Anlamlar işarələrin vasitəsilə propozisiyanın daxilində mənaya çevrilir. İnsanın ilk öncə düşündükləri görünməz formada olur. Daha sonradan propozitiv işarələr bunu üzə çıxarırlar. Propozisiya olmadan,cümlə mənaya malik ola bilməz*" [1, s.63].

Cümlədə propozisiyanın həqiqətə uyğunluğunu digər propozisiyalar vasitəsi ilə müəyyən etmək mümkündür. Propozisiyanın həqiqətə uyğunluğu situasiyaya görə də anlaşıla bilər. Dinləyiciyə məlum olan situasiya qarşılıqlı anlama prosesinə xüsusilə təsir edir. Buradan belə nəticəyə gəlmək olur ki, aktların yaranması təkcə koqnitiv biliklər əsasında deyil, sosial hadisələr hesabına da yarana bilir. Bundan əlavə danışanın ifadə etdikləri dinləyən üçün nə qədər ekspressiv və emosional olması da vacibdir.

Danışıq aktında bir neçə propozisiya mövcuddursa, onlar arasındakı koherentliyə də diqqət etmək vacibdir. Əgər koherntlik pozularsa ünsiyyətdə yeni informasiyanın verilməsi də mümkün görünmür. Həmsohbətlərin bir-birinə olan münasibətini danışıq aktlarındakı propozisiya tənzimləyir, çünki informasiyanın həqiqətə uyğunluğu inanmaq fəaliyyətinin yaranmasına səbəb olur. Ünsiyyətin uğurlu olması üçün danışan nitqindəki propozisiyalara inanmalıdır. Lakin bu, həmişə belə olmur. Əgər zəlzələ vasitəsi ilə bütün şəhər alt-üst olubsa və hər hansı bir rəhbər öz çıxışında hamının dağıntılar altından sağ çıxarılmasına söz verirsə, burada artıq danışan inanmadığı propozisiyada çıxış edir, nəticədə də dinləyici ona inanmır. Bu baxımdan danışan məqsədinə nail olmaq üçün mütləq düzgün propozisiyadan istifadə etməli və bununla da dinləyicidə inam yaratmalıdır. Danışıq aktı danışanın niyyətinin məqsədə çevrilməsi və ifadəsində propozisiyaların müəyyən olunması nəticəsində yaranır. Hər bir ifadədə bir neçə propozisiyanın olduğunu qeyd etmişdik. Həmin propozisiyalardan biri əsas, digərləri isə məlumatın tam şəkildə izahına xidmət edir. Əsas propozisiya nüvə, ondan yaranan propozisiyalar isə yardımçı propozisiyalar hesab olunur. Bu propozisiyalar danışanın ifadəsində eksplisit və inplisit formada verilə bilər. Propozisiyaların quruluşu danışıq aktında taksanomiya şəkildə, yəni sadədən mürəkkəbə doğru qurulmalıdır. Bütün qeyd olunan şərtlər danışanın uğurlu kommunikasiya qurmasına xidmət edir və dinləyənin ifadəni dekodlaşdırması üçün vacib amil hesab olunur.

Biz dünyanı yaşadığımız təcrübə əsasında dərk edirik. Nəticədə koqnitiv biliyimiz formalaşır. Biliyin formalaşması yalnız bioloji deyil, həm də psixoloji, sosial əsaslıdır və tarixi bəşəriyyətin, cəmiyyətin tarixi ilə eynidir.İnsanın qazandığı baza insan fəaliyyəti əsasında nümayiş olunur. İnsanın intelektual, psixiki davranışı işarələrdən istifadə nəticəsində mümkündür. Bunu psixi işarələr kimi də qeyd etmək olar.

L.Viqotskiyə görə psixiki işarələr əvvəcə xarici fəalyyət kimi mövcud olur, insan tərəfindən dərk olunduqdan sonra daxilə keçir. Sonradan danışıq akının yaranması üçün vacib materiala çevrilir.

İnsanda psixiki işarələr dogulduğu vaxtdan formalaşmağa başlayır. O, danışa bilməsə də artıq müəyyən fəaliyyətləri sayəsində psixiki işarələrdən istifadə edərək ünsiyyət qurmağa çalışır. Məsələn, müşahidələr əsnasında uşağın ac vaxtı ağlamaq forması ilə yuxulu vəziyyətdəki ağlamaq forması bir-birindən fərqlənir. Düşüncənin formalaşması nəticəsində insan psixikasında işarələr sistemi yaranır. L.Viqotskiyə görə: "*Burada iki halı qeyd edə bilərik.*

1. İşarələr uşağa anadangəlmə verilmir.

2. İşarələr bir sistem kimi təzahür edir.

Buna görə də uşaqlarda birinci, ikinci, üçüncü və s. işarələr sadəcə olaraq meydana gəlmir.

İstənilən işarə hər dəfə şəkildəyişməyə, dəqiqləşməyə,təkmilləşməyə daxil olur" [3, s.53]. Nəticədə danışanda və dinləyəndə müəyyən söz assosasiyaları yaranır.

Assosiativ əlaqələrin zənginliyi insan düşüncəsində assosiativ sahələrdə olan paradiqmatik növlərlə bağlıdır və semiotikada öyrənilir. Hər bir insanın assosiativ sahəsinin aktuallaşması situasiya daxilində meydana çıxır. Bundan əlavə belə sahələrə yaş,coğrafi məkan, insanın fəaliyyəti də təsir göstərir. Salxım deyəndə azərbaycanlıların beynində üzüm canlanır, lakin başqa milliyyətin nümayəndəsi üçün isə bu fərqli məna ifadə edə bilər. Bütün bunlar danışan və dinləyən arasında kodlaşma,dekodlaşma, danışıq aktındakı propozisiyanın meydana çıxması üçün ən vacib amillərdən hesab olunur.

Danışıq aktlarında ifadələrin dekodlaşmasında dinləyiciyə kömək edən vasitələrdən biri də cümlənin presuppozisiyasıdır. Bu termin XX əsrin 80-ci illərində araşdırılmağa başlandı və praqmatikanın tədqiqat obyektinə çevrildi.

"*Presuppozisisya həmişə danışanın,müəllifin cümlədə verilən məlumata münasibətidir*" [8, s.271]. Presuppozisiyanın düzgün anlaşılması üçün vacib olan danışan və dinləyənin eyni dildə ünsiyyət qurması,onların nitq aktına sahib olması, situasiya və kontekstdir. Presuppozisiyanın gərçəkliyə uyğunluğunu yalnız mətn daxilində müəyyən etmək mümkündür.

Danışan və dinləyən arasında koqnitiv bilik baxımından uyğunluğun olması danışıq aktında verilmiş implisit məzmunun aşkarlanmasına böyük xidmət edir. Məhşur bir deyim var: "Məcnun kimi çöllərə düşmək". Əgər dialoq əsnasında bu misal çəkilərsə,və iştirakçılardan birinin "Leyli və Məcnun" əsərindən xəbəri yoxdursa onun üçün bu misalda verilmiş implisit məzmunun aşkarlanması böyük çətinlik yaradacaq.

Danışanla dinləyən arasında kodlaşma və dekodlaşmaya mane olan məsələlərdən biri də danışıq aktında işlədilən ironiyalı ifadələrdir. Danışıq aktlarında ironiyalı ifadərin işləməsi implisit tərzdə deyilmiş ifadələrdir. İroniyalı ifadələr dinləyəni daha çox düşünməyə vadar edir ki, onu da L.Vitgenştayn "dil oyunları" kimi adlandırmışdır. İroniyalı ifadələr vasitəsi ilə danışan "deyilməyən deyilmişlər"i dinləyənə çatdırmaq istəyir. Bunu H.Grays implikatur adlandırmışdır.

Həyatımızın əsasını təşkil edən ünsiyyətdə kommunikativ uğurun alınması danışıq aktlarında dinləyən və danışan arasında olan münasibətlərin düzgün şəkildə qurulmasından asılı vəziyyətdədir. Kommunikativ məqsədləri həyata keçməsə kommunikativ uğursuzluq halları ortaya çıxır. Kommunikativ uğurun əldə olunması şərtləri haqqında müəyyən məlumatlar yuxarıda qeyd edildi.

Biz gündəlik həyatımızda uğursuz kommunikaiyaların şahidi oluruq və bu da cəmiyyətdə müəyyən problemlərin yaranmasına gətirib çıxarır. Çünki hər bir danışıq aktında danışan öz niyyətini həyata keçirmək üçün ünsiyyət qurur. Dinləyən onun niyyətini düzgün dekodlaşdıra bilmirsə danışan məqsədinə çatmış hesab olunmur.

Dilçilikdə praqmatik yanaşmalarla bağlı tədqiqatlar nəticəsində nitqdə işlənən müəyyən dil vahidlərinin təsirlilik gücü, fikrin tam aydın olması üçün söz seçımı,intonasiyanın rolu və digər məsələr öz həllini tapmışdır.

Kodlaşma və dekodlaşma prosesinin gedişatında eksplisit və inplisit informasiyanın ötürülməsi ilə məqsədə nail olmaq mümkündür. Bu birbaşa danışanın niyyətindən asılıdır. Danışan qarşı tərəfə informasiyanı implisit və ya eksplisit formada çatdırmaq istəməsi kentekst, situasiya daxilində qərar verir, burada həm də dinləyənin informasiyanı hansı formada qəbul edə biləcəyinə diqqət yetirir. Danışan dinləyənə müəyyən informasiyanı ötürməzdən əvvəl onun xüsusiyyətlərini dəyərləndirir, daha sonra danışıq aktı baş tutur.

Ədəbiyyat

1. Hacıyeva M.Ə.Sadə cümlələrdə propozitiv və presuppozitiv əlaqələrin praqmatikası. Bakı, 2021
2. Hacıyeva M.Ə.İşarələr sistemi və Ünsiyyət. Bakı, 2021
3. Hüseynov Ş.Şiriyev F.Muradov C.Psixolinqivistika. Bakı, 2004
4. Rəcəbli Ə.Ə.Koqnitiv dilçilik. Bakı, 2021
5. Veysəlli F.Y. Struktur dilçiliyin əsasları III. Bakı, 2009

6. Veysəlli F.Y. Semiotika. Bakı, 2010
7. Veysəlli F.Y. Seçilmiş əsərləri. Bakı, 2021
8. Veysəlli F.Y. Dil. Bakı, 2007
9. C.Morris. Fundamentals of Sign Theeorie, Frankfurt am Main,1988
10. https://az.wikipedia.org/wiki/Praqmatizm

A.A.Гулиева

Принципы кодирования и декодирования речевых актов с семиотической точки зрения

Резюме

В процессе кодирования и декодирования возможно достижение цели путем передачи явной и неявной информации. Это напрямую зависит от замысла говорящего. То, хочет ли говорящий передать информацию другой стороне в неявной или явной форме, определяется контекстом, ситуацией и тем, в какой форме слушатель может получить информацию. обращает внимание. Прежде чем передать слушателю ту или иную информацию, говорящий оценивает ее особенности, после чего происходит акт говорения.

A.A.Quliyeva

Principles of coding and decoding of speech acts from the semiotic point of view

Summary

In the process of encoding and decoding, it is possible to achieve the goal by transmitting explicit and implicit information. This directly depends on the intention of the speaker. Whether the speaker wants to convey information to the other party in an implicit or explicit form is determined by the context, the situation, and in which form the listener can receive the information. pays attention. Before passing certain information to the listener, the speaker evaluates its features, then the act of speaking takes place.

Rəyçi: filol.ü.f.d. M.Ə.Hacıyeva

Redaksiyaya daxil olub: 25.04.2023

S.QULİYEVA
e-mail: seadet.quliyeva.00@mali.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

ALMAN DİLİNDƏ MƏCHUL NÖVÜN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *feil, məchul növ, ikiüzvlü passiv, hərəkət passivi, vəziyyət passivi*
Ключевые слова: *глагол, пассивный залог, двусоставный пассивный, пассивный действия, пассивный состояния*
Key words: *verb, passive voice, two-part passive, passive action, passive state*

V.Admoninin fikrincə alman dili cümlələrində feilin mübtədaya və tamamlığa münasibəti ikili ola bilər [1, s.177]. Belə ki, bu cümlələrdə feil mübtəda tərəfindən yerinə yetirilir və tamamlığa yönələn hərəkəti ifadə edir. Məsələn, Die Studenten bilden Sätze.Jch erwarte meinen Freund. Bu cümlələrdə istifadə olunan feil forması aktiv forma adlanır. Deməli tamamlığı olmayan feillər, yəni təsirsiz feillər də bu formada işlənir [1, s.117]. Məsələn, Das Kind läuft. Sie antworten.Buradan başa düşülür ki, feil həm də mübtəda tərəfindən icra edilməyən, əksinə ona yönələn hərəkətləri də ifadə edir. Məsələn, Die Gebåude werden gebaut, die Freundin wurde erwartet. Burdan başa düşülür ki, werden köməkçi feil və əsas feili sifət 2-nin köməkliyi ilə düzələn bu forma isə məchul forma adlanır [1, s.117].

Alman dilində passivi iki qrupa ayırırlar:

1. Hərəkət passivi
2. Vəziyyət passivi

Hərəkət passivi ‘werden’ passivinə, vəziyyət passivi isə ‘sein’ passivinə (V.Admoni, E.Hentşel, Q.Helbiq, O.Moskalskaya, H.Veydt və s.) Məsələn, Die Zeitung wurde herausgegeben.

Die Zeitung ist herausgegeben.

Bir çox alimlər, məsələn, E.Hentşel və H.Veydtin fikrincə hərəkət passivi vasitəsilə xəbərdə yaranan hadisə hərəkət kimi qeyd olunur. Buna görə alman dilində hərəkət passivinə qarşı vəziyyət passivi qarşı-qarşıya qoyulur. Çünki vəziyyət passivi feildə əmələ gələn hadisəni vəziyyət şəklində müəyyən edir [4, s.120].

Bu baxımdan görkəmli alimlər Q.Helbiq və Duden qrammatikasında hərəkət passivinin üç formasını fərqləndirir [3, s.44; 2, s.172].

1.Təsirli feillərin hərəkət passivi. Bu o deməkdir ki, aktiv cümlədəki təsirlik halı tələb edən objekti passiv cümlənin adlıq halındakı subjektinə çevrilir.

Aktiv forma	Passiv forma
Lena räumt ihr Zimmer auf.	Das Zimmer wird (von Lena) aufgeräumt.

2. Nisbi təsirsiz feillərin hərəkət passivi.

Bu tərkibində cümlədə passiv mübtədasız iştirak edir, lakin, yiyəlik halda olan və söz önü ilə işlənən obyekt olduğu kimi qalır, bu o deməkdir ki, passiv bu zaman cümlədə mübtədaya çevrilmir.

Məsələn;

Aktiv forma	**Passiv forma**
Sie helfen dem Vater.	Dem Vater wird (von Jhnen) geholfen. Es wird dem Vater (von Jhnen) geholfen.
Die Regierung gedenkt die Menschen.	Die Menschen wird (von der Regierung) gedacht. Es wird die Menschen (von der Regierung) gedacht.
Wir graben nach steinkohle.	Nach steinkohle wird (von uns) gegraben. Es wird (von uns) nach steinkohle gegraben.

Bu üç tipin işlənmə variantına toxunarkən Duden qrammatikasında qeyd edilir ki, birinci tipə 97%, ikinci tipə 2%, üçüncü tipə isə 1% düşür [2, s.171].

Alman dilində hərəkət passivini ifadə etmək üçün digər konstruksiyalardan da istifadə olunur. Bu zaman hərəkət passivi bu konstruksiyalar ilə rəqabət təşkil edir. Bu konstruksiyaları Duden qrammatikası aşağıdakı formada qruplaşdırır [2, s.179]

1. Erhalten, kriegen, bekommen + Part II (feili sifət 2). Məsələn: Mein Freund erhält, kriegt, bekommt (von Peter) das Foto geschenkt. Jhm wird das Foto (von Peter) geschenkt.

Bu üç feil + feili sifət 2-li cümlədəki mübtəda passivə çevrilərkən yönlük halda işlənən obyektin vəzifəsini öz üzərinə götürür, buna görə də Duden qrammatikasında bu 'Adressantenpassiv' kimi qeydə alınıb [2, s.179]. Bundan başqa Duden qrammatikasında passivin işlənmə xüsusiyyətləri, şəxslər üzrə yönlük hal ilə, əşyalar üçün isə yönlük halını tələb edən feillər qruplaşdırılır. (Jemandem etwas helfen, schicken, bieten və s.)

Daha sonralar Duden qrammatikasında qeyd edilir ki, bekommen, erhalten konstruksiyaları feillər hərəkət passivinin bir variantı kimi nəzərdən keçirilməlidir. Danışıq dilində bu konstruksiyaya rast gəlmək olur, zaman keçdikcə yavaş-yavaş yazılı dili də daxil olur.

2. Gehören + Part II (feili – sifət 2). Məsələn, Eine solche Beschwerde gehört erhebt. (Eine solche Beschwerde muß erhebt werden. Man muß eine solche Beschwerde erheben).

3. Sic lassen + İnfinitiv (məsdər). Məsələn, Das Fenster lösst sich schließen. (Das Fenster kann geschlossen werden). Bu nümunədən görürük ki, bu tip forma mübtəda ilə modallıq tələb edir.

4. Sein (stehen, kommen, bleiben, geben, gehen və s.) + zu + infinitiv (məsdər). Məsələn, Das Fenster ist (von Vera) zu schließen. (Das Fenster kann / soll / muß (von Vera) geschlossen werden).

Bu forma modal feillərlə ifadə olunan passivə uyğundur.

5. Şəxsiz mübtədası olan qayıdış konstruksiyası. Məsələn, Das Fenster schließt sich. (Das Fenster wird geschlossen).

Duden qrammatikasından bilirik ki, hərəkət passivi istər danışan, istərsə də yazan şəxsə bir çox cümlələri dəyişdirilmiş formada istifadə etməyə imkan yaradır. Bir çox elmi və idarəetmə dilində, qanunlarda, izahatlarda, elmi əsərlərdə, hətta göstərişlərdə hərəkət passivindən istifadə edirlər, çünki bu işlərdə icra edən şəxs bu formanı naməlum saxlayır [2, s.174].

Alman dilində passivin üç forması müəyyənləşdirilir:

1. İkiüzvlü passiv

2. Üçüzvlü passiv (O.Moskalskaya, Q.Starke, E.Şendrls və s.)

O.Moskalskayanın fikrində ikiüzvlü passiv cümlələrində subyektivin naməlum olması passivi aktivdən fərqləndirən başlıca əlamətdir [5, s.128]. Məhz buna görə də görkəmli alimlər Haydolpf, Fleming və Motş bu qənaətə gəlirlər ki, təsirli feillərin passiv variantları subyekt olmadan tez-tez əhəmiyyətli dərəcədə çıxış edirlər, çünki iş icrasının olmaması ikiüzvlü passiv formalarının əsas kommunikativ funksiyası kimi başa düşülür. Bu fikrə istinad edərək başqa bir alim Brinkel qeyd edir ki, ikiüzvlü passiv subyektin ya ümumiyyətlə olmaması, ya da ki, konkret verilməməsi zamanı işlədilə bilər. Başqa bir alim, məsələn, Erben isə qeyd edir ki, ikiüzvlü passivin ifadə formaları aktiv cümlələrdə adı çəkilməli olan hərəkətin iş icrasının, yəni subyektin adlandırılmaması və ya xatırlamamaq imkanı yaradır [5, s.128]. O.Moskalskaya, E.Şendels, Q.Starke kimi alimlər ikiüzvlü passiv konstruksiyalarında subyektiv naməlum olmasını müxtəlif səbəblərlə izah edirlər.

Moskalskaya görə:

1. Subyekt artıq əvvəldə verilibsə, təkrar verilməsi lazımsızdır.

2. Subyekt ya ümumi şəkildə məlumdur, ya da naməlumdur, ancaq konkret şəkildə verilmir.

Şendels də bu məsələyə belə toxunaraq yazır ki, ikiüzvlü passiv üçüzvlü passivə nisbətən tez-tez istifadə olunur, çünki bu subyektin naməlum qalmasına şərait yaradır [6, s.65].

E.Şendels bu passiv konstruksiyalarının işlənmə formalarını belə qruplaşdırır [6, s.65]:

1. Subyekt məlum deyil, konkret adlandıra bilməz. Məsələn:

Dieses Hotel wurde im 20 Jh gebaut.

Es wurde plötzlich gestoßen.

2. Hər hansı bir səbəbdən ya iş icraçısı adlandırılmır, ya da adının çəkilməsinə icazə verilmir. Məsələn:

Er ist heute angerufen worden.

3. İş icraçısının işlənməsi o qədər də vacib deyil. Məsələn:

Die Zeitungen werden früh am Morgen ausgetragen.

4. İş icraçısı ümumi əhəmiyyət kəsb edir. Məsələn:

Das Lesen, das sie nicht verstand und in dem sie nicht verstanden wurde.

5. İş icraçısı ümumiyyətlə yoxdur. Məsələn:

Zwei Züge wurden bei der katastrophe beschädigt und viele Menschen verletzt.

6. Subyekt bir məna olaraq ya mətndən ya da situasiyadan başa düşülür. Məsələn:

Augen und Zähne werden geprüft (vom Arzt)

Sein Diktat wurde mit ‘genügend’ bewertet (vom Lektor)

Üç, dörd və altıncı bəndlərdə E.Şendels qeyd edir ki, burada göstərilmiş ikiüzvlü passivin işlənməsi əsasən elmi və gündəlik danışıq üslubuna aiddir.

Məhz buna görə də E.Şendels ikiüzvlü passiv konstruksiyasının işlənmə xüsusiyyətlərinə toxunur və qeyd edir ki, alman dilində bu konstruksiya iki funksiyanı yerinə yetirir:

1. Subyektin söylənilən fikirlərdən uzaq durması;

2. Hərəkətin istiqamət aldığı cümlə mübtədasının obyekt kimi təsviri [6, s.66].

E.Şendelsə görə üçüzvlü passiv konstruksiyasında nəinki iş icraçısı adlandırılır, hətta onun aktiv olma xüsusiyyəti iki sözönü vasitəsilə von+ s Dat və durch+ s Akk – kimi ifadə olunur. Dilçi qeyd edir ki, von sözönü ilə işlənən cümlədə iş icraçısı aktiv rol oynayır. Durch sözönü ilə işlənəndə aktivliyin dərəcəsi azalır. Bu zaman iş icraçısı şəxdirsə, oni vasitəçiyə, yox əgər əşya və yaxud mücərrəd bir isimdirsə, onu vasitəyə çevirir. E.Şendelsin bu deyilmiş fikri hətta bu birləşmələrin yerdəyişməsində olan mümkünlükdən danışır [6, s.68]. Məsələn;

Der Schauspieler wurde vom Zuschauer geklatscht. – Der Zuschauer wurde durch den Beifall geklatscht.

Dilçi alimlər K.Zomerfeldt və Q.Ştarke alman dilində üçüzvlü passiv konstruksiyaları zamanı nəinki von və durch sözönləri, hətta mübtədanı ifadə etmək üçün semantik və üslubi cəhətləri ifadə edən sözlərin də işlənməsini nəzərə çatdırırlar. Məhz buraya onlar unter, seitens və zwischen kimi sözönlərini də daxil edirlər. Bu alimlərin fikrincə, zwischen və unter sözönlərindən sonra mübtəda cəmdə işlənir [7, s.83]. Məsələn:

Auch zwischen Menschen werden informationen bestädigt.

Dieser Streit wird unter Arbeiter geführt.

Bəzən alimlər, məsələn, E.Şendels, V.Admoni və başqaları vəziyyət passivini ştativ adı altında verirlər. Şendelsə görə ştativ digər iki formaya (yəni məlum növ və hərəkət passivi) qarşı qoyulur və qeyd edir ki, o hər hansı bir hərəkətin istiqamətini deyil, əksinə onun nəticəsini ifadə edir. Məsələn,

Sie hat sich gewaschen.

Nun ist sie gewaschen.

Sie wurde gewaschen.

Bundan başqa Duden qrammatikası vəziyyət passivinin 2 növünü fərqləndirir [2, s.180].

1. Birinci növ onunla müəyyən olunur ki, o hərəkət passivinin perfekt zaman passivinə gətirib çıxara bilər. Məsələn:

Die Fenster sind geöffnet/geschlossen. (Die Fenster sind geöffnet/geschlossen worden).

Biz bilirik ki, hərəkət passivini vəziyyət passivinə çevirən zaman, worden formal cəhətdən düşür. Məzmuna baxdıqda iş bir hərəkət, proses kimi deyil, məhz hərəkətin, prosesin nəti-

cəsi olaraq vəziyyət kimi təsvir edilir. Duden qrammatikasında ümumiyyətlə vəziyyət passivinin birinci növündə iş icraçısının adı çəkilmir. Məsələn:

Die Fenster sind geöffnet. (Nicht: Die Fenster sind von meinem Vater geöffnet.)

Duden qrammatikasında göstərilir ki, iş icraçısının adı çəkilən zaman canlılar üçün von, əşyalar üçün isə durch işlənir. Deməli, von sözönü şəxsi, durch, mit isə hərəkətin səbəbini bildirir.

Das Fenster wurde von einem alten Mann geöffnet.

Pəncərə yaşlı adam tərəfindən açıldı.

Das Fenster wurde durch einen Luftzug geöffnet.

Pəncərə küləkdən açıldı.

Bu misallarda mübtəda, tamamlıq, xəbər modeli var, bunu ikiüzvlü passiv adlandırırlar. Bu cümlələri tamamlıqsız işlətdikdə ikiüzvlü passiv, mübtəda və tamamlıqsız işlətdikdə isə birüzvlü passiv olur.

Yekun olaraq yazılanları nəzərə alıb belə bir qənaətə gəlirik ki, məchul növün çox geniş tətbiq etmə imkanları var. Məhz bu imkanlar yalnız konkret formanın işlənməsi üçün yox, həmçinin dilin tabeliyində olan digər ifadə vasitələrilə həyata keçirilir.

Ədəbiyyat

1. Helbig G. Deutsche grammatik grundfragen und Abriß, 4. Auflage, München, 1999, 157 seiten.
2. E.Schendels. Deutsche Grammatik. Moskan, 1982, 397 seiten.
3. Der Grosse Duden Grammatik der deutschen Gegenwartssprache. Leningrad, 1962, 750 seiten.
4. F.Əliyeva: Deutsch Baku, 2012, 120 seiten.
5. Admoni W. Der deutsche sprachbau. Leningrad, 1972, 289 seiten.
6. O.Moskalskaya: Grammatik der deutschen Gegenwartssprache. Moskau, 1983, 353 seiten.
7. Die Grammatik: 5. völlig neu bearbeitete und erweiterte Auflage. Mannheim, 1995, 400 seiten.
8. Sommerfeldt K. Starke G. Einführung in die Grammatik der deutschen Sprache. Tüzingen, 1998, 48 seiten.

С.Гулиева

Особенности использования страдательного залога в немецком языке

Резюме

Статья основана на различных мнениях немецких ученых об особенностях использования страдательного залога в немецком языке. Анализируя эти мнения, можно сделать вывод, что страдательный залог имеет более широкие

возможности применения в немецком языке. Эти возможности не ограничиваются развитием конкретной формы. В то же время он реализует эти возможности другими средствами выражения, подчиненными языку.

S.Guliyeva

Features of the use of the passive voice in German

Summary

The article deals with the features of the use of the passive voice in German based on various opinions of German scientists. Analyzing these opinions, it can be concluded that the passive voice in German has wider application possibilities. These possibilities are not only due to the correction of a specific form. It also fulfills these possibilities with other means of expression subordinate to the language.

Rəyçi: filol.ü.f.d., dos. Naibə Elxan Camalzadə

Redaksiyaya daxil olub: 03.04.2023

R.A.SALAHOVA

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 33)

AZƏRBAYCAN VƏ RUS DİL MƏNZƏRƏSİNDƏ "MÜHARİBƏ" KONSEPTİ

Açar sözlər: *Azərbaycan dili, rus dili, konsept, konseptsfera, müharibə, qələbə, düşmən*
Ключевые слова: *азербайджанский язык, русский язык, концепт, концептосфера, война, победа, враг*
Key words: *Azerbaijani language, Russian language, concept, concept sphere, war, fortress, enemy*

"Konsept" linqvokulturoloji spesifikliyi ilə seçilən və müəyyən etnik mədəniyyətin daşıyıcılarını səciyyələndirən semantik formasiyadır, eyni zamanda, bu formalaşma fərdin və cəmiyyətin idrak (idrak) fəaliyyətinin nəticəsidir və ictimai şüurun verilmiş hadisəyə və ya obyektə münasibətini müəyyən edir. Tərkibində gizli məna daşıyan sözlərdən istifadə edən insan, fərqinə varmadan, onlarda olan dünyaya baxışını qəbul edir. Əksinə, söz və ifadələrin mənasına birbaşa ifadə formasında daxil olan semantik komponentlər müxtəlif ana dili daşıyıcıları arasında mübahisə predmeti ola bilər və buna görə də dilçiliyi təşkil edən ümumi fikir fonduna daxil edilmir. Dünyanın linqvistik mənzərəsi, mənimsənilmiş biliklərlə tamamlanan, xalqın dünyagörüşünü və dünyagörüşünü əks etdirən, linqvistik formalarda sabitləşmiş, bu xalqın mühafizəkar milli mədəniyyəti ilə məhdudlaşan dünyanın qədim və qorunub saxlanılan milli mənzərəsidir [4, s.9]. Bir çox tədqiqatçılar hesab edirlər ki, dünyanın konseptual mənzərəsi dünyanın linqvistik mənzərəsindən qat-qat zəngindir: "Dünyanın mənzərəsi – insanın dünyanı öz təxəyyülündə necə çəkməsi – daha mürəkkəb hadisədir və dünyanın linqvistik mənzərəsindən, yəni insanın konseptual dünyasının dillə "bağlanmış" və linqvistik formalar vasitəsilə qırılan hissəsidir" [3, s.6].

Araşdırmamızın mövzusu "müharibə" anlayışıdır. Tədqiqat aşağıdakı fərziyyəyə əsaslanır: "müharibə" anlayışı rus və azərbaycanlı dünyagörüşündə qismən üst-üstə düşən müəyyən xüsusiyyətlərini müəyyən edilə biləcəyi mürəkkəb bir psixi formasiyadır. "Müharibə" anlayışı müxtəlif tipli linqvistik vahidlərdə əks olunan, milli xüsusiyyətlərlə xarakterizə olunan, mədəni anlayışdır, yəni obrazlı, konseptual və dəyərli xüsusiyyətlərə malik elementdir. Tədqiqatımızın məqsədi Azərbaycan və rus dillərinin materialı üzərində "müharibə" anlayışını təsvir edən leksik, frazeoloji, paremioloji vasitələri və onların əsasında yaradılmış metaforik modelləri müəyyən etmək və müqayisə etməkdir. Təhlil etdiyimiz anlayış çoxmənalı sözdür. İzahlı lüğətlərdə "müharibə" sözünə müxtəlif tərifl ər verilir və təkcə mənaların sayı deyil, həm də onların bölünməsi dəyişir. Müxtəlif lüğətlərdə tədqiq etdiyimiz məfhumun müxtəlif şərhləri verilir, bəzi lüğət girişlərində müharibə bir neçə sözlə təsvir edilir, digərlərində ətraflı tərif verilir. Nəticədə, müharibənin iki və ya daha çox tərəf arasında silahlı münaqişə olduğunu anlayırıq. Təhlil zamanı "Müharibə" anlayışının adının iki leksiko-semantik variantı (LSV) müəyyən edilmişdir. LSV-1-ə görə, müharibə "ölkə daxilində ölkələr və ya tərəflər arasında silahlı münaqişə" kimi müəyyən edilə bilər. Beləliklə, əldə etdiyimiz LSV tərifinə əsasən, müharibə "millətlər arasında və ya bir millətin daxilindəki tərəflər arasında olduğu kimi, silah gücü ilə aparılan münaqişədir" tərifinə əsasın 5 semanı müəyyən etmək olar: münaqişə, güc, silah, millət, partiyalar. Daha sonra lüğət əsasında anlayışın leksik-semantik sahəsinə daxil olan sinonimləri bu tərifl ə müəyyənləşdiririk: döyüş, qan tökülməsi, savaş, münaqişə, yarışma, vuruşma, düşmənçilik, çəkişmə, zərbə, mübarizə, döyüş.

"Müharibə" konseptinin anlayış karkası və ya freymi bunlardır: münaqişə tərəfləri, onun yaranma yeri, münaqişənin səbəb və məqsədləri, həlli üsulları, bir də onun, əsas etibarilə destruktiv olan nəticələri. Biz eyni zamanda "müharibə" konsept dairəsi strukturunda "müna-

qişə” / “konflikt”, “döyüş”, “mübarizə” subkonseptlərinin olmasından danışa bilərik ki, bunlar da öz növbəsində “müharibə” hiperkonseptinin tematik sahəsini formalaşdırır. Amma hiperkonseptin bu kimi götürülməsi daha çox hərbi diskursun formal hissəsi üçün səciyyəvidir. Mərkəzi “münaqişə” fraqmentinə daxil olan konseptlərin aidliyi aşağıdakı kimidir: “konflikt” konsepti ən ümumi məna daşıyır və kompromisə gələ bilməyən iki və ya üç tərəfin olmasını nəzərdə tutur. “Konflikt” konseptinin semantik tərkib hissəsi hərəkətin uzunmüddətliliyi və problemin həllinin tez tapılmasının qeyri-mümkünlüyüdür:

Beləliklə, “konflikt” konseptinin əsas strukturyaratma əlamətləri fikir və ya tərəflər arasında müxaliflik, toqquşmanın silahlı olmaması və uzunmüddətliliyidir. “Münaqişə” fraqmentini əmələ gətirən növbəti subkonsept – “konfrontasiya” subkonseptidir. İzahlı lüğətlərdə verilmiş definisiyalar, birinci növbədə, konseptin iştirakçısı qismində cəmisi iki tərəfin olduğunu və onların məlumatın kontekstində mütləq xatırlandığını göstərilir. “Konfrantasiya” subkonseptinin azərbaycandilli mədəniyyətdə xeyli geniş semantikası var – bu həm iki partiya arasında mübahisə, iki ölkə arasında qarşıdurma və hətta iştirakçılar arasında yarış ola bilər. “Soyuq müharibə” konsepti “konfrontasiya” konseptinə yaxındır. “Silahlı hərəkətlər” fraqmentinə bu subkonseptlər daxildir: “qarşıdurma”, “döyüş”, “əziyyət”, “vuruş”, “toqquşma”. Bizim fikrimizcə, “qarşıdurma” subkonsepti evfemistik məqsədlə işlədilir. O, “müharibə” konseptinin sinonimi olduğundan, KİV məlumatlarında daha çox işlədilir. Bu subkonseptə həm “münaqişə” seması, həm də “silah” seması daxildir. Subkonseptin semantik sahəsinə həmçinin baş verənlərin müddətliliyi komponenti də daxildir: “döyüş”, “vuruş”, “münaqişə”, “müharibə” subkonseptləri arasında semantikada oxşarlıq müşahidə edilir. Onların hamısında ümumi “döyüş/vuruş” məna çaları var və onlar özünün birbaşa mənasında hərbi diskursun formal hissəsində istifadə edilirlər. “Müharibə” konseptosferasının “hərbi əməliyyatların iştirakçıları” fraqmentində “ordu”, “düşmən”, “müttəfiq” subkonseptləri nəzərdən keçirilir. “Ordu” subkonseptinin obrazlı xarakteristikaları bu sözün digər leksik vahidlərlə uzlaşmasının təhlili yolu ilə müəyyənləşdirilir. İsim kimi “*geri çəkmək, çıxarmaq, çağırmaq, cəmləşdirmək, yerləşdirmək*” feillərilə uzlaşır ki, bu da öz növbəsində nəisə idarə olunan birlik obrazının yaranmasına rəvac verir. Bu obraz sözün etimoloji təhlili ilə də təsdiqlənir. Yəni biz etimoloji təhlildən çıxış edərək yalnız birlik, birgəlik semasını deyil, həm də komanda, birləşmiş qrup mənalarını da vurğulaya bilərik. Sonrakı iki subkonsept “düşmən” və “müttəfiq” “özünün – özgənin” əksliyini təşkil edir. İki konseptin obrazlı xarakteristikası daha çox hərbi əməliyyatların dövründən asılıdır. Məsələn, Birinci dünya müharibəsi dövründə “müttəfiq” subkonsepti antialmaniya bloku ölkələrinin, Antanta üzrə müttəfiqlərin obrazı ilə bağlı idi. İkinci dünya müharibəsi dövründə Müttəfiqlər – antihitler koalisiyası ölkələri idi. “Düşmən” konsepti, öz növbəsində, həm konkret milli mənsubiyyətə (iki dövlət arasında müharibə şəraitində), həm də “özgə” – ümumi anlayış xarakteristikasına malikdir və bu sonuncu bölmələrin qarşısında qoyulan ümumi məqsəd və vəzifələrin təsvirində, hərbi texnika və silahların və s. təlimatlarında bariz görünür. “Düşmən” subkonseptinin milli mənsubiyyətinin təzahür etməsi həm də hərbi diskursun qeyri-formal hissəsi çərçivəsində onun üçün səciyyəvidir. Hazırkı dövrün hərbi yumorunun, o cümlədən İran timsalında görürük ki, düşmənin statusunun aşağı salınması qorxaq düşmən obrazının yaradılması (“düşmən” konseptinə “qorxaqlıq” semasının əlavə edilməsi) vasitəsilə həyata keçirilir. Beləliklə, subkonsept qeyri-formal hərbi diskurs çərçivəsində düşmənin lağa qoyulması hesabına öz obraz komponentini genişləndirir. Bundan başqa, “müharibə” konseptosferasının daha iki fraqmentinin mövcud olmasını qeyd etmək lazımdır – bu, özündə “qələbə-məğlubiyyət” subkonseptlərinin əsas müxalifliyini birləşdirən “silah” və “hərbi əməliyyatların nəticəsi”dir.

Deməli, əgər “müharibə” anlayışını ölkələr arasında münaqişə kimi qəbul etsək, o zaman doğma dildə danışanlar bunu döyüşlə əlaqələndirirlər. Azərbaycanlıların şüurunda müharibə ən birbaşa mənada toqquşma, mübarizə, hərbi hərəkət deməkdir. Mübahisə, fikir ayrılığı kimi anlayışlar az yayılmışdır. Hər bir azərbaycanlı üçün müharibə – qan tökülməsi, müqavi-

mət, dağıntı, əzab-əziyyət, doğma torpağın itirilməsi, müdafiəsi və geri qaytarılmasıdır. Yaxın periferiyada döyüş, toqquşma, hərbi əməliyyatlar kimi müxtəlif döyüş növlərini görürük. Onların köməyi ilə müharibə növləri, eləcə də insan şüurunda müharibənin ayrılmaz olduğu ən mühüm anlayışlar fərqləndirilir. Uzaq periferiyada biz məcazi məna daşıya bilən və "müharibə" sözünün ölkələr arasında münaqişə kimi tərifinə təsir etməyən sözlər görürük. Aydındır ki, əsasən mənfi qiymətləndirmə insanların şüurunda müharibə ilə əlaqələndirilir. Leksikografik məlumatların təhlili bizə "müharibə" anlayışının nə qədər çoxşaxəli olduğunu, o cümlədən azərbaycanlıların həyatında böyük rol oynayan bir çox müxtəlif mənaları ehtiva etdiyi qənaətinə gəlməyə imkan verdi. Kontekstdən "Müharibə" assosiativ semantik sahəsinə aid söz və ifadələri müəyyən etdik. Sonra izahlı lüğətlərin məlumatlarına əsaslanaraq LSV-yə uyğun olaraq onları iki qrupa ayırdıq. Biz leksikoqrafik mənbələrin materialına əsaslanaraq seçdiyimiz iki LSV üçün seməlәri müəyyən etdik. Bu leksik vahidin əhəmiyyətini qiymətləndirmək üçün ilk növbədə "ölüm" leksemini müəyyənləşdirmək lazımdır. Əksər lüğətlərdə və ensiklopediyalarda ölüm orqanizmin həyatının dönməz, qaçılmaz və təbii olaraq dayandırılması və nəticədə fərdin ölümü kimi başa düşülür. Yaxın periferiyada müharibənin amansızlığını göstərən leksik vahidləri görürük, bunu qan, iztirab, mübarizə kimi leksik vahidlər ifadə edir.

Beləliklə, belə nəticəyə gəlmək olar ki, azərbaycanlılar müharibəni qəhrəmanlıqla və şəhidliklə əlaqələndirirlər. Azərbaycanlılar üçün müharibə, ilk növbədə, onun nəticələridir – şəhidlik, eləcə də qələbə ilə nəticələnən hadisələr. Anlayışların öyrənilməsinin əsas metodu konseptual təhlil hesab olunur ki, onun məqsədi anlayışın mənasını bilmək yolunu izləmək və nəticəni formallaşdırılmış semantik dildə yazmaqdır. Konseptual təhlil dedikdə, konsepsiyanı öyrənmək və onun məzmununu təmsil etmək üçün zəruri olan texnika və metodlar toplusunu nəzərdə tuturuq. Konseptual təhlilin köməyi ilə "müharibə" anlayışının sinonimləri müəyyən edilmiş və leksik-semantik sahələr qurulmuşdur. "Müharibə" – anlayışı hər bir xalq üçün xüsusi məna kəsb edir, çünki bəşəriyyətin tarixi, bildiyiniz kimi, müharibələr tarixidir. O, Azərbaycan dili mənzərəsində mühüm yer tutur və bu konsepsiyanın dildə və nitqdə həyata keçirilməsinin öyrənilməsi xalqın və fərdlərin mentalitetini daha yaxşı anlamağa kömək edir.

Rus dilində müharibə anlayışının mədəni və semantik komponentləri Azərbaycan dili ilə müqayisədə fərqlidir. Rus mədəniyyətinin konseptual sferasında "müharibə" konsepti qədim slavyanların müharibənin dəhşətləri, silahlı mübarizədə insanların qəddarlığı, ölümləri ilə bağlı xüsusiyyətlərinə görə mifoloji əsasa malikdir. Slavların mifləri müharibələr, qəbilələr arası döyüşlər haqqında hekayələrlə doludur, lakin qədim əfsanələrdə slavyanların müharibə tanrılarının adlarına rast gəlinmir. Döyüşlərdə iştirak edən tanrılar (Perun, Svarog, Stribog, Ruevit və s.) Yer kürəsini şərdən necə qorumağı bilirlər, silaha sahibdirlər, lakin müharibələri sevmirlər, çünki müharibə insanların törətdikləri dəhşətlərdir.

Rus dilində "müharibə" sözünə ilk dəfə XI əsrin yazılı abidələrində "iki və ya daha çox xalqın və ya dövlətin silahlı mübarizəsi" mənasında rast gəlinir. Artıq tarixi ilkin dövrlərində bu söz qeyri-müəyyənlik qazanmağa başlayır [5, s.285-286].

Müasir rus dilində "müharibə" sözü polisemantikdir; D.N.Uşakovun izahlı lüğətlərində müharibə belə izah olunur: 1) 'dövlətlər və ya sosial siniflər arasında təşkil edilmiş silahlı mübarizə; dövlət daxilində mübarizə" [6, s.20]; 2) "düşmənçilik vəziyyəti; kiminləsə, bir şeylə mübarizə aparmaq; kiminləsə, bir şeylə düşmənçilik münasibəti" [6]; 3) 'kimsəni, nəyisə məhv etməyə yönəlmiş hərəkətlər' [Yəni orada]; 4) "hər iki tərəfin iqtisadi və ideoloji təsir vasitələrindən istifadə etdiyi dövlətlər arasında münaqişə münasibətləri" (Yəni orada); 5) "barışmaz müxalifət; ixtilaf; rəqabət" [6]; 6) "dalaşmaq, çəkişmək" (Yəni orada).

Mərkəzi semantik komponentlər "mübarizə", "silahlı münaqişə" (yəni düşməni fiziki məhv etmək üçün nəzərdə tutulmuş silahlarla) və "dövlətlər / xalqlar" "müharibə" adının akademik lüğət şərhində sabitlənmişdir: "Müharibə dövlətlər, xalqlar, tayfalar və s. arasında silahlı mübarizədir" [2, s.427]. Rus dilində "müharibə" sözü sintaqmatik (xalq müharibəsi, qanlı müharibə, müharibə başladı, müharibə bitdi və s.) paradiqmatik münasibətlərə daxil olur,

müxtəlif sinonimlər yaradır: mübarizə, döyüş, hərbi əməliyyatlar, güləş, sui-istifadə, ordu; toqquşma; yürüş, yürüş, işğal, blokada, mühasirə, müdafiə, bombardman, qan tökmə, vətəndaş qarşıdurması, partizanlıq, puqaçovizm, dövlətlər arasında dostluq münasibətlərinə xitam vermək; döyüş, hərbi əmək, döyüş, düşmənçilik, çəkişmə.

Dünyanın rus dilindəki mənzərəsində "müharibə" anlayışı "mədəni bir anlayışdır, obrazlı, konseptual və dəyər xüsusiyyətləri"ni ifadə edir [1, s.7]. "Dil sistemində və nitqdə anlayışı təmsil etmək üçün bütün mövcud linqvistik vasitələrin müqayisəsi konsepsiyanın əsas məzmununu vurğulamağa imkan verir" [1, s.26].

Rus dilinin atalar sözləri, məsəllər, aforizmlərin təhlili əsasında "müharibə" anlayışının aşağıdakı mədəni və semantik komponentləri müəyyən etdik: Birincisi, müharibə qəm və şərdir, məsələn: *"Война не лечит, а калечит. Войны хорошей, тяжбы доброй не бывает. О войне плохо слышать, а тяжелее видеть. Война не оставит камня на камне. Война хуже чумы. Спаси Бог от войны да чужеземной стороны. Война напечет и вдов, и сирот. Война есть зло, а мир – благо. Война милости не знает, она через трупы шагает. Сына мать не затем растит, чтоб в бою он был убит. Вражда не делает добра. Войной да огнем не шутят. Легко про войну слушать, да тяжело видеть"* и др. [2, s.22].

İkincisi, stabil ifadələrdə deyilir ki, rus xalqı müharibə istəmir, ancaq lazım gələrsə, Vətənini müdafiə etməyə hazırdır. Məsələn: "*Дружно за мир стоять – войне не бывать. Тучам солнца не скрыть, войне мир не победить. К добру и миру тянется мудрец, к войне и распрям тянется глупец. Кому мир не дорог, тот нам и ворог. Кто развязывает войны, те презрения достойны. Кто помышляет о войне – просчитается вдвойне. Мы войны не хотим, но к войне готовы. Воевать не хотим, но земли своей не отдадим. Кто с мечом к нам придет, тот от меча и погибнет и др."*. (Yəni orada).

Üçüncüsü, müharibə hakimiyyətdə olanların qanlı mübarizəsidir, bunun üçün sadə insanlar canları ilə ödəyirlər: "*Война питается деньгами, а увеселяется кровью. Война – кому веревка, а кому дойная коровка. Паны дерутся, а у холопов чубы трещат. Война кровь любит. Война кровь пьет. Ни моря без воды, ни войны без крови и др*." (Müharibə pulla qidalanır, qanla əylənir. Müharibə – kimə ip, kimə pul inək. Lordlar döyüşür, təhkimçilərin alınları çatlayır. Müharibə qanı sevir. Müharibə qan içir. Susuz dəniz, qansız müharibə yoxdur və s.) [2, s.22].

Və nəhayət, müharibə cəsarət, döyüşçülərin cəsarəti və komandirlərin müdrikliyidir ki, onlar birlikdə qələbəni yaxınlaşdırır: "*Война отвагу любит. На войне рать крепка воеводою. Военное дело не учить – битым быть. Чтобы успешно воевать, надо много знать. Тяжело в ученье, легко в бою. Важно не крепость взять, а войну выиграть. Кому война, а кому мать родна и др*." (Müharibə cəsarəti sevir. Müharibədə ordu bir qubernator kimi güclüdür. Hərb elmini öyrətmə – döyül. Uğurlu mübarizə aparmaq üçün çox şey bilmək lazımdır. Öyrənmək çətindir, mübarizə aparmaq asandır. Qalanı almaq yox, müharibədə qalib gəlmək vacibdir. Müharibənin kimə, ananın kimə aid olması və s.) [2, s.23].

"Müharibə" anlayışı rus dilində yüksək fəallığa malikdir. Bu, Rusiya dövlətinin formalaşması və inkişafının tarixi kursu ilə izah olunur: Rusiya tarixi elə inkişaf edib ki, demək olar ki, hər bir nəslin taleyində müharibə olub. Zəngin hərbi təcrübə ənənəvi olaraq yazıçı və şairlərin ədəbi yaradıcılığında da öz əksini tapıb və tapmaqda davam edir. Bunu rus mədəniyyəti və ədəbiyyatında xüsusi yer tutan dastan mətnləri və onların adları da sübut edir ("İqorun yürüşü haqqında nağıl", "Zadonşçina", L.N.Tolstoyun "Müharibə və sülh"; M.Şoloxovun "Vətən uğrunda vuruşdular"; Aleksandr Nevski, Aleksandr Vasilyeviç Suvorov, Aleksey Maresyev, marşal Jukov və s.), Qanadli sözlər və ifadələrdə də bunu aydın görmək olur: "*Война отвагу любит. На войне рать крепка воеводою. Военное дело не учить – битым быть. Чтобы успешно воевать, надо много знать. Тяжело в ученье, легко в бою. Важно не крепость взять, а войну выиграть. Кому война, а кому мать родна и др*." (Kim bizə qılıncla gəlsə, qılıncla öləcək; Vətən bizi çağırır!; Hər şey cəbhə üçün – hər şey qələbə üçün!;

Mənim döyüş yoldaşlarım; Qalx, ölkə böyükdür!; Sənə çatmaq mənim üçün asan deyil, amma ölümün dörd addımı və bir çox başqaları var.) Rusiya tarixində hərbi hadisələrlə bağlı olan bu söz və ifadələr təkcə böyük döyüşlərin və qələbələrin ildönümlərində deyil, həm də gündəlik danışıqda yaddaşlarda "canlanır" və ruslar arasında ümumi birlik və hisslərə səbəb olur [5, s.49]. Müharibə anlayışı rus dilində həcmli, polistruktur anlayışdır, semantik, mədəni-semantik və assosiativ-semantik komponentlərə malikdir.

Beləliklə, müqayisə etdiyimiz dillərdə danışanların şüurunda "müharibə" ictimai-siyasi fenomeni mühüm yer tutur. Gerçəkliyin bu fraqmenti ictimai şüur və sosial təcrübə ilə vurğulanır, çünki dildə və kollektiv şüurda tədqiq etdiyimiz hadisənin sərhədlərini müəyyən etməyə qadir olan söz var. "Müharibə" anlayışı yuxarıda sadalanan bir sıra səbəblərə görə məna kəsb edən çərçivə kimi modelləşdirilmişdir. Bu çərçivənin dil təyinatı əsas və ikinci dərəcəli təyinatlar şəklində təqdim olunur. "Müharibə" konseptinin əsas təyinatı Azərbaycan və rus dillərində fərqlənmir: "müharibə" konseptinin əsasını "millətlər arasında silahlı döyüş" / dövlətlər arasında silahlı mübarizə" anlayışı təşkil edir. Tədqiq olunan konseptin ikinci dərəcəli dil təyinatı birbaşa və ya assosiativ mənada müharibə əlamətini ehtiva edən anlayışlardan ibarətdir.

Dünyanın müqayisəli linqvistik mənzərəsində müharibəyə münasibətin xüsusiyyətləri müəyyən spesifikliklərə görə fərqlənir ki, bu da bu lonseptə aid leksik vahidlərin kəmiyyət tərkibində öz əksini tapır. Rus dilində müharibə anlayışını ehtiva edən leksemlərin sayı Azərbaycan dilindən daha çoxdur ki, bu da misallarla təsdiqlənir. Dünyanın müqayisə edilmiş dil mənzərəsində "müharibə" konseptinin semantik sahələrinin müxtəlif semantik sıxlığı rus dilinin ana dili olanlar üçün "müharibə" anlayışının daha böyük əhəmiyyətindən xəbər verir.

Ədəbiyyat

1. Аскольдов С.А. Концепт и слово. Русская словесность. От теории словесности к структуре текста: Антология. М.: Academia, 1997. – с.267-279.
2. Даль, В.И. Толковый словарь живого великорусского языка: в 4 т. / В. И. Даль. М.: Русский язык, 1989. Т. 1. – 699 с.
3. Кубрякова, Е.С. Языковая картина мира как особый способ репрезентации образа мира в сознании человека // Вестник Чувашского государственного педагогического университета имени И.Я. Яковлева. 2003. № 4 (38). – 2-12 с.
4. Пименова, М. Введение в когнитивную лингвистику / Кемерово, 2004. – 59 с.
5. Словарь древнерусского языка (X1-X^ вв.): в 10 т. / АН СССР. Ин-т рус. яз.: гл. ред. Р. И. Аванесов. Т.1. М.: Русский язык, 1988. – 526 с.
6. Ушаков Д. Н.Большой толковый словарь современного русского языка: Альта-Принт, 2009 г.

Р.А.Салахова

Концепт «война» в азербайджанской и русской языковой картине

Резюме

В статье рассматривается понятие «война» как концепт. В азербайджанском и русском языковом пространстве это понятие сильно изменило свою смысловую сферу. После 44-дневной войны для каждого азербайджанца, выходящего из сферы «войны» – «конфликта, противостояния, смерти» – обрело содержание «мученик, ветеран, возвращение утраченных земель, победа». После русско-украинской войны для россиян приобрела «смертельное» содержание слово война. В ходе исследования объяснялись механизм и причины этого изменения, объяснялось влияние концепта «война» на изменение понятийной сферы других языковых единиц. В статье концепт «война» в азербайджанском и русском языках рассматривается как объемный, полиструктурный концепт и определяются его семантическая, культурно-смысловая и ассоциативно-семантическая составляющие.

R.A.Salahova

The concept of "war" in Azerbaijan and Russian language landscape

Summary

The article considers the concept of "war" as a concept. In the Azerbaijani and Russian language landscape, this concept has changed its sphere of meaning a lot. After the 44-day war, for every Azerbaijani, leaving the sphere of "war" – "conflict, conflict, death" – gained the content of "shahid, gasi, return of lost lands, victory". After the Russian-Ukrainian war, the war for the Russians gained a "death" content. In the study, the mechanism and reasons for this change were explained, the influence of the concept of "war" on the change of the conceptual sphere of other language units was explained. In the article, the concept of "war" in the Azerbaijani and Russian languages is considered as a voluminous, polystructural concept and its semantic, cultural-semantic and associative-semantic components are determined.

Rəyçi: dos. X.Ə.Babaşova

Redaksiyaya daxil olub: 08.03.2023

A.İ.ŞİRİNOVA
müəllim

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

İNKARLIĞIN FUNKSİONAL SEMANTİKASI VƏ QURULUŞ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *inkarlıq, funksional semantika, quruluş, temporallıq, aspektuallıq*
Ключевые слова: *отрицание, функциональная семантика, строение, темпоральность, аспектуальность*
Key words: *negation, functional semantics, structure, temporality, aspectuality*

İnkarlıq problem linqvistikada uzun illər boyu maraq yaradan bir sahə olmuşdur. Qeyd etməliyik ki, dil cəmiyyətə aid olduğundan cəmiyyət inkişaf etdikcə, cəmiyyətdə baş verən hadisələr nəticəsində dil sistemində də müəyyən dəyişikliklər baş verir, digər sahələrdə olduğu kimi inkarlıq kateqoriyasına da yanaşma çoxplanlı və çoxaspektli ola bilir. Bəzən sadəcə inkarlıq kimi qəbul edilən hadisə eyni zamanda funksional-semantik sahə kimi araşdırılır. Digər tərəfdən funksional-semantik sahənin koqnitiv dilçilik, koqnitiv semantika ilə bağlı olması diqqət mərkəzində dayanır. Burada yeri gəlmişkən inkarlıq kateqoriyasına dilçilik ədəbiyyatlarında da müxtəlif yanaşma və fərqli adlandırma mövcuddur. Qeyd etməliyik ki, dilçilik ədəbiyyatlarında bəzi tədqiqatçılar (V.H.Bondarenko) inkarlığı məntiqi kateqoriya, bəziləri (O.Yespersen, A.M.Peşkovski, O.S.Axmanova) anlayış, A.M.Dirul semantik-qrammatik kateqoriya kimi adlandırmışlar.

Sahə məsələsindən bəhs edərkən Q.S.Surun ideyaları bizim fikrimizcə xüsusi önəm təşkil edir. Q.S.Sura görə modallıq sahəsi, kəmiyyət sahəsi, aspektuallıq sahəsi, temporallıq sahəsi və s. birləşmələrin tərkibində bu anlayış "kateqoriya" mənasında, başqa hallarda isə nisbətən daha geniş mənada "sistem", "paradiqma", "funksional-semantik plan" terminləri ilə sinonim kimi işlənir. Bəzən hətta dil strukturu olaraq "sahə" kimi izah olunur [6, s.95].

Sahə nəzəriyyəsinə, eləcə də funksional-semantik sahəyə aid Azərbaycan dilçiləri də öz töhfələrini vermişlər. Sahə nəzəriyyəsinə aid fikirlər kimi şərh edilmişdir: F. de Sössür təlimində irəli sürülən sözün işarəviliyi və dəyərliliyi məsələsi Y.Trir nəzəriyyəsinə güclü təsir göstərmişdir. Y.Trir semantik sahəyə həsr etdiyi ilk əsərini 1931-ci ildə nəşr etmişdir. O, iki cür sahə – leksik sahə və məfhumi fərqləndirməyi tələb edir. Məfhumi sahə bir mərkəzi məfhum ətrafında (məsələn, ağıl, şüur) toplanan, bir-biri ilə əlaqədar olan məfhumlar sisteminə deyilir [5, s.312]. Sonralar Q.Cəfərov Azərbaycan dilinin leksik-semantik sistemi haqqında, İ.Tahirov Azərbaycan və ingilis dillərində zaman kateqoriyası barədə, S.Seyidova müasir ingilis dilinin frazeologiyasında zaman anlayışının əks olunması barədə tədqiqatlar aparmışlar və bununla da demək olar ki, sahə nəzəriyyəsinə aid, kateqoriyalara aid araşdırmalara sanki yol açmışlar. Bizim maraqlandığımız, bir qədər əvvəl vurğuladığımız sahə inkarlıq sahəsidir ki, iki müxtəlifsistemli dillər ailəsinə aid olan ingilis və Azərbaycan dilində həmin qeyd etdiyimiz sahənin funksional-semantikasının xüsusiyyətlərini araşdırılmasından ibarətdir.

Qeyd etməyimiz yerinə düşərdi ki, dilçilik ədəbiyyatlarında ümumi qrammatik kateqoriyalardan biri inkarlıq kateqoriyasıdır. Müxtəlif zamanlarda bu kateqoriyaya aid müxtəlif dilçilər monoqrafiya, məqalə, tədqiqat işi həsr etmişlər. Həmin tədqiqatçılar sırasında E.B.qulqa, B.Admoni, A.B.Bondarko, O.Şur, E.İ.Şendels, Q.İpsen, J.Trir, M.Adilov, A.Aslanov, S.Abdullayev, M.Hüseynzadə, Q.Cəfərov, İ.Tahirov, B.Xəlilov S.Seyidova və başqaları. Onu da vurğulamaq olar ki, onların bəziləri inkar əvəzlikləri, inkar ədatlar, inkar zərfliklər başlığı altında, bəziləri sistem haqqında araşdlrma aparıblar, ancaq hər bir halda bu tədqiqatların hamı-

sı sonda funksional semantika məsələsində birlikdə olur, çünki semantika harada varsa, orada funksiya vardır, ona görə ki, hər hansı bir söz, ifadə, cümlə müəyyən funksiya yerinə yetirə bilmirsə onun semantikası yoxdur, yalnız nominasiya (adlandırma) vardır.

A.Aslanov yazır ki, inkarlıq kateqoriyasının koməyi ilə bu və ya digər iki anlayış arasındakı münasibət aydınlaşdırılır, müəyyən söz və ya söz birləşmələri ilə ifadə olunan keyfiyyətin real şəkildə mövcud olmadığı aşkara çıxır [2, s.9]. Tamamilə doğrudur ki, hər bir dildə həm ümumi kateqoriyalar, həm də xüsusi kateqoriyalar vardır və bunların hər birinin fərdi məzmunu onun kateqoriyalarından ayrılır və eyni zamanda koqnisiya vasitəsilə aşkar olar.

Hesab edirik məhz bu keyfiyyətlərinə görə bəzi hallarda kateqoriya deyil sahə adlandırırlar. Fikrimizcə bu onunla əlaqədardır ki, inkarlıq digər tərəfdən məntiqi və fəlsəfi kateqoriyadır və buna görə də onu bəziləri sırf qrammatik kateqoriya, digərləri isə inkarlıq sahəsi adlandırır. S.Ə.Abdullayev isə inkarlığı təyin etmişdir: "İnkarlıq kateqoriyasının formal və ənənəvi metodlarla tədqiq olunduğu ən müxtəlif mənbələri diqqətlə nəzərdən keçirdikdə bir daha yəqin etmək olur ki, inkarlığın linqvistik ifadəsini, funksional-semantik və kommunikativ-üslubi həcmini bütün genişliyi və dinamizmi ilə yalnız sahə metodu əsasında aşkara çıxarmaq, ifadə variativliyini və çoxplanlılığını bu metodun köməyi ilə nisbi mənada tam və bitkin əhatə etmək mümkündür" [1, s.32].

Göründüyü kimi tədqiqatçı metodun köməyi ilə inkarlıq tam və bitkin əhatə etməyin mümkünlüyünü belə nisbi mənada qəbul edir. Hesab edirik bu çox təbii haldır, ən azı ingilis dilində təyinolunma söz inkar edildikdə inkar zərfi adətən feilə birləşir və bir çox hallarda zəif forma olan (məsələn, rus dilində "he" kimi) işlədilir. İngilis dilində (*is not, isn't, cannot*) istisna olmaqla *does not come doesn't come* kimi işlədilir. Onu da qeyd etmək lazımdır ki, başqa dillərə nisbətən german dilləri qrupuna aid olan ingilis dilində xeyli sayda inkarlığı ifadə edən sözlərlə yanaşı inkar prefikslər də vardır ki, məzmun planında funksiya yerinə yetirir.

Yeri gəlmişkən inkarlıqdan bəhs edərkən, xüsusilə inkarlığın funksional-semantik xüsusiyyətlərini araşdırarkən müxtəlif strukturlu cümlələrə rast gəlmək mümkündür ki, həmin inkarlıq fərqli sözlərlə və ifadələrlə ifadə olunur və bu müxtəlifliyə aid aşağıdakı cümlələrə diqqət yetirməyimiz fikrimizcə yerinə düşərdi.

"Many of the citizens of Russia didn't want the war" cümləsində təyin edilən inkar olunduğu halda həmin cümləni başqa bir struktura ilə əvəz etsək:

"Not many of the citizens of Russia wanted the war" cümləsində "not" many sözünə aid olur və bu zaman onun cümlədə hər ikisində inkarlıq ifadə olunub, lakin fərqli semantikasını ifadə edib, çünki "not"-un hansı sözə aid olması məsələni aydınlaşdırır, yalnız koqnisiyanın vasitəsilə, belə ki, birinci cümlədə təyin olunan inkar olunur – yəni münasibətin istənilmədiyi göstərilir, lakin ikinci halda inkar artıq hərəkətə deyil icraçılara aid olur və təbii olaraq koqnisiya vasitəsilə anlamaq olur ki, icraçılarda xeyli az hissəsi müharibəni istəyirlər. Bəzən belə düşünənlər olur ki, belə yerdəyişmənin heç bir əhəmiyyəti yoxdur, ancaq bir məqama diqqət çəkmək lazımdır ki, hər bir dildə hər bir sözün başqa sözlə birləşə bilmək qabiliyyəti vardır və əgər söhbət koqnisiyasından gedirsə, funksional semantikadan bəhs olunursa hər bir sözün digər sözdən əvvəl və sonra işlədilməsinin mənası vardır. Dil özü bir sistemdir və o sistem üzərində struktur formalaşır və həmin struktur öz növbəsində funksiya yerinə yetirməklə semantika yaradır ki, bir praqmatik olaraq ifadə olunanları başa düşə bilirik. Əgər elə olmasaydı bir qədər öncə nümunə gətirdiyimiz cümlədə "Not many of the citizens of Russia"nı-nin "few" ifadə etməsini anlamazdıq və qeyd etdiyimiz kimi belə halda koqnisiya bizim hər birimizin köməkçidir. Bir qədər öncə A.Aslanovun dediyi "inkarlıq real mövcud olmayanı üzə çıxarmaq üçün lazımdır" fikrinə rəğmən onu vurğulamaq istərdik ki, belə halda təsdiqlik-inkarlıq məsələsi meydana gəlir ki, burda da fərqli mühakimələr mövcud ola bilir. Məsələn, They din not go to the forest yesterday – Onlar dünən meşəyə getmədilər. Not they went to the forest yesterday – Dünən meşəyə gedən onlar deyildi. They went to the forest not yesterday – Onlar meşəyə getdilər – dünən yox?

Yeri gəlmişkən bir cəhəti də qeyd etməyimiz yerinə düşərdi. Ömrünün 65 ildən çoxunu ingilis və Azərbaycan dillərinin müqayisəsinə həsr etmiş, bir neçə ingilis dilinin qrammatikası kitablarının müəllifi O.Musayev yazır: "Müqayisə olunan dillərin hər ikisində də mövcud olan inkarlıq bildirən əvəzliklər funksional baxımdan, yəni onların ünsiyyətdəki rolu baxımından tam eynidir; müqayisə edilən dillərin hər ikisində də bu əvəzliklər müəyyən bir keyfiyyətin, əlamətin hər hansı bir şəxsə və ya əşyaya xas olmadığını bildirir, müəyyən bir əlamətin və ya keyfiyyətin haqqında danışılan şəxs və ya əşya olmadığından xəbər verir" [4, s.206]. Həmin fikrin əyani sübutu kimi aşağıdakı cümləyə diqqət yetirək. Birinci Qarabağ müharibəsi heç kimi bizə kömək etmirdi. Belə bir vəziyyətdə heçnə xalqı sakitləşdirə bilməzdi.

İngilis dilində:

There was nobody in the street at that time. In such difficult situation nothing could help us except our Turkey's Bayrakdar during second Qarabag war.

Görünən odur ki, ingilis dilində həmçinin inkarlıq ifadə edən başqa bir makrosahə də mövcuddur, yəni inkarlığı ingilis dilində inkar əvəzlikləri, ədatı, zərfləri ilə birlikdə həmçinin prefikslər də ifadə edir.

Onu da qeyd etməliyik ki, funksional semantikadan bəhs olunursa, burada mütləq şəkildə hər bir şey kontekst daxilində, ən azı cümlə səviyyəsində, bəzən isə mətn səviyyəsində tədqiq olunması məqsədəuyğundur, çünki bir çox hallarda cümlə səviyyəsində informasiya ötürənin niyyətini anlamaq o qədər asan olmur. Müasir dövrdə hər hansı bir sahəni tədqiq etmək üçün sadəcə təsvir deyil, konkret faktlar, orijinal ədəbiyyatdan götürülmüş nümunələr əsasında illüstrasiya verilməsi daha məntiqidir və məzmun planında da vacib və əhəmiyyətli bir işdir. Bu məsələ ilə bağlı O.Musayevin daha maraqlı bir fikri vardır. O.Musayev vurğulayır ki, müasir ingilis dilinin inkarlıq bildirən əvəzliklərinin ünsiyyət baxımından Azərbaycan dilinə xas olan inkarlıq əvəzliklərindən başlıca fərqli cəhəti ondan ibarətdir ki, ingilis dilinə xas olan inkarlıq əvəzlikləri inkarlığı təkbaşına ifadə edir, yəni inkarlıq əvəzliyi işlədilən cümlənin xəbəri təsdiq formada olur. Müasir Azərbaycan dilində isə inkarlıq bildirmək üçün cümlədə əksər hallarda həm inkar əvəzliyi işlədilir, həm də xəbər inkarda olur [4, s.207]. Biz əlbəttə bu fikirlərlə tam razılaşırıq, lakin bununla belə dilçilik ədəbiyyatlarında da qeyd olunur ki, ingilis dilində bir qayda olaraq inkarklıq ifadə edən söz və ya ifadə işlədilə bilər, ancaq bununla belə ingilis dilində də çoxinkarlılıq (ancaq kütləvi şəkildə deyil bəzi istisna hallarda).

Azərbaycan dilində inkarlıqdan bəhs edərkən B.Xəlilov yazır ki, "heç bir ədatının iştirakı ilə yaranmış inkar əvəzliklərinin və inkar zərflərinin ayrılıqda mənası inkar bildirmir" [3, s.272]. Nobody agreed with this agreement. We know nothing about that accident. Müqavilə olaraq: Heç kəs bu razılaşma (müqaviləni) qəbul etmədi. Biz o hadisə haqqında heç nə bilmirik.

Görünən odur ki, yuxarıda qeyd etdiyimiz kimi ingilis cümlələrində xəbər təsdiqdə işlədilir, lakin eyni fikri Azərbaycan dilində ifadə edərkən həm də predikat məcburi şəkildə inkarda işlədilir, əks halda kommunikasiya alınmır.

1. Həyətdə oynamağa heç kəs yox idi – hamı yox idi demək olmaz.
2. Elə sirlər vardır ki, onu heç kimə deyə bilmirsən – hamıya deyə bilmirsən.

Hər kəs öz borcunu yerinə yetirmir. Hər kəs öz borcunu yerinə yetirir.

Burada işlədilmiş "heç" və "hər" sözlərinin işlədildiyi kontekstləri nəzərdən keçirdikdə, funksional-semantika baxımından birinci cümlənin ekvivalenti Azərbaycan dili cümləsi alınmır, ikinci cümlədə isə kontekst, situasiyadan asılı olaraq koqnisiya vasitəsilə həmin cümləni ekvivalent kimi "hamıya deyə bilmirsən" kimi qəbul etmək olduğu halda üçüncü cümlədə yalnız predikat inkar və yaxud təsdiqdə işlədilir və kommunikasiya alınır, informasiya ötürənin niyyəti predikat vasitəsilə çatdırılır, baxmayaraq hər iki cümlədə "hər kəs" işlədilib.

Başqa bir situasiyada "heç" sözü birbaşa predikatla yanaşı işlədilir və onun funksional semantikası "hələ" kimi anlaşılır. Mən hələ mətni yazıb qurtarmamışam. Mən mətni heç qurtarmamışam cütlüyündə olduğu kimi.

Ədəbiyyat

1. Abdullayev S.Ə. Müasir alman və Azərbaycan dillərində inkarlıq kateqoriyası. Bakı: Maarif, 1998, 279 s.
2. Aslanov A. Müasir Azərbaycan dilində inkarlıq və kəmiyyət kateqoriyası. Bakı, Azərbaycan SSR, 1963
3. Musayev O.İ. Müasir Azərbaycan və müasir ingilis dillərinin morfologiyası. Bakı, 2001
4. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. I hissə. Bakı: Nurlan, 2007, 279 s.
5. Verdiyeva Z.N., Ağayeva F.M., Adilov M.İ. Dilçilik problemləri. I hissə. Bakı: Maarif, 1982, 324 s.
6. Щур Г.С. Теория поля в лингвистике. Москва, 1974, 225 с.

A.И.Ширинова

Функциональная семантика и структурные особенности отрицания

Резюме

Статья посвящена изучению функциональной семантики и структурных особенностей отрицания. Проблема отрицания давно интересует лингвистику. Поскольку язык принадлежит обществу, по мере развития общества в языковой системе происходят определенные изменения в результате событий, происходящих в обществе. Как и в других областях, подход к категории отрицания может быть разноплановым и многогранным. Иногда событие, рассматриваемое как отрицание, исследуется и как функционально-семантическое поле. С другой стороны, в центре внимания находится тот факт, что функционально-семантическое поле связано с когнитивной лингвистикой и когнитивной семантикой.

A.İ.Shirinova

Functional semantics and structural features of negation

Summary

The article is devoted to the study of functional semantics and structural features of negation. The negation problem has been an area of interest in linguistics for many years. Since the language belongs to the society, as the society develops, certain changes occur in the language system as a result of the events taking place in the society. As in other areas, the approach to the category of denial can be multi-faceted and multi-faceted. Sometimes the event that is considered as a negation is also investigated as a functional-semantic field. On the other hand, the fact that the functional-semantic field is related to cognitive linguistics and cognitive semantics is in the center of attention.

Rəyçi: dos. A.M.Cəfərov

Redaksiyaya daxil olub: 15.05.2023

К.Б.АХУНДОВА
доктор философии по филологическим наукам, доцент
e-mail: cakonda2004@gmail.com

Бакинский славянский университет
(г. Баку, ул. С.Рустама, 33)

СИНТАКСИЧЕСКАЯ РОЛЬ ВВОДНЫХ СЛОВ В ПРОСТЫХ ОСЛОЖНЕННЫХ ПРЕДЛОЖЕНИЯХ РУССКОГО ЯЗЫКА

Ключевые слова: *простое предложение, вводные слова, осложняющий элемент, значения вводных слов, функция вводных слов в простом предложении*

Açar sözlər: *sadə cümlə, ara sözlər, xüsusiləşdirici elementlər, ara sözlərin mənaları, sadə cümlələrdə ara sözlərin funksyaları*

Key words: *simple sentence,modal words, specializing elements, meanings of modal words, functions of modal words in simple sentences*

(in the well); – Adjectives: native – indigenous (common word) – pure, native (about metal); – Reservoir – a container for storing oil or oil products; – Pump – a device for pumping oil or gas from a well; – Pipeline – a system of pipes used to transport oil or gas over long distances; – Drilling rig – a structure used for drilling wells; – Oil refinery – an enterprise engaged in the processing of oil into various types of petroleum products; – Oil cock – a device used to control the flow of oil in a pipeline.

Considering the process of terminology, we see that often the generally accepted vocabulary and terminology cannot be clearly distinguished, since the term and the word of common use are closely related. The process of determinologization in our study is not clearly defined. On the one hand, this may be due to the stability of the oil and gas terminological system, and on the other hand, to the diffuse display of the boundaries between terminology and determinology of the lexical composition of the oil and gas terminological system. In the course of the study, 246 determinologized terms of the oil and gas industry were identified (nouns – 110 (45%), verbs – 90 (38%), adjectives – 46 (17%)). The process of determinology most often undergoes the same parts of speech, and the process of terminology. For example: – nouns: defect – damage (term) – lack, lack (general word); – adjectives: rotary – rotational (term) – carousel (general word); – verb: pump – download (term) – pulsate, beat (common word) [6].

Thus, the process of terminology of commonly used vocabulary is one of the means and ways of replenishing oil and gas industry terminology. The terminology process involves the creation of new terms or the assignment of special meanings to already existing words in order to improve the accuracy and clarity of specialized terminology.

Literature

1. English as a global language. Cambridge University press, 2003, 229 p.
2. V.M. Leichik, Terminology. Subject, methods, structure. Moscow, 256 p. (2009)
3. Linguistic and normative aspects of oil and gas business terminology. Liliya Z. Samigullina and Elina F.Samigullina January 2018/ SHS Web of Conferences 50(1):01220; DOI:10.1051 /shsconf/20185001220
4. Russian-Azerbaijani-English terminological dictionary on oil and gas. Compiler-author: M.M.Abbasov. Baku, 1999, 758 pages.
5. https://www.shs-conferences.org/articles/shsconf/pdf/2018/11/shsconf_cildiah2018_01220.pdf
6. https://www.capp.ca/resources/glossary/

G.Ş.Əliyeva

Neft-qaz sənayesi terminlərini nəzərdən keçirərkən semantik strukturun dəyişmə tendensiyası

Xülasə

Neft-qaz sənayesində terminologiya prosesi sənayenin xüsusiyyətlərini daha dəqiq əks etdirən yeni terminlərin yaranmasına səbəb ola bilər. Məsələn, neft və qaz ehtiyatlarının qazılması, hasilatı, daşınması və emalı üsullarını təsvir etmək üçün yeni terminlərin yaradılması texniki proseslərin başa düşülməsini təkmilləşdirə və ixtisaslaşdırılmış lüğəti standartlaşdıra bilər. Beləliklə, ümumi dil terminologiyası prosesindən istifadə neft və qaz sənayesi terminlərini doldurmaq üçün effektiv üsuldur və sənayedə texniki terminologiyanın ünsiyyətini və dəqiqliyini yaxşılaşdırmağa kömək edə bilər.

Г.Ш.Алиева

Тенденция изменений в семантической структуре при рассмотрении терминов нефтегазовой промышленности

Резюме

В случае нефтегазовой промышленности, процесс терминологизации может привести к появлению новых терминов, которые будут более точно отражать особенности отрасли. Например, создание новых терминов для описания методов бурения, добычи, транспортировки и пе-

реработки нефтегазовых ресурсов может улучшить понимание технических процессов и стандартизировать специализированную лексику. Таким образом, использование процесса терминологизации общеупотребительной лексики является эффективным способом для пополнения терминов нефтегазовой промышленности и может помочь улучшить коммуникацию и точность технической терминологии в отрасли.

Rəyçi: prof. S.A.Məhərrəmova

Redaksiyaya daxil olub: 28.04.2023

N.AĞAYEVA
dissertant
e-mail: nigar.aa@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

UTOPİYA VƏ DİSTOPİYADA GƏLƏCƏYİN İNSANI (Artur Klarkın yaradıcılığı əsasında)

Açar sözlər: *A.Klark, utopiya, distopiya, gələcəyin insanı*
Ключевые слова: *А.Кларк, утопия, антиутопия, человек будущего*
Key words: *A.Clarke, utopia, dystopia, man of the future*

Müasir dövrdə texnologiyanın inkişafı, sosial və qlobal problemlərin kəskinləşməsi insanın mövcudluğunu təhlükə altına aldı. Bu səbəbdən ictimai inkişafla bağlı proqnozların verilməsi dövrümüzün ən aktual məsələsinə çevrildi. Gələcəyin tədqiqi futuroloji konsepsiyaların irəli sürülməsi ilə əlamətdar oldu. Proqnozlaşdırma sahəsində dərin biliklər, sənətkarın qeyri-adi düşüncəsi də bu burada öz sözünü dedi.

Gələcək elmi tədqiqatlar, texniki tərəqqi cəmiyyətin inkişafının bugünkü futuroloji ideyalarının dərk edilməsi, eləcə də onun inkişaf istiqamətlərini işlənib hazırlanmasını tələb edir. Futuroloji biliklərin öyrənilməsində bilavasitə iştirak edən elmi tədqiqat işləri çox da deyil. Soyuq müharibə dövründən başlayaraq elmi-texniki tərəqqinin artması, eləcə də sosial gərginlik və hərbi qarşıdurma hərbi texnikanın, hərbi strategiyaların hazırlanması üçün ixtisaslaşmış mərkəzlərin təşkilinə səbəb oldu. Bu sahədə çalışan mütəxəssislər sonradan futuroloji mövzuların əsas yaradıcıları oldular. Biz bunu A.Klarkın tərcümeyi-halında əyani şəkildə görə bilərik. Məlumdur ki, yazıçı uzun illər elmi tədqiqat institutlarında çalışmışdır və onun bir çox əsərlərində iş təcrübəsindən yararlanması danılmaz faktlardandır.

Əgər keçən əsrin ortalarından başlayan futuroloji mövzuların tədqiqi birbaşa təcrübi fəaliyyətə əsaslanırdısa, keçən əsrin sonlarından başlayaraq onların fəlsəfi dərki də öz yerini aldı. Beləliklə, futurologiyanın utopiyadan ayrılması alman sosioloqlu O.Flextheym tərəfindən irəli sürülən "gələcəyin obyektiv fəlsəfəsi" konsepsiyasında baş verdi. Alman tədqiqatçısı "gələcəyin fəlsəfəsi"ni ideologiya və utopiyayla qarşılaşdırırdı [11, s.278].

Utopiya ideyasının tükənməsi ortaya çıxanda cəmiyyət elmi yükə güvənmək imkanı əldə etdi. Ortaya çıxan futuroloji təcrübələrdən istifadə edən cəmiyyət yeni vəziyyətinə elmi mövqedən cavab verməyə çalışırdı.

Elmi fantastikanın bir ədəbi janr kimi düşüncə formasına daxil edilməsi onun digər oxşar formalara – utopiya, distopiya və futurologiyaya yaxınlaşdırdı. Ədəbiyyat tarixində erkən futuroloji ədəbi nümunələr H.Uellsin "Mexanika və elmi tərəqqinin insan həyatına və düşüncəsinə təsiri haqqında proqnozlar" (1901), K.Siolkovskinin "Yerin və bəşəriyyətin gələcəyi" (1928), C.Tomsonun "Gözlənilən gələcək" (1955) əsərləri aiddirsə, texnoloji tərəqqini özündə əks edən mətnlər sırasında C.Bernal, N.Viner, R.Yunkın əsərlərini də göstərmək olar. Bəzi futuroloji problemlərlə bağlı əsərləri öyrənən ədəbi tənqid "gələcək haqqında düşünməkdən" daha çox onu araşdırmaq, gələcək haqqında əsərlər yazmaq kimi planlar irəli sürdü.

Utopiya gələcək məqsədlərin təsvirini, cəmiyyətdə yaranan əsas idealların reallaşmasını təklif edir. Eyni zamanda, nəzərə almaq lazımdır ki, gələcəyi, xüsusilə uzaq gələcəyi rasional olaraq ölçmək, dəqiq metodlarla öyrənmək çətindir. Gələcək haqqında düşünərkən, istər-istəməz ciddi şəkildə sübut edilən nəticələrin kifayət qədər möhkəm olmadığını dərk edirik. Bunun üçün fərziyyələrə, metaforik düşüncələrə və utopik xəyallara dalırıq. Fantast-yazıçılar bu problemi asanlıqla həll edirlər. Onlar mövcud tendensiyaları müəyyənləşdirir və sonra onları uzaq bir reallığa köçürür, müasir problemlərin maksimum həll edildiyini əsərlərində göstərirlər. Elmi fantastika, mövcud elmin nailiyyətlərini ardıcıllıq prinsipi əsasında modelləşdirməklə, futuroloji yanaşmayla həyata keçirir.

Ədəbiyyatda utopiya və distopiya bəzən futuroloji forma kimi təsvir edilir və çox vaxt da fantast-yazıçıların yaradıcılığında gələcəyin proqnozları şəklində təqdim edilir. Utopiyalarda dövlət və güc şəbəkəsinin qurulması, hakimiyyət və siniflərin iyerarxiyası, güc strukturunun rəftarı "bir utopiya və ya səhv formalaşan utopiya" kimi cəmiyyətin müəyyən bir seqmenti üçün fəaliyyət göstərən distopiyaya uyğundur" deyir amerikalı tədqiqatçı Maykl Qordin [2, s.26]. Halbuki utopiya ədəbi əsərlərdə ideal yer, hökumət və hüquq sistemini əhatə edir. Distopiya isə əsərlərdə arzuolunmaz kimi təqdim edilir. Bu mənada, bir adam utopiyanı bir xəyalın təcəssümü kimi təyin etsə də, distopiya əks bir anlayışa – kabusa bərabərdir. Əvvəlki dövrlərin utopik ideallarının mümkün nəticələri kimi ortaya çıxan distopiya, yazdıqları dövrün utopik düşüncələrini həm də o dövrdəki vəziyyəti ifadə və həm də tənqid edir. Devid Sisk "Müasir distopiyadakı dil dəyişmələri" əsərində qeyd edir ki, "distopiya tərtib edilmiş ədəbi əsər kimi yalnız sənaye inqilabının erkən dövründə, bu texnoloji tərəqqinin sosial şəraiti yaxşılaşdıracaq zamandan – yalnız XVIII əsrin ortalarından başlayır" [9, s.6]. İkinci Dünya müharibəsi bütün dünyanın ictimai-siyasi quruluşunu və ideallarını dəyişdirərək, utopiyanın distopiyaya çevrilməsi ilə əlamətdar oldu. Getdikcə şəxssiz mexaniki qüvvə istismara yol açdı. Distopik əsərlərdə inamsızlıq, əsasən sənaye distopiyasında yaxın gələcək üçün pessimist bir görmə halı önə çıxdı.

Belə əsərlər utopik idealların gerçək olmamasına aydınlıq gətirdi, bu ixtiraların cəmiyyətin bir maşın halına gətiriləcəyi üçün texnoloji və elmi irəliləyişlərə qarşı bir müqavimət çevrildi. Heç bir fərdi azadlığı olmayan, totalitar maşın-dövlətlərin yaranmasına səbəb oldu. Distopiya anlayışına aid mənfi münasibəti Qreqori Kleysin əsərindən də oxumaq olur: "Distopiya tez-tez antiutopiya və ya mənfi utopiya ilə qarşılıqlı olaraq istifadə edilir, utopiya və ya evtopiyadan (yaxşı yer) fərqli olaraq, pis sosial və siyasi inkişafları olan bir cəmiyyətin uydurma təsvirini vermək üçün istifadə olunur [2, s.110].

Hər bir distopiyanın əsas xarakterik xüsusiyyəti bir mühitdir, çünki bu janrın məqsədi oxucuları distopiya dünyasının imkanlarını və ehtimallarını müzakirə və tənqid etməkdir. Süjet adətən gələcəkdə baş versə də, hər bir cəmiyyətin müasir problemlərini əks etdirir. Buna görə də, mövcud dünyanın yeni, daha qaranlıqda əks olunan elementi olmalıdır. Sivilizasiya çox vaxt kiçik bir qrup insan və ya fərdlər tərəfindən idarə olunur. Vətəndaşların azadlığı müəyyən mənada məhdudlaşdırılır, lakin cəmiyyət həyatı mükəmməl utopik dünya kimi qəbul edir. Əksər distopiyalarda dövlətin tam nəzarətində olmayan bir qrup insan da var. A.Klarkın qəhrəmanları bir qayda olaraq ümidini məhz bu cəmiyyətə qoyur. Quruluşun digər rolu absurdluq, dəyərsizlik və qorxu emosiyaları yaratmaq üçün baş qəhrəmana qarşı durur, lakin səhnə həm də baş qəhrəmana yuxarı qalxmaq və qəhrəman olmaq imkanlarını təmin edir. Necə ki, biz yazıçının "Uzaq Yerin nəğmələri", "Beşik", "Allahın çəkici" romanlarında görə bilirik.

Əsas qəhrəman adətən əhalinin qalan hissəsindən fərqlənir. Başqalarından fərqli olaraq, cəmiyyətdə nəyinsə səhv olduğunu anlayır və mövcud sosial və siyasi qaydaları şübhə altına alır. O, da sistemi dəyişməyə çalışır, lakin uğursuz olur. Buna görə də qəhrəman tez-tez digərlərindən kənar gəzir və onun azadlığını məhdudlaşdıran rejimdən qaçmağa çalışır. Bundan əlavə, xarakterin keyfiyyətlərini vurğulamaq üçün qəhrəmanın bəzi dostları və ya adi əhalini təmsil

edən ailəsi olmalıdır. Bu xüsusi halı digər distopiya yazarı Qabriela Stalker belə izah edir: "Baş qəhrəmanın hakimiyyətin qanunlarına tabe olan mükəmməl nümunəsi olması adi haldır. Onlar xalqın ümumi münasibətlərinin mühüm simvollarıdır və hakimiyyətin onlara nəzarətinin təsirini göstərir. Ancaq bəzən bu prinsip öz əksini tapır. "Eybəcərlər" seriyalının baş qəhrəmanı, eybəcər/ideal cəmiyyətlə razılaşmayan və qaçmağı planlaşdıran bir dost tapır" [6, s.208].

Bənzər hallar bir çox distopik əsərlərdə görünür. R.Bredberinin "Farengeyt 451" romanında Qay Monteq Klarissa ilə tanış olur və yaşadığı həyatın onun düşündüyü qədər mükəmməl olmadığını başa düşür. A.Klarkın "Şəhər və ulduzlar" romanıdakı Elvin isə reinkarnasiya yaşamayan və buna görə də keçmiş həyat təcrübəsi olmayan yeganə insandır. Məhz Elvin Lisi tapdıqda və yeni mədəniyyətə qovuşduqda öz qüsurlarını anlayır. O.Hakslinin "Cəsur yeni dünya" romanının personajı olan Bernard Maks öz kastasına görə qeyri-adi dərəcədə qısadır. Məhz bu kimi məsələlərdə oxucu distopiya dünyasının mənfi cəhətlərini tanıyır.

Başqa sözlə, distopiya, totalitar bir hökumət və təzyiq idarəsi vasitəsi ilə mükəmməl bir cəmiyyət kimi təsəvvür edilən bir yer, bir dövlətdir. İdealın əksinə olaraq, distopiya romanları, fərdlərin hər şəkildə tabe olduqları üçün arzuolunmaz və qorxulu bir topluma və ya cəmiyyətə yönəlmişdir.

Amerikalı ədəbi tənqidçi Fredrik Ceymson utopiyanın "zehni və ideoloji həbsin daha çox məlumat verəcəyi məqsədə xidmət etdiyini" iddia edir [5, s.26]. Tədqiqatçı eyni vaxtda müsbət və mənfi hadisələrin olma ehtimalını ifadə etmək üçün utopiya və həbs sözlərindən istifadə edir və bu iki əks problemin utopiyanın paradoksal təbiətindən irəli gəldiyi kimi qeyd edir.

Bir dəfə utopiya əldə olundu, bəs sonra? Klassik mənada yoxsulluq, ədalətsizlik, bərabərsizlik və qarşıdurma kimi utopiyanın qaldırdığı problemlər yox olacaqmı? Bunlardan biri post-sənaye cəmiyyətində asudə vaxtın həddindən artıq olmasıdır: çörək və əyləncənin müasir ekvivalentindən başqa bununla məşğul olmaq üçün hər hansı bir yol varmı? İkinci problem, utopiyada özləri üçün hakimiyyət axtaran yeni qeyri-demokratik elitaların qarşısının alınmasıdır. Üçüncüsü, irəliləyiş və hədəflərin zəruriliyi məsələsi var. Ona görə demək olar ki, utopizm Roma imperiya versiyasından o qədər də fərqli olmaya bilər.

Dünyanın sürətlə dəyişməsi bəşər övladının potensialının genişlənməsiylə nəticələndi və bunun özü də potensial olaraq utopik bir vəziyyətdir. Lakin fantast-yazıçının utopizmin təbiətini dəyişmək istəyi utopiya və distopiya ilə bitmir. Ənənəvi utopiyada insanın yer üzündə yenidən təşkil oluna biləcəyi yolları təsəvvür etməkdən ibarətdir. Onun mexanizmləri qanunvericilik, təhsil və ya qanuni dəyişikliklər, bəzən texnologiya və ya ətraf mühitin idarə edilməsindəki dəyişikliklərdir. Amma fantast-yazıçı insanın inkişafının belə məhdud baxışını qəbul etmir. Nə üçün biz texnologiyadan əziyyəti aradan qaldırmaq və bütün maddi ehtiyacları təmin etmək üçün istifadə etməyək? Bu yaxınlarda elm aləmi A.Klarkın əsərlərində nümayiş edilən nanotexnologiyanın utopik imkanlarını üzə çıxartdı: miniatür maşınlar sanki möcüzəvi şəkildə müalicə edə bilər. Biz bunu neyrocərrahiyyədə və digər cərrahiyyədə istifadə edilən mini robot skalpların varlığında gördük. Ənənəvi utopiya insanı olduğu kimi qəbul edir, qanunvericiliklə və təhsillə insanı utopiyaya uyğunlaşdırmağa ümid edir. Utopiyanın müasir forması daha mükəmməl cəmiyyəti təkamül və texnologiyanın nəticəsi hesab edir. Elmi-fantastik yazıçının verdiyi daha dərin suallar var. Niyə insan fiziologiyası və ya psixologiyası eyni qalmalıdır? Bəşəriyyətin minillikdən sonra utopiya kimi tanıdığı şey bizim üçün ümumiyyətlə utopiya kimi tanınacaqmı? Qreq Bearın (Greg Bear) A.Klarkın "Uşaqlığın sonu"na nəzirə kimi yazdığı "Qanlı musiqi" (Blood Music) əsərində ironik şəkildə utopiyanı, insan münaqişəsinin sonu və mükəmməl harmoniya və anlaşmanın gəlişini bütün bəşəriyyətin nəhəng bir orqanizm tərəfindən udulması ilə təsvir edir. Elmi fantastika janrında yazan amerikalı yazıçı Şerri Tepper isə özünün "Yan şou" (Side show) əsərində yazır ki, insanın son taleyi ilə bağlı onilliklər ərzində araşdırma apardıqdan sonra, onlar başa düşürlər ki, bu tale "yalnız insan olmağı dayandırmaqdır" və zarafatla "daha biz insan deyiliksə indi biz nə olacağıq?" [10. s.420] sualını qaldırılar.

Açıq, mükəmməl harmoniya T.Mordan bəri utopiya şəklində bərqərar olsaydı hansı cəmiyyət yarana bilərdi? Bəzi suallara hələ də cavab yoxdur. Tibb və biologiya elmi insan orqanizmində təkmilləşdirmələr edir, amma nəticə qane edirmi? Hələ də xərçəng kimi bəşəri bəlanın həlli yolları tapılmır. Xəstəlikləri aradan qaldırmaq, yoxsa ölümsüzlüyə yaxınlaşan bir şey yaratmaq olarmı? Kiborlaşmanın (insan və maşın/kompüterin qarışması) nəticəsində insan orqanizmində baş verə biləcək mümkün dəyişikliklər haqqında nə demək olar? Bu cür dəyişiklikləri təsəvvür etdikdə, utopiya qədər distopiyanın nəticələrini də düşünmək lazımdır. Universal telepatiya zehni harmoniya gətirə bilər, amma eyni zamanda da siyasi nəzarəti və şəxsi həyatın sonunu da gətirər. Ölümsüzlük insanın böyümə və inkişaf meylini genişləndirə bilər. Cansıxıcılıq, qeyri-sabitlik və ya həddindən çox əhali artımına gəlib çatan təhlükənin kim qabağın alacaq? Əksər utopik romanlarda verilməyən, lakin əsas sual – "həyatın mənası nədir?" bu günlərdə fantast-yazıların qaldırdıqları suallardı. Elmi fantastika yazıçıları bu cür cavabsız suallar verməklə utopiyanın üfüqlərini genişləndirir və gələcəyin – T.Morun təsəvvür edə bilməyəcəyi qeyri-müəyyən bir dünyanın yaranmasına işarə edir. Yalnız distopiyada deyil, utopiyada da təşkil olunmuş sosial struktur və ümumi xoşbəxtlik anlayışı fərd və azadlıq kimi fundamental məsələlərə cavab arayır. Layman Sarcet "Hakimiyyət və utopiya" əsərində yazır ki, bir çox utopiya fərdi azadlıq baxımından distopiyadır. Bəziləri bu görünüşə sahibdir, çünki müəllif azadlığa zidd dəyərləri vurğulamaq istəyir. Bu dəyər ümumiyyətlə bərabərlik, sifariş və ya təhlükəsizlikdir. Utopiyalarda rast gəlinən dominant dəyərlərin bir nümunəsini izləmək mümkündür. Utopiyalar nizam, mövcud iyerarxiya və itaət ilə maraqlanırlar [8, s.573].

A.Klarkın 1958-ci ildə yazdığı "Uzaq Yerin nəğmələri"(The Songs of Distant Earth" romanı uzaq gələcəkdə utopik bir insan koloniyasından danışır. Bu koloniyayada artıq Günəş yeni bir ulduza çevrilib, məhv edilmiş Yerə isə ziyarətə gəlirlər. Yazıçı əsərdə utopik və ateist ideyalardan bəhs edir, apokalipsisin baş verməsindən söz açır, amma eyni zamanda da ulduzlararası səyahətləri və yerdənkənar həyatı təsvir edir. Amerikalı ədəbi tənqidçi Devid Lenqfordun əsərlə bağlı fikirləri maraq doğurur. O, yazır: "gəlin etiraf edək ki, Klarkın personajları yalnız üç duyğunu idarə edə bilir: intellektual aclığı və itirilmiş şöhrət üçün kədər hissini və bir də sonsuzluq qarşısında ehtiram hissini" [7, s.16]. Göründüyü kimi tədqiqatçı utopiya ilə distopiya arasıda qalan, süni intelektin və texniki tərəqqinin məhv etdiyi insandan bəhs edir.

Roman gələcək 3800-ci ili əhatə edir və Talassa adlı yeni planetin sakinlərindən söz açır. Talassada rüşeym toxumu şəklində oraya göndərilən kiçik bir insan əhalisi var. Onlar Yer məhv olandan sonra insan irqinin tam yoxa çıxmaması üçün embrion şəklində saxlanılır. Talassalılar sakit, stabil həyat yaşayır, Üst qüvvələrdən və dinlərdən uzaqdırlar. Amma planetə enən "Magellan" kosmik gəmisi bu rahatlığı pozur. Onun göyərtəsində kriogen suspenziyaya yerləşdirilmiş bir milyon müstəmləkəçi var. Yazıçı göstərir ki, istənilən sabit dövləti ağlasığmaz yeni texnologiyalar sayəsində dəyişmək olar. Yəni, texniki tərəqqinin inkişafı özü ilə yaxşı ilə bərabər pisliklər də gətirə bilər.

Roman Günəş neytrino probleminin nəticələrini araşdırır. Astronomiya elmindən məlumdur ki, Günəşdən Yerə çatan neytrinolar kifayət deyil, elə bununla bağlı elm adamları neytrino hissəciyinin bu xüsusi vəziyyətini axtarırlar. A.Klark da əsərdə kosmik gəmini hərəkətə gətirən vakuum enerjisini seçir və göstərir ki, bu, elmi cəhətdən etibarlı, lakin yüksək futuristik texnologiyadır. Amma elmin inkişafı onun da cavabını tapacaq.

Romanda kosmik liftlərdən də bəhs edilir. A.Klark öz müsahibələrinin birində qeyd edir ki, o, əsərdə əyilmə disklərindən və ya digər fantastik texnologiyadan istifadə etmədən gerçək ulduzlararası səyahətdən söz acıb [1].

Əsəri futurist texnologiyanın ən gözəl nümunəsi hesab edən Cerald Conson yazır ki, A.Klarkı maraqlandıran dram daha geniş məsələlərə toxunur. Bu, biliyin məhdudiyyətinə, bəşəriyyətin və kainatın taleyinə aiddir [3].

A.Klarkın "Beşik" (Cradle, 1988) romanı da utopiya ilə distopiyanın simbiozunu əks edən əsərlərindən biridir. Əsər Mayami bölgəsindən olan bir neçə nəfərin Florida sahillərində

zədələnmiş kosmik gəminin super robotları arasında əlaqədən söz açır və bir daha göstərir ki, 80-cı illərin sonunda yazılan bu əsər XXI əsrin, yəni yarım əsr sonra məlum olan texnologiyanı təsvir edir. Məhz bu təsvir sayəsində əminliklə demək olar ki, A.Klark futurist yazıçı idi və "Beşik" romanı bunun əyani sübutudur. Əsərdə istifadə olunan video telefonlar və yüksək sürətli sualtı skaner avadanlığı telekommunikasiya sahəsindəki irəliləyişlərdən bəhs edir, bu isə öz növbəsində gündəlik həyat situasiyalarından tutmuş yaxın gələcəyə qədər uzanan texnoloji tərəqqinin göstəricisi kimi dəyərləndirilməlidir.

Əsərin yazılma tarixini nəzərə alaraq qeyd etməliyik ki, ABŞ-ın yeni raket sınaqları elmi tərəqqinin yüksəlişini əks etsə də insan amilini nəzərə almır. Elə bu səbəbdən raketin atılmasından az sonra məlum olur ki, o yoxa çıxıb. Aydındır ki, raket mülki ərazilərə çatsa, onlar böyük bəlalarla üzləşəcək. İşə jurnalist Kerol Douson baş qoşur və bu hadisə haqqında köşə yazısı yazmaq qərarına gəlir. Əsər bu hadisə fonunda Kantor adlı planetdə sualtı ilanların sivilizasiyasından və ekoloji sistemlərdən qorunmaq üçün necə mübarizə aparmasından bəhs edir. Dənizdən bir artefakt tapılır və məlum olur ki, o əslində milyon il əvvəl yerdən götürülmüş və yer üzündəki digər növlərlə birlikdə yaşamalı olan Üst qüvvələrin toxumlarını əvəz edən bir beşikdir. Beşiyi daşıyan kosmik gəmi kiborq robotlarla təchiz olunub və onu təmir etmək üçün okeanının dibinə enib.

Əsərin qəhrəmanı okeanın dibində raket axtararkən zədələnmiş gəmini tapır və gəminin təmir olunaraq öz missiyasına qaytarılması üçün təchizat toplamaq qərarına gəlir. Gəmi sakinləri Yer kürəsini tərk etməzdən əvvəl ondan beşiyi tərk etməsini xahiş edir, çünki bu, bəşər övladının daha yaxşı inkişaf etməsinə kömək edəcək, lakin insanlar arasındakı hərc-mərclik gələcək müharibələrə yol açır.

Göründüyü kimi yazıçı utopiya ilə distopiyanın simbiozunda baş verəcək fəlakətlərdən bəhs edir və bir futurist yazıçı kimi oxucularına xəbərdarlıq edir.

Ədəbiyyat

1. A Visit with Arthur Clarke. (excerpted from Locus Magazine, September 1999) http://www.locusmag.com/1999/Issues/09/Clarke.html
2. Claeys G. "The Origins of Dystopia: Wells, Huxley and Orwell" The Cambridge Companion to Utopian Literature. Cambridge: Cambridge UP, 2010. p.107-135.
3. Gerald Jonas. The Songs of Distant Earth// The New York Times. 11 May1986 https://archive.nytimes.com-/www.nytimes.com/books/97/03/09-/reviews/clarke-distant.html
4. Gordin M.D., Tilley H., Prakash G. Utopia/Dystopia: Conditions of Historical Possibility. Princeton: Princeton UP, 2010.
5. Jameson F. Archaeologies of the Future: The Desire Called Utopia and Other Science Fictions. London: Verso, 2005.
6. Lightspeed Magazine. Women Destroy Science Fiction special issue. CreateSpace Independent Publishing Platform . June, 2014 . 488 p.
7. Langford D. "Critical Mass"// White Dwarf. No. 81. Games Workshop. 1986. p. 16.
8. Sargent L.T. "Authority & Utopia: Utopianism in Political Thought." Polity 14.4 (1982): 565-584
9. Sisk, D.W. Transformations of Language in Modern Dystopias. Westport: Greenwood, 1997.
10. Tepper, Sh. Sideshow. New York: Bantam, 1993. 480 p.
11. Философский словарь / Под ред. И.Т. Фролова. – 4-е изд. М.: Политиздат, 1981. 445 с.

Н.Агаева

Человек будущего в утопии и антиутопии
(на материале творчества Артура Кларка)

Резюме

Среди научно-фантастических произведений Артура Кларка неоспоримыми фактами являются утопия и антиутопия. В произведениях этого типа человеческий интеллект создает альтернативную модель будущей жизни в утопическом обществе. Герои Артура Кларка – люди будущего, использующие все аспекты возможных технологических новшеств. В романах «Пес-

ни далекой земли», «Молот Господень» люди – граждане желаемого ими мира. Этот новый тип человека изобретает энергию, которая может заставить работать двигатель космического корабля, он путешествует на другие планеты, находит самые невероятные способы воздушного транспорта. Автор изображает людей, управляющих сверх футуристическими космическими лифтами, и тем самым подчеркивает, что будущее не так далеко.

N.Agaeva

The Human of Future in Utopia and Dystopia
(on the ground of Arthur Clark's creativity)

Summary

Utopia and dystopia are undisputable facts among science-fiction works written by Arthur Clark. In the works of this type human intellect creates the alternative model of the future lives in the utopian society. Arthur Clark's characters are the men of future and use all the aspects of possible technological innovations. In the novels “The Songs of Distant Earth”, “The Hammer of God” people are the citizens of the world they desire. This new type of human invents the energy that can make the engine of the space ship start work, they travel to other planets, find the most incredible ways of air transportation. The author depicts the people who control highly futuristic cosmic elevators and by this means stresses that the future is not so far.

Rəyçi: filol.e.d., dos. H.Əliyeva

Redaksiyaya daxil olub: 25.02.2023

E.Ş.BEHBUDOVA
dosent
e-mail: behbudova@mail.ru

Sumqayıt Dövlət Universiteti
(Sumqayıt şəh., 43-cü məhəllə)

METAFORUN NÖVLƏRİ

Açar sözlər: *metafor, kontekst, məna, tərcümə, hədəf, köçürmək, növ*
Ключевые слова: *метафора, контекст, смысл, перевод, цель, трансфер, тип*
Key words: *metaphor, context, meaning, translation, target, transfer, type*

Metafor bir-birilə əlaqəsi olmayan iki fikir arasında birbaşa müqayisə aparan üslubi vahid hesab olunur. Metaforlar yazının bir çox formalarında, həmçinin də yaradıcı ifadələrin müəyyən formalarında da istifadə oluna bilir. Onların hər hansı bir üslubda işlədilməsi əsərə, yaxud nitqə məna, ifadə gücü və gözəllik əlavə edir. C.Aitchison yazır ki, metafor bir kontekstə aid olan sözün və ya fikrin digərini təsvir etmək üçün istifadə edildiyi semantik transpozisiyadır [1, s.12].

Məlum olduğu kimi, "metafor" termini yunan mənşəlidir və hərfi tərcüməsi "to transsfer", yəni "köçürmək" deməkdir. O, situasiyadan, kontekstdən asılı olaraq bir mənanı digər bir mənaya transfer edə bilir. C.Lakoff və M.Conson yazırlar ki, hər bir metafor *mənbə domeni* (faktiki dünya) (source domain) və *hədəf domeni* (təsəvvür edilən dünya) (target domain) ehtiva edir [2, s. 142].

Bu terminlərin izahına baxaq:

Metafor (Metaphor)	Mənbə domen (the source domain)	Hədəf domen (the target domain)	Tərcüməsi
My brother is feeling blue.	Hisslərin ifadə olunması; hisslər səltənəti	Bəzəmək, rəng vermək; rənglər dünyası;	"Blue" kədər, qəm ifadə edir; Qardaşım bu gün özünü kədərli hiss edir.
That was going to break his heart.	İnsan hisslərini ifadə edir; burada ürək düyğuların gəmisi kimi təsvir edilir;	1) insan orqan; 2) ikinci hədəf sahəsi fizikadır, çünki bərk material parçasını sındırma hərəkəti hisslərimizin zədələndiyi zaman baş verənlərə yaxşı uyğun gəlir.	Bu onun ürəyini parçalayacaqdı.
He is pushing a boulder up a hill.	Daşların, qayalıqların arasındakı dünya; daş bir əngəl, maneə kimi təsvir edilir;	Çətinliklərlə, əngəllərlə dolu olan real dünya (yunan mifologiyası);	O, əlçatmaza doğru gedir; Bu onun görə biləcəyi iş deyil; bir işi tamamlamaq mümkün deyil;
All the world's a stage [4].	Yaşadığımız dünya;	Teatr dünyası;	Dünya bir səhnədir; Dahi U.Şekspir uzun illər əvvəl sanki hazırkı dünyadakı vəziyyəti görmüşdü: insanlar müxtəlif cildlərə girərək özlərini uydurma personajlar kimi təqdim edirlər;

Metaforların ifadə etdikləri, yaxud ehtiva etdikləri mənaların müəyyən edilməsi zamanı bəzi məsələlər nəzərə alınmalıdır. Bununla bağlı aşağıdakı cədvəli təqdim etmək olar [3, s.90]:

Məlumat (Information)	**Söz oyunu (Word play)**
Məzmun	Forma, üslub
Hərfi (literal)	Məcazi
denotasiya	konnotasiya
obyektivlik	subyektivlik
Təkmənalılıq	Çoxmənalılıq
qapanma	açıqlıq
ciddilik	oynaqlıq

Əvvəldə də qeyd etdiyimiz kimi, metaforların bir neçə növü var. Onlardan bəzilərini təqdim edək [5, s.168]:

1) Standart metafor (standard metaphor);
2) Gizli (implisit) metafor (implied (implicit) metaphor);
3) Əyani (görünən, vizual) metafor (visual metaphor);
4) Genişləndirilmiş metaphor (extended metaphor);
5) Ölü metafor (dead metaphor);

Metaforların bu növləri barədə müəyyən məlumat verək.

1) Standart metafor (standard metaphor). Bu növdə iki obyek arasındakı müqayisə birbaşa sinonim kimi verilir. Metaforların çox hissəsi bu kateqoriyaya aid olur. Nümunələrə baxaq:

*When he entered the room, he saw an American before him. He used to say the same word: **"America is a patchwork of people".** (O, otağa daxil olanda qarşısında bir amerikalı gördü. O, eyni sözləri deyirdi: "Amerika müxtəlif insanların toplandığı yerdir". (Burada insan çoxdur və onların hər biri yorğandakı yamaq kimidir; Amerika Birləşmiş Ştatlarının necə müxtəlif insanlardan və mədəniyyətlərdən ibarət olduğunu əks etdirən bir metafor)* [6].

Növbəti nümunə:

*We have a companion at work. She is a woman. We know her **to be a paper tiger.** Once I accidently saw her speech while she was protecting one of our coworkers, so I understood that she is not dangerous. **She is a paper tiger**. (Bizim bir iş yoldaşımız var. O, qadındır. Biz onun "kağız pələng" olduğunu bilirik. Bir dəfə təsadüfən iş yoldaşlarımızdan birini qoruyarkən onun nitqini eşitdim və onun təhlükəli olmadığını başa düşdüm. Onun yalnız qışqırmağı var, o, qorxulu deyil)* [6].

2) Gizli (implisit) metafor (implied (implicit) metaphor). Bu növdə iki obyekt arasındakı müqayisə birbaşa ifadə olunmur. Burada sözdə olan dəyişiklik mühüm rol oynayır. Məsələn:

*When we entered the room, the actress was **howling.** (Biz zala daxil olanda aktrisa ulayırdı)* [6].

Burada aktrisa (qadın) canavarla müqayisə edilir və gizli metafor şəklində təqdim olunur. Aktrisanın yaxşı oyunçu olmamağı diqqətə çatdırılır.

*When my brother bought a new car, he was very happy. He used to say that **his mustang was a real gas-guzzler** (Qardaşım yeni avtomobil alanda çox xoşbəxt idi. O, tez-tez deyirdi ki, mənim avtomobilim əsl mustanqdır, yəni balaca olmasına bamayaraq, çox qaz istifadə edir. Məlum olduğu kimi, mustanq adətən kiçik və yüngül olan Amerika vəhşi atı adlandırılır. Bu metaforda da avtomobil gizli şəkildə canlı ilə müqayisə edilir)* [6].

Gizli (implisit) metaforların bir üstünlüyü də odur ki, insanlar onları mənalarını tam açmamış implisit formada da işlədə bilərlər. Məsələn, bir nümunəyə baxaq: "Will you please pick up the babies?" (Zəhmət olmasa körpələri götürərsiniz?) cümləsinin əvəzinə bu metaforik cümləni işlətmək olar: "Will you go and harvest the sprouts?" (Hərfi mənada: Gedib körpə göyərtiləri toplaya bilərsiniz?) Burada körpələr və körpə göyərtilər arasındakı əlaqəaydın şəkildə göstərilməyib və bunun aydın olması üçün kontekstə baxmaq lazımdır [7, s.156].

3) Əyani (görünən, vizual) metafor (visual metaphor). Bu növdə iki fərqli konseptual aləm arasında əlaqə yaradan görüntü hesab olunur, dil deyil. Metaforun bu növündən daha çox reklamlarda istifadə olunur. Belə ki, burada təsvirlər və animasiyalar birbaşa məna ifadə etmədən müəyyən hisslər, assosiasiyalar və ideyalar doğurur.

Nümunəyə baxaq:

The tiger of the eponymous chocolate bar stood for the power felt when breaking its crunchy layers [6]. *(Eyniadlı şokolad çubuğunun pələngi onun xırtıldayan təbəqələrini sındırarkən hiss olunan gücü ifadə edirdi).*

The way ice cream commercial show molten chocolate is intended to evoke the same sensual pleasure as experienced when eating the ice cream [6]. (Dondurma reklamı ərimiş şokoladın dondurma yeyərkən yaşanan eyni həssas həzzi oyatmaq məqsədi daşıyır).

Vizual metaforlardan həm də müəyyən ikonların (simvolların) daha aydın qavranıması üçün də istifadə edirlər [7, s.56]. Bu cür metaforların ifadə etdikləri məna müəyyən fizika qanunlarına və real dünya manipulyasiyalarına əsaslanır. Belə metaforlara aşağıdakıları nümunə göstərmək olar:

İngilis dilində	**Azərbaycan dilində**
The trash bin for discarded files.	Atılan fayllar üçün zibil qutusu.
Folders for file collections.	Fayl topluları üçün qovluqlar.
Cutting, pasting, plus drag-and-drop actions to move files from one location to the other.	Faylları bir yerdən digərinə köçürmək üçün kəsmə, yapışdırma və ekranın bir hissəsindən digər hissəsinə köçürmə əməliyyatları.

4) Genişləndirilmiş metaphor (extended metaphor). Bu növdən adətən yaradıcılıq xatirinə bir konseptlə digəri arasında davamlı oxşarlıq yaratmaq üçün istifadə olunur. Burada mətn boyunca hədəf domenin bir çox xüsusiyyətləri real dünyada baş verənləri təsvir etmək üçün istifadə olunur. Bu metafora ən yaxşı nümunə U.Vaytmanın 1865-ci ildə yazdığı "O Captain, My Captain" (Ah Kapitan, Mənim Kapitanım) adlı şeirində əks olunub. Həmin şeirdə müəllif A.Linkolnın ölümünə qədər millətinə etdiyi rəhbərliyin səyahət yolunu müxtəlif genişləndirilmiş metaforlardan istifadə edərək təsvir edir [8].

Qeyd edək ki, genişləndirilmiş metaforlardan istifadə üstünlük təşkil etsə də, onların həddindən artıq işlədilməsinin riskləri də vardır. Bu metaforlardan çox istifadə etdikdə onlar özləri-özlərinin parodiyasına çevrilə bilir. Ona görə də onların işlədilməsinə əmin olmaq lazımdır.

U.Şekspir "Romeo və Culyetta" əsərində genişləndirilmiş metaforlardan istifadə etmişdir. Bu metaforun işlədilməsinə ilk əvvəl Romeonun Culyettanı gördüyü an rast gəlirik. Culyettanı görən Romeo onu günəşə bənzədir və belə deyir: *"But, soft! What light through yonder window breaks? / It is the east, and Juliet is the sun* [8]. *(Hərfi tərcüməsi: Lakin, yumuşaq, mülayim! Pəncərədən daxil olan işıq? / O, şərqdir, Culyetta isə günəşdir.)*

Burada U.Şekspir Culyettanı günəşlə müqayisə edərkən günəşin keyfiyyətlərini təqdim edir, günəş şərqdən doğur və s. sonra isə onun funskiyalarını genişləndirir "doğmaq, parlamaq, ədalətli günəş, paxıl ay, paxıl ayı məhv et" və s. şəkildə. Burada işlədilən genişləndirilmiş metafor Romeonun ilk baxışdan Culyettaya aşiq olmasını və onu ehtirasla sevməsini vurğulamaq üçün işlədilir.

Genişləndirilmiş metafora aid digər nümunəni E.Dikinsondan verə bilərik. Onun "'Hope' is the thing with feathers" (*Ümid* lələkləri olan bir şeydir) adlı şeirində genişləndirilmiş metafor işlədilir. Müəllif bu şeirində ümid hissini (Hope) kiçik quşla müqayisə edir. E.Dikinson şeirində "quşun" tapıla biləcəyi bir çox yeri göstərməklə ümidin təmin edə biləcəyi möhkəmlik və gücü vurğulayır və belə yazır: "I've heard it in the chilliest land – / And on the strangest Sea" (Mən bunu ən soyuq torpaqda eşitmişəm – / Və ən qəribə dənizdə). Bütün şeir

boyu ümid istənilən fırtınaya dözə bilən (tab gətirən) kiçicik quşla müqayisə edilir və buradakı təsvirdə genişləndirilmiş metafor işlədilir [8].

5) Ölü metafor (dead metaphor). Bu metaforun mənasını belə izah edə bilərik ki, metafor çox işlədilir və o, işlədilən zaman mənası hamı tərəfindən başa düşülür və bununla da həmin metafor bütün təsəvvür gücünü itirir. Bu cür ifadələr dildə müəyyən sayda olduğuna görə onların aktiv şəkildə metafor kimi işlədilməsi münasib hesab edilmir. Bu metaforlar dildə artıq metafor kimi deyil, adi söz, yaxud feili birləşmə kimi işlədilir [8]. Məsələn:

To fall in love – aşiq olmaq; to hang up the phone – dəstəyi asmaq; to shoot some footage – bəzi görüntüləri çəkmək; to approach a deadline – son tarixə yaxınlaşmaq; hands on a clock face – saatın əqrəbləri; electric current – elektrik cərəyanı və s.

Qeyd etdiyimiz kimi, dildə bəzi sözlər var ki, onlar artıq ölü metaforlar hesab olunur. Məsələn, bir nümunə də təqdim edək: "Creativity" (Yaradıcılıq) bir zamanlar ilahi yaradan haqqında fikirləri oyada bildiyi halda, hazırda ilahi mənaya aid olan funksiyalarını itirib və indi sadəcə olaraq gündəlik insan fəaliyyətini təsvir etmək üçün işlədilir [9, s.22].

Bu məqalədə metafor termininin izahını verməklə yanaşı, onun ifadə etdiyi mənalara da toxunduq. Terminin tarixinin qədim zamanlara aid olduğunu, lakin metafor termini altında işlədilən sözlərin günümüzdə də aktual olduğunu vurğuladıq. Metaforun müxtəlif növləri haqqında məlumat verdik. Növlərin izahı zamanı müxtəlif dil faktlarına müraciət edik və nümunələr əsasında fikrimizi izah etdik, əsaslandırdıq.

Ədəbiyyat

1. Aitchison J. Language change. Cambridge: Cambridge University Press, 1997, 298 p.
2. Lakoff G., Johnson M. Metaphors we live by. Chicago, IL.: University of Chicago Press, 1989, 242 p.
3. 31) Chandler D. Semiotics: the basics. London: New York, Routledge, 2022, 364 p.
4. https://www.shakespeare.org.uk/explore-shakespeare/shakespedia/shakespeares-plays/as-you-like-it/
5. Black M. Models and Metaphors: Studies in Language and Philosophy. Ithaca, NY: Cornell University Press, 1962, 268 p.
6. https://heytutor.com/resources/blog/what-is-a-metaphor-definition-and-examples/
7. Törneke N., et al. Metaphor in Practice: A Professional's Guide to Using the Science of Language in Psychotherapy. UK: Context Press, 2017, 256 p.
8. https://www.masterclass.com/articles/dead-metaphor#:~:text=Storytelling%20and%20Humor, What%20Is%20a%20Dead%20Metaphor%3F,ineffective%20as%20an%20actual %20metaphor.
9. Byatt A. New Testament Metaphors. USA: Pentland Press, 1995, 322 p.
10. Kövecses Z. *Metaphor: A Practical Introduction.* Oxford: Oxford University Press, 2010, 375 p.

Э.Ш.Бехбудова

ВИДЫ МЕТАФОРЫ

Резюме

В статье рассматриваются виды метафор. Во-первых, он дает некоторую информацию о происхождении термина и объясняет его определение. В статье метафора определяется как стилистическая единица, а также языковая единица.

Метафора считается стилистической единицей, которая осуществляет прямое сравнение двух несвязанных идей. Метафоры могут использоваться во многих формах письма, а также в других формах творческого самовыражения.

В статье также исследованы некоторые виды метафоры. Наблюдается, что примеры, относящиеся к указанным типам, могут прояснить значения метафор.

E.Sh.Behbudova

TYPES OF METAPHOR

Summary

The article deals with the types of metaphors. It firstly gives some information about the origin of the term, and explains its definition. The article defines a metaphor as a stylistic unit as well as a linguistic unit.

A metaphor is considered to be a stylistic unit that makes a direct comparison between two unrelated ideas. Metaphors can be used in many forms of writing as well as other forms of creative expression.

Some types of metaphor have been investigated in the article too. The examples relating to the stated types are observed to be able to clarify the meanings of metaphors.

Rəyçi: prof. F.F.Cahagirov

Redaksiyaya daxil olub: 12.05.2023

Ü.K.ƏHMƏDOVA
müəllim
e-mail: ulviyyahmadova@gmail.com

Xəzər Universiteti
(Bakı şəh., Məhsəti Gəncəvi küç., 11)

GÜLTƏKİNİN MÜHİTİ VƏ YARADICILIĞI MİLLİ İSTİQLAL KONTEKSTİNDƏ

Açar sözlər: *Gültəkin, ailə mühiti, ədəbi-ictimai, milli istiqlal*
Ключевые слова: *Гюльтекин, семейная среда, литературно-социальная, национальная независимость*
Key words: *Gultekin, family environment, literary-social, national independence*

Gültəkin Azərbaycan ədəbi, ictimai fikrində istiqlal şairi kimi tanınmış, 30-cu illər repressiyasının qurbanı olmuşdur. Onun yaradıcılığında Azərbaycan, vətən, işğal, xalq, millət, ana, yurd obrazları başlıca yer tutmuş, şeirləri siyasi fikrə belə təsir göstərmişdir. Onun 1920-ci il rus işğalına qarşı şeirləri öz kəskinliyi ilə fərqlənmişdir. İşğala qarşı bu cür kəskin mövqe tutmaq istər vətəndə, istərsə də mühacirətdə hər şairə nəsib olmur. Bu da onu göstərir ki, Gültəkinin olduğu mühiti milli düşüncəni özündə ehtiva etdiyi kimi, onu yaradıcılığında bütün yönləri ilə təsvir etməyə imkan vermişdir. Gültəkinin bir vətəndaş, şair, ədəbiyyat tarixçisi kimi formalaşmasında hansı amillər rol oynamışdır? "Şairin işğala qarşı bu cür dirənişi onun doğulub boya-başa çatdığı mühitdə axtarmaq lazım gəlir.

Gültəkinin uşaqlıq illəri Azərbaycanda milli hərəkat dövrünə, gəncliyi isə Cümhuriyyət illərinə düşmüş və istiqlalı özü yaşamışdır. Əmin Abid (Abid Mütəllib oğlu) 1898-ci ilin noyabr ayının 2-də Bakı şəhərində anadan olmuşdur. Atası Mütəllib kişi daşyonan idi, necə deyərlər çörəyi daşdan çıxırdı. Anası Reyhan xanım evdə açdığı kursda qızlara, qadınlara və kiçik yaşlı uşaqlara "Quran" oxumağı öyrədən, mərsiyaxanlıq edən, başmaq və balış üzünə bəzəklər vurub satmaqla ailənin güzəranının təmin edən və uşaqlarının təhsil alması, biliklərə yiyələnməsi üçün əlindən gələni əsirgəməyən qadın olmuşdur. Əmin Abid ailəsinin həyat tarixçəsi Bakının sonuncu xanı Hüseynqulu xana gedib çıxır. Hüseynqulu xanın çar generalı Sisianovu öldürməsi ilə bu nəsilin tarixinə qan yazılmışdır. Belə ki, Sisianovun öldürülməsindən sonra çarizmin işğalçı cəza dəstələri bu nəsilə divan tutur. Buna görə də daşyonan Mütəllib kişi Rusiyanın hakim dairlərinə nifrət edirdi. Hətta Hacı Zeynalabdin Tağıyev kimi dövrünün ən nüfuzlu milyonçusunun belə sözünü yerə salıb. Hacı Zeynalabdin Tağıyev Mütəllib kişinin oğlu Əliabbasın qabiliyyətini görüb onu öz xərci ilə oxutmaq istəsə də, qarşılığında "rusdan gələn heç bir xeyir mənə lazım deyil" cavabını almışdır. Atanın bu sərtliyinə baxmayaraq, Reyhan xanım Abidə özünün açdığı kursda dərs verməklə qalmayıb, Bakı şəhər bələdiyyəsinin nəzdində açılmış Aleksandr adına Üçüncü oğlan gimnaziyasında oxumağa göndərmişdir. Əsl adı Zeynalabdin olsa da, "Məktəb" jurnalında "Abid" imzası ilə məqalələr və şeirlər nəşr etdirməsi onun gələcəkdə də rəsmi sənədlərdə adının Abid kimi yazılmasına səbəb olmuşdur. Əli Şamilin fikrincə də, Ə.Abidin millətçi ruhda böyüməsində ailənin təsiri böyük olmuşdur: *"Əmin Abidin millətçi ruhda böyüməsində ailəsinin rolu böyük olmuşdur. Atası Mütəllibzadə bir daş ustası, anası Reyhan isə sadə bir ev xanımı olmasına rəğmən, uşaqlarının ziyalı və mədəni bir insan olması yolunda əllərindən gələni əsirgəməmişlər"* [1, s.23]. Əmin Abidin böyük qardaşı Əliabbas Müznibin də onun həyat yoluna böyük təsiri olmuşdur. Ə.Müznib 1907-ci ildən ilk şeirlərini "Təzə həyat", "İttifaq", "Zənbur" kimi qəzet və jurnallarda nəşr etdirmişdir. 1910-cu ildə özünün "Hilal" qəzetini nəşr edir, lakin həddindən artıq tənqidə və siyasi təhlilə yer verdiyinə görə qəzet ilk sayından sonra bağlanır. Rəsmi dairələrdən izinsiz çıxardığı ikinci sayında "*Namusu qatı, qarət etməklə qazanmaq olmaz, bəlkə, hüquqi vətən yo-*

lunda ölməklə olar" ifadəsini işlətmişdir ki, bu, açıq-aşkar xalqı öz gələcəyi haqqında düşünməyə çağırış idi. Elə buna görə də, Ə.Müznibin ikinci dərgisi "Şihabi-sağıb" da eyni aqibəti yaşayır. Bu fəaliyyət rəsmi dairələrin getdikcə ona münasibətində üzə çıxır. 1912-ci ildə mətbuatdakı *"zərərli istiqamətli"* yazılarına görə ömürlük həbs cəzasına məhkum edilib, Sibirə sürgün edilir. Romanovlar sülaləsinin üç yüz illiyi münasibətilə əfvə düşdükdən sonra 1913-cü ildə Bakıya qayıdır və yeni mətbu orqanlar yayımlamağa başlayır. Zaman-zaman "Təzə həyat", "İttifaq", "Zənbur", "Dirilik" kimi qəzet və jurnalların redaktoru olduğu müddətdə Azərbaycan türklərində siyasi şüur formalaşdırmağa çalışan Müznibin sürgün həyatını nəzərə alan yerli çar orqanları onun yenidən qəzet təsis etməyinə mane olmağa çalışır. Ə.Müznib 1914-cü ildə fənd işlədərək yaşca özündən böyük qardaşı Əbülfəz Mütəllibzadənin adına "Dirilik" adlı jurnal çıxarır. 1914-1916-ci illər arasında yayımlanan "Dirilik"də M.Ə.Rəsulzadənin, Kazımoğlunun, Əbdülxaliq Cənnətinin, Cəfər Cabbarlının, Abid Mütəllibzadənin, Umgülsümün, Rəcəb Əfəndizadənin və s. müəlliflərin müxtəlif məzmunlu yazıları yayımlanır. Azərbaycanda türkçülük fikrinin yayılmasında, Ə.Müznib və onun "Dirilik" jurnalı ətrafına topladığı ədəbi qüvvələr olduqca əhəmiyyətli rol oynayır. Yaradıcılığında heç bir zaman tarixi və müasir baxımından Azərbaycanın ruslar tərəfindən işğalını, onun gördüyü əziyyətləri göz ardı etməmişdir. Təxminən 1920-ci ilə aid qeydlərdən birində XIX əsrin əvvəllərində çarizmin Bakını işğalı zamanı baş verən hadisələri xalq ədəbiyyatından aldığı şeir parçasında rusların xanlığı işğal etməsini, mübarizə ilə geri azad alınan torpaqların müqəddəsliyini təsvir edir. Bu ərəfədə uşaqların və yeniyetmələrin dünyagörüşünü formalaşdırmaq üçün "Dəbistan"(1906-1907), "Rəhbər" (1906), "Məktəb" (1911-1920) kimi jurnallar yayımlanırdı. "Məktəb" jurnalının ilk sayı Bakıda 1911-ci ilin noyabr ayının 29-da nəşr edildi. İki həftədə bir dəfə nəşr olunan "əxlaqi, ədəbi, fənni, müsəvvir məcmuə" yalnız Azərbaycanda deyil, Qafqazda böyük bir aydın nəslin yetişməsinə səbəb oldu. 1911-ci ildən nəşr edilən "Məktəb" jurnalında insanlıqları ilə nümunə olan məşhur elm və sənət böyüklərinin tərcümeyi-halı, əsərlərindən nümunələr dərc edilir, elm, sənət, təhsil və s. mövzularındakı faydalı yazılar məktəblərdə tədris ediləcək qədər dürüstlüyü ilə seçilirdi. Uşaqların dünyagörüşünün genişlənməsində, elmə, maarifə həvəsin artmasında, onlarda müsbət əxlaqi keyfiyyətlərin tərbiyə edilməsində Mahmud bəy Mahmudbəyov, Qafur Rəşad Mirzəzadə, Əbdürrəhman Əfəndizadə kimi ziyalılar əllərindən gələni əsirgəmədilər. Jurnalda Süleyman Sani Axundov, Abdulla Şaiq, Abbas Səhhət, Abdulla Tofiq Sur, Rəşid Əfəndiyev, Əli bəy Hüseyinzadə, Əliabbas Müznib, Üzeyir Hacıbəyli, Ağaəli Qasımov, Şəfiqə xanım Əfəndizadə və b. peşəkar qələm sahibləri ilə yanaşı onlarla məktəblinin də yazıları dərc olunurdu.

Əmin Abidin milli ruhda böyüməsinin və yaradıcılığında bu istiqamətin aparıcı rol oynamasının başlıca səbəblərindən biri də dövrün siyasi proseslərində yaxından iştirak edən və sonralar Azərbaycan Milli Şurasına rəhbərlik edən M.Ə.Rəsulzadə ilə bu ailənin yaxınlığı olmuşdur. Ayrı-ayrı xatirələrdə Ə.Müznibin gəncliyində M.Ə.Rəsulzadə ilə sıx dostluq etdiyi deyilir. Tədqiqatçı İslam Ağayev isə bir qədər də irəliyə gedərək onların qonşu olduğunu bildirərək yazır: *"Onlar əslində bir məhəllədə böyümüşdülər. Ə.Müznib 1913-cü ildə onun İrandan mühacirətdən qayıtmasından sonra çıxardığı "İqbal! Qəzetində çalışmış, 1914-cü ildən isə özünün çıxartdığı "Dirilik" jurnalında M.Ə.Rəsulzadə ilə əsl əqidə dostu kimi fəaliyyət göstərmişdir"* [2, s.11]. Hətta Ə.Abidin "Əmin" sözünü M.Ə.Rəsulzadənin adından götürüldüyünü iddia edənlər də vardır. Məsələn, Ə.Abid 1938-ci ildə repressiya olunarkən əleyhinə ifadə verən uşaqlıq dostu Ə.Əliyevin ifadəsində deyilir: *"...Neçin o Əmin Abid oldu? Türklüyündən və "Müsavat" partiyasının lideri Məhəmməd Əmin Rəsulzadəyə sayğı ifadəsi olaraq Əmin ismini almışdır"* [3, vər.4]. Ə.Müznib yalnız M.Ə.Rəsulzadə ilə yaxın olmamış, həm də "Müsavat" partiyasını təşkil edən üç kişidən biri Abbasqulu Kazımzadə ilə yaxın olmuşdur. A.Kazımzadə Bakıda özünün kitab mağazası ilə məşhur olmuş və bu mağaza 1911-ci ildə "Müsavat" partiyasının yaranmasının ilk ocağı kimi tanınır. Ali təhsil almayan Ə.Müznibin həyatında bu mağaza böyük rol oynamışdır. Bütün bunlar Əmin Abid ailəsinin baş verən icti-

mai-siyasi proseslərin içində olduğunu göstərirdi. Yaradıcılığının ilk dövründə qardaşı Ə.Müznibə yazdığı "Dil" şeirində bir türk gözəlini təsvir edir. Bu gözəl "Dil"dir. Görünür ki, gənc Aəmin Abid uzun müddət bu barədə fikirləşmiş *("Uzun müddət qoşdum, durdum, dolaşdış/Qafamı sərt fikrin daşına çarpdım")* və nəhayət türk dilini bir gözəl kimi təsvir etmişdir. Bu tərif türk dilinin XX əsrin əvvəllərindəki vəziyyətini aydın əks etdirirdi:

Sürmə telli, gözəl, parlaq saçları,
Əcəm deyil, ancaq hey ərəb qarı.
İncə burnu kondonlu bir ingilis,
Bəyaz köksü fransızdır şübhəsiz.
Şümşad barmaqları yunan yavrusu,
Bir baxışda olur insan məhbusu.
Cığatay kəməri incə belində,
Uyğur yelpazəsi pəncə əlində [4, s.30].

Abid Mütəllibzadə də hələ gənc ikən böyük qardaşı Ə.Müznibin mətbu orqanlarında kiçik yazılarla çıxış edirdi. Erkən yaşlarından üslub və quruluş baxımından qeyri-professional şəkildə qələmə aldığı şeirlərində din, dil, qadın azadlığı, cəhalət və s. kimi məsələlərə toxunurdu. Axtarış dövrünün məhsulu olan "Dirilik" jurnalındakı silsilə yazılarında "Məktəb"dən başlayan maarifçilik təfəkkürünün yerini "ittifaq" alır. Tam olaraq "turançılığın", "türkçülüyün" və "birliyin" proqram şəkildə formalaşmadığı zamanda şair "xabi-qəflət" yuxusundan oyanmağın sirrini birlikdə, arzu etməkdə, pak niyyətdə görür:

Könül, bəsdir daha, artıq oyan bir xabi-qəflətdən
Özünü sən də qurtar bunca zillətdən, zəlalətdən.
Bugün öylə bir dəmdir ki, hümmət eylə hümmətlə,
Özün Türk oğlu Türk, əlbət, xilas eylə əsarətdən [5, s.65].

"Dirilik birlikdir" şüarını təbliğ edən jurnal əsasən üsyankar, siyasi məsələlərə kəskin yanaşma ilə seçilir:

Gər dirilik etməkdirsə, bu cahanda məqsədin,
İttifaq et, ittifaq et, ittifaq et, ittifaq! [5, s.65]

İntiqamdan ittifaq boyutuna keçən gənc Abidin jurnalda klassik üslubda şeirləri də yayımlanmış, "Dirilik" jurnalı Abid üçün həm məktəb, həm də təcrübə missiyasını daşımışdır. Dövrün məşhur ideoloqu M.Ə.Rəsulzadənin müstəqillik, türkçülük üçlü formul ağırlıqlı yazıları "Milli dirlik" də yayımlanırdı. Ə.Hüseynzadə tərəfindən ideya əsası qoyulan, Ziya Göyalp tərəfindən proqramı hazırlanan, Azərbaycanda M.Ə.Rəsulzadə aracılığı ilə ictimai fikir halına gətirilən ideologiyanın strukturu formalaşır. Həm Məhəmməd Əmin, həm də Ziya Göyalpın türkləşmək islamlaşmaq, müasirləşmək formulu isə hər ikisinin dediyi kimi, məxsusi bir mədəniyyətin vücud halına gəlmiş forması kimi ifadə edilir. Məqsədi türk milli şəxsiyyəti yaratmaq olan türkçülük Qərb mədəniyyəti, islam ruhu ilə tamamlanır. M.Ə.Rəsulzadə "Açıq söz" qəzetində yayımlanan "Tutacağımız yol" məqaləsində hər bir millətin azadə yaşayıb tərəqqi edə bilməsi üçün 3 əsasa istinad etmək məcburiyyətində olduğunu qeyd edirdi. Bunlar dil, din və zamandır. Onun dikrincə dilcə-biz türküz, türklük milliyətimizdir, dincə- müsəlmanız. Zamanca isə biz texnikanın, elm və fənnin möcüzələrini yaratdığı bir dövrdəyik. O, yazırdı: "*Demək ki, sağlam, mətin və oyanıq məfkurəli bir milliyət vücuda çalışmaq istərsək ki, zaman bunu tələb edir – mütləq ki, 3 əsasa sarılmalıyıq. Türkləşmək, müasirləşmək və islamlaşmaq*.." [6, s.1]. Ziya Göyalpa görə, ümmət ülküsü – məfkurəsi islamçılıqdır: "*Yəni türkçülərin hamısı islam olduğu üçün türkçülük heç bir zaman islam ümmətçiliyinə əks bir duyğu bəsləməyəcək, türkləşmək, islamlaşmaq ülküləri – məfkurələri arasında bir çatışma – ziddiyyət olmadığı kimi, bunlar ilə müasirləşmək ehtiyacı arasında da bir uyuşmazlıq olmayacaqdı* [7, s.45].

Gəncliyində Ə.Abidin yaradıcılığına təsir göstərən amillərdən biri Türkiyə poeziyasının görkəmli nümayəndələri M.Ə.Yurdaqul, T.Fikrət, Ə.Hamid və başqalarının yaradıcılığı olmuşdur. "Qanlı hədiyyə", "Bir gün gələr ki...", "Qafqaziya", ""İntiqam", "Sükuti-pürhəyə-

can", "Aliyeyi-hüsn", "Vərəmli qız" və s. şeirlərində bu təsir aydın şəkildə görünməkdədir. "Aliyeyi-hüsn" şeirini türk qızına həsr etmişdir. Tofiq Fikrətə həsr etdiyi şeirə siə başlıq qoymamış "Böyük türk şairi Tofiq Fikrətə" adı ilə çap etdirmişdir. Ona həsr etdiyi şeirində böyük şairdən təsirlənərək onun yolunu davam etdirməsi arzusunu dilə gətirir və onu gözləyən günlərə "Çöhrəmdə bir təbəssüm, ümid, bir həyat", – deyə ifadə edir. Lakin indi həyat bir başqadır; şair iki yol ayrıcında üzünü Tifiq Fikrətə tutaraq yazır:

Bayraqlarımda xəndeyi-fərdası Fikrətin,
Huşumda vardır hər gecənin gündüzü müdam,
Bir inqilaba doğru qoşardım müdam,
Bəs indi!.. Əhdimə eləyimmi yenə dəvam? [4, s.12]

"Böyük simalar" şeirini Əbdülhaq Hamidə həsr etməsindən belə aydın olur ki, ən çox oxuduğu şairlərdən biri olmuşdur. Ə.Abidin gəncliyində bir az da klassik üsluba meyil etməsi də buradan irəli gəlirdi. Gənc şair Ə.Hamidi türkün "ən böyük", "şanlı dühası" adlandırır, üfüqlərin onun qarşısında səcdə etdiklərini dilə gətirir və bütün əsərləri ilə dahiyanə bir ömür yaşadığını bildirirdi:

Onunla nurlanır Şərqin səması,
O bir mövcud ki, hüsnü-şerlərdən
Yaratdı bir bürci-mütəntən.
Fikirlərdə dərinliklər oyatdı,
Dərinliklərdə yükəsklik yaratdı.
Həmən şeirində ülviyyət gülümsər,
Münəvvər şeri-Hamid, pək münəvvər [4, s.29].

İsmayıl bəy Qaspıralının həyatı və yaradıcılığı da Ə.Abidi daim maraqlandırmış, onun xidmətlərini yüksək qiymətləndirmişdir. "Dahi, əzəm İsmayıl bəy Qaspırınskinin vəfatı münasibətilə" qeydi ilə yazdığı dördlükdə böyük türkçü İ.Qaspıralını "sevgili ustadımız", – deyə yad edir və vəfatından sonsuz dərəcədə kədərləndiyini poetik şəkildə belə ifadə edirdi:

Getdi əldən və əsf...! Ol sevgili ustadımız,
Ərşə əks əndaz oldu naləvü fəryadımız.
Ah!.. Yarəb, biz necə bədbəxt millət olmuşuq,
Şad olmazmı məgər bir dəm dili-naşadımız [4, s.24]

Ə.Abidin ilk dövr yaradıcılığında Azərbaycan romantiklərindən H.Cavidin də təsiri hiss olunur. "Bir gün gələr ki...", "İntiqam", "Aliyeyi-hüsn", "Vərəmli qız" və s. şeirlərində romantik-poetik düşüncə aparıcı olur. "Vərəmli qız" şeirində "*Bir qız ki, qızıl surəti solmuş, saralmış/Bir qız ki, dərin gözləri ancaq baxa qalmış/Bir qız ki, nihani qəm ilə bir həyəcandır,/Bir qız ki, küdurəti cahandır və cahandır"* [4, s.18-19] misralarında H.Cavidin "Sarı gül, ey şikəstə, solğun nur,/Niçin aludeyi-xəyal oldun?" misraları ilə səsləşir. Bu səsləşmə Ə.Abidin "Aliyeyi-hüsn" şeirində daha aydın hiss olunur. H.Cavidin "Qız məktəbində" şeirindəki qızın həyatı ilə Ə.Abidin bu şeiri ilə yaxınlıq təşkil edir:

Kimsən? Adın nə? Sevdiciyim söylə namını!
Nerede doğuldun? Hankı mələkdir anan? Və ya
Göydə bitən çiçəkmisən endin yerə, ya ki,
Bir cənnəti mübarəkə yanmaqmı fikrin? [4, s.18]

1917-ci ildən etibarən yeni bir mərhələyə qədəm qoyur. Bu dövrdən başlayaraq, biz onun lirikasında getdikcə yalnız Azərbaycan cəmiyyəti üçün deyil, bütün Türk dünyası üçün əhəmiyyət kəsb edən mövzuların işləndiyini görürük. İlk əvvəllər yazdığı təkbəndli dördlüklər cəmiyyətə təsir göstərən məişət problemlərini həsr edən Abidi getdikcə düşüncə tərzinin dəyişməsi, böyüdüyü mühit tamamilə hərarətli türkçü şairə çevirir. Artıq yalnız intiqam və ittifaqı sözdə deyil, əməldə də yerin yetirmək lazım olduğunu anlayır. Qəflət yuxusundan oyanmağın vaxtı olduğunu və o günün ən ali məqam kimi gələcəyini deməklə kifayətlənməyib, ayağa qalxıb üsyan səsini ucaltmaq gərəkdiyini tələqin edir:

Yuxulamışdım dün gecə gördüm deyirlər kin, bana
– Tutmaq istərsən cəhandə sən də gər ali məqam
Qəflət etmə! Qalx ayağa! Düşməni-bidindən,
İntiqam al, intiqam al, intiqam al, intiqam! [5, s.68]

1917-ci ildən etibarən yazılan şeir nümunələrində Əmin Abidin Gültəkin olmaq yolunda atdığı addımları özünü "Bəsirət" qəzetində çap etdirdiyi "İntiqam", "Qılıncım və başım" (10 dekabr 1917), "Azərbaycan" jurnalında yayımlanan "Türkün dərdi" (11 avqust 1917-ci il) kimi şeirlərində göstərir. *Bu şeirlərdə milliyətçilik və türkçülük sevdası hiss olunur* [8, s.134] "Bakıda qərib ölən türklərin qəbirləri üstündə milli zabitlərimizə töhfə" başlığı ilə yazılan "İntiqam" şeiri C.Əfqaninin "*İnsan gərək özünün ərzi bir mələk, yaxud xilqətin əşrəfi olaraq yaradıldığına inanaydı*" – fikrinin təsdiqi olaraq şəhidlərin cihada yüksəldiyinə inamla, onların ruhuna müraciətlər başlayır. Cihada gedən hər bir türkün öz ata-babalarının aliliyinə çatmaq eşqi yolunda tərəddüd etmədiyini, nə olur olsun öz "hilal"ının, türklüyünün heç uğrunda yozlaşıb məhv olmadığını əmindir. Vətən yolunda şəhid olanları:

Ey zülmət içrə xabə dalan nuri-sayədar,
Ey aləmi-digərdə koşan ruhi möhtəşəm,
Uç, uç, yücel səmalarə, pirşövqü iftixar,
Uç kəhkəşani-fitrətə, yüksəl də baş qədəm [4, s.74]

– deyə anır. Z.Göyalpın *"Türkçülük-türk millətini yüksəltmək deməkdir"* fikri ilə səsləşən şeirdə tökülən qanların canı yüksəyə ucaltdığına, qanında yanıb alışan intiqam hissinin onu deyil, düşmənlərini dizə gətirib, qorxuya salacağına, varlıqlarını kül, heç edəcəyinə inanır. Nə olur olsun, bir an da ümidsizliyə, bədbinliyə qapılmır:

Hüznü burax,burax da fəqət şatəraz bax
Övladının əlində bugün seyfi-intiqam,
Hər sütüt ilə parlayır, "ey namdar atam" [4, s.74]

Şeir Ə.Müznibin "Ey dəli könlüm" (1912) şeiri ilə üsyankarlıq baxımından bənzərdir:

Azəriyiz şiddətimiz bəllidir,
Söyləyir aləm bizə atəş-izac
Keçmişi əhya edib Arbakstək
Düşməni dindən alalım həm xərac,
Əhli-hünər düşmənə əyməz başın,
Müznib əgər min sənələr qalsa ac [9, s.21].

Əmin Abidin 1918-ci il 18 noyabrında "Türkün dərdi" adlı ikinci şeiri çap olunur. Bu şeir "Mütəllib oğlu Abid Alp" imzası ilə çap olunmuşdur. Öncə onu qeyd edim ki, Ə.Abidin bu şeiri indiyədək heç bir kitabına düşməyib və heç bir tədqiqata cəlb edilməyib. Həm də bu adda şairin ikinci şeiri olması onu göstərir ki, gənc şair türk xalqının düşdüyü bu ağır vəziyyət haqqında çox düşünür və onun dərdini çatdırmağa çalışır. Gənc şairin ikinci "Türkün dərdi" şeiri isə "Azərbaycan gənclərinə" ünvanlanıb və daha çox siyasi-ictimai deyil, bədii pafosla yazılıb. Şair türklüyün düşdüyü bu vəziyyyətə açıyaraq fövqündə "oynayan qara bulud"un "yurdun bağrına qanlar saçdığını", "dərd qanmayan şu el, şu qanlı tabut"un "ölüm dünyasına yollar açdığını" söyləyir. Türklüyün keçmişində sevincli günlər olsa da, indi istiqbalının heç də yaxşı olmadığına işarə edən şair qarşıda duran "müdhiş uçurum"u açmaq üçün yollar arayır.

Əmin Abid Türkiyəyə təhsil dalınca Azərbaycanın öz istiqlalını qazandığı zaman getmişdir. Bu vaxta qədər ki, şeirlərində gənc şair hələ ki, "Abid Mütəllibzadə", "Alptəkin", "Mütəllib oğlu Alp" və s. imzalardan istifadə edir, şeirlərində daha çox xalqın, millətin qarşılaşdığı problemlərdən bəhs edirdi. Lakin Ə.Abid Türkiyədə Darülmüəllimliyi bitirib Azərbaycana döndüyündə artıq Azərbaycan XI Qızıl ordu tərəfindən yenidən işğal olunmuş, milli istiqlal süquta ugramışdı. Ə.Abid burada qala bilməyib yenidən Türkiyəyə geri dönməyi düşünür və buna nail olur. Bu dəfə o, İstanbul Universitetində təhsilini davam etdirir və həm də "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" kitabını yazmağı qarşısına məqsəd qoyur. Türkiyə-

də olarkən M.Ə.Rəsulzadənin İstanbula gəlməsi ilə Azərbaycan mühacirləri bir yerə toplanır və işğala qarşı mübarizə qərarı verirlər. "Yeni Kafkasiya" dərgisinin nəşri bu mübarizənin əsas faktorlarından olur və ictimai-siyasi, iqtisadi, ədəbi-bədii, mədəni sahələrdə yeni konturlar müəyyənləşir. Dərginin ilk saylarında Ə.Cavadın şeirləri dərc edilir. Ə.Cavadın şeirləri ilə yanaşı, dərginin ilk saylarından Ə.Abidin də "Gültəkin" və "Azərbaycanlı Gültəkin" imzaları ilə şeirləri və istiqlal şəhidlərinə həsr edilmiş məqalələri dərc olunur. Dərginin siyasi yönümlü olması, Ə.Abidin bu dərginin işində yalnız müəllif kimi deyil, həm də onu təşkil edən biri kimi siyasi kəsərliliyi də buradan irəli gəlirdi. Buna görə də, bu siyai mühitdə Gültəkinin də şeirlərinin siyasi kəsərliliyi artmışdır. Bu şeirlər yalnız mühacirət kontekstində bu cür kəsərliliklə yazıla bilərdi. Bu cəhətdən Gültəkinin bu şeirlərini məzmunca mühacirət şeirləri də hesab etmək olar. Bunu həm də onunla əsaslandırmaq olar ki, Ə.Abid heç yerdə Gültəkinin kimliyini açıqlamamış və bu imzanın ona məxsus olduğunu bildirməmişdir.

Ədəbiyyat

1. Ali, Şamilov. Emin Abidin heyat hikayesi ilə kesin cizgiler... – Bilge: Ankara, 1999, №21, –23-26 s.
2. Ağayev İ. Əliabbas Müznib: həyatı, yaradıcılığı, əsərlərindən seçmələr. – Bakı: Elm, 2003, – 376 s.
3. Abid, Ə. Şəxsi iş. Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin arxivi, iş. 32796, vər. 4.
4. Abid Ə. Seçilmiş əsərlər (Nəşrə hazırlayan və ön sözün müəllifi Sona Xəyal). – Bakı: Nurlan, 2007, – 262 s.
5. Gültəkin, Ə.A. Buzlu cehennem – Başqa şiirler / Ə.A.Gültekin. tərt. ed., Ə.Ş.Hüseynoğlu. – Bakı: Günəş, – 1999. – 99 s.
6. Rəsulzadə, M.Ə. Tutacağımız yol // Açıq söz. 1915, 2 oktyabr. –1 s.
7. Göyalp, Z. Türkçülüyün əsasları / Z.Göyalp. – Bakı: 2010. – 208 s.
8. Əhmədova, Ü. Əmin Abid Gültəkin poeziyasında kommunist ideologiyası əleyhinə etirazın bədii inikası // – Bakı: Poetica.ism, – 2022. № 1, 130-137 s.
9. Müznib, Ə. Seçilmiş əsərləri / Ə.Müznib, tərt. et., İ.Ağayev. Bakı: 2006. 255 s.

U.K.Ahmadova

Gultakin's environment and creativity in the context of national independence

Summary

The article examines the literary environment of prominent literary historian, horror critic, literary critic, poet Amin Abid. It is shown that A.Abid's poems, distinguished by their political sharpness, were published in Turkey under the name "Gültekin". These poems differed from the poems published both in emigration and in Azerbaijan due to their content and content, as well as their political intent. It is known that since A.Abid was not a political immigrant, he was not expected to write such poems. Because he went to Istanbul in pursuit of education, and at the same time, he received an assignment and a scholarship from the government to write a work called "History of the Literature of Azerbaijani Turks". It is known that A.Abid grew up in the national spirit during his childhood and youth, and the social and political events that took place during this period did not escape him. One of these factors was that he was a descendant of Huseyngulu Khan. Czarist Russia has taken the sofa for all members of this generation. Although A.Abid's grandfather survived this massacre, his older brother A.Muznib was exiled. Despite this, A.Muznib published many newspapers and magazines at the beginning of the 20th century, defended independence. All this conditioned A.Abid (Gultak) to grow up in the national spirit and then to write poems with a national and political spirit.

У.К.Ахмадова

Окружение и творчество Гюльтаки в контексте национальной независимости

Резюме

В статье исследуется литературное окружение выдающегося историка литературы, хорроиста, литературоведа, поэта Амина Абида. Показано, что стихи А.Абида, отличавшиеся политической остротой, издавались в Турции под названием «Гюльтекин». Эти стихи отличались

от стихотворений, опубликованных как в эмиграции, так и в Азербайджане, своим содержанием и содержанием, а также своим политическим замыслом. Известно, что поскольку А. Абид не был политическим эмигрантом, от него не ждали написания подобных стихов. Потому что он отправился в Стамбул в поисках образования, и в то же время он получил задание и стипендию от правительства на написание работы под названием «История литературы азербайджанских тюрков». Известно, что А. Абид в детстве и юности вырос в национальном духе, и общественно-политические события, происходившие в этот период, не ускользнули от него. Одним из таких факторов было то, что он был потомком Гусейнгулу-хана. Царская Россия заняла диван для всех представителей этого поколения. Хотя дед А. Абида пережил эту резню, его старший брат А.Музниб был сослан. Несмотря на это, А.Музниб в начале 20 века издавал множество газет и журналов, отстаивал независимость. Все это обусловило то, что А.Абид (Гултак) вырос в национальном духе, а затем стал писать стихи с национально-политическим духом.

Rəyçi: prof. B.Əhmədov

Redaksiyaya daxil olub: 12.05.2023

P.İ.PAŞAYEVA

Bakı Dövlət Universiteti
(Bakı şəh., Z.Xəlilov küç., 33)

QƏDİM ARİLƏRİN DÜNYAGÖRÜŞLƏRİNDƏ MÖVCUD OLAN MİFİK OBRAZLAR

Açar sözlər: *Avesta, Zərdüşt, Aşa, Ahura Mazda, Xşatra Variya*
Ключевые слова: *Авеста, Зороастр, Аша, Ахура Мазда, Хшатрия Вария*
Key words: *Avesta, Zoroaster, Asha, Ahura Mazda, Hshatriya Varia*

Zərdüştlük və onunla əlaqədar olan dini – fəlsəfi təlimlər, Avestanın özü yəhudi dininə, ilkin xristianlığa, yunan fəlsəfi fikrinin bir sıra nümayəndələrinə müəyyən təsir göstərmişdir [1, s.4; 2, s.130]. Zərdüştlük ideyaları sonralar maniçiliyə, məzdəkilərin və babəkilərin ideologiyasına da güclü təsir göstərmişdi. [2, s.130]. Bir sıra tədqiqatçıların fikrincə zərdüştilik dini e.ə. I minillikdə İranın şimali-şərqində Orta Asiya və İranda yeni din qədim İran tayfalarının dini inamları və mifik görüşləri əsasında yaranmışdır [2, s.130]. Qədim arilərin dünya görüşlərində mövcüd olan mifik obrazlar öz əksini Avesta da tapmışdır: Faravaşi, Aşa, Dayena, Mitra, Veretraqna, Hvarna Raşnu, Vayu, Queş Urvan, Sraoşa, Ardvi-Sura Anahita və s. [3, s.6]. Bu gün bizə məlum olan Avesta beş hissədən ibarətdir: Yasna, Vispered, Yəştlər, Vidsvdat, Kiçik Avesta. Zərdüştün təlimi üçün öz ifadəsini ali allah Ahura Mazdaya inamda tapmış monotsist ideya səciyyəvidir. Zərdüşt peyğəmbərə yeganə Allah Mazda Ahura tərəfindən açılmış yeni dinin təlbiğindən xeyli əvvəl, İran tayfalarında olan ilahilər – Ardvisura Anahida, su və bərəkət ilahəsi, Mitra müharibə və qələbə allahı Veretraqna və başqları hesab edilirdi. Eyni zamanda oda sitayiş, kahinlər tərəfindən dini mərasimlər üçün haoma sərxoş edici içkisinin hazırlanması kimi bir sıra dim ənənələr yaranmışdır. Zərdüştlüyün təşəkkülündən sonra da mifik obrazlar, adət-ənənələr, epik qəhrəmanlar haqqında əfsanələr davam edirdi. Bu obrazların adət-ənənələrin və ritualların bir çoxu hələ Hind və İran tayfalarının əcdadları daxil olduğu "hindiran" birliyi dövrünə aid edilir. Zərdüşt peyğəmbərə görə tək allah Mazda Ahuradır sonralar hörmüzd, digər allahlar ona nisbətdə tabe mövqeyini tutur. Zərdüşt peyğəmbər müxtəlif allahlara sitayiş etməyi rədd edir. Zərdüşt peyğəmbərin təlimi üçün öz ifadəsini Ali Allah Ahura Mazdaya inamda tapmışdır. İlkin zərdüştliyin əsas qayəsini monoteizm təşkil etmişdir. Lakin bu din sonradan monodualistik dinə çevrilmişdir. Yasna, 30-cu da belə qeyd edilir: İlk başlanğıcda, düşüncə aləmində iki əkiz gövhər-yaxşı və pis düşüncə,əməl və davranış meydana gəldi.Bu iki gövhərdən bədxah adamlar yox, xeyirxah adamlar doğrunu (xeyiri) seçdilər [4, s.130-131].

Qeyd etmək lazımdır ki, xeyir və şər anlayışı nisbi bir anlayışdır. Ahura Mazda ali və hər şeydən agah olan yaradıcı bır qüvvə kimi, bütün varlıqları yaradan və himayə edəndir. Onun yaradıcısı Aşa – "həqiqət", "düzgünlük" (qədim farsca – arba, orta farsca ard.) qanunu bütün kosmosun yaranmasında və idarə olunmasında mühüm rol oynadığı kimi, eyni zamanda insanın əxlaqı ilə əlaqədardır. Başlıca olaraq qədim hindira anlayışında daha qlobaldır. O, kainatın ümumi qanunlarını; günəşin doğma sını və batmasını, fəsillərin dəyişməsini, təbiətin "doğuşu" və "ölümü" və s. bu kimi daha qlobal və həmçinin kainatın ümumi qanunlarını ifadə edir. Eyni zamanda (müqaisə üçün bax qədim Misirdə Maat, Çində Dao) bu termin hindarian dövründə sosial və etik mahiyyətə malik idi. Aşa anlayışı mövcud cəmiyyətin iyerarxik ukladını, müqavilələr də əhdə sadiqlik, ədalət kimi və digər anlayışları özünə daxil edir. Zərdüşt peyğəmbərin təlimində "Aşa" anlayışı əxlaqi dəyərləri özündə əks etdirir [5, s.130-131].

Aşa "Qatalarda" və "Kiçik Avestada" – zərdüştilikdəki şəxsi və sosial planda "xeyirxah fikir", "xeyirxah söz", "xeyirxah əməl" triadası ilə bağlılıq təşkil edir. Məhz Zərdüşt peyğəm-

bər öz davamçılarını Ahura Mazdanın yaratdığı bu ali "Aşa" qanununa əməl etməyə çağırırdı. Buna görə də Avestada zərdüştilərə "aşavanlar" deyirlər [5, s.131-132]. Qatalarda Zərdüştün dediyi iki əkiz gövhərə gəldikdə isə, Zərdüşt maddi dünyanın bir-birinə zidd iki qüvvədən təşkil olduğunu demək istəyir. Maddi dünyada bu qüvvələr həmişə mübarizədədir. Zərdüştlük dini-fəlsəfi sistemindəki dualizm iki başlanğıcın – xeyir və şərin bir-birinə qarşı qoyulması ilə ifadə Olunmuşdur və burada insan fəal rol oynayır. Xeyir qüvvələrin başında Ahura Mazda (sonralar – Ahuramazda, Hörmüzd), şər qüvvələrin başında isə – Anqra Manyu (sonralar Əhrimən) durur. Zərdüşt peyğəmbərin təlimində bütün dünya iki sferaya lölünmüşdür: real, dünyəvi, maddi və ruhi, axirət, xəyali kimi baxılır. Zərdüştün dualizmi onun sosial və təsərrüfat idealının əsdiqinə xidmət edir. Zərdüştün optimist təliminə əsasən, dinin əqiqi tərəfdarlarının birgə səyi ilə son hesabda xeyir qalib gəlir. Mücərrəd anlayışlar zərdüştlükdə mühüm rol oynayır. Ameşa Spentalar ("nur saçan varlıqlar") Ahura Mazdanın atributlarını səciyyələndirir. Belə ki, Ahura Mazda özü bir sıra ariya allahlarını əvəz edir, ancaq onların fuksiyalarında onun mahiyyətini apstrakt ifadələri çıxış edir. Vohu Manah – "xeyirxah fikir", öz etimalogiyasına görə vedalardakı Vasu ("mərhəmətli", "gözəl") İndranın başçılıq etdiyi xeyirxah allahlar silkinə uyğun gəlir. Qatalarda Vohu Manah – Ahura mazdanın atributlarından biridir. Yasna (28; 11) bu haqda belə deyilir: Doğruluğu və uğurlu düşüncəni, davranışı qoruyub, əbədi olaraq saxlayacağım üçün, sən ey Mazda, öz müdrikliyinlə ulu dünyanın (mənəvi dünyanın necə olacağını dilinlə xəbər ver. Bu bənddə Zərdüşt peyğəmbər demək istəyir ki, dünyada insanların gördüyü bütün işlər yaxşı, ya pis olsun, əvəzsiz qalmayacaqdır. Bu işlər onların əməl dəftərində saxlanacaq və axirətdə son haqq-hesab günü də onlara baxılacaq, hər əmələ ona münasib mükafat, ya cəza veriləcəkdir [5, s.130].

Aşa Vahişta – "Aşa" anlayışı əxlaqi təcəssümü, etik və ictimai aspektidir. "Vahişta" – ("Aşa") sözü kimi öz etimalogiyasına görə vedalardakı "Vasiştha" – ("Dövlətli") sözünə uyğun gəlir. Aşa Vahişta Qatlarda "Ahura" Mazdanı və həmçinin zərdüştlüyün xeyirxahlar triadasım ("xeyirxah fikir", "xeyirxah söz", "xeyirxah əməl") təcəssüm etdirir [5, s.130]. Xşatra Variya – "Arzulanan hökmüdarlıq", "ən ali nizam", "xeyirxah hökmdarlıq", göylərin və yerin təkhakimi sayılan Ahura Mazdanın keyfiyyətlərini təcəssüm etdirir. Yasnada (43, 10) deyilir: Mazda dedi: "İndi mənim doğru dinimə fikir ver. Çünki mən bir dindarla əlaqədə olaraq onu çağırıram ki, mənim yanıma gəlsin. İndi istədiyini bizdən soruş. Əlbəttə, sənin sualın qüdrətli bir adamın sualı kimidir, o bacarıqlı adama (şəxsə) ki, sən tək güclünü arzusuna yetirə bilsin". Bu bənddə Zərdüşt Ahura Mazdaya müraciət edərək onun göstərişlərindən çıxmadığını və fərmanlarına itaət etdiyini göstərir [4, s.469].

Spenta Armayiti müqəddəs dindarlıq Qatalarda Ahura Mazdanın xeyirxah keyfiyyətlərini təcəssüm etdirir. Dindarlığın alleqoriyası və həmçinin sosial anlayışda Ayşmanm antipotuimi köçəri həyat sürən, "sülh sevən çobanları" təcəssüm etdirir. "Qataların bəzi beytlərində fəlsəfi, bəşəri fikirlərlə Armayitilə birgə çıxış edir. Örnək olaraq Yasna (47; 3) belə deyilir: Bu Spenta Manyunun pak atası sənsən ki, ey Mazda, o bizim üçün evinc gətirən heyvanlar yaratdı və uğurlu davranış ilə danışdıqdan sonra Spendarmüz onun əkini abad olmaq üçün ardım göstərdi [4, s.456-457]. Ameretat "əbədilik" deməkdir, öz etimalogiyasına görə vedalardakı Amritaya ("əbədilik") uyğundur. Yuxarıda qeyd edilən bəndlər həmçinin Amretata aiddir [4, s.416].

Zərdüştiliklə bağlı əsərlərdə bu altı "nur saçan varlıq"ların yaradılması müxtəlif cür təsvir olunur. Ancaq bütün hallarda onların birgə vəhdət təşkil edilməsi göstərilir. Bütün bu varlıqlar Zərdüşt peyğəmbərin öyrətdiyi kimi bilavasitə Ahura Mazdanın emonasiyalarıdır. Ahura Mazda bu prinsiplərin təcəssümü olaraq bu varlıqları idarə edir. Ameşa spentalar personalaşdırılmış obrazlar və yaxud tanrılar deyildir. Spenta Manyu Ahura Mazdanın substansiyasıdır.

Ədəbiyyat

1. Бойс Мери. Зороастрийцы. Верования и обычай. Перевод с английского и примечания И.М.Стеблин – Каменского. М.: Наука, 1998, – 301.с.
2. Алиев И.Г. Очерк истории Атропатены. Баку: Азернешр, 1989, – 159.с.
3. Vəliyev E.R. Azərbaycanda Zərdüştilik. Bakı: 2002, Çaşıoğlu, – 118.s.
4. Авеста в русских переводах (1861-1996). Санкт-Петербург: Нева, Летний сад, 1998, – 480 с.
5. Рак И.В. Мифы древнего и раннесредневекового Ирана. Санкт Петербург: Нева, Летнийсад, 1998, – 480 с.

П.И.Пашаева

Мифические образы, присутствующие в мировоззрениях древних ариев

Резюме

Изучение зороастризма очень важно в аспекте исследования исторического, религиозного, материально-культурного наследия народов Азербайджана, Ирана, Средней Азии и других восточных народов. Эти традиции сохранили следы и в сознании этих народов. Зороастризм, как учение с мировым значением, оказал влияние на многие мировые религии и культуры. По мнению многих исследователей, зороастризм возник на северо-востоке Ирана в I тыс. до н.э. в качестве новой религии Ирана и Средней Азии на основе религиозных верований и мифических представлений древнеиранских племён. Мифические образы, существующие в мировоззрениях древних ариев, нашли своё отражение в «Авесте»: Фараваши, Аша, Даена, Митра, Веретрагна, Хварна, Рашну, Ваю, Гуеш, Урван, Сраоша, Ардви-сура Анахита и др.

P.İ.Pashayeva

Mythical images present in the world views of the ancient Aryans

Summary

Study of Zoroastrianism is very important in investigation of historical, religious, cultural heritage of Iran, Central Asia and other Eastern nations. These traditions have embedded on people’s mind. Zoroastrian doctrine influenced many world religions and cultures as a doctrine of universal and secular importance. According to some investigators, the Zoroastrian religion was founded as a new religion in the I B.C in the north-east of Iran, Central Asia and Iran on the basis of religious beliefs and mythical views of the ancient Iranian tribes.The mythical images that exist in the view of the ancient Aryans were met in Avesta: Faravashi, Asha, Dayena, Mithra, Veretragna, Hvarna Rashnu, Vayu, Quesh Urvan, Sraosha, Ardvi-Sura Anahitha and others.

Rəyçi: prof. A.Q.Abbasov

Redaksiyaya daxil olub: 26.04.2023

L.R.SARIVƏLLİ
e-mail: leyla.s_93@mail.ru

Azərbaycan Universiteti
(Bakı şəh., Nəsimi ray., C.Hacıbəyli, 71)

ŞERVUD ANDERSONUN "YUMURTANIN TƏNTƏNƏSİ" TOPLUSUNDA KOMİKLİKLƏ FACİƏVİLİYİN VƏHDƏTİ MÜƏLLİF KONSEPSİYASI KİMİ

Açar sözlər: *Şervud Anderson, "Yumurtanın təntənəsi", müəllif konsepsiyası, novella*
Ключевые слова: *Шервуд Андерсон, «Триумф яйца», авторская концепция, новелла*
Key words: *Sherwood Anderson, "The Triumph of the Egg", author's concept, novella*

XX əsrin birinci yarısında Amerika ədəbi mühitində aparıcı fiqur olmuş Şervud Andersonun (1876-1941) yaradıcılığı müasir dövrdə də böyük təsir qüvvəsinə malikdir. Şervud Anderson XX əsrin 20-ci illərində yazıb-yaratmasına baxmayaraq, onun yaradıcılığında əsasını qoyduğu mövzular, xüsusilə novella sahəsində həyata keçirtdiyi köklü dəyişiklik – bədii nəsrin həm məzmun, həm də deyim baxımdan maksimum gerçəkliyə yaxınlaşdırmış, bu gün də Amerika ədəbiyyatında hərtərəfli həllini tapmamış və get-gedə dərin vüsət kəsb edən problemlərdən biri kimi qalmaqdadır.

Şervud Andersonun "Yumurtanın təntənəsi" novellalar toplusu yeni bir təhkiyə, yeni ton, yeni bir üsulla əlamətdardır. Bu novellalar daha çox kədər və insanı bürüyən təəssüf hissiylə, fəlsəfi skeptisizmlə müşayiət olunur. Xüsusilə, topluya daxil olan "Alovlanmayan od", "Qardaşlar", "Toxum", "Bilmək istəyirəm", "Pusqu qapısı" novellalarında bu açıq-aydın özünü büruzə verir.

Bir qayda olaraq Şervud Anderson novellalarında komikliklə satirik elementlər vəhdətdədir, lakin "Yumurtanın təntənəsi" toplusu daha çox faciəvi komediya prinsipinə uyğun yazılmışdır. Bu həmçinin onunla əlamətdardır ki, novella janr xarakterinə görə dinamikdir və onun süjeti, süjetdəki hadisələrə müəllif yanaşması vacib şərtlərdən hesab edilir. Novellada personajların davranışlarına daha çox diqqət ayrılır, onun sonu gözlənilməz sonluqla bitir. Başqa sözlə, novella mətni sona çatmalıdır və bu nəticə "heç nə" ilə bitə bilməz. Şervud Andersonun novellalarında biz bunun əksini görürük. "Yumurtanın təntənəsi" toplusundakı novellaların sonu açıq qalır. Həmçinin onlar daha çox satirik novella tipinə aiddirlər.

Elə bu səbəbdən Şervud Anderson novellaları mürəkkəb xüsusiyyətə malikdirlər və belə novellalarda hadisələr sona qədər açılmır, bu isə öz növbəsində janrın yeni imkanlara açıq olduğunu söyləməyə əsas verir. Burada bir vacib məqamı da qeyd etməliyik ki, Şervud Andersonun "Yumurtanın təntənəsi" toplusundakı novellalar satirik novella və pritça birliyindən yaranıb. Şervud Andersonun poetikası üçün bu birlik və ya daxili vəhdət adi haldır. "Yumurtanın təntənəsi" toplusunda satirik novella ilə pritçanın vəhdəti təkcə insan axmaqlığına, sonu bilinməyən iddialarına gülmək fürsəti deyil, həm də həyatın və bizi əhatə edən toplum haqqında düşünmək üçün bir fürsətdir. Satirik novella qeyri-adi hadisələrin "aniliyi", eyni zamanda da həyat situasiyalarının inandırıcı təsvirini verirsə, pritça müdrikliyi, danışılan hadisənin dərinliyi və universallığı, fəlsəfi dərki ilə yadda qalır. Məhz bu səbəbdən "Yumurtanın təntənəsi" toplusunda komikliklə faciəvilik bir arada çıxış edir. Şervud Andersonun bu topluya daxil etdiyi novellalarda faciəvi komediya prinsiplərinə müraciəti yazıçının Amerika gerçəkliyini bədii fikirdə təcəssüm etdirmək təşəbbüsü ilə bağlıdır.

Belə yanaşma həmçinin xüsusi bir Anderson psixologizmini də formalaşdırdı. Personajların daxili təbəddülatları zahiri əlamətlərin fonunda təsvir edilir, bu sıraya personajın mimikası, hərəkətləri də daxildir. Zahiri əlamətlər o qədər ifadəli şəkildə təsvir edilir ki, bu detallar oxucu gözündən yayınmır. Biz hətta qeyd edə bilərik ki, Şervud Andersonun novellalarındakı

bədii detallar simvolik xarakter daşıyır. Şervud Andersonun novellalarında geniş izahatlar verilməsə də, bədii detal vasitəsilə oxucu hadisə öncəsi məsələlərdən agah olur. Yazıçı oxucunu hadisələrin mərkəzinə salır, "gözlənilməz" sonluq qaldırılan yeni-yeni məsələlərə açıq qalır.

Şervud Anderson "Yumurtanın təntənəsi" toplusundakı novellaların süjeti həyatdan götürülən, adi hadisələrdir. Yazıçı bir qayda olaraq məişət hadisələrinə, gündəlik həyatın bir epizoduna müraciət edir. Elə bu səbəbdən onun novellalarında insanın şəxsiyyət böhranı zamanın və şəraitin təsiri altında, gündəlik həyat həqiqətləri fonunda baş verir. Şervud Anderson novellalarında komikliklə faciəvilik bir arada, vəhdətdədir. Təhkiyəçinin monoloqu baş verənlərə aydınlıq gətirir, oxucunu insan faciəsi ilə yaxından tanış edir. Bəzən də oxucu təhkiyəçi haqqında bilgiləri onun şərhlərindən, emosional reylərindən də əldə edə bilir. Şervud Andersonun dəqiqliyi və lakonizmi novellanın quruluşunun açılmasında və oxucuya çatdırılmasına aydınlıq gətirir. Burada hər bir söz, hər bir hərəkət və ya ifadə dəqiq şəkildə Şervud Anderson yaradıcılığına xidmət edir. Görünür elə bu səbəbdən yazıçını "hadisələri dəqiq göstərmək, məzmunu kompozisiya çərçivəsində göstərmək bacarığını" ədəbi tənqid də qeyd etmişdi [2].

Şervud Anderson "Yumurtanın təntənəsi" toplusundakı novellalarda hadisələrin mahiyyətinə nüfuz etməyə, dərin əlaqələri üzə çıxarmağa, gerçəkliyi bütün çılpaqlığı ilə göstərməyə nail olmuşdur. Bu novellalarda insan həyatı kiçik bir novella həcminə yerləşə bilir. Görünən odur ki, "kiçik insan" obrazı ardıcıl və ümumiləşdirilmiş insan hekayələrində böyük mətləbləri açmağa yardım edir.

Qeyd etməliyik ki, Şervud Anderson öz dövründə janrlararası vəhdəti yarada bilmiş, novella və roman, novella və pritçanı bir arada toplulların təhkiyə strukturunda birləşdirməyə nail olmuşdur. Pritçanın janr xüsusiyyətləri "Yumurtanın təntənəsi" toplusunda bir neçə tərəfdən diqqəti çəkir. Bu ilk növbədə onunla əlamətdardır ki, hər iki janr oxşar xüsusiyyətlərə malikdir. Hər iki janr hadisələri qısa, dəqiq, ifadəli şəkildə ötürə bilir. Personajların dəqiq hazırlanmamış fərdi psixologiyası və eyni zamanda süjetin ümumiliyi də onları yaxınlaşdırır. Elə bu səbəbdən topludakı novellalar pritçanın əlamətlərini götürə bilir.

Yazıçı yaradıcılığında forma genişliyinə nail olmuş, novellalarda bir neçə ştrixlə, xüsusilə bədii detalla, personajın diliylə bu genişliyi göstərə bilmişdir. Daha bir vacib xüsusiyyət ondan ibarətdir ki, yazıçının üslubundakı ekspressivlik novellalarda lakonizmi daha aydın şəkildə üzə çıxara bilmişdir. Görünür elə bu səbəbdən yazıçı kiçik həcmli novellalarda sosial, fəlsəfi və psixoloji problemləri göstərməyə nail olur.

Şervud Andersonun novella poetikası sözün həqiqi mənasında polifonikdir. Belə novellalarda janrlararası qarşılıqlı əlaqələr bir janrın digər janrın xüsusiyyətini əldə etməsinə imkan yaradır. Keçən əsrin əvvəlləri üçün bu yeni yanaşma prinsipi kimi dəyərləndirilməlidir. Mövcud poetik sistemə yeni janr polifonizminin gəlməsi, ilk günlər anlaşılmaz qəbul edilir, hətta yaxın qələm dostları mətbuatda ona qarşı xoşagəlməz yazılar çap etdirirlər. Bu sırada sonralar Şervud Andersonun davamçıları olmuş E.Heminquey, T.Drayzer, qismən də U.Folkner olmuşdur [6; 3].

Şervud Andesonun "Yumurtanın təntənəsi" toplusunda birləşən novellalara diqqət etsək məlum olar ki, onların adları novellanın mətni ilə birbaşa əlaqədədir. Novellaların adı süjetlə, personajla, təhkiyə forması ilə, müəllif intonasiyası, hadisədəki konfliktlə vəhdət təşkil edir ("Bilmək istəyirəm", "Toxum", Başqa qadın", "Yumurta", Alovlanmamış od", "Qəhvəyi göbəkcəli insan", "Qardaşlar", "Pusqu qapısı", "Yeni İngiltərəli"). "Bilmək istəyirəm" novellasının personajı gənc oğlan xəyallarının qırıldığı, ümidlərinin itdiyi an "bilmək istəyirəm?" sualının əzabını çəkir, "Toxum" novellasında Ayovadan Çikaqoya gələn qadın həyatını dəyişmək, yenidən başlamaq və fərqli şəkildə yaşamaq arzuları puça çıxır, yenidən, başqa şəhərdə "doğulmaq" istəyi toplumun istəkləri ilə üst-üstə düşmür və elə bu səbəbdən onun əkmək istədiyi həyat "toxumları" yetişmir. "Başqa qadın" novellasında isə evlilik öncəsi xəyal etdiyi qadınla həyat yoldaşı olacaq qadın arasında qalan, xəyal ilə reallıq, arzu ilə həyat gerçəklərində əzab çəkən gəncin "başqa" axtarışları da bu qəbildəndir.

“Yumurta” novellasında isə “Dünyada nədən yumurta var və nədən yumurtadan cücə çıxır, sonra toyuq ondan yumurta qoyur. Bu sual bütün həyatımı zəhərləyib” [1, s.53] deyən gəncin həyatı da hər kəsin bildiyi həqiqət, amma heç bir kəsin sona qədər cavab ala bilmədiyi sual kimidir. Novellanın personajları həyatda bir yerə çatmaq üçün bütün mümkün olan və olmayan işlərə baş qoşur. Onlar öz toyuq fermasını açıb, yumurta istehsal etmək, varlanıb həyatda yaxşı yaşamaq istəyirlər. Bu işə on illərini sərf edəndən sonra fermanın qazanc gətirmədiyini görüb onu dəyər-dəyməzə satıb şəhərə köçürlər. Lakin şəhər həyatı da onlara ağır və əzablı gəlir. Bu əziyyət fiziki yorğunluqdan daha çox mənəvi yorğunluqda özünü büruzə verir. Ata hər şeydə yumurtanı və ondan gələn xeyri görür, oğlu və həyat yoldaşı ilə münasibətlərini toyuq-yumurta müstəvisində həll etməyə çalışır. Yumurta onun həyatının kabusuna çevrilir. O, könüllü olaraq həyatını zəhərə döndərir. Yumurta və ondan götürə biləcək mənfəət onun şüuraltısında o qədər güclü oturur ki, ilk baxışdan zərərsiz görünən bu istək onun həyatının kabusuna çevrilir. Şervud Anderson qroteskə müraciət edir və həyatın özünün böyük bir yük olduğunu, lazımsız dəyərlərin insanın mənəvi deqradasiyasına gətirib çıxardığını göstərir: “Toyuqlar yumurta qoyur, ondan cücə çıxır, bununla da dəhşətli dairə qapanır. Bütün bunlar inanılmaz dərəcədə çətindir. Filosofların çoxu, deyəsən, toyuq fermalarında tərbiyə alıblar. Cücədən o qədər çox şey gözləyir ki, cücə ilə bağlı arzuları yoxa çıxanda məyus olurlar. Həyata gələn cücələr aktiv və çevik görünür, amma əslində onlar son dərəcə axmaqdırlar! Onlar insanlara elə oxşayırlar ki, həyat haqqında düşünəndə belə səni çaşdırırlar. Əgər onlar xəstəlikdən ölməsələr sizdə inam hissi oyadır, amma onlar arabanın təkərləri altına girib ölür, yaradanın yanına dönürlər. cavan vaxtı parazitlərə yoluxur və onların dərman tozlarına sərvət xərcləməli olursan” [1, s.58]. Təhkiyəçinin emosional monoloqu konkret bir hadisəyə son dərəcə ümumiləşdirici məna verir. Novellanı təhlilə çəkən Nəsrullah Məmbrol yazır ki, “məğlubiyyət hissi ilə yanaşı pessimizm də təhkiyəçinin tonunda özünü büruzə verir: Linkoln və ya Qarfild olmayanlar üçün Amerika arzuları əlçatmaz olaraq qalacaq” [4].

Valideyn sevgisinə, qayğısına həsrət qalan “Alovlanmamış od” novellasının qəhrəmanı Meri Kokreynin atası qızı ilə yaxından münasibət qurmaq, ata-qız münasibətlərini düzəltmək istəsə də onu haqlayan qəfil ölümü sonucu fürsəti də əlindən alır. “Qəhvəyi gödəkçəli insan” novellasında isə insan əməllərindən kitablar yazan, amma öz həyatını nizama sala bilməyən, həyat yoldaşı ilə mənəvi-ruhani bağlarını itirmiş, rəngsiz insan da faciə yaşayır. Onun həyat “rəngi” solmuş qəhvəyi gödəkcəsinin rəngi ilə assosiasiya, həyat yoldaşı ilə aralarındakı münasibətlərinin keçilməzliyini əks edir.

“Qardaşlar” novellasında dünyada baş verən bütün pisliklər, pis əməlləri özünün qardaşı bilən, beləcə baş verən hər pislikdə bütün insanların da rolu olduğuna işarə edən, ağıldankəm ixtiyar qocanın istənilən insandan daha ağıllı olması ideyası önə çəkilir. “Pusqunun qapısı” novellası məktəb müəllimi Hyu Uokerin gündəlik həyat qayğılarında itib-batan arzuları, gənc tələbənin simasında dirçəlmək istəyi cəmiyyətin, toplumun gözlənilən basqılarıyla yoxa çıxır. Hyu Uoker dərk edir ki, istənilən insan xəyal etdiyi “qapıları” açmaq istəsə onu pusquda dayanan cəmiyyətin qayda-qanunları gözləyəcək. U.Teylor haqlı olaraq Şervud Andersonun novellalarında daxili vəhdəti müəyyən edərək yazır ki, “o, birmənalı olmayan məsələlərə mətn birliyi, poetik incəlik və aydınlıq gətirdi” [5, s.54]. U.Teylorun və yuxarıda qaldırılan məsələr onu deməyə əsas verir ki, yazıçı “Ymurtanın təntənəsi” toplusunda komikliklə faciəviliyi bir arada göstərə bilmiş, topluya daxil olan istənilən novella bu birlikdən yararlanmışdır.

Şervud Andersonun novellalarında insan ümidlərinin ölümü, illüziyalarla dolaşan həyatından bəhs edir. Yazıçı dövrün əyər-əskiklərini görür, tək-tək hadisələrin fonunda geniş ümumiləşdirmələr aparır. O, “kiçik insan”dan danışır, onun ağrılarından yazır, həmçinin bütün bunların ictimai məna kəsb etdiyini önə çəkirdi. Orta amerikalını təsvir edən yazıçı adi insani sualların kütlə içində necə mənasız olduğunu, dəyərdən düşdüyünü əks edir. Görünür elə bu səbəbdən onun novellalarının əsas mövzusu həyat qarşısında qorxu və bu qorxudan çıxmaq hissi, özünü, kimliyini anlatmaq istəyindən doğan ehtiyacları idi. Bu mövzu dairəsi demək

olar ki, “Yumurtanın təntənəsi” toplusunun bütün novellalarda özünü büruzə verir. “Toxum” novellasında bu mövzu müxtəlif faktlar və emosional məzmunla doludur: “– Siz, qərblilər… Siz insanlardan uzaqlarda yaşamısız. Lənətə gələsiz, siz özünüzü qoruyub saxlamısız! Mən isə yox… – onun səsi ağrılı idi. Mən yad həyatlara daxil olurdum. Mən insan üstü həyata müdaxilə edirdim. Xüsusilə də, mən qadınları öyrənirdim. Amerikada yaşayan, inanılmaz dərəcədə istəklərini gizlədən qadınları müayinə edirdim” [1, s.38]. Novellanın əsas mövzusu ölümdən, axirət qorxusundan da daha dəhşətli olan insan istəklərinin gizlinlərində yatan, heç bir şəkildə reallaşmayan “arzular qəbiristanlığının” təsviridir. Novellanın qəhrəmanı tanımadığı və ilk dəfə gördüyü insana anidən danışmaq istəyi, içində gizlətdiyi daxili qorxusundan yaranır: “Mən qaçmaq, qışqırmaq istəyirəm. Heç olmasa bir neçə saatlıq, bir neçə dəqiqəlik küləyin gücündən təpələrin üstündə daşınan ölü yarpaq olmaq istəyirəm. Mənim bir arzum var, yalnız bir arzum, – özümü azad hiss etmək istəyirəm” [1, s.39]. İnsanın mənəvi azadlığına və özgürlüyünə çatmaq hissi novellanın ana xətti kimi davam edir, lakin sonu açıq qalan və nəhayətsiz boşluqdan çıxa bilməyən insan faciəsi kimi səslənir: “Mən qurumuş, ölmüş Yarpaq olmaq istəyirəm, – o, yarpaqlara, otlara nəzər salaraq donquldandı. – Mən küləyin qovduğu yarpaq olmaq istəyirm. Başını çevridi, ağacların arasından o tərəfdə göl görünürdü.

– Mən yorulmuşam, təmizlənmək istəyirəm. Mən gizlindən mənə dolanan, sürünən nəyəsə bürünmüşəm. Mən küləyin qovub apardığı quru və ölü yarpaq kimi olmaq istəyirəm. Dünyada hər şeydən çox mən təmiz olmaq istəyirəm” [1, s.40]. Novella qəhrəmanın bu istəkləri ilə bitir, amma yerində “kiçik insan”ın sonsuz, yerinə yetməyən arzularını ifadə edir. Yazıçı “kiçik insan”ı bütün ağrıları ilə təsvir edir, amma eyni zamanda da insani münasibətlər, cəmiyytin bütün təbəqələrinin təsiri “kiçik insan”ın xırda adama çevrildiyini göstərir. Yazıçı artıq “Uaynsburq, Ohayo” toplusunun personajları kimi tənhalaşmış, özünə qapanan insan faciəsini deyil, bu topluda yaşamaqda heç bir məna görməyən “cılızlaşmış” insandan bəhs edir. Başqa sözlə, “Uaynsburq, Ohayo”nun qəhrəmanları qrotesk insanlara çevrilsələr də daxildə qəribə, qeyri-adi insanı saxlaya bilirlər. “Yumurtanın təntənəsi”nin personajları artıq əllərini həyatdan üzür, yaşadıqları reallıqlar isə onların həyata olan inamlarını itirir. Elə bu səbəbdən deyə bilərik ki, bu topluda yazıçı şəxsiyyətin deqradasiyasi, həyatın mənasızlığı ideyasını önə çəkir. Bu toplu daha çox Amerika gerçəkliyindən doğan insan həyatının konfliktlərlə və müxtəlif çətinliklərlə dolu təqdimi, yazıçın komikliklə faciəviliyi bir arada göstərmək cəhdidir.

Ədəbiyyat

1. Anderson Sh., The Triumph of the Egg. Hastings College Press. 2019, 272 p.
2. Bloom H. Sherwood Anderson. Philadelphia: Chelsea House Publishers, 2003. 145 p.
3. Dunne R., A New Book of the Grotesques: Contemporary Approaches to Sherwood Anderson’s Early Fiction. Kent: Kent State UP. 2005, 239 p.
4. Mambrol N. Analysis of Sherwood Anderson’s TheEgg // Literary Theory and Criticism. May 23, 2021 https://literariness.org/2021/05/23/analysis-of-sherwood-andersons-the-egg/
5. Taylor W.D., Sherwood Anderson. New York: Frederick Ungar Publishing Co., 1977, 128 p.
7. Townsend K., Sherwood Anderson. Houghton Mifflin Harcourt. 1987, 370 p.
8. Weber B. Sherwood Anderson. Pamphlets on American Writers. Minneapolis, MN: University of Minnesota Press, 1994. No. 43, 105 p.

Л.Сарывелли

Единство комедии и трагедии как авторская концепция в сборнике Шервуда Андерсона «Триумф яйца»

Резюме

Единство комедийного и сатирического элементов в сборниках Шервуда Андерсона «Уайнсбург, Огайо», «Триумф яйца», «Кони и люди» привело к созданию нового жанра новеллы. Сборник «Триумф яйца» написан больше по принципу трагикомедии. Рассказы этого сбор-

ника, написанные в единстве сатирического романа и сказки, следует ценить как возможность задуматься об окружающем нас мире, смеясь при этом над человеческой глупостью и претензиями на знание конца. Сатирическая новелла запоминается «непосредственностью» необычных событий, а также убедительным описанием жизненных ситуаций, своей пословичной мудростью, глубиной, универсальностью и философским осмыслением рассказываемого события. По этой причине в сборнике «Триумф яйца» комедия и трагедия появляются вместе. Обращение Шервуда Андерсона к принципам трагикомедии связано с инициативой писателя воплотить в художественном замысле американскую действительность.

L.Sarivalli

The unity of comedy and tragedy as an author's concept in Sherwood Anderson's collection "The Triumph of the Egg"

Summary

The unity of comedy and satirical elements in Sherwood Anderson's collections "Winesburg, Ohio", "The Triumph of the Egg" and "Horses and Men" led to the creation of a new novella genre. The collection "The Triumph of the Egg" is written more according to the principle of tragic comedy. The short stories in this collection, written in the unity of a satirical novel and a fairy tale, should be appreciated as an opportunity to think about the world that surrounds us while laughing at human stupidity and claiming to know the end. The satirical novella is remembered for its "immediacy" of unusual events, as well as for its convincing description of life situations, its proverbial wisdom, its depth, universality and philosophical understanding of events being told. For this reason, comedy and tragedy appear together in the "The Triumph of the Egg" collection. Sherwood Anderson's appeal to the principles of tragicomedy is related to the writer's initiative to embody American reality in an artistic idea.

Rəyçi: filol.ü.f.d., dos. S.Məmmədova

Redaksiyaya daxil olub: 28.04.2023

R.N.SÜLEYMANOVA
müəllim
e-mail: ruzanesuleymanova@gmail.com

Azərbaycan Dövlət Aqrar Universiteti
(Gəncə şəh., Atatürk pr., 450)

YUNUS ƏMRƏ İNGİLİSDİLLİ TƏDQİQATDA

Açar sözlər: *Yunus Əmrə, Türk klassikləri, Elias Con Vilkinson Gibb, Osmanlı poeziyası tarixi*
Ключевые слова: *Юнус Эмре, турецкие классики, Элиас Джон Уилкинсон Гибб, История османской поэзии*
Key words: *Yunus Emre, Turkish classics, Elias John Wilkinson Gibb, History of Ottoman poetry*

XIII əsrin böyük övliya şairi Yunus Əmrənin həm həyatına, həm də yaradıcılığına olan maraq daima bütün dünya klassiklərinin və tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Bu övliya şairin sözünün sehri hələ öz zamanından bütün dünyanı tutmuş, insanları özünə valeh etmişdir. Odur ki, Yaxın Şərq xalqları arasında bir ovliya kimi tanınan Yunus Əmrənin ilahiləri əsrin əvvəllərindən dünya xalqları dilinə tərcümə olunmağa başlamışdır.

Avropada Şərq xalqlarının ədəbiyyatına, mədəniyyətinə, tarixinə, etnoqrafiyasına, adət-ənənəsinə, milli dəyərlərinə maraq həmişə olmuş və olacaqdır. Türk klassikləri və türk dilində yazıb-yaradan şairlər haqqında ingilisdilli oxuculara ilk məlumat verən Elias Con Vilkinson Gibb olmuşdur. Gibbin Yunus Əmrə şeirlərinin ingilisdilli xalqlar arasında yayılmasında böyük xidmətləri var. Bu alimin ömrünü həsr etdiyi çoxcildli "Osmanlı poeziyasının tarixi" əsəri türk klassiklərinə həsr olunub. Gibbin "Osmanlı poeziyası tarixi" kitabında Azərbaycan şairlərindən Qazi Bürhanəddin, Nəsimi, Xətai və Füzuli haqqında da ətraflı məlumatlar var.

Gibbin 1882-ci ildə nəşr olunun "Ottoman poems" ("Osmanlı şeirləri") kitabında türk poeziyası, o dövrdə yazıb-yaradan türk şairlərinin ictimai mənsubluğu haqqında ətraflı məlumatlar yer alıb.

E.V.Gibb "Ottoman poems" (Osmanlı şeirləri) əsərindəki Yunus Əmrə bölməsində qeyd edir ki, fırtınalı bəyliklər dönəmində kiçik dövlətlər qurmağa çalışanların sırasında Anadolu da var idi. Orada Yunus Əmrə adında bir dərviş yaşayırdı. O, təhsil görməsə də, az da olsa, oxuyub-yazmağı bacaran Batı Türklərinin ilk yerli şairi idi. Gibbin o zaman Aşıq Çələbinin təskirəsi haqqında məlumatı olmasını biz onun Yunus Əmrə haqqındakı yazılarından məlumatlanırıq. O göstərir ki, Aşıq Çələbi də öz təskirəsində Yunusdan az da olsa söz açır [2, s.1-4].

Gibb adı çəkilən əsərində həmin dövrdə sultanların hökmdarlığından əsər yazan Saadəddin və Əli kimi elm adamlarının da yazdıqları tarix kitablarında Yunus Əmrədən söz açdıqlarından bəhs edir. Müəllif onu da qeyd edir ki, öyrəndiyimiz qaynaqlara görə Yunus XIII əsrin sonuna kimi Kastramonda Qızıl Əhmədli adlı bəylik bölgəsində yaşamışdır. Onun mürşidi Bolu bölgəsindən olduğu güman edilən Tapdıq Əmrə adlı bir şeyx olmuşdur. Gibb Yunus Əmrənin şeyxi dərgahında uzun müddət xidmət etməsi və onun dərgahına odun daşıması haqqında olan rəvayətlərə də açıqlama verir. Bununla bağlı Yunus Əmrənin divanında işarələrin olması və şairin,

Tapdığın tapısında, qul olduq qapısında,
Miskin Yunus çiy idi, bişdi əlhəmdürüllah (3, XXIII).

beytili şeirinin məhz o zaman yazıldığı güman edilir. Müəllif göstərir ki, bu rəvayətlər həm Taşköprülüzadənin "Şəkayikin-Numaniyyə" əsərində, həm də Əlinin tarix kitablarında da yer almaqdadır. Əlinin tarix kitabına görə bir gün şeyxi Yunusdan "təpələrdən kəsdiyi

ağacların arasında heç əyri odun yoxdurmu? sualına Yunus "əyri olan şeylərin hər iki dünyada yararı yoxdur" cavabını verir. Bu da şeyxin xoşuna gəlir və ona dualar edir.

Gibbin mülahizələrinə görə Yunus və şeyxi Tapdıq Əmrə ilə bağlı rəvayətlərə həm Taşköprülüzadənin, həm də Əlinin kitabında rast gəlinir.

Bütün bunlar onu göstərir ki, Yunus Əmrə hələ öz dövründə tanınmış bir şair olub. Müəllif onu da qeyd edir ki, təzkirəçilərin heç biri istər Yunus Əmrə, istərsə də Tapdıq Əmrə haqqındakı yazılarında tarix göstərmirlər. Həm Taşköprülüzadə, həm də Saadeddin onları İldırım Bayəzid dönəmində (1390-1403-cü illər) yaşadıqlarını yazırlar. Ancaq Vələd Çələbi öz məqaləsində göstərir ki, Yunus Əmrə həm Taşköprülüzadənin, həm də Əlinin göstərdiyi tarixdən bir əsr öncə yaşamışdır. Müəllif onu şairin "Risalətün-nüshiyyə" poemasından gətirdiyi nümunəyə əsaslanaraq qeyd edir:

Tarix dahi yidi yüz yidi idi,
Yunus canı bu yolda kodı idi.

The history was even a hundred yes,
Yunus was a liar in this way [4, s.88].

Aşıq Çələbi təskirəsində yeddi rəqəminin müqəddəsliyini nəzərə alan alim şairin poemasına əsasən onu yeddi qüdrətin mülk dünyasından mələküt dünyasına çəkdiyi saylı insanlardan olduğunu göstərir. Bu, şair haqqında XV əsrdə yazılı mənbələrin verdiyi məlumatdır.

İngilis şərqşünası Yunus Əmrə haqqında "The History of Ottoman Poetry" (Osmanlı poeziyasının tarixi) adlı çoxcildli əsərində daha geniş məlumat verir. O, bu əsərində göstərir ki, Taşköprülüzadə "Şəkayikin Numaniyyə"də Yunusun əsərləri haqqında belə qeyd edir ki, incə xüsuslar, kinayələr və mükəmməlliklər ehtiva edən bu əsərlər varsağı tərzindədir. Elmül-Tohid və ilahi sirlər bəyan etməsindən onun fövqəladə bir biliyə sahib olduğu açıq-aşikar görünməkdədir. Əli isə tarix kitabında onun ümmi (savadsız) olması haqqında bir şey söyləməz, fəqət Yunusun Türk dili ilə gözəl şeirlər yazdığını təsdiqləyirlər.

Şərqşünas Yunusun əlimizdə olan daşbasma şeirlərindən altıyüz beyt tutumunda məsnəvi tərzində bir əsərinin və üç yüz-dörd yüzə qədər qəzəl tərzində divanının olduğunu söyləyir. (Gibb. p.167) Amma Yunus divanında bu qədər şeir nümunələrinin olmadığı da bizə məlumdur. Oradakı şeirlərin heca vəznində olmasını göstərən alim bu şeirlərin türk şeir şəklinə uyğunluğunu daha da dərindən təsdiqləmiş olur. Taşköprülüzadə Yunusun şeirlərinin şəkli haqqında yazır ki, onun şeirlərinin varsağı tərzinə uyğun olmasına şübhə yoxdur. Bilinən bütün qəzəllərində üç aşağı, beş yuxarı Türkcədə çox bəyənilən müsəmmət tərzinə uyğun olan şeirlər də diqqəti çəkməkdədir.

XIII əsrdən günümüzə gəlib çatan Yunus Əmrə şeirləri dəyişikliyə uğrasa da, öz ilkin şəklini saxlamışdır. Şeirlərdə şairin türçülük xarakteri açıq şəkildə özünü göstərməkdədir, amma şeirlərdəki qafiyələrin səs tərkibi qüsurludur. Bütün bunları xarakterizə edən şərqşünas alim yazır: "Bu qüsurlar şeirin içindəki səslərdə, bəzən də sözlərin sonunda özünü göstərir. Əlbəttə, bu şeirlərdə süni səslənmə qafiyəsi, söz sənətkarlığı və bəlağət də yoxdur. Yunusun şeirlərində başa düşülməyən və istifadə olunmayan kəlimələr isə əsasən osmanlı ləhcəsindədir. Bu da şairin şerlərinin bəzilərində özünü göstərir və şeirlərin dilini ağırlaşdırır. Təbii ki, bütün bunlar illər və əsrlər boyunca Yunusun şeirlərinin üzünü köçürən katiblərin düzəlişlərindən irəli gələn hallardır". [p.167]

Yunus yaradıcılığına Gibbin müraciəti keçən əsrin əvvəllərindən – 1900-cü ildən olmuşdur. Gibb tərcümələri ilə bu övliya şairi bütün dünyaya tanıtdı. Gibbin bu tərcümələri dil baxımdan çətin və anlaşılan ingiliscədir. Bir məsələni də nəzərdən qaçırmaq lazım deyil ki, Gibb tərcümə etdiyi əsərlərin formasını, məzmununu, ideyasını, ritmini, musiqi ahəngini saxlamaqla yanaşı, tərcümə zamanı dil-üslub ahəngindəki incəliyi də qoruyub saxlamağa çalışmışdır. Gibb dövrünün müasir araşdırıcılarından olan E.H.Alexander onun "mən onları ingi-

liscəyə türkcə olduqları kimi tərcümə etməyə, ingilis sözləri ilə Şərq poeziyası yaratmağa çalışıram" deməsinə haqq qazandırmışdır. (Yunus Əmrə, Divan)

Gibb zamanında və ya bizim dövr üçün bu tərcümələrin əhəmiyyəti böyükdür. Çünki ilkin türk şeir örnəklərinin tərcümələrinin bu xalqın başqa millətlər arasında tanınması üçün böyük rolu vardı. Belə ki, tərcümə zamanı bu dillərin bir-birindən fərqli dil qruplarına aid olduğu üçün onların tərcüməsində də bu çətinlik özünü göstərirdi. Onu da qeyd edək ki, Gibb Yunus Əmrə poeziya incilərindən ingilis dilinə 3 qəzəl və bir məsnəvi tərcümə etmişdir. Gibbin tərcüməsində Yunusun şeirlərindən bəzilərini sizə təqdim edirik ("The History of Ottoman Poetry" E.W.Gibb. V d.I. London 1900. P):

Bir quluna atalar verib, avratü mal, ciftlər verib,
Həm yoq birinin bir pulu, ol rəhimü rəhman bənəm.

Qar yağdırıb, yer donduran, heyvanlara çüri verən,
Bu cümlə işləri görən, həm canlara canan bənəm.
Yunus Əmrə. Əsərləri, Öndər nəşriyyatı, Bakı 2004, s.184

Who unto one doth horses give, doth wives and wealth and children give,
The while another lacks a groat, that One of gracious sway am I.

Who bringeth snow and doth earth freeze, who on earch brute his food bestows,
Who worketh all these businesses, the Soul of souls in fay am I.

Who holds the veils of flesh and skin and bone, and life and body e en;
My woks are Power and many an one the Hid and Open aye am I (5, 1712)

Gibbin tərcümələri türk şairləri və poeziyası haqqında ingilis oxucularına məlumat verməsi baxımından tədqiqatçının türk poeziyasına olan marağını göstərir. Türk şairlərinin əsərləri Gibbin tərcümələrindən sonra da ingilis dilinə tərcüməsi uzun zamanlardır ki, dayanmamışdır. Ancaq Gibbin tərcümələrində arxaik sözlərin olması, bu gün anlaşılması müasir oxucu üçün nisbətən çətin olan məqamlar da var. Bu günkü tərcümələrdə bu çətinliklər aradan qalxmış, tərcümələrin dili müasir oxucunun başa düşəcəyi bir dildə öz izahını tapır.

Gibbin "Osmanlı poeziyasının tarixi" əsərinin ilk bölümündə müəllif Osmanlı şeirinin özəllikləri, oradakı kəlimə və ifadələrin mənası, onların fəlsəfəsi, təsəvvüflə bağlı fikirləri, şeir vəzinləri və bəlağət elmi ilə bağlı mülahizələri yer almaqdadır. On bölmədən ibarət olan ikinci hissədə, əsasən, türk klassiklərindən Mövlana Rumi, Sultan Vələnd, Yunus Əmrə, Aşıq Paşa və s. haqqında söz açılır. 1902-ci ildə Gibbin dostu Edvard Braunun ön sözü ilə çap olunan II cilddə Gibbin faydalandığı qaynaqlar, yəni Türk klassik şairləri, sonda isə öz zamanında çox da məşhur olmayan şairlərə yer verilmişdir.

İstər dünya şərqşünaslığı, istərsə də türk ədəbiyyatşünaslığında Gibbin tərcümələri və türk ədəbiyyatı haqqındakı fikirlərində mübahisəyə səbəb olan məsələlərə də təsadüf edilir. A.Kudelin yazır: "Gibbin tədqiqat və tərcümələrində mübahisəli məqamlar da vardır və bir sıra Avropa şərqşünaslığında müşahidə edilən bəzi metodoloji qüsurlara Gibbdə də rast gəlirik. Onlar, Şərq ədəbiyyatının estetik əsasını təhlil edərək, burada mühüm yer alan ənənələri məzmun dolğunluğu və formal söz oyunu kimi qələmə vermişlər." [7, s.166-172]

A.Kudelinin bu fikirləri ilə haqlı olaraq razılaşmayan tədqiqatçı alim Nəsib Göyüşov öz mülahizələrində yazır: "Amma, əslində, bu belə deyildir. Ərəb, fars və türk dilində yazılan ədəbiyyat bir çox cəhətlərdən ortaq xarakter daşıyır və türk tədqiqatçısı A.S.Levend həmin ədəbiyyatların poetik sisteminin də müştərək olduğunu qeyd etmişdir." [8, s.85]

1970-ci ildə Kembircdə P.M.Holtun tərtib etdiyi "İslam tarixi" əsərinin ikinci cildində yazır: "Yunus Əmrə, Füzuli, Nədim və Nəvai klassik türk ədəbiyyatının ən məşhur şairlərin-

dəndir, amma Füzuli onların hamısından yüksəkdir, çünki onun müxtəlif mövzulara həsr edilmiş qəzəllərinin çoxu öz orijinallığı ilə seçilir" [9, s.690]

Türk kalassik ədəbiyyatına məhəbbət bəsləyən tədqiqatçılardan biri də Sofi Huqi olmuşdur. O, kiçik yaşlarından bütün elmlərdən xəbərdar olan, təmkinli, mülayim xasiyyətli atasından türk və ərəb dillərində oxumağı öyrənmiş, Şərq ədəbiyyatına dərindən bələd olmuşdur. S.Hurin yazdığına görə onun gözləri qarşısında geniş üfüqlər açan, əqidəsinə, dünyagörüşünə güclü təsir göstərən Mövlana Cəlaləddin Rumi, Yunus Əmrə, Nizami, Misri və Füzuli olmuşdur. [10, s.115]

Yunus Əmər şeirlərinin ingilis dilinə tərcüməsindən bəhs edən A.Gölpınarlı qeyd edir ki, Yunusu Batı aləminə ilk tanıdan Gibb olmuşdur. O, " History of Ottoman Poetry" adlı əsərinin I cildində Yunus Əmrədən bəhs etmiş, onu təsəvvüf əhli, əda baxımından şeirlərinin Mövlananın şeirlərinə bənzədiyini, haqlı olaraq oxuma, yazma bilmədiyini, türkçə və heca vəznində yazdığını, Əhməd Yəsəvi tərzini kullandığını da yazmış və Yunus haqqındakı əfsanələri də sunmuşdur ki, bu son müddəalar tamamilə yanlışdır. Müəllif onu da qeyd edir ki, Yunusa və bizim xalq şeir tərzinə Əhməd Yəsəvinin heç bir təsiri yoxdur. Gibb əsərini yazan zaman Yunus haqqında çox az məlumatların olması, müəllifi şair haqqında belə deməyə əsas vermişdir. Zaman keçdikcə Yunus Əmrə yaradıcılığı və onun şeirləri araşdırılmış, haqqında daha çox məlumatlar elmə məlum olmuşdur. Müəllif göstərir ki, Gibb öz əsərində Yunusun "Münacat"ını və üç şeirinin tərcüməsini vermişdir (11, XLVI).

Yunus Əmrə haqqında ingilisdilli oxuculara məlumat verən şərqşünas alimlərdən biri də J.Kingsley Birge olmuşdur. O, "Yunus Emre, Turkeys Great Poet of the People" adlı əsərində şair haqqında xalq arasında yayılan dastandan, rəvayətlərdən bəhs etmişdir. Birge bu əsərində şairin divanını gördüyünü qeyd edir. Müəllif bu kitabında Yunus haqqında yeni fikirlər söyləməsə də, şairin şeirlərindən etdiyi tərcümələr xüsusi əhəmiyyət kəsb edir. J.Kingsley Birgenin Yunusdan və Bəktaşi dərvişlərindən bəhs edən bu əsərində Yunus haqqında daha doğru məlumatların olduğunu görürük. Yazıçı burada Bəktaşi şeirində Yunusun xüsusi yerinin olduğunu göstərir. Onun "Münacat"ının tərcüməsinin yerində olduğunu vurğulayır [12, s.53-55; 107-108].

Kingsley Birge olmuşdur. O, "Yunus Emre, Turkeys Great Poet of the People" XIII əsrin sonları-XIV əsrdə yaşamış Sultan Veled, Aşıq Paşa, Səyyad Həmzə kimi türk klassiklərindən bəhs edəndən sonra Yunus Əmrə iyirmi səhifəlik geniş bir yer ayırmışdır. Bu məqaləsində müəllif "Yunusun savadsız olmadığını, mistik bir şair olaraq qalmadığını, insan ruhunun müxtəlif halətlərini çeşidli tərzdə söyləmək qüdrətini böyük bir övqü ilə anar, orta çağ şairləri içərisində heç qocalmayan, bütün xalq tərəfindən anlaşılıb bəgənilən Yunusun, Türk çağdaş şeiri üçün zəngin bir qaynaq olduğunu söyləyir" [11, s.208-209]

Şair haqqında Avropada ilkin məlumat verən tədqiqatçılardan biri də Solange Lemaitrenin "Texas Mistiques d Orient et d Occident" adlı kitabıdır. Müəllif bu kitabında Yunus Əmrə haqqında məlumat verməklə yanaşı onun şerlərinin tərcüməsinə də yer ayırmışdır. Müəllifin Yunusun həyatı və yaradıcılığı haqqında verdiyi məlumatlar səthi xarakter daşıyır. Bu arada şairin şeirlərindən nümunələr də verilir.

Səbahəddin Əyyuboğlu İstanbul Universiteti Fransız filologiyası fakültəsi nəzdində çıxardığı "Dialoge" məcmuəsində "Poesies Populaires Turque" adlı məqaləsində Yunus Əmrənin

Eşqin aldı məndən bəni mənə səni gərək səni,

Mən yanaram dünü günü mənə səni gərək səni [11, s.119].

Beyti ilə başlayan qəzəlini gözəl bir şəkildə fransız dilinə tərcümə edərək çap etdirmişdir. [11, s.119].

Yunus Əmrə yaradıcılığı hər dövrlərdə aktul olmuş və olacaqdır. Bu şairin ilahilərindəki hikmət heç zaman bitib tükənmir. Odur ki, onun yaradıcılığı istər türkdilli oxucular, istərsə də ingilisdilli oxucular tərəfindən rəğbətlə qarşılanır və müxtəlif dillərə tərcümə olunaraq bu övliya şairə əbədilik bəxş edir.

Ədəbiyyat

1. Paşayev Q. Seçilmiş əsərləri. On cilddə. VII c. Bakı: Təhsil, 2012, s.5.
2. Əliyev Ə. "Bizim tanrı sevgimiz". Ədəbiyyat və incəsənət. qəz. 1991, 11 yanvar. 1-4.
3. Gölpınarlı A. Yunus Emre. Hayatı ve bütün şiirleri. (Tertibçi: Hasan Ali Yücel) İstanbul, Türkiye Bankası Kültür Yayınları, 2011, IV baskı, s. 522.
4. Yunus Əmrə. Risalətün-Nüshiyyə. (Tərtibçi: X.Hümmətova) Bakı. Elm və təhsil, 2013, s.194.
5. Gibb E. A History of Ottoman Poetry, 6 cilt, Londra, 1900-1909, bk.cilt I, ss 171
6. https://www.poemhunter.com › poem › god-per
7. God Permeates The Whole Wide World Poem by Yunus Emre ...
8. Куделин А.Б.Средневековая арабская поэтика (II половина VIII-IX вв.) Москва: Наука, 1983, с.166-172.
9. Göyüşov N. Füzuli: Düşüncə və ruhun poetikası. Bakı: Elm və təhsil, 2012.
10. Holt P.M. The Cambridge history of İslam. Vol 2. Cambridge at the University Press, 1970, pp 690.
11. Sofi Huri. Translaters note. Leyla and Mejnun by Fuzuli. London, 1970, p.115.
12. Yunus Emre. Risalet al-Nüshiyya ve Divan. (Ön sözün A.Gölpınarlıdır) İstanbul, Eskişeher Turizm ve Tanıtma Dernegi yayını: I, 1965, s. 310.
13. Kingsley Birge he Bektashi order of Dervishes. Londra, 1937. 53-55:107-108.

Р.Н.Сулейманова

Юнус Эмре в английских исследованиях

Резюме

Великий поэт XIII века Юнус Эмре всегда был в центре внимания мировых классиков и исследователей. С начала века произведения поэта переводились на разные языки. Английский востоковед Гибб был его первым исследователем. Подробная информация о Юнусе Эмре содержится в труде Гибба «История османской поэзии». Здесь великий востоковед рассказывает о жизни и деятельности Юнуса Эмре в Анатолии.

Как сообщает Гибб, произведения поэта состоят из более шестисот двустиший в стихах месневи и дивана, содержащего от трех до четырехсот газелей. Гибб перевел несколько образцов стихов поэта на английский язык. В своей книге он издал три газели и двустишие.

Стихи Юнуса Эмре более образны по сравнению со стихами любого другого турецкого поэта. Фактически, только им одним были использованы исключительно высокопоэтичные турецкие меры.

Английский востоковед отмечает, что стихи Юнуса Эмре, поэтично) чем у любого другого турецкого поэта. Это факт, что он один использовал исключительно необработанные турецкие измерители.

В то же время Гибб имеет дело с такими писателями, как Саадеддин и Али, которые писали о правителях, живших в тот период. В этих исторических книгах говорится также о Юнусе Эмре. Гибб отмечает, что Юнус Эмре жил на территории под названием Кызыл Ахмедли в конце тринадцатого века. Все это свидетельствует о том, что Юнус Эмре был известным поэтом своего времени.В своем творчестве английский востоковед познакомил его с миром, переводя стихи Юнуса Эмре. При переводе стихотворений Юнуса Эмре переводчик старался сохранить форму, тему, идею, интонацию, ритм и ему это удалось. Мы должны отметить, что эти переводы сыграли большую роль в прославлении Юнуса Эмре во всем мире. После Гибба перевод стихов Юнуса Эмре был переведен на английский язык. Но когда мы сравниваем эти переводы, мы видим, что переводы Гибба находятся на высоком уровне со своими оригинальными и поэтическими особенностями. В наши дни переводы стихов великого поэта продолжаются. Это показывает, что поэзия Юнуса Эмре с большой любовью читается не только в Турции, но и во всем мире.

R.N.Suleymanova

Yunus Emre in English studies

Summary

The great Sufi poet of the 13th century Yunus Emre has been always in the focus of attention of the world classics and European investigators. The poet's works and poems had been translated into different languages of the world since the beginning of the century. The English orientalist Gibb was one of his first investigators. There was detailed information about Yunus Emre in his work "A History of Ottoman Poetry". In his work the great orientalist gives the wide information about the poet's life, period and activity in Anatolia.

As the orientalist Gibb says that the poet's works consists of something over six hundred couplets in mesnevi verse and a diwan of between three and four hundred ghazels. At the same time Gibb has been given some examples of the poet's poems and translated them into English. In his book Gibb gave three ghazals and a distich.

The English orientlist notes that Yunus Emre's verse is rugged beyond that of any other Turkish poet. It is fact that he alone used exclusively the uncultivated Turkish metres. At the same time Gibb deals with the writers such as Saadeddin and Ali who wrote about rulers lived in that period. In that historical books are also spoken about Yunus Emre. Gibb notes that Yunus Emre lived in the territory named Kizil Ahmedli at the end of the thirteenth century. All these show that Yunus Emre was famous poet of his period. In his work the English orientalist introduced him to the world translating the poems of Yunus Emre. While translating Yunus Emre's poems the translator tried to keep the form, theme, idea, intonation, rhythm and he achieved to this difficult work. We have to note that it has a great role of these translations to make Yunus Emre famous in the world. After Gibb the translation of Yunus Emre's poems had been translated into English. But when we compare these translations we see that Gibb's translations are on high level with its original and poetical peculiarities. Nowadays the translation of the great poet's poems are continued. It shows that the poetry of Yunus Emre are read with great love not only in Turkey but in the world.

Rəyçi: filol.f.d., dos. L.Əliyeva

Redaksiyaya daxil olub: 12.05.2023

G.K.YUNUSOVA
filologiya üzrə fəlsəfə doktoru,dissertant
e-mail: yunusova_edu@mail.ru

AMEA-nın Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu
(Bakı şəh., H.Cavid pr., 115)

XIX-XX ƏSRLƏRİN HÜDUDLARINDA AZƏRBAYCAN MƏTBUATINDA TÜRK ƏDƏBİYYATINA MÜNASİBƏT

Açar sözlər: *XIX əsr, XX əsr, Azərbaycan ədəbiyyatı, ədəbi-mədəni mühit, türk ədəbiyyatı, mətbuat, ədəbi-nəzəri fikir*

Ключевые слова: *XIX век, XX век, Азербайджанская литература, литературно-культурная среда, турецкая литература, пресса, литературная мысль*

Key words: *XIX century, XX century, Azerbaijani literature, literary and cultural environment, turkish literature, press, literary thought*

XIX əsrin II yarısı-XX əsrin əvvəllərində Azərbaycan ədəbi-mədəni mühitində mətbuatda, dərsliklərdə, ayrı-ayrı kitablarda və s.-də türk ədəbiyyatına və onun çoxsaylı məhsullarına, türk ədəbi-mədəni mühitinə və hərəkatına münasibətin maraqlı, zəngin, əhatəli mənzərəsi ilə üzləşirik. Əlbəttə, bu, bilik, məlumat və təbliğat vasitələrindəndən mətbuat daha çevik, daha dinamik idi. Çünki dərsliklər, müstəqil kitablar bir-iki dəfə nəşr olunduğu halda, mətbuat davamlı xarakter daşıyır, ayrı-ayrı ədəbi proses və hadisələrə, yeniliklərə daha çevik reaksiya göstərə bilirdi. Onu da əlavə edək ki, haqqında danışdığımız dövrdə adı çəkilən məlumat vasitələrində yalnız türk ədəbiyyatı ilə bağlı deyil, Osmanlı imperiyasında baş verən, mövcud olan ictimai, siyasi, tarixi, mədəni, iqtisadi, elmi, pedaqoji və s. məsələlərlə bağlı maraqlı informasiyalara, bilgilərə də rast gəlirik. Lakin bizim mövzumuz ədəbiyyat hadisələri olduğundan, əsasən, bu problemə diqqət yetiririk.

Azərbaycan mətbuatında türk ədəbi-mədəni həyatına maraq milli mətbuatımızın ilk qaranquşu olan "Əkinçi" (1875-1877) qəzetindən başlayır. Qəzetin naşiri və redaktoru Həsən bəy Zərdabi türk ədəbi-mədəni gerçəkliyinə də maraq göstərir, rəsmi dairələrin sərt təpkilərinə, qadağalarına baxmayaraq Osmanlı dövlətindəki ədəbi-mədəni hadisələr barədə də müəyyən məlumatlar verirdi. Məsələn, qəzetin 5 avqust 1875-ci il tarixli nömrəsində belə bir məlumatla rastlaşırıq: Osmanlı dövləti təhsil almaqdan ötrü Fransanın paytaxtı Paris şəhərinə xeyli sayda tələbə göndərmişdir. Həmin tələbələrin əksəriyyəti təhsilini tamamladıqdan sonra geriyə, vətənlərinə qayıdacaqlar. İstambulda isə böyük bir məktəbxananın, yəni universitetin açılması nəzərdə tutulur [1, s.35].

Qəzetin digər bir nömrəsində İstambulda Məhəmməd Tahir İraninin fars dilində nəşr etdiyi "Əxtər" qəzeti barədə məlumat verilir. Qəzetdə "Əxtər"in elanı da dərc olunur. Azərbaycan oxucuları qəzetə abunə olmağa çağırılır. Bildirilir ki, "qəzet fars dilində çap olunduğuna və fars dili bizim vilayətlərdə çox işləndiyinə ümidvarıq ki, onu bizim tərəflərə gətirən çox ola" [1, s.186].

O zaman Azərbaycanda ana dilində elm və tədris kitabları yox idi. Bu mənada milli dilin öyrənilməsi, intişarı yolunda böyük bir boşluq mövcud idi. Yeni tarixi şərait, baş verən milli oyanış ana dilimizdə bu cür kitabların meydana gələməsinə ciddi zərurət yaradırdı. Həmin ehtiyacı gözəl anlayan Həsən bəy təklif edirdi ki, müəyyən müddət üçün, yəni bizdə milli dildə elm və tədris kitabları ortalığa çıxana qədər Türkiyədə məktəbxanalar üçün nəşr olunan kitabları gətirib milli dilə uyğunlaşdıraraq çap etmək, bununla da oxucuların oxuya olan mənəvi ehtiyaclarını qismən də olasa, ödəmək olar. Həsən bəy "millət qeyrəti çəkən" kəsləri bu yolda səfərbərliyə, iş görməyə çağırırdı: "Bir neçə ildir ki, Osmanlı dövləti məktəbxanalar

açıb hər bir elmi öz dillərində xalqa öyrədir. Çünki onların kitablarını bizim adam oxumaq çətindir., ona binaən yaxşı olurdu ki, bizim millət qeyrəti çəkən qardaşlar bir icma bina edib ol kitablardan gətirib bir az dəyişdirib, çapxana açıb öz dilimizdə çap elədib, xalqa müftə, ya bir az qiymətə paylasın ki, bizim məktəbxanalarda şair kitablarının əvəzində ol kitablar oxunsun" [1, s.143-144]. Göründüyü kimi, burada müəllif bizdəki klassik "şair kitabları"nın uşaqların mütaliəsinə yaramadığını, bunları heç olmasa, osmanlının təhsil ocaqlarındakı kitablarla əvəz etməyi məsləhət görür.

"Əkinçi"nin 8 oktyabr 1876-cı il tarixli nömrəsində Zərdabi maraqlı bir məlumat verir. Məlumatda deyilir ki, Osmanlı dövlətinin Peterburqdakı səfiri Kabuli paşanın zövcəsi "Vətən" adlı bir kitab yazmışdır. İndi həmin kitabı nəşr etmək və onun satışından əldə olan gəliri yaralı osmanlı əsgərlərinin müalicəsinə yönəltmək istəyir.

XIX əsrin son rübündə işıq üzü görən milli mətbuat orqanlarımızdan "Ziya" və "Kəşkül" qəzetlərində türk ədəbiyyatına münasibətdə bir sərinlik və susqunluq özünü göstərir. Bunun səbəbi həmin qəzetlərdə Türkiyə və İran kimi müsəlman ölkələri ilə bağlı materialların verilməsinin "rəsmi surətdə qadağan edilməsi" idi. Belə bir qadağanın mövcudluğunu "Kəşkül" qəzetinin tədqiqatçısı Ağarəfi Zeynalov da rəsmi sənədlərə istinadən təsdiq edir [10, s.70]. Bununla belə bu qəzetlərin səhifələrində adı çəkilən ölkələrdəki vəziyyətlə əlaqədar seyrək də olsa, bəzi yazılara rast gəlirik. Lakin bu yazılar içərisində Türkiyənin ədəbiyyatı və ədəbi hadisələri ilə bağlı materiallara təsadüf etmirik.

XX əsrin əvvəllərində Azərbaycanda milli mətbuat orqanlarının sayı artdı. 1903-cü ildə Məhəmmədağa Şahtaxtlının naşiri və redaktoru olduğu "Şərqi-rus" qəzeti nəşrə başladı. 1905-ci ildə Birinci rus inqilabı başladı. Bu inqilabın təzyiqi nəticəsində 17 Oktyabr manifesti verildi. Çarın imzaladığı bu manifest bir sıra yeniliklərə vəsilə oldu. Söz və mətbuat azadlığı sahəsində nəzərəçarpacaq yumşalma baş verdi. Mətbuat dünyasında bir "nəfəs genliyi" (Cəlil Məmmədquluzadə) yarandı. Azərbaycanda yeni-yeni mətbuat orqanları fəaliyyətə başladı. Həmin mətbuat orqanları bu və ya digər dərəcədə türk ədəbiyyatı problemlərinə də diqqət yetirdi. İstər Avropa mədəniyyət və ədəbiyyatına, istərsə də Türkiyədəki Avropa tipli ədəbiyyat və mədəniyyətə maraq çoxaldı. Bu maraq, təbii ki, Azərbaycan mütəfəkkirlərinin istiqlaliyyət, milli dirçəliş və tərəqqi yolunda Qərb ədəbiyyat və mədəniyyətinin rolunu dərk etməsindən irəli gəlirdi. Təsadüfi deyil ki, M.Şahtaxtlı bu münasibətlə yazırdı: "Həqiqətən, milli istiqlaliyyətin yükü bizim dövrdə elə ağırlaşıb ki, onu Avropa mədəniyyətinin köməyi olmadan daşımaq mümkün deyil" [9, s.43]. Bu həqiqəti yaxşı anlayan Məhəmmədağa redaktoru olduğu "Şərqi-rus" qəzetində Avropa ədəbi-mədəni fikrinə, həmçinin Avropa ruhlu türk ədəbiyyatı məsələlərinə də mümkün qədər yer ayırırdı. Osmanlı yazıçılarının "Avropa mühitinə çox gözəl uyğunlaşdıqlarını" söyləyən millət xadimi "Şərqi-rus" qəzetinin 25 avqust 1904-cü il tarixli nömrəsində dərc etdirdiyi "Sultan Muradi-Xamis" məqaləsində Namiq Kamalın türk dövlətçilik şüuru, şücaəti və qüruru ilə bağlı belə bir fikrini misal verir: "Osmanlılar təsisi-səltənət və dövlət yolunda kirdar, qeyrət, məsai, rəşadət, bahadürlük, ağıl tədbir etmək xassəsilə təmiz etmiş tarixi millətlərin birinci dərəcədə olanlarındandır. Osmanlı əhalisi ki, məmurların xaricindədirlər hamının şəhadətinə görə hüsni-əxlaq sahibi olub, mütəvaze, çalışqan, vətənpərvər, dava meydanında canını vətənə fəda etməyi özləri üçün ən böyük nemət hesab edən adamlardırlar" [9, s.186]. Türklərin vətənpərvəlik ruhunu, milli şücaətini nəzərə çatdıran N.Kamal qeyd edir ki, indiki tarixi şəraitdə onları düşdükləri zavallı dövlətçilik durumundan, zəlalətdən qurtarmaqdan ötrü intellektual şəxsiyyətlərə, güclü, iradəli və qətiyyətli başçılara ehtiyac vardır. Bu cür liderlər türk xalqını düzgün yola yönəltsələr, tezliklə tənəzzüldən xilas olmaq mümkündür. Bir başqa yazısında isə M.Şahtaxtlı N.Kamalın vətənpərvərlik mövzusunda qələmə alınmış "Vətən, və ya Silistrə" pyesini tərifləyir [9, s.40].

"Şərqi-rus"un 13 aprel 1903-cü il tarixli nömrəsindəki iri həcmli "Dərdimiz və dərmanımız" məqaləsində M.Şahtaxtlı fikirlərinin təsdiqi üçün Mövlana Cəlaləddin Rumidən misal çəkir. "Hər gün bir az" silsiləsinə daxil olan başqa bir yazısında Azərbaycan dili ilə osmanlı

türkcəsini müqayisə edib onların eyni türkcənin fərqli şivəsi olduğunu söyləyir [9, s.197]. Həmin silsiləyə daxil olan başqa bir məqaləsində müəllif osmanlı dilnin və ədəbiyyatının son onilliklərdə qazandığı uğurlara diqqəti cəlb edir. Bildirir ki, əvvəlki əsrlərdə türklər öz dillərinin qayğısına qalmayıb ərəb-fars dillərindən çoxlu kəlmələr almışlar. Bu, türk dilinin yoxsullaşmasına səbəb olmuşdur. Ancaq son dövrlərdə osmanlı türklərində bir milli özünüdərk, öz dillərinə qayğı hissi yaranmışdır. Onlar bu yolda xeyli nailiyyətlər qazanmışlar. Bu vacib işdə Fuad paşa, Əhməd Rəfiq paşa kimi dövlət adamları da böyük əmək sərf etmişlər. Son onilliklərdə türk ədəbiyyatının nailiyyətlərindən danışan M.Şahtaxtlı, əsasən, orada yaranan Avropa tipli ədəbi-bədii sərvətə və sənətkarlara diqqəti cəlb edir. Bu möhtəşəm yeniliyin İbrahim Şinasi ilə başladığını qeyd edir: "Amma bu əsrin ən diqqətəlayiq səməri Şünasi ədəbiyyatının rahrüvanları oldular. Şünasi kiçik sinnindən şərq lisanları ilə bərabər Avropa lisanlarına və avropalıların ədəbi əqayidinə aşina olduğundan uzun müddət Parisdə təhsil görəndən sonra İstanbula gəlib, mətbuat aləmində türk dilini və ələttəxsis ədəbi yazılan inşaatda müstəməl olan müğləq ibarələri asanlaşdırmağa və ədəbiyyatı təbii yola gətirməyə başladı. Nə qədər hüsni-səliqə və istedad sahibi olan gənc (cahil) əhli-qələm varsa, hamısı bunun başına yığışdılar" [9, s.201]. Şinasinin Osmanlı dövləti çevrəsində yeni, mütərəqqi bir ədəbiyyat yaratmaq yolunun ilk böyük müəssisi olduğunu söylədikdən sonra "Şərqi-rus"un naşiri N.Kamal, Ə.Hamid kimi qüdrətli sənətkarların bu yolun şərəfli, müəzzəm yolçuları olduğunu da nəzərə çatdırır. Onlarla yalnız türklərin deyil, bütün bəşər övladının fəxr edə biləcəyini vurğulayır. Son dövrlərdə "fazili-şəhir"Asim əfəndinin həm bir alim, həm də bir sənətkar kimi gördüyü işlərin də türk xalqının mədəni tərəqqisinə xidmət olduğunu qeyd edir.

1903-cü ildə (4, 6, 11 aprel) "Şərqi-rus"da Ömər Faiq Nemanzadənin də "Dərdimiz və dərmanımız" adlı iri həcmli bir məqaləsi çap olunmuşdu. Müəllif burada geri qalmağımızdan, xalqın cəhalət, qəflət içərisində yaşamasından, Avropa xalqlarının böyük tərəqqiyə nail olmasından danışır. Onlardan ibrət götürməyə səsləyən ədib fikrinin təsdiqi üçün Cəlaləddin Rumidən mətləblə bağlı bir nümunə verir.

"İrşad" qəzetinin 1908-ci il 22 aprel tarixli nömrəsində N.Zeynalovun "Osmanlı ədəbiyyatına bir nəzər" sərlövhəli məqaləsi oxuculara təqdim edilmişdir. Məqalədə osmanlı ədəbiyyatının son onilliklərdəki inkişaf meyillərindən və ədəbi-bədii hərəkatın son mənzərəsindən söhbət açılır. Müəllif ədəbi proseslərə son onilliklərdə Türkiyədə baş verən ictimai-siyasi hadisələr müstəvisində baxır. Əslində belə bir şərh metodu ədəbiyyatda baş verən yeniliklərin sosial-siyasi mahiyyətini anlamaqda düzgün yoldur. Çünki həmin dövrdə osmanlı coğrafiyasında ədəbiyyatda baş verən "təcəddüd" meyilləri, müasirləşmə, avropalaşma hərəkatı məhz ictimai-siyasi proseslərin fonunda meydana gəlmişdi. N.Zeynalov da ədəbi fikir meydanında cücərib boy atan, yüksələn hadisələrə həmin rakrusda baxır. Bunun milli-ictimai şüura təsirini aydınlaşdırır.

Azərbaycan mətbuatı Türkiyə ədəbi-mədəni mühitindəki müəyyən neqativ hallara da reaksiya göstərir, ona münasibət bildirirdi. Bu mənada M.Ə.Rəsulzadənin "İrani-nou" qəzetindəki bir məqaləsi xüsusi maraq doğurur. Belə ki, XX əsrin ilk onilliyinin sonlarına doğru İstanbulda "Şəms" adlı bir qəzet nəşr olunurdu. Qəzet İranda məşrutə hərəkatını, xalq tərəfindən seçilmiş millət vəkillərini, məşrutə hərəkatının bəzi liderlərini tənqid edən yazılar dərc edirdi. Başqa mətləblərlə bağlı yazılarında da qərəzli, qeyri-obyektiv mövqe nümayiş etdirirdi. M.Ə.Rəsulzadə 20 fevral 1910-cu ildə "İrani-nou" qəzetində işıq üzü görən "Şəms" qəzeti" məqaləsində onun "söyüş, hərzəlik, şərəfsizlik, alçaqlıq" yolu tutan mövqeyini kəskin şəkildə tənqid edirdi. Bunun bir mətbuat orqanına yaraşmadığını vurğulayan Məhəmməd Əmin bəy yazırdı: "Şəms" öz töhmətləri və alçaqlığını yerli mətbuatın heysiyyət və vüqarı ilə təsdiqləmək istəmişdir. Onun bu axırıncı səhvi bizi bu sətirləri yazmağa məcbur etdi. Sanki belələri öz-özlərinə deyirlər: bir halda ki, abadlıq edə bilmirik, xaraba qoyaq, bu yolla da şöhrətimiz artsın. "Şəms" qəzeti də belə şöhrətpərəstlərdəndir" [5, s.42]. Millət xadimi nəzərə çatdırırdı ki, Artemida məbədini yandıraraq şərəfsiz şöhrət qazanan Herostrat kimi "Şəms" qəzeti

də İran inqilabının namuslu fədailərinə böhtan atmaqla, onların barəsində "ədəb və məntiqdən" kənar şeylər yazmaqla şöhrətlənmək istəyir.

1913-cü ildə (28, 30 iyun, 5, 25, 28 iyul) "İqbal" qəzetində çıxan iri həcmli "Türkiyədə qadınlar" məqaləsində M.Ə.Rəsulzadə Türkiyədə ictimai-siyasi həyatda olduğu kimi ədəbi-mədəni həyatda da qadınlar arasınada bir tərpəniş, dirçəliş nəzərə çarpdığını deyir. Nigar Binnət Osman, Fatimə Aliyə, Xalidə Ədib kimi qadın sənətkarlardan söz açır.

1916-cı ildə (30 oktyabr) "Açıq söz" qəzetində "Kamal bəy-"Gülnihal"ın gürcücəyə tərcüməsi münasibətilə" adlı məqalə N.Kamalın gürcü ədəbi ictimaiyyəti tərəfindən də rəğbətlə qarşılandığını göstərir. Müəllifi göstərilməyən bu məqalədə gürcücəyə tərcümə olunan əsərin gürcü oxucuları tərəfindən böyük maraqla qarşılandığı deyilir. Tərcümənin bəzi məziyyətləri təhlil edilir.

Ədəbiyyat

1. "Əkinçi" qəz. [1875-1877]. Tam mətni. / Krill əlifbası ilə təkrar nəşrə hazırlayan: Həsənzadə Turan. Bakı: Azərnəşr, 1979. – 464 s.
2. Kamal bəy (Namiq Kamal) / Bakı:"Açıq söz" qəz., 1916, 30 oktyar
3. Nemanzadə Ömər Faiq. Seçilmiş əsərləri / Ö.F.Nemanzadə. Bakı: Yazıçı, 1992. – 563 s.
4. Rəsulzadə Məhəmməd Əmin. Böyük bir itik / Bakı:"Açıq söz" qəz., 1917, 20 sentyabr
5. Rəsulzadə Məhəmməd Əmin. Əsərləri: [5 cilddə] / M.Ə.Rəsulzadə. Bakı: Şirvannəşr. – c.2 [1909-1914]. 2001. – 528 s.
6. Səhhət Abbas. Seçilmiş əsərləri / A.Səhhət. Bakı: Lider, 2005. – 456 s.
7. Sur Abdulla Tofiq. Sinan Paşaya bir nəzər // Bakı:"Füyuzat" jur., 1907. №28, – s.6-8
8. Sur Abdulla Tofiq. Nəfiyə bir nəzər/ Bakı:"Həqiqət" qəz., 1909, 20, 27, 28, 29 dekabr
9. Şahtaxtlı Məhəmmədağa. Seçilmiş əsərləri / M.Şahtaxtlı. Bakı: Çaşıoğlu, 2006. – 432 s.
10. Zeynalov Ağarəfi. "Kəşkül"də bədii ədəbiyyat / A.Zeynalov. Bakı: Elm, 1978. – 147 s.
11. Zeynalov N. Osmanlı ədəbiyyatına bir nəzər / Bakı:"İrşad" qəz., 1908, 22 aprel
12. "Ziya" qəz. I kitab / Latın əlifbası ilə təkrar nəşrə hazırlayan: Müştəba Əliyev. Bakı: Qanun, 2013. – 344 s.

Г.К.Юнусова

Азербайджан в границах XIX-XX веков
отношение к Турецкой литературе в прессе
Резюме

В статье рассматривается проблема отношения к турецкой литературе в азербайджанской прессе конца 19 века и начала 20 века. Показано, что этот период характеризуется как период национального возрождения в истории Азербайджана и тюркского народа. Эти два народа, имеющие одинаковое происхождение, в указанное время находились в тесном литературном и культурном контакте. В этот период мы наблюдаем активное отношение к турецкой литературе в азербайджанской прессе. Начиная с нашей первой национальной прессы, газеты «Акинчи» (1875-1877), пресса вплоть до эпохи ПСР уделяла серьезное внимание вопросам турецкой литературы. Они проявили научно-теоретическое отношение к ее различным вопросам. Параллельно занимались его продвижением в Азербайджане.

Эти вопросы, затронутые в статье, рассматриваются на основании фактов в СМИ. В то же время, эффективные результаты этого также объясняются.

G.K.Yunusova

Azerbaijan in the boundaries of the XIX-XX centuries
attitude to Turkish literature in the press
Summary

In the article, the problem of the attitude towards Turkish literature in the Azerbaijani press at the end of the 19th century and the beginning of the 20th century is considered. It is shown that this

period is characterized as a period of national renaissance in the history of Azerbaijan and the Turkish people. These two peoples, who have the same origin, were in close literary and cultural contact during the said time. In this period, we witness an active attitude towards Turkish literature in the Azerbaijani press. Starting with our first national press, "Akinçi" newspaper (1875-1877), the press until the era of AKP paid serious attention to the issues of Turkish literature. They have shown a scientific-theoretical attitude to its various issues. At the same time, they were engaged in its promotion in Azerbaijan.

These issues mentioned in the article are considered based on the facts in the media. At the same time, the effective results of this are also explained.

Rəyçi: filol.e.d., dos. F.K.Namazova

Redaksiyaya daxil olub: 14.02.2023

PEDAQOGİKA. METODİKA. PSİXOLOGİYA – ПЕДАГОГИКА. МЕТОДИКА. ПСИХОЛОГИЯ

S.A.ABASOVA
müəllim
e-mail: s-asadzade@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

A.R.LURİYAYA GÖRƏ BEYNİN STRUKTUR-FUNKSİONAL BLOKLARININ KONSEPSİYASI

Açar sözlər: *psixi fəaliyyət, retikulyar formasiya, beyin qabığı, böyük yarımkürələr, funksional bloklar*
Ключевые слова: *психическая деятельность, ретикулярная формация, кора головного мозга, большие полушарии, функциональные блоки*
Key words: *mental activity, reticular formation, cerebral cortex, cerebral hemispheres, functional blocks*

Aktuallıq: A.R.Luriya psixi fəaliyyətin substratı kimi beyinin struktur-funksional modelini təklif etmişdir. Bu model beynin fəaliyyətinin ümumi qanunauyğunluqlarını xarakterizə edərək beynin tam olaraq bütövlüyünü və onun inteqrativ funksiyasını (Y.D.Homskaya) izah etməyə imkan verir. Bu modelə görə, bütün beyni üç struktur-funksional bloka bölmək olar: A) enerji bloku, B) eksteroseptiv informasiyanın qəbulu, emalı və saxlanılması bloku, C) proqramlaşdırma bloku, kompleks fəaliyyət formalarının tənzimlənməsi və nəzarəti bloku. Hər hansı bir ali psixi funksiya bütün üç blokun birgə iştirakı ilə həyata keçirilir. Hər bir blok onun işinin əsasını təşkil edən quruluşun xüsusiyyətləri, fizioloji prinsipləri və onun psixi funksiyaların təmin edilməsində oynadığı rol ilə səciyyələnir . [2]

İlk blok energetik tonusun tənzimlənməsi və oyanma blokudur. Sübut edilmişdir ki, (I.P.Pavlov, A.R.Luriya, M.N.Livanov) normal psixi fəaliyyət üçün orqanizm oyanma vəziyyətində olmalıdır (başqa sözlə, böyük yarımkürələrin qabığı tonus vəziyyətində olmalıdır, yəni oyanmanın müəyyən səviyyəsinə malik olmalıdır). Yalnız optimal oyanma şəraitində insan informasiyanı ən yaxşı şəkildə qəbul və təkrar emal edə, zəruri əlaqə sistemlərilə hafizəyə yönləndirə, fəaliyyəti proqramlaşdıra, onun üzərində nəzarəti həyata keçirə bilər. Müəyyən edilmişdir ki, qabığın tonusunu təmin edən və tənzimləyən aparatlar qabığın özündə deyil, beyinin aşağı hissəsində yerləşən gövdə və kortikal şöbələrində yerləşir. Bu cür aparat müxtəlif səviyyələrdə qeyri-spesifik strukturlar – beyin gövdəsinin retikulyar formasiyası, orta beyinin qeyri-spesifik strukturları, limbik sistem, hipokamp sahəsidir. Retikulyar formasiya qısa aksonlu neyronlarla örtülü sinir şəbəkəsidir. Retikulyar formasiyanın bir sıra xüsusiyyətləri vardır ki, bunun sayəsində onun əsas funksiyaları təmin edilir: birincisi, bu, yüksələn və azalan hissələrdən ibarətdir. Retikulyar formasiyanın yüksələn liflərinə görə həyəcan yuxarı yönəldilir, yuxarıda yerləşən formasiyalarda (hipotalamus, qədim qabıq və yeni qabıq) bitir. Retikulyar formasiyanın azalan lifləri əks istiqamətə malikdir: yeni qabıqdan başlayaraq, onlar həyəcanı orta beyin strukturlarına və beyin gövdəsinə ötürürlər. Bundan başqa, retikulyar formasiyanın neyronları "oyanmanın tədricən toplanması" prinsipi üzrə işləyirlər, yəni oyanma ayrı-ayrı impulslarla deyil, dərəcəlidir, öz səviyyəsini tədricən dəyişdirərək və beləliklə bütün sinir aparatının vəziyyətini modullaşdıraraq yayılır. Nəhayət, retikulyar formasiyaya bütün analiza-

tor sistemlərindən olan liflər (kolaterallar), həmçinin beyin qabığından və beyincikdən çıxan liflər birləşir. Retikulyar formasiyada çoxsaylı əlaqələrin olması, onun neyronlarının əksər hissəsində bütün sinir yollarının konvergensiyası stimullaşdırma dalğalarının korteksin ilkin, ikinci və üçüncü zonalarına, həmçinin beyinin digər strukturlarına geniş yayılmasına əlavə imkanlar yaradır. [4] Məlum olduğu kimi, sinir sistemi həmişə müəyyən aktivlik vəziyyətindədir və həyat fəaliyyətinin istənilən təzahürü üçün onun olması mütləqdir. Aktivliyin bir neçə mənbəyini ayırmaq mümkündür: ilk növbədə, homeostazın (protein, karbohidrat və s.) əsasında yerləşən bədənin metabolik prosesləri. Sonra xarici mühitdən orqanizmə daxil olan birbaşa informasiya axını (eksteroreseptorlardan). Məlumdur ki, sensor deprivasiya vəziyyətində insan yuxulu halda olur ki, onu yalnız yeni informasiyanın daxil olması bu vəziyyətdən çıxara bilər. Sadalanan aktivlik mənbələri həm insana, həm də heyvanlara xasdır. Ancaq insanda bununla yanaşı, aktivliyin nəzərəçarpan hissəsi onun planları, niyyətləri, proqramları ilə bağlıdır. Onlar şüurlu həyat prosesində formalaşaraq sosial həyatı təşkil edir və əvvəlcə xarici, sonra isə daxili nitqin iştirakı ilə həyata keçirilir. Psixi funksiyaların təmin edilməsində birinci blokun funksional dəyəri, aktivasiya proseslərinin tənzimlənməsində, hər hansı bir psixi fəaliyyət üçün zəruri olan mərkəzi sinir sisteminin ümumi tonusunun saxlanmasında (aktivləşdirici funksiya) təşkil edir. İkincisi, beyin qabığının tənzimləyici təsirinin aşağı gövdə formasiyalarına ötürülməsində (modulasiya funksiyası): retikulyar formasiyanın azalan lifləri hesabına korteksin ali bölmələri aşağı aparatların işini modulyasiya edir və şüurlu fəaliyyətin mürəkkəb formalarını təmin edərək idarə edirlər. Retikulyar formasiyanın zədələnməsi zamanı bütün APF-ın məhsuldarlığı azalır (ilk növbədə – iradi diqqət və hafizə), aktivlik və yuxu pozulur. Kütləvi zədələnmə halında yuxu və oyanıqlıq arasında sərhəd silinir, insan yarı yuxulu vəziyyətdə olur, zaman və məkan yönəlişliyi pozulur. Retikulyar formasiyanın zədələnməsinin əsas diaqnostik əlamətləri tamamilə bütün psixi proseslərin məhsuldarlığının eyni vaxtda azalması, həmçinin tapşırığın çətinləşməsi hesabına qüsurun qismən kompensasiyasının mümkünlüyüdür. [2] İradi proseslərin cəlb edilməsi və xüsusi motivasiya psixi proseslərin effektivliyini qısa müddətdə artırmağa imkan verir. Beləliklə, beynin ilk bloku psixi fəaliyyətin təmin edilməsində, ilk növbədə, diqqət, hafizə, emosional vəziyyət və bütövlükdə şüurun təşkilində iştirak edir. Bundan əlavə, beyin ilk bloku emosional (qorxu, ağrı, zövq, hirs) və motivasion vəziyyətlərin tənzimlənməsində iştirak edir. Bu bloka daxil olan beyin limbik strukturları emosional və motivasion vəziyyətlərin təşkilində mərkəzi yer tutur. Bununla əlaqədar olaraq, beynin ilk bloku daxili orqanların vəziyyəti haqqında müxtəlif interoseptiv informasiyanı qəbul edir və emal edir və bu vəziyyəti tənzimləyir.

İkinci blok — informasiyanın qəbulu, emalı və saxlanılması bloku yeni qabığın (neokorteksin) xarici şöbələrində yerləşir və onun arxa şöbələrini, o cümlədən ənsə, gicgah və əmgək sahələrini əhatə edir. Bu beyin blokunun struktur-anatomik xüsusiyyəti korteksin altı qatlı quruluşudur. Bura ilkin zonalar (kənardan daxil olan informasiyanın qəbulu və təhlilini təmin edən), ikincil zonalar (bir analizatordan informasiyanın qəbulu və sintezi funksiyasını yerinə yetirən) və üçüncü zonalar (əsas vəzifəsi informasiyanın kompleks sintezidir) daxildir. İkinci blokun aparatlarının fərqli xüsusiyyəti modal spesifiklikdir. Ayrı-ayrı neyronların aktivliyinin qeydə alınması üzrə eksperimentlər göstərdi ki, ilkin zonaların sinir hüceyrələri yüksək modal spesifikliyi və dar ixtisaslaşması ilə fərqlənir. Birincisi, onlar yalnız bir modallığın (bir növün) oyanmasına reaksiya verirlər, məsələn, yalnız vizual və ya yalnız eşitmə. İkincisi, bu neyronların yalnız bir növün qıcıqlandırıcısının əlamətinə (məsələn, yalnız xəttin eni və ya əyilmə bucağı və s.) reaksiya verdiyini nəzərdə tutur. Bunun sayəsində beynin ikinci funksional blokunun aparatları xarici reseptorlardan qəbul olunan və bu informasiyanın sintezindən gələn informasiyanın qəbulu və analizi funksiyalarını yerinə yetirirlər. [1]. A.R.Luriya beynin ikinci blokunun bir hissəsi olan qabığın strukturunun əsas qanunlarını vurğulayır – qabıq zonalarının iyerarxik strukturu qanunu. Bu qanuna görə, qabığın birincili, ikincili və üçüncülü zonalarının nisbəti məlumatların daha mürəkkəb sintezini həyata keçirir. Daha çətin mütəşək-

kil qabıq zonaları daha mürəkkəb funksiyaları təmin edir. A.R.Luriya vurğulayır ki, böyüklərdə və uşaqlarda birincili, ikincili və üçüncülü zonaların nisbəti fərqlidir. Uşaqlarda ikincili zonaların normal inkişafı üçün ilkin, üçüncülü zonaların inkişafı üçün isə ikinci dərəcəli zonalar formalaşdırılmalıdır. Buna görə erkən uşaqlıq dövründə birincili zonaların zədələnməsi ikincili və xüsusilə də üçüncülü zonaların inkişafında kobud pozulmalara səbəb ola bilər. Yetkin bir şəxsdə, qabığın formalaşmış hissələrində, üçüncülü zonalar ən mütəşəkkil olaraq aşağı ikincili və birincili zonaların funksiyanı idarə edir. Buna görə, yetkin bir insanın qabıq zonalarının qarşılıqlı əlaqəsi yuxarıdan aşağıya doğru həyata keçirilir. Bu halda ilkin zonaların zədələnməsi psixi funksiyaların nəzərə çarpan pozuntularına gətirib çıxarmır və yaxın strukturların işi ilə kompensasiya edilə bilər [1]. Qabıq zonalarının azalan modal spesifikliyi qanunu ilkin zonalardan üçüncü zonalara keçidlə modal spesifikliyin azalmasını nəzərdə tutur. Beynin ikinci blokuna daxil olan beynin hər bir payının ilkin zonaları maksimal modal spesifikliyə malikdir (yüksək differensasiyalı, modal-spesifik funksiyalı neyronların sayının çoxluğu sayəsində). Üst qatların assosiativ neyronlarla üstünlük təşkil etdiyi ikinci dərəcəli zonaların modal spesifikliyi azdır. Daha az modal spesifiklik təsvir edilən blokun üçüncü zonaları üçün xarakterikdir ("müxtəlif analizatorların kortikal uclarının üst-üstə düşmə zonaları"). Funksiyaların mütərəqqi lateralizasiyası qanunu funksiyaların müəyyən yarımkürə ilə (ilkin zonalardan üçüncü zonalara keçid kimi) əlaqəsini aydınlaşdırır. Hər iki beyin yarımkürəsinin ilkin zonaları bərabərdir. İkincili zonalar səviyyəsində sol və sağ yarımkürələr tərəfindən həyata keçirilən funksiyaların bir hissəsi eyni qalır, lakin sol yarımkürənin funksiyalarının bir hissəsi beynin sağ yarımkürəsində həyata keçirilən funksiyalardan artıq fərqlənir. Sol yarımkürənin üçüncülü zonalarının funksiyaları artıq beynin sağ yarımkürəsinin oxşar zonalarının funksiyalarından köklü şəkildə fərqlənir. Beynin ikinci blokunun aparatlarının zədələnməsi vaxtı funksiyaların pozulması məhz hansı zonaların zərər çəkməsindən asılıdır. Birincili zonaların zədələnməsi ilə bir modallığın qıcıqlandırıcısının ayrı-ayrı əlamətlərinin (kor ləkə, hemeanopsiya (görmə sahəsinin eyni sağ və ya sol yarısının qavranılmasının itdiyi qismən korluq növü, anesteziya və s.) mənimsənilməsinin pozulması baş verir. Korteksin ikincili zonalarının zədələnməsi ilə bir modallığın vahid obrazı (agnoziya, afaziya) qəbul edilən stimulun ayrı-ayrı əlamətlərinin sintezinin pozulması müşahidə olunur. Üçüncülü zonaların zədələnməsi müxtəlif analizatorlardan gələn qıcıqlanmaların kompleks sintezinin pozulmasına gətirib çıxarır ki, bu da məkanda oriyentasiyanın pozulmasında özünü göstərir. Özü də proqressiv lateralizasiya qanununa əsasən, sağ yarımkürənin üçüncülü zonalarının zədələnməsi vaxtı məkanda predmet bələdləşməsi pozulur və sol yarımkürənin analoji zonalarının zədələnməsi ilə – məkanda simvolik bələdləşmə zərər çəkir. Üçüncü funksional beyin bloku proqramlaşdırma blokudur, kompleks fəaliyyət formalarını tənzimləyir və nəzarət edir. Bu, öz strukturuna məqsəd, motivlər, məqsədə nail olmaq üçün fəaliyyət proqramı, vasitələrin seçilməsi, hərəkətlərin yerinə yetirilməsinə nəzarət, əldə edilmiş nəticənin düzəldilməsi daxil olan məqsədyönlü, şüurlu psixi fəaliyyətin təşkili ilə bağlıdır. Bu vəzifələrin təmin edilməsi üçüncü beyin blokudur. Beynin üçüncü funksional blokunun aparatları mərkəzi alın qıvrımından öndə yerləşir və beynin alın payının motor, premotor və prefrontal şöbələrini əhatə edir. Alın payları çox mürəkkəb quruluşa malik olaraq, kortikal və subkortikal strukturlar ilə ikitərəfli əlaqələrin çoxluğu ilə fərqlənir. Bu blokun fərqləndirici xüsusiyyəti oyanma proseslərinin üçüncü zonalardan ikinciyə, sonra isə birinciyə aparılmasıdır; modal-spesifik zonaların olmaması (yalnız hərəkət aparatlardan ibarətdir); geniş yalnız beyin gövdəsinin aşağı törəmələri ilə deyil, həm də böyük yarımkürələrin qabığının bütün digər şöbələri ilə ikitərəfli əlaqələrin olması. [2].

Strukturu və funksional təşkili ilə motor qabıq birincili, premotor – ikincili və prefrontal – böyük yarımkürələrin qabığının üçüncü zonalarına aiddir. Ona görə də onlar bu zonalara xas olan funksiyaları yerinə yetirirlər. Motor qabığının neyronları oyanmanı əzələlərə ötürür, buradan da böyük piramida yolu başlayır. Premotor qabıq motor proqramları təmin edir, yəni, ayrı-ayrı hərəkətləri vahid kinetik melodiyada birləşdirir. Prefrontal şöbələr məqsədlərin,

proqramların formalaşmasında, insan davranışının ən mürəkkəb formalarının tənzimlənməsində və onlara nəzarətində həlledici rol oynayır. Onlar qısa aksonlu xırda dənəli hüceyrələrdən ibarətdir və retikulyar formasiyayla afferent və efferent əlaqələrə malikdirlər. Buna görə də assosiativ funksiyanı yerinə yetirə bilərlər, beyinin birinci blokundan impulslar qəbul edərək, aktivləşdirici impulsları dinamik davranış sxemlərinə uyğunlaşdıraraq retikulyar formasiyanın yaranmasına intensiv modulyasiyaedici təsir göstərə bilərlər. Prefrontal şöbələr ümumi davranış tənzimlənməsi funksiyasını yerinə yetirərək, beyin qabığının bütün şöbələrinin üzərində qurulmuşdur. Premotor korteksin zədələnməsi ayrı-ayrı hərəkətlərin vahid bütövdə sintezinin pozulmasına gətirib çıxarır (motor bacarıqlarının dağılması), prefrontal şöbələrin zədələnməsi şüurlu məqsədyönlü fəaliyyətin pozulmasında özünü göstərir. A.R.Luriyanın tədqiqatları göstərdi ki, bu halda məqsədyönlü davranış "Sahə" davranışı ilə əvəz olunur, yerinə yetirilən fəaliyyət proqramı pozulur, frontal (alın) zonası zədələnmiş xəstə fəaliyyət üçün müvafiq vasitələri seçə bilmir, fəaliyyətin yerinə yetirilməsinə nəzarət və səhvlərin düzəldilməsi yoxdur. Bu zaman perseverasiya (təkrarlanma) və hərəkətlərin stereotipləşdirilməsi müşahidə olunur. Üç funksional beyin bloklarının strukturunun və fəaliyyətinin xüsusiyyətlərinin təhlili belə fikir yürütməyə imkan verir ki, şüurlu fəaliyyətin hər bir forması mürəkkəb funksional sistemdir və hər biri bütövlükdə bütün psixi prosesin təmin edilməsinə öz töhfəsini verən bütün üç beyin blokunun birgə işinə əsaslanaraq həyata keçirilir. Bu blokların sərhəddi kifayət qədər şərtidir [3].

Elmi yenilik. Beynin birinci blokunun aparatları qalan blokların aktivliyinin zəruri səviyyəsini təmin edir, ikinci blok xarici mühitdən gələn informasiyanın eksteroreseptorlardan qəbulu, təhlili və emalı üçün məsuliyyət daşıyır. Bir tərəfdən, bu məlumat üçüncü blokun inteqrativ fəaliyyəti üçün əsas yaradır, digər tərəfdən isə ilk blokun fəaliyyət mənbələrindən biri kimi çıxış edir. Üçüncü blokun rolu onun inteqrasiya, tənzimləmə, modullaşdırma funksiyasında özünü göstərir. İnformasiyanın emalında mühüm mərhələni təmin etməklə, üçüncü blokun aparatları həm birinci, həm də ikinci bloklara modullaşdırıcı təsir göstərir ki, bu da həm qabığın aktivləşmə səviyyəsinin dəyişməsinə, həm də digər tərəfdən hisslərin və qavrama həddinin dəyişməsinə gətirib çıxarır.

Məqalənin praktik əhəmiyyəti: Fəaliyyət baxımından beyin bloklarının qarşılıqlı əlaqəsini təhlili zamanı qeyd etmək lazımdır ki, birinci blok istənilən şüurlu fəaliyyətin formalaşmasında iştirak edir, ikinci blok fəaliyyətin əməliyyat tərəfini təmin edir, üçüncü blok isə fəaliyyətin məqsəd və proqramlarının formalaşdırılmasına cavabdehdir. Bu blokların hər birinin işinin pozulması mütləq bütövlükdə psixi fəaliyyətin dezinteqrasiyasına gətirib çıxarır.

Ədəbiyyat

1. Зинченко В.П., Мамардашвили М.К. Изучение высших психических функций и категория бессознательного // Бессознательное. Новочеркасск: Агентство «Сагуна», 1994. с. 69-80.
2. Лурия А.Р. Мозг человека и психические процессы. М.: Педагогика, 1963. Т. 1; 1970. Т. 2.
3. Лурия А.Р. О двух видах персевераций при поражениях лобных долей мозга // Лобные доли и регуляция психических процессов. М.: МГУ, 1966.
4. Москвин В.А. Межполушарные отношения и проблема индивидуальных различий. – М.; Оренбург, 2002. 185.

С.А.Абасова

Концепция структурно-функциональных блоков мозга по А.Р.Лурии

Резюме

Верхние «ассоциативные» слои коры головного мозга играют важную роль в реализации наиболее сложных форм психической деятельности, формирующихся на более поздних этапах филогенеза и развития человека. Важным анатомическим фактом является неравномерное рас-

пределение отдельных слоев коры в топографически различных участках коры головного мозга. Факты показывают, что на первичной области каждой коры головного мозга устанавливаются вторичные области с преобладанием нижних слоев коры, где они играют важную роль в функциональной организации работы отдельных анализаторов.

S.A.Abasova

The concept of structural and functional blocks of the brain by A.R.Luria

Summary

The upper "associative" layers of the cerebral cortex play an important role in the implementation of the most complex forms of mental activity, which are formed at later stages of phylogenesis and human development. An important anatomical fact is the uneven distribution of individual layers of the cortex in topographically different parts of the cerebral cortex. The facts show that on the primary area of each cerebral cortex, secondary areas are established with a predominance of the lower layers of the cortex, where they play an important role in the functional organization of the work of individual analyzers.

Rəyçi: ped.ü.f.d., b/m S.N.İsgəndərova

Redaksiyaya daxil olub: 01.05.2023

G.D.ALIYEVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ MÜXTƏLİF İNTERAKTİV VASİTƏLƏRDƏN İSTİFADƏ

Açar sözlər: *ingilis dili, ikinci dil, interaktiv, oyun, tapşırıq, vasitə, dərs*
Ключевые слова: *английский язык, второй язык, интерактив, игра, задание, средство, урок*
Key words: *English, second language, interactive, game, task, means, lesson*

Dünya inkişaf etdikcə, insanlarda xarici dilə yiyələnmək istəyi daha sürətlə artır. İngilis dili hazırda ünsiyyət, siyasi, iqtisadi və mədəni məqsədlər üçün işlədilən ən fəal dil hesab edilir. Dünyanın 70-dən çox ölkəsində ingilis dili rəsmi dil statusu qazanıb. D.Kristal "İngilis dili qlobal dil kimi" kitabında bu məsələyə öz münasibətini bildirir [1, s.57]. Bu səbəbdən də qloballaşan dünya xarici dilə yiyələnmiş təhsilli insanlara ehtiyac duyur. Bu baxımdan, dil öyrədənlərin üzərinə böyük məsuliyyət düşür. Dil öyrədənlər, yəni ingilis dilini xarici dil kimi tədris edən mütəxəssislər ingilis dilinin xarici dil kimi öyrədilməsində xüsusi metodikaya yiyələnməlidirlər ki, yaxşı nailiyyət əldə edə bilsinlər. D.Hopkins və M.Nettle yazırlar ki, dilöyrətmə metodikasında əsas açar konsepti *uyğunluq, adaptasiya* və *mühit* olmaqla yanaşı, oyun-tapşırıqlar da ön planda dayanır [2, s.157].

Ənənəvi dilöyrətmə metodu tərəfdarları iddia edirlər ki, dil öyrətmədə artıq ənənəvi üsul geridə qalıb. Yeni üsul isə dil öyrədilməsinin fərqli ünsiyyət vasitələrinə əsaslanmasıdır [3, s.192]. Onlar *oyun-tapşırıqlardan* dil öyrənməyə əsaslanan mühiti "yeni dil öyrətmə dövrü" adlandırırlar və onu ciddi şəkildə müdafiə edirlər. Onların iddiasına əsasən, xarici dil öyrədən müəllimlər ilk əvvəl tədris etdiklərin auditoriyada oyun-tapşırıqlardan istifadəni bacarmalıdırlar.

Ümumiyyətlə, tədris zamanı, xüsusilə orta məktəblərin ibtidai mərhələsində ingilis dilinin tədrisində oyun-tapşırıqlardan istifadə həmişə ön planda durmalıdır. Xarici dil öyrədən müəllim auditoriyada orta məktəblərin ibtidai mərhələsində ingilis dilinin tədrisində oyun-tapşırıqlardan səmərəli istifadə etməli və mental fərqlilikdə diqqətli olmalıdır. Bu hal nəinki dərs auditoriyasında, eyni zamanda tədris binası daxilində belə gözlənilməlidir [4, s.220].

Oyunlar öyrətmə-öyrəmə prossesinin ilkin mərhələsində, yəni gənc öyrənənlərə daha çox istifadə edilən bir metoddur. İlk olaraq, ayrı-ayrılıqda öyrətmə prossesi, öyrənmə və gənc öyrənənlərlə bağlı xüsusiyyətlərə nəzər salaq.

Öyrətmə müəllimlər və şagirdlər arasında tədris-öyrənmə prosesi zamanı biliklərin ötürülməsindəki bir fəaliyyətdir. Müəllimlik etmək kiməsə nəyisə öyrənməyə kömək etmək və ona rəhbərlik etməkdir. H.Braunun dediyi kimi, "Təlim birinə bir şeyin necə ediləcəyini göstərmək və ya kömək etmək, təlimat vermək, bir şeyin öyrənilməsinə rəhbərlik etmək, məlumat verməkdir" [5, s.152]. Müəllimlik, kiminsə öyrənməsini asanlaşdırmaq və təmin etmək prosesidir. Bir tədris prosesində müəllimlər fəaliyyətin aparılmasında mühüm rol oynayırlar. Ənənəvi təlimdə müəllimlər sinif rəhbərliyində lider rolu oynayır. Buna görə də, hər yaxşı müəllimin yaxşı bir tədris metodu olmalıdır. C.Harmera görə, bir tədris metodunun müvəffəqiyyəti yaxşı təşkilatçılıqdan və şagirdlərin nə edəcəklərini dəqiq bilməsindən asılıdır [6, s.239].

Yaxşı bir müəllimlərin xüsusiyyətləri belə izah olunur:

1) dərslərini maraqlı keçirməlidirlər;
2) öz işlərini sevməlidirlər;
3) çox məlumatı olmalıdırlar;
4) yaxşı müəllim dərs prosesini əyləncəyə çevirməyi bacarmalıdır.

Öyrənmək, digər tərəfdən, bilik əldə etməkdir. Öyrənmə, bilik və ya bacarıq qazanma prosesi və ya təcrübəsidir. Eynilə, H.Braun da öyrənməyin bir mövzu və ya bir bacarıq haqqında öyrənmə, təcrübə və ya təlimatla əldəetmə və ya öyrənmə olduğu qənaətində idi [5, s.7]. Bu o deməkdir ki, öyrənmə birinin praktik olaraq bir şeyi bilmə prosesidir. Braun öyrənmə tərifini belə izah edir:

a) yeni şeylər əldə etmək və onlara yiyələnmək;

b) məlumatın və ya bacarıqların saxlanılması;

c) baş verən hadisələrə aktiv, şüurlu bir şəkildə diqqət yetirməyi və hərəkət etməyi əhatə edir;

d) təcrübə ehtiva edir [5, s.7].

M.Carrierə görə, gənc öyrənənlər ilk beş yaşından başlayaraq (beş / altı yaşından on bir / on iki yaşına qədər) uşaqdırlar [7, s.5]. Gənc öyrənənlər uşaq bağçasında və ya ibtidai məktəbdə öyrənənlərdir. Eynilə, G.Crosling və digərləri uşaqları iki əsas qrupa ayırırlar: 1) beş ilə yeddi yaşında; 2) səkkiz ilə on yaşında olan uşaqlar [8, s.22]. Onlar "Teaching English to Children" adlı kitablarında, gənc dil öyrənənlərin xüsusiyyətləri haqqında aşağıdakıları izah edirlər:

1. Gənc öyrənənlər dunyanın qaydalarla idarə olunduğunu bilirlər;
2. Yeni anlayışları qavramaq üçün əllərdən, gözlərdən və qulaqlardan aktiv istifadə edirlər;
3. Çox qısa bir diqqət və konsentrasiyaya sahibdirlər;
4. Azyaşlılar çox vaxt başqaları ilə oynamaqla yanaşı, tək oynamaqla da xoşbəxt olurlar;
5. Azyaşlı şagirdlər öyrənməyə həvəslə və müsbət yanaşırlar.

Orta məktəblərin ibtidai mərhələsində şagirdlər təxmini doqquz və ya on yaşında olurlar. Onlar əyləncəli öyrənmə prosesində çox həvəsli olurlar. Bundan əlavə, C.Brumfıt gənc öyrənənlərin paylaşdıqları bəzi xüsusiyyətlərin olduğunu belə sıralayırlar:

1. Şagirdlər məktəbə yeni başlayırlar, beləliklə, müəllimlər məktəbdəki həyat gözləntilərini formalaşdırmaq üçün böyük bir fürsət əldə edirlər.

2. Qrup olaraq, müxtəlif ev mədəniyyətlərinə daha yaxın olduqları və məktəb tərəfindən getdikcə daha çox tətbiq olunan uyğunlaşma üçün daha yeni olduqlarından potensial olaraq orta və ya yuxarı siniflərdə oxuyan şagirdlərdən daha çox fərqlənirlər.

3. Yaşca böyük olan uşaqların bəzən təhsillərinə gətirdiyi maneələr olmadan istəkli və həvəsli şagird olmağa meyillidirlər.

4. Onların öyrənmələri, fikir və konsepsiyalarının inkişafı ilə six əlaqələndirilə bilər, çünki bu, ilk formal təhsil təcrübələrinə çox yaxındır.

5. Düşüncələri üçün stimullaşdırma qədər fiziki hərəkətə və fəaliyyətə ehtiyac duyurlar və onlar üçün bir-birlərinə daha yaxın olmaq daha yaxşı ola bilər [9, s.95].

Yuxarıdakı izahata əsasən, kiçik yaşlı öyrənənlərin məktəbə başlamasının ilk mərhələsindəki uşaqlar olduğu təsvir edilə bilər. Uşaqlar yetkinlərdən fərqli xüsusiyyətlərə malikdirlər. Gənc öyrənənlər ətrafdakı hər şeyi bilmək istəyirlər.

Gənc öyrənənlərə ingilis dilini öyrətmək çox vacibdir. Biz yalnız lüğət və qrammatika öyrətmirik, həm də tələbələri dil bilikləri ilə təmin edirik. M.Celce-Murcianın dediyi kimi, "Bir dil oyrənmək, ümumiyyətlə, tələbələrin bu dildə ünsiyyət qurmasına imkan yaratmaq üçün praktik bir məqsəd daşıyır. Buna görə, hər sinfin hər dəqiqəsi şagirdlərin həqiqətən ehtiyac duyduqları dil bilikləri ilə təchiz olunmasına yönəldilmişdir" [10, s.30].

Şagirdlərin dili istifadə etməyi öyrənmək və bacarıqlara yiyələnməsini təmin etmək üçün mənalı və interaktiv təcrübəyə ehtiyac duyulur.

C.Harmer, dil bacarıqlarının tədrisinin şagirdlərin xarici dilə daha çox inamla və daha böyük bir uğur gözləməsi ilə kömək edəcəyini söyləyir [11, s.125]. Buna görə, müəllimin şagirdlərə dil biliklərinin öyrənməsində instruktordan əlavə köməkçi vəzifəsində iştirakı çox vacibdir. Bu yanaşma şagirdlərin xarici dil öyrənməkdə uğur qazanmasına kömək edə bilər.

Uşaqlar əyləncəli fəaliyyətlərə qoşulmağı sevirlər. S.Krashenin dediyi kimi, "Uşaqların aktiv bir işə cəlb edilməsi lazımdır. Belə ki, onlar uzun müddət oturub dərsi dinləməyəcəklər"

[12, s.112]. Bu o deməkdir ki, uşaqlar oynamağı çox sevirlər. Uşaqlarda aktivliyin tez-tez dəyişməsi lazımdır. Müəllimlər bir tədris metodu yaratmaqda daha orijinal və yaradıcı olmalıdırlar. Müəllimlər uşaqlara ingilis dilinin tədrisində hər hansı bir ünsiyyət fəaliyyətinin təmin olunduğu oyundan istifadə edə bilərlər. E.Uilyamz yazır ki, "Bir çox ənənəvi oyun xarici dil tədrisinə uyğunlaşdırıla bilər, çünki hər hansı bir ünsiyyət fəaliyyətində istifadə olunan dillərin sahələri proqnozlaşdırıla bilər və bu səbəbdən, rəhbərlik edilən bir fəaliyyət kimi faydalıdır" [13, s.171]. Bu o deməkdir ki, oyun şagirdlərə xarici dil tədrisində müəllimə kömək edə bilər. O, daha sonra əlavə edir ki, oyunlar sinfin ingilis dilindən aktiv şəkildə istifadə etməsinin bir vasitəçisidir.

Oyun tələbə üçün maraqlı, həyəcanlı, həvəsli və aktiv sinif tətbiqetmələrindən biridir. Başqa sözlə, oyun uşaqlarla ünsiyyət qurmağın və dünyalarını anlamağın ən təbii və təsiri yoludur.

Oyun, müəyyən bir məqsədə yönəldilmiş və ya həyata keçirilməyən, uşağın fiziki, məlumat, dil, emosional və sosial inkişafını təmin edən, real həyatın bir hissəsi və uşaq üçün ən təsirli öyrənmə prosesi kimi müəyyən edilir. Ədəbiyyatlarda oyunun xarici dilin öyrənilməsindəki müvəffəqiyyəti ilə bağlı müxtəlif araşdırmalar mövcuddur. Şagirdlər oyuna elə aludə olurlar kı, dil öyrənməklə məşğul olduqlarını belə unudurlar.

Oyunların istifadəsi zamanı şagirdlər öz aralarında mülayim rəqabət etdikləri üçün motivasiyanı artırırlar. Bundan əlavə, oyun əyləncəli bir fəaliyyətdir; oyun şagirdləri tədris-öyrənmə prosesinə qoşulmağa sövq edə və şagirdlərin diqqətini cəlb edə bilər.

Bu o deməkdir ki, oyun uşağın təbiətindədir. Oyun əyləncəli bir fəaliyyət olmaqla yanaşı, həm də uşaqlara dil bacarıqlarını artırmağa kömək edə bilər. Oyun ilə öyrənmə arasında sıx bir əlaqə var. Oyunla öyrənmək ən təbii öyrənmə mühitini təklif etməklə yanaşı, fərdə sərbəstlik verir, fərdin təsəvvürünü yaxşılaşdırır və insanlar arasındakı qarşılıqlı əlaqəni artırır. Oyunlar yeni sözlərin tədrisində, qrammatika və yazıda, düzgün tələffuzun öyrədilməsində istifadə olunur. Bəzi oyunlar kiçik qruplarda və ya iki qrup şəklində oynanılarkən, digər oyunlar isə sinif ikiyə bölünərək bütöv bir şəkildə oynanır.

Oyunların təhsil baxımından, daha dəqiqliyiylə, tədrisin ilkin mərhələsində əhəmiyyəti böyükdür. Metodoloji cəhətdən, oyun həqiqi bir təhsil vasitəsi kimi qəbul edilir və həm məktəbəqədər dövrdə, həm də məktəb illərində qazandığı biliklərin gələcək nəsillərə ötürülməsini təmin edir. Ancaq formal təhsilə həddindən artıq önəm verən bəzi cəmiyyətlərdə oyun məhsuldar bir fəaliyyət kimi qəbul edilmir və hətta sinif oyunlarında iştirak etmək qadağandır.

Bununla birlikdə, oyun uşağın zehnində və dil inkişafında mühüm rol oynayır. Oyun nəticəsində qazanılan müsbət xüsusiyyətlər gücləndirilir və inkişaf etdirilir. Oyunlarla təhsilə aktiv öyrənmə, təcrübə ilə öyrənmə də deyilir.

Dil öyrənilməsində oyunların geniş və mənalı istifadəsini qəbul etmək, müəllimə dərsdəki boşluqları doldurmaq və ya vaxt keçirmək əvəzinə öyrənməni tədris prosesinin mərkəzində saxlayacaqdır.

İbtidai məktəblərdə xarici dil tədrisində müxtəlif problemlərlə qarşılaşılır. Bu problemlər xarici dil tədrisində istənilən səviyyəyə çatmağın qarşısını alır. Xarici dil dərsinin səmərəli tətbiqi üçün ibtidai təhsil səviyyəsində xarici dil tədris proqramları və metodlarını inkişaf etdirmək lazımdır. Bu səviyyəli məktəblərdə xarici dil tədris edilərkən, danışıq dili yazılı dildən daha vacib olduğundan, oyunlara daha çox əhəmiyyət verilir. Şagirdlərin idrak inkişaf səviyyələrini nəzərə alsaq, bu dövrdə şagirdlər üçün oyunun əhəmiyyəti aydın olur.

Xarici dil tədrisində oyunlar vacib bir dil öyrənmə fəaliyyəti kimi istifadə edilə bilər. Dil oyunlarında görülən işlərin müəyyən bir qaydada aparıldığını görərək, tələbə oyunu müəyyən qaydalara uyğun oynamağın lazım olduğunu qəbul edir. Bu vəziyyət sinif və tələbənin öz mühiti arasında əlaqə yaradır.

Şagirddə oyunla xarici dil tədrisində baş verməsi gözlənilən bəzi məqamlar var. L.F.Bouton onları aşağıdakı kimi sadalayır [10, s.89]:

1. Şagirdlər oyunun nəticəsində yeni sözlər öyrənməlidirlər;
2. Oyun oynayarkən yeni və faydalı ingilis ifadələrini öyrənməlidirlər;

3. Oyun zamanı şagirdlər ingilis dilində düşünməyi bacarmalıdırlar;
4. Oyun oynamaq tələbələr arasında qarşılıqlı əlaqəni təmin etməlı və təşviq etməlidir;
5. Şagirdlər oyun oynayarkən bir-birləri ilə və müəllimlə yaxşı davranmalıdırlar.

Oyun zamanı lazım olduqda ana dili istifadə edilə bilər. Dərs ikiyə bölünməli və mümkün qədər çox şagird iştirak etməlidir.

Sinifdə oyunlardan istifadə etməyin bir çox üstünlükləri vardır:

- ✓ Oyunlar dil tədris olunan siniflərdə istifadə olunan xoşagələn bir növ fasilədir.
- ✓ Motivasiyaedici və bəzən bir növ sınaq xarakterlidir.
- ✓ Dil öyrənmək çox səy tələb edir. Oyunlar şagirdlərə öyrənmə səylərini göstərməyə və davam etdirməyə kömək edir.
- ✓ Oyunlar müxtəlif bacarıqlarda dil təcrübəsi təmin edir – danışma, yazma, dinləmə və oxuma.
- ✓ Tələbələri qarşılıqlı əlaqəyə və ünsiyyətə təşviq edirlər.
- ✓ Dil istifadəsi üçün mənalı bir kontekst yaradırlar.

Ədəbiyyat

1. Crystal, D. Language play. / D.Crystal. – Penguin: University of Chicago Press, 2001. – 248 p.
2. Hopkins, D., Nettle M. Second language acquisition research: A response to Rod Ellis. // ELT Journal. 1994. No 48/2, – p.157-161.
3. Ağazadə N.A. Xarici dillərin tədrisi metodikası və dilçilik. / N.A.Ağazadə. Bakı: Maarif, 1974. – 176 s.
4. Hüseynzadə G.C. Xarici dillərin tədrisində islahatların tətbiqi: Müəllimyönümlü tədrisdən tələbəyönümlü tədrisə keçid. // "Elm" ilinə həsr olunmuş "Xarici dillərin tədrisinin aktual problemləri" Respublika elmi konfransının materialları. Bakı: ADU, 2009. – s.220-226
5. Brown, H.D. Principles of language learning and teaching. / H.D.Brown. – Longman Publication, 2000. – 352 p.
6. Harmer J. How to Teach English. Harlow: Addison Wesley, 1997, 290 p.
7. Carrier, M. Games and activities for the language learner. Nelson: Longman, 1980, 220 p.
8. Crosling, G., As-Saber S., Rahman N. Postgraduate International students and Independent Learning. / G.Crosling, S.As-Saber, N.Rahman. // Paper at International Conference on Postgraduate Education, – Penang, Malaysia, – 2008. – p.22-36.
9. Brumfit, C.J. et al. Teaching English to Children. New York: Longman Group Ltd., 1995, 306 p.
10. Celce-Murcia, M. Communicative competence: A pedagogically motivated model with content specifications. / M.Celce-Murcia, Z. Dornyei, S.Thurrell. // Issues in Applied Linguistics, 1995. No 6/2, – p.5-35.
11. Harmer J. The Practice of English Language Teaching. New York: Longman, 1998, 446 p.
12. Krashen, S. Principles and practice in second language acquisition. / S.Krashen. – Oxford: Pergamon Press, 1982, – 212 p.
13. Williams, E. Communicative reading. / E.Williams. In K. Johnson & D. Porter. (eds.), Perspectives in communicative language teaching. – London: Academic Press, 1983. – p.171-188.
14. Ismailova, D.A. Teaching English as a foreign language. / D.A.Ismailova. Baku: Muterjim, 2011. – 319 p.

Г.Д.Алиева

Использование различных интерактивных средств в преподавании английского языка

Резюме

В статье рассматриваются различные интерактивные инструменты в обучении английскому языку. В нем говорится, что по мере развития мира желание людей изучать иностранный язык растет быстрее. Английский в настоящее время считается наиболее активным языком, ис-

пользуемым для общения, политических, экономических и культурных целей. Английский язык получил статус официального языка более чем в 70 странах мира.

В статье была проанализирована важность игровых задач. Автор подчеркивает важность игрового задания при обучении иностранному языку.

G.D.Alıyeva

Using various interactive tools in English language teaching

Summary

The article deals with various interactive tools in English language teaching. It states that as the world develops, people's desire to learn a foreign language grows faster. English is currently considered to be the most active language used for communication, political, economic and cultural purposes. English has gained the status of an official language in more than 70 countries of the world.

Then the importance of game tasks have been analyzed in the article. The author highlights the importance of game task while taeching a foreing language.

Rəyçi: f.e.d., prof. N.M.Sadıqova

Redaksiyaya daxil olub: 30.04.2023

T.H.ALLAHVERDİYEV
e-mail: tural.allahverdiyev2021@sport.edu.az

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr., 98)

İDMANIN VƏ FİZİKİ TƏRBİYƏNİN SAĞLAMLAŞDIRICI ROLU

Açar sözlər: *fiziki tərbiyə, idman, peşəkar idman, idmanın sağlamlaşdırcı rolu, fiziki tərbiyənin sağlamlaşdırıcı rolu, sağlamlığa idmanın müstəsna təsirləri, sağlamlığın vacibliyi, idmanın vacibliyi*

Ключевые слова: *физическая культура, спорт, профессиональный спорт, оздоровительная роль спорта, оздоровительная роль физической культуры, исключительное влияние спорта на здоровье, значение здоровья, значение спорта.*

Key words: *physical education, sports, professional sports, the health-giving role of sports, the health-giving role of physical education, the exceptional effects of sports on health, the importance of health, the importance of sports*

İdman insan sağlamlığına və fərdi mövqeyinə müsbət təsir göstərən ən əhəmiyyətli faktorlardandır. İdmanın bir çox faydaları var, lakin ən əhəmiyyətlisi onun sağlamlaşdırıcı roludur. Bu rol vücudu daha güclü və dayanıqlı edir və sağlamlıq üçün ən əhəmiyyətli olan qida, hava və su kimi digər faktorlarla birlikdə faydalı təsir yaradır. İdmanın sağlamlaşdırıcı rolu əsasən əzələlər və sümüklər üzərində işləyir. İdman nəticəsində, sümüklər daha sağlam və dayanıqlı olur və bu da yaralanmaların əvvəlcədən qarşısını alır. Bununla birlikdə, idmanın təsiri əzələlərə də uzanır və onların daha güclü olmasına kömək edir. Bu da yaralanmaların azalmasına və vücudun daha uzun müddət ərzində fəaliyyət göstərməsinə səbəb olur.

İdmanın sağlamlaşdırıcı rolu qan dövranı, ürək və qan damarlarına müsbət təsir göstərir.

İdmanın insan sağlamlığına müxtəlif yollarla fayda verə bilər. Bu rollar arasında əsas vəzifələr fiziki sağlamlığı yaxşılaşdırmaq, psixi sağlamlığı dəstəkləmək, icma bağlarını gücləndirmək və şəxsi inkişafı təşviq etməkdir. [1]

Fiziki sağlamlıq: Mütəmadi olaraq idman etmək ürəyin sağlamlığını yaxşılaşdırır, əzələləri gücləndirir, sümükləri gücləndirir, qan dövranını yaxşılaşdırır və bədəninizin ümumi sağlamlığını yaxşılaşdırır. İdman həmçinin arıqlamağa kömək edə bilər, insulinə həssaslığı yaxşılaşdıra və diabet, ürək xəstəliyi və bir çox digər xroniki xəstəliklər riskini azalda bilər.

Özünü təkmilləşdirmə: Müntəzəm məşq şəxsi inkişafı təşviq edə bilər. Vaxtı idarə etmə bacarıqlarını inkişaf etdirmək, hədəflər qoymaq, özünə intizam və özünə inamı artırmaq müntəzəm olaraq idman edən insanların əldə edə biləcəyi bacarıqlardandır.

İdman sağlam həyat tərzinin vacib hissəsidir və insan orqanizminin sağlam və güclü olmasına kömək edir. Məşqin bir çox gücləndirici rolu var və bu rolu möhkəmləndirmək üçün müntəzəm məşq tələb olunur.

Ürək sağlamlığı: İdmanın digər mühüm gücləndirici rolu ürək sağlamlığıdır. Müntəzəm məşq etməklə ürəyinizi gücləndirə və ürək xəstəliyi riskini azalda bilərsiniz.

İmmunitet sistemi: İdman həm də immunitet sisteminizi gücləndirir. Müntəzəm olaraq idman etməklə immun sisteminizin daha effektiv işləməsini və xəstəliklərə qarşı daha davamlı olmasını təmin edə bilərsiniz.

Psixi sağlamlıq: Psixi sağlamlıq idmanın gücləndirici rolları arasındadır. Müntəzəm məşq etməklə siz stressi azalda, depressiya və narahatlıq kimi psixi problemlərin qarşısını ala və ümumilikdə daha yaxşı əhval-ruhiyyəyə sahib ola bilərsiniz. [1]

İdman insan sağlamlığı üçün son dərəcə vacibdir. Sağlam bədən psixi sağlamlıq və ümumi rifah üçün çox vacibdir. İdmanın bir çox faydası var, amma bəlkə də ən vacibi onun gücləndirici roludur.

Gücləndirmək bədənin dözümlülüyü artırmaq və zədə riskini azaltmaq deməkdir. Məşq əzələlər, sümüklər və oynaqlar kimi bədən sistemlərini inkişaf etdirərək gücləndirmə funksiyasını yerinə yetirir [1]. İdmanın gücləndirici rolları bir çox müxtəlif sahələrdə sağlamlıq və sağlamlıq faydaları təklif edir. Məşq, müntəzəm olaraq yerinə yetirildikdə, bədəninizi gücləndirməyə, dözümünüzü artırmağa və ümumi sağlamlığınızı yaxşılaşdırmağa kömək edəcəkdir.

Təlimin gücləndirici rolları haqqında daha çox məlumat:

Əzələ gücünü artırır. Məşq əzələlərinizi gücləndirməyə kömək edir. Müntəzəm olaraq həyata keçirildikdə, məşq əzələlərinizin böyüməsinə və güclənməsinə səbəb olur. Bu, gündəlik fəaliyyətlərinizi edərkən daha çox güc və dözüm təmin edir.

Bu gün Azərbaycan ailəsində fiziki tərbiyə münasibətləri sırf məişət problemi çərçivəsindən çıxıb daha geniş məna və məzmun kəsb edir, ictimai xarakter alır. Ailədə uşaqların fiziki tərbiyə məsələlərinin müvəffəqiyyətli həlli tərbiyə prosesinin təşkilindən və imkanlarından, şərait və vasitələrdən səmərəli şəkildə istifadə olunmasından asılıdır [4].

Hərəki fəaliyyətin təşkili isə fiziki yük orqanizmin sağlamlığının təmin olunması üçün təbii bioloji ehtiyacdır. Bu hərəki ehtiyac ödənilmədikdə insan sağlamlığında çoxsaylı problemlər baş verir. Böyüyən orqanizmin hərəkətə olan ehtiyacı daha çoxdur və sağlam böyümək üçün olduqca zəruri amildir. Oğlanlarda hərəki fəallıq qızlara nisbətən təxminən 20-30% çoxdur. Qızların müstəqil hərəki fəallığa meyilləri xeyli azdır. Müşahidələr göstərir ki, böyüdükcə onların bədən tərbiyəsi və idmana olan marağı tədricən azalır [2].

Bu gün orta məktəblərdə fiziki sağlamlığın gücləndirilməsi ilə bağlı çoxlu sayda tədbirlərə start verilib. Hər bir məktəbin özünün idmanın müxtəlif növləri üzrə komandaları, demək öz idmançıları vardır. Mütləq deyil ki, həmin uşaqlar ömrünü böyük idmana həsr etsin, sadəcə sağlam həyat tərzini seçmək bir sıra zərərli vərdişlərdən imtina deməkdir. Əlbəttə ki, onlardan bəziləri perspektivli idmançılar kimi gələcəkdə öz sözünü deyə bilər [6].

Üçüncüsü, məşq də əzələ sağlamlığına kömək edir. İdman əzələləri gücləndirir, onların dözümlülüyünü artırır və əzələ itkisinin qarşısını alır. O, həmçinin əzələləri çevik saxlayır, yaralanma riskini azaldır [1].

Fiziki tərbiyə, idman haqqında informasiya bankı zənginləşdikcə dərsdə verilən biliklər daha çox peşəkar xüsusiyyət daşımaqla ayrı-ayrı hərəki qabiliyyətlərin inkişafına aid metod, vasitə seçiminə, bərpaedici vasitələrdən istifadəyə, qamətin korreksiya olunmasına və s. istiqamətlənməlidir. Yaşadığımız cəmiyyətin layiqli üzvü olmaq, mənəvi və milli dəyərlərimizi yaşatmaq, gündəlik fəaliyyətində bu dəyərləri normaya çevirmək, vətəni Milli qəhrəmanlarımızın məhəbbəti ilə sevmək və mübariz olmaq insan psixologiyasında mənəvi-iradi xüsusiyyətlərin formalaşdırılması üçün əsas motiv olmalıdır [2].

İnsanın hərtərəfli inkişafı üçün əqli və fiziki tərbiyənin vəhdətini gözləmək lazımdır. Uşaq və yeniyetmələrin fiziki tərbiyəsinin əsas vəzifəsi – hərtərəfli fiziki inkişafın təmin edilməsi, sağlamlığın möhkəmləndirilməsi və orqanizmin funksional imkanların təkmilləşdirilməsidir. Fiziki tərbiyənin sağlamlaşdırıcı rolu – ətraf mühütün əlverişsiz amillərinin təsirinə qarşı orqanizmin qeyri-spesifik davamlılığının artırılması, böyümə və inkişaf prosesinin stimulə edilməsi, ayrı-ayrı üzv və funksional sistemlərin pozulmuş fəaliyyətinin normallaşdırılması, həmçinin müalicəvi-profilaktiki təsiri nəticəsində anadangəlmə və qazanılmış fiziki inkişaf çatışmazlıqların korreksiyasıdır. [3]

Azərbaycan fiziki tərbiyə sistemi o müstəqillik aldığı gündən etibarən yaranmışdır. Bu sahədə yeni nazirlik Azərbaycan Gənclər və İdman Nazirliyi, Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi yaradılmış, Respublika Təhsil Nazirliyi və Səhiyyə Nazirliyi nəzdində təhsil ocaqlarında bədən tərbiyəsi və idman inkişaf etdirilmişdir. Bundan əlavə, ölkəmizdə bir sıra idman klubları, cəmiyyətləri mövcuddur ki, bütün bunlar da bədən tərbiyəsi, idman və turizmin inkişafına yönəldilmiş işlər aparırlar. Onlar əhalinin bütün təbəqələrini əhatə edir. 18 ildən artıqdır ki, ölkəmizdə Milli Olimpiya Komitəsi yaradılmışdır [5].

İdmanın gücləndirici rolları insan sağlamlığı üçün son dərəcə vacibdir. Fiziki fəaliyyət əzələ və sümük quruluşunu gücləndirir, maddələr mübadiləsini sürətləndirir, immunitet sistemini gücləndirir və ümumiyyətlə, sağlam həyat sürməyə kömək edir. Müntəzəm olaraq məşq etməklə, sağlam həyat tərzini qorumaq üçün vacib olan bütün bu möhkəmləşdirici rollardan yararlana bilərsiniz. Həmçinin, idman etməklə, əzələ gücü və dözümlülük, sümük sıxlığı, ürək sağlamlığı, immunitet sistemi və ruh sağlamlığı kimi bir çox gücləndirici rolu yerinə yetirə bilərsiniz. Məşqlərin gücləndirici rolları fiziki sağlamlığı, psixi sağlamlığı, sosial əlaqələri və şəxsi inkişafı dəstəkləyir. Müntəzəm olaraq idman etmək insanların həyat keyfiyyətini yaxşılaşdırmağa və daha xoşbəxt və sağlam həyata töhfə verə bilər. İdmanın gücləndirici rollarına sümük sağlamlığı, ürək sağlamlığı, əzələ sağlamlığı və ümumi sağlamlıq kimi bir çox fayda daxildir. Buna görə də müntəzəm olaraq idman etmək sağlam həyat tərzinin vacib hissəsidir. Buna görə də hər yaşdan və səviyyəli insanların müntəzəm olaraq idman etməsi vacibdir. Bununla belə, hər hansı bir sağlamlıq problemi olan insanların əvvəlcə həkimləri ilə məsləhətləşmələri və uyğun idman proqramı müəyyən etmələri tövsiyə olunur.

Ədəbiyyat

1. CHAT GPT Proqramı əsasında onun daxilində yerləşən sünii intellekt vasitəsilə tərtib olunmuşdur, Open Aİ, USA (Silikon vadisi) 2023 © All rights reserved. İnternet məqaləsi daxil olma: https://openai.com/blog/chatgpt
2. Əliyev S., Hüseynov N. Fiziki tərbiyə: Rəyçilər: Şəhranə Əliyeva Ramiz Salmanov. Bakı 2019, 107 səh. İnternet məqaləsi daxil olma: https://www.e-derslik.edu.az/noduploads/vet_pdf/fiziki-tarbiya.pdf
3. İnternet məqaləsi daxil olma: https://www.facebook.com/mttm.edu.az/posts/2467356240196449/
4. İnternet məqaləsi daxil olma: http://www.goal.az/interesting/incident/39345
5. Quliyev B., Nəsrullayev M. [Fiziki tərbiyənin nəzəri-metodik və praktik işlərinin əsasları] Rəyçilər: Fərrux Rüstəmov, Rəşid Əliyev, Akif Əmiraslanov, Əli Mehdiyev. Bakı 2009 , 647 səh.
6. İnternet məqaləsi daxil olma:http://anl.az/el/q/qb_ftnm.pdf
7. İnternet məqaləsi daxil olma: http://etmtv.news/sagirdl%C9%99rin-fiziki-t%C9%99rbiy%C9%99si-t%C9%99hsilin-%C9%99n-vacib-v%C9%99-z%C9%99ruri-m%C9%99s%C9%99l%C9%99l %C9%99ri-kimi-qalmaqdadir/

Т.Х.Аллахвердиев

Оздоровительная роль спорта и физической культуры

Резюме

В этой аннотации обсуждается укрепляющая роль физических упражнений и физического воспитания. Сообщается, что регулярные занятия спортом укрепляют тело, повышают гибкость, улучшают физическую форму, помогают лучше работать сердечно-сосудистой и дыхательной системам. Также подчеркивается, что он увеличивает плотность костной ткани и снижает риск развития остеопороза. А физкультура помогает формировать тело, укреплять мышцы и уменьшать жировые отложения.

В статье обсуждается укрепляющая роль упражнений. Считается, что спорт укрепляет тело с точки зрения физического здоровья, повышает гибкость, улучшает физическую форму и улучшает функции сердечно-сосудистой и дыхательной систем. Что касается психического здоровья, говорят, что упражнения помогают человеку чувствовать себя счастливее и комфортнее, вызывая выброс гормонов счастья в мозгу. В заключении подчёркивается, что укрепляющая роль спорта способствует сохранению здоровья организма, улучшению психического здоровья и повышению качества жизни.

T.H.Allahverdiyev

Health-improving roles of sports and physical education

Summary

This annotation discusses the reinforcing roles of exercise and physical education. It is reported that regular exercise strengthens the body, increases flexibility, improves physical fitness, and helps the cardiovascular and respiratory systems work better. It is also emphasized that it increases bone density and reduces the risk of osteoporosis. And physical education helps to shape the body, strengthen muscles and reduce body fat.

This abstract discusses the reinforcing roles of exercise. Sports are said to strengthen the body in terms of physical health, increase flexibility, improve physical fitness, and improve the functions of the cardiovascular and respiratory systems. In terms of mental health, it is said that exercise helps a person to feel happier and more comfortable by causing the release of happiness hormones in the brain. In conclusion, it is emphasized that the strengthening roles of sports help to maintain body health, improve mental health and increase quality of life.

Rəyçi: filol.e.d. Ə.X.Ramazanov

Redaksiyaya daxil olub: 11.04.2023

G.Ə.ALLAHVERDİYEVA
e-mail: allahverdi.gune@bk.ru
müəllim

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

ŞİZOFREN UŞAQLAR VƏ ONLARIN TƏLİM-TƏRBİYƏ PROSESİNİN TƏŞKİLİ

Açar sözlər: *şəxsiyyət dəyişkənliyi, eşitmə halusinasiyaları, nitq və düşüncənin pozulması*
Key words: *personality variability, auditory hallucinations, speech and thinking disorders*
Ключевые слова: *изменчивость личности, слуховые галлюцинации, нарушения речи и мышления*

İlk dəfə 1908-ci ildə **Yucin Bleyler** (1857-1939) "**şizofreniya**" termini işlətmişdir. *Şizofreniya* sözünün mənşəyi iki yunan sözü – "parçalanma" və "fikir"ə əsaslanır, çünki şizofren xəstələrin beyinlərində və reallıqda baş verən hadisələr arasında parçalanma vardır. İnsanın düşüncə, duyğu və davranışlarında, özünün və ətrafındakılara əhəmiyyətli dərəcədə təsir edən bəzi dəyişikliklərə səbəb olan bir xəstəlikdir. Bu dəyişikliklər keçici ya da qalıcı ola bilər. Şizofreniya irsi xəstəlikdir.

Şizofren şəxslərdə müxtəlif şəxsiyyət dəyişkənliyi müşahidə edilmir: onların sadəcə bir şəxsiyyəti vardır. Daha çox 17-25 yaş arasında rast gəlinən bu problem bir çox hallarda müalicə olunsa da, təəssüflər olsun ki, bəzi şəxslərə istədiyimiz faydanı verə bilmirik. Bir şəxsin şizofreniyadan əziyyət çəkdiyini müəyyənləşdirən xüsusi tibbi testlər yoxdur, beləliklə, diaqnoz xəstədə özünü göstərən simptomlara uyğun olaraq qoyulur. Bu, həmçinin xəstə ilə söhbət edən həkim yaxud psixoloqdan da asılıdır. Bu xəstəliyə tutulan şəxslər adətən qeyri-normal sosial davranışlar göstərir və reallığı təyin etməkdə çətinlik çəkirlər. Xəstə 6 ay ərzində müşahidə olunduqdan sonra ona "şizofreniya" diaqnozu qoyula bilər [1].

Şizofreniya ciddi və kompleks ruhi xəstəlikdir. Psixozun ən çox görülən formasıdır (***psixoz*** – reallığı qiymətləndirmə bacarığının itirilməsi deməkdir). Əvvəllər funksional psixiatrik xəstəliklərdən biri kimi təsnif edilirdisə, indi əsasən beyin fiziologiyasının anormallığı kimi qəbul edilir. Bütün dünyada insanlar arasında hər 100 nəfərdən birində rast gəlinir.

Şizofreniya – düşüncə prosesindəki problemlər və zəif, emosional cavablarla xarakterizə olunan əqli xəstəlikdir. Ümumi simptomlar paranoid, eşitmə hallüsinasiyaları, nitqdə əks olunan düşüncə pozğunluğu və əqli çatışmazlığın da daxil olduğu yanılmalardır. İlkin səciyyəvi simptomlar gənc yaşlarda özünü göstərir. Diaqnoz müşahidə olunan davranışlara və xəstənin şikayət etdiyi təcrübələrə əsaslanır. Xəstəliyin ən sıx təzahürləri eşitmə qarabasmaları, paranoik və ya fantastik sayıqlama və ya sosial disfunksiyanın fonunda nitqin (danışığın) və düşüncənin, işləmək qabiliyyətinin pozulmasıdır. Kişilərin və qadınların xəstəliyə tutulma sayı təxminən eynidir. Lakin qadınlarda xəstəliyin başlanğıcı kişilərə nisbətən gec baş verir.

Şizofreniyanın yaranma səbəblərinə aiddir:

1. Genetik səbəblər – birinci dərəcəli qohumlar xəstə olarsa, tutulma ehtimalı 8-10% olur. Valideynlərdən biri xəstə olarsa, 12.5-13.8%, hər ikisi xəstə olarsa, 35-46% tutulma ehtimalı olur.

2. Biokimyəvi dəyişikliklər – normadan artıq dopamin sintezi və neyrosinaptik maddələrə qarşı həssaslıq olan zaman insanda hallüsinasiyalar və sayıqlamalar başlayır. Yəni bütün o şizofreniya detalları, sadəcə kimyəvi proseslərin pozulmasından əmələ gəlir.

3. Beyindəki anomaliyalar. Beyin ventrikullarında genişləmələr müşahidə olunur. Beyinə su yığılan (hidrosefaliya) insanlardakı anomaliyaya bənzərdir.

4. Xarici faktorlar. Ətrafdakı insanların psixologiyası, cəmiyyətin mentaliteti kimi psixi faktorlarla yanaşı, infeksiya kimi klinik faktorları da xarici faktorlara aid etmək olar. Şizofreniyanın 5 yaşdan böyük hər kəsdə ola biləcəyini nəzərə alsaq, xarici faktorların ciddi rol oynadığını deyə bilərik [1].

Qeyd edək ki, şizofreniya yaranma səbəbi tam öyrənilməyən xəstəliklərdən biridir. Tam olaraq irsi xəstəlik sayılmır, amma irsi faktorun rolu çox böyükdür. Beləliklə, biryumurtalı əkizlərdən birində bu xəstəlik varsa, təxminən 80% ehtimalla o birində də xəstəlik baş verir. Müxtəlif yumurtalı əkizlərdə isə bu faiz nisbətən aşağıdır. Xəstəlik anadangəlmə deyil, müxtəlif yaşlarda başlaya bilər: çox erkən yaşlardan (3-4 yaş) 45-50 yaşa qədər, lakin xəstələrin çoxunda xəstəliyin başlanması 18-25 yaş dövrünə təsadüf edir.

Deməli, yaş faktoru xəstəliyin yaranmasında mühüm rol oynayır. Bundan əlavə, xəstəliyin yaranmasında önəmli faktorlatdan biri də stresdir. Müxəlif streslərdən sonra şizofreniyanın başlanması müşahidə olunur. Bəzən qadınlarda doğuşdan sonrada bu xəstəlik inkişaf edir. Deməli, şizofreniya daha çox endogen amillərdən asılı olur. Şizofreniyanın əlamətləri və əsas simptomları aşağıdakılardır: ***Əsası olmayan düşüncələrin*** **olması** – xüsusi ilə tanıdığı və ya tanımadığı insanlar tərəfindən izlənmə, zərər görmə düşüncələri, düşüncələrinin başqa insanlar tərəfindən oxunması və ya yad düşüncələrin ağıllarına yerləşdirilməsi və sair kimi reallıqla uzlaşmayan düşüncələrin biruzə verməsi.

Halusinasiyalar – olamayan şeylərin gözə görünməsi, əmr verən səslər, aşağılayan, danlayan və ya öz aralarında danışılan əslində olmayan səslərin eşidilməsi kimi duyğu orqanlarının qavrama qabiliyyətinin pozulması. **Danışıq qabiliyyətinin pozulması** – uyğunsuz danışma, çox və mənasız danışma, cümlənin qramatik quruluşunun pozulması, yeni sözlər "kəşv etmə".

Davranış qabiliyyətlərinin pozulması – hərəkətlərdə yavaşlama və ya donmalar (katatoniya).

Emosiyaların azalması – özünə qapanma, az danışmaq və ya susmaq [2].

Şizofreniyanın neqativ simptomlarına aiddir: 1) Emosional pozğunluqlar; 2) Nitqin pozulması, motivasiyanın və həzz hissinin itməsi baş verə bilər.

Şizofreniyanın 6 klinik forması var: paranoid, hebefrenik, katatonik, rezidual, diferensə edilməmiş, sadə (DSM-4 təsnifatı).

1. Paranoid forma – xəstəlik bütün mərhələlərdə aydın nəzərə çarpır. Digər tiplərdən fərqli olaraq daha böyük yaşlarda – 23-25 və daha da gec baş verir. Xəstəliyin başlanğıc dövrü bir neçə il, hətta 15-20 il çəkə bilir. Başlanğıcda sistemsiz sayıqlamaları olsa da, getdikcə sistemli hal alır. Bu tip şizofrenlər adətən **halusinasiya** görmürlər. Ancaq halusinafor – sayıqlama formalı paranoid şizofrendə vizual və elementar (səs, küy, fit səsi) halusinasiyalar baş verir. Daha sonra bu halusinasiyalar şizofreni təhqir edən formaya keçir. Paranoid ən çox rast gəlinən tipdir.

2. Hebefrenik forma – şizofrenlər özlərini gülünc aparırlar. Onlar real dünya ilə əlaqəni kəsirlər, bir növ dünyanın bulanıq görüntüdən, qarışıq fikirlərdən və zəhlətökən səslərdən ibarət olduğunu deyirlər. Bu və bənzəri davranışlara psixotik epizod deyilir.

3. Katatonik forma – bu tip şizofrenlərin fərqləndirilməsi olduqca asandır. Çünki onlarda hərəkət pozuntuları olur: Katatonik stupor – uzunmüddət hərəkətsiz qalma, katolepsiya – əzələlərinin idarəsini itirmək və ağrını qismən hiss etmək, steriotopiya – ayaqlarını yerə döyəcləmə kimi hərəkətlərin ardıcıl davam etdirilməsi. Yuxarıdakı simptomları daşıyan 2 növ katotonik forma var: Oneyroid katotonik və febril katotoniya.

Oneyroid katotonik çox sürətlə başlayıb sürətlə bitir. Düşüncələr həyəcan və qorxu yaradır. **Febril katotoniya** isə 38-40°C temperaturla müşahidə olunur. Digər növdən fərqi odur ki, yüksək ölüm faizi var. Çünki şizofrenlər yeməkdən imtina edir, çəki itirir, infeksion xəstəliklərə tutulurlar.

4. Diferensə edilməmiş – bu tipə qarışıq tip də deyilir. Çünki yuxarıda qeyd edilən 3 tipin xüsusiyyəti də var.

5. Rezidual – qalıq tip də deyilir. Çünki bu şizofrenlərdə şizofreniya şiddətli olmur. Müalicədən sonra demək olar ki, şizofreniya bu formaya keçir.

6. Sadə tip – yavaş başlayan və daha çox mənfi halların üstün olduğu şizofreniya tipidir. Adətən aldanmalar, halusinasiyalar, hərəkət pozuntuları müşahidə edilmir [3].

Şizofrenlərdə geyimə diqqət, özünə baxım azalır. Bəzilərində üz ifadəsi donuqlaşır. Bəzi xəstələrin isə xarici görünüşündə narahatçılıq olmur. Mimika və jestlər azalır, ətrafda olanlara reaksiya yox olur, ancaq bu vəziyyət o demək deyil ki, həmin şəxsin duyğuları yoxdur. Sadəcə problem hiss və duyğuların xaricə çıxmamasındadır. Şizofren uşaqların əksəriyyəti kütləvi təhsil müəssisələrində tərbiyə alırlar. Qeyd edək ki, şizofreniyanın çox vaxt əqli gerilik və digər pozulmalarla müşayiət olunduğunu nəzərə alsaq, o zaman bu kateqoriyadan olan uşaqlar inklüziv məktəb, həmçinin kompensasiyalı qruplarda da təlimə cəlb edildiyini də müşahidə etmək olar. Şizofren uşaqların təlim prosesində müəllimin başlıca məqsədi, uşağın təfəkküründü fəallaşdırmaq, onlara anlaşıla biləcək qədər düşünməyi, həmçinin müraciət etməyi öyrətməkdən ibarət olmalıdır. Müəllim sadəcə öyrətməklə kifayətlənməyib, öyrətdiyi bilikləri daim təkrarlamalı, uşaqların beynində möhkəmləndirməlidir.

Bilik, bacarıq və vərdişlər müəllim tərəfindən möhkəmləndirilməli və uşaqlara həmin biliklərdən müxtəlif cür istifadə etməyin yolları öyrədilməlidir. Bu zaman təkrarlamanın müxtəlif yollarından istifadə edilməlidir. Bu tip uşaqların diqqəti də zəif olur. Belə uşaqlar normal uşaqlara nisbətən daha çox tapşırıqlar həll etməlidirlər. Bu uşaqlarda hər hansı bir şeyə qarşı maraq yaratmaq çətindir. Çünki onların diqqəti dağınıqdır [3].

Bu uşaqlar üçün təhsilin məzmunu müəssisə tərəfindən müstəqil olaraq hazırlanmış uyğunlaşdırılmış korreksiya – inkişafetdirici təlim və tərbiyə proqramları ilə müəyyən edilir. Proqramlar əsasən fərdi yönümlü olub, müəssisə kollektivinin əsas fəaliyyət istiqamətlərindən asılı olaraq müxtəlif mütəxəssislər (müəllim-psixoloq, sosial pedaqoq, loqoped müəllim, müəllim-defektoloq, həkim və s.) bu işə cəlb edilə bilər. Şizofreniyanın müalicəsinə gəldikdə isə xəstəlik tam müalicə olunmur demək yanlışdır. Müalicənin əsası ilk öncə dopaminin (bəzən serotonin) reseptor fəaliyyətinin qarşısını alan antipsixi müalicədir.

Psixoterapiya, peşə, sosial reabilitasiyası da müalicədə əhəmiyyətlidir. Özünə və başqalarına xəsarət yetirmə halları olanda ilk dəfədən fərqli olaraq xəstə mütləq xəstəxanaya yerləşdirilir. Şizofreniyanın müalicəsinə simptomları müalicə etməyə kömək edən dərmanlar, idrak-davranış terapiyası kimi müxtəlif psixoterapiya növləri və idrak təmizlənməsi terapiyası kimi bir sıra reabilitasiya terapiyaları daxildir. İdrak-davranış terapiyası şəxsin qəribə fikirləri haqqında daha real yolla fikirləşməsinə kömək edən söhbət terapiyasıdır. Halüsinasiyalara gəldikdə isə, idrak terapiyası normallaşdırmağa adaptasiya olur: bir çox şəxs stress vəziyyətində olmadan səslər eşidə bilir və biz hamımız düşüncə formasında səslər eşidirik, onlar isə sadəcə bu səsləri əksər insanlardan daha aydın şəkildə eşidirlər. Bu xəstəliyin əsasən şüura təsir etdiyi düşünülür, amma bu, davranış və emosiyalarda xroniki problemlərə səbəb olur. Şizofreniyalı xəstələrdə bundan başqa depressiya və narahatlıq olur. Buna baxmayaraq, şizofreniya heç də ətrafda aqressiya, qorxu yaradacaq xəstəlik növü deyil.

Aktuallıq. Şizofren şəxslərin xarakterik xüsusiyyətlərini və təlim-tərbiyə prosesinin təşkili məsələlərini araşdırmaq aktuallıq kəsb edir.

Problemin elmi yeniliyi. Şizofreniyanın xarakterik xüsusiyyətləri, onlarda davranış və fəaliyyətin pozulmasının təhlilidir.

Problemin praktik əhəmiyyəti. Qeyd olunan xüsusiyyətləri nəzərə almaqla şizofren şəxslərin fəaliyyətini yüksək səviyyədə təmin etmək olar. Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktrantlar istifadə edə bilərlər

Ədəbiyyat

1. Akay Ali. Çevirenin Önsözü", Gilles Deleuze ve Felix Guattari, Kapitalizm ve Şizofreni Göçebebilimi İncelemesi: Savaş Makinası (iç.), Çeviren: Ali Akay, Bağlam Yayınları, İstanbul, 1990, – s. 5-7.
2. Akay Ali; Tekil Düşünce, Afa Yayınları, İstanbul, 1991.
3. Amin Samir; Entelektüel Yolculuğum, Çeviren: Uğur Günsür, Ütopya Yayınevi, Ankara, 2000.

Г.А.Аллахвередиева

Дети-шизофреники и организация процесса их обучения

Резюме

Шизофрения – тяжелое и сложное психическое заболевание. В основе шизофрении лежит расстройство мышления и восприятия. Хотя интеллектуальные способности при заболевании не нарушаются, утрачиваются индивидуальные особенности и навыки самоконтроля. В дебюте шизофрении наблюдают неудачи в текущей занятости больного, отставание в учебе, невозможность выполнения задач на работе, срывы в семье, на работе, в кругу друзей.

G.A.Allahvrediyeva

Schizophrenic children and their education organization of the process

Summary

Schizophrenia is a serious and complex mental illness. Schizophrenia is based on a disorder of thinking and perception. Although intellectual ability is not impaired during the disease, individual characteristics and self-management skills are lost. During the onset of schizophrenia, failures in the patient's current employment, lagging behind in studies, inability to perform tasks at work, disruptions in family, work, and friends are observed.

Rəyçi: filol.ü.f.d., dos. T.H.Ağayeva

Redaksiyaya daxil olub: 27.05.2023

Z.M.CAHANGİRLİ
e-mail: zabita.jahangirli@outlook.com

Lənkəran Dövlət Universiteti
(Lənkəran şəh., general Həzi Aslanov xiyabanı, 50)

TAPŞIRIQ ƏSASLI DİL ÖYRƏTMƏ METODU

Açar sözlər: *tapşırıq əsaslı öyrənmə metodu, xarici dil, dilöyrənmə metodları*
Ключевые слова: *метод обучения, опирающийся на задания, иностранный язык, методы изучения языка*
Key words: *task-based learning method, foreign language, language learning methods*

Bir və ya iki xarici dil bilmənin az qala zərurətə çevrildiyi müasir dünyada xarici dil öyrənilməsinə verilən önəm gündən-günə artır, dilin tədrisi və öyrənilməsinin standartını təmin etmək, dilöyrənmə standartını müəyyən etmək üçün bir çox araşdırmalar aparılır.

Bəzən xarici dilin tədrisi zamanı məqsədəuyğun sağlam tədris mühiti yaradıla bilmədiyi üçün dil öyrənənlər müəyyən çətinliklərlə üzləşə bilirlər. Bu səriştəsizliyə görə metod və materialların yenidən formalaşdırılması və məzmununun daha dinamik olması zərurəti yaranmışdır. Bu vəziyyət xarici dilin öyrənilməsi prosesində təlim mühitinin layihələndirilməsi və həyata keçirilməsində öyrənənin tələblərini nəzərə alaraq dilöyrənmə metodlarından istifadəni zəruri edir. Bu baxımdan xarici dilin rahat şəkildə öyrənilməsi və öyrədilməsi üçün metodistlər tərəfindən illərdir sınaqdan keçmiş müvafiq metodlar vardır. Xarici dilin tədrisi zamanı düzgün formada istifadə olunan bu metodlar dilöyrənmə prosesini daha rahat və əlverişli edir. Belə metodlardan biri də *Tapşırıq əsaslı dilöyrətmə metodu*dur. Uzun illərdir ənənəvi dil öyrətmə prosesində sınaqdan keçmiş bu metod hazırda da geniş istifadə olunan metodlar siyahısındadır.

Tapşırıq əsasında dil öyrənmə metodu dil öyrənənlərin xarici dili öyrənmələri və onlara müəyyən səviyyədə dildən istifadə bacarığı qazanmaları üçün məzmun, funksiya və tətbiq üsulu baxımından ən funksional metoddur.

Dil tədrisinə alternativ bir yol təqdim edən və kommunikativ tapşırıqlarla dəstəklənərək tələbələrin real dildən istifadə bacarıqlarını artırmağı hədəfləyən tapşırıq əsaslı dil tədrisi ikinci dilin mənimsənilməsi sahəsində mühüm məsələyə çevrilmişdir. Xarici dilin tədrisi üsullarından biri olan tapşırıq əsasında tədris tələbələrin qarşılıqlı əlaqədə onlara verilən tapşırıqları yerinə yetirərək dili öyrənmələrini təmin edən bir üsuldur. Tapşırıq əsaslı dil öyrətmə metodu kommunikativ dil öyrətmə üsulu olduğundan son illərdə dil tədrisi sahəsində mühüm yer tutur.

Tapşırıq əsaslı öyrənmə metodunda tələbə yalnız xarici dili müşahidə etmək üçün hədəf xarici dillə mümkün qədər çox tanış olmalıdır. Sonra tələbə hədəf dil haqqında müxtəlif nəticələr çıxarmalı və bu dili gündəlik həyatda istifadə etməlidir. Tapşırıq əsaslı təlim metodunun seçilməsinin əsas məqsədlərindən biri də tələbə fəallığının artırılmasıdır. Tapşırıq əsaslı öyrənmə metodu tamamilə tələbə mərkəzli xarici dil tədrisi metodudur. Bu, qətiyyən müəllim yönümlü fəaliyyətlə bağlı deyil və bu üsul müəllimə məşğul olduğu tələbə üçün müxtəlif tapşırıqlar yaratmağa, öyrəndiyi xarici dili yerində və fərdi şəkildə istifadə etməyə imkan verir [1, s.112-113].

Hər bir tapşırığı xarici dildən istifadə edərək tamamlayan tələbə yeni şəxsi təcrübə əldə edir. Bu təcrübənin qazanılmasında müəllimin çox mühüm rolu olur. Müəllim xarici dilin öyrənilməsi ilə bağlı maarifləndirmə prosesinə görə məsuliyyət daşımalıdır. Bu proses tapşırıq fəaliyyətlərinin həyata keçirilməsi prosesini izləməlidir. Müəllimin ən böyük məsuliyyət daşıdığı öhdəliklərdən biri də tədris üçün istifadə olunacaq mövzuların və tapşırıqların düzgün seçilməsidir. Mövzu və tapşırıqlar dilöyrənmə prosesinin mühüm elementləri hesab olunur. Tapşırıq əsaslı dilöyrətmə metodu da tələbələrə tapşırıq verən və qarşılıqlı əlaqədə tapşırığı yerinə yeti-

rərkən dili öyrənmələrini təmin edən bir üsuldur. Başqa sözlə, dilöyrənənlər müəyyən bir tapşırığı yerinə yetirməkdən ötrü, onlara lazım olan məlumatı əldə etmək üçün dili öyrənirlər.

Müəllim tələbələrin dil inkişafını sürətləndirəcək mövzuları seçməlidir. Bu mövzular həm tələbələri həvəsləndirəcək, həm də onların diqqətini cəlb edəcək şəkildə olmalıdır. Əgər tapşırığın mövzusu tələbəni cəlb etmirsə, bu, tələbənin öyrəndiyi yeni dili qavrama prosesinə mənfi təsir göstərəcək.

Bundan əlavə, müəllim tapşırıqları seçərkən onların həm real həyatla bağlı olmasına, həm də kommunikativ yönümlü olmasına diqqət etməlidir. Xarici dil öyrənən həm dili mənimsəməli, həm də seçilmiş tapşırıqlar vasitəsilə həyatda faydalı ola biləcək funksional məlumat əldə etməlidir. Tapşırıq əsaslı öyrənmə təcrübələri vasitəsilə ingilis dilinin xarici dil kimi tədrisində birgə iş xarici dil öyrənənləri gündəlik həyata hazırlamaqla yanaşı, onlara dəstək verməklə ünsiyyət bacarıqlarını da inkişaf etdirir.

Tapşırıq əsaslı dilöyrətmə metodunun dilin öyrənənlər tərəfindən mənimsənilməsi prosesində bir sıra üstün cəhətləri vardır. Bu metodun təməlində duran "tapşırıq" anlayışı tədris proqramının mühüm elementinə çevrilmişdir. Bu o deməkdir ki, təlim prosesinin mərkəzində müvafiq tapşırıqların yerinə yetirilməsi durur. Tələbələrin diqqətini müvafiq bir tapşırığa yönəldərək, onların bu dilin struktur və formalarını daha rahat mənimsənilməsini təşkil etmək olar. [2, s.45]

Tapşırıq əsaslı öyrənmənin bir hissəsi olan maarifləndirmə prosesi Tapşırıq əsaslı öyrənmə metoduunun müvəffəqiyyəti üçün böyük əhəmiyyət kəsb edir. Bu zaman müəllim tələbələrin oxşar və fərqli cəhətlərini görməyə, tələbələrin xarici dil qavrayışlarını düzəltməyə, aydınlaşdırmağa və dərinləşdirməyə kömək etməlidir [3, s.23].

Bütün bu məsələləri nəzərə alaraq, belə nəticəyə gəlmək olar ki, Tapşırıq əsaslı öyrənmə metodunun mahiyyəti xarici dili sınaq və səhv yolu ilə öyrənməkdir. Başqa sözlə, müəyyən mənada bu metodla öyrənmə xarici dili təcrübədən keçirərək öyrənmə üsuludur.

Tapşırıq əsaslı dil öyrətmə yanaşması xarici dili tələbənin real həyatı ilə əlaqəli bir mövqedə yer almasını mənimsəyir. Tapşırıq əsaslı dil tədrisində hədəf dilin sərbəst və mənalı istifadəsi vacibdir. Tələbənin dildən istədiyi şəkildə istifadə etməsinin təmin edilməsi, cəmiyyətlə ünsiyyətə ehtiyac duyduğu zaman ona maneəsiz və asan ünsiyyətə nail olmaq imkanı verir.

Xarici dilin quruluşu və istifadəsinin tapşırıq əsasında öyrədilməsi, həm istifadə xüsusiyyətləri, həm də struktur xüsusiyyətləri lazım gəldikdə tez bir zamanda tələbənin zehnində canlanır. Tələbələrin peşəkar şəxsiyyətə çevrilməsi üçün sistemli və elmi biliyə sahib olmaq, bu bilikləri təcrübəyə köçürmək və təcrübədən nəzəriyyələr çıxarmaq vacibdir. Bu, nöqteyinəzərdən tapşırıq əsasında öyrənmə nəzəriyyə ilə praktikanı birləşdirən struktura əsaslanır.

Bu metod haqqında bır sıra pedaqoq və metodistlərin müəyyən fikir və mülahizələri olmuşdur. Amerika dilçilərindən olan Ceyn Villis "A Framework for Task-based Learning" adlı kitabında bu metodun dərinliklərini izah edərək onun dilöyrənmə prosesi üçün nə dərəcədə önəmli olduğunu izah etmişdir. Ceyn Villis tapşırıq (task) anlayışını dil öyrənmə sisteminin nüvəsi hesab edir. O, tapşırıq əsaslı diloyrənmə metodunu dərs prosesi zamanı üç mərhələdən ibarət olduğunu qeyd edir:

1. Tapşırıq öncəsi mərhələ (Pre task)
2. Tapşırığın mərhələsi (Task cycle)
3. Hədəf dilə yönlənmə mərhələsi (Language focus)

Tapşırıq öncəsi mərhələdə keçiləcək mövzu və tələbələrə veriləcək tapşırıqlar sinifdə tələbələrə təqdim olunur. Bunları edərkən mövzu ilə bağlı söz və ifadələrdən istifadə edilir. Tələbələrə verilən tapşırıqları yerinə yetirmək üçün əvvəl bildikləri dildən istifadə etmək imkanı verilir və müəllimin nəzarəti altında dil inkişaf etdirilir. Bu vaxt tələbələr onlara verilən tapşırıqların hesabatlarını planlaşdırırlar.

Üçüncü son mərhələ, post-tapşırıq mərhələsi (dil diqqəti) tapşırıq dövrü ərzində istifadə olunan dildə ortaya çıxan bəzi əsas xüsusiyyətlərin daha yaxından öyrənilməsinə və araşdırılmasına imkan verir. Tapşırıq əsaslı öyrənmə üçün lazım olan tədris üsulları məlum dilöyrətmə

metodlarından çox da fərqlənmir [3, s.134]. Burada əsas fərqlər fəaliyyətlərin sıralanmasında və onların əhəmiyyətinə görə prioritetləşdirilməsindədir. Bundan əlavə, Tapşırıq əsaslı öyrənmə metodunda tələbəmərkəzli fəaliyyətlər həddən artıq çoxdur. Bunun əksinə olaraq, birbaşa təlimat təcrübəsi daha azdır.

Tapşırıq əsaslı öyrənmə metodunun istifadəsi ilə bağlı bəzi vacib aspektləri bilmək faydalıdır. Bu üsul tələbələri öz dillərindən və lüğətlərindən istifadə etməyə təşviq etdiyi üçün müəllimin tələbələrin istifadə etdiyi dil və lüğət strukturlarını zənginləşdirməsi vacib olur. Əks halda tələbələr özbaşına yeni sözləri öyrənə bilməzlər. Bununla belə, onlar daha əvvəl sahib olduqları dildən istifadə bacarıqlarını təkmilləşdirirlər.

Tələbələrin sərgiləyəcəyi fəaliyyətlər zamanı onların ünsiyyətdə olduqları yoldaşları dəyişdirilməlidir, çünki daha yüksək səviyyədə olan tələbə daha aşağı səviyyədə olan tələbə ilə işləyə bilməlidir. Bu iş zamanı daha yüksək səviyyəli tələbəyə daha yüksək səviyyəli sözlərdən istifadə etməsi izah edilməlidir [4, s.24-25].

Qiymətləndirmə mərhələsi tələbələr üçün vacibdir, çünki onlar məruz qaldıqları öyrənmə prosesindən xəbərdar olmalıdırlar. Tapşırıq əsaslı öyrənmə metodunun öyrənmə prosesində eyni əhəmiyyətə malik iki hissəsi var. Birinci hissə tapşırıqları tam yerinə yetirmək, ikinci hissə isə tələbənin təlim prosesində nə etdiyi və nələrə məruz qaldığı barədə düşünməyə vadar etməkdir.

Kommunikativ yanaşmanın proqramlarından biri olan tapşırıqəsaslı kurikulum metodun başlanğıc nöqtəsi olmuşdur. Tapşırıqəsaslı tədrisdə dil gündəlik həyatda olduğu kimi mənalı kontekstdə təqdim olunmağa çalışılır və bu üsulda dil məqsəd deyil, ünsiyyət vasitəsi olur.

Tapşırıqəsaslı öyrənmədə dil yerinə yetirmək, paylaşmaq və ünsiyyət qurmaq üçündür. Öyrənmə, mənanın təcrübə əsasında inkişaf etdiyi fəal prosesdir. Tapşırıqəsaslı öyrənmə yanaşması tələbələrə təbii mühitdə dildən istifadə etmək imkanı vermək məqsədi daşıyır. Belə ki, tələbələr üzərlərinə götürdükləri tapşırığı yerinə yetirmək üçün işləyərkən qarşılıqlı əlaqə üçün geniş imkanlar tapırlar. Tapşırığı yerinə yetirməyə çalışan tələbələr başqaları ilə qarşılıqlı əlaqə vasitəsi ilə mövcud imkanlarından kənar dili dinləmək və sonradan istifadə etmək üçün hədəf dilin istifadəsi haqqında məlumatları öz bilikləri ilə üst-üstə salmaqla mənimsəmək imkanı əldə edirlər.

İngilis dilinin tapşırıq əsasında öyrədilməsində tapşırıqlar real həyatda yerinə yetirilən tapşırıqlardan seçilməlidir. Beləliklə, hədəf dilin mədəniyyəti öyrənən tərəfindən hazırlanan fəaliyyətlər vasitəsilə mənimsəniləcəkdir. Kommunikativ yanaşma işığında işlənib hazırlanmış tapşırıqəsaslı dilin tədrisi metodu tələbəni prosesdə daim aktivləşdirməklə və tapşırıqdan əvvəl təqdimat bölmələri ilə şəxsiyyətlərarası qarşılıqlı əlaqə tələb edən tapşırıqlar verməklə, onun ünsiyyət bacarıqlarını, eləcə də dil mənimsəməsini təkmilləşdirir [5, s.180-181].

Tapşırıqlara əsaslanan dilin tədrisi metodunun digər ən böyük üstünlüyü ondan ibarətdir ki, o, dilöyrənənlərə tapşırıqlar vasitəsilə öyrəndikləri yeni dildə, metakoqnitiv təfəkkürdə düşünməyə imkan verə bilər. Yəni tələbələr öyrəndikləri dili təkcə danışıq və yazı üçün deyil, eləcə də bu dildə düşünmək üçün istifadə edirlər. Bütun bunları nəzərə alaraq qeyd etmək olarki Tapşırıq əsaslı dil öyrətmə metodu dil öyrənənlərə qısa müddətdə xarici dili qavramaqla yanaşı bir çox bacarıqlar da qazandırır.

Ədəbiyyat

1. Tunçel H. (2018) Yabancı Dil Olarak Türkçe Öğretiminde Karşılaşılan Sorunlar ve Öneriler, Yabancı Dil Olarak Türkçe Öğretimi, (2. Baskı Pegem Akademi, Ankara), – 500 s.
2. Yaylı D. (2016) The Effects of Task-Based Learning on Male and Female Learners Proficiency and Noticing. Ç.Ü. Sosyal Bilimler Enstitüsü Dergisi (15)1: –449 p.
3. Yıldırım A. ve Şimşek H. (2006) Sosyal Bilimlerde Nitel Araştırma Yöntemleri. (6. Baskı Seçkin Yayıncılık, Ankara), – 400 s.

4. Yıldız C. (2019) Yeni Öğretim Programlarına Göre Kuramdan Uygulamaya Türkçe Öğretimi. (3. Baskı Pegem A Yayıncılık Ankara), – 388 s.
5. Yıldız M. (2019) Teaching Grammar through Task-Based Language Teaching to Young EFL Learners (Yayımlanmamış Yüksek Lisans Tezi, Ondokuzmayıs Üniversitesi Eğitim Bilimleri Enstitüsü, Samsun), – 567 s.

З.М.Джахангирли

Метод обучения языку, опирающийся на задания

Резюме

Метод обучения, основанный на заданиях, является особым методом в обучении иностранному языку. Этот метод позволяет учащимся участвовать в реальной жизненной ситуации. Благодаря этому методу учащиеся попадают в различные ситуации реальной жизни и должны устно общаться для выполнения поставленных перед ними задач.

В обучении, основанном на заданиях, язык предназначен для выполнения, обмена и общения. Обучение – это активный процесс, в котором смысл развивается на основе опыта. Подход к обучению, основанный на заданиях, направлен на то, чтобы учащиеся могли использовать язык в естественной среде. Таким образом, студенты находят широкие возможности для взаимодействия, когда они работают над поставленной задачей. Студенты, выполняющие задание, имеют возможность слушать язык, выходящий за рамки их текущих возможностей, посредством взаимодействия с другими и усваивать информацию об использовании целевого языка со своими собственными знаниями для последующего использования.

Обучение на основе задач позволяет учащемуся использовать существующий уровень языковых навыков. Это дает студенту возможность развивать навыки иностранного языка, которые они приобретают, используя язык. Этот метод ставит перед учеником цель, которую он должен достичь, и, таким образом, удерживает внимание ученика. В результате язык становится инструментом, а использование языка становится необходимостью.

Z.M.Jahangirli

Task based language teaching method

Summary

Task-based learning method is a different method in foreign language teaching. This method allows students to participate in a real-life situation. Thanks to this method, students are exposed to different situations of real life and have to communicate orally to complete the tasks given to them.

In task-based learning, language is for performing, sharing and communicating. Learning is an active process in which meaning develops based on experience. A task-based learning approach aims to enable students to use the language in a natural environment. Thus, students find ample opportunities for interaction as they work toward their assigned task. On-task students have the opportunity to listen to a language beyond their current capabilities through interaction with others and to assimilate information about the use of the target language with their own knowledge for later use.

Task-based learning allows the student to use their existing level of language skills. It gives the student an opportunity to develop the foreign language skills they learn by using the language. This method sets a goal for the student to achieve and thus keeps the student focused. As a result, language becomes a tool, and language use becomes a necessity.

Rəyçi: ped.ü.f.d., dos. G.X.Şirəliyeva

Redaksiyaya daxil olub: 14.02.2023

Y.S.CƏLALOV
baş müəllim
e-mail: yashar.calalov@sport.edu.az

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr., 98)

ARXAYA BADALAQ FƏNDİNİN İCRA TEXNİKASININ ELİM-METODİKİ MƏNBƏLƏRDƏ TƏSVİRİ

Açar sözlər: *güləş, arxaya badalaq, düz qıç, qatlanmış qıç, dartma, təhlil, texnika, variant*
Ключевые слова: *борьба, задняя подножка, выпрямленная нога, согнутая нога, рывок, анализ, техника, вариант*
Key words: *wrestling, backward trip-up, straight leg, bent leg, jerk, analysis, technique, variant*

Güləşçinin ustalığının vacib tərkib hissələrindən biri texnikadır. Güləş növləri üzrə məşğələlərdə fəndlərin icra texnikasına böyük diqqət yetirilir. Bu fəndlər qrupuna, hücum edən və müdafiə olunan güləşçinin müxtəlif situasiya və vəziyyətlərdən icra etdiyi arxaya badalaqlar da aiddir. Fəndlərin məşq və yarış görüşlərində tətbiqi imkanları onların strukturunun, təlim və təkmilləşdirmə ardıcıllığının rasionallığından asılıdır. Öyrənilən fəndlər ayrı-ayrı ədəbiyyatlarda müxtəlif cür təsvir edilir. Bir qrup müəlliflər hücumçunun öz qıçını rəqibin qıçları arxasında düz, digərləri isə diz oynağında qatlanmış halda qoymalı olduğunu təklif edirlər [11; 12]. Biz öz işimizdə arxaya badalaqların daha rasional strukturunu aşkar etməyə çalışdıq. Ədəbi mənbələr üzərində iş tədqiqatın birinci mərhələsidir.

Tədqiq etdiyimiz güləşlə bağlı ədəbi mənbələrdən məlum olur ki, "arxaya badalaq" fəndini və onun yerinə yetirilməsi texnikasını hər bir müəllif öz fikrincə rasional olan mövqedən təsvir edir. Təbii ki, biz özəl və ümumi rəylərə rast gəldik və bu barədə aşağıda qeyd olunur.

Sərbəst güləş üzrə ədəbiyyatlarda [2; 3] arxaya badalaq həyata keçirərkən müəlliflər texnikanın rəqibin düzgün mövqedə olduğu zaman həyata keçirilməsini tövsiyə edirlər. Ovucun əsası sinəsinin sağ tərəfindəki körpücük sümüyünün kənarına qoyulur. Sol ayaq irəli – sola doğru addım elə atılır ki, daban rəqibin sağ ayağının pəncəsinin ortasından daha yaxın olmasın. Məsafə sabit deyil və icraçının qıçlarının uzunluğundan asılıdır. Əgər güləşçinin qıçı rəqibin qıçından uzundursa, bu məsafə elə hesabla artırılır ki, sağ ayaqla təkan vurarkən, sol ayaq diz oynağında, demək olar ki, düz bucaq altında əyilmiş, ağırlıq mərkəzi onun üzərinə keçirilmişdir. Bununla güləşçinin öz tarazlığını saxlaması asan olur.

Sol ayaq ilə irəli bir addım atılan kimi, sağ ayaq diz oynağında əyilir və irəli –sola çıxarılır. Eyni zamanda, bədən irəli əyilir və sola çevrilir. Sol əl sola çəkir, sağ əl isə çiyindən itələyir və rəqibi həmin istiqamətdə tarazılıqdan çıxarır.

Yellənmədən dərhal sonra sağ ayaq diz oynağında düzəlir, aşağı enir və arxaya-sağa hərəkət etməyə başlayır, dizini rəqibin sağ ayağının diz büküşünə vurur. Zərbənin istiqaməti tam arxaya – yuxarıya doğrudur. Pəncənin altının hərəkəti xalçaya paralel olmalı, otu biçən dəryazın hərəkətinə bənzəməlidir. Gövdə irəli – sola əyilməyə davam edir və öz oxu ətrafında dönür. Əllər isə aşağı, öz dizinin ətrafında dartılır, sol qıçın pəncəsi daha çox sola çevrilir, tarazlığı qorumağa kömək edir.

Vurma anında və ondan dərhal sonra sağ ayağın pəncəsi barmaqlarla xeyli sola çevrilməli və xalçaya eyni zamanda bütün sahəsi ilə toxunmalıdır.

Ayaqla altdan təkan, gövdə və əllərlə dartma eyni zamanda və əks istiqamətli olmalıdır. Bədənin ağırlıq mərkəzi sol ayaq üzərində olmalı və sağ qıç əyilməməlidir. Fənd vizual aspektdə təsvir edilmişdir və çox qeyri-müəyyəndir.

"Sambo güləşi" kitabında [9] müəllif hər iki güləşçinin sağtərəfli duruşda olduğu variantı təklif edir. Sol əllə məhdudlaşdırıcı tutma edilir, sağ əllə isə rəqibin geyimi sağ körpücük sümüyü üzərində tutulur. Sol ayaqla irəli – sola addım ataraq onu rəqibin sağ pəncəsinin yanında elə qoyur ki, sol pəncənin ucu sola dönmüş olsun. Sonra azacıq əyilmiş sağ ayaq sola – irəli çəkilir və yellənmə hərəkəti ilə rəqibin sağ ayağı arxasında elə qoyulur ki, düz olsun, tam pəncə üzərində dayansın və onun diz büküşünü rəqibin sağ ayağının diz büküşünə vura bilsin. Badalağın icrası zamanı hücum edənin bədəninin ağırlığı dizdən bükülmüş sol ayağın üzərinə keçirilməlidir.

Qolların və gövdənin sola – aşağı güclü burulması ilə rəqib hücum edənin sol ayağına tərəf atılır. Bu variantda müəllif fəndin icrasının biomexaniki əsaslarını açıqlamır, yalnız kinematik və vizual nəticələri verir.

Sərbəst güləş haqqında kitabın başqa bir müəllifi [1] fəndin aşağıdakı icra variantını tövsiyə edir: qolu tutaraq arxaya badalaq.

Çıxış vəziyyəti: hücumçu rəqibin əlini hər iki əli ilə onun ayağının önə qoyulduğu tərəfdən tutur və rəqiblə müxtəlif adlı duruşda durur.

Arxaya qoyduğu ayağını irəli və xaricə (rəqibin öndəki ayağından) yellənərək hücumçu diz oynağında bükülmüş ayağını əksinə hərəkət etdirərək baldırı ilə rəqibin irəlidəki ayağının baldırına vurur. Eyni zamanda onu çiyni ilə itələyir və yıxılarkən onu müşayət edir. Xalçanın üzərinə yıxılaraq hücumçu yaxın əli ilə rəqibin gövdəsini tutur və onu saxlayır.

Digər müəllifin [3] arxaya badalaq fəndinin yerinə yetirilməsi ilə bağlı fikri belədir: soltərəfli duruşda duraraq güləşçi hər iki əli ilə rəqibin sağ əlini tutur, bədənin ağırlığını irəlidəki ayağının üzərinə keçirir və dizdə bükür. Sağ ayağı rəqibin ayaqlarını arxasına qoyur və sol ayağa doğru əyilərək, sağ ayağı düzəldir və onun ayaqlarını altdan vurur.

Arxaya badalağın köməyi ilə bel üzərindən atmaları, təkanla yıxmaları icra etmək olar.

Bu vəsaitdə fənd yaxşı açıqlanır, lakin hücum edən güləşçinin və onun hücumuna məruz qalan rəqibin ümumi ağırlıq mərkəzlərinin paylanmasının təhlili yoxdur.

"Sambo güləşinin texnikası" kitabında müəllif [10] arxaya badalaq fəndinə tərif verir və bizə fəndin icrasının bir neçə variantını təklif edir: *arxaya badalaq o atma adlanır ki, fəndin icrası zamanı güləşçi ayağını rəqibin ayağı və ya ayaqları arxasına qoyur və əllərlə dartma hesabına onu üzərindən aşırır. Badalağın icrası anında hücumçunun hər iki ayağı yerdə olmalıdır.*

Arxaya badalaq həm ayaq üstə, həm də yıxılmaqla icra olunur.

Arxaya badalaqların adlarında əvvəlcə badalaqların istiqaməti yazılır. Sonra "badalaq" sözü və lazım gələrsə, bu badalağın ən xarakterik detalı əlavə edilir.

Aşağıdakı arxaya badalaqlar mövcuddur:

1. Arxaya badalaq
2. Diz üstdən arxaya badalaq
3. Yıxılmaqla arxaya badalaq
4. İki qıça arxaya badalaq
5. Qıçı xaricdən tutmaqla arxaya badalaq
6. Qıçı daxildən tutmaqla arxaya badalaq

Bu kitabda müəllif hücumçunun istənilən vəziyyətindən arxaya badalaqların icra variantlarını müvəffəqiyyətlə açıqlayır (başqa mənbələrdə rast gəlmədik).

A.B.Turin öz kitabında [7] arxaya badalağın icrasının öz versiyasını təklif edir. Bu, aşağıdakı kimidir:

Çıxış vəziyyəti – rəqib sağ ayağını irəli qoyaraq hücumçuya qarşı dayanır.

1. Sol əllə rəqibin geyimi sağ qolun dirsəyinin altında tutulur.

2. Sol ayaqla irəli – sola bir addım atılır və bütün bədən çəkisi sol ayaq üzərinə keçirilir. Eyni zamanda, rəqibin körpücük sümüyünün üstündəki geyim sağ əllə tutulur.

3. Sağ ayağın altdan təkan hərəkəti ilə rəqibin sağ ayağının qarşısı elə bağlanır ki, hücumçunun diz büküşü rəqibin diz büküşünə düşsün. Sonra qolların hərəkəti ilə hücumçu rəqibi ayağının üzərindən arxaya – sola aşırır.

Bu atma öz əsas hissəsi ilə bir çox fəndlərin tərkib hissəsinə daxildir. Buna görə də arxaya badalaq hər bir yeni başlayan güləşçi tərəfindən xüsusilə yaxşı mənimsənilməlidir.

Burada müəllif tamamilə haqlı olaraq düzgün vurğulayır ki, arxaya badalaq ayaq fəndlərinin tətbiqi ilə olan güləş növlərinin texniki arsenalına əsas hissə kimi daxil edilmişdir. Lakin o, bədən hissələrin işinin biomexaniki əsaslarına, onların tətbiq etdiyi qüvvəyə diqqət yetirməmişdir. Eləcə də rəqib-hücumçu sisteminin ÜAM-nin paylanması və bunun nəticəsində inkişaf edən dayaq reaksiyaları diqqətdən kənarda qalmışdır.

"Sambo güləşi" kitablarında müəllif [9] arxaya badalağın icrasının əsas variantını təklif edir – burada hər iki güləşçi sağtərəfli duruş vəziyyətindədir. Sol əllə geyim rəqibin sağ dirsəyinin altında, sağ əllə isə sağ körpücük sümüyünün altında tutulur. Rəqibi yüngülcə aşağı – özündən kənara dabanları istiqamətində elə sıxmaq lazımdır ki, onun hər iki pəncəsi xalçadan qalxsın. Rəqibin pəncələri qalxan kimi, sol ayaqla irəli-sola addımlayaraq (sol pəncəni mümkün qədər sola çevirməklə), sol ayağı rəqibin sağ ayağının yanında və xaricində qoymaq lazımdır. Ayaqlar arasındakı məsafə bir pəncə uzunluğunda olmalıdır. Sonra yüngülcə bükülmüş sağ ayağı sola-irəli apararaq onu rəqibin sağ ayağının arxasına (düz halda) elə qoyun ki, diz büküşü ilə rəqibin sağ ayağının diz büküşünə vurmaq olsun.

Badalağın qoyulması zamanı hücumçunun bədəninin ağırlığı dizdə bükülmüş sol ayağın üzərinə keçirilməlidir. Qolların və gövdənin sola – aşağıya güclü dartılması ilə rəqibi öz sol pəncəsinə tərəf atmaq lazımdır. Rəqibin sağ qolluğundan sol əllə tutaraq onu mühafizə etmək lazımdır. Özünümühafizə şüvül üzərindən sol tərəfi üstə yıxılarkən olduğu kimidir.

Arxaya badalağı öyrənərkən tez-tez rast gəlinən səhv – bədənin ağırlığını sağ qıçın üzərinə keçirmək və onu bükməkdir.

Əsas variantda təsvir edilən tutmadan əlavə arxaya badalaq eyniadlı qolluğun yuxarısını tutmaqla, yaxanı əksinə və kəməri çiyin üzərindən tutmaqla həyata keçirilə bilər.

Fəndin bu təsvirində pedaqoji nöqteyi-nəzərdən sırf metodoloji aspektlər açıqlanır. Bununla belə, biomexanik aspektlər açıqlanmır.

Digər müəlliflər [4; 5] fəndi yerinə yetirmək üçün şərait və hazırlıq təklif edir, metodiki göstərişlər verir, həmçinin xarakterik səhvləri və onların səbəblərini göstərir.

Şərait: rəqib qıçlarını bir qədər bükərək və arxaya əyilərək dartır. Məsafə orta və yaxındır.

Hazırlıq. Qıçı rəqibin eyniadlı qıçının arxasına elə qoymaq lazımdır ki, dizin büküşü eyniadlı dizin bükülməsinə dayansın. Hücumçu rəqibi öz tərəfinə yana – irəli dartır və eyni zamanda digər qıçını bükür. Bununla da o, öz bədəninin ağırlığı hesabına dartma qüvvəsini artırır. Rəqib yıxılmağa başlayanda hücumçu onu saxlayır və eyni zamanda rəqibin yuxarıya doğru dartması hesabına tarazlığını qoruyub saxlayır və ayaq üstündə qalır.

Xarakterik səhvlər və metodiki göstərişlər:

1. Hücumçu qıçını rəqibin qıçları arxasına qoyaraq arxaya çəkilir.

Səhvin səbəbi – rəqibə kifayət qədər yaxınlaşmamaqdır. Hücumçu hazırlıq görmür (öz üzərinə dartmır).

2. Texnika çətinliklə yerinə yetirilir, hücumçu yaxşı dartma üçün kifayət qədər gücün (qollarında) olmamasından şikayətlənir. Səhvin səbəbi ondan ibarətdir ki, hücumçu qıçını rəqibin qıçları arxasında düz qoymur və atma anında onu düzləndirmir, bədənin çəkisini uzaq qıçın üzərinə keçirmir.

Əgər hücumçu ayağını bütün pəncə üzərinə qoysa və atma anında ona dayaqlansa, səhvi düzəldə bilər. Bu hərəkətlə o, atmaq üçün öz bədəninin ağırlıq qüvvəsindən istifadə edir, yəni, yıxılaraq rəqibi özü ilə birlikdə aparır. Rəqib yıxılmağa başlayanda ayağını xalçaya qoyub özünün yıxılmağını dayandırmaq olar.

3. Hücum edən qıçını rəqibin qıçlarının arxasına qoyulduğu anda, rəqib geri addım atır və fənd alınmır.

Səhvin səbəbi: hücum anında hücumçu rəqibi itələyir və bununla onu ayağını geri çəkməyə məcbur edir.

4. Atma tamamlanan anda hücumçu tarazlığı saxlaya bilmir və rəqibin üzərindən xalçaya yıxılır.

Səhvin səbəbi: hücum edən (maneə) qıç bükülür və diz ilə xalçaya tərəf döndərilir; digər ayaq çox erkən qoyulur və ya xalçadan ümumiyyətlə ayrılmır (atmanın gedişatı zamanı). Bu səbəbləri aradan qaldırıb rəqibi mühafizə etmək (tutub saxlamaq) üçün göstərişlər verilsə, səhvi düzəltmək olar.

Bu versiyada da əvvəlkində olduğu kimi, biomexaniki əsaslar yoxdur, lakin metodoloji tövsiyələr yaxşı açıqlanır.

Digər müəllif [6] kitabda arxaya badalağın icra variantını əsas variant kimi təklif edir. O, aşağıdakılardan ibarətdir: güləşçilər sağtərəfli duruş vəziyyətindədirlər. Bədənin ağırlığı sağ qıça keçirilir. Sol əllə arxaya – yuxarıya – sağa dartaraq, rəqibi arxaya – sağa yayındırmaq lazımdır. Rəqib öz bədəninin ağırlığını sağ ayağa keçirdikdə, sol ayağın ucunu sola çevirib onunla irəli – sola addımlamaq lazımdır.

Dizdə bükülmüş qıç kiçik bir addım məsafədə rəqibin sağ pəncəsinin kənarında onunla bir səviyyədə qoyulur. Öz sağ ayağının təkanı və gövdənin irəli – sola sol ayağın pəncəsinin hərəkəti istiqamətində əyilməsi hesabına bədənin ağırlığı sol qıça keçirilir. Yüklənmədən azad olan sağ ayağı öz sol ayağı ilə rəqibin sağ ayağı arasından sola – irəli keçirmək və sağa – arxaya yellənmə hərəkəti ilə onu rəqibin ayaqlarının arxasında düzləndirib bütün pəncəsi üstə qoymaq lazımdır.

Əgər rəqib ayaqlar geniş aralı vəziyyətdə dayanırsa, sağ ayaq rəqibin sağ ayağının yanına elə qoyulur ki, öz sağ qıçının diz büküşü ilə rəqibin sağ qıçının diz büküşünə vurmaq olsun.

Hündür sağtərəfli duruşda, rəqibin sol ayağı sağ ayağa yaxın qoyulduqda hücumçu sağ qıçını rəqibin hər iki qıçının arxasına elə qoyur ki, öz sağ qıçının axilla vətəri rəqibin sol ayağının axilla vətərinə sıxılsın.

Bədəninin ağırlığını sol qıça keçirən anda hücumçu rəqibi sola – arxaya təkanla yıxan səyini artırır. Bu, hücumçunun sağ əllə irəli – sola hərəkəti və öz sinəsi ilə rəqibin sağ qoluna təzyiqi hesabına baş verir.

Bu anda sağ əllə rəqibin boynunu tutub başını arxaya – sağa əymək olar.

Sağ ayağı xalçaya qoymaqla eyni vaxtda çiyin oynağının sola dönməsi və gövdənin cəld irəli – sola əyilməsi hesabına rəqibi sağa – irəli təkanla yıxan qüvvəni artırmaq lazımdır. Rəqib hücumçunun düzləndirilmiş sağ qıçının üstündən aşaraq arxası üstə onun sol pəncənin yanına yıxılacaq.

Fəndin təklif olunan variantını diqqətlə öyrəndikdən sonra aşağıdakı qeydləri etmək olar: texnika qeyri-müəyyən şəkildə təsvir edilmişdir, konkretlik, qısalıq və eyni zamanda metodoloji və biomexaniki əsaslar yoxdur.

İdman güləşi üzrə illik məcmuələrdə bir sıra müəlliflər arxaya badalaq fəndinin maraqlı variantını təklif edirlər [8]. Burada fənd o zaman yerinə yetirilir ki, rəqib kəmərin tutulmasına (qol altından) reaksiya göstərərək duruşunu dəyişir və azacıq arxaya əyilməklə, qıçı bir qədər bükməklə bel üzərindən atmaya qarşı müdafiəyə hazırlayır. Qıçı rəqibin eyniadlı qıçının arxasına gətirərək onu elə qoymaq lazımdır ki, diz büküşü onun eyniadlı qıçının diz büküşünə sıxılsın.

Öz bədən çəkisinin hesabına dartma qüvvəsini artırmaq üçün rəqibi yana – irəli özünə tərəf dartıb irəli əyilərək atma istiqamətində yıxılmaq lazımdır. Bundan sonra digər ayaqla addım atılır. Rəqib yıxıldıqda, hücumçu yayınır, onu tutur və eyni zamanda tarazlığını bərpa edir.

Taktiki hazırlıq. Hücumçu rəqibi dartır, çanağı irəli çıxarır və bununla bel üzərindən atmaya başlama görüntüsü yaradır. Hücumçu öz üzərinə – yuxarı və atmaya əks istiqamətdə dartma icra edir. Eyni zamanda o, hücum edən qıçını qaldırır və bükür.

Xarakterik səhvlər:

1. Hücumçu qıçını rəqibin qıçlarının arxasına qoyarkən arxaya əyilir və rəqibə kifayət qədər yaxınlaşmır.

2. Hücumçu rəqibi öz üzərinə kəskin dartmır.

Müəlliflər bildirirlər ki, fəndin icrası üçün situasiya yalnız o zaman müvəffəqiyyətli olur ki, rəqibin kəməri onun qolunun altından tutulmuş olsun. Arxaya badalaqları icra etmək üçün bir çox digər variantlardan istifadə etmək olar.

Arxaya badalağın eyni dərəcədə maraqlı bir variantı "Gənc samboçu" kitabında təsvir edilmişdir.

Çıxış vəziyyəti: hücumçu frontal duruşdadır.

1. Sol əllə dirsək nahiyəsində rəqibin sağ qolluğunu, sağ əllə – boyunda yaxasını tutmaq.

2. Əllərlə dartaraq rəqibi sağ ayaqla irəli addımlamağa və bədənin ağırlığını onun üzərinə keçirməyə məcbur etmək (qıçı yükləmək). Eyni zamanda, sol ayaqla irəli – sola bir addım atmaq və öz bədəninin ağırlığını onun üzərinə keçirmək.

3. Öz sağ qıçını rəqibin eyniadlı qıçının arxasına keçirərək dəqiq qoymaq. Sağ qıçın altdan təkanverici hərəkəti və əllərlə dartaraq atmanı öz sağ ayağı tərəfə yerinə yetirmək.

Ədəbiyyatların təhlili üzrə xülasə aşağıda göstərilir.

№	Ədəbiyyatın adı	İli və nəşriyyatı	Fəndin icrasının struktur əsaslarını modelləşdirmək üzrə tövsiyələr	Nəticə
1	2	3	4	5
1	Qalkovskiy N.M. "Sərbəst güləş"	Moskva, FiS, 1940	Rəqibin qıçlarının arxasına qoyulmuş hücumçunun qıçı düzləndirilib arxaya hərəkət hesabına altdan təkan – vurucu hərəkət edir. Qıçların, gövdənin və əllərin hərəkəti eyni vaxtda yerinə yetirilir.	Fənd vizual nöqteyi nəzərdən təsvir edilmişdir
2	Xarlampiyev A.A. "Sambo güləşi"	Moskva, FiS, 1949	Rəqibin qıçlarının arxasına qoyulmuş hücumçunun qıçı düzləndirilib təkanvurucu hərəkət edir. Gövdənin və əllərin hərəkəti sola – aşağıdır.	Biomexaniki əsaslar açıqlanmır. Müəllif kinematik və vizual nəticələr vermişdir.
3	Sorokin N.N. "İdman güləşi"	Moskva, FiS, 1960	Rəqibin qıçlarının arxasına qoyulmuş qıç dizdən qatlanmışdır, təkanvurucu hərəkət edir.	Müəllif hücumçunun istənilən vəziyyətlərdən arxaya badalağı icra etmə variantlarını açıqlayır.
4	Turin L.B. "Sambo güləşi"	Moskva, "Sovetskaya Rossiya", 1963	Rəqibin qıçlarının arxasına qoyulmuş hücumçunun qıçı tərpənməz qalır, fənd aşırmanın hesabına baş verir.	Müəllif bədən hissələrinin işinin və onlara qoyulan qüvvənin biomexaniki əsaslarına diqqəti yönəltmir.
5	Xarlampiyev A.A. "Sambo güləşi"	Moskva, FiS, 1964	Rəqibin qıçlarının arxasına qoyulmuş hücumçunun qıçı düzləndirilib təkan vurucu hərəkət edir və bütün pəncə üzərinə qoyulur.	Fəndin təsvirində pedaqoji nöqteyi nəzərdən sırf metodiki aspektlər açıqlanır. Lakin biomexaniki aspektlər açıqlanmır.
6	Andreyev V.M, Çumakov Y.M. "Sambo güləşi"	Moskva, FiS, 1967	Rəqibin qıçlarının arxasına qoyulmuş hücumçunun qıçı dizdən qatlanmışdır və onun düzləndirilməsi hesabına təkanvurucu hərəkət edir.	Metodiki tövsiyələr yaxşı açıqlanır, lakin, biomexaniki əsaslar yoxdur.
7	Quleviç A.İ., Zvyaqinsev Q.İ. "Sambo güləşi"	Moskva, FiS, 1967	Bir neçə variant göstərilir: a) qıçın düzləndirilməsi hesabına qıçlara təkan vurmaqla; b) əllərin və gövdənin köməyi ilə qiç üzərindən aşırmaqla	Fənd səthi təsvir edilir, konkretlik yoxdur və eyni zamanda metodiki və bio mexaniki əsaslar yoxdur.

8	Çumakov Y.M. “Sambo güləşinin texnikası”	Moskva, FiS, 1968	Fənd hücumçunun ağırlıq mərkəzi proyeksiyasının onun dayaq sahəsinin hüdudlarından kənara çıxarılması hesabına icra olunur.	Müəllif bildirir ki, fəndin icrası üçün əlverişli şərait o zaman daha müvəffəqiyyətli olur ki, rəqibin kəməri qolunun altından tutulsun.
9	Turin L.B. “Gənc samboçu”	Moskva, FiS, 1970	Rəqibin qıçlarının arxasına qoyulmuş hücumçunun qıçı təkan vurucu hərəkət edir.	Bu vəsaitdə tutmaların və hücumçunun özünün və rəqibinin AM-nin nizamlanması və yerdəyişməsi hesabına fəndin icrasının taktiki variantlarının təsviri müvəffəqiyyətlə verilmişdir
10	Çumakov Y.M. “Sambo üzrə 100 dərs”	Moskva, FiS, 1971	Rəqibin qıçlarının arxasına qoyulmuş hücumçunun qıçı düzləndirilməsi və eyni zamanda öz ağırlıq mərkəzi proyeksiyasının dayaq sahəsinin hüdudlarından kənara irəli – sola çıxarılması hesabına təkan vurucu hərəkət edir.	Fəndin təsvirində onun hazırlanması və icrası üçün hansı tutmalardan və variantlardan, hansı səylərdən istifadə olunduğunun təhlili yoxdur.
11	Rudman D.L. “Sambo”	Moskva, FiS, 1979	Hücumçu sağtərəfli duruşda durur, qıç dizdə azacıq qatlanmışdır. Hücumçu sağ qıçla altdan təkan vuraraq sonra onu arxaya aparır.	Bu vəsaitdə müəllif aşağıdakı aspektlərdən yaxşı tövsiyələr vermişdir: arxaya badalağın icrası üçün yaxşı şərait, onların müvəffəqiyyətli icrası üçün tövsiyələr.
12	Svişev İ.D. “İdman güləşi”. İllik məcmuə	Moskva, FiS, 1985	Hücumçu kimononun qolluğunu və yaxasını tutur, cəld hərəkətlə özünə dartır, eyni zamanda dayaq qıçı ilə ona tərəf addımlayır. Qıç rəqibin qıçları arxasına qoyulur, gövdə irəli əyilir, qıçlar düzləndirilir, rəqib tatami üzərinə atılır.	Burada müəllif sadə metodla arxaya badalaq fəndinin tutmalarının və icra variantlarının təsvirini verir.

Elmi-metodiki mənbələrin təhlili göstərdi ki, arxaya badalaq fəndlərinin icra strukturu haqqında ədəbiyyatlarda qüvvələrin bölüşdürülməsi və hərəkətlərin uzlaşdırılması haqqında vahid fikir yoxdur. Təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycan dilində bu mövzuda ədəbiyyatlar yoxdur.

Ədəbiyyat

1. Алиханов И.И. Вольная борьба. . Москва, ФиС, 1956.
2. Галковский Н.М. Вольная борьба. Москва, ФиС, 1940.
3. Сорокин Н.Н. Спортивная борьба. Москва, ФиС, 1960.
4. Дахновский В.С., Еганов А.В. Совершенствование технико-тактической подготовленности дзюдоистов. Ежегодник «Спортивная борьба», Москва, ФиС, 1986.
5. Еганов А.В., Сиротин О.А., Каплин В.Н., Курашкин А.И. Структура показателей спортивного мастерства дзюдоистов. Ежегодник «Спортивная борьба», Москва, ФиС, 1982.
6. Гулевич А.И., Звягинцев Г.И. Борьба самбо. Москва, ФиС, 1968.
7. Турин Л.Б. Борьба самбо. Москва, «Советская Россия», 1963.

8. Морозов А.К. Совершенствование техники в спортивной борьбе. Ежегодник «Спортивная борьба», Москва, ФиС, 1977.
9. Харлампиев А.А. Борьба самбо. Москва, ФиС, 1949.
10. Харлампиев А.А. Техника борьбы самбо. Москва, ФиС, 1960.
11. Рудман Д.Л. Самбо. Москва, ФиС, 1979.
12. Чумаков Е.М. Техника борьбы самбо. Москва, ФиС, 1968.

Я.С.Джалалов

Описание в научно-методических источниках техники проведения приема «задняя подножка»

Резюме

Техника является важнейшей частью мастерства борца. На занятиях по видам борьбы большое внимание уделяется технике выполнения приёмов. В группу этих приёмов входит задняя подножка, выполняемая атакующим и атакуемым борцом с разных положений. Возможность применения приёмов в тренировочных и соревновательных схватках зависит от структуры и рациональности последовательности обучения и совершенствования их. Обучаемые приёмы в разных литературах описываются по разному. В этой работе сделана попытка выявить рациональную структуру задних подножек.

Y.S.Jalalov

Execution description of the backward trip-up technique in the scientific and methodological sources

Summary

A technique is a vital part of a wrestler’s mastery. In different wrestling classes, great attention is given to the execution technique of techniques. The backward trip-up included in these groups is conducted by attacking and attacked wrestlers in different positions. The possibility to conduct techniques in training and competitive matches depends on the structure and rationality of their training and improvement sequence. Taught techniques in various sources are described differently. I tried to reveal the rationality of the backward trip-up structure in my research.

Rəyçi: ped.f.d., dos. Y.B.Səmədov

Redaksiyaya daxil olub:11.04.2023

E.R.CUMAZADƏ
e-mail: cumazademin@gmail.com

S.M.ƏSGƏROV
e-mail: samir.esgerov.2012@gmail.com

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr., 98)

GƏNCLƏRİN FİZİKİ HAZIRLIĞINDA PİYADA TURİZM YÜRÜŞLƏRİNİN ƏHƏMİYYƏTİNƏ DAİR

Açar sözlər: *idman turizmi, fiziki fəaliyyət, piyada turizmi, piyada turizminin sağlamlığa təsiri*
Ключевые слова: *спортивный туризм, двигательная активность, пеший туризм, влияние пешего туризма на здоровье*
Key words: *sports tourism, physical activity, pedestrian tourism, impact of pedestrian tourism on health*

İdman turizmi, turizmin ən populyar növlərindən biridir. Turizmin kütləviliyi onun ümumən hamı üçün əlverişli olmasındadır. Doğurdan da, istirahət günləri yürüşləri, I və II dərəcəli çətinliyə malik səyahətlər daha çox kütləvi əhəmiyyət kəsb edir. Məhz bu baxımdan idman turizmi şox vacib idman növüdür. Bu növlə məşğul olanlarda fiziki hazırlıq səviyyəsi, ciddi xəstəliklərə qarşı müqavimətləri və qan təziqini normal səviyyədə olur. Sözsüz ki, yaş faktoru burada mühüm rol oynayır. Ümumilikdə bütün yaş qrupları üçün piyada turizmi ilə məşğul olmaq məqbul haldır. Piyada turizm yürüşləri yüksək fiziki hazırlığın olmasını tələb edir. Bunu aydınlaşdırmaq üçün idman turizminin bir neçə növünün xüsusiyyətlərinə nəzər salaq.

Turizmin növləri və yürüşlərin xüsusiyyətləri (cədvəl 1)

Turizmin növləri və yürüşlərin xüsusiyyətləri	Yürüşlərin və səyahətlərin çətinlik dərəcəsi				
	I	II	III	IV	V
Yürüşlərin və səyahətlərin davamiyyəti günlərdə (ən azı)	6	8	10	13	16
Yürüşlərin və səyahətlərin məsafəsi kilometrdə (ən azı)					
Piyada turizmi	130	160	190	220	250
Xizək turizmi	130	160	200	250	300
Dağ turizmi	100	120	140	150	160
Su turizmi	150	175	200	225	250
Velosiped turizmi	250	400	600	800	1100
Motosiklet turizmi	1000	1500	2000	2500	3000
Avtomobil turizmi	1500	2000	2500	3000	3500
Spelioturizm (mağaraların sayı)	5	4-5	1-2	1-2	1

Turizmin daha başqa xüsusiyyəti hər bir şəxsin bu idman növü ilə məşğul olmasının mümkünlüyüdür. Bir çox idman növlərinin əsasında tanınmış "tez, yüksəyə, güclü" prinsipinə cavab verən insan tərəfindən məhdudlaşmış vaxt kəsimi durur (1, s. 16).

Hal-hazırda insanların həyatnnda sağlamlıq bir dəyər kimi xüsusu aktuallıq kəsb edir. Aparılmış elmi tədqiqatlar idmançı turislərin fiziki sağlamlığı qorumaq və təkmilləşdirmək üçün müxtəlif vasitələrdən istifadə etmək tövsiyə edilir. Bu vasitələrdən biri də piyada turizimidir.

Piyada turizmi ilə mütəmadi məşğul olanlarda sağlamlığının ən vacib göstəricisi onun ürək-damar sisteminin funksiyası nizama düşür. Optimal dozada yeriş orqanizmin hüceyrələ-

rinə oksigen tədarükünün artırılmasına müsbət təsir göstərir, hüceyrə və toxumlarda qan tədarükünü nizamlayır, işləməyən kapilyarları açır, xəstəlik nəticəsində zədələnmiş nahiyələrdə yeni kapilyarların əmələ gəlməsinə kömək edir. Bu da orqanizmin normal fəaliyyəti üçün vacibdir. Piyada turizminin təsiri altında qanın viskozitesi azalır, bu da ürəyin işini asanlaşdırır və tromboz riskini və ürək-damar xəstəliklərinin inkişafını azaldır. Piyada turizmi digər dövri məşqlərdə olmayan unikal qabiliyyətə malikdir – bu, biomexaniki rezonans fenomenidir.

Sistolik və diastolik qan təzyiqinin ölçülməsi ümumi qəbul edilmiş üsula uyğun olaraq sol qolda aparılır. Eyni zamanda, piyada gəzintinin sağlamlığa təsirini müəyyən etmək üçün dərin nəfəs aldıqdan sonra maksimum nəfəstutma müddəti ölçülür. Bu zaman ağız bağlanmalı və burun barmaqlarla sıxılmalıdır. Kişilər üçün orta dəyərlər 50-60 s, qadınlar üçün – 35-45 s-dir. İdmançılar üçün – 65-75 s və ya daha çoxdur.

Faiz nisbəti və həyat keyfiyyətinin ölçü meyarı (Cədvəl 2)

Sorğu nəticələri faizlə ifadə olunan göstəricilərə əsaslanır:	
Faiz nisbəti	Həyat keyfiyyətin ölçü meyarı
0% – 20%	aşağı həyat keyfiyyəti;
21% – 40%	həyat keyfiyyətinin azalması;
41% – 60%	orta həyat keyfiyyəti;
61% – 80%	artan həyat keyfiyyəti;
81% – 100%	yüksək həyat keyfiyyəti.

Tədqiqatlar universitet tələbələrinin piyada turizm əsasında fiziki sağlamlıq səviyyəsini, funksional vəziyyətini və fiziki hazırlığını qiymətləndirmək məqsədi daşıyırdı.

Sağlamlıq təkcə xəstəlik və ya əlilliyin olmaması deyil, tam fiziki, əqli və sosial rifah vəziyyətidir. "Sağlamlıq" anlayışı insanın həyatının bütün sahələrinə təsir göstərir: fiziki, əqli (intellektual), sosial, mənəvi, emosional amillərin ahəngdar şəkildə birləşdiyi vəziyyətdir. Sağlamlığın zəruri şərti kimi tam, fəal, heç bir məhdudiyyət olmadan əmək və ictimai faydalı fəaliyyətlə məşğul olmaq imkanı daxildir.

Gənclərin sağlamlığının təməli uşaqlıq və yeniyetməlik dövründə formalaşır. Statistika göstərir ki, yeniyetmələrin xəstələnmə nisbəti ənənəvi olaraq ümumi əhali ilə müqayisədə daha yüksəkdir. Gənclərin sağlamlıq problemləri haqqında təəssürat əldə etmək üçün həkimlərin illik tibbi müayinələrin nəticələrinə dair hesabatlarına baxmaq kifayətdir. [3, s.51]

Müasir həyatın bəzi mənfi amilləri də gənclərin sağlamlığına təsir edir:

– ətraf mühitin deqradasiyası;
– sosial bərabərsizlik;
– psixoloji və emosional yüklənmə;
– stress;
– fiziki hərəkətsizlik;
– psixi inkişafı ləngidən sonsuz kompüter oyunları;
– asılılığa çevrilən pis vərdişlər: siqaret çəkmək və spirt içmək.

Yüklənmədən asılı olaraq ürək döyüntüsü (Cədvəl 3)

Ürək döyüntüsü, döyüntü/dəq	yüklənmə
100-110	qənaətbəxş
110-120	orta
120-130	ortalamadan yuxarı
140-160	yüksək
160 və daha çox	çox yüksək

Minimal yüklənməli dairəvi yürüşlər üçün özəl düşərgələrin yaradılması yaxşı olardı. Əsas marşrutdan savayı, iştirakçıların xəstələnməsi, hava şəraitinin pisləşməsini, çay daşqınları, qar uçqunu təhlükəsinin yüksəlməsi şəraiti üçün əlavə, daha yüngül olan ehtiyat variantının olması vacibdir.

Piyada turizm yürüşləri təhlükəsiz və məntiqə uyğun olmalıdır. Bu və ya digər maneələrin süni şəkildə yaradılması, yolun həddən artıq çətin olması turistləri qane etməyə bilər və bəzi xoşagəlməz səbəblər yarana bilər.

Piyada turist yürüşləri üçün öncədən mütləq təqvim planı tutulmalıdır. Təqvim planı hərəkət cədvəli və gündəlik çeşidlərin hesabı; yolun çətinliyindən, qrup iştirakçılarının fiziki və texniki hazırlığının səviyyəsindən, çantaların çəkisindən, həmçinin ziyarəti üçün dayanmağa ehtiyac duyulan bu və ya digər ekskursiya obyektlərindən asılıdır.

Piyada turizmdə turistlər gün ərzində təxminən 15-25 km məsafə qət edirlər. Əgər çanta ağırdırsa (əsasən də yürüşün ilk günlərində) və ya marşrut təbii maneələrdə olan kəsişən ərazidən keçirsə, həmçinin, qrupda zəif hazırlıqlı yeni turistlər varsa, gündəlik keçid normasını 12-18 km-ə qədər azaltmaq lazmdır.

Yüklənmə əhvalı aramla artmalıdır. Belə ki, 1-2-ci çətinlik dərəcəli yürüşlərdə gediş məsafəsi, gün üzrə 15, 18, 20, 22 km bir gün istirahətdən sonra isə 22, 25, 25, 18 km ola bilər.

Marşrutun profilin çətin olması zamanı ikinci və üçüncü günlər daha çətin olur. Buna görə də, ilk 3 gün ərzində kilometrajı artırmamaq, istirahət gününü isə səyahətin dördüncü günü təşkil etmək məsləhətdir [2, s.30].

Ədəbiyyat

1. Cumazadə E.R. Azərbaycanda yeni idman dağ-piyada turist marşrutlarının tədbiqi. Magistr dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2022.
2. Məmmədov T.M. Çoxgünlük dağ-piyada idman yürüşlərində idmançı turistlərin iş görmə qabiliyyətinin göstəricilərinin dəyişilməsinin tədqiqi. Magistr dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2013.
3. Спирин, В.К. Углубленное изучение одного вида спорта как вектор развития учебного предмета «Физическая культура»/В.К.Спирин//Физическая культура в школе. М., 2014. № 4. с.2-4.

Е.Р.Джумазаде, С.М.Аскеров

О значении пеших туристических походов в физическом воспитании молодежи

Резюме

В статье говорится о важной роли пешего туризма в здоровье молодежи и даются краткие сведения о влиянии на их физические возможности. При этом обсуждается составление календарного плана пешеходных туристических маршей, организация графика движения по календарному плану и организация ежедневного пешеходного туристического марша. Далее в статье особо отмечается роль молодежи в духовном и физическом становлении походов спортивного туризма. Также было показано, насколько важен пешеходный туризм в жизни молодежи.

E.R.Jumazade, S.M.Asgerov

On the importance of walking tourism marches in the physical training of young people

Summary

The article talks about the important role of pedestrian tourism in the health of young people and gives brief information about the impact on their physical capabilities. At the same time, it is discussed to make a calendar plan for pedestrian tourism marches, to organize a movement schedule according to the calendar plan and to organize a daily pedestrian tourism march. Later, the role of young people in the spiritual and physical formation of sports tourism marches is specially mentioned in the article. It has also been shown how important pedestrian tourism is in the lives of young people.

Rəyçi: ped.f.d., dos. Y.B.Səmədov

Redaksiyaya daxil olub: 13.05.2023

N.M.ƏBDÜLRƏHİMOVA
e-mail: nushaba.azizova@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ MÜASİR İKT VASİTƏSİLƏ TƏLƏBƏLƏRİN DİSKURSİV BACARIQLARININ İNKİŞAFI

Açar sözlər: *diskurs, diskursiv bacarıqlar, ekstralinqvistik, koherentlik, koqeziya*
Ключевые слова: *дискурс, дискурсивные умения, экстралингвистический, когерентность,когезия*
Key words: *discourse, discursive skills, extralinguistic, cohesion, coherence*

Xarici dillərin tədrisi zamanı innovativ metod və vasitələrin istifadə olunması əsasən, müasir informasiya-kommunikasiya texnologiyalarından yararlanmağı tələb edir. Bu prosesdə İKT vasitələrinin didaktik prinsiplər üzrə sistematik və planlı şəkildə tətbiq olunması tələbələrin xarici dil bacarıqlarını nəzərəçarpacaq dərəcədə təkmilləşdirir. Ən əsas məsələ isə kommunikativ səriştənin əsas komponentlərindən sayılan diskursiv bacarıqların inkişaf etdirilməsi imkanlarının müxtəlif multimediya, tətbiqi proqramlar, onlayn və oflayn audio-video materiallar və s. vasitəsilə reallaşmasıdır. Bu zaman diqqətimizi iki sual çəkir: diskursiv bacarıqlar nədir və bu bacarıqlar İKT-nin tətbiqi ilə hansı istiqamətlərdə inkişaf etdirilə bilər?

"Diskurs" kommunikasiya zamanı meydana çıxan və ekstralinqvistik xüsusiyyətləri ilə seçilən yazılı və ya şıfahi mətn anlayışıdır. Bu termin bəzən kommunikasiyanın özü ilə də eyniləşdirilir. Bundan çıxış edərək qeyd etməliyik ki, "diskursiv bacarıqlar" dedikdə, ünsiyyət zamanı mövzuya uyğun olaraq mətnin yaradılması və interpretasiyası, daha dəqiq desək, fikirlərin kontekstdaxili ifadə olunaraq mətnə keçməsi və mətnin oxunaraq, yaxud dinlənilərək təhlil olunması bacarıqlarını nəzərdə tutur. Gördüyümüz kimi, diskurs mətndən daha geniş anlayış olduğuna görə diskursiv bacarıqlar da mətnyaratma bacarıqlarından daha mürəkkəb və məzmunlu xarakter daşıyır. İKT vasitələrinin roluna gəldikdə isə, qeyd etmək yerinə düşər ki, internet mühiti və multimediya vasitələri istər yazılı, istərsə də şifahi diskursiv bacarıqların inkişafını sürətləndirir. Xüsusilə, virtual platformada autentik mətnlərin və elektron çalışmaların təqdim olunması tələbələrdə diskursiv bacarıqların hər dörd (oxu, yazı, danışma və eşidib anlama) istiqamət üzrə təkmilləşməsinə kömək edir.

Diskursiv bacarıqlar linqvistik və ekstrakinqvistik xüsusiyyətləri birləşdirərək kommunikasiya zamanı *spontan* və *hazırlanmış* mətnlərin meydana çıxmasına xidmət edir. Hər iki halda meydana çıxan diskurs kommunikativ-koqnitiv strukturların reallaşmasını nəzərdə tutur. Koqnitiv struktura "freymlər", yəni sosial-mədəni informasiya (tipik situasiyalar, stereotiplər) daşıyıcıları aiddir. "Freym" termini müəyyən konsept ətrafında toplanmış və əsas məlumatı özündə daşıyan vahid kimi başa düşülür. Bu səbəbdən, diskursiv bacarıqlar inkişaf etdirilərkən koqnitiv-kommunikativ yanaşma diqqəti cəlb edir. Bu yanaşmaya görə elə didaktik şərait yaradılmalıdır ki, tədrisin reproduktiv modelinin təşkilindən problem həllinə yönəlmiş modelə keçilsin. Daha dəqiq desək, konkret situasiyalarda meydana çıxan kommunikativ aktlar, dil mədəniyyətindən irəli gələn aspektlər və mədəniyyətlərarası kompetensiyalar diskurs çərçivəsində həyata keçirilərsə, daha məqsədəuyğun olar [1, s.75]**.** Bu məqsədə çatmaq üçün müasir İKT vasitəsi ilə autentik mətnlərin təqdim olunması münasib vasitələrdəndir.

Diskursiv bacarıqların inkişafından bəhs edərkən diskursun növləri və üslubu kimi linqvistik anlayışlar nəzərə çarpır. İKT vasitələrindən yararlanaraq tələbələrin kommuniaktiv səriştəsini təkmilləşdirmək üçün bu aspektlərin nəzərə alınması müsbət nəticələr verir. Belə ki, fərqli situasiyalardan və kommunikativ məqsəddən asılı olaraq diskursun növləri müxtəlif ola bilər. Hər bir növ özünəməxsus leksikonla fərqləndiyinə görə, bu məsələ tələbələrin diqqətinə

çatdırılmalıdır. Buna görə, ingilis dili dərslərində proqrama uyğun olaraq müxtəlif tipli diskursiv bacarıqlar inkişaf etdirilməli və münasib linqvistik bilikləri kommunikativ sərişləyə çevirən multimediya vasitələrindən istifadə olunmalıdır.

Qeyd etmək yerinə düşər ki, müxtəlif araşdırmalara əsasən, diskursun müxtəlif növləri müəyyən edilmişdir. Bir çox təhlillərdə ortaq və fərqli linqvistik cəhətləri ilə yadda qalan beş növ diskurs göstərilmişdir: hekayə, təsvir, hesabat, informativ və arqumentativ [3, s. 8]. Tələbələrin diskursiv bacarıqları inkişaf etdirilərkən müxtəlif diskurs növlərinin nəzərə alınması vacibdir. Belə ki, hər bir növ özünəməxsus linqvistik əsaslarla seçildiyindən tələbələrin bu əsasları mənimsəmələri məqsədəuyğundur. Ortaq linqvistik cəhətlərin nəzərə alınması isə tələbələrin bütün diskurs növlərində müvəffəqiyyətlə çıxış etmələrinə şərait yaradır. Bu baxımdan informasiya-kommunikasiya texnologiyalarının yaratdığı imkanlar tələbələrin bütün diskurs növləri ilə tanış olmalarına kömək edir. Bunun nəticəsində tələbələr oxuduqlaqrı və ya dinlədikləri mətnin janr, üslub və s. kimi linqvistik və ekstralinqvistik cəhətlərini daha səmərəli şəkildə mənimsəyirlər.

İKT vasitələrinin diskursiv bacarıqlara həm ayrı-ayrılıqda, həm də kompleks şəkildə müsbət təsir etməsi tələbələr üçün böyük əhəmiyyət daşıyan məsələlərdəndir. Belə ki, məsələn, Youtube platformasında izlənilən canlı videomaterial eyni zamanda altyazıların qoşulması funksiyasını da təmin edir. Bu isə iki reseptiv bacarığın (dinləmə və oxuma) bir vaxtda reallaşmasına zəmin yaradır. Nəzərə alsaq ki, video material tələbələrin maraq dairələrinə uyğun seçilir deməli, bu bacarıqlar motivasiyaedici və stimullaşdırıcı mühitdə həyata keçir.

Müasir İKT-nin tələbələrin diskursiv bacarıqlarına təsiri istiqamətlərindən danışarkən koherentlik və koqeziya xüsusiyyətlərinin mühümlüyünü qeyd etməyə bilmərik. Bu xüsusiyyətlər diskursun fundamental cəhətlərindən sayıldığına görə tələbələrin kommunikativ aktlarında nəzərə alınmalı məsələlərdəndir. Mətni yaradarkən cümlələr və abzaslar arasında semantik kollokasiyalar təmin olunması məhz koherentlik şərtlərinə əməl olunması bacarığı ilə əlaqədardır. Mətn elementləri arasında qrammatik və leksik münasibətlərin düzgün qurulması üçün isə koqeziya prinsiplərinin olması vacibdir.

Koqeziyaya düzgün riayət etmək dil bacarıqlarından asılıdır. Bu baxımdan, M.Halidey və R.Həsən koqeziya əlaqələrini qrammatik (bağlayıcılar, istinadlar, əvəzləmələr, ellipslər) və leksik (təkrarlar) bağların vəhdəti kimi təhlil etmişlər. [2, s.11]. Diskursun koherentlik prinsipinin təmin olunması onun düzgün koqeziya xüsusiyyətlərinin də olduğuna dəlalət etdiyi halda, koqeziyanın olması hələ koherentliliyin olması demək deyil. Buna görə İKT vasitələri ilə tələbələrin diskursiv bacarıqları formalaşdırılarkən bu məqamlar xüsusilə nəzərə alınmalıdır.

Araşdırmalarımıza əsasən, həm yazılı, həm də şifahi mətnin meydana çıxmasına xidmət edən və İKT vasitəsilə formalaşdırılan diskursiv bacarıqların istiqamətini aşağıdakı kimi ümumiləşdirə bilərik:

– Xarici dildə şifahi və yazılı diskursun yaranması və interpretasiyası üçün leksik resurslardan istifadə etmə bacarıqları;

– Mətnin yaradılması və interpretasiyası üçün üslubi vasitələrdən və janr növlərindən istifadə etmə bacarığı;

– Bir-biri ilə uzlaşan və ardıcıllığı olan vahid məzmunlu cümlələri qurma bacarığı;

– Xarici dildə məntiqi əsası olan və mətnin mövzusuna uyğun gələn cümlələri qurma bacarığı;

– Xarici dilə məxsus olan linqvistik vasitələrlə şəxsi fikri bildirmək və əsaslandırmaq bacarığı;

– Diskursun və ya mətnin meydana çıxması üçün planqurma bacarığI;

– Müəyyən mətndə göstərilən faktları anlamaq və izah etmək bacarığı;

– Ünsiyyətin məqsəd və motivlərini anlamaq bacarığı;

– Mövzuya və xarici dil mühitinə uyğun olan sosiomədəni xüsusiyyətləri anlamaq və əks etdirmək bacarığı;

– Tarixi-mədəni konteksti nəzərə almaq bacarığı;

– Mətnin gedişatını proqnozlaşdırmaq bacarığı;

– Vəziyyət tələb edərsə, şifahi və ya yazılı mətnin hissələrə bölünməsi, yaxud klassifikasiya olunması bacarığı;

– Diskursun meydana çıxması üçün koherentlik və koqeziya kimi xüsusiyyətlərin gözlənilməsi bacarığı;

– Mətndəki problemin müəyyən olunması, əsas və köməkçi informasiyanın müəyyənləşdirilməsi və s.

Beləliklə, gördüyümüz kimi, müasir İKT vasitəsilə tələbələrdə diskursiv bacarıqların inkişaf etdirilməsi müxtəlif linqvistik və ekstralinqvistik istiqamətlərlə nəzərə çarpır. Müasir informasiya-kommunikasiya texnologiyaları ilə diskursiv bacarıqlar bütün istiqamətlərdə səmərəli şəkildə formalaşdırıla və təkmilləşdirilə bilər. Bunun üçün əsas məsələ diskursun aparıcı xüsusiyyətlərinin nəzərə alınması və tələbələrə aşılanmasıdır.

Ədəbiyyat

1. Федорова С.А. Интернет-дискурс в развитии компенсаторных умений студентов // «Тамбовский государственный университет им. Г.Р. Державина» Вестник ТГУ, выпуск 6 (134), 2014, с.75-79.
2. Navratilova O.D., Jančaříková R., Miššíková G., Povolná R., Coherence and Cohesion in English Discourse, Brno 2017, Masarykova univerzita, 155 s.
3. Smith C.S. University of Texas. Cambridge University press. Modes of discourse. The local structure of texts. The Edinburgh Building Cambridge, New York, USA, 2003, 318 p.

H.M.Abdulragimova

Развитие дискурсивных навыков студентов на занятиях английского языка с помощью современных ИКТ

Резюме

Систематическое и планомерное применение средств ИКТ на дидактических принципах значительно улучшает навыки владения английским языком студентами. Важнейшим вопросом является возможность развития дискурсивных умений, являющихся основными составляющими коммуникативной компетенции, посредством различных мультимедиа, прикладных программ, онлайн и офлайн аудио-видеоматериалов и т.д. Это реализуется через развитие дискурсивных умений у студентов посредством современных ИКТ в различных лингвистических и экстралингвистических направлениях. Благодаря современным информационно-коммуникационным технологиям можно эффективно формировать и совершенствовать дискурсивные навыки во всех направлениях. Главный вопрос – учесть ведущие черты дискурса и привить их студентам.

N.M.Abdulragimova

Development of students' discursive skills in English classes with the help of modern ICT

Summary

The systematic use of ICT on didactic principles significantly improves students' English language skills. The most important issue is the possibility of developing discursive skills, which are the main components of communicative competence, through various multimedia, application programs, online and offline audio-video materials, etc. It is realized through the development of students' discursive skills via modern ICT noticeably in various linguistic and extra linguistic factors.

Due to modern information and communication technologies, it is possible to form and improve discursive skills in all areas effectively. The main question is how to take into account the leading features of the discourse to be developed in teaching process.

Rəyçi: prof. D.Ə.İsmayılova

Redaksiyaya daxil olub: 27.03.2023

L.E.ƏBDÜRRƏHMANOVA
e-mail: elxanlale3@gmail.com

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

ŞAGİRDLƏRDƏ VALEOLOJİ BİLİKLƏRİN FORMALAŞDIRILMASINDA MÜƏLLİMİN FASİLİTASİYA BACARIĞININ İMKAN VƏ YOLLARI

Açar sözlər: *müəllimin fasilitasiya bacarığı, fəal təlim, valeoloji bilik, bələdçi müəllim*
Ключевые слова: *фасилитационные навыки учителя, активное обучение, валеологические знания, педагог-гид*
Key words: *teacher's facilitation skills, active learning, valeological knowledge, guide teacher*

Şagirdlərdə sağlam həyat tərzinin formalaşdırılmasında müəllimin fasilitasiya bacarıqları böyük əhəmiyyət kəsb edir. Valeoloji biliklərin şagirdlərə aşılanmasında daha məqsədəuyğun təlim strategiyalarından istifadə olunmalıdır.

Fəal təlim prosesində hər bir şagird müəllimin fasilitasiya bacarığı sayəsində sərbəst olaraq lazım olan bilikləri əldə etməyə, müstəqil fikir irəli sürməyə, daim biliyini həyata keçirməyə malik olan kamil tədqiqatçı kimi yetişdirilir.

Məqalədə insan sağlamlığı ilə əlaqədar şagirdlərdə valeoloji biliklərin formalaşdırılmasında müəllimin fasilitasiya bacarığının imkan və yolları göstərilir. Bundan əlavə, bələdçi müəllimin bütün dərs boyu şagirdlərin mövzu ilə əlaqədar fikirlərinə təşkilati dəstək verilməsi qaydaları müzakirə olunur.

Müasir təlim texnologiyalarını tətbiq etməklə təlimə tədqiqat xarakteri vermək və şagirdi təlimin əsas subyektinə çevirmək mümkün olur. Burada müəllim biliklərin əldə edilməsi yolunun bələdçisi, şagird isə tədqiqatçı, bilikləri əldə edən rolunu ifadə edir. [1]

Bələdçi müəllim tərəfindən şagirdlər üçün şüurlu sürətdə dərk olunan problemli vəziyyət yaradılır. O problemli vəziyyətin həll edilməsi prosesində şagirdlərin tədqiqat mövqeyini stimullaşdırır. Bələdçi müəllim şagirdlər tərəfindən yeni biliklərin sərbəst olaraq əldə olunması, açıqlanması, mənimsənilməsi və praktik tətbiqi üçün şərait yaradır.

Bələdçi müəllim fəal təlim prosesində qrup üzvlərinin vəzifələrini onlara anlatmalı, qruplarla iş qaydaları ilə onları tanış etməli, işini öyrətməli, xüsusilə, əməkdaşlığın əsaslarını deməli, liderlik rolunu xüsusi izah etməlidir.

Müəllim fasilitasiya bacarığı sayəsində zəif şagirdlərlə güclülər arasında yaranacaq ünsiyyəti və onların qarşılıqlı birgə işini təşkil etməyə çalışmalıdır.

Fəal dərsin aparılmasının ən mühüm amillərindən biri müəllimin bələdçi rolunu həyata keçirməyi bacarmasıdır. Fasilitasiya fəal (interaktiv) təlim prosesində müəllimin mövqeyini əks etdirir.

Fasilitasiya özü çoxşaxəli bir fəaliyyətdir və özündə bir sıra bilik, bacarıq, vərdiş və şəxsi keyfiyyətləri birləşdirir. Bu prosesdə bələdçi müəllim şagirdlərə psixoloji informasiya və təşkilati dəstək verməli, onların fikri fəallığını artırmalıdır.

Kurrikulumun əsas prinsiplərindən biri təlimdə inteqrativliyin təmin edilməsidir. Şagirdlərin dərsdə əldə etdikləri bilik və bacarıqlar həyatla əlaqələndirilməli, əhəmiyyətinin vurğulanması zəruridir. Biologiya fənninin "İnsan və onun sağlamlığı" məzmun xətti üzrə şagirdlərə aşılanan bilik və bacarıqlar onların gündəlik həyatlarında özünü doğrultmalıdır. Bu sahə ilə pedaqoji valeologiya elmi məşğul olur.

Şagirdlərə valeoloji biliklərin verilməsində müəllimlər, məktəb kollektivi və valideynlər birlikdə fəaliyyət göstərməli, şagirdlərin fiziki və psixi sağlamlığının qorunmasına çalışmalıdırlar. Müəllimin əsas vəzifəsi şagirdlərin irsi ehtiyyatlarından istifadə edərək, onlarda mühit

şəraitinə uyğunlaşmanı təmin etmək, şagirdlərdə sağlamlıq mədəniyyətini formalaşdırmaqdır. Müəllim fasilitasiya bacarıqlarına əsaslanaraq, dərsin planını valeoloji bacarıqların formalaşdırılması yönündə aparmalı, təlimin strategiyalarını (metod, vasitə, üsul) ona görə seçməlidir.

Sağlam həyat tərzini şagirdlərə aşılamaq üçün, ilk növbədə, motivasiyanın yaranması vacib nüansdır. Şagird sağlamlığın mahiyyətini bilməli, onda müəyyən dəyərlər yaradılmalıdır. Müəllimin özü şagirdlər üçün sağlamlıq, iradəlilik nümunəsi olmalı, şagirdlərlə birlikdə müəllimdə özünün həyat tərzini təkmilləşdirməlidir. Həmçinin müəllim-valideyn əlaqələrinin gücləndirilməsi gərəkdir.[2]

Fəal təlimdə müəllimin valeoloji biliklərin mənimsənilməsi üçün müzakirə, debatlar, BİBÖ, əyləncəli yarışlar, layihə və s. metodlardan istifadəsi məqsədəuyğundur. Şagirdlərə müəyyən mövzuların, tədris vahidinin sonunda aşağıdakı başlıqlarda esse yazmaq tapşırıla bilər:

1. Qaynamış, yoxsa çiy su içmək daha məqsədəuyğundur?
2. Süd, yoxsa süd məhsulları?
3. Diş pastası alarkən daha yaxşısını necə seçək?
4. Soyuqda ayaqyalın gəzmək niyə sağlamlığımıza ziyandır?
5. Su orqanizm üçün niyə bu qədər önəmlidir?
6. Lifli qidaların insan orqanizminə təsiri
7. Qan damarlarımızı necə təmiz saxlayaq?

Şagirdlərdə sağlam həyat tərzinin formalaşdırılmasında müəllimin fasilitasiya bacarıqları əhəmiyyət kəsb edir. Valeoloji biliklərin şagirdlərə aşılanmasında daha məqsədəuyğun təlim strategiyalarından istifadə olunmalıdır.

Fəal təlim prosesində bələdçi müəllim insan sağlamlığına dair valeoloji biliklərin məlumat mübadiləsində və məlumatların müzakirəsində hər bir şagird digər şagirdin işinə, fikrinə münasibət göstərmələrinə imkan yaratmalıdır. Bu zaman müəllim şagirdlərin başlıca fikirlərini birlikdə təhlil edib, məsuliyyətlərini uşaqların nəzərinə çatdırmalıdır.

Fasilitator şagirdlərdə valeoloji biliklərin formalaşdırılmasına dair mövzunun öyrədilməsi prosesində onları psixoloji cəhətdən dəstəkləməlidir. Bələdçi müəllim bunun üçün şagirdlərlə münasibətdə müsbət dil ifadələrindən istifadə etməklə, müzakirələrdə və qrup işində iştirak etmələrinə görə şagirdlərə öz minnətdarlığını bildirməlidir.

Fasilitator mövzu ilə əlaqədar şagirdlərlə birlikdə işləyib hazırlanan qaydalara riayət etməlidir. Bu zaman müəllim şagirdlərə adları ilə müraciət etməli və diqqətini şagirdə yönəltməlidir.

Fəal təlim prosesində bələdçi müəllim insan sağlamlığına dair valeoloji bilikləri daha dərindən şagirdlərə öyrətmək üçün konstruktivliyi dəstəkləməli və qarşıdurmaya şərait yaratmalıdır.

Fasilitator şagirdlərin liderlərinin və ən fəallarının deyil, bütövlükdə şagirdlərin nöqteyinəzərinə eyni dərəcədə diqqətlə yanaşmalıdır.

Fəal təlim prosesində şagirdlərin biliyinin qiymətləndirilməsində fasilitator müəllim diqqətli və obyektiv olmalıdır. Müəllimin verdiyi qiymət onun şəxsi fikrini əks etdirməməlidir. Bu, fasilitasiya üçün bir vasitə olmalıdır. Bələdçi müəllim şagirdlərin fikirləri ilə razılaşmadıqda, bunu onlarla birlikdə müzakirə etməyi təklif etməlidir. Müəllim özü qiymətləndirmə apardıqda isə bunu meyarlar əsasında etməlidir. [3]

Şagirdlərin psixoloji sağlamlığı onların ailədə, məktəbdə və digər şəxslərlə münasibətində özünü büruzə verir. Müəllim kurrikulum prinsipinə uyğun olaraq sinifdə sağlam psixoloji mühit yaratmalı, şagirdlər arasında münasibətləri tənzimləməlidir. Şagirdlərdə mənəvi rifahın formalaşması üçün yalan danışmağın insan mənəviyyatında yaratdığı narahatlığı, şagirdlərdə özünütərbiyə, özünüdərk proseslərini formalaşdırmaq səmərəli nəticə verir.

Müəllim valeoloji biliklərə dair mövzunun qavranılmasını müxtəlif üsullar (eşitmə, görmə, toxunma, duyma və s.) tətbiq etməklə şagirdə öyrətməlidir. Fasilitator mövzu ilə əlaqədar sual və cavabları qabaqcadan qısa, lakonik və şagirdlərin səviyyəsinə uyğun hazırlanmalıdır.

Müəllim bütün dərs ərzində mövzu ilə əlaqədar valeoloji biliklərin formalaşdırılması zamanı mövcud problemin həlli yolunda əldə etdikləri nailiyyətlər haqqında məlumatı və əks əlaqəni verməyi unutmamalıdır.

Bələdçi müəllim bütün dərs boyu şagirdlərin mövzu ilə əlaqədar fikirlərinə təşkilati dəstək verməyi bacarmalıdır.

Müəllim insan sağlamlığı ilə əlaqədar valeoloji biliklərə dair diskusiyanı təşkil etdikdə, hər bir şagird hiss etməlidir ki, onun fikri və rəyi yeni biliklərin aşkara çıxarılmasında nəzərə alınmışdır. Bunun üçün fasilitator müəllim şagirdlərə düşündürücü suallar verməklə onları müzakirəyə cəlb etməlidir.

Müəllimin lövhədə və kağız üzərində keçirilən mövzu ilə əlaqədar qeydlərinin aparılması məqsədəuyəundur. Müəllim və şagirdlər məlumatın müzakirəsi və təşkili prosesində həmin qeydlərdən istifadə edəcəklər.

Müəllim bütün dərs prosesində şagirdlərin diqqətini özünə cəlb etməyi bacarmalı və onların diskusiyada fəal iştirakını təmin etməlidir.

Məqalənin aktuallığı. Biologiya fənninin "İnsan və onun sağlamlığı" məzmun xətti üzrə şagirdlərə aşılanan valeoloji bilik və bacarıqlar onların həyat fəaliyyətində böyük əhəmiyyət kəsb edir.Valeoloji bilik, bacarıqlar və vərdişlərin formalaşmasında müəllimin fasilitasiya bacarığının rolu əvəzsizdir.

Mövzunun yeniliyi. Məqalədə ilk dəfə olaraq, aparılmış tədqiqat nəticəsində insan sağlamlığına dair valeoloji biliklərin biologiya ilə əlaqəli tədrisinin təşkili, imkan və yolları araşdırılmış, təhlil edilmiş və elmi nəticələr əldə olunmuşdur.

Məqalənin praktik əhəmiyyəti. Biologiyanın tədrisi ilə əlaqədar insan sağlamlığına dair valeoloji biliklərdən tədris prosesində istifadə etməklə təlimin keyfiyyətini yaxşılaşdırmaq mümkündür.

Ədəbiyyat

1. Sultanov R.L.Valeologiyanın digər elmlərlə əlaqəsi və onun fənlərarası və fəndaxili inteqrasiyadan istifadə imkanları. Naxçıvan Müəllimlər İnstitunun elmi əsərləri, Naxçıvan, 2021, № 2.
2. Sultanov R.L.Valeoloji təhsilin keyfiyyətinin yüksəldilməsində müəllimin pedaqoji ustalığının rolu. Gəncə Dövlət Universitetinin elmi əsərləri. Gəncə, 2021, №1, – s. 63-66.
3. Sultanov R.L. Pedaqoji valeologiyada təhsilalanların sağlamlığının formalaşdırılması yolları, Naxçıvan Müəllimlər İnstitutunun Elmi əsərləri, 2020, № (59), – s. 4-12.

Л.Э.Абдуррахманова

Возможности и пути фасилитационных навыков учителя в формировании валеологических знаний у студентов

Резюме

Большое значение в формировании здорового образа жизни у студентов имеют фасилитационные навыки преподавателя для привития валеологических знаний учащимся следует использовать более адекватные стратегии обучения.

В процессе активного обучения каждый студент воспитывается как совершенный исследователь, который может свободно приобретать необходимые знания, выдвигать независимое мнение и постоянно реализовывать свои знания благодаря фасилитационным навыкам преподавателя.

В статье показаны возможности и пути фасилитационных навыков учителя в формировании у учащихся валеологических знаний о здоровье человека, кроме того, рассмотрены правила оказания организационной поддержки представлений учащихся по теме на протяжении всего урока.

L.E.Abdurrahmanova

Possibilities and ways of the teacher's facilitation skills in the formation of valeological knowledge in students

Summary

Facilitating skills of the teacher are of great importance in the formation of a healthy lifestyle among students; more adequate learning strategies should be used to instill valeological knowledge in students.

In the process of active learning, each student is brought up as a perfect researcher who can freely acquire the necessary knowledge, put forward an independent opinion and constantly implement their knowledge thanks to the facilitative skills of the teacher.

The article shows the possibilities and ways of the teacher's facilitation skills in the formation of students' valeological knowledge about human health, in addition, the rules for providing organizational support to students' ideas on the topic throughout the lesson are considered.

Rəyçilər: b.e.d, prof. R.Sultanov,
ped.f.d, dos. A.X.Hacıyev

Redaksiyaya daxil olub: 10.05.2023

L.İ.ƏLİYEVA

Naxçıvan MR, Babək şəhəri 1 saylı tam orta məktəb
(Babək şəh., Heydər Əliyev pr.)

60-70-CI İLLƏRDƏ AZƏRBAYCANDA XALQ PEDAQOGİKASININ TƏDQİQİ

Açar sözlər: *Azərbaycanda xalq, pedaqogikanın tədqiqi, XX əsrdə Azərbaycanda maarifçilik, maarifçilik tarixi*
Ключевые слова: *население в Азербайджане, исследования педагогии, просвещение в Азербайджане в XX веке, история просвещения*
Key words: *The people in Azerbaijan, Research of pedagogy, enlightenment in Azerbaijan in the xx century, history of enlightenment*

Azərbaycanda aparılan tədqiqatların əsas istiqamətlərindən biri xalq pedaqogikasının mahiyyətinin üzə çıxarılması ilə bağlı olmuşdur. Bu da təsadüfi deyildi. Xalq yaradıcılığı nümunələri digər xalqlarda olduğu kimi, Azərbaycan xalq pedaqogikasının da ilk müjdəçisidir. Konstantin Dimitriyeviç Uşinski deyirdi: "Xalq pedaqoji dühası ilə heç nə yarışa bilməz". Əhməd Seyidovun təbirincə isə desək, nağıllar, atalar sözləri və s. digər xalqlarda olduğu kimi, Azərbaycan xalqının da hər şeydən əvvəl ilk pedaqoji məhsulu olmuşdur [1, s.56].

Gənc nəsildə mərdlik, mübarizlik, insanpərvərlik, vətənpərvərlik, dostluq, yoldaşlıq, sadəlik, təvazökarlıq, dözümlülük, düşüncəli olmaq, prinsipiallıq, doğruçuluq, elmə və biliyə həvəs və s. kimi nəcib əxlaqi keyfiyyətlər tərbiyə etmiş və etməkdə olan xalq pedaqogikasını Əliheydər Həşimov tədqiq etmişdir. Azərbaycanda xalq pedaqogikasının tədqiqi, təbliği və elmi əsaslarla tədrisi sahəsində tam bir məktəb yaratmış Əliheydər Həşimov keçmiş SSRİ məkanında xalq pedaqogikasının ilk tədqiqatçılarından biri, Azərbaycanda isə birincisidir, "bu sahənin ilk sıravisi, həm də ilk generalıdır" (Hüseyn Əhmədov). O, pedaqoji fikrin ilk va-lideyni zəhmətkeş xalqın və onun kollektiv zəkasının, bədii təfəkkürünün məhsulu olan tərbiyə haqqında görüşlərini, pedaqogika tarixində xalqın rolunu, folklor materiallarındakı tərbiyəvi motivləri geniş və hərtərəfli araşdırmış, namizədlik və doktorluq dissertasiyaları müdafiə etmiş, sanballı monoqrafiya nəşr etdirmişdir.

Əliheydər Həşimov "Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri" adlı monoqrafiyasında xalq pedaqogikasının mənbələrini çox qədimlərdə, ulu babalarımızın təcrübəsində və öz ifadəsini xalq yaradıcılığının nağıllar, atalar sözləri, bayatılar, mahnılar, lətifələr, dastanlar və s. bu kimi sahələrində axtarmış, onların bu gün də öz tərbiyəvi əhəmiyyətini saxlayanlarını cilalayıb üzə çıxarmış, seçib qruplaşdırmışdır. O, xalq yaradıcılığını pedaqoji fikrin təməl daşları, ilk etibarlı mənbəyi kimi xarakterizə etmiş, xalqın şərəfi, ləyaqəti və zəkası sayılan el ədəbiyyatını, folkloru xalqın mənəvi simasının təməlini qoyan amil kimi təhlilə cəlb etmiş, folklor materiallarını xalq pedaqogikasının qiymətli incisi və milyonların tərbiyə məktəbi kimi araşdırmışdır. O, haqlı olaraq tərbiyəni insanın ictimai əmək fəaliyyəti ilə bağlayır, bəşəriyyətin praktiki tələbatından asılı olan və cəmiyyətin inkişafına təsir göstərən mühüm vasitə kimi qiymətləndirir.

Əsrlərin təcrübəsi ilə sınaqdan çıxan və daim yeniləşən, təkmilləşən tərbiyə nəzəriyyəsi pedaqoji elmin əsas istiqamətini təşkil edir. Tədqiqatçı xalq pedaqogikasının ümumi əsaslarını və xüsusiyyətlərini xalq yaradıcılığından gətirdiyi çoxlu faktlar əsasında elmi cəhətdən izah edir. O, həmçinin professional (akademik) pedaqogika ilə xalq pedaqogikası arasındakı yaxınlığı, uyğunluğu, ümumi və fərqli cəhətləri də elmi faktlarla açıb göstərir. Belə qənaətə gəlir ki, Azərbaycan xalq pedaqogikasının fəlsəfi əsaslarını sadədil realizm, kortəbii materializm səciyyəsində olan xalq fəlsəfəsi təşkil edir. Tədqiqatçı xalq yaradıcılığındakı qiymətli pedaqoji fikirlərin yazılı ədəbiyyata, klassik yazıçı və şairlərimizə qüvvətli təsir göstərməsindən də yeri gəldikcə bəhs edir, bir sıra maraqlı müqayisələr aparır, ən qüdrətli sənətkarlarınbelə istedadı-

nın parlamasında xalq yaradıcılığının rolundan söhbət açır. Onun fikrincə, təlim-tərbiyəni demokratikləşdirmənin, humanistləşdirmənin, məzmunca zənginləşdirməyin və xəlqiləşdirməyin ən mühüm yollarından biri onu xalq pedaqogikası zəminində qurmaqdır. Onun "Azərbaycan şifahi xalq ədəbiyyatında tərbiyəvi fikirlər" (1958), "Azərbaycan xalq pedaqogikasından mühazirələr" (1967), "Azəri xalq pedaqogikasının ümumi əsasları və xüsusiyyətləri" (1968), "Azərbaycan xalq pedaqogikasından iki mühazirə" (1969), "Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri" (1970), "Xalq pedaqogikasında tərbiyənin üsul və vasitələri" (1980), "Azərbaycan xalq pedaqogikasının əsasları" (1985), "Pedaqogika kursunun tədrisində xalq hikmətlərindən istifadə" (1991) adlı əsərləri və silsilə məqalələri Azərbaycan xalq pedaqogikasının tədqiqinin elmi istiqamət kimi formalaşdırılmasında mühüm rol oynamışdır.

"Xalq pedaqogikası elmi pedaqogikanın beşiyi başında duran ulu babası, eyni zamanda "qızıl fondu", tədqiqat sahəsi, öyrənmə mənbəyi və müasir rəfiqidir; şifahi xalq yaradıcılığı kamal dünyası, müdriklik çeşməsi, milyonların tərbiyə məktəbidir" – kimi fikirlər Əliheydər Həşimovun yaradıcılığının məğzini təşkil edir. Alimin bu sahədəki xidmətlərini yüksək qiymətləndirən Hüseyn Əhmədov onun vəfatından az sonra yazırdı: "Azərbaycan ədəbiyyatşünaslığında Firidun Köçərli, Salman Mümtaz kimdirsə, Azərbaycan folklorşünaslığında Əhliman Axundov, Məmmədhüseyn Təhmasib kimdirsə, Azərbaycan xalq pedaqogikasının tədqiqində də professor Əliheydər Həşimov o kəsdir. Biz onun tədqiqatlarını mənimsədikdə, xalq yaradıcılığına, nağıllara, dastanlara, bayatılara, deyimlərə, tapmacalara daha diqqətlə yanaşırıq. Min illərlə xalq təfəkküründən süzülüb gələn, əsrlərin o tayından babaların ünü kimi bizə çatan çoxsahəli, çoxşaxəli el-ağız ədəbiyyatını saf-çürük eləmək, orada çox müdrikliklə ifadə edilmiş tərbiyə notları görmək, açıqlamaq, tədqiqat obyektinə çevirmək professor Əliheydər Həşimov qələminə məxsusdur". Bu müqtədir alim haqqında yetirməsi Fərahim Sadiqovun da fikirləri maraq doğurur. O yazır: "Faradey, Nyuton, Kopernik fizika, Tusi, Qaliley astronomiya, İbn Sina, Bəhmənyar, Kant, Yum fəlsəfə, Qalua, Lütfizadə riyaziyyat, Mendeleyev, Yusif Məmmədəliyev kimya, Bax, Bethoven, Üzeyir Hacıbəyov musiqi sahəsində hansı zirvəyə ucalmışlarsa, Əliheydər Həşimov da xalq pedaqogikası və elmi pedaqogika sahəsində elə bir zirvəyə yüksəlmişdir".

Azərbaycan xalq pedaqogikası ilə bağlı tədqiqatlarında Əliheydər Həşimov özünü sadəcə bir tədqiqatçı, təsnifatçı, faktları təhlil edən, sistemləşdirən, müqayisələr yolu ilə müstəqil elmi mülahizələr söyləməyi məqsəd bilən pedaqogika tarixçisi kimi göstərməmiş, həm də nəzəriyyəçi alim kimi çıxış etmişdir [3, s.98].

60-cı illərdə onun tədqiqatlarının təsiri ilə yeni araşdırmalar meydana gəldi. Abbas İsmayılovun şifahi xalq ədəbiyyatında tərbiyə məsələlərinin elmi izahına həsr olunmuş əsərində dahi el sənətkarı Aşıq Ələsgərin yaradıcılığının gənc nəslin tərbiyəsindəki mövqeyi təhlil olundu. Azərbaycan xalqının ana kitabı olan "Kitabi-Dədə Qorqud" dastanında böyüyən nəslin fiziki və hərbi vətənpərvərlik tərbiyəsi, qadın və estetika məsələləri araşdırıldı. "Kitabi-Dədə Qorqud" dastanının pedaqoji siqlətinin üzə çıxarılmasına həsr olunmuş bu ilk məqalələr tədqiqatdan daha çox təqdimat xarakteri daşıyır.

70-ci illərdə Azərbaycan pedaqoji fikrinin inkişaf mərhələləri, ayrı-ayrı mütəfəkkirlərin, məktəbdarların, pedaqoji fikir klassiklərinin təhsil-tərbiyə ilə bağlı ideyaları, xalq pedaqogikasının mühüm problemləri tədqiq edildi, dissertasiyalar müdafiə olundu, monoqrafiyalar nəşr edildi, bir sıra görkəmli şəxsiyyətlərin – klasik pedaqoqların, tanınmış maarifçilərin, mütəfəkkirlərin pedaqoji ideyalarının tədqiqinə həsr olunmuş dissertasiyalar müdafiə olundu, monoqrafiyalar hazırlandı, xeyli elmi məqalələr yazıldı. Əjdər Ağayev Fərhad Ağazadənin, İbrahim Mollayev Məmməd Tağı Sidqinin, İramin İsayev Abbas Səhhətin, Sevinc Əzimova Firidun bəy Köçərlinin, Ədalət Cəlilov Süleyman Sani Axundovun, Mustafa Rəhimov Səməd Vurğunun xalq maarifi, məktəb təhsili, təlim-tərbiyə sahəsindəki xidmətlərini, Mircəfər Həsənov isə XX əsrin 20-ci illərində Azərbaycanda nəşr olunan pedaqoji mətbuatda təlim-tərbiyə məsələlərini araşdırdılar.

80-ci illərdə də bu tendensiya davam etdirildi, Azərbaycan pedaqoji fikrinin müxtəlif problemləri namizədlik və doktorluq dissertasiyalarının predmetinə çevrildi, Vidadi Bəşirov XIX əsrin II yarısında Azərbaycan pedaqoji fikrinin inkişafına rus mütərəqqi ideyalarının təsirini, Vahid Rzayev XIX əsrdə və XX əsrin əvvəllərində Zaqafqaziya xalqlarının pedaqoji əlaqələrini, Vəzirxan Zərbəliyev Azərbaycan bolşevik mətbuatının xalq maarifinin demokratikləşdirilməsi uğrunda mübarizəsini, Zenfira Mehdizadə Aleksey Osipoviç Çernyayevskinin, Bəhruz Mahmud bəy Mahmudbəyovun, Sahilə Orucova Üzeyir Hacıbəyovun, Zenfira Mehrəliyeva Cəlil Məmmədquluzadənin pedaqoji fəaliyyətini və görüşlərini, İslam Həşimov Azərbaycan pedaqoji fikrinin formalaşmasına xalqın tərbiyəvi ideya, adət və ənənələrinin təsirini, Allahverdi Quliyev XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda ümumtəhsil məktəblərində şagirdlərin əmək tərbiyəsinin qoyuluşu məsələlərini namizədlik, İbrahim Mollayev XIII-XIV əsrlərdə Azərbaycanda məktəb və pedaqoji fikrin inkişaf təmayüllərini, Sürəyyə Əliyeva inqilabaqədərki dövrdə Azərbaycanda əxlaq tərbiyəsinin nəzəriyyə və təcrübəsinin inkişaf istiqamətlərini doktorluq dissertasiyası səviyyəsində araşdırdı. Az sonra onun doktorluq dissertasiyası monoqrafiya halında nəşr olundu. Monoqrafiyada Azərbaycan maarifçilərindən Abbasqulu ağa Bakıxanovun, Mirzə Fətəli Axundovun, Həsən bəy Zərdabinin, Seyid Əzim Şirvaninin, Nəcəf bəy Vəzirovun, Firidun bəy Köçərlinin əsərlərində irəli sürülən əxlaq tərbiyəsinin məzmunu şərh olunmuş, məktəblilərin tərbiyəsində həmin əxlaqi ideyalardan istifadənin yolları araşdırılmışdır. Bu əsərdə maarifçilərin nəzəri-pedaqoji fikirləri ümumiləşdirilməklə yanaşı, mühüm elmi müddəalar məktəb həyatına gətirilir, müxtəlif tədbirlərdə istifadə imkanları üzə çıxarılır [4, s.78].

Hər bir xalqın pedaqoji fikrinin qədimliyini təyin edən amillərdən biri onun əcdadlarının yaradıb yadigar qoyduğu ədəbi-bədii tarixi abidələrdir. Mənəvi abidələrimiz sırasında pedaqoji fikrin inkişafında "Kitabi-Dədə Qorqud" dastanının son dərəcə əvəzsiz yeri vardır.

Ulu öndərimiz Heydər Əliyev haqlı olaraq deyirdi: "Oğuz türklərinin tarixini əks etdirən "Kitabi-Dədə Qorqud" yüksək bəşəri ideallar tərənnümçüsü kimi dünya xalqlarının mənəvi sərvətlər xəzinəsinə daxil olmuşdur". "Kitabi-Dədə Qorqud" bütün çətinliklərə və məhdudiyyətlərə baxmayaraq, 1300 il ərzində bizim xalqımıza mənəvi qida olmuş, onların yaşanmasına, mübarizə aparmasına öz milli mənliyini dərk edib hifz etməsinə daim yardım göstərmişdir". Oğuz türklərinin ana kitabı olan "Kitabi-Dədə Qorqud" Azərbaycan pedaqoji fikir tarixinin ən dəyərli qaynaqlarından biridir. "Bu əsərdə böyük insanpərvərlik ideyaları, mənəvi ucalıq, qəhrəmanlıq və mərdliyə çağırış əks olunmuşdur. Dədə Qorqud pedaqogikasında şəxsiyyətin keyfiyyətləri konkret olaraq göstərilir: Vətəni, torpağı, eli-obanı canı qədər sevmək və onu qorumaq üçün hazır olmaq; şəxsi mənafeyin güdülməməsi; hər şeyin xalq üçün edilməsi; aca çörək, yalına ayaqqabı, humanist, xeyirxah olmaq; qan tökməmək, qonşularla dinc yaşamaq, mənəviyyatca təmiz, safürəkli olmaq; qadına hörmət və ehtiram bəsləmək; ana, ata haqqını tanrı haqqı bilmək, onun sözünə hörmət və ehtiram, sədaqət göstərmək; cəsarətli, çevik, qorxmaz, mərd, güclü olmaq, gözəllikdən zövq almağı bacarnaq, dosta rəğbət, düşmənə nifrət bəsləməyi bacarmaq, dostluqda ədalətli olmaq, şərtə sözsüz əməl etmək, söz və əməl birliyini qorumaq; ağıllı, tədbirli olmaq, düşmənin hiyləsinə uymamaq; qadının ailə-ər namusunu ölümdən üstün tutması və s. Ona görə də "Kitabi-Dədə Qorud"da tərbiyə məsələləri ciddi tədqiqatların predmetinə çevrilmişdir. Hüseyn Əhmədov, Əjdər Ağayev, Yusif Talıbov, Fikrət Seyidov, Fərrux Rüstəmov, Rüfət Hüseynzadə, Əliheydər Həşimov, Fərahim Sadıqov və İslam Həşimovun tədqiqatlarında "Kitabi-Dədə Qorqud" dastanı mənəvi kamillik, qəhrəmanlıq kitabı kimi təhlil edilmiş, Azərbaycan xalqının – qədim oğuzları, bütün türk dünyasının yaradıcı dühasının məhsulu kimi səciyyələndirilmişdir.

Araşdırmalar sübut edir ki, "Kitabi-Dədə Qorqud" dastanları milli tərbiyə məsələlərini, xalqımızın əxlaq və mənəviyyatı, davranış mədəniyyəti, üstetik zövqü, humanizmi, vətənpərvərliyi, qəhrəmanlığı və ata-anaya ehtiramlarını bədii-pedaqoji lövhələrlə əks etdirən zəngin mənəviyyat xəzinəsidir.

Hər bir xalqın milli mədəniyyətinin inkişafı və zənginləşməsində din mühüm rol oynamışdır. Qədim Azərbaycanda hakim ideologiya zoroastrizm (zərdüştilik) olmuşdur. Tədqiqatlarda Zərdüşt dininin əsaslarının əksini tapdığı "Avesta" geniş təhlil olunmuş, insanları halallığa, şər qüvvələrə qarşı mübarizəyə, oda, torpağa, vətənə sədaqətə səsləyən əxlaqi-didaktik məzmuna malik ideyalar üzə çıxarılmış, vahid Allahı tərənnüm edən monoteist təlim kimi dəyərləndirilmişdir.

Zərdüştilik nəticə etibarilə xeyirin şər, işığın zülmət üzərində qələbəsinə inam və etiqaddır. Tədqiqatlarda zərdüştiliyin əxlaqi-mənəvi idealı təhlil edilərək onun əxlaqi (xeyirxah fikir, xeyirxah söz və xeyirxah əməl) və ictimai (ailə, icma, vilayət) üçlükdə ifadə olunduğu əsaslandırılmışdır. Burada bütün psixi proseslər üç mərhələyə bölünmüşdür: fikir, söz, əməl. Əvvəlcə fikir yaranır, o sözlə ifadə olunur və əməllə həyata keçirilir. "Avesta"nın etikası maddi və mənəvi olanın təmizliyinə əsaslanır, iki sahədə – fiziki (bədən, geyim, ev-eşik təmizliyi) və mənəvi (əqidə və əməllərin saflığı) təzahür edir. Mənəvi saflığa, düzlüyə, təmizliyə, əsil insan olmağa çağırış "Avesta"nın əsas leytmotivini təşkil edir ki, bu məsələlər də tədqiqatlarda mühüm yer tutur [2, s.23].

İkinci mərhələ İslamın qəbulundan Azərbaycanın Rusiya tərəfindən işğalına qədər olan böyük bir tarixi mərhələdə pedaqoji fikrin inkişafını əhatə edir. Bu mərhələ ziddiyyətli təbiəti ilə seçilir və daha çox feodalizm formasiyasının bərqərar olması və süqutu dövrü kimi səciyyələndirilir. Xronoloji müxtəlifliyə, yerli özünəməxsusluğa baxmayaraq, feodalizm dünyanın hər yerində mahiyyətcə eynidir, onun xarakterik əlamətlərinə hər yerdə təsadüf edilirdi. Dağıdıcı müharibələr, feodal zorakılığı, kəndli üsyanları, aclıq və kütləvi qırğınları törədən yoluxucu xəstəliklər, savadsızlıq və s. bu mərhələnin səciyyəvi xüsusiyyətləridir. Bununla belə, həmin mərhələdə insan cəmiyyəti tarixin əvvəlki dövrlərinə nisbətən maddi-mənəvi mədəniyyətinin inkişafı sahəsində xeyli irəlilədi. Sənətkarlıq və ticarət mərkəzləri olan sahələr yarandı, islam təhsil sistemi formalaşdı, fəlsəfi-pedaqoji fikirdə irəliyə doğru mühüm addım atıldı. İslam dininin yaranması, yayılması və inkişafı Ərəbistan yarımadası ilə qonşu olan türk xalqlarının mənəvi həyatında köklü dəyişikliyin baş verməsinə səbəb oldu. İslam elmi sistemi islamı qəbul edən xalqların həyatına sürətlə daxil oldu. Yeni tərbiyə nəzəriyyəçiləri tərbiyəyə yeni məzmun, forma və metodlar gətirdilər. İslamı dəyərlərə əsaslanan təhsil müəssisələri yaradıldı. İslamı yayanlar Ərəb ölkələrindən, Türkiyədən Azərbaycana gələrək bu tərbiyə sisteminin, islam mədəniyyətinin xalqın həyatına möhkəm daxil olmasında böyük xidmətlər göstərdilər. "İslam elmi Azərbaycan xalqının milli-mənəvi dəyərləri ilə qaynayıb qarışdı, ümumbəşəri dəyərlər səviyyəsinə yüksəldi. Nəsillərin tərbiyəsi üçün dəyərli sistem yaradıldı.

Zahid Qaralov islamın elm və mədəniyyətin inkişafına təsiri haqqında belə yazır; "İslam mədəniyyətinin, islam mənəviyyatı və elminin sürətlə yayılması, dünyanın bir çox xalqlarının həyatında, dünyagörüşündə, məişətində dönüş yaratdığı kimi, Azərbaycan xalqının inkişafında da köklü dəyişikliyə səbəb oldu. Elmin, maarifin, mədəniyyətin, bütövlükdə həyat tərzinin yeni, daha mükəmməl əsaslar üzərində qurulması prosesi başlandı. Ailə – nigah, valideyn – övlad, insan – cəmiyyət münasibətləri təzələndi. Tamamilə yeni elmi prinsiplə qurulan təhsil müəssisələri – ibtidai məktəblər, peşə məktəbləri, mədrəsələr əhalinin bütün təbəqələrinin maariflənməsinə inkan yaratdı. İslam elmi-pedaqoji təfəkkürdə əsaslı dəyişiklik əmələ gətirdi".

Ədəbiyyat

1. Bəşirov V.P. Azərbaycan maarifpərvərlərinin mütərəqqi pedaqoji ideyalarının inkişafı (1970-1920-ci illər). Bakı, Oka-Ofset, 2008.
2. İman Cəfər. Azərbaycan ədəbiyyatında səyahətnamə. Bakı: Elm, 2001.
3. Rüstəmov F. Pedaqogika tarixi. Bakı: Nurlan, 2006.
4. Seyidov F.Ə. Qori seminariyası və onun məzunları. Bakı: Maarif, 1988.

Л.И.Алиева

Население в Азербайджане в 60-70-е гг. исследование народной педагогики

Резюме

В настоящее время воспитание подрастающего поколения в нашей республике на основе национальной почвы, исламской морали и общечеловеческих ценностей является одной из важнейших проблем современности. Молодежь должна обладать глубокими знаниями, навыками, высокой культурой, чувством ответственности и демократическим мировоззрением, должна стараться построить в Азербайджане высокоцивилизованное общество и сильное демократическое государство, не должна уклоняться от борьбы за национальные интересы и сакральные практики. Сегодня цель состоит не в том, чтобы создать поколение «интернационалистов», лишенных возможности самосознания, чье общественное сознание полно заблуждений, не знающих своего происхождения, а в том, чтобы воспитать молодых людей, являющихся носителями идеи национальной независимости, идеи азербайджанства и самостоятельных действий государства. По этой причине, перед педагогической наукой, занимающейся воспитанием, обучением и воспитанием подрастающего поколения, стоит ряд задач. Нельзя отрицать достижения педагогической науки, народного образования, школы, лучшие достижения, школьное начало. Если мы не примем идеи, проросшие из рациональных семян и зародышей и ставшие системой на прочный фундамент, мы не сможем построить на ней здание будущего. Мысли, связанные с историей науки, не должны напоминать о посещении кладбища или быть грудой мертвой информации, а наоборот, должны давать живую картину поиска, учить его секретам и создавать страсть к новаторству.

L.I.Alieva

The people in Azerbaijan in the 60's and 70's research of pedagogy

Summary

In modern times, education of the generation growing up in our Republic on the basis of national ground, Islamic morals and universal values is one of the most important problems of the day. Young people should have deep knowledge, skills, high culture, a sense of responsibility and a democratic outlook, they should try to build a highly civilized society and a powerful democratic state in Azerbaijan, and they should not shy away from fighting for national interests and sacred practices. Today, the goal is not to create a generation of "internationalists" who are deprived of opportunities for self-awareness, whose social consciousness is full of misconceptions, and who are unaware of their origins, but to raise young people who are carriers of the idea of national independence, the idea of Azerbaijaniism, and independent state actions. For this reason, the science of pedagogy, which deals with the education, training and education of the growing generation, faces a number of tasks. The achievements of pedagogical science, public education, the school, the best achievements, and the school's principle cannot be denied. If we do not accept the ideas that have sprouted from rational seeds and embryos and become a system for a solid foundation, we cannot build the building of the future on it. Thoughts related to the history of science should not remind you of visiting a cemetery or be a pile of dead information, but on the contrary, it should give a living picture of the search, teach its secrets and create a passion for innovation.

Rəyçi: ped.e.ü.f.d. R.M.Əliyeva

Redaksiyaya daxil olub: 04.04.2023

L.E.ƏLİYEVA
e-mail: leilamahmudova@outlook.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134

ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN TƏDRİSİ ZAMANI İNTERNETDƏN İSTİFADƏNİN ÜSTÜNLÜKLƏRİ

Açar sözlər: *kompüterin əhəmiyyəti, müəllimin rolu, tələbələrin rolu, birgə fəaliyyət, strategiya seçimi*
Ключевые слова: *значение компьютера, роль учителя, роль учащихся, парная деятельность, выбор стратегии*
Key words: *importance of computer, teacher's role, students' role, pair activity, strategy selection*

Müasir dövrdə baş verən dəyişiklər internet əsaslı dil təliminin təşkilinin vacibliyini ön plana çəkir. Burada tələbələrin inkişafını dəstəkləmək üçün onları innovativ metodlarla təmin etmək lazımdır. Xarici dil dərslərində tələbələrin maraqlarını cəlb etmək üçün müasir metodlar içərisində internet əsaslı dil təliminin rolu əvəzolunmazdır.

Təlim zamanı internetdən istifadənin müsbət keyfiyyətlərindən biri də elektron əlaqədir. İnternetin bu müasir xidməti vasitəsi ilə istər onlayn təlimin, istərsə də adi tədris prosesinin iştirakçıları bir-birilərinə məlumat ötürə bilirlər. Təhsilverənlər dərs materiallarını elektron şəkildə dilöyrənənlərə göndərir, həmçinin onların müəyyən mövzular ətrafında suallarını qəbul edə və dərhal cavablandıra bilirlər. Əgər tələbələr dərsdə iştirak edə bilməsələr, bu zaman onlar elektron poçt və yaxud müasir dövrümüzdə aktual olan digər proqramlar vasitəsilə onlayn əlaqə yaradaraq müəllimdən iştirak edə bilmədiyi mövzuya aid materialları əldə edə bilər və onun üçün maraqlı olan bəzi suallara cavab tapa bilərlər. Nəticədə, tələbələr dərs prosesindən geri qalmır və mövzu ilə bağlı boşluqları aradan qaldıra bilirlər. İnternetin müəllimlər üçün faydaları çoxdur. Nümunə üçün qeyd etmək olar ki, onlar dünyanın müxtəlif universitetləri tərəfindən keçirilən onlayn görüşlərdə iştirak etmək imkanına malikdirlər. Onlayn seminarlar vasitəsilə ingilis dilinin tədrisi ilə bağlı bəynəlxalq sertifikatlar əldə edilir ki, bu da öz növbəsində təhsilalanların ixtisas biliklərini daha da təkmilləşdirməsi və ingilis dilinin tədrisi zamanı müəllimlərin dünya standartlarına cavab verən metodlardan istifadə etməsi ilə nəticələnir.

İnternetin üstünlükləri içərisində təhsilalanlar və təhsilverənlər üçün virtual kitabxanaları qeyd etmək olar. Buarada bir sıra kitabların, jurnal və qəzetlərin elektron nüsxələrini tapmaq mümkündür. Nümunə olaraq "UnCoverWeb" (http://uncweb.carl.org) səhifəsini göstərmək olar. Burada 18000-dən çox akademik jurnallardan məqalələr tapmaq və sifariş etmək mümkündür. Digər bir virtual kitabxanaya misal olaraq "Electric Library" (http://www.elibrary.com) qeyd edə bilərik. Bu virtual kitabxana jurnallardakı, xəbər səhiflərindəki məqalə mətnlərinə, xəritələrə, şəkillərə, sxemlərə və digər sənədlərə rahatlıqla keçidi təmin edir. Virtual kitabxanalar haqqında məlumat almaq üçün axtarış mühərriklərindən istifadə etmək lazımdır. Google, Altavista, Yahoo, Dogpile və s. kimi axtarış mühərrikləri vasitəsilə istənilən qədər elektron kitabxanalara keçid etmək olar. Müasir dövrümüzdə ən məşhur axtarış mühərriki, 1998-ci ildən etibarən istifadə edilən "Google" mühərrikinin müsbət xüsusiyyətlərindən biri onun səhifə sıralama alqoritminə malik olmasıdır ki, bu da lazımi informasiyaları tapmaqda tələbələrə kömək edir. Ən çox istifadə olunan axtarış mühərriklərindən biri də "Yahoo"-dur. Onu digərlərindən fərqləndirən xüsusiyyət tamamilə onlayn portal kimi istifadəsinin olmasıdır. Xüsusilə xarici dillərin tədrisi zamanı bu veb ünvan vasitəsilə qeyd etdiyimiz bütün məsələlər ilə bağlı araşdırma aparmağa və məlumatın sürətli əldə edilməsinə imkan vardır. Bu zaman, tərcümə proqramları vasitəsilə mətnin şəklini səhifədə yerləşdirməklə bir neçə saniyə ərzində hədəf dildə həmin mətnin mənasını tapmaq olar.

Dil bacarıqlarının formalaşdırılması və nitqin müxtəlif aspektlərinin inkişaf etdirilməsi üçün onlayn formada müxtəlif fəaliyyətlər icra etmək olar. İnternet əsaslı dil təliminin tətbiqi zamanı istifadə edilən təlim fəaliyyətlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- məlumat boşluğunu doldurmaq üçün tapşırıqlar;
- elementlərin uyğunlaşdırılması üçün tapşırıqlar;
- çoxvariantlı və ya doğru/yanlış tipli cavab tələb edən testlər;
- ardıcıllıqları müəyyənləşdirmə üçün tapşırıqlar;
- orjinal mətnlərlə (korporalarla) iş üçün tapşırıqlar;
- araşdırma istiqamətli fəaliyyətlər;
- onlayn yazı (viki, bloq və s.)
- audio/video dinləmə və onların müzakirəsi üçün fəaliyyətlər;
- krassvordlar;
- öyrədici oyunlar;
- simulyasilar və rollu oyunlar;
- onlayn ünsiyyət [10].

Azərbaycan Respublikasının təhsil qanununda təhsilalmanın 4 əsas formasından birini distant, yəni məsafədən təhsil təşkil edir. Distant təhsil təlim iştirakçılarının eyni məkanda olmasını gərəktirməyən və tədris prosesinin elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında təşkil olunduğu təhsilalma formasıdır [9]. Distant təhsilin üstünlüyü onun rahat mühitdə tələbələrin sərbəst şəkildə, çəkinmədən fikir söyləməyini təmin edir və tələbələrin özlərinə uyğun mühitdə təhsil almasını təmin edir.

Distant formada təşkil olunan təhsil imkanlarından biri də onlayn konfranslardır. Bu konfranslar təlim iştirakçılarının ünsiyyət qurmasına şərait yaradan sinxron şəbəkə növüdür. Sinxron şəbəkə təlim iştirakçılarının eyni zamanda onlayn olmasını tələb edən xidmətdir. Konfransda iştirak edənlər məlumatları eyni anda qəbul edir. Burada qruplarla dərslərin təşkili, həmin dərslərdə tələbələrin iştirakı həyata keçirilir. İngilis dilində dil qabiliyyətlərinin və dilin aspektlərinin inkişaf etdirilməsi üçün bu təlim forması məqsəduyğundur [1, s.35].

İnternet əsaslı dil təlimi tələbələrin potensial imkanlarını artırmaq və gələcək karyera uğurlarını təmin etmək üçün təhsilalanlara bir sıra imkanlar təklif edir. Belə ki, elektron-poçt xidməti vasitəsilə məsafədən asılı olmayaraq istənilən ölkənin vətəndaşları ilə ünsiyyət qurmaq olur. Bu asinxron xidmət növü vasitəsilə müxtəlif formada yazı, şəkil, audio və video materialları mübadilə etmək mümkündür. Ümumiyyətlə, asinxron xidmət növünün mənası tələbələrin rahat mühitdə zaman və məsafə baxımından problem yaşamadan istənilən məlumatı paylaşmaqdır. Burada, onlar informasiyaları başqaları ilə paylaşa, onları yadda saxlaya və ya silə bilirlər. Bu xidmət təhsil prosesinin iştirakçıları üçün dərsi daha effektiv qurmağa, deyilən fikirləri təlim zamanı yoldaşları ilə bölüşməyə, ingilis dilində bacarıqların formalaşdırılmasına və uyğun informasiyaların mübadiləsinə imkan yaradır. Elektron-poçt vasitəsilə eyni məkanda olmağımıza ehtiyac olmadan mühazirə mətnlərini əldə edə bilir, müzakirələrdə onlayn iştirak edə bilir və dərsləri dinləyə bilirik [3, s.3].

İnternet əsaslı dil təliminin üstünlüklərindən biri də onlayn kitabxanalardan istifadə olunmasıdır. Onlayn kitabxanalar – müxtəlif formatlarda kitabların, elmi jurnalların, lüğət və ensiklopediyaların və s. elektron formalarının saxlandığı xidmət növüdür. Elektron jurnallar müxtəlif fəaliyyət sahələri ilə əlaqəli olur. Virtual kitabxanaların olması tələbələr üçün vəsaitləri əlçatan edir. İnternet əsaslı dil təliminin tətbiqi zamanı virtual kitabxanalardan istifadə təlim iştiralçılarının daha geniş informasiya əldə etməsinə kömək edir. Burada sürətli və səmərəli şəkildə müxtəlif janr və üslublarda olan autentik materiallara rast gəlmək olar. İngilis dili dərslərində belə kitabxanalardan istifadə tələbələrin lüğət ehtiyyatının zənginləşməsinə və müxtəlif üslubi normalara malik yazı materiallarının təhlil edilərək mənimsənilməsinə imkan yaradır [7].

Təbii ki, internetin üstünlüklərindən danışarkən podkastlardan istifadənin əhəmiyyətini vurğulamaq lazımdır. Podkast – audio və video fayllarını əldə etməyə imkan verən xidmət növüdür. Belə materialların təqdim olunması tələbələrdə ingilis dili bacarıqlarını formalaşdırılması və dil aspektlərinin fəaliyyətlərinin inkişaf etdirilməsi istiqamətində öz müsbət təsirini göstərir [11].

İnternet əsaslı dil təliminin tətbiqi zamanı qarşıya qoyulan hədəfləri əvvəlcədən planlaşdırmaq və həmin məqsədləri reallaşdırmaq üçün fəaliyyət nünumələri araşdırmaq lazımdır. İnternet mənbələrinin auditoriyaya inteqrasiyası zamanı həmin materialların xüsusiyyətləri təhlil edilir, onların səmərəsi araşdırılır və məqsədyönlülüyü nəzərdən keçirilir. Ümumiyyətlə, dərs zamanı internetdən müxtəlif məqsədlərlə istifadə edilir:

- təhsilalanların dil qabiliyyətlərini inkişaf etdirəcək təlim materiallarından istifadə;
- müstəqil öyrənmə və ya əməkdaşlıq şəraitində biliklərin əldə edilməsi;
- materialların araşdırılması, paylaşılması və təqdimatı;
- təlimin fərdiləşdirilməsi.

İnternet əsaslı dil təliminin təşkili zamanı öyrənənlərin müxtəlif mövzularda materiallarla təmin edilməsi onların təlimə olan marağını artırır və tədqiqat imkanlarını genişləndirir. Kompüterdən istifadə üsullarını aşağıdakı kimi qruplaşdırmaq olar:

- kompüter vasitəsilə təlimin təşkili (müxtəlif slaydlar, veb-səhifə məlumatları, interaktiv lövhələr və s. istifadə)
- eyni anda bir neçə kompüterdən istifadə edilərək tələbələrin fərdi inkişaflarının təmin edilməsi (tapşırıqlar vasitəsilə, qrup işləri təşkil edərək, sosial şəbəkələrdə ünsiyyət quraraq)
- təhsilalanların müstəqil şəkildə biliklərə yiyələnməsi (araşdırmaq, leksik və qrammatik tapşırıqlar)
- məsafədən təhsil (onlayn kurslar, onlayn təlimlər və s.) [10]

İnternet əsaslı dil təliminin tətbiqi zamanı kompüterlərdən istifadə müxtəlif məqsədlərlə həyata keçirilir. Kompüterin ingilis dili dərslərində istifadəsi zamanı bir çox xüsusiyyətləri vardır:

- Kompüterin öyrədici əhəmiyyəti – bəzən kompüterlərin müəllimi əvəz etməsi mümkündür. Amma, kompüterdən istifadə müəllimin köməyi olmadan mümkün deyil. Çünki, müəllim kompüter vasitələrindən istifadə zamanı onların dəqiq və düzgün məlumatlar olmasını dəyərləndirir. Hazırda, elektron vəsaitlərdən istifadə zamanı təhsilalanlar dil bacarıqlarını onlayn materiallarla formalaşdırmaqla yanaşı özlərini müşahidə edə bilir, nailiyyətlərini qiymətləndirə bilir, müstəqil şəkildə mövzuları araşdıra bilir, tənqidi və yaradıcı təhlillər apararaq biliklər əldə edə bilir və leksik bazalarını zənginləşdirə bilirlər.
- Kompüterlərin yoxlayıcı əhəmiyyəti – tələbələrin özünütəhlil xüsusiyyətlərinin inkişafına əsaslanır. Burada tələbələr dil bacarıqlarını və aspektlərini testlər vasitəsilə təhlil edə bilir. Belə tapşırıqların təhsilalanların öz nailiyyət səviyyəsini təhlil etməyə və zəif tərəflərini müəyyənləşdirərək aradan qaldırmağa kömək edir. Doğru/yanlış tipli test tapşırıqlarının həlli tələbələrin daha əyləncəli şəkildə bilik səviyyələrini müəyyənləşdirməyə imkan verir. Bu zaman onların əldə etdikləri zəif nəticələrin anonim olması və başqaları tərəfindən görülməməsi tələbələrdə ruh düşkünlüyünə səbəb olmayacaqdır. Lakin, belə testlərin həlli zamanı onların izahlarının və rəylərin olmaması internet əsaslı dil təliminin mənfi tərəflərindəndir. Araşdırmalara əsasən qeyd etmək olar ki, leksik və qrammatik biliklərin əldə edilməsi və təkmilləşdirilməsi zamanı onlayn testlərə daha çox üstünlük verilir.
- Kompüterin məlumat mənbəyi olmasının əhəmiyyəti – müxtəlif veb-səhifələr, proqramlar, oxu materialları, audio və vizual vasitələr təlim zamanı tələbələrin səviyyəsinə uyğun məlumat tapmaqda xüsusi rola malikdir. İnternetdə araşdırılan mövzu ilə əlaqəli yetərli sayda məlumat tapmaq mümkündür.
- Kompüterin ünsiyyət qabiliyyətini inkişaf etdirməsinin əhəmiyyəti – istər müəllimlər, istərsə də tələbələr sosial şəbəkələr vasitəsilə ünsiyyət qura bilirlər. Təlim iştirakçıları ara-

sında əməkdaşlıq qurmaq və xarici vətandaşlarla əlaqə saxlamaq üçün elekton poçt, videozəng, müzakirə şəbəkələri və s. istifadə etmək məqsədəuyğun hesab olunur [10].

İnternet əsaslı dil təliminin təşkili zamanı müəllim informasiya mənbəyi olması ilə yanaşı, həmçinin təlim prosesinin idarəçisi rolunda da çıxış edir. İnformasiya-kommunikasiya texnologiyalarından istifadə tələbələrin təlimə olan marağını artırır və onlara məqsədəuyğun autentik materialları toplamaq imkanı verir. Hədəfləri olmayan tələbələrin araşdırma aparmaları təlimin səmərəli nəticələnməsinə mənfi təsir göstərir. Biliklərin əldə edilməsi üçün hədəflər müəyyənləşdirmək və bu istiqamətdə məqsədəmüvafiq araşdırmalar aparmaq tələbələrin öz strategiyalarına uyğun nailiyyətlər əldə etməsinə müsbət təsir göstərir [8].

İnternet əsaslı dil təliminin təşkili zamanı tələbələrin rolu dərs zamanı subyekt kimi fikirlərini ifadə edə bilməsidir. Belə ki:

- tələbəyönümlü materiallardan istifadə təhsilalanların sürətli və daha ətraflı biliklərə yiyələnməsini təmin edir;
- internet materiallarına üstünlük verilir;
- vizual, audio və kinestetik materiallar üstünlük təşkil edir;
- autentik və yararlı məlumatlardan istifadə edilir;
- yoldaşları ilə əməkdaşlıq edərək biliklər qazanılır;
- müasir təlimə uyğun məlumatlar əldə edilir;
- əyləncəli şəkildə biliklərə yiyələnirlər.

Müəllimin pedaqoji fəaliyyəti zamanı onun peşəkarlığını artıran başlıca amil kompüter savadının olmasıdır. İnformasiya-kommunikasiya texnologiyalarından istifadə zamanı təhsilverənlərdə formalaşdırılacaq bacarıqları aşağıdakı kimi qruplaşdırmaq olar:

- internet şəbəkələrində məlumatların araşdırılması;
- tapşırıqların həlli zamanı onların izahlarının internet resurslarına istinad edərək verilməsi;
- layihələrin hazırlanması zamanı elektron proqramlardan istifadə;
- qiymətləndirmənin onlayn testlərlə aparılması;
- elektron-kommunikasiya əlaqələrindən təlimlər, müzakirələr və s. üçün istifadə edilməsi;
- tələbələrin maraqlarına uyğun oyunlardan istifadə;
- təlim məqsədilə qurulmuş onlayn saytlardan istifadə və s.

İngilis dili dərslərində internetdən istifadə təhsilverənlərin fəaliyyətini uğurlu qura bilməsi üçün dəstəkləyici rola malikdir. İstənilən mövzunun araşdırılması üçün yetərli sayda mənbələrdən yararlanmaq və həmin mənbələrin həm təhsilalanlar, həm də təhsilverənlər üçün əlçatan olması təlim prosesini maraqlı və orjinal edir. Qeyd etmək lazımdır ki, internet əsaslı dil təlimin tətbiqi zamanı müəllimlərə müxtəlif imkanlar verilir:

- hədəf dildaşıyıcılarına məxsus orjinal materiallarla zəngin olan məlumatların əldə edilməsi;
- dil bilik və bacarıqlarını formalaşdırmaq üçün tələbələrin fərdi xüsusiyyətlərini nəzərə alaraq tapşırıqların seçilməsi;
- tələbələrin təlimə olan maraqlarını artırmağa kömək edəcək materialların verilməsi;
- faydalı məlumatların verilməsi və onların uzunmüddətli yaddaşa həkk olunması üçün fəaliyyət nümunələrinin düzgün seçilməsi;
- müstəqil öyrənmə potensialını artıraraq tələbələrin tədqiqatçılıq bacarıqlarının formalaşdırılması və əməkdaşlığın gücləndirilməsi;
- zəngin informasiya bolluğuna malik təlim materiallarından istifadəyə üstünlük verilməsi;
- müəllimlərlə tələbələr, həmkarları, təhsili iddarəetmə işçiləri və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlığın qurulması və s.

İngilis dili dərslərində internet əsaslı dil təliminin tətbiqi zamanı müəllimin əsas hədəflərindən biri də uğurlu strategiyalar müəyyənləşdirməklə tələbələrin təlimə olan maraqlarını artırmaqdır. O, texnologiyalardan istifadə zamanı müxtəlif əyləncəli üsullardan istifadə edir. Burada nəzərə alınmalı olan vacib məsələlər aşağıdakı kimi ümumiləşdirilir:

- internet resurslarında verilmiş vizual vasitələrlə mövzunun müzakirəsinin təşkil edilməsi;
- audio və video materiallarla materialın izah edilməsi;
- onlayn tapşırıqların təlim prosesi zamanı işlədilməsi;
- iş vərəqlərinin cəlbedici və maraqlı olması üçün internetdən müxtəlif formalı məlumatların toplanması;
- autentik materiallardan istifadə edilməsi;
- hədəf dil daşıyıcıları olan tələbələrlə təlim prosesi zamanı distant ünsiyyətin təşkil edilməsi;
- tələbələrin tədqiqatçılıq bacarıqlarını inkişaf etdirmək üçün internet saytlarından problemin araşdırılması.

Ümumiyyətlə, kompüterlərin təim prosesinə gətirilməsi müəllimlərlə tələbələr arasında əməkdaşlığın müsbət istiqamətdə qurulmasına təsir göstərdi. Təhsil prosesinin iştirakçıları arasında səmərəli təlim mühitinin qurulması üçün onların birgə fəaliyyətinə təkan verən fəaliyyətlərin icra edilməsi mühüm əhəmiyyət kəsb edir. Yüksək düşüncə qabiliyyətlərinə malik tələbələr yetişdirmək üçün bu əməkdaşlığı dəstəkləyən internetin imkanlarından bəhrələnmək mühüm əhəmiyyətə malikdir.

Ədəbiyyat

1. Abdullayeva N.Ə. Təhsil sistemində keyfiyyətin artırılmasında İKT-nin tətbiqinin genişləndirilməsi yolları. Magistrlik dissertasiyası. Bakı: 2016, səh.83.
2. Bosch T. E. Using online social networking for teaching and learning//South African Journal for Communication Theory and Research//35(2), 2009, p.185-200.
3. Dede T. How to use the internet in the ELT. London: Pearson Education, 2000, p.120.
4. Kim H.K. Beyond Motivation: ESL/EFL Teachers Perception of the Role of Computers //CALICO Journal//25(2), 2008, p.241-259.
5. Lee J. The internet for English-language teaching//The Reading Matrix//Vol.1, No.2, 2001.
6. Mitsikopoulou B. The Internet for language teachers. Hellenic: National and kapodistrian university of Athens, p.58.
7. http://azkurs.org/tehsilde-ikt-muhazireler-giris.html.
8. http://idrak.edu.az/baki/az/site/news/87.
9. http://www.e-qanun.az/alpidata/framework/data/18/c_f_18343.htm.
10. http://www2.nkfust.edu.tw/~emchen/CALL/unit1.htm.
11. https://www.researchgate.net/publication/internet-based-activities-in-developing-students-english-skills.

Л.Алиева

Преимущества использования Интернета в обучении английскому языку в высшей школе

Резюме

Целью данного исследования является изучение деятельности по совершенствованию языковых навыков с помощью обучения языку в Интернете. Стратегии формирования языковых навыков учащихся описаны интерактивными способами. В исследовании изучается подробная информация о влиянии стратегий обучения на процесс изучения языка в высших учебных заведениях. В статье дифференцируются роли учителя и учащихся, вовлеченных в интернет-деятельность в процессе обучения. Анализируются преимущества использования электронных материалов при осуществлении обучения языкам через Интернет.

L.Aliyeva

Advantages of using the Internet in teaching English in higher schools

Summary

The purpose of this study is investigate the activities for improving language skills with the help of internet-based language teaching. The strategies about forming language skills of the learners are described with interactive ways. The research studies detailed information about the impact of learning strategies to language learning process at Higher Institutions. The article differentiate the roles of a teacher and students involved internet activities in the learning process. It is analysed the advantages of using electronic materials in an implementation of internet-based language teaching.

Rəyçi: ped.ü.f.d. J.F.Mehrəliyeva

Redaksiyaya daxil olub: 13.05.2023

A.A.ƏRZUMANLI
e-mail: arzumanli1999@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

LEKSİK VƏRDİŞLƏRİN FORMALAŞDIRILMASININ PSİXOLOJİ ƏSASLARI

Açar sözlər: *motivasiya, leksik vərdişlər , strategiya, dil, təlim üslubu*
Ключевые слова: *мотивация, лексические привычки, стратегии, язык, стиль обучения*
Key words: *motivation, lexical habits, strategies, language, learning style*

Leksik vərdişlərin formalaşmasına ayrı-ayrılıqda və kollektiv şəkildə təsir edən müxtəlif elementlər var. Bildiyiniz kimi, tələbələr öz dil səviyyələrini inkişaf etdirmək üçün ikinci dili müxtəlif yollarla mənimsəməyə çalışırlar. Motivasiya, bacarıq və təlim strategiyaları dil fakültələrinin aşağı kurs tələbələrində leksik vərdişlərin formalaşmasına kömək edir.

H.Qardner motivasiyanı bütün insani davranışların kökü olaraq görür. Hərəkət etdiyimiz zaman, bizi buna nə isə çəkdiyi üçün edirik. Motivasiya bizi fəaliyyətə təhrik edən amildir. Leksik vərdişlərin formalaşdırılması prosesində nəaliyyət və ya uğursuzluqdan bəhs etmək əsas amillərdən olan motivasiyasız çətin olardı. Müxtəlif dilçilər motivasiyaya fərqli şəkildə tərif vermişlər, lakin H.Qardnerin tərifi digərləri ilə müqayisədə daha uyğun səslənir.

Motivasiya 4 aspektdən ibarətdir: • məqsəd; • səylə hərəkət etmək; • məqsədə çatmaq arzusu; • tapşırığa müsbət münasibət. Hər hansı bir tələbənin timsalında bu cəhətlərə nəzər salsaq görərik ki, o, müəyyən məqsəd seçməkdən başlamalı və ona nail olmaq istəməlidir. Daha sonra tələbə verilən tapşırığı yerinə yetirmək üçün çox çalışmalı və gördüyü işə müsbət münasibət saxlamalıdır. Leksik vərdişlərin formalaşmasına təsir edən bir çox amillər var. R.Qardner şagirdin öyrəndiyi dilə və mənsub olduğu cəmiyyətə, dilin öyrənildiyi vəziyyətə olan marağını xüsusilə vurğulayır [1].

R.Ellis qeyd edir ki, hədəf dil cəmiyyətinə inteqrasiya etmək istəyi güclü olan tələbə qısa zamanda dilin mənimsənilməsi prosesində uğur qazanır. R.Ellisin fikrincə, motivasiya anadangəlmə şəxsi xüsusiyyət deyil, ikinci dilin mənimsənilməsi prosesində qeyri-sabit amildir.

Qabiliyyət və zəka bəzilərinin daha çox malik ola biləcəyi sabit amillərdir. Amma motivasiyaya gəlincə, hətta ən savadsız şagird belə bu motivasiya nəticəsində yüksək motivasiya qazana və dili uğurla öyrənə bilər [2]. Motivasiya ilə bağlı müəllimlərin rolunu da xüsusi qeyd etmək lazımdır. Dil fakültələrinin müəllimləri üçün dərsdə motivasiya yaratmaq vacibdir. Motivasiya yaradılmalı və saxlanmalı, eyni zamanda qiymətləndirmə aparılmalıdır ki, tələbələrin növbəti dərslər üçün maraqlı bir şeyləri olsun. Bu sahədə uğur qazanmaq üçün müəllimlər tələbələrin qabiliyyətinə uyğun fəaliyyətlər tapmalı və tələbələrə bunun öhdəsindən gəlmək imkanı verilməlidir. Təlimlər çox asan olarsa, tələbələr onları həll etmək üçün səy göstərməyəcəklər və ya çox çətin olsalar, tələbələr onları həll etməyə başlamazdan əvvəl imtina edəcəklər. Ona görə də lüğət seçərkən və ya leksik vərdişlərin formalaşdırılması üçün tapşırıqlar verilərkən onların dil səviyyəsi nəzərə alınmalıdır. Leksik bacarıqların inkişafına təsir edən digər amil qabiliyyətdir. Bu, dili öyrənmək və anlamaq prosesini sürətləndirən irsi bacarıq və ya istedaddır. Pimsleur, Oller və Perkins (1978) bunu zəkanın bir hissəsi kimi görürdülər [3], lakin sonrakı tədqiqatlarda qabiliyyət leksik bacarıqların inkişafına təsir edən mühüm fərdi amil kimi qəbul edilmişdir. L.Skehanın fikrincə, uğur dil öyrənmə prosesində nailiyyətlərin ən yaxşı göstəricisidir. Təlim üslubu da leksik vərdişlərin formalaşmasında xüsusi rolu olan amildir. Bu şagirdin leksik vahidləri mənimsəmə və təqdimat formalarına malikdir. C.Rid bunu belə müəyyən edir: bu, fərdin yeni məlumat və bacarıqlarının qəbulu, işlənməsi və saxlanmasının

təbii, adi və üstünlük verdiyi üsuldur. Dil fakültələrinin yeni məlumat əldə etmək üçün öz seçimləri var. Tədqiqat strategiyaları leksik vərdişlərin öyrənilməsinə təsir edən başqa bir qeyrilinqvistik amildir. Tədqiqat strategiyaları sözün öyrənilməsinə və sonrakı nailiyyətlərə təsir göstərir. Leksik verdişlərin inkişaf edilməsi prosesində istifadə olunan strategiyalar altı qrupa bölünür:

• Yaddaş strategiyaları şagirdə yeni məlumatı uzun müddət yadda saxlamağa və lazım gəldikdə onu geri qaytarmağa imkan verir. Onlara yeniləri yadda saxlamaq üçün səsdən və ya hər ikisindən istifadə daxildir.

• Koqnitiv strategiyalara daxili psixi modelləri müəyyən etmək, qəbul etmək, saxlamaq və təkrarlamaq daxildir. Məsələn, mühakimə edin, təhlil edin və ümumiləşdirin.

• Metafaqnitiv strategiyalar şagirdə təlim prosesinin öhdəsindən gəlməyə kömək edir. Burada o, öyrənmə prosesini planlaşdırır, təşkil edir və sonra hesablayır. Hədəf dildəki boşluqları doldurmaq üçün kompensasiya strategiyalarından istifadə edilir. Məsələn, sorğu edən şəxs bir sözü bilmirsə, göstərişlərdən istifadə edə, sözü söyləməyin başqa yolunu tapa və ya sözü bilirmiş kimi davrana bilər. Tələbə məntiqi olmayan zarafata güləndə bu, kompensasiya strategiyasıdır. Mübarizə prosesi ilə bağlı duyğuları və hərəkətləri idarə etmək üçün emosional strategiyalardan istifadə edilir.

Lüğətin öyrənilməsi təlim prosesinin çox vacib hissəsidir. İnsan nə qədər çox söz bilsə, eşitdiklərini, oxuduqlarını bir o qədər çox anlayacaq, həmçinin fikirlərini nitqdə və yazıda bir o qədər aydın, geniş və asan ifadə edə biləcək. E.Hiebert və M.Kamil qeyd edir ki, sözün iki forması var, şifahi lüğət bizim mənasını bildiyimiz, danışıq və oxuyarkən şifahi şəkildə işlətdiyimiz sözlər qrupudur. İkincisi, yazılı söz bazası mənasını bildiyimiz və yazıda və dinləyərkən üstüörtülü şəkildə qəbul etdiyimiz sözlər qrupudur [5]. Bir qayda olaraq, tələbə ingilis dilində yeni söz öyrənəndə onu ilk maraqlandıran o sözün nə demək olduğu və onun ana dilinə tərcüməsidir. Bununla belə, tələbələr sözü ana dili səviyyəsində bilmədən əvvəl onların öyrənməli olduğu bəzi məsələlər var: sözün yazılışı, tələffüzü, fleksiyası (fel, isim və ya sifət olduqda necə dəyişir), s. haqqında qrammatik biliklər, onun uzlaşması (hansı sözlər tez-tez onunla birlikdə işlənir). Sözün mənasını təqdim etməyin ən asan yolu tərcümədir. Bununla belə, müəllimlər yadda saxlamalıdırlar ki, şagirdlər sözlərin mənasını nə qədər çox anlamağa çalışsalar, onları daha yaxşı xatırlayacaqlar. Leksik vərdişlərin inkişafı üçün tərcümədən yayınmağın başqa bir səbəbi də müxtəlif ölkələrdə sözlərin fərqli konnotasiyaya malik olmasıdır. Bu halda tərcümə heç də həmişə mənasın düzgün çatdırılmasına xidmət etmir. Tərcümə etibar etməkdənsə, hədəf dildə düşünmək daha yaxşıdır. Digər tərəfdən, tərcümə digər üsullar uğursuz olduqda mənasını çatdırmaq üçün sərfəli və vaxta qənaət edən bir üsul ola bilər. Söz forması – Söz formasının təqdimatı özlüyündə mühüm prosesdir, çünki tələbələr sözü onun səs quruluşuna görə xatırlayırlar. Sözün formasının təqdimatı yuxarıda sadalanan strategiyalarla sıx bağlıdır. Sözün tələffüzü diqqətlə təkrarlanmalıdır. Tələbələr yeni sözlə qarşılaşdıqda həmin sözü xatırlamaq və mənasını başa düşmək, eləcə də onun dil sistemində işlənməsini başa düşmək üçün sözü təkrarlamalıdırlar. Onlar sözün həm mənasını, həm də formasını tətbiq etməlidirlər. Thornbury təklif edir ki, tələbələr sözləri uzunmüddətli yaddaşda saxlamaq üçün bu strategiyalardan istifadə etməlidirlər: 1. Müəyyən etmək – sözü kontekstdə tanımaq; 2. Seçim – identifikasiyadan daha mürəkkəbdir. Deməli, burada sözləri tanımaq və onların arasında seçim etmək lazımdır; 3. Əlaqələndirmək – sözləri tanımaq və əlaqələndirmək üçün əyani vasitələrdən, tərcümə, sinonim, antonim, tərif və s. 4. Ayrı – sözləri müxtəlif kateqoriyalara yerləşdirin; 5. Sort – Sözləri müəyyən ardıcıllıqla yerləşdirin. Onu da qeyd etmək lazımdır ki, leksik vərdişlərin inkişafı sözlərin təkrarına əsaslanır. Tələbələrin yeni sözləri nə qədər tez-tez təkrar etmələri ilə bağlı metodist tövsiyələri dəyişir.

Tələbələr sözlə bağlı əldə etdikləri informasiyaları tam şəkildə yadda saxlamalı olduqlarına görə bu dilöyrənmə prosesinin vacib hissəsidir. Tələbələrin müxtəlif kontekstlərdə sözlərdən istifadə etməsi və onları yadda saxlamağa çalışması onların yaddaşını inkişaf etdirir. Eyni

zamanda, müəllim sözün mənası və ya forması ilə bağlı anlaşılmazlıqları və ya yanlış istifadələri müəyyən edir. Leksik vahidin istifadəsi müxtəlif formalarda baş verə bilər. Məsələn, tələbələr yeni sözlərdən istifadə edərək cümlə və ya mətn yarada və ya bir işi tamamlaya bilərlər. Digər hallarda tələbələr söhbət zamanı və ya əyləncəli oyunlarda həmin sözlərə müraciət edə bilərlər. Leksik vərdişlərin formalaşması strategiyaları müxtəlif nöqteyi-nəzərdən fərqli təsvir oluna bilər. Yaddaş strategiyaları adətən mnemonika adlanır və tələbələrə lazım olduqda onları xatırlamaq üçün sözləri yadda saxlamağa kömək edir. Yaddaş strategiyaları məlumatın faktiki səviyyədən bacarıq səviyyəsinə ötürülməsinə imkan verir, burada bilik daha prosedur və avtomatik olur. Məlumat bacarıq səviyyəsinə çatdıqda daha asan xatırlanır və uzun müddət istifadə olunmasa belə onu unutmaq çətindir [6].

A.A.Арзуманли

Психологические основы формирования лексических навыков

Резюме

Основы развития лексических навыков подразумевают, прежде всего, наличие у студентов бакалавриата активного и пассивного словарного запаса. Поскольку тот факт, что процесс заучивания слов связан с лексикой и грамматикой, не вызывает сомнений, изучение слов требует учета таких факторов, как их взаимосвязь, лексико-морфологические, лексико-синтаксические, лексико-семантические характеристики, полисемия.

A.A.Arzumanlı

Psychological foundations of the formation of lexical habits

Summary

The basics of developing lexical skills mean first of all the fact that undergraduate students have active and passive vocabulary. Since the fact that the process of word learning is related to vocabulary and grammar is not in doubt, the study of words requires taking into account factors such as their mutual relationship, lexical-morphological, lexical-syntactic, lexical-semantic characteristics, polysemy.

Ədəbiyyat

1. Ağazadə N.A. Xarici dillərin tədrisi metodikası və dilçilik. Metodika və dilçilik. Bakı, 1974, – s.6-11
2. Axundov A. Ümumi dilçilik. Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 1979, – 256 s.
3. Арбекова Т.И. Лексикология английского языка. М.: Высшая школа, 1977, – 240 с.
4. Allen, V.F., Techniques in Teaching Vocabulary. Oxford, O.U.P., 1983, – p.1 15.
5. Allwright, Dick and Bailey, Kathleen M. Focus on the Language Classroom. Cambridge: Cambridge University Press, 1994, – p.182.
6. Беляев Б.В. Психологические основы усвоения лексики иностранного языка. М.: Просвещение, 1964, 136 с.

Rəyçi: filol.e.d., prof. Ç.Qaraşlı

Redaksiyaya daxil olub: 27.02.2023

A.T.ƏZİZOVA
e-mail: aynureezizova1985@gmail.com

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

YENİ TƏHSİL PARADİQMASI KONTEKSTİNDƏ UNİVERSİTET TƏLƏBƏLƏRİNİN ÖZÜNÜTƏHSİLİ

Açar sözlər: *yeni təhsil paradiqması, universitet, tələbə, özünütəhsil, inkişaf, təhsilin informasiyalaşdırılması, modul texnologiya*

Ключевые слова: *новая образовательная парадигма, университет, студент, самообразование, развитие, информатизация образования, модульная технология*

Key words: *new educational paradigm, university, student, self-education, development, informatization of education, modular technology*

Cari əsr sürət, inteqrasiya, informasiya, texnologiya və nəhayət, təhsil əsri adlanır. Bu halda təhsil, müasir cəmiyyətin inkişafını və müasir insanın mövcudluğunu müəyyən edən əxlaqi, idrak yönümlü strateji nizamın çoxölçülü generativ resursu kimi başa düşülməlidir. 21-ci əsrin təhsili paradiqma dəyişikliyi ilə müəyyən edilir. Bu baxımdan ölkəmizdə də hal-hazırda ali təhsil sisteminin modernləşdirilməsi istiqamətində bir tərəfdən daxili tarixi ənənələr qorunaraq, digər tərəfdən Boloniya prosesinin əsas prinsipləri nəzərə alınaraq məsuliyyətli və balanslı şəkildə islahatlar aparılmaqdadır. Ölkəmizdə həyata keçirilən təhsil islahatının əsas məqsədi tələbələlərin özünütəhsilini, müstəqil fəaliyyətini təhsilin ağırlıq mərkəzlərindən birinə çevirməkdir. Bu baxımdan müstəqil, yaradıcı düşünən, universal biliyə və müasir təfəkkürə sahib olan, geniş dünyagörüşlü, rəqabətqabiliyyətli, ən son texnologiyalara yiyələnməyə qadir və yeni sosial-iqtisadi şəraitə uyğunlaşa bilən, təşəbbüskar kadrların hazırlanması təhsil sisteminin başlıca məqsədlərindəndir [2, s.12].

Təhsilin inkişafının müasir modeli təhsil fəaliyyətindən özünütəhsil fəaliyyətinə keçən paradiqma ilə müəyyən edilir. Şübhə yoxdur ki, yalnız peşəkar bacarıqlarını daim inkişaf etdirən və bu bacarıqları yüksək səviyyədə saxlayanlar sosial və iqtisadi uğurlar qazana, rəqabətədavamlı ola bilərlər. Bu gün biliklərin öz-özünə mənimsənilməsi davamlı təhsilin ən vacib komponenti hesab olunur.

Pedaqoji ədəbiyyatlarda və ensiklopedik nəşrlərdə təqdim olunan özünütəhsil anlayışlarını tədqiq və təhlil edərək belə bir nəticəyə gəldik ki, özünütəhsil mövcud bilikləri genişləndirmək üçün məqsədyönlü, müstəqil, idrak və təcrübə yönümlü fəaliyyət kimi müəyyən edilir. Yeni biliklərin əldə edilməsi, müasir təcrübənin formalaşdırılması və fərdin həyatı boyu özünü təkmilləşdirməsi tələbələrin özünütəhsil fəaliyyəti haqqında elmi biliklərinin genişlənməsinə töhfə verir. Müasir pedaqoji ədəbiyyatda "özünütəhsil" terminin vahid şərhi yoxdur. Müxtəlif tədqiqatçılar bu anlayışın bu və ya digər cəhətlərini vurğulayaraq özlərinə məxsus şəkildə şərh edirlər. Bir çoxları özünütəhsili dərsdənkənar həyata keçirilən sistemli təlimin tərkib hissəsi hesab edir. Bəziləri isə özünütəhsili təkcə şəxsiyyətin özü tərəfindən idarə olunan koqnitiv fəaliyyət kimi deyil, həm də onun şəxsi və sosial əhəmiyyətini ortaya qoyan fəaliyyət kimi də dəyərləndirir.

Məşhur amerikalı alim Malkolm Noulza görə "özünütəhsil" başqalarının köməyi olmadan fərdlərin öz təhsil ehtiyaclarını ödəmək üçün təşəbbüs göstərdiyi bir prosesdir. M.Noulz özünütəhsilin beş pilləli modelini işləyib hazırlamışdır: 1. Təhsil ehtiyaclarının müəyyən edilməsi. 2. Təhsil məqsədlərinin təyin edilməsi. 3. Təlim üçün maddi resursların müəyyən edilməsi. 4. Müvafiq təhsil strategiyalarının seçilməsi və həyata keçirilməsi. 5. Nəticələrin qiymətləndirilməsi [3]. Belə ki, həqiqi, uzunmüddətli və yüksək keyfiyyətli biliyin mənimsənil-

məsi və strukturlaşdırılması prosesi yalnız tələbələrin özünütəhsil fəaliyyəti nəticəsində baş verir. Biliyin yoxlanması və aydınlaşdırılması üçün hər hansı təşəbbüs tələbənin özündən gəlir. Bu baxımdan müəllimin vəzifəsi lazımi ədəbiyyatı məsləhət vermək, müəyyən günlərdə müsahibələrdə çətin suallara aydınlıq gətirmək, tələbələrin müstəqil təhsil fəaliyyətinə cəlb edilməsi üçün lazımi şərait yaratmaq, öyrənilən fənlərin məzmununa marağı stimullaşdırmaq, tətbiqi bilikləri aydınlaşdırmaq və öyrənmədə laqeydliyi, mənfi motivləri aradan qaldırmağa kömək etməkdir. Özünütəhsil və özünütərbiyə fəaliyyəti şəxsiyyətin inkişafının prioritet istiqamətləri hesab olunur və bu proses təhsilin informasiyalaşdırılması şəraitində daha sürətlə həyata keçirilir. Günümüzdə bütün sahələrdə, o cümlədən təhsildə informasiya-kommunikasiya texnologiyaların istifadəsinin geniş vüsət alması özünütəhsil fəaliyyətini xeyli asanlaşdırmaqdadır. İnformasiya-kommunikasiya texnologiyalarının bütün sahələrdə tətbiqi aktual problem kimi hələ illər əvvəl ümummilli lider Heydər Əliyevin də diqqət mərkəzində olmuş və buna bağlı olaraq 17 fevral 2003-cü il tarixli 1146 nömrəli sərəncamı ilə 2003-2012-ci illəri əhatə edən "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya" təsdiq edilmişdir [1].

Belə ki, təhsilin informasiyalaşdırılması cəmiyyətin informasiyalaşdırılmasının tərkib hissəsi kimi çıxış edərək, hər bir şəxsi həyat boyu özünütəhsil fəaliyyətinə hazırlamaq üçün ali məktəbdə təhsil aldığı müddətdə müəyyən şəxsiyyət keyfiyyətlərinin formalaşdırılması kimi müəyyən vəzifəni də yerinə yetirir. Bu baxımdan informasiya texnologiyalarından istifadə öz-özünə təhsil bacarıqlarının formalaşmasına yönəldilməlidir. Təhsilin informasiyalaşdırılması şəraitində özünütəhsil fəaliyyəti tələbələrin müəyyən tapşırıqları yerinə yetirdikləri zamanı istifadə etdikləri metod və üsullar vasitəsilə həyata keçirilir. Eyni zamanda tələbənin özünütəhsil, müstəqil fəaliyyətinin inkişafına müəllimin təsiri təmin olunarsa, öyrənilən proses uğurla inkişaf edə bilər. Buna əsaslanaraq, müəlliflər müstəqil işin təşkilini tələbələrin özünütəhsil fəaliyyətinin inkişafının aparıcı meyarlarından biri hesab edirlər ki, burada tələbə özünütəhsil fəaliyyəti bacarıqlarını məqsədyönlü şəkildə inkişaf etdirir və onun müsbət şəxsi keyfiyyətləri (müstəqillik, əzmkarlıq, məsuliyyət, perspektiv) formalaşır [4].

Vurğulamaq lazımdır ki, müstəqil fəaliyyətlə özünütəhsil fəaliyyəti arasındakı əsas fərq ondan ibarətdir ki, müstəqil fəaliyyət əsasən kənardan stimullaşdırılır və idarə olunur, özünütəhsil fəaliyyəti isə daxili motivlər əsasında həyata keçirilir. İnformasiya texnologiyaları məlumat axtarmaq və əldə etmək, sistemli düşünmək bacarıqlarını inkişaf etdirmək üçün istifadə olunur. Belə ki, nəzəri təhlilin nəticələrinə əsaslanaraq müəlliflər təhsilin informasiyalaşdırılması şəraitində tələbələrin özünütəhsil fəaliyyətinin inkişafı texnologiyasını işləyib hazırlamışlar. Təhsilin informasiyalaşdırılması şəraitində tələbələrin özünütəhsil fəaliyyətinin inkişafı texnologiyasının qurulmasında pedaqoji prosesin ayrılmaz strukturunun elementi, beş istiqaməti müəyyən edilmişdir. Bunları aşağıdakı kimi sıralayaq: 1) analitik bloku özündə birləşdirən fəaliyyət; 2) proqnostik hədəf; 3) proqramın tərtibi və işin planlanması; 4) fəaliyyətin həyata keçirilməsi; 5) əks etdirən-qiymətləndirici [6].

Universitetdə təhsilin birinci ilində əsas diqqət tələbələrin məqsəd qoyma kimi mühüm funksiyaların aktiv inkişafı ilə əlaqəli avtonom fəaliyyət təcrübəsinin formalaşmasına yönəldilməlidir. Bu təcrübəyə daxildir: 1) tələbələrin oriyentasiya və analitik bacarıqları; 2) məqsəd qoymaq; 3) öz fəaliyyətlərini planlaşdırmaq bacarığı; 4) planı müstəqil həyata keçirmək bacarığı; 5) fəallıq və şəxsi düşünmək; 6) özünü qiymətləndirmə bacarığı. Müəlliflərin fikrincə aşağıdakı təcrübələri mənimsəməklə tələbələr əsas məqsədə nail ola bilərlər: 1) ideoloji xarakterli və kifayət qədər dolğun olan bilikləri mənimsəmək; 2) əsas fənn biliklərinin mənşəyi haqqında məlumatlılıq; 3) fənn biliyinin məzmununun məntiqini başa düşmək; 4) cari özünütəhsil vəziyyətinin tətbiqi üçün mümkün variantların aşkar edilməsi və seçilməsi (genişlik, polivariantlıq, çeviklik və proqnostik düşüncə) [6].

Özünütəhsil fəaliyyətinin inkişafında universitet mühitinin əsas atributlarının da mühüm rolu vardır. Bunlara daxildir: 1) tədris prosesini tənzimləyən sinif cədvəli; 2) fənnin məzmu-

nunu və onun işlənmə ardıcıllığını birmənalı şəkildə müəyyən edən standart dərsliklərin olması; 3) müəllimin mühazirə və seminarlar üçün hazırladığı müfəssəl planları. Təkcə universitet daxilində deyil, eyni zamanda universitet xaricində də görülən fəaliyyətlər tələbələrin özünütəhsilinin inkişafında xüsusi rol oynayır və bu zaman qarşıda duran bir neçə əsas vəzifələr vardır. Bunları aşağıdakı kimi sıralamaq olar: 1) yüksək keyfiyyətli peşə fəaliyyətinə qadir, qərarlar üçün məsuliyyət daşımağa hazır bir insanın tərbiyəsi; 2) tələbələrin mənəvi və mədəni keyfiyyətlərini, dəyərlərini, ümumi qəbul edilmiş davranış qaydalarının formalaşdırılması; 3) şəxsiyyətin özünütəhsili və özünüinkişaf etdirməsi, yaradıcı özünü dərk etməsi, habelə təhsil mühitindən kənar tələbələrin mədəni istirahətinin təşkili üçün əlverişli şəraitin yaradılması; 4) sosial-pedaqoji təhsil mühitinin yaradılması. Dərsdənkənar fəaliyyətin əsas istiqamətlərinə aiddir: mədəniyyət, idman, vətənpərvərlik, elmi və maarifləndirici tədbirlərin keçirilməsi; elmi, yaradıcı, mədəni, idman dərnəklərinin, tələbə və müəllim qruplarının yaradılması; tələbələrin vətənpərvərlik tərbiyəsinin təşkili; tələbələr arasında cinayət, alkoqolizm, tütün çəkmə, narkomaniya və HİV infeksiyasının qarşısının alınması üzrə işin təşkili; tələbələrin problemlərinin öyrənilməsi, fərdi və kollektiv psixoloji dəstəyin təşkili; tələbələrin ictimai məşğulluğunu təmin etmək üçün işlər; tədqiqat işlərinin təşkili; bədən tərbiyəsi və sağlam həyat tərzinin təbliği; tələbələri ictimai təşkilatların, klubların və dərnəklərin işlərinə təşviq etmək; tələbələrə məlumat vermək, tələbə mediasını inkişaf etdirmək; mövcud metodların elmi əsaslandırılması, yeni texnologiyaların, dərsdənkənar fəaliyyətin forma və metodlarının axtarışı və tətbiqi; dərsdənkənar tədbirlərin təşkilində fəal iştirak edən müəllim və tələbələr üçün mənəvi və maddi həvəsləndirmə sistemlərinin yaradılması və s.

Dərsdənkənar işin vacibliyini nəzərə alaraq, dərsdənkənar işlərin aparılmasını təmin etmək üçün verilən tapşırıqlar və informasiya texnologiyalarından istifadə intellektual potensialın inkişafına yönəldilməlidir. Bundan əlavə cəmiyyətin postindustrial inkişafı şəraitində tələbələrin effektiv özünütəhsil fəaliyyətini təmin etmək üçün ali məktəb mühitində məlumat (dərslik, dərs vəsaitlərinin) mənbələrinin, metodik və nizamlayıcı vəsaitlərin, əlavə vəsaitlərin vaxtlı-vaxtında yenilənməsi təmin edilməlidir. Bu baxımdan iki məsələnin həlli çox vacibdir. Bunlara aiddir: 1) tələbələrin özünütəhsil fəaliyyətinin təşkili texnologiyalarının və uyğun üsulların seçimi; 2) tələbələrin özünütəhsil fəaliyyətinin metodik təminatının həyata keçirilməsi.

Bu baxımdan rus pedaqoqları İ.Prokopenko, P.Yutyaviçene, E.Stounsom və C.Rassel öz əsərlərində tələbələrin özünütəhsil fəaliyyətinin səmərəliliyinin artırılmasında və proqram vəsaitinin asan bir şəkildə mənimsənilməsində modul texnologiyalarının mühüm rol oynadığını irəli sürmüşlər. Modul texnologiyaların mərhələli təşkilini aşağıdakı kimi qeyd etmişlər: 1) məqsədlərin qoyulması və tələbənin fərdi hazırlıq səviyyəsi nəzərə alınaraq zəruri materialın seçilməsi və təlim materiallarının hazırlanması; 2) tələbə və müəllim fəaliyyətinin təşkili; 3) tələbənin psixoloji və fizioloji imkanları nəzərə alınmaqla vasitələrin, metodların və öyrənmə sürətinin fərdi seçimi; 4) orta və yekun nəzarət; 5) qərarların düzgünlüyünün qiymətləndirilməsi; 6) əks əlaqənin təşkili; 7) nəticələrin təhlili.

Modul texnologiyalarının tələbələrin özünütəhsil fəaliyyətininin təşkilində və inkişafında mühüm rolu vardır. Modul texnologiyalarını digər pedaqoji texnologiyalarla müqayisə edərək üstün cəhətlərini qeyd edək (Cədvəl №1).

Pedoqoji texnologiyaların müqayisəli təhlili

Ad	Məqsəd	Mahiyyət	Mexanizm
Problemli örənilmə	Tələbələrin yaradıcı müstəqilliyinin, idrak fəaliyyətinin inkişafı	Məntiqi tapşırıqların ardıcıl və məqsədyönlü həlli zamanı tələbələrin fəal şəkildə biliklərə yiyələnməsi	Axtarış üsulların, məntiqi məsələlərin müəyyən edilməsi

Konsentrasiyalı öyrənmə	Təlim prosesinin quruluşunun yaradılmasında insanın psixoloji xüsusiyyətlərinə maksimal dərəcədə yaxınlığının nəzərə alınması	Dərsləri bloklara birləşdirərək fənlərin dərindən öyrənilməsini təmin etmək	Tələbələrin iş bacarığının dinamikasını nəzərə alan təshil üsulları
Modul öyrənmə	Çevikliyin təmin edilməsi, onun şəxsiyyətin fərdi tələbatlarına, əsaslı hazırlığının səviyyəsinə uyğunlaşması	Fərdi təhsil proqramı ilə tələbələrin müstəqil işi	Problemli yanaşma, modul paketlər üçün fərdi öyrənmə tempi
İnkişafetdirici öyrənmə	Şəxsiyyətin və onun bacarıqlarının inkişafı	Dərs prosesinin insanın potensialına və onların həyata keçirilməsinə yönəldilməsi	Tələbələrin fəaliyyətin müxtəlif növlərinə cəlb edilməsi
Fərqli öyrənmə	Maraq və meyilləri müəyyən etmək, qabiliyyətləri inkişaf etdirmək üçün optimal şəraitin yaradılması	Proqramlaşdırılmış vəsaitin, standartdan aşağı olmayan, müxtəlif planlaşdırılmış səviyyədə mənimsənilməsi	Fərdi öyrənmə üsulları
Fəal (kontekstual) öyrənmə	Tələbələrin fəallğının təşkili	Gələcək peşə fəaliyyətin mövzu və sosial məzmunun modelləşdirilməsi	Fəal öyrənmə üsulları
Oyunlarla öyrənmə	Bilik və bacarıqların mənimsənilməsinin şəxsi-fəaliyyət xususiyyətinin təmin olunması	Məlumatların mənimsənilməsinə, işlənib hazırlanmasına, axtarışına yönələn müstəqil idrak fəaliyyət	Tələbələrin oyun üsulları ilə yaradıcı fəaliyyətə cəlb olnması

Pedaqoji texnologiyaların aparılmış təhlili göstərir ki, modul təlimi bir sıra üstünlüklərə malikdir: 1) sürətlə düşünmə qabiliyyətini formalaşdırır; 2) özünü korrektə edə bilmək bacarığını formalaşdırır; 3) fərdi təhsil trayektoriyasını seçmək azadlığını verir; 4) vəsaitin mənimsənilməsində fərdi üsulları seçmək imkanını verir; 5) öyrənmə və özünütəhsil fəaliyyəti üçün müsbət motivasiyanın yaradılması və təhsil əməkdaşlığı üçün şərait yaradılır [5, s.234].

Beləliklə, ali təhsilin qarşısında duran əsas vəzifələrdən biri tələbələri öz biliklərini təkmilləşdirməyə hazırlamaq, gələcək mütəxəssislərə daimi özünütəhsil fəaliyyətinə həvəsli və hazırlıqlı olmağı öyrətmək, onları zəruri bilik və bacarıqlarla təchiz etməkdir. Bununla belə, Azərbaycandakı ali təhsil müəssisələrinin kurikulumlarında tələbələrin effektiv özünütəhsil metodlarını mənimsəmələri üçün xüsusi saat yoxdur. Bunun üçün tələbələr məlumatları bir qayda olaraq kortəbii şəkildə mənimsəyir. Bu da uğursuzluğa gətirib çıxarır, tələbələrin zehni qabiliyyətlərini məhdudlaşdırır və sinir sistemini yorur. Bu problemi həll etmək üçün biz "öyrənməyi öyrənmək" adlı xüsusi kursun həyata keçirilməsini təklif edirik. Xüsusi kursun əsas məqsədi ali təhsil müəssisələri tələbələrinin özünütəhsil fəaliyyətinin təşkilinin xüsusiyyətlərini aşkara çıxarmaq və onlarda özünütəhsil fəaliyyəti üçün səriştəni formalaşdırmaqdır.

Eyni zamanda ən son elmi və praktik tədqiqatlara əsaslanaraq qeyd etmək istərdik ki, tələbələrin özünütəhsil prosesinin texnoloji bazasının yenilənməsi, onların müstəqil fəaliyyətinin adaptiv-sosial funksiyalarının gücləndirilməsi, onların subyektiv potensialını maksimum dərəcədə inkişaf etdirəcək forma və metodların tətbiq edilməsi və bütün təhsil müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilməsi bu problemin həllində atılacaq ən başlıca, mühüm addımlardandır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli strategiya (2003-2012-ci illər) // 17 fevral 2003-cü il tarixli 1146 nömrəli Sərəncamı ilə təsdiq olunmuşdur. – Bakı, 17 fevral 2003. №1146
2. Təhsil Haqqında Azərbaycan Respublikasının Qanunu // 7 oktyabr 1992-ci ildə qəbul edilmişdir. Bakı: Bakı Çap Evi, 2012. – 64 s.
3. Антипов, П.Л. Самообразование студентов вузов в контексте новой парадигмы образования. [электронный ресурс]/ – https://cyberleninka.ru/article/n/samoobrazovanie-studentov -vuzov-v-kontekste-novoy-paradigmy-obrazovaniya
4. Камьянов, А.А. Самообразование студентов в современном вузе (концептуально-технологический аспект) [Электронный ресурс]/ – https://cyberleninka.ru/article/n/samoobrazovanie-studentov-v-sovremennom-vuze-kontseptualno-tehnologicheskiy-aspekt/viewer
5. Суханов, П.В. Педагогическая концепция развития самообразовательной деятельности студентов в условиях информатизации образования: / Дисс. / – Кострома, 2013. – 437 с. (234-235)
6. Суханов, П.В., Морозова Н.В. Технология и организационные формы развития самообразовательной деятельности студентов в условиях информатизации образования [Электронный ресурс]/ – https://cyberleninka.ru/article/n/tehnologiya-i-organizatsionnye-formy-razvitiya-samoobrazovatelnoy-deyatelnosti-studentov-v-usloviyah-informatizatsii-obrazovaniya/viewer

A.T.Azizova

Самообразование студентов вузов в контексте новой образовательной парадигмы

Резюме

Социально-экономические и технологические изменения, возникающие в связи с переходом к информационному обществу, требуют модернизации существующей системы образования и пересмотра внимания, придаваемого самообразованию. Самообразование является методом регулярного, систематического освоения знаний, углубления и усовершенствования знаний каждым лицом в самостоятельной форме. Именно, в связи с этим в данной статье описаны суть самообразования, роль и значение ИКТ в развитии самообразования студентов, способы развития самообразования, роль модульных технологий в развитии самообразования, мотивы, побуждающие к самообразованию и.т.д.

A.T.Azizova

Self-education of university students in the context of a new educational paradigm

Summary

Socio-economic and technological changes occurred related to the transition to information society require to review the attention to self-education and modernization of existing education system. Self-education is the way of gaining, deepening and improving knowledge regularly, systematically as an independent individual. Just related to this, the essence of self-education, the role and importance of ICT in the development of self-education of the students, ways of developing self-education, the role of modular technologies in the development of self-education stimulating factors and so on are mentioned in the article.

Rəyçi: ped.e.d., prof. M.İlyasov

Redaksiyaya daxil olub: 15.05.2023

H.M.HACIYEVA
dosent

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ BİOLOGİYANIN TİBBİ BİLİKLƏRLƏ ƏLAQƏLİ TƏDRİSİ

Açar sözlər: *biologiya, bilik, tədris, sağlamlıq, ailə həyatı, məzmun xətti, tədqiqat, bacarıq, standart*
Ключевые слова: *биология, знание, обучение, здоровье, семейная жизнь, содержательная линия, исследование, умение, стандарт*
Key words: *biology, knowledge, teaching, health, family life, content line, research, skill, standard*

Şagirdlərə biologiyanın tədrisində tibbi-gigiyenik biliklərin verilməsinin tədrisində ona görə aktualdır ki, dünyada və ölkədə baş verən bir çox hadisələr ekologiyanı, eləcə də insan sağlamlığını təhlükə altına almışdır. Bu hadisələrə elm və texnikanın sürətli inkişafı, müharibələr, iqtisadi-siyasi böhranlar, zərərli amillər, epidemiya və pandemiyalar, terrorizm və başqalarını aid etmək olar. Bunlar insanlararası münasibətlərə zərər vurur, stress və ekstremal vəziyyətləri, xüsusilə ürək-damar, sinir, onkoloji, allerjik, yoluxucu, bakterial və virus xəstəliklərinin yayılma sürətini artırır. Onların qarşısının alınmasına yönəlmiş qlobal və regional tədbirlərin əsasında əhalinin tibbi baxımdan maarifləndirilməsi durur. Məktəblərdə gənclərə, şagirdlərə tibbi biliklərin öyrədilməsi təhsil işçilərinin, o cümlədən müəllimlərin təxirəsalınmaz vəzifəsinə çevrilir. [4, s.16]

Tədqiqat belə bir fərziyyənin təsdiqinə yönəlmişdir ki, məktəblərdə biologiya fənninin tədrisində şagirdlərə tibbi bilik və bacarıqların aşılanmasının səmərəli metod, forma və yollarından istifadə olunması, onlarda tibbi bilik, bacarıqlar formalaşdırır, sağlam yaşam tərzini reallaşdırır.

Biologiyanın tədrisində yeni metodik sistem əsasında şagirdlərə tibbi biliklərin verilməsi biologiya fənninin tədrisi keyfiyyətini artırır, mənimsəməni yüksəldir. Mövzuların tibbi biliklərlə əlaqələndirilməsi şagirdlərdə fənnə marağı artırır, onların əsaslı bilik və bacarıqlar əldə etməsinə şərait yaradır. Biologiyanın tibbi biliklərlə əlaqəli tədrisi fəaliyyətə, nəticələrə əsaslanan təlimdə şagird nailiyyətlərinin müasir qiymətləndirmə standartları əsasında aparılmasını təmin edir. Əsaslı tibbi biliklərə yiyələnmiş şagird sağlamlığına ciddi yanaşır, ekstremal vəziyyətdən çıxmaq, lazım gəldikdə ilk tibbi yardım göstərmək bacarıqları nümayiş etdirir. Tibbi bilikləri mənimsəmiş məzunlar zərərli vərdişlərdən uzaq, hərbi çağırışa, ailə həyatına, peşə seçiminə hazır şəxsiyyət kimi formalaşır.

Bir sözlə, məktəblilərə tibbi biliklərin verilməsi təlimin keyfiyyətinin yüksəldilməsində, şagirdlərin sağlam böyüməsində, həyata hazır olmasında, sağlamlığını qorumaq bacarıqlarına yiyələnməsində çox səmərəlidir.

Ümumtəhsil məktəblərində fənlərin tədrisində şagirdlərə tibbi biliklərin bir sıra istiqamətlər üzrə verilməsi mümkündür. Bunlara:

– Şagirdlərin bacarıqlı mütəxəssis, peşə sahibi olması;
– Gənclərin Vətəni müdafiəyə, normal ailə həyatına hazırlaşdırılması;
– Şagirdlərin sağlamlığını qorumağı bacaran vətəndaş kimi formalaşdırılması;
– Gənc nəslin fəal cəmiyyət qurucusu və hərtərəfli şəxsiyyət kimi yetişdirilməsi aiddir.

Pedaqoji kollektivlərin problemin həllinə münasibəti öyrənildi və ümumiləşdirildi. Ümumtəhsil məktəblərində fənlərin, o cümlədən biologiyanın tədrisində tibbi biliklərin verilməsinin zəruriliyi bildirildi. Lakin onun lazımi səviyyədə yerinə yetirilməsinə o qədər də əhəmiyyət verilmədiyi aşkar olundu. Ümumtəhsil məktəb biologiya fənninin məzmununa yaxın olan tibbi məsələlər təhlil edildi və yeni məzmun formalaşdırıldı. Proqram və dərsliklərdə tib-

bi biliklərin öyrədilməsi imkanları ümumiləşdilirdi. Müəyyən edildi ki, fənn kurikulumunun dörd məzmun xəttindən biri "İnsan və onun sağalmlığı"dır. Məzmun xəttinin siniflər üzrə dərslərdə reallaşdırılacaq alt standartları tibbi bilik və bacarıqların aşılanmasını tələb edir. Məsələn, 6-cı sinifdə bitkilərlə [5] bağlı tibbi biliklər dərman bitkiləri, onlardan müalicəvi məqsədlərlə istifadə edilməsi məsələləri verilir. 7-ci sinifdə [6] bitkilərin insan sağlamlığında əhəmiyyəti, dərman bitkilərindən istifadə qaydaları, bakterial, göbələk, virus, qurd xəstəlikləri, onlardan qorunma yolları izah edilir. 8-ci sinif dərsliyində tibbi biliklərin verilməsi imkanları daha da genişlənir. Burada insan orqanizminin quruluşu, onda gedən fizioloji proseslər, onlara təsir edən amillər, onların pozulması halları, orqan və orqanlar sistemlərinin xəstəlikləri, xəstəliktörədicilərlə mübarizə, xəstəliklərin profilaktika və müalicəsi, sağlamlığın şərtləri, vitaminlərin insan sağlamlığına təsiri, sağlam həyat tərzi, ilk tibbi yardımlar kimi tibbi biliklərin verilməsi nəinki mümkündür, hətta vacibdir.

9-cu sinifdə şagirdlərə ətraf mühit amillərinin sağlamlığa təsiri, irsi xəstəliklər, onlardan qorunma yolları, reproduktiv sağlamlıq kimi məsələlər öyrədilir.

10-cu sinif üzrə məzmun standartları əsasında ayrıca bir bölmə tibbi biliklərin verilməsinə həsr edilmişdir. On mövzunu əhatə edən "Epidemiologiya" adlanan bölmənin [8, s.90] hər bir mövzusunun tədrisində müəyyən tibbi biliklərin verilməsi mümkündür. Mövzuların tədrisində epidemiologiya, infeksiya, onun yoluxma yolları və mənbələri, virus, bakterial, göbələk, ibtidai heyvanların, buğumayaqlıların törətdiyi və yaydığı xəstəliklər, onlardan qorunma yolları öyrədilir.

Siniflər üzrə tibbi biliklərin verilməsi 11-ci siniflərdə də davam etdirilir. Belə ki, bu sinifdə insan psixikası, təşviş pozuntuları, depressiyalar, psixozlar, ailənin sağlam münasibətləri, sağlam ailə və onun sağlam övladlarının dünyaya gəlməsi. Onkoloji xəstəliklər, onların səbəbləri, müalicəsi, profilaktikası öyrədilir.

Göründüyü kimi, ümumtəhsil məktəb biologiyasının tədrisində tibbi biliklərin verilməsi sadədən mürəkkəbə, asandan çətinə prinsipi əsasında sistemlə öyrədilir. Belə olduqda məktəbi bitirən məzunlar həyatda lazım olan minimum tibbi bilikləri mənimsəmiş olurlar.

Elmi-pedaqoji, metodiki ədəbiyyatlardada tibbi biliklərin verilməsinə dair alim-pedaqoqların, metodistlərin dəyərli fikirləri təhlil edildi. Problemin metodik ədəbiyyatlarda tam həll olunmadığı aydınlaşdırıldı. Problemin həlli baxımından məktəblərdəki vəziyyət elmi-metodik ədəbiyyat, proqram və dərsliklərin imkanları öyrənilidkdən sonra biologiyanın tədrisində tibbi biliklərin verilməsindəki nöqsanların aradan qaldırılması baxımından metodika işlənildi, problemin həlli yolları tədqiq edildi. Siniflər üzrə tibbi biliklərin verilməsinin səmərəli yolları pedaqoji, psixoloji, metodiki aspektdən yanaşılaraq işlənildi. Biologiyanın tədirsində tibbi biliklərin verilməsinin forma, metod və yolları müyyənləşdirildi. Müşahidə, müsahibə, rollu və əyləncəli təlim xarakterli oyunlar, klaster, tədqiqat, təqdimat və digər metodlar üzrə problemin həllinin üstünlükləri göstərildi. Aşağıda qeyd olunan yolların biologiyanın tədrisində tibbi biliklərin öyrədilməsində səmərəli olduğu eksperimentlə təsdiq edildi.

- Sağlam həyat tərzinin, zərərli vərdişlərə qarşı mübarizənin əsaslandırılması;
- Öyrədiləcək tibbi biliklərin həyatla əlaqələndirilməsi;
- Yeni təlim metodlarının tətbiq edilməsi;
- Fənlərarası və fənndaxili inteqrasiyanın təşkili;
- Şagirdlərin tibbə dair maraq və meyllərinin nəzərə alınması;
- Şagirdlərin sağlamlıq və onun qorunmasına dair problemlərin həllinə cəlb edilməsi;
- Qeyri-standart dərs formalarının (konfrans, əyləncəli və rollu oyun, müsabiqə, ekskursiya, ümumiləşdirici, misal, məsələ həlli, təcrübə, praktik işlər və s.) təşkili;
- Tibbi işçilərinin, xüsusilə həkimlərin dərsə dəvət edilməsi. [11, s.129]

Ekskursiyaların təşkili, xəstəliklərlə mübarizə, sağlamlıq günləri ilə bağlı sinifdənkənar tədbirlərin həyata keçirilməsinin əhəmiyyəti izah edildi. Hazırlanmış yeni metodik sistem

müxtəlif məktəblərdə biologiya dərslərində tətbiq olunması üçün müəllimlərə təklif olundu. Tədqiqatdan alınan nəticələr aşağıdakı kimi ümumiləşdirildi.

Ümumtəhsil məktəblərində biologiyanın tədrisinin müasir tələblər səviyyəsində təşkili və mövzuların tibbi biliklərlə əlaqələndirilməsi şagidrlərdə sğaalmlığını qorumaq, özünün və ətrafdakıların səhhətinə ciddi yanaşmaq, asudə vaxtını səmərəli keçirmək, həyat risklərinə yol verməmək, ekstremal vəziyyətlərdə çıxış yolunu tapmaq, xəstə və qüsurlu insanlara qayğı göstərmək, aqressiv davranışlardan çəkinmək, səbirli, təmkinli olmaq, hərbi çağırışa hazırlığı ilə vətəni qorumaq məsuliyyətini dərk etmək kimi keyfiyyətlər formalaşdırır.

Məktəblilərə tibbi bilik və bacarıqların aşılanmasında sağlamlığa, xəstəliklərə, xalq təbabətinə dair ədəbiyyatın mütaliə etdirilməsi, məntiqi, düşündürücü tapşırıqların verilməsi, tibbin aktual məsələlərini əks etdirən əyaniliklərin hazırladılması, sağlamlıqla bağlı tarixi günlərin, bayram və mərasimlərin keçirilməsi, referat, slaydlar, layihələrin işlədilməsi kimi yollar daha effektli hesab edilir.

Təbiətə, tibb müəssisələrinə ekskursiyaların təşkili, xəstələrlə ünsiyyət, onlara qulluq işləri, sadə tibbi əməliyyatların müşahidəsi, şagirdlərdə praktik biliklər əldə etmək, sarğı, şina, turna qoymaq, ilk tibbi yardım göstərmək kimi bacarıqların, tibbi etikanın inkişaf etdirilməsində mühüm rol oynayır. [11, s.156]

Biologiyadan dərs prosesində tibbi biliklərin fəal təlim metodları ilə müasir tələblər səviyyəsində verilməsi şagirdlərin dünyada və ölkədə baş verən təbii fəlakətlərdən, kriminal hadisələrdən, epidemiyalardan qorunma işlərində, zərərli vərdişlərdən uzaq olmaqda, Vətənin, əhalinin müdafiəsində vətəndaşlıq məsuliyyəti nümayiş etdirməsini reallaşdırır. [2, s.61]

Şagirdlərin sağlamlıqla bağlı ictimai-faydalı əməyə, müxtəlif tibbi müayinələrə cəlb edilməsi onların ailə həyatına təhlükə yaradan xəstəliklərlə mübarizə aparmasında, riskli davranışlardan çəkilməsində, cinsi tərbiyəsində, sağlam ailə həyatına hazırlanmasında, yeni nəslin inkişafında reproduktiv sağlamlığının qorunmasında çox əhəmiyyətlidir.

Məktəblər arasında "Sağlam məktəb", "Siqaretsiz sinif", "Zərərli vərdişlərə son", "Xəstələrə yardım", "Sağlam düşüncə", "Sağlamlıq hər kəsin öz əlindədir" kimi müsabiqə, sərgi, layihələrin, yarış-oyunların təşkili, şagirdlərin dünyagörüşünü artırır, sağlam yaşam problemlərini müstəqil həll etməsinə zəmin yaradır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün biologiya fənn kurikulumu. Bakı, 2013.
2. Hacıyeva H. və b. Ümumtəhsil məktəblərində biologiyanın fəal təlim metodları ilə tədrisi metodikası. Bakı, 2014.
3. Hüseynov Ə., Hacıyeva H. və b. Ümumtəhsil məktəblərində biologiyanın tədrisində kurikulumun tətbiqi. Bakı, 2015.
4. Hacıyeva H.M. və b. Ümumtəhsil məktəblərində biologiyanın tədrisində bitkilərə dair tibbi bilik və bacarıqların aşılanması. Bakı, 2015
5. Seyidli Y., Əhmədbəyli X., Əliyeva N. Biologiya 6. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün dərslik. Bakı, 2017.
6. Seyidli Y., Əhmədbəyli X., Əliyeva N. Biologiya 7. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün dərslik. Bakı, 2017.
7. Məmmədova N. Və b. Biologiya. Dərslik 8-ci sinif. Bakı, 2019.
8. Hacıyeva G. Biologiyanın tədrisi metodikası. Bakı, 2018.
9. Путюков Ю.А. Основы педагогической технологии. М: Просвещение, 2001.
10. İbrahimov F., Hüseynzadə R. Pedaqogika. I cild, Bakı, 2012.
11. Hacıyeva H., Axundova A. Dərman bitkiləri. Dərs vəsaiti. Bakı, 2007.
12. Hacıyeva H., İsmayılova Z. Ətraf mühit amillərinin sağlamlığa təsiri. Bakı, 2020.
13. Hüseynov Ə.M., Məhərrəmov Ə.M. Biologiyanın tədrisi metodikası. Bakı, 2003
14. İsmixanov M. Pedaqogikanın əsasları. Bakı, 2011.
15. Əhmədov H. Pedaqogika. Bakı, 2013

Х.М.Гаджиева

Преподавание биологии в связи с медицинскими знаниями в средних школах

Резюме

В статье рассматриваются проблемы привития учащимся медицинских знаний и навыков при преподавании биологии в общеобразовательной школе. Проанализированы и обобщены пути решения проблемы в научно-методической литературе. Возможности учебников биологии 6-11 классов определяются в плане задач. Изучена деятельность педагогов в этой сфере. Выявлены причины, затягивающие решение проблемы. Обосновано содержание медицинских знаний, которые необходимо преподавать учащимся биологии в общеобразовательных школах. Пути решения проблемы показаны на уроках биологии, даны методические рекомендации учителям в этой области.

H.M.Hajiyeva

Teaching biology related to medical knowledge in secondary schools

Summary

The article examines the problems of imparting medical knowledge and skills to students in the teaching of biology in secondary schools. The ways of solving the problem in the scientific-methodical literature are analyzed and summarized. The capabilities of biology textbooks of grades 6-11 are determined in terms of problems. The activities of teachers in this field are studied. Reasons delaying the solution of the problem are revealed. The content of medical knowledge, which is required to be taught to students in biology in secondary schools, is justified. Ways to solve the problem are shown in biology classes, and methodical recommendations are given to teachers in this field.

Rəyçi: dos. P.M.Qafarova

Redaksiyaya daxil olub: 25.05.2023

G.Q.HÜSEYNOVA
pedaqogika üzrə fəlsəfə doktoru
e-mail: fuad.pirverdiyev@ mail.ru

Gəncə Dövlət Universiteti
(Gəncə ş., H.Əliyev pr., 429)

"KİTABİ-DƏDƏ QORQUD" DASTANLARINDA QƏHRƏMANLIQ, DÜŞMƏNƏ NİFRƏT, DOSTA SƏDAQƏT VƏ RƏĞBƏT TƏRBİYƏSİ

Açar sözlər: *"Kitabi Dədə-Qorqud" dastanı, pedaqoji ideyalar, tərbiyəvi motivlər, tarixi-qəhrəmanlıq ənənələri, ümumibəşəri ideyalar*

Ключевые слова: *эпос «Книга моего деда Коркута», педагогические идеи, воспитательные мотивы, исторически - героические традиции, общечеловеческие идеи*

Key words: *epos of "Kitabi – Dede Korkud", pedagogical ideas, educational motives, historic – tropism traditions, common human ideas*

Qəhrəmanlıq, vətənpərvərlik, torpaq, yurd təəssübkeşliyi dastanın bütün boylarında vardır. Dədə Qorqud öz söhbətləri, alqışları ilə qəhrəmanlıq və vətənpərvərlik hissini coşdurur, oğuz igidlərini bu müqəddəs amallar uğrunda mübarizəyə səsləyir.

Təbii ki, qəhrəmanlıq döyüşdə, vuruşda özünü göstərir. Oğuz igidləri kafirlərin, xalın qonşuların talanlarına, hücumlarına qarşı mübarizədə qələbə çalırlar, çünki mərd və qorxmaz, cəsur və igiddirlər. Maraqlıdır ki, yadellilərdən başqa, paxıl, qəlbidar dostlar belə bəzən igidləri coşdurur, öz çirkin əməlləri ilə onları zor işlətməyə məcbur edirlər.

İgidlik, cəsurluq, mərdlik, sədaqətlilik keyfiyyətləri oğuz qız-qadınlarının bəzəyidir. Ağıllılıq cəsurluqla birləşdikdə daha əzəmətli nəticələr verir. Buna görə də dastanda fiziki hazırlıq igidlik, qəhrəmanlıq üçün nə qədər mühüm şərtdirsə, fənd bilmək, ağıllı, tədbirli, səbrli hərəkət etmək bir o qədər əhəmiyyətlidir.

Tədqiqatçı Nəriman Xəlilov yazır ki, oğuz igidləri sözlərinə bütöv, cəsur, qorxubilməz, mərd və möhkəm iradəlidirlər. Vətəni, yurdu qoruyan gərəkli, qoçaq oğullar, qızlar, kişilər, gəlinlər qadınlar yetişdirmək dastandakı süjet xəttini və Dədə Qorqud öyüdlərinin məzmununu təşkil edir. Dastan qəhrəmanları yüksək iradi, əxlaqi keyfiyyətlər, mərdlik və qəhrəmanlıq nümunələri, döyüş bacarığı, qüvvəti, zahiri görkəmi, ən başlıcası Vətən sevgisi ilə gənclərimizdə qibtə doğurur, əsil örnəyə çevrilir [1, s.19]. Biz bu qənaətlə tamamilə razıyıq. Həqiqətən belədir.

Bəzən tədqiqatçılar dastanı sadəcə qəhrəmanlıq dastanı adlandırırlar. Doğrudur, burada igidlik, qəhrəmanlıq motivləri üstünlük təşkil etsə də, yeganə motiv deyil. Dastan, ümumiyyətlə, insan xarakteri, xüsusiyyətləri, arzuları, düşüncələri, məhəbbəti, nifrəti, həyatı, mübarizəsi haqqında traktatdır. Ona görə də onun etnopedaqoji dəyəri, pedaqoji əhəmiyyəti tarixi olduğu qədər də müasirdir, bu gün üçün gərəklidir.

Dastandakı qəhrəmanlıq və vətənpərvərlik motivləri bir qəbilli, bir ölçülü deyil. Qazan xan qəhrəmanlığı ilə Qaraca Çoban qəhrəmanlığı eyni məqsəd və nəticə daşısa da və hər ikisinin mayasında sədaqət hissi dursa da, həyata keçirilmə vasitə və yolları müxtəlifdir. Hər kəs öz mövqeyi və imkanına görə hərəkət edir. Oğuz igidləri qəhrəmanlıq üçün tərbiyəvi hazırlıq keçiblər. Onlar at çapmağı, qılınc oynatmağı, ox atmağı, küştü tutmağı (güləşməyi) məharətlə bacarırlar. Çünki bunun üçün mükəmməl hazırlıq keçiblər.

Realizmi, həyat həqiqətləri ilə diqqəti cəlb edən dastan mərdliklə namərdliyi, xeyirxahlıqla şər işlər görməyi, sədaqətliliklə satqınlığı və s. qarşı-qarşıya qoyaraq insana xas fəzil və rəzil keyfiyyətləri bəyan edir. Doğrudur düzlük, mərdlik, xeyirxahlıq qələbə çalır. Amma, bu-

nunla yanaşı dastan öyrədir ki, həyat müxtəlif xarakterli insanların doğurduğu ziddiyyətlərlə doludur, hər kəs ona hazır olmalıdır.

Digər bir problem Vətəndə igid oğulların olmasını təmin etməkdir. Məhz ona görə də xanlar xanı Bayandır xan oğul, qız törətməyi tələb edir. Oğulları döyüş, vuruş, güləş sınaqdan çıxarır, qalib olana yüksək ənamlar, bəxşeyşlər, mülk və s. verilir.

Bütün ixtilaflara, düşmən ziyankarlıqlarına baxmayaraq oğuz igidlərinin birliyinin pozulmazlığını görürük və elə tək-tək şücayətlərə baxmayaraq qələbə birlikdədir. Tədqiqatçı N.Xəlilov düzgün qeyd etmişdir ki, mərd, qorxu bilməz Qaraca Çobanın düşmənin yağlı vədinə, vəzifə, rütbə təklifinə qəzəblə cavab verməsi, vuruşaraq onlara divan tutması bu günki gənclərimizə, hərbiçilərimizə hərbi-vətənpərvərlik tərbiyəsi baxımından əvəzi olunmayan ibrətdir, örnəkdir. Bizə belə gəlir ki, "Kitabi-Dədə Qorqud" dastanı yalnız ədəbiyyatımızın, dilimizin, tariximizin qədimliyini, milli qaynaqlarını üzə çıxaran xalq qəhrəmanlığı dastanı olmaqla bərabər, həm də vətəni qorumaq, vətəni sevmək dərsliyidir. İntibah dövrünün bu möhtəşəm abidəsi Oğuz tayfalarının güzəşt bilməyən, möhkəm qorunan qəhrəmanlıq və vətənpərvərlik tərbiyəsinin pedaqoji ensiklopediyasıdır [1, s.36].

Dastanda tərbiyəvi fikirlər, demək olar ki, bütün boylarda biri-birilə vəhdətdə verilir. Çünki əsərdə insana bu və ya digər cəhətləri ilə yox, kompleks yanaşılır. Buna baxmayaraq, müəyyən tərbiyəvi cəhətləri konkret istiqamətlər üzrə ayırmaq mümkündür. Bu istiqamətlərdən biri məhz dosta sədaqət, rəğbət, düşmənə nifrət hissinin əksidir. Hər bir oxucu, hər bir dinləyici bu keyfiyyəti dastandan asanlıqla qavrayır və bunu özündə keyfiyyətə çevirir.

Salur Qazanın evinin yağmalanması boyunda düşmənə nifrət və dosta sədaqət hissi daha parlaq üzə çıxır. Qazan xan evini gəlib yağmalanmış görəndən sonra onun Dərbənd ətrafında 10000-lik sürüsünü bəsləyən çobanın yanına gedir. Gəlib öyrənir ki, kafir düşmənlərin vədlərinə aldanmayan Qaraca Çoban kafirləri pərən-pərən salıb qovub. Qaraca Çobanın dostluq sədaqəti qəmli ürəyinə dayaq olur. Çoban ona gördüklərini danışır. Qazan xan düşmənlərlə döyüşə can atır. Onunla getmək istəyən Qaraca Çobana izn vermir. Onu böyük, köklü bir ağaca bağlayır ki, getməsin. Çoban isə dartıb ağacı kökündən çıxarır, arxasında apara-apara yola düşür. Burada da dost sədaqəti özünü göstərir. Düşmənə nifrət hissi yalnız Qazan xanı, onun oğlu və arvadını deyil, onların ətrafında onlarla dostluq edənlərin hamısını qəzəbləndirir. Məhz bu qəzəb hissi onlara dözüm verir. Qazan xanın arvadını tanıyıb, onun namusuna düşmənçilik təcavüzü etmək istəyən Şöklü Məliyə heç kəs tanışlıq vermir. Qazan xanın arvadı ölümünə razı olur, oğlu ətindən yeməyi anasına məsləhət görür-amma Şöklü Məliyin məqsədinə çatmasına heç cür şərait yaradılmır. Qaraca çoban dost sədaqətini, köməyini elə yüksəklərə qaldırır ki, bütün bu hisslər özü qələbəyə gedən yolu yaxınlaşdırır. Qazan xanla gedən Qaraca Çoban kafirləri lərzəyə salır. Bu zaman Qazan xanın digər dostları-igidləri özünü çatdırır, sədaqətli dostlar birliyi düşmən üzərində qələbəni qazandırır.

"Qaçanı qovmayan", "aman deyəni öldürməyən" Qazan xana qarşı ağır, zillətli düşmən niyyətini həyata keçirməyə çalışan kafir Şöklü Məlik öz əməlinin qurbanı olur. Bütün qoşununu, malını-mülkünü itirir, məhv olur.

Dədəm Qorqud bu hadisələri-düşmənçilikləri, döyüşləri, vuruşları görə-görə bütün bunlardan nəticə çıxarır. Bu nəticə ondan ibarətdir ki, dünya, var-dövlət, vəzifə-titul heç kimə qalmayacaq, insanlar nahaq yerə biri-birilərini qırırlar.

Dastanın "Qazılıq qoca oğlu Yeynək boyu"nda və digər boylarda da dosta sədaqət, düşmənə nifrət hissi qabarıq surətdə aşılanır.

"Qazılıq qoca oğlu Yeynək boyu"nda da 15 yaş cəsurluğa, igidliyə hazırlıq yaşı kimi götürülür. Yeynək 15 yaşını tamam edəndə ona atasının kafir əlində dustaq olduğunu deyirlər. Artıq 16 il idi ki, atası dustaq idi.

Yeynək atasını azad etmək üçün atlanır. Bayandır xan ona 24 vilayətdən igidlər qoşur, bunlar Yeynək kimi dost insanlardır. Onlar kafir düşmən Arşın oğlu Dirək təkürə qalib gələrək, Qazılıq qazanı azad edirlər. "Kitabi-Dədə Qorqud" dastanının sistemli tədqiqatçısı

Ş.Cəmşidov yazır: "Beyrək yoldaşlığa sadiq olmağın ən gözəl nümunəsidir. On altı illik düşmən əsarətindən sonra vətənə gəlib, sevgilisinə qovuşan Beyrək zindanda olan 39 yoldaşını xilas etməyincə, onları zindandan çıxarmayınca, düşmən qalasını almayınca muradına irməyəcəyinə and içir.

Sonuncu boyda da Beyrək mərdanəlik və sədaqətin qurbanı olur. Uruz qoca onu al dillə yanına çağırır, "biz Qazana asi olduq, sən də ol" – deyə öz tərəfinə çəkmək istəyir. Ancaq Beyrək Aruzun başçılıq etdiyi Daş oğuz bəylərindən Baybecanın yeznəsi olduğuna baxmayaraq, (Aruz buna ümid edirdi) Qazana xəyanət etmir: "Mən Qazandan dönməzəm, bəlli, bilgil" – deyir [3, s.43-44]. O, məhv olur, lakin çörəyi itirmir, sədaqətə xəyanət etmir.

Göründüyü kimi, dastanda tərbiyəvi fikirlər sırasında ehtiram, çörək itirməmək, sədaqət kimi keyfiyyətləri aşılayan ideyalar çoxdur və bütün bunlar bu gün daha böyük aktuallıq tələb edir.

Ədəbiyyat

1. N.Xəlilov. "Kitabi-Dədə Qorqud" dastanlarında tərbiyəvi fikirlər. B., 1999.
2. Xəlilov P. "Kitabi-Dədə Qorqud" – intibah abidəsi. B., 1994.
3. Cəmşidov Ş. "Kitabi-Dədə Qorqud"u vərəqləyərkən. B., 1969.
4. Zeynalov F., Əlizadə Ş.T. Tükənməz xəzinə. "Kitabi-Dədə Qorqud" külliyyatı. B.; Yazıçı, 1988, – s.5-28.
5. Журминский В.М., Тюркский героический епос. Л., 1974.

Г.Г.Гусеинова

Мотивы воспитание гераичество, ненависть врага и верность друга в эпоса «Книга моего Деда Коркута»

Резюме

В статье, из исследований очередной раз выяснено, что «Книга моего Деда Коркута» является одним из ценных источников Азербайджанской педагогической мысли. В этом произведении отражены высшие гуманные идеи, духовное величие, героизм, призыв к мужеству и высокие человеческие чувства. В статье выяснены и анализированы идеи, имеющие педагоги-ческую и психологическую суть и значимость, а также показаны ценные особенности, необходимые для современного времени.

Статья может быть полезна для ученых – исследователей, а также учителей практики.

G.Q.Huseynova

Educational motives in epos of "Kitabi – Dede Korkud"

Summary

It is clear from researches that, "Kitabi – Dede Korkud" is one of the main sources of the pedagogical thought of Azerbaijan. In this work have been etched the great ideas of humanism, authority, summons to heroism and manliness, superior human senses. In article analysis and lighted the ideas on pedagogical and psychological importance, also investigated the important features of them for the modern period.

This article would be useful for both researchers – scientists, also practical teachers.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olma: 03.02.2023

Ş.M.İBRAHİMOVA

Bakı Dövlət Universiteti (Qazax filialı)
(Qazax, Heydər Əliyev pr., 208)

ALİ MƏKTƏBLƏRDƏ RUS DİLİNİN XARİCİ DİL KİMİ TƏDRİSİ METODİKASI

Açar sözlər: *rus dili xarici dil kimi, tədris metodikası, doğma dil, interferensiya*
Ключевые слова: *русский язык как иностранный, методика преподавания, родной язык, интерференция*
Key words: *Russian as a foreign language, teaching methods, native language, interference*

Müasir dünyada xarici dilləri bilmək çox vacibdir. Rus dili dillər arasında mühüm yer tutur və son illər bu dilin öyrənilməsinə maraq və tələbat getdikcə artır. Respublikamızda xarici dillərin bir fənn kimi tədrisi ön plana çəkilir və bu tədris modeli kimi geniş vüsət alıb. Bu gün xarici dilləri bilmək böyük önəm kəsb edir. Rus dili isə Azərbaycan və Rusiya arasında siyasi, iqtisadi, ikitərəfli münasibətləri həyata keçirmək üçün çox vacibdir, eləcə də sıravi vətəndaşlar səviyyəsində əlaqələri əhatə edən əməkdaşlığı inkişaf etdirir. Dünya dilləri arasında da beynəlxalq ünsiyyət vasitəsi kimi rus dilinin rolu böyükdür. Hazırda Rusiyadan kənarda 20 milyona yaxın insan rus dilində danışır, 90-dan çox ölkədə rus dili öyrənilir. Son illər rus dilinə maraq günü gündən artmaqdadır. Bu gün bütün dünya MDB ölkələrində gedən dəyişiklərə böyük maraq göstərir. Elmi informasiya mübadiləsi üçün də rus dilinin beynəlxalq dil kimi rolu böyükdür. Bu, ilk növbədə müasir elmin beynəlxalq xarakteri və onun misilsiz inkişaf tempi ilə izah olunur.

"Metodika" sözü yunan sözü "metodos" sözündən əmələ gəlmiş və "yol" mənasını vermişdir. Hal-hazırda bu söz iki mənada işlənir: 1. Hər hansı bir fənnin tədrisində müəllimin texnikalarının, metodlarının, iş formalarının məcmusu, yəni müəllimin məharəti, qabiliyyəti, bacarığı. 2. Tədris prosesinin maksimum nəticəsinin əldə edilməsi imkanlarını və vasitələrini öyrənən elm, yəni hər hansı bir fənnin tədrisi nəzəriyyəsi. Bizim obyektimiz isə əcnəbi tələbələrə rus dilinin xarici dil kimi tədrisi metodikası olacaq. Metodik elm təcrübədən yaranmışdır. Elm və təcrübənin inkişafı tam qarşılıqlı əlaqədə baş verir. Bilirik ki, nəzəriyyə həmişə təcrübə ilə zənginləşdirilir. Ancaq eyni zamanda, təcrübə yalnız müəyyən biliklərə, teoretik nümunələrə əsaslandıqda uğurla həyata keçirilə bilir. Metodologiya tətbiqi-nəzəri bir elmdir. Burada müəllimin sənəti, onun ümumi metodik tövsiyələri konkret təlim şəraitinə uyğunlaşdırmaq bacarığı həmişə böyük əhəmiyyət kəsb edir. Metodologiyanın əsas məqsədi rus dilinin xarici dil kimi tədrisi prosesinin optimal, ən uyğun təşkilini müəyyən etməkdir. Eyni zamanda nəzərə almaq lazımdır ki, tədris prosesi bir sıra komponentlərdən ibarətdir: 1. Öyrənən-şagird, tələbə, dinləyici. 2. Öyrədən-müəllim. 3. Müəllim və şagirdin, tələbənin fəaliyyətini birləşdirən tədris edilən fənn. Bütün bu komponentləri metodologiya ayrı-ayrılıqda və əlaqə şəklində öyrənir. Rus dilinin ali məktəblərdə öyrənilməsi məqsədləri də müxtəlifdir. Məsələn, bəziləri işə daxil olmaq üçün, bəziləri hansısa bədii kitabı orjinaldan oxumaq üçün, bəziləri Rusiya dövlətinə yaşamağa getdiyi üçün. Bu səbəbdən rus dilini xarici dil kimi öyrənən tələbələrdə bundan təcrübədə istifadə etmək və bunun yaratdığı imkanlardan yararlanmaq perspektivləri çoxdur. Xarici tələbələrə rus dilinin öyrədilməsinin əsas məqsədi onlara rus dilində səlis danışmağı, fikirlərini ifadə etməyi, həmsöhbətlərini başa düşməyi, sifahi və yazılı məlumatları şərh etməyi bacarmaqdır. Təlimin ilkin mərhələsi ən çətin və ən vacib olan mərhələdir, və bu xarici dilin yüksək səviyyədə öyrənilməsini müəyyən edir. Öyrənəni tez bir vaxtda dilin sisteminə necə daxil etmək lazımdı sualı çıxır ortaya. İlk dəfə xarici dil kimi rus dilində tədrisə başlayan müəllimin qarşısında duran metodik proble verilən saatların miqdarını (həftədə 4 saat, 14 saat

və ya 24 saat olmaqla) bu saatların paylanmasını nəzərə alaraq təlimin məqsədini dəqiq müəyyən etməkdir. Öyrənmənin ilkin mərhələsinə gəldikdə, xüsusilə tələffüz vərdişlərinin formalaşması zamanı, dilin intensiv öyrənilməsinin zəruriliyi barədə metodistlərin təkzibedilməz fikri mövcuddur. Yaxşı olar ki, bu müddət ərzində həm sinifdə, həm də evdə intensiv iş aparılsın, mümkünsə, tələbələr üçün fərdi dərslər və məsləhət saatları keçirilsin. Bu mərhələdə giriş fonetik kursunun zəruriliyi yaranır və onun müddəti bir çox amillərdən asılı ola bilir (təlimin məqsədi, tələbənin ana dilinin fonetik sisteminin rus dilinin fonetik sisteminə yaxınlığı və sairə). İkinci metodoloji problem – ana dilinin yerini rus dili xarici dil kimi öyrənilən dərslərdə müəyyən etmək. Dil materialını təqdim edərkən, tərcümədən və müqayisələrdən istifadə etmək olar. Tərcümə anlamanın dərinliyini yoxlamaq üçün ən yaxşı yoldur. Əldə edilmiş bilikləri möhkəmləndirərkən tərcümədən istifadə olunmur. Bilik və bacarıqları tez və qənaətlə yoxlamaq üçün tərcüməyə müraciət olunur. Tələbələrin ana dilini nəzərə almaq, əsasən, təlim üçün materialın hazırlanmasında (fonetik, qrammatik və leksik materialların) öz yerini tapır. Bizim nöqteyi-nəzərdən dil tədrisi öyrənilən dildə aparılmalıdır. Dərsdə müəllimlər sözlərin tərcümələrini deyirlər və tələbələr tərcümələri yazırlar. Lakin rus dili dərslərində tələbələr ana dilində danışmamalıdırlar. Müəllim materialı tələbələrin ana dilində izah etməyə əl atma-malıdır. Hətta ilkin mərhələdə sözləri öyrədərkən müəllim sözlərin izahını tərcümə ilə deyil, əyani vasitələrin köməyi ilə və ya sözlərin mənasını ümumi mətndən kontekstdən müəyyən etmək bacarığına aparır, sözləri nitqdə mənimsəməyi öyrədir. Belə olan halda hər bir sözün ayrı-ayrılıqda tərcüməsinə ehtiyac olmur.

Öyrənmənin ilkin mərhələsi üçün lüğətin seçilməsi prinsipinin müəyyən edilməsi üçüncü problemdir. Əsasən gündəlik məişət sözləri, qəzet, ictimai-siyasi sözlər, xüsusi sözlər. Sözlərin leksik əlaqələrini, qohum sözlərin uyğunluğunu nəzərə almaq lazımdır. Cümləyə daxil olunmuş hər bir söz həm fonetik, həm də qrafik formada eyni vaxtda mənimsənilir. İlkin mərhələdə sözlərin müxtəlif mənaları, sinonimlər məhdud şəkildə verilir. Leksikanın əsas hissəsi aktiv leksikadı. Bu mərhələdə oxuna bilən mətnlərin sayı məhduddur, leksikanın əsas hissəsi aktiv və sabitdir. Tematik prinsip təlimin ilkin mərhələsində sonrakı mərhələlərinə nisbətən daha çox rol oynayır. Qrammatika həmişə mövzu ilə bağlıdır. Məsələn: Винительный падеж – mətn «Магазин», Предложный падеж mətn «В нашем городе». Rus dilini öyrənərkən şifahi nitq, oxu və yazı arasında əlaqə olmalıdır. Yeni material əvvəlcə şifahi şəkildə mənimsənilməli və oxunacaq olan mətndən həcminə görə daha böyük olmalıdır. Dili xarici dil kimi öyrənilərkən təkrarlanma faktoru çox vacibdir, çunki belə təlim eşitmə qavrayışını və eşitmə yaddaşını inkişaf etdirir. Rus dilinin xarici dil kimi tədrisi təcrübəsi, rus dilinin xüsusiyyətləri əsasında aparılan eksperimentlər şifahi nitq, oxuma və yazı üzərində eyni vaxtda işləmək zərurətini təsdiqləyir. Belə olan halda, tələbələr müxtəlif bacarıqlara, müəyyən bir dil biliyinə nail olmaq üçün daha az vaxt sərf edərlər.

Bu mərhələdə çoxlu sayda tapşırıqların, öyrənilən materialın oxunan mətnə daxil edilməsi, şifahi nitq, yazı materialın daha maraqlı və yaddaqalan edər. Rus dilini xarici dil kimi tədris edərkən bir qrupda müxtəlif peşəyönümlü tələbələrə rast gəlirik: hüquqşünas, iqtisadçı, fizik, filoloq, riyaziyyatçı, tarixçi və sairə. Belə olan halda tədqiqat obyekti nitq olmalıdır, dil isə nitq fəaliyyətinin obyektiv əsası kimi qəbul edilməlidir. Tələbələr rus dilində dil ünsiyyətinin əsas nitq fəaliyyətlərində, yəni dinləmə, oxuma, danışma və yazmaqda iştirak etmək bacarığı əldə etməlidirlər. Belə olan halda müəllimin əsas məqsədi öyrənilən material əsasında şifahi formada şifahi ünsiyyət bacarıqlarını aktivləşdirməlidir. Dil mühitinin olmaması, eləcə də bütün digər fənlərin ana dilində tədris olunması bu məqsədə çatmaq üçün əlavə çətinliklər yaradır. Beləliklə, tələbə şifahi danışıq nitqində əldə etdiyi biliklərdən praktiki olaraq yalnız rus dili dərslərində istifadə edə bilər. Deyilənlərin hamısı rus dilində tədris materialının xarici auditoriya üçün hazırlanmasının nə qədər çətin və məsuliyyətli olduğunu bir daha göstərir. Tələbələrin yaddaşının və yaradıcılığının inkişafında aparılan işlər bunlardır: 1. Müəllimin suallarının bir hissəsinin təkrarı ilə müəllimin suallarına cavab vermək, məsələn: “Где живёт

Анар?” Tələbə cavab verir: “Анар живёт в Баку”. 2. Mətni dinləyərkən mətnin bir sıra sözlərini, məsələn vaxtı bildirən sözləri yazmaq və sonra bu sözləri təkrar danışarkən istifadə etmək. 3. Müəllimdən sonra ifadələrin təkrarlanması, açar sözlərdən istifadə edərək mətnin danışılması. Rus dilinin xarici dil kimi tədrisində suallara cavab vermək geniş istifadə olunmalı, verilmiş nümünələrə uyğun cümlələr tərtib olunmalı, ismi əvəzliklə əvəz edilməsinə nail olmalı və sairə. Dil hadisələri nitq situasiyalarında reallaşır. Mətndə isə leksik və qrammatik materiallar möhkəmlənir. Mətnə olan əsas tələblər: tələbələrdə maraq oyatmalıdır; mətnin müəyyən kommunikativ dəyəri olmalıdır; mətn dilin əsas üslub xüsusiyyətlərini əks etdirməlidir; mətn əsas məlumatı, məntiqi aydınlıq daşımalıdır. Təlim prosesində hər bir müəllim tələbələrə mətnlərin növlərini ayırd etməyi, onun strukturunu tanımağı, dil formaları ilə semantik kateqoriyalar arasında əlaqəni görməyi öyrətməlidir [2]. Əcnəbi tələbələrə ardıcıl ifadə qurmaq bacarıqlarının formalaşdırılması öyrədilməlidir. Tələbələrin monoloq qurmaqları onların müzakirələrdə, diskussiyalarda, söhbətlərdə iştirak etmək üçün zəruridir. Yəni tələbələrin qarşısında duran kommunikativ bacarıqlar əsasən monoloq səviyyəsində həyata keçirilə bilər. Təlimin məzmununun müəyyən edilməsində sintaksis xüsusiyyətlərinin öyrənilməsi əsas vəzifədir. Buna görə də, bütün tədris materialı sintaktik əsasda təqdim olunur. Bu da əsas kommunikativ vahidin, yəni cümlənin, vasitəsilə dilə və onun sisteminə çatmağı mümkün edir. Cümlə səviyyəsindəki ifadələr daha böyük kommunikativ vahidə, mətnə keçməlidir. Lakin, düzgün cümlələr tərtib etmək üçün təkcə söz ehtiyatı və qrammatik qaydaları bilməklə kifayətlənmək olmaz, burada həm də hitq ifadəsinin qurulması proqramı həyata keçirilməlidir. Bu cür proqramları tərtib etmək və həyata keçirmək bacarığı xüsusi olaraq öyrədilməlidir. Tədris materialı elə verilməlidir ki, ilk dərslərdən tələbələr təklif olunan tədris mətninə bənzətmə yolu ilə öz cümlələrini qurmaq bacarığını öyrənə bilsinlər. Mətnlərin məzmunu, onların linqvistik tərtibatı və struktur tərkibi tələbələr üçün öz ifadələrini qurmaq üçün bir növ nümunə rolunu oynayır. Tapşırıqlar sistemi tədris zamanı mühüm rol oynayır. Tədris zamanı əsas yeri kommunikativ tapşırıqlar tutmalıdır. Yalnız nitq və ünsiyyət tapşırıqları bilik və bacarıqların formalaşmasını təmin edə bilər. Dərslərin hər bir mərhələsində tədris elə aparılmalıdır ki, tələbələr tapşırıqların yerinə yetirilməsindən kommunikativ ünsiyyət tapşırıqlarına, forma və məzmunca hazırlanmış nitqdən hazırlıqsız nitqə keçməlidirlər. Bu baxımdan elə mətn və tapşırıqlar daxil etmək lazımdır ki, tələbələrin rus dilindən ünsiyyət vasitəsi kimi öz ehtiyaclarını ödəyə bilsinlər. Belə olan halda dərs deyən müəllimində vəzifəsi sadə repetitor-müəllim olmamalıdır, o, tələbələrə təklif olunan məlumatın başa düşülməsi və təkrar istifadəsi üçün lazım olan əlaqələri, mənaları, münasibətləri tapmağı öyrətməlidir. Xarici dilin tədrisində əsas məqsəd həmin dildə danışan insanların mədəniyyətini öyrənməkdir, tədqiqat obyektləri isə linqvistik şuur, linqvistik anlayışlar, dünyanın linqvistik mənzərəsidir. Eyni zamanda, dil mədəni faktların təmsil forması kimi qəbul edilir [4].

Beləliklə, məqalədə rus dilinin xarici dil kimi tədrisinin əsas üsulları təhlil edilir. Əcnəbi tələbələrə rus dilinin öyrədilməsinin əsas məqsədi onlara rus dilində səlis danışmağı öyrətməkdir ki, bu da onların gələcək həyatlarında lazım olacaq.

Ədəbiyyat

1. Шукшин А.Н. Обучение иностранным языкам. Москва, 2014
2. Чуваева К.М. Контроль в обучении иностранных студентов на начальном этапе подготовки в ВУЗ // Русский язык и литература в пространстве мировых культур. Материалы XII конгресса МАПРЯЛ, 2015
3. Белоглазова Л.В., Бондарева О.В. Электронные средства как основа образовательного процесса в современном вузе // Вестник Российского университета дружбы народов. М., 2015
4. Чеснокова М.П. Методы преподавания РКИ. Москва, 2015

Ш.М.Ибрагимова

Методика преподавания русского языка как иностранного в ВУЗах

Резюме

В статье анализируются современные методы преподавания русского языка иностранным студентам. Использование данных методов имеет целью научить иностранцев говорить на русском языке, конкретизировать задачи преподавателя и развивать языковые навыки иностранных студентов в неязыковой среде.

Sh.M.Ibrahimova

Methodology of teaching Russian as a foreign language in higher schools

Summary

The article analyzes modern methods of teaching the Russian language to foreign students. The use of these methods is aimed at teaching foreigners to speak Russian, concretizing the tasks of the teacher and developing the language skills of foreign students in a non-linguistic environment.

Rəyçi: f.e.d. V.B.Nəsibov

Redaksiyaya daxil olub: 10.04.2023

N.Q.İSGƏNDƏROVA
e-mail: 99nabat99@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə ş., H.Əliyev pr., 429)

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ƏXLAQ TƏRBİYƏSİNİN TƏŞKİLİ İMKANLARI

Açar sözlər: *məktəbəqədər yaşlı uşaqlar, folklore nümunələri, peşə qabiliyyətləri, peşəyünümü, əxlaqi keyfiyyətlər, ailə tərbiyəsi*

Ключевые слова: *дети дошкольного возраста, образцы фольклора, профессиональные способности, профессиональная ориентация, нравственные качества, семейное воспитание*

Key words: *preschool children, folklore samples, professional abilities, professional orientation, moral qualities, family education*

Məktəbəqədər yaşlı uşaqların əxlaqının saflaşdırılması ilə bağlı həyata keçirilən işlər, əsasən, iki istiqamət üzrə aparılır. Birincisi ailələrdə uşaq dil açıb danışan kimi, onun tərbiyəsi ilə məşğul olmaq zərurəti yarandığı üçün bu işi məqsədyönlü, planlı və mütəşəkkil olaraq həyata keçirmək lazım gəlir. Təcrübə və müşahidələr göstərir ki, bu işin təşkili əksər ailələrdə ya həyata keçirilmir, ya pis həyata keçirilir, ən yaxşı halda pedaqoji tələblərə, tərbiyənin prinsip və üsullarına istinad etmədən həyata keçirilir. Bunu nəzərə alaraq körpəlik dövründən başlamaq şərti ilə uşaqların tərbiyəsini, xüsusilə onların əxlaq tərbiyəsini elmi-pedaqoji əsaslara istinad etməklə inkişaf etdirib formalaşdırılması üçün bir sıra elmi ideyaların, müddəaların irəli sürülməsini və bəzi tövsiyələrin verilməsini məqsədəuyğun hesab etmişik.

Ümumiyyətlə, uşaqların tərbiyəsi dedikdə birinci tərəfin, yəni valideynin, tərbiyəçinin ikinci tərəfə qayğı göstərib onu yetişdirməsi kimi başa düşülür. "Əxlaq tərbiyəsinin mahiyyəti dedikdə adamın özünə, başqalarına (dosta, tanışa, böyüyə, kiçiyə, qadına, kişiyə, başqa xalqlara və s.), əməyə, vətənə, ictimai quruluşa, ictimai-siyasi qrup və təşkilatlara, dövlətə və s. olan münasibətinin süurlu surətdə formalaşdırılması nəzərdə tutulur. Bu cür münasibətin formalaşdırılması prosesi – əxlaq tərbiyəsi prosesidir" [3, s.103].

İstər Azərbaycanda, istər Türkiyədə, istərsə də bütün dünyada insanın davranışı ilə bağlı olan keyfiyyətlər əxlaq kimi başa düşülür. "Əxlaq tərbiyəsi" anlayışına qədər Əbu Əli Misgəvehin "Ət-təharə" və Nəsirəddin Tusi tərəfindən yazılan "Əxlaqi-Nasiri" əsərlərində əxlaqın saflaşdırılmasından söhbət açılır. Əslində bütün türk dilli xalqlar uşağın tərbiyəsi əvəzinə onun əxlaqının saflaşdırılması ifadəsini işlədirlər. Xalq pedaqogikası materiallarında da əxlaq insanın davranış və fəaliyyəti ilə bağlı olan mənəvi keyfiyyətlərin tənzimlənməsi kimi izah edilir. Etnopedaqogikada əxlaq həmin davranış və fəaliyyət normalarının tələblərinin, prinsiplərinin, üsullarının məcmusu kimi aydınlaşdırılır.

Xalq arasında əxlaq sözü çox vaxt ismətli, iffətli, ədəbli, təbiyəli sözlərinin sinonimi kimi də işlədilir. Nəcib əxlaqlı adam haqqında belə deyilir: "O, əsl adamdır, insani adamdır, təbiəti, xasiyyəti yaxşıdır, mərifət elmindən dolu insandır, ədəb-ərkan sahibidir, qənim adamdır" [6, s.160-161] və i.a. Bütün bu anlayışlar, söz və ifadələr eyniyyət təşkil etməsələr də, mənaca bir-birinə yaxındır. Belə ki, onların hamısı, əslində, insanın mənəviyyatına, dəruni aləminə aid sifətlər toplusunu əhatə edir. Bu sifətlər isə tarix boyu təşəkkül tapıb müəyyənləşir və insanların ailəyə, öz-özlərinə, başqalarına, əməyə, cəmiyyətə və s. olan münasibətlər və rəftarını nizama salır. Məlum olduğu kimi, etika elmi də əxlaqın mahiyyətini təqribən bu cür mənalandırır, ona insanın davranış prinsip və normalarının məcmusu kimi baxır.

Xacə Nəsirəddin Tusi əxlaqın və əxlaqa zidd hərəkətlərin təzahürlərini müəyyənləşdirərək onu təsnif etmişdir. Böyük mütəfəkkir əxlaqi təzahürləri fəzilətlər, əxlaqazidd təzahürləri isə rəzilətlər adlandırmışdır. Azərbaycan xalq pedaqogikasında əxlaqlı adamlar belə səciyyələndirilir:

– fəzilət tərəfdarı olmalıdır; şərdən və qəbahət sayılan şeylərdən uzaq durmalıdır; xeyri, ədaləti, hüquq bərabərliyini müdafiə etməlidir;

– əməyi sevməlidir, zəhmət və mübarizə prosesində çətinliyə rast gəlsə, ruhdan düşməməli, öz gücünə inanmalıdır;

– birliyi sevməli, çoxluğa qoşulmalı, elə arxalanmalı və nikbin olmalıdır;

– öz vətənini, yaşadığı torpağı sevməli və ona gücü ilə xidmət etməlidir; həmin torpaqda yaşayan bütün xalqlara, ilk növbədə isə, öz millətinə sadiq qalmalıdır; xalqın həyatını yaxşılaşdırmaq üçün sadəqətlə çalışmalıdır; yaşadığı doğma torpağın və mənsub olduğu xalqın düşmənlərinə, nurlu həyata olan yolu kəsən hər cür xəbis qüvvələrə qarşı həqiqi mübariz olmalıdır;

– humanist, həssas və qayğıkeş olmalıdır; irqindən və milliyətindən asılı olmayaraq bütün xalqların zəhmətkeşlərinə, mütərəqqi nümayəndələrinə hörmət bəsləməlidir; yaxşı adamların dərdinə şərik olmalı, insanları incitməməlidir; [6, s.197].

Əxlaq tərbiyəsinin ilk elementlərini məktəbəqədər yaşlı uşaqlara aşılamaq üçün çalışmışıq ki, həmin elementlər uşaqlar üçün artıq yükə, qeyri-adi tapşırığa bənzəməsin. Bunun üçün öncə tərbiyə verənin özü qarşısına məqsəd qoymuşuq ki, o, əxlaq tərbiyəsinin tarixindən tutmuş mahiyyətinə və məzmunina dair nə qədər nəzəri materiallar varsa, onların hamısını araşdırsın, öyrənsin və həyata keçirilməsi yollarını mənimsəsin. Əslində əxlaq tərbiyəsinin məzmununu bilmədən bu işə başlamaq əbəsdir. Əxlaq tərbiyəsinin məzmunu deyəndə nə başa düşülür?

"Əxlaq tərbiyəsinin məzmununa gəldikdə bu da onun mahiyyəti ilə bağlıdır. Məsələn, nəzakətlilik, təvazökarlıq, sadəlik, ədəblilik, qanacaqlı, mərifətli olmaq kimi sifətlər, ilk növbədə, adamın özünə; işgüzarlıq, əməksevərlik – əməyə; vətənpərvərlik, vətən xainlərinə qarşı barışmazlıq və s. – Vətənə; dostluq, yoldaşlıq, xeyirxahlıq, humanistlik və s. – başqalarına olan münasibətlə bağlı keyfiyyətlərdir. Eyni qayda ilə düzlük, doğruçuluq, kollektivçilik, beynəlmiləlçilik, şəxsi və ya ictimai mənafeyi üstün tutmaq kimi əxlaqi sifətlər də bu və ya digər obyektə münasibəti bildirən keyfiyyətlərdir. Formalaşdırılması vacib olan, əxlaq tərbiyəsinin məzmununu təşkil edən bu keyfiyyətlər çoxdur" [1, s.103-104].

Pedaqoji ədəbiyyatda əxlaq tərbiyəsi tərbiyənin əsası, kökü, zəruri şərti, nəticəsi, əksər hallarda tərkib hissələrindən biri kimi izah edilmişdir [5, s.155]. Deməli, əxlaq tərbiyəsinin məzmununa daxil olan əsas meyar davranışla əlaqədar olan mənəvi keyfiyyətləri, cəmiyyətə və insanlara qarşı ən yaxşı münasibətləri tənzimləyən nümunəvi qaydaları müəyyən edir. Həmin nümunəvi qaydalara əsaslanan fəzilətlər isə insanlara hörmət və ehtiram qazandırır. Həmin insanlar cəmiyyət içərisində böyük hörmətə və dərin ehtirama sahib olurlar. Belə hörmət və ehtiramı qazanmaq üçün pedaqoji təsirlərin gücündən istifadə etmək lazım gəlir. Həmin təsirlərin isə uşaqlara lap kiçik yaşdan, özü də folklor materiallar vasitəsilə göstərilməsi daha çox fayda verir. Çünki folklor vasitəsilə göstərilən təsirlər nəticəsində yaranan əxlaqi keyfiyyətlərin gücü çox, təsiri isə uzunömürlü olur. Məhz ona görə də Azərbaycan və türk folklore materiallarından istifadə etməklə məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin inkişaf etdirilməsi daha çox fayda verir. Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin məzmununda bir sıra komponentlər mövcuddur. Hansı ki, həmin əxlaqi komponentlər bir sıra pedaqoji pedaqoji ədəbiyyatda əxlaqi sifətlər kimi də tədqim edilir. Əslində əxlaqi sifətlər özü-özlüyündə əxlaq tərbiyəsinin komponentləri hesab olunur. Elə həmin əxlaqi sifətlərdən biri əməksevərlikdir. Əməksevərlik bütün etnopedaqoji nümunələrdə öz əksini tapır. Bu istər Azərbaycan folklorunda, istərsə türk folklorunda, bütün nümunələrində öz əksini tapır. Laylalar, bayatılar, deyimlər, düzümlər, tapmacalar, bayatılar, gülməcələr, rəvayətlər, dastanlar, rəvayətlər, nağıllar, əsatirlər kimi Azərbaycan folkloru nümunələrinin, eləcə də türk folklorunun lətifələr, ata sözləri, deyimlər, manilər, laylalar, ninnilər, masallar, menkabelər, hekayələr, rəvayətlər, fıkralar (lətifələr), bilməcələr (tapmacalar) kimi nümunələrinin əməksevərlik, işgüzarlıq, əməyə vicdanlı münasibət, halal əməyə vicdanlı münasibət, halal əməyə sevgi kimi əxlaqi keyfiyyətlər tərbiyənin leytmotivi hesab olunur. Hər iki folklor materiallarında yuxarıda sadalanan nümunələrdə təcəssümünü tapan əxlaqi keyfiyyətlər məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Məktəbəqədər yaşlı uşaqlara əməksevərlik kimi əxlaqi sifətlərin aşılanması laylalarda, atalar sözlərində, ninnilərdə anaların uşaqlara arzuladıqları halal əməklə məşğul olmaq, halal iş görmək, yaxşı sənətə yiyələnmək, əsl sənət adamı olmaq, nümunəvi peşəyə yiyələnmək, əməyi ilə xariqələr öz təcəssümünü tapır. Belə əxlaq tərbiyəsi nümünələrində tərbiyəçilər pis əməllərdən təcrid olunmağı arzu edirlər. Digər folklor materiallarındakı elementlərinin seçilib məktəbəqədər yaşlı uşaqlara çatdırılması onların əxlaqının saflaşdırılmasında mühüm rolu oynamaqla yanaşı, onları öz qabiliyyətlərinə uyğun əmək sərf etməyə də alışdırır. Bu isə çox böyük diqqət yetirilməli və önəm verilməli məsələdir. Niyə? Birincisi, ona görə ki, uşaqların əməyə, peşəyə müvafiq qabiliyyətlərinə uyğun olan işlərlə məşğul olmağa yönəldilməsi pedaqoji cəhətdən yüksək qiymətləndirilir. İkinci tərəfdən isə məktəbəqədər yaşlı uşaqlarla peşəyönümü üzrə iş aparmağa böyük stimul yaranmış olur. Burada məsələnin əsas tərəflərindən biri də həm valideynlərin, həm tərbiyəçilərin və metodistlərin bu məsələyə böyük önəm vermələrindən ibarətdir. Valideynin və tərbiyəçinin məktəbəqədər yaş dövründən etibarən uşaqların əmək məşğulluğuna düzgün istiqamət vermələri çox vacibdir.

Azərbaycan və Türkiyə folkloru materiallarında səpələnmiş halda istənilən qədər uşaq folkloru nümunələri vardır. Onların bir qismi məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin inkişafı üçün çox yararlıdır. Lakin onların birgə imkanlarından uşaqların əxlaq tərbiyəsinin təşkili üçün istifadə edilməmişdir.

Ədəbiyyat

1. Abbasov A.N. Ailə pedaqogikası. Bakı: Mütərcim, 2022, – 296 s.
2. Əliyev R.İ. Mentalitet. Bakı: Təhsil, 2018, – 126 s.
3. Həşimov Ə.Ş., Sadıqov F.B. Pedaqogika (tərbiyə nəzəriyyəsinə dair mühazirələr). Bakı: Təbib, 1995, – 248 s.
4. Həsənov A.M. Məktəbəqədər pedaqogika. Bakı, 2000, – səh. 20-30
5. Kazımov N.M. Tərbiyənin elmi-pedaqoji əsasları. Əsərləri. VI cild – Bakı, OKA Ofset, 2014, –299s.
6. Sadıqov F.B. Azərbaycan xalq pedaqogikası. (dərs vəsaiti). Bakı: Ünsiyyət, 2010, – 272 s.

Н.Г.Искендерова

Организационные возможности нравственного воспитания с детьми дошкольного возраста

Резюме

Определено, что подбор элементов фольклорного материала и доведение их до детей дошкольного возраста не только играет важную роль в воспитании их качеств, также приучает их работать в соответствии со своими способностями. Во-первых, потому, что с педагогической точки зрения высоко ценится направление детей на работу, соответствующую их способностям к труду и профессии. Во-вторых, появляется большой стимул заниматься с детьми дошкольного возраста по ориентации специальности.

N.G.Iskenderova

Organizational opportunities for moral education with preschool children

Summary

It has been determined that the selection of elements of folklore material and bringing them to preschool children not only plays an important role in educating their qualities, but also teaches them to work in accordance with their abilities. Firstly, because from a pedagogical point of view, sending children to work corresponding to their abilities for work and profession is highly valued. Secondly, there is a great incentive to work with children of preschool age in the orientation of the specialty.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 18.03.2023

Z.R.İSMAYILOVA
biologiya üzrə fəlsəfə doktoru
baş müəllim

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

ÜMUMTƏHSİL MƏKTƏB BİOLOGİYASININ TƏDRİSİNDƏ HEYVANLARA QARŞI EKOLOJİ MƏDƏNİYYƏTİN AŞILANMASI

Açar sözlər: *biologiya, ekoloji mədəniyyət, heyvan, tədris, canlı guşə, bilik, bacarıq, buğumayaqlılar tipi, balıqlar sinfi*

Ключевые слова: *биология, экологическая культура, животное, учение, живой уголок, знание, умение, вид членистоногих, класс рыб*

Key words: *biology, ecological culture, animal, teaching, living corner, knowledge, skill, type of arthropods, class of fish*

Ümumtəhsil məktəb fənlərinin tədrisində şagirdlərə təbiət və cəmiyyət əlaqələrini, ekoloji problemlərin həllini öyrətmək, canlıları qorumaq vərdişləri aşılamaq üçün böyük imkanlar mövcuddur. Bu baxımdan biologiyanın məzmunu təhlil edildi. Fənnin tədrisində ekoloji mədəniyyətin aşılanması imkanları baxımından biologiyanın imkanlarının geniş olduğu müəyyən edildi. Belə ki, ümumtəhsil məktəblərində biologiyadan heyvanlar aləmi 7-ci siniflərdə öyrədildiyindən həmin sinif materialları əsasında şagirdlərə heyvanların ekologiyasını öyrətmək və ekoloji mədəniyyətin aşılaması imkanları daha genişdir.

Uşaqlar kiçik yaşlarından bitki, heyvan, onların hərəkəti, davranışı ilə maraqlanır, müxtəlif mənbələrdən məlumat alırlar. Valideynlər, tərbiyəçilər tərəfindən bəzi bitki və heyvanların qayğıya ehtiyacı olduğunu, qorunmasının səbəblərini öyrənirlər.

Ümumtəhsil məktəblərinin ibtidai siniflərində şagirdlərə ana dili, həyat bilgisi dərslərində ekoloji biliklərə dair sadə anlayışlar öyrədilir. Müxtəlif fənlərin tədrisində canlılar, xüsusilə bitki və heyvanların ekoloji durumu ilə tanış edilir. Yuxarı siniflərdə biologiya, coğrafiya, həyat bilgisi kimi fənlərin tədrisində həmin biliklər daha da genişlənir. Biologiyanın tədrisində canlılar, o cümlədən heyvanların quruluşu, inkişafı, çoxalması, onlarda gedən fizioloji proseslər öyrədildiyindən burada heyvan ekologiyasının araşdırılması asanlaşır.

Şagirdlər həyat bilgisinin tədrisində öyrəndikləri ekoloji məsələlərin mahiyyətini, bitki, heyvan, insan orqanizmində gedən proseslərə dair bilik və bacarıqlar 5-6-cı və yuxarı siniflərdə biologiyanın tədrisində daha da inkişaf etdirilir. Belə ki, burada şagirdlər heyvanların quruluşu, çoxalması, inkişafı, həyat hadisələri, əhəmyiyəti, təbiətdə, insan həyatında rolu, onların ətraf mühitlə, ekoloji amillərlə əlaqəsi kimi məsələləri öyrənirlər. Heyvanlarla bağlı mövzularda nəsli kəsilmiş, sayı azalmış heyvanlar, nəslinin kəsilməsi səbəbləri ekoloji probelmlərlə əlaqələndirilir, ətraf aləmin ekoloji vəziyyəti aydınlaşdırılır, onun pozulmasının qarşısını alan tədbirlər izah olunur. Müəllim mövzuları ekoloji problemlərlə əlaqələndirərkən şagirdlərin yaş və bilik səviyyələrini, onların ekoloji baxışlarını nəzərə alır.

Fənnin tədrisində şagirdlərin aşağı siniflərdə öyrəndiyi ekoloji anlayışlar daha da möhkəmləndirilir və inkişaf etdirilir. Fənn kurikulumunun standartlarına əsasən heyvanların biologiyası üzrə aşağıdakı məsələlərin öyrədilməsi imkanları genişlənir [1].

Təbiəti heyvanlarsız təsəvvür etmək mümkünsüzdür. Onların bəziləri zərərli, digərlər faydalı olmasına baxmayaraq, biri-digərinin yaşaması üçün vacibdir. Canlı təbiətdə qarşılıqlı əlaqənin əsasını qida münasibətləri təşkil edir. Bu əlaqə orqanizmlərin müxtəlif növlərinin bir-birinə və canlıların cansız mühitə uyğunlaşması sayəsində davam edir. Bütün biosenozların əsasını ilk üzvi maddə yaradan yaşıl bitkilər, fitokütlə ilə qidalanan otyeyənlər, ot və ət ye-

yən heyvanlar, yırtıcılar, üzvi maddələri bəsit maddələrə parçalayan mirkrorqanizmlər təşkil edir. Belə ki, müxtəlif həyat tərzi keçirən canlılar bir-biri ilə əlaqədə yaşaması və onlar arasında yaranan qarşılıqlı əlaqələr nəticəsində ekosistemlər yaranmışdır. Bu cür ekosistemlər insanlar tərəfindən qorunur, oradakı tarazlığın pozulmasına yol verilmir. Ekosistemlərin əhali tərəfindən başa düşülməməsi, tarazlığın pozulması indi ətraf aləmlə ekoloji vəziyyəti elə bir vəziyyətə gətirmişdir ki, ətraf mühitdəki pozulmanın düzəldilməsi işində hamının məsuliyyətlə çalışması lazım gəlir. Bunun qarşısı alınmazsa, insanlar, ümumiyyətlə canlılar çox böyük fəlakətlərlə üzləşirlər [5].

Belə aktual problemlərin biologiya fənninin mövzuları üzrə şagirdlərə çatdırılması əsas problem kimi qarşıya çıxır. Problemin həlli yolları və bu sahədə şagirdlərin, gənc nəslin əsas vəzifələri aydınlaşdırılır. Ekoloji vəziyyət və onun nizama salınması problemlərini şagirdlər dərk edərək, düşünərək müəyyən edirlər.

Müəllim dərslərdə heyvanların quruluşunu, qidalanması, tənəffüsü, inkişafını, çoxalmasını, yayılmasını, onlar arasında qida əlaqələrini və digər əlamətlərini onların təbiətdə rolu ilə əlaqələndirir. Göstərir ki, insanların həyat və fəaliyyəti heyvanlarla bağlıdır. Heyvanlar əhalini qida, müxtəlif geyim, məişət məhsulları ilə təmin edir. Heyvanlardan israfçılıqla istifadə edilməsi onların bəzilərinin nəslinin kəsilməsinə, digərlərinin isə nəslinin kəsilməsi təhlükəsi ilə üzləşməsinə gətirib çıxarmışdır. Belə ki, XVII əsrdə 33 növ, XVIII əsrdə 36 növ, XX əsrdə 40 növ heyvanın nəslinin Yer üzündən silinməsi böyük faciədir. Hazırda onurğalı heyvanların daha 100 növünün nəsli kəsilmək təhlükəsi vardır. Zebr, antilop, Prijevalski atı, hind kərgədanı, şimal maralı, xallı maral, Seylon fili, Asiya şiri, Amur pələngi, Oranqutanq, şimpanze meymunları və başqaları bu siyahıdadır [7, s.48].

Müəllim heyvanların ekologiyasından bəhs edərkən onların məhvinə səbəb olan amilləri, xüsusilə antropogen və ekoloji amilləri açıqlayır. Əsas səbəb olaraq mühitin çirklənməsi, insanların heyvanların həyat tərzini düşünmədən müxtəlif kimyəvi maddələrdən istifadə etməsi fəaliyyətlərində, heyvanların yaşayış şəraitinə mənfi təsir göstərən aparat və qurğulardan istifadə etməsi, onlarla bioetikaya uyğun olmayan rəftarlarla əlaqələndirir. Eyni zamanda ovçuluq qaydalarını pozaraq insafsızcasına onları məhv etməsi, xüsusilə körpə heyvanların ovlanması səbəblərini şagirdlərin nəzərinə çatdırır. İnsanların milli adət-ənənələrinin (qurban kəsilməsi, heyvanların bir-biri ilə döyüşdürülməsi onların zəhərli, zərərli hesab edilərək öldürülməsi və s.) heyvanların məhvinə səbəb olduğuna diqqəti cəlb edir. Heyvanlarla bioetik normalarda rəftar edilməsinə, onların məhvinə, yaşayış şəraitinin pisləşməsinə gətirib çıxaran adət-ənənələrdən yaxa qurtarmaq yollarını izah edir.

Müxtəlif nəqliyyat növlərinin plansız, necə gəldi istifadə edilməsi də heyvanların məhvinə səbəb olan amillərdəndir. Şagirdlərin yaş və bilik səviyyəsinə uyğun olaraq heyvanların məhv olma səbəblərini müəllim izah edir, bunun qarşısını alan tədbirləri faktlarla göstərir. Qeyd edir ki, heyvanların məhvinin qarşısını almaq üçün dövlət tərəfindən görülmüş müvafiq işlər davam etdirilir. Qoruqlar, yasaqlıqlar, milli parklar və s. təşkil olunur. Nəsli kəsilən, kəsilməkdə olan heyvanları "Qırmızı kitab"a daxil edərək onlar bütün dünyada tanıdılır. Göstərir ki, planetin hər bir sakini bu sahədə dövlətlərin gördüyü işlərə dəstək verməli, şəxsi təsərrüfat yaradarkən, heyvanların yaşayış şəraitini nəzərə almalı, tarazlığın pozulmasına yol verməməli, bir heyvanı bəsləmək naminə digərlərnin qırılmasına razı olmamalıdır. Bir sözlə, ekosistemlərin tarazlığına xələl gətirən fəaliyyətlərdən çəkinməlidir.

Müəllim biologiyanın tədrisində heyvanların ekologiyasını öyrədərkən onların taleyinin insanların əlində olduğunu diqqətə çatdırır. Hər bir heyvanın insan qayğısına ehtiyacı olduğunu faktlarla izah edir. Göstərir ki, təbiətin, xüsusilə heyvanların mühafizəsi, insanların, gələcək nəslin sağlamlığı deməkdir. Beləliklə, müəllim şagirdlərə təbiəti, o cümlədən heyvanların mühafizəsinə dair ekoloji mədəniyyəti aşılamış olur.

Məktəbin yerləşdiyi əraziyə uyğun olaraq, müəllim öyrətdiyi ekoloji biliklərin həyatda tətbiqinə şərait yaradaraq, biliklərin daha dərin omlasına, şagirdlərin ekoloji vəziyyətin pozul-

masının qarşısının alınması istiqamətində formalaşmasına zəmin yaratmış olur. Beləliklə, şagirdlər həm ev heyvanlarını, həm də digər heyvanları yaxından tanıyır, onlara qayğı göstərir, onlarla bioetik rəftar edərək ekoloji mədəniyyət nümayiş etdirirlər.

Ekoloji mədəniyyətə sahib olan gənclər nəinki heyvanlarla bioetik rəftar edir, həm də onlara qarşı amansız hərəkət edənlərə qarşı mübarizə aparırlar. Müəllim dərslərdə aşıladığı ekoloji tərbiyə işlərini sinifdənkənar və məktəbdənkənar tədbirlərdə də davam etdirir və daha da genişləndirir. Məktəbin canlı guşəsində heyvan saxlamaq, onlara qulluq etmək, heyvanların saxlandığı müəssisələrlə əlaqə saxlamaq, orada müəyyən fəaliyyətlərə qoşulmaq kimi bacarıqlar əldə edirlər.

Biologiyanın tədrisində heyvanlara qarşı ekoloji mədəniyyətin aşılanmasının imkanları fənn kurikulumunun standartları və dərsliklərdə də araşdırıldı. Şagirdlərə ekoloji mədəniyyətin, o cümlədən heyvanlara qarşı bioetik davranışın aşılanması qlobal, ümumbəşəri bir problemdir. Problemin həlli ekoloji tarazlığın qorunmasını, insanların firavan yaşayış tərzini, maddi rifah halını, təbii sərvətlərin zənginliyini, onlardan səmərəli istifadə edilməsini, təbiətin, o cümlədən heyvanların mühafizəsini təmin etməyi nəzərdə tutur.

Birhüceyrəli heyvanları öyrədərkən onların quruluşu, həyat tərzi, təbiətdə rolu, insanlar üçün fayda və zərəri ilə əlaqələndirilir. Zərərlilərə qarşı mübarizənin yollarını aydınlaşdırarkən müəllim qeyd edir ki, heç bir heyvanın təbiətdə tamamilə kökünü kəsmək olmaz, elmi cəhətdən bu yolverilməzdir. Çünki ekoloji vəziyyətdə hər bir canlının, eyni zamanda heyvanın öz yeri vardır [5, s.59].

Çoxhüceyrəli sadə quruluşlu heyvanları izah edərkən qeyd edir ki, onların mühitə uyğunlaşması çox sadədir. Onlar digər iri heyvanların hücumlarına, insanlar tərəfindən kütləvi qırılmaya məruz qalırlar. Bunların qarşısı hər zaman alınmalıdır. Belə ki, əgər akvariumda və yaxud təbii göllərdə, süni hovuzlarda balıq, yaxud digər heyvanı saxlamaq, bəsləmək istəyənlər mütləq orada yaşayan çox sadə quruluşlu heyvanların da qayğısına qalmalıdırlar. Çünki, bəslənən heyvan növü digər heyvanların yaşamasını tələb edir, yəni ya onlarla qidalanır, yaxud onlar vasitəsilə düşmənlərdən qorunur. Bununla heyvanlar təbiətdə, yaşadığı ərazidə ekoloji tarazlığı təmin edir. Bu tarazlığın pozulması digər canlıların da məhvinə səbəb olur. Şagirdlərə təbiətdə hər cür həyat şəraitində yayılmağa uyğunlaşmış və çox rəngarəng növlərə malik buğumayaqlılar tipinin heyvanları öyrədilir. Tipin elə heyvanları vardır ki, onların (ipəkqurdu, arı, parabüzən və s.) qorunması vacib məsələlərdəndir. Lakin onların digər zərərli heyvanlarla birgə yaşamasına ehtiyac vardır. Ona görə də hansısa heyvan insanlar üçün müəyyən bir məhsul vermirsə, onu tamamilə məhv etmək bağışlanmaz haldır. Faydalı heyvanlarla yanaşı onun ətrafı da qorunmalıdır.

Xordalılar tipi, balıqlar sinfi [5, s.101] şagirdlərə öyrədilərkən onların müxtəlifliyi yaşayış tərzinə uyğunlaşması ilə əlaqələndirilir. Balıqların əhəmiyyətindən danışarkən Xəzər dənizinin, respublikanın çaylarının balıq sərvəti şagirdlərə slayd və videogörüntülərlə aydınlaşdırılır. Şagirdlərə yerli balıq növlərini onların həyatı üçün lazım olan digər canlılarla birlikdə öyrədilir. Qeyd olunur ki, onların kürü tökən vaxtını bilərək ovlanmasının qarşısı alınmalı, kürütökmələrinə şərait yaradılmalıdır. Suların müxtəlif vasitələrlə, kanalizasiya tullantıları və s. ilə çirklənməsinin qarşısı alınmalıdır. Körpə balıqların artırılması, bəslənməsi tədbirləri həyata keçirilməlidir. Çox vaxt uşaqlar akvariumda balıq saxlamaq fikrinə düşür, lakin onları saxlaya bilmirlər. Bunun səbəbini və səmərəli yollarını biologiyanın tədrisində öyrənirlər. Balıqların həyatının sudakı digər heyvanlarla bağlılığı nəzərə çatdırılır.

Suda-quruda yaşayanlar, sürənənlər siniflərinin heyvanlarını keçərkən müəllim onların təbiətdə rolu, faydasını şagirdlərə aydınlaşdırır. Onların nəhəng növlərinin nəslinin kəsilməsi, bunun səbəbləri, digər canlılarla münasibətləri faktlarla, slaydlar və videoların nümayişi ilə izah edilir.

"Quşlar" sinfi bəhsinin [5, s.116] tədrisində onların təbiətdə geniş yayılmasının, növlərinin sayının çox olması ilə əlaqələndirir. Qeyd olunur ki, quşlar istifadəsinə görə təbiətdə, in-

san həyatında çox mühüm yer tutan heyvanlardandır. Müəllim əvvəlcə ev quşlarını, onların istifadəsi və digər əhəmiyyətini izah edir, sonra isə çöl quşlarının səciyyəsini verir. Quşların digər canlılarla münasibətləri açıqlanır, qorunmasının vacibliyi izah edilir. Onların qidalanması, bəslənməsi qaydaları öyrədilir. Respublikamızda istər şəhərdə, istərsə də kənd ərazilərində quşların insanlardan, uşaqlardan qorxub qaçmasının səbəblərini izah edən müəllim onlara qayğı göstərilməsindən, bioetik davranışlardan söhbət açır. Əhali arasında quşlara münasibətin dəyişdirilməsi, ekoloji mədəniyyətin nümayiş etdirilməsi probleminin həlli yollarını göstərir. Quşların qorunması işində şagirdlərin vəzifələrini aydınlaşdırır.

"Məməlilər sinfi" bölməsinin [5, s.136] tədrisində müəllim insanların ən çox istifadə etdiyi, bəslədiyi heyvanlar qrupu olan məməli heyvanları şagirdlərə daha yaxından öyrədir. Burada da nəsli kəsilən, nəsli kəsilməkdə olan növlər şagirdlərə tanıdılır, onların qorunmasına şərait yaradılması məsələləri diqqətə çatdırılır. Məməli heyvanların ekoloji problemlərinin şagirdlər tərəfindən araşdırılmasına şərait yaradılır. Şagirdlərin tanıdığı, ətraflarındakı heyvanlar üzərində tədqiqat aparmaları təşkil edilir. Onların ekoloji vəziyyəti öyrənilir, əlverişli mühit şəraitinin yaradılması məsələləri müzakirə edilir. Bunun üçün müəllim təbiətə, fermer təsərrüfatlarına əyani və ya onlayn ekskursiya təşkil edir. O, İKT-nin köməyi ilə şagirdlərə ekoloji vəziyyəti, onun pozulma səbəblərini, pozulmaların qarşısının alınması yollarını aydınlaşdırır. Şagirdlərə heyvanlara qarşı ekoloji mədəniyyəti aşılayaraq problemin həllində onların fəal iştirakını təmin edəcək tövsiyələr verir.

Göründüyü kimi, biologiya dərslərində heyvanlara qarşı ekoloji mədəniyyətin aşılanması imkanları genişdir. Ondan səmərəli istifadə edilməsi şagirdlərin canlılarla, o cümlədən heyvanlarla bioetik davranışlarını formalaşdırır, təlimin keyfiyyətini yüksəldir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün biologiya fənn kurikulumu. Bakı, 2013.
2. Hacıyeva H. və b. Ümumtəhsil məktəblərində biologiyanın fəal təlim metodları ilə tədrisi metodikası. Bakı, 2014.
3. Hüseynov Ə., Hacıyeva H. və b. Ümumtəhsil məktəblərində biologiyanın tədrisində kurikulumun tətbiqi. Bakı, 2015.
4. Seyidli Y., Əhmədbəyli X., Əliyeva N. Biologiya 6. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün dərslik. Bakı, 2017.
5. Seyidli Y., Əhmədbəyli X., Əliyeva N. Biologiya 7. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün dərslik. Bakı, 2017.
6. Путюков Ю.А. Основы педагогической технологии. М: Просвещение, 2001.
7. Захарова Т.Е. Внеклассная работа по биологии на современном этапе. М., 2014.
8. İsmixanov M. Pedaqogikanın əsasları. Bakı, 2011.
9. Hacıyeva G. Biologiyanın tədrisi metodikası. Bakı, 2018.
10. Məmmədov Q.Ş., Xəlilov M.Y. Ekoloqların məlumat kitabı. Bakı, 2003.
11. İbrahimov F., Hüseynzadə R. Pedaqogika. I cild, Bakı, 2012.

З.Р.Исмаилова

Внедрение экологической культуры против животных в преподавании биологии в средней школе

Резюме

В статье рассматривается актуальный вопрос формирования экологической культуры по отношению к животным у учащихся при преподавании биологии в общеобразовательной школе. Исследуются возможности проблемы согласно стандартам преподавания предмета. Возможности решения задач анализируются в учебниках. Исследуется деятельность педагогов в этой сфере. Вопросы привития экологической культуры в отношении животных у учащихся систематизированы поэтапно, в начальной школе, 6-7 классе и старших классах. Решение задач Пос-

ледовательно разбираются темы учебников для 6-го и 7-го классов. Даны методические рекомендации по путям решения проблемы.

Zarifa Rasul Gizi Ismayilova

Inculcation of environmental culture against animals in the teaching of secondary school biology

Summary

The article examines the topical issue of forming an ecological culture towards animals in students in the teaching of biology at a general education school. The possibilities of the problem are investigated according to the teaching standards of the subject. Problem solving possibilities are analyzed in textbooks. The activity of teachers in this field is investigated. The issues of inculcating ecological culture against animals in students are systematized in stages, in elementary school, 6-7th grade and higher grades. Problem solving The topics of the 6th and 7th grade textbooks are analyzed in sequence. Methodical recommendations on ways to solve the problem are given.

Rəyçi: dos. H.M.Hacıyeva

Redaksiyaya daxil olub: 25.05.2023

N.B.MƏCİDOV
professor
e-mail: nazim.judo@mail.ru

R.F.QƏDİMOV
dosent
e-mail: rufat-qadimov@mail.ru

N.R.QƏDİMOVA
e-mail: narmingadimova2001@gmail.com

B.F.KƏRİMOV

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr., 98)

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ BƏDƏN TƏRBİYƏSİ MÜƏLLİMİNİN PEDOQOJİ FƏALİYYƏTİNİN XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *orta məktəb, bədən tərbiyəsi, müəllim, peşə, fəaliyyət göstəricilər, pedoqoji problemlər, təcrübə*
Ключевые слова*: средняя школа, физическое воспитанние, педагог, профессия, деятельность показатели, педагогические проблемь, практика*
Key words: *average school, physical culture, teacher, profession, activity factors, pedogogical problems, practice*

Ümumtəhsil orta məktəblərində bədən tərbiyəsi müəllimin əməyinin obyekti özünün psixoloji simasına, eləcə də incə mənəvi həyat aləminə malik olan insan təşkil edir. Həmin insan sadəcə obyekt olaraq qalmır, o eyni zamanda pedoqoji fəaliyyətin subyektinə çevrilir, pedoqoji prosesdə fəal olaraq iştirak edir, təkmilləşmə, dəyişmə, inkişaf prosesi keçir. Ümumtəhsil orta məktəblərində müəllimin əməyi özünün məqsəd və vəzifələrində fərqlənir. Adətən pedoqoji məqsəd və vəzifələr həmişə standart xarakter daşımır. Burada standartlıq mümkün də ola bilməz. Çünki pedoqoji məqsəd və vəzifələr şagirdlərin fiziki və psixoloji inkişafının bütün cəhətlərini əhatə etməli olur. Bu cəhətlər isə genişdir. Ona görədə standart məqsəd və vəzifə bu çoxcəhətli inkişafın tələblərinə cavab verə bilməz. Ümumtəhsil orta məktəblərdə bədən tərbiyəsi müəlliminin əməyi çətin, mürəkkəb, əziyyətli, lakin xeyirxah və önəmli əməkdir.

Ümumtəhsil orta məktəblərində bədən tərbiyəsi müəllimin əməyinin vasitə və yollarına gəldikdə nəzərə almaq lazımdır ki, şəxsiyyətin mənəvi aləminə yalnız başqa şəxsiyyətin mənəvi aləmi ilə təsir etmək mümkündür. Bununla yanaşı olaraq ayrı-ayrı fiziki tərbiyə müəllimlərinin təsir üsulları daima bu və ya digər şəkildə öz həmkarlarının köməyi ilə həyata keçirilir.

1. Nəhayət, bədən tərbiyəsi müəllim əməyinin nəticəsi də özünəməxsus xüsusiyyətləri ilə fərqlənir. Ümumtəhsil orta məktəblərində bədən tərbiyəsi müəlliminin əməyinin nəticəsini ümumi şəkildə götürmüş olsaq, yetişdirdikləri şagirdlərlə, onların sağlam şəkildə bir şəxsiyyət kimi formalaşmaları, tərbiyələnmələri ilə fərqlənir. Konkret şəkildə götürmüş olsaq, onun əsas nəticəsi birinci növbədə şagirdin psixi simasında və fiziki hazırlıq səviyyəsində baş verən keyfiyyət dəyişmələrində, həm də təkcə indiki anda baş verən dəyişmələrdə deyil, onun yaxın inkişaf zonasına doğru hərəkətini təmin edəcək səmərəli cəhətlərin olmasında özünü göstərir. Ümumtəhsil orta məktəblərində bədən tərbiyəsi müəllimin əməyinin nəticəsini müəyyənləşdirməkdə şagirdlərin sonrakı yaş dövründə yerinə yetirəcəkləri işə pedaqoji sistemin mərhələsinə keçməyə necə hazırlanmaları da əsas götürülür. Ümumtəhsil orta məktəblərində bədən tərbiyəsi müəlliminin əməyini təhlil edərkən bir sıra mühüm anlayışlara istinad etmək lazım

gəlir. Bu cür anlayışlara pedoqoji fəaliyyət, pedoqoji ünsiyyət, pedoqoji məqsəd, pedoqoji situasiya, pedoqoji fəaliyyətin priyomları, şəxsiyyəti aid edə bilərik. Həmin anlayışlardan yuxarıda yeri gəldikcə bəhs olunduğuna görə burada onların mahiyyətini açmağa ehtiyac hiss olunmur. İndi həmin anlayışlardan istifadə etməklə fiziki tərbiyə müəlliminin pedoqoji fəaliyyətinin səmərəliliyi, həmin səmərəliliyin psixoloji göstəriciləri, onlara verilən tələbləri, müəllim əməyini qiymətləndirərkən həmin göstəricilərin nəzərə alınması məsələləri üzərində dayanaq. [1, s.85]

2. Ümumiyyətlə bədən tərbiyəsi müəlliminin fəaliyyətin səmərəliliyi dedikdə əvvəlcədən qarşıya qoyulmuş və sosial sifarişlə şərtlənən məqsədlərlə həqiqətən əldə edilmiş nəticənin uyğunluq dərəcəsi başa düşülür. Bu cür uyğunluq olduqda daha doğrusu sosial sifarişlə bağlı məqsədlər nəzərdə tutulan şəkildə yerinə yetirildikdə biz həmin fəaliyyətin səmərəliyini söyləyə bilərik. Adətən müxtəlif fəaliyyət növlərində onların səmərəliyi aşağıdakı göstəricilərlə ölçülür əməyin məhsuldarlığı (vahid vaxt ərzində əldə edilmiş məhsulun miqdarı) məhsulun keyfiyyəti və etibarlılığı (dövlət standartlarına uyğunluluğu) fəaliyyət prosesinin yaradıcı xarakteri (səmərəli təklif və kəşflərin miqdarı) və s. Müasir cəmiyyətdə fəaliyyəti son nəticəsinə görə qiymətləndirmək hər cür əməyin son səmərəliliyi və keyfiyyətinə istinad etmək xüsusi aktuallıq kəsb edir. Bununla yanaşı olaraq İnsan – insan tipli peşələrdə, xüsusilə xalq təhsili sahəsində səmərəli nəticənin əldə edilməsiə imkan verən vasitələrin rolu böyükdür. [2, s.75]

3. Təcrübə göstərir ki, fəaliyyətin səmərəliliyini yalnız bir göstəriciyə əsasən qiymətləndirmək olmaz. Bunun üçün mütləq göstəricilər sistemindən istifadə olunmalı, onlara istinad edilməlidir. Bu güstəricilər sistemi elə olmalıdır ki, onlar fəaliyyətin bütün məqsəd və vəzifələrin yerinə yetirilməsində iştirak edən üsul və vasitələr sistemini, fəaliyyətin həqiqi nəticələrini qiymətləndirə bilsin. Ümumtəhsil orta məktəblərində bədən bədən tərbiyəsi müəlliminin pedoqoji fəaliyyətin səmərəliliyinin psixoloji göstəriciləri konkret olaraq nədən ibarətdir? Onları sadalamamışdan əvvəl həmin göstəricilərə verilən tələblərə nəzər salaq. Ümumtəhsil orta məktəblərində bədən tərbiyəsi müəllimin müəllimin pedoqoji fəaliyyətin səmərəliliyini hər cür göstərici ilə necə gəldi müəyyənləşdirmək mümkün deyildir. Bu cür psixoloji göstəricilər elə olmalıdır ki, pedoqoji fəaliyyəti hərtərəfli ehatə etməklə, onun səmərəliliyinə təsir edən bütün cəhətləri, amilləri açıb göstərə bilsin. Yalnız bu zaman fiziki tərbiyə müəlliminin pedoqoji fəaliyyəti düzgün qiymətləndirilə və idarə oluna bilər. Pedoqoji fəaliyyətin səmərəliyinin psixoloji göstəriciləri və fiziki tərbiyə müəllim əməyini qiymətləndirərkən bəzi pedoqoji-psixoloji məsələlərə nəzər salmaq zəruri hesab olunur. Psixoloji ədəbiyyatda fiziki tərbiyə müəlliminin əməyinin səmərəliliyinin psixoloji göstəriciləri iki böyük qrupda birləşdirilir prossesual və səmərəli nəticə verən . Hər iki qrup göstərici ilə tanışlıq və onların nəzərə alınması pedoqoji fəaliyyətin idarə olunmasında mühüm əhəmiyyətə malikdir. Ümumtəhsil orta mək-təblərində bədən tərbiyəsi müəllim əməyinin səmərəliliyini müəyyənləşdirərkən qeyd olunan göstəricilərə istinad etməklə eyni zamanda biz onun pedoqoji ustalıq səviyyəsinidə aşkara çıxara bilərik. Ümumtəhsil orta məktəblərində bədən tərbiyəsi müəllimin pedoqoji ustalığının konkret xarakteristikasına gəldikdə psixoloji-pedoqoji ədəbiyyatda bu barədə müxtəlif fikirlərə rast gəlirik. Bəzi alimlər öz ixtisasını dərindən bilməyi, metodika ilə yaxşı silahlanmağı, uşağların psixologiyasını, kollektivi, onun çətinliklərini görə, hiss edə bilmə bacarığını, fiziki tərbiyə müəlliminin dünya görüşünü, onun ideya, inamını, bədən tərbiyəsi fənninin dəqiqliyi ilə bilməyi, təlim və tərbiyə metodlarına, pedoqoji mərifətə yiyələnməyi və s. pedoqoji ustalıq üçün götürürlər. Göründüyü kimi bu göstəricilərin fərqli cəhətləri ilə yanaşı oxşar cəhətləri də çoxdur. Ümumtəhsil orta məktəblərində bədən tərbiyəsi müəllimin psixologiyası məsələləri ilə məşğul olan və fiziki tərbiyə müəllimin əməyinin səmərəliliyinin psixoloji göstərişləri məsələsini geniş tədqiq etmiş rusiyanın tanınmış psixoloqu A.K.Markovun fikrincə pedoqoji ustalığın, pedoqoji fəaliyyətin, pedoqoji ünsiyyətin və fiziki tərbiyə müəllimin şəxsiyyəti birliyinin yüksək səviyyəsidir. Tanınmış Azərbaycan pedoqoqu Y.M.Talıbovun əsərlərində bədən tərbiyəsi müəlliminin pedoqoji ustalığının səviyyələrini müəyyənləşdirərkən və təhlil edərkən üç əsasa əsas cəhətə istinad etməyi zəruri hesab edir: ümumtəsil orta məktəblərində bədən tərbi-

yəsi müəllimin pedoqoji fəaliyyəti, pedoqoji ünsiyyət və şəxsiyyətin xüsusiyyətləri; prosessual və nəticə verən göstəriciləri və burada hər üç tərəfün təzahür xüsusiyyətləri; bu əsasda fiziki tərbiyə peşə fəalliyyətinin subyekti kimi formalaşma səviyyəsi. Qeyd edilən cəhətləri nəzərə almaqla fiziki tərbiyə müəlliminin pedoqoji ustalıq səviyyəsini xarakterizə edə bilərik. [4, s.47]

Ümumtəhsil orta məktəblərində bədən tərbiyəsi müəllimi pedoqoji fəaliyyətinin səmərəli cərəyan etməsində onun sinir sisteminin əsəs rol oynayır. Bəzi adamlar belə təsəvvür edirlər ki, fiziki tərbiyə müəllimi əsəbi sənətdir və buna görə də onlar başqa sənəti özlərinin həyat və fəaliyyətləri üçün əsas hesab edirlər. Bu sənəti digər bədən tərbiyəsi müəllimi isə özlərinin bəzi uğursuzluqlarını bu sənətin əsəbiliyində görürlər. Doğrudur, fiziki tərbiyə müəllimliyi güclü sinir gərginliyi tələb edir, müəllim bütün həyatı boyu minlərlə bir birindən ciddi fərqlənən xarakterlərlə işləyir. Hər adamın mənəvi aləminə vaqif olmaq, hər insanı bir üsulla, tərzlə yola gətirmək, intizama dəvət etmək istəyir. Lakin hansı sənət sinir gərginliyi tələb etmir? Güman edirik ki, ciddi sinir gərginliyi tələb etməyən sənət yoxdur. Ümumtəhsil orta məktəblərində bədən tərbiyəsi müəllimi bu sənətlərin çoxundan çətin və mürəkkəb olsa da, 40-50 il şərəflə fiziki tərbiyə müəllimliyi edən, onun ağrı-acısına dözən və hətta, aqil vaxtında belə ondan zövq alan müəllim az deyildir. Deməli, məsələ fiziki tərbiyə müəllimliyinin əsəbə sənət olmasında deyil, bu sənəti sevməkdə, onun sirlərinə vaqif olmaqda və onlardan bacarıqla istifadə etməkdədir. Əlbəttə, insanın sinir sisteminin tiplərini də nəzərə almaq lazımdır.

4. Ümumtəhsil orta məktəblərində bədən tərbiyəsi müəlliminin sinir sistemi tipinin onun fiziki tərbiyə dərsində ahəngdar işləməasinə imkan yaratmasına baxmayaraq, fiziki tərbiyə müəlliminin fiziki təlim və tərbiyə situasiyaları rəngarəng olduğu üçün fiziki tərbiyə dərslərində müxtəlif vəziyyətlərdə ola bilər. Təcrübəli bədən tərbiyəsi müəllimi əksər hallarda bədən tərbiyəsi dərslərində ən yaxşı formada olur, yəni ela dərs keçir. Lakin, bəzən o ən sevdiyi və yaxşı hazır olduğu mövzu üzrə ürəyi istəyən səviyyədə bədən tərbiyəsi dərsini keçə bilmir. [5, s. 67]

Ədəbiyyat

1. Ашмарин Б.А. Теория и методика физического воспитания. – Москва, 1979.
2. Talıbov E., Talıbov Y., Pirverdiyeva S., Cabbarlı R. Məktəblilərin milli mentalitet əsasında tərbiyə edilməsi. – Bakı, 2004.
3. Nəsrullayev M., Hüseynov E., Nuriyev Y., Əliyev İ. Bədən tərbiyəsi nəzəriyyəsi və metodikası. – Bakı, 2012. – 371 s.
4. Qədimov R.F., Əsgərov M.N., Hüseynov E.A. Fiziki tərbiyə müəlliminin peşə fəaliyyətinin pedoqoji-psixoloji əsasları. – Bakı, 2007.
5. Ağayev Ə., Eminov A., Talıbov Y., İsayev İ. Pedaqogika. – Bakı, 2003.

Н.Б.Маджидов, Р.Ф.Гадимов,
Н.Р.Гадимова, Б.Ф.Каримов

Особенности педогогической деятелъности педагога по физическому воспитанию в средей обшеобразовательной школа

Резюме

Профессиональная деятельность педагога по физическому воспитанию основывается на педагогических знаниях. Каждый преподаватель по физическому воспитанию должен усовершенствовать свой педагогические способности и психологические качества своей личности. Для определения особенностей профессиональной деятельности учителей физической культуры необходимо учитывать 5 профессиональных компонентов, которые в основном связаны с педагогической профессией.

N.B.Majidov, R.F.Gadimov,
N.R.Gadimova, B.F.Karimov

Features of the pedagogical activity of a physical education teacher in general education schools

Summary

The professional activity of a physical education teacher is based on pedagogical knowledge. Every teacher of physical education should improve his pedagogical abilities and psychological qualities of his personality. To determine the features of the professional activity of physical education teachers, it is necessary to take into account 5 professional components, which are mainly related to the teaching profession.

Rəyçi: prof. Q.Cəfərov

Redaksiyaya daxil olub: 06.03.2023

T.MƏHƏRRƏMOVA
e-mail: taireali@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

DİL FAKÜLTƏLƏRİNİN AŞAĞI KURSLARINDA İNGİLİS DİLİNDƏ OXU BACARIQLARININ FORMALAŞDIRILMASININ ELMİ-METODİKİ ƏDƏBİYYATDA TƏHLİLİ

Açar sözlər: *oxu bacarığı, səsli nitq, lüğət ehtiyatı, dilöyrənənlər, dil faktları*
Ключевые слова: *способность к чтению, говорение, словарный запас, изучающие язык, языковые факты.*
Key words*: reading ability, speaking, vocabulary, language learners, language facts*

Oxu dörd nitq bacarığından biridir. Bu vərdişlərin aşılanması xüsusilə bu gün vacib sayılır. Səsli nitq hər üç nitq bacarığından fərqli olaraq, daha çox diqqət tələb edir. Lakin burada bəzi məqamlara diqqət yetirilməlidir. Belə ki, sözügedən məsələnin həllində bəzi faktik materiallara müraciət edilir: nöqteyi-nəzər, çalışma tapşırıqların tərtibatı, sintez və s.[1, s.121].

Oxu bacarıqlarının aşılanması müxtəlif formalarda həyata keçirilir. Bunlardan biri də xorla oxudur. Xorla oxu bütöv siniflə və ya bir qrup dilöyrənənlərlə birlikdə oxuna bilir. Bu dilöyrənənlərdə özünə inam, rəvan nitq, motivasiya formalaşdırır. Müəyyən zaman çərçivəsində təkrarlanan oxu (Timed Repeated Readings) təhsilalanların oxu sürətini çoxaldır, təhsilverənlərə onlardaki inkişafı, uğuru görməyə kömək edir. Səlislik bir çox oxu imkanlarının nəticəsi olaraq, uğuru şərtləndirir. Məhz bu baxımdan təhsilalanlar onlar üçün asan olan mətnləri ucadan təkrar oxumalıdırlar. Eyni zamanda bu mətnlər çoxlu sözlərdən ibarət olmalıdır ki, təhsilalanlar onu asanlıqla bilməli və dekodlaşdırmalıdırlar.

Başqa sözlə, dilöyrənənlər müstəqil oxu səviyyəsinə malik olmalıdırlar. Əgər tələbələr 95 faiz düzgün oxuya bilirlərsə, bu onların müstəqil oxu səviyyəsi hesab edilir. Əgər mətn bir qədər də çətindirsə, onlar sözün tanınmasına fokuslanacaqlar, səlislik üçün imkan olmayacaq. Onların təkrar oxuları nisbi olaraq, qısa şəkildə 50-200 arası söz olmalıdır. Bu onların yaş səviyyəsindən də asılıdır[3, s.22].

Təhsilverənlər eyni zamanda çoxlu oxu materiallarından istifadə etməlidir: hekayələr, oçerklər, şeir və s.

Poeziya xüsusilə səlislik üçün uyğun və əlverişli hesab edilir. Belə ki, şeirlər dilöyrənənlər üçün qısa və eyni zamanda ritm, qafiyə və mənadan təşkil olunur. Bu da məşgələni, təcrübi prosesi asan, əyləncəli, mükafatlandırıcı edir. Digər bir məsələ səlis oxu modeli (model fluent reading) ilə bağlıdır. Səlis oxunun nümunəvi modellərinə qulaq asmaqla dilöyrənənlər oxuyanın səsində yazılı mətnin necə hiss və təssürat yaratdığını aşkara çıxarırlar və bunu öyrənirlər.

Təkrar oxu (Repeated Reading) prosesinə nəzər salaq. Mətni modelləşdirməzdən əvvəl, təhsilalanlar onu təkrar oxumalıdırlar. Bunu etdikdə onlar oxuya aludə olurlar. Adətən, səlisliyi yaratmaq üçün təhsilalanların mətnləri dörd dəfə oxumaları kifayət edir[8, s.33]. Yadda saxlamaq lazımdır ki, müəyyən çərçivəyə salınmış vaxt bitirsə, fəal, aktual vaxt başlayır. Təhsilalanlar fəal olaraq, oxuya həvəslənir, uğura nail olurlar. Bununla belə, digər böyüklərin də oxumasını həyata keçirmək lazımdır. Bu prosesi erkən dövrlərdə evdə valideynlərin, ailə üzvlərinin kiçiklərə oxuması ilə həyata keçirməsi sonrakı mərhələlərdə yüksək səmərə verir. Belə ki, təhsilalanlar nə qədər səlis oxu nümunəsi eşidərlərsə, bir o qədər də əhəmiyyətli olar. Əlbəttə, səlis oxu modelini eşitmək dilöyrənənlərə ucadan oxu üçün yeganə fayda hesab edilə bilməz.

Oxu təhsilalanlara aşağıdakı imkanları bəxş edir:dünya haqqında biliklərini inkişaf etdirir, onların lüğət ehtiyatını yazı dili (book language) ilə tanışlığını həyata keçirir, oxuya olan maraqlarını təmin edir[12, s.47].

Student-adult adlanan oxu növündə təhsilalanlar tək-tək müəllim ilə oxuyur. Böyüklər içərisində oxucu müəllim, valideyn, sinif bələdçisi və ya tyutor da ola bilər. Yaşca böyük olan oxucular səlis oxucu nümunəsi olaraq, birinci oxuyurlar. Daha sonrakı mərhələdə yaşca böyük olanlara təhsilalanlar oxumağa başlayır. Bu zaman təhsilverənlər bələdçi və ya həvəsləndirici rolunu həyata keçirirlər. Dilöyrənənlər rəvan oxunu kiçik mətn vasitəsilə tam formalaşana qədər oxumağa başlayır. Bu proses təxminən 3-4 dəfə təkrarlana bilir. Digər bir oxu isə yuxarıda qeyd etdiyimiz xorla oxudur (choral reading). Xor və ya unison kimi adlandırılan oxuda dilöyrənənlər qrupla oxuyur(bu digər səlis oxu bacarığına malik böyüklər də ola bilər). Lakin burada dilöyrənənlər təhsilverənlərin oxuduğu mətni adekvat olaraq, görməlidirlər.Onlar müəllimi izləməlidirlər. Xorla oxu üçün çox da uzun olmayan mətnlər seçilməlidir.

Nümunələrlə zəngin kitablar xüsusilə faydalı hesab edilir. Çünki onların üslubu təhsilalanları prosesə qoşulmağa çağırır. Səlis oxucu modeli olaraq, ucadan oxumağa çalışmaq lazımdır. Daha sonra kitabı yenidən oxumaq və təhsilalanları cəlb etmək lazımdır. Çünki oxunduqca onlar sözləri tanımağa başlayır. Təkrar oxunu onlar bu işi bacarana qədər davam etdirməkdə fayda var. Təhsilalanlar kitabı 4-5 dəfə oxumalıdırlar.Belə olduqda onlar mətni müstəqil şəkildə oxumağa nail olurlar[10, s.54].

Maqnitofonla, yəni audio oxu zamanı oxucunun oxuduğu eşidilir, təhsilalanlar öz kitablarında eyni zamanda oxumağa, izləməyə başlayırlar. Audio oxu zamanı elə kitab və ya audiomətn seçilməlidir ki, oxucu hər dəqiqə 80-100 söz oxusun və bu dilöyrənənlər tərəfindən eşidilsin. Bu zaman musiqi və ya əlavə səs effektləri olmamalıdır. İlk öncə dilöyrənənlər səslənəni sözbəsöz öz kitablarında izləməlidirlər.

Növbəti mərhələdə maqnitofonda səsləndirilənlər birgə oxumalıdırlar. Bu o vaxta qədər davam etməlidir ki, artıq təhsilalanlar bunu maqnitofonun köməyi olmadan etmək imkanına nail olsunlar.

Partnyorla oxu da maraq doğurur. Bu zaman dilöyrənənlər tərəfdaşları ilə cüt-cüt birbirinə ucadan oxuyurlar. Partnyorla oxuda daha çox cütlər nəzərdə tutulur. Daha çox səlis oxuma qabiliyyətinə malik olan oxucu model olaraq seçilir və birinci səhifəni və ya paraqrafı oxumağa başlayır. Daha sonra bir qədər zəif olan ucadan eyni mətni oxuyur. Daha çox oxu qabiliyyətinə malik olan təhsilalanlar sözlərin tanınmasında köməklik göstərir və fidbəki həyata keçirirlər, bir qədər zəif olanları həvəsləndirirlər. Zəif olan dilöyrənənlər müstəqil və rəvan oxuyana qədər bu proses davam edir. Tərəfdaşla olan oxunun güclü və ya zəif tərəflə həyata keçirilməsi vacib və əsas deyil. Tərəfdaşla oxunun digər bir formasında eyni səviyyədə olan təhsilalanlar müəllimin nəzarəti altında cütlərə oxuyur və tapşırıqlar alırlar. Bərabər qabiliyyətə malik iki oxucu təkrar oxumanı təcrübədən keçirə bilirlər. Bunu onlar müəllim oxuduqdan sonra etməyə başlayırlar.

Bundan əlavə, oxu bacarıqları formalaşdırılarkən onlayn təcrübənin olması da vacibdir. Belə ki, təhsilalanların birgə internet üzərindən öz bacarıq texnikalarını bölüşdürməsi, bir-birlərinin və ya özlərinin səhvlərini korrektə etmələri bu işin xeyrinə hesab olunur. Bəzən tələbələr bu işi maillərlə də həyata keçirirlər.

Ümumilikdə, oxu çətin və məsuliyyətli bacarıq növü olub, yazılan əsərin oxucusunun kim olduğu və nə vaxt oxuyacağı bəlli deyil. Bu məkan və zaman etibarilə naməlumdur.

Oxu zamanı lüğət ünsiyyətin bütün sahələrini – dinləmə, danışıq, oxu və yazını əhatə edir. Oxu zamanı lüğətin inkişafı aşağıdakı səbəblərdən təhsilalanların uğurunda vacib sayılır.

- lüğət ehtiyatının inkişafı dilöyrənənlərin uğuru ilə birbaşa bağlıdır.
- lüğət ehtiyatının həcmi onun oxumağı öyrənmə bacarığından xəbər verir.
- lüğət anlamaq, düşünmək, dünya haqqında öyrənməyi öyrədir.

– təhsilalanların söz biliklərinin genişləndirilməsi yeni məlumatların əldə edilməsinə məhdudiyyətsiz köməklik göstərir [9, s.18].

Bununla məşğul olanlar keçmiş və gələcək haqqında danışaraq, müxtəlif izahatlar verə bilərlər. Bu mərhələdə nəql etmənin faydaları çoxdur. Öyrənilən ikinci dildə oxuda yol verilən xətalarla bağlı xeyli tədqiqat işlərinə rast gəlmək mümkündür. Digər tərəfdən bu sahədə uğurlu tədqiqatlar vardır.

Oxuda edilən səhvlərlə bağlı bir çox araşdırmaçıların adlarını çəkə bilərik. Başqalarının əsərlərini də göstərmək olar. Lakin onlar öz əsərlərində edilən xətaların təbiəti haqda danışmaqla kifayətlənmiş, konkret faktlarla çıxış etməmişlər. Tədqiqatçılar qeyd edir ki, xətalar neqativ əlamət kimi qarşılanmamalıdır. Əksinə, onlar tədrisdə ikinci dilin öyrənilməsi zamanı yeni-yeni müvəffəqiyyətlərin əldə olunmasında əsas vasitədir. Belə ki, onlar səhvlərin təhlili məsələlərini dil davranışı adlandırırlar. Oxuda edilən xətalardan danışarkən qeyd edilir ki, leksikonun ikinci dildə vacibliyi onu səhvlərin mənbəyinə çevirir.

Tədqiqatçıların əsərlərində sözügedən mövzuya dair xeyli dəqiq faktlar aşkarlayırıq. Sözü gedən məsələnin nəzərə alınmasında müəyyən amillər rol oynayır ki, onlar aşağıdakılardır: səhihlik, düzgünlük, anlaşıqlılıq, dürüstlük, səliqəlilik, nəzakətlilik, yığcamlıq, lakoniklik, məkan, zaman, şərait, dil, kohesiv vasitələr, qrammatik qaydalara riayət, morfologiya, sintaksis, orfoepiya, xətt, tədqiq, sərhəd, həqiqət, ünsiyyət, refleks, istifadə, danışıq, prinsip, obyekt, diskurs, interpretasiya, mənbə, söz yaradıcılığı və s. [7,s.61].

Oxu üzərində nitq çalışmalarının təqdimatı

Meyarlar	Uyğundur	Nisbətən uyğunduuyğundurr	Uyğun deyil
dil faktları	35		22
ünsiyyət		34	43
Oxu		29	15
səlislik	4	6	24
Nitq	8	4	32
sərbəstlik və fəallıq	2	33	16
fərdlər	3	23	18
nitq materialı	6	5	38
anlama	2	7	24
yanaşma dinamizm	1 5	9	23
təşəkkül məlumat xəttatlıq KİV	5 12 25 11	5 39 28 45	35 56 36 23

Yuxarıdakı cədvəldə çalışmaların təqdimat və tərtibatını dəstəkləyən bəzi detallar nəzərdən keçirilir. Burada aşağıdakıların nəzərə alınması vacibdir:

1. linqvistik yanaşma, diskursiv bacarıq, bilik, elmilik, metodika, üslub, redaktə keyfiyyəti, külliyat, poliqrafiya, inteqrasiya, referensiya, qayda, implikatur, presuppozisiya, millilik, sərişdə və s. əsas şərtdir.



Sxem 1.

Təklif olunan sxemin əsasında aşağıdakı müddəalar durur:

1. Oxunun tədrisi kommunikativ blok daxilində təqdim edilməli və mənimsənilməlidir;
2. Vacib qeydlər nəzərdən keçirilməlidir.
3. Diskursiv yanaşma olmalıdır.
4. Adekvatlıq gözlənilməlidir.
5. Meyarlar daxilində olmalıdır.
6. Təqdimat dürüst verilməlidir.
7. Tərcümələr səhih verilməlidir.
8. Qeyd götürülməlidir. [11, s.118].

Beləliklə, sözügedən məsələlər vacib hesab olunur.

Ümumilikdə, oxunun aşılanması günün tələbi kimi dəyərləndirilir. Çünki dəyişən dünyanın da tələbləri dəyişir. Daha çox məntiqi oxu bacarığına malik təhsilalanları arzu edir.

Oxu həm də sinif interaksiyasını dəstəkləyir. İnteraksiyaya əsasən kommunikativ fəaliyyətlərdə ehtiyac duyulur. Sinifdə oxu interaksiyası təhsilalanlar üçün vacib olan iki bacarığı, danışıq və dinləməni dilöyrənənlərin inkişafı baxımından dəstəkləyir. Bu da öyrənmə və öyrətmə prosesinə kömək edir. Belə ki, təhsilalanların kommunikativliyinə təkan verir. Məhz bunun sayəsində müəllim və tələbələr arasında interaktiv təşkilin hansı səviyyədə olduğunu müəyyən etmək olur.Ümumilikdə, sinif interaksiyası sayəsində təhsilalanlar öyrənmə prosesində daha fəal olurlar.

Beləliklə, oxu əsaslı sinif interaksiyasını aşağıdakı kateqoriyalara ayırmaq olar:

- əməkdaşlıq, əsaslı öyrənmə (Colloborative Learning);
- oxudan sonrakı diskussiya və debatlar (Discussions and Debates);
- interaktiv sessiyalar (interactive sessions);
- ucadan oxu (loud reading);
- dilöyrənənlərl söhbət (conversations with learners)
- rollu oyunlar (Role-play). [12, s.231].

Bu sessiyalar zamanı təhsilverənlərin rolu passiv olsa da əsas hesab edilir. Müəllimin səlahiyyətləri sırasına öyrənmə mühitini sinif daxilində yaratmaq da daxildir. Məhz bu interaktiv sessiyalar sayəsində müəllim tələbələri oxu zamanı qısa cavablar və mətnə dair yeni ideyalar tapmağa motivasiya edir. O təhsilalanlara müzakirələr, debatlar və daha çox şeylər vasi-

təsilə innovativ öyrənmə məhsullarını emal etməkdə köməkçi olan həm də bir müşahidəçidir. O planlaşdırıcı olaraq, interaksiyanın ən gözəl modullarını təşkil edir ki, bu da tələbələri sinif interaksiyasına dəvət edən ən səmərəli üsullardandır. Oxu əsaslı interaksiya zamanı dilöyrənənlər yeni konseptlərə, ideyalara və digər müxtəlif vasitələrə dil və mədəniyyəti öyrənmək üçün cəlb edilirlər.

Buradan belə nəticəyə gəlmək olur ki, hər dörd bacarıq xarici dillərin tədrisində vacib hesab olunur.

Ədəbiyyat

Azərbaycan dilində

1. Abdullayev A. Orta məktəblərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Maarif, 1978, – 280 s.
2. Barsuk R.Y. Xarici dilin təlimi metodikasının bəzi məsələləri // Azərbaycan məktəbi, 1965, №8, – s. 29-33
3. Həmzəyev M.Ə. Pedaqoji psixologiya (pedaqoji institut tələbələri üçün). Bakı, 1991, – 204 s.

Rus dilində

4. Агазаде Н.Т. В копросу сопоставительного изучения языков // Иностранные языки в школе. М., 1960, №6, – с. 107-112
5. Гусейнзаде Г.Д. Совершенствование лексико-синтаксической стороны устной английской речи на старших курсах в национальной аудитории языкового вуза: Дис. … канд. пед. наук. М., 1989, – 240 с.
6. Карасик В.И. Язык социального статуса. М.: Гнозис, 2002, – 333 с.

İngilis dilində

7. Allen P. Swain M., Harley B. and Cummins J. (Eds.) Aspects of classroom treatment: Toward a more comprehensive view of second language education. The Development of Second Language Proficiency Cambridge: Cambridge University Press, p. 57-81
8. Canale M. and Swain M. Theoretical bases of communicative approaches to second language teaching and testing // Applied Linguistics, 1980, v.1 (1), pp.1-47
9. Celce-Murcia M., Dornyeu L. and Thurrell S. Communicative competence: A pedagogically motivated model with content specifications // Applied Linguistics, 1995, v. 6 (2), pp.5-35
10. Fox K. Watching the English. The Hidden Rules of English Behaviour. London: Hodder.2005,pp. 56-57
11. Green C.F., Christopher E.R. and J.Lam. Developing Discussion skills in the Classroom. ELT Journal 51/2. 1997, pp.135-143.
12. Harmer J. The Practice of English Language Teaching, 4th ed. Longman, 2007, 448 p.

Т.Магеррамова

Текст научной работы на тему «Анализ сформированности навыков чтения на английском языке на младших курсах языковых факультетов по научно-методической литературе»

Резюме

В данной статье рассматривается методика обучения чтению на английском языке, включающая следующие компоненты: цель, содержание, средства формирования и оценки предметных умений младших школьников. Представлены этапы формирования умений испытуемого: первый этап совершенного произношения: воспроизведение необходимой фонемы отдельно или в простейших слогах, постепенная автоматизация этого умения, превращение его в постоянные навыки; второй этап - печать: составление лексикона; третий этап - транскрипция: умение воспроизводить нужную букву и ее звучание, умение представлять выделенные в письме буквы, читать слова, словосочетания и давать их транскрипцию; четвертый этап интенсивного чтения: закрепление прочитанной транскрипции, усвоение правил чтения и различных видов работы с текстом.

T.Maharramova

Analysis of the formation of reading skills in English in the lower courses of language faculties in the scientific-methodical literature

Summary

This article discusses the methodology of teaching reading in English, which includes the following components: purpose, content, means of formation and evaluation of subject skills of younger students. The stages of the formation of the skills of the subject are presented: the first stage of perfect pronunciation: the reproduction of the necessary phoneme separately or in the simplest syllables, the gradual automation of this skill, turning it into permanent skills; the second stage - printing: compiling a lexicon; the third stage is transcription: the ability to reproduce the desired letter and its sound, the ability to represent the letters highlighted in the letter, read words, phrases and give their transcription; the fourth stage of intensive reading: fixing the read transcription, mastering the rules of reading and various types of work with the text.

Rəyçi: ped.f.d., dos. G.Şirəliyeva

Redaksiyaya daxil olub: 14.05.2023

G.Ə.MƏMMƏDOVA
müəllim
e-mail: memmedovagunel564@gmail.com

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

BİOLOGİYADAN MÜSTƏQİL İŞLƏRİN TƏŞKİLİ İLƏ ŞAGİRDLƏRDƏ YARADICI TƏFƏKKÜRÜN İNKİŞAF ETDİRİLMƏSİ

Açar sözlər: *biologiya, layihə, tədqiqat, təqdimat, problem, müstəqil iş, esse*
Ключевые слова: *биология, проект, исследование, презентация, задача, самостоятельная работа, эссе*
Key words: *biology, project, research, presentation, problem, independent work, essay*

Tədqiqatçılar, o cümlədən psixoloqlar təfəkkürün bir çox növlərini araşdırmış və sistemə salmışlar. Bu sistemin əsas meyarlarından biri yaradıcı təfəkkürlə bağlıdır. Yaradıcı və ya reproduktiv təfəkkür mənimsənilmiş biliklərin aktuallaşdırılmasının müəyyən tapşırıqların məlum biliklər əsasında yerinə yetirilməsinə əsaslanır. Şagirdlərdə yaradıcı təfəkkür insana əvvəllər məlum olmayan, yeni elmi tapşırıqların, məsələlərin müstəqil həll edilməsi ilə inkişaf etdirilir.

Tədrisdə uğurlar qazanmaq üçün intellektual bacarıqlar sırasında tədris bacarıqları mühüm yer tutur. Tədris bacarıqlarını ümumi və xüsusi bacarıqlar olmaqla iki qrupa bölürlər. Ümumi bacarıqlardan şagirdlər bütün fənlərin tədrisində lazım olduqda istifadə edirlər. Xüsusi bacarıqlar isə ayrı-ayrı fənlərin tədrisində tətbiq edilir. Ümumi bacarıqlara oxumaq, dinləmək, fikri şifahi şərh etmək, yazmaq, kitabla işləməyi bacarmaq və s. daxildir. Xüsusi bacarıqlara musiqi notlarını, çertyojları, xəritələri oxumaq, məsələ və misalları həll etmək, musiqi əsərlərini dinləmək, müxtəlif əsərlər, eksponatlar hazırlamaq, şəkil çəkmək və s. misal göstərmək olar. Tədris prosesində göstərilən bacarıqların şagirdlərə aşılanmasında müstəqil işlərin təşkilinin rolu böyükdür. Bunun üçün şagirdlərin öyrənmə tərzləri, psixoloji vəziyyəti tədrisdə tətbiq olunacaq metodların, şagirdlərə tapşırılacaq müstəqil işlərin düzgün seçilməsi əsas məsələlərdəndir.

Psixoloq S.L.Rubinşteynə görə şəxsiyyətin ümumi meylini ifadə edən maraq bütün psixi prosesləri qavrayışı, yaddaşı, təfəkkürü əhatə edir və istiqamətləndirir. Təfəkkür prosesi özü bütövlükdə insanın psixi fəaliyyətinin hissi-emosional sahəsi ilə şərtlənir, bunsuz insanın həqiqəti axtarması qeyri-mümkündür [1, s.128].

Problemin dərslərdə həllində problemli təlim metodunun tətbiqi ilə müəyyən edilmiş müstəqil işlər müəllimin köməyinə gəlir.

Biologiyadan şagirdlərə müstəqil iş (essenin işlənməsi, layihə, eksponatın, təqidmatın hazırlanması və s.) verildikdə problemli təlim metodunun tətbiqi müsbət nəticələnir. Bu zaman birinci şərt problem situasiyanın yaradılmasıdır. Müstəqil işlərin yerinə yetirilməsində problem situasiya yaratmaq üçün müəllim aşağıdakılara istinad edir:

- Müstəqil işi şagirdlərin başa düşəcəkləri formada qarşıya qoyur;
- Əsas məqsədi aydınlaşdırır;
- Şagirdlərin müvafiq biliklərinə uyğun mövzu seçir;
- Şagirdlərə müstəqil işin planını və istiqamətini izah edir;
- İşin aparılmasında şagirdin vəzifələrini aydınlaşdırır;
- Mövzuya dair biliklərin ümumiləşdirilməsi, hissələrinə ayrılması, sistemə salınması kimi əməliyyatları izah edir;
- Aparılacaq müşahidə, təcrübə və eksperimenti müəyyənləşdirir;
- Müstəqil iş müəllimin fasilitasiya, şagirdlərin kəşf edən "tədqiqatçı" mövqeyinə uyğun həll edilir [2, s.312].

İsbatı mümkün olan və fərziyyə ilə həll edilən məsələlərə dair şagirdlərə müstəqil işin verilməsi məsləhətdir. Biologiyanın, o cümlədən digər fənlərin tədrisində müstəqil işlərin yerinə yetirilməsi şagirdlərin yaradıcı şəxsiyyət kimi formalaşmasına xidmət edir. Müstəqil işin yerinə yetirilməsi:

– Şagirdlərdə müstəqil tədqiqat aparmaq bacarıqlarını formalaşdırır;

– Onlarda müstəqil düşünmək, problemlərin həllinə inamla, cəsarətlə girişmək, bilikləri müstəqil əldə etmək vərdişləri yaradır;

– Araşdırma aparmaqla şagirdlərin elmi dünyagörüşünü genişləndirir;

– Onlarda məntiqi, tənqidi və yaradıcı təfəkkürü inkişaf etdirir;

– Şagirdlərdə həyatın, cəmiyyətin, elmin aktual problemlərini dərk etmək və onların həllinə qoşulmaq bacarıqlarını formalaşdırır. [4, s.122].

Şagirdlərdə müstəqil işlərin təşkili ilə yaradıcı təfəkkürün inkişaf etdirilməsində yeni təlim texnologiyalarının tətbiqi mühüm əhəmiyyət kəsb edir.

Müasir məktəb praktikasında daha geniş tətbiq olunan yeni, şəxsiyyətyönümlü- inkişafetdirici təlim texnologiyaları aşağıdakı kimi ümumiləşdirilir.

1. Əməkdaşlıqla təlim (və ya kollektiv təlim) texnologiyası.
2. Layihələr metodu ilə təlim texnologiyası.
3. Modullarla təlim texnologiyası.

Bu təlim texnologiyalarının hər birinin biologiyanın tədrisində tətbiqi ilə müstəqil işlərin həyata keçirilməsi imkanları genişdir.

Əməkdaşlıqla təlim texnologiyasında tədris materialını şagirdlər əsasən qruplar və cütlər halında öyrənirlər, bu texnologiyanın əsaas mahiyyəti nəyi isə birlikdə, kollektiv şəkildə (kiçik və böyük qruplarda), müəllimin rəhbərliyi ilə öyrənməkdir. Əməkdaşlıqla (kollektiv) təlim texnologiyası biologiyanın tədrisində müxtəlif metodlarla reallaşdırılır. Biologiyanın əksər mövzuların tədrisi kollektiv, qruplarla iş formasında həyata keçirilir. Bu prosesdə müstəqil işlər əməkdaşlıq şəraitində yerinə yetirilir

Layihələr metodu ilə təlim texnologiyasının tətbiqində təlim fəal olmaqla şagirdin məqsədəuyğun fəaliyyəti ilə onun şəxsi maraqlarına uyğun təşkil edilir. Onun əsas mahiyyəti şagirdləri əldə etdikləri biliklərin müstəqil olaraq tətbiqinə hazırlamaqdır. Tədris prosesində şagirdə tanış olan və onun üçün əhəmiyyət daşıyan, real həyatdan götürülmüş ən vacib problemlərin həllinə onun malik olduğu və əldə edəcəyi yeni biliklərdən istifadə etmək öyrədilir. Müəllim müstəqil işin icrasında yeni informasiyaların alınma mənbəyini göstərir, informasiyaları necə axtarmaq yollarını, onları təhlil edib ümumiləşdirmək qaydalarını izah edir. Bu texnologiyanın yuxarı siniflərdə (VIII-XI) müstəqil olaraq tətbiqi məqsədəuyğundur. Çünki burada müstəqil fəaliyyətə daha çox yer verilir, şagirdlər problemi müstəqil olaraq və yoldaşları ilə birlikdə həll edərkən müxtəlif fənlərdən əldə etdiyi biliklərdən istifadə edirlər. Layihələşdirmədə şagirdlərin özləri əsas rol oynayır, müəllim isə onları istiqamətləndirir [5, s.161].

Layihələr metodu həm dərsdə, həm də dərsdənkənar tədbirlərdə tətbiq olunur, cəmiyyətin, elmin inkişafına dair aktual mövzu üzrə layihə hazırlanır. Layihə fərdi, ya ikilikdə, ya da qrup şəklində müəllimin rəhbərliyi və köməyi ilə yerinə yetirilir.

Layihələr metodu texnologiyası ilə tədqiqatın, müstəqil işlərin hazırlanması aşağıdakı mərhələləri əhatə edir.

- Problemin müəyyənləşdirilməsi (bu məqsədlə "fikirlərin həmləsi" və "dəyirmi stol" fəaliyyət formalarından istifadə olunur;
- Hipotezlər (fərziyələr) irəli sürülür və onların həlli yolları axtarılır;
- Tədqiqatın aparılma metodları (müşahidə, statistik, eksperimental və s.) müzakirə edilir;
- Nəticələr müzakirə olunur, üsullar (təqdimat, müdafiə, baxış, hesabat və s.) axtarılır;
- Nəticə çıxarılır, təhlil edilir, sistemləşdirilir;
- Yekunlaşdırma, nəticələrin ümumiləşdirilməsi, slaydlar hazırlanır;
- Ümumi nəticə çıxarılır, slaydlarla iş təqdim olunur [3, s.134].

Tədqiqatın mövzusu müəllim və şagirdlər tərəfindən müəyyənləşdirilir, onun icrasında fənlərarası, fənlərüstü inteqrasiya nəzərə alınır.

Təhsil praktikasında bir çox hallarda müstəqil layihələrin hazırlanması, əməkdaşlıqla təlim texnologiyası ilə üzvi surətdə inteqrasiya olunur. Bu onunla izah olunur ki, əməkdaşlıqla təlim texnologiyası layihələr metodu əsasında yaranmışdır. Layihənin işlənməsinin digər müstəqil işlərdən fərqi, üstünlükləri ondadır ki, layihələr həm dərs prosesində, həm də dərsdənkənar vaxtlarda işlənir.

Layihələrin işlənməsi kompleks problemi və ya bir fənn blokunu (bölməsini) əhatə edir və uzun müddətə (bir neçə saatdan bir ayadək vaxtda) yerinə yetirilir.

Biologiyadan sinif-dərs sistemində layihə üzərində iş mərhələlərlə (4-6 dərs saatında) aparılır. Dərslərdə yerinə yetirilən müstəqil işlər aşağıdakı ardıcıllıqla həyata keçirilir:

1. Layihənin mövzusu və məqsədləri müəyyənləşdirilir, təşkilati işlər ardıcılıqla (tədqiqat problemi seçilir; hipotez irəli sürülür; onun izahı və isbat edilməsi yolları müəyyənləşdirilir; informasiya toplayacaq şagird qrupları təyin olunur və hər bir qrup üzvünün vəzifəsi aydınlaşdırılır) həyata keçirilir.
2. Tədqiqat metodları və üsulları müəyyənləşdirilir: əvvəlcə qruplarda, sonra isə ümumi sinif üzrə diskussiyalar üçün metod və üsullar seçilir; mövzuya aid ayrı- ayrı istiqamətlərdə ekspert qruplarının işi müəyyənləşdirilir, baza qruplarında informasiya mübadiləsi aparılır.
3. İnformasiya mübadiləsi, ekspert qrupları ilə iş, qrup liderləri ilə iş, iş metodları və hesabat formaları seçilir: informasiya əldə edilir və mübadiləsi üzrə işlər birlikdə təhlil olunur; layihənin istiqamətləri üzrə müəyyənləşdirilmiş formada hesabatlar tərtib edilir, qrup üzvləri tərəfindən təklif olunan və hipotezləri təsdiq, yaxud inkar edən arqumentlər müəyyənləşdirilir.
4. Aparılan eksperimentlərin, araşdırmaların nəticələrinin və qrupların topladığı informasiyaların təhlili aparılır: toplanmış informasiyalar və alınmış nəticələr müzakirə edilir; istiqamətlər üzrə layihələrin müdafiəsi üçün rollar bölünür.
5. Layihələrin müdafiəsi üçün ssenarilərin tərtibi və kiçik qruplarda iş təşkil edilir: hər bir layihə ssenarisində problem göstərilir; istiqamət üzrə hipotezin təsdiqi sübuta yetirilir; cədvəl, sxem, şəkillər və s. üzrə izahat aparılır, nəticələr çıxarılır; müdafiə olunacaq layihəyə aid başqa qrupların suallarına cavab verilməsi təşkil edilir.
6. Qruplar layihələrini müdafiə edir.
7. Təqdimat müasir meyarlar əsasında qiymətləndirilir [7, s.229].

Tədrisdə, xüsusilə biologiyanın tədrisində şagidrlərin müstəqil işlərinin təşkili təlimin keyfiyyətini yüksəldir, şagidrlərin təfəkkürünü inkişaf etdirir, onlarda yaradıcılıq bacarıqlarını inkişaf etdirir.

Ədəbiyyat

1. İbrahimov F.M. Təlimin dərk edilməsinə "sistem-struktur" baxımından yanaşma, Bakı, 1999
2. Əliyev İ.F. Tədris prosesində problemli situasiyanın təşkili və ondan istifadə olunması//. Pedaqoji universitet Xəbərləri. 2009, № 1.
3. Hacıyeva H., Abdullayeva T., Hacıbəyova E. Ümumtəhsil məktəblərində biologiyanın fəal təlim metodları ilə tədrisi metodikası. Bakı, 2014.
4. Məmmədova G., Bağırova Ü. "Ümumtəhsil məktəb biologiyasının problemli təlim metodu ilə tədrisində yaradıcı təfəkkürün formalaşdırılması. Azərbaycan TPİ-nin elmi əsərləri, № 2, 2018.
5. Əhmədov H. Pedaqogika. Bakı, 2013.
6. Борзова З.В., Дараев А.М. Дидактические материалы по биологии. Москва, 2005.
7. Hacıyeva G. Biologiyanın tədrisi metodikası, Bakı, 2018.

Г.А.Мамедова

Развитие творческого мышления у учащихся путем организации самостоятельных работ по биологии

Резюме

Статья посвящена решению проблемы развития творческого мышления учащихся путем организации самостоятельной работы при преподавании общешкольных предметов, в том числе биологии. Там исследуются вопросы мышления, особенно творческого мышления и его развития у учащихся. Показаны преимущества организации самостоятельной работы в развитии творческого мышления. При решении задачи рекомендуется обратиться к проблемному обучению и методам проектов на уроках биологии. Там изучаются возможности и способы организации самостоятельной работы с применением метода проблемного обучения и проектов. Даны методические рекомендации учителям-предметникам по данному направлению.

G.A.Mammadova

Developing creative thinking in students by organizing independent works from biology

Summary

The article is dedicated to solving the problem of developing students' creative thinking by organizing independent work in the teaching of general school subjects, including biology. There, issues of thinking, especially creative thinking and its development in students are investigated. The advantages of organizing independent work in the development of creative thinking are shown. In solving the problem, it is recommended to refer to problem-based learning and project methods in biology classes. There, the possibilities and ways of organizing independent work are explored by applying the method of problem-based learning and projects. Methodical recommendations are given to subject teachers in this field.

Rəyçi: prof. R.L.Sultanov

Redaksiyaya daxil olub: 11.04.2023

A.A.MÜRSƏLOVA
müəllim
e-mail: loqoped55@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

ƏŞYA-ƏMƏLİ MƏŞĞƏLƏ SAĞLAMLIQ İMKANLARI MƏHDUD ŞAGİRDLƏRİN ŞİFAHİ NİTQİNİN İNKİŞAFINDA BİR VASİTƏ KİMİ

Açar sözlər: *xüsusi məktəb, nitq inkişafı, tələffüz, qrammatika, əşya-əməli*
Ключевые слова: *Специальная школа, развитие речи, произношение, грамматика, образно-практическая*
Key words: *Special school, speech development, pronunciation, grammar, figurative-practical*

Aktuallıq: Əşya-əməli məşğələlər şagirdlərdə gündəlik anlayışları formalaşdırmaqla elmin əsaslarını mənimsəməyə hazırlayır. Əşya-əməli məşğələ dərslərində müəllim uşaqlara ümumi əmək mədəniyyətinə alışdırır, müxtəlif alətlərlə düzgün işləmək üsullarını öyrədir. Əşya-əməli fəaliyyət bir sıra tərbiyə vəzifələrinin həlli üçün əlverişli şərait yaradır. Burada, ilk növbədə, şagirdlərin şəxsiyyətində fəallıq, təşəbbüskarlıq, müstəqillik kimi keyfiyyətlərin formalaşmasını qeyd etmək lazımdır. S.A.Zıkovun qeyd etdiyi kimi – fənlərə əsaslanan praktik fəaliyyətin xarakterik xüsusiyyəti real əşyaların hazırlanmasıdır, bunun sayəsində fəaliyyət şagirdlər üçün dərkedilən və əlçatan dır. Bu, şagirdin fəallığının, şüurunun və məqsədyönlülüyünün inkişafına səbəb olur. Normalda uşaqlar məktəbə getməzdən əvvəl sözlərin mənalarını mənimsəməklə yanaşı, nitq inkişaf etdikcə geniş məişət anlayışlarını da mənimsəyirlər. Sağlamlıq imkanları məhdud uşaqların əksəriyyətində nitq pozulmaları olduğu üçün onlarda biliklərin və ətraf aləm haqqında təsəvvürləri məhdud olur və məktəbə daxil olarkən əldə etdikləri gündəlik anlayış və lüğətlərin dairəsi normal həmyaşıdlarından nəzərəçarpacaq dərəcədə geri qalır. Bundan əlavə nitqli informasiyaların başa düşülməsində özünü göstərən çatışmazlıqlar sağlamlıq imkanları məhdud uşaqların əksəriyyətində təliminin ilkin mərhələsində oxu və yazı, sonrakı mərhələlərdə humanitar fənlərin proqramlarının, həmçinin əmək dərslərində nitqli informasiyların mənimsənilməsində böyük maniələr yaradır. Bəzən uşaqlar nitq çatışmazlıqları səbəbindən əmək təlimi üzrə nəzəri materialları praktiki olaraq mənimsəmir, sözlü təlimatları çətinliklə başa düşür və ya onların yerinə yetirilməsində səhvlərə yol verirlər. Buna görə də əşya-əməli məşğələ müəllimi hər bir dərsdə şagirdləri yeni anlayışlarla tanış etməli, digər fənlərin tədrisində və ya əvvəlki dərslərdə tanış olduqları anlayışları möhkəmləndirməli və daha da inkişaf etdirməlidir.

Sağlamlıq imkanları məhdud uşaqların əksəriyyətində əqli gerilik, ağır nitq, eşitmə, görmə, hərəkət çatışmazlıqları sözlü – məntiqi hafizənin inkişafında bəzi gecikmələri meydana gətirir. Bu da materialı yadda saxlanmasının həcmi və dəqiqliyi baxımından onların şifahi nitq bacarıqlarının: sözlərin mənasını anlamamaq, onları daha az müvəffəqiyyətlə yadda saxlamaq, ifadələri əzbərləyərkən tez-tez sözləri buraxmaq və s. kimi xüsusiyyətləri ilə bağlı olub, normal inkişaf edən uşaqlardan geri qalması ilə nəticələnir. Əşya-əməli məşğələlərdə aşağıdakı iş növləri həyata keçirilir: yapma (plastilin, xəmir və gildən), rəsm, modelləşdirmə (kağız, karton, məftildən), quraşdırma (ağac, plastik, metal və elektrik konstruktorlarının hissələrindən), tikinti materialından),maket və panoramaların yaradılması, mozaika və parça ilə işləmək, bitkilərin yetişdirilməsi və onlara qulluq üçün təlim-təcrübə sahəsində işləmək. Praktiki fəaliyyət prosesində şagirdlər ətraf aləmin müxtəlif əşyalarını düzəldirlər. Onların yaradılması yalnız ən sadə əl bacarıq və vərdişlərinin formalaşdırılmasını deyil, həm də uşaqların ümumi və nitq inkişafını, müxtəlif biliklərin mənimsənilməsini, uşağın şəxsiyyətinin tərbiyəsini nəzərdə tutur.

S.A.Zıkova görə əşya-əməli fəaliyyət eyni vaxtda müxtəlif müstəvilərdə inkişafetdirici mahiyyət daşıması ilə son dərəcə yüksək didaktik əhəmiyyət daşıyır. Əşya-əməli məşğələlərində yaradılan əlverişli şərait tədris materialını praktiki fəaliyyət əsasında qeyri-ixtiyari əzbərlənməsinə imkan yaradır. Əşya-əməli məşğələlərdə istifadə olunan bir çox iş növləri sağlamlıq imkanları məhdud ağır nitq qüsurları olan uşaqlarda təxəyyül prosesinin inkişafına kömək edir. Bu iş növlərinə təsəvvür əsasında ilkin eskizə görə məhsulun hazırlanması,sözlü təqdimata, şifahi təsvir və ya hekayə əsasında applikasiya seriyasının yaradılması uyğun və s. aiddir.

Əşya-əməli məşğələlərinin aşağıdakı vəzifələri var: Təhsil: – mövzu üzrə materialı öyrənmək; – sadə əmək vərdiş və bacarıqları formalaşdırmaq və inkişaf etdirmək. Korreksiya və inkişafetdirici: – nitqin, hafizə, mücərrəd təfəkkür, emosional-iradi, hərəkət və davranış sahələrinin, uşaq şəxsiyyətini inkişaf etdirmək (əllərin kiçik əzələlərinin motor bacarıqlarını mənimsəmək); – verilən tapşırığı yüksək səviyyədə yerinə yetirmək istəyini formalaşdırmaq; – uşaqlarda estetik zövqü formalaşdırmaq və inkişaf etdirmək. Tərbiyə: – əmək mədəniyyəti və dəqiqlik bacarıqlarını formalaşdırmaq; – müstəqil iş bacarıqlarını və kollektivdə işləmək bacarığını formalaşdırmaq. Əşya-əməli məşğələlərinin mərhələləri məntiqi cəhətdən ardıcıl və bir-biri ilə bağlı olmalıdır. Məşğələlərin vaxtı məqsədəuyğun şəkildə bölüşdürülür və bütün psixi proseslər aktivləşdirilir. Tədris prosesinin məqsədindən asılı olaraq ənənəvi metodların bütün növlərindən istifadə etməklə dilə yiyələnmnin aparıcı: nitqin fəaliyyətlə bağlı ünsiyyət vasitəsi kimi formalaşması prinsipini həyata keçirilməsi üçün ən əlverişli şərait yaradılır. Əşya-əməli məşğələlərdə əşyalarla praktiki fəaliyyət zamanı ünsiyyətin inkişafı, nitq bacarıqlarının formalaşması ən təbii və motivasiya olunmuş, dildən istifadənin zərurətə çevrildiyi şəraitdə baş verir. Hazırlanması planlaşdırılan məmulatla tanışlıq, iş üçün lazım olan materialların hazırlanması, görüləcək fəaliyyətlərin planlaşdırılması, kollektiv iş şəraitində işləmə prosesinin özü və nəhayət, görülən işlərin hesabatı və yoxlanılması – bütün bunlar şagirdlərin müəllimə və bir-birinə, sual, xahiş, tapşırıq, göstəriş, arzuları və müraciət etmək ehtiyacı yaradır. [1] Sağlamlıq imkanları məhdud şagirdlərdə əşya-əməli məşğələlərdə nitqin inkişafı ilə bağlı işlərə: lüğət üzrə iş, şagird sorğuları, söhbət, əyani vasitələrin sözlü təhlili və işin son mərhələsi olaraq, şagirdlərin nitq və əmək fəaliyyəti arasında əlaqənin qurulması daxildir:

Sağlamlıq imkanları məhdud şagirdlərin sözlü təlimatları başa düşmələri üçün aşağıdakı vəzifələri yerinə yetirilməsi vacibdir: 1. Şagirdlərin əqli fəaliyyətə hazırlığını təmin etmək; 2. Lüğəti zənginləşdirmək və semantik əlaqələri inkişaf etdirmək. 3. Çətin cümlə və məlumatları anlamağı inkişaf etdirmək; 4. Səbəb-nəticə əlaqələrinin başa düşülməsini inkişaf etdirmək. Sadalanan bu vəzifələr sağlamlıq imkanları məhdud şagirdlərin təlim materialını mənimsəməsində çox böyük əhəmiyyət daşıyır. [1].

Məqalənin praktik əhəmiyyəti: Əşya-əməli məşğələlərdə lüğət ehtiyatını artırmaq və sözlər arasında əlaqəni inkişaf etdirmək üçün metodik üsullardan biri sxemlərdən istifadə etməklə müəyyən bir əşyanın xüsusiyyətlərini ifadə edən sözlərin seçilməsindən (şagirdlərə verilən sözə "uyğun" sözləri seçmək) ibarət ən sadə çalışmaların aparılmasıdır. Uşaqların yeni söz, terminlərlə tanışlığı eyni zamanda: lövhədə yazmaq, praktiki nümayişlə bağlı mənasını şərh etmək, şagirdlər tərəfindən müvafiq hərəkətləri yerinə yetirmək, onların birləşdirmək və nəhayət, görülən işlər haqqında hesabat vermək sxem üzrə də təşkil oluna bilər. Uşaqların biliyin sistemləşdirilməsinə müəyyən dərəcədə kömək edən terminləri daha yaxşı başa düşmələri üçün mövzuya görə sözlər seçilməli, tematik lüğətlər tərtib edərək həmin terminlər praktiki məqsədlər üçün istifadə edilməlidir. Məsələn, nümunələri ölçmək və çəkmək üçün alətlər: santimetr lenti, xətkeş, üçbucaq, pozan, miqyaslı xətkeş, karandaşlar (sadə və rəngli).Müəllim dərsə hazırlıq zamanı öyrənilən mövzunun terminləri də daxil olmaqla suallar tərtib etməlidir. Anlayış və terminləri anlama çatışmazlıqlarının korreksiyası üçün əşya-əməli məşğələlərdə aşağıdakı metodikalardan istifadə oluna bilər: 1. "Anlayışların müqayisəsi" metodikası. 2."Hadisələrin ardıcıllığının qurulması" metodikası. 3. "Anlayışların xaric edilməsi" metodi-

kası. 4. “Təlimatlara əməl etmək bacarığı” metodikası. 5. “Anlayışlar arasında məntiqi əlaqə və münasibətləir qurmaq bacarığının öyrənilməsi”metodikası

Şagird sorğusu. Məntiqi hafizəni aktivləşdirən suallar, yəni, öyrənilmişlərin təkrar istehsalını, bir qayda olaraq, bir şeyin adlandırılması, təkrarlanması, siyahıya alınmasını tələb edir. Şagirdlərin təfəkküründü aktivləşdirən suallar əşya və hadisələrin müqayisəsini, əvvəllər əldə etdikləri biliklər əsasında yeni materialın izahını qurmaq, müxtəlif əşya və onların istehsal texnologiyası arasında müqayisələri aparmaq tələb edir. Sual-cavab vasitəsi ilə əşyaların oxşarlıq və fərqliliyini təyin edərək, uşaqlar ümumiləşdirməyi, əsas şeyi vurğulamağı öyrənirlər. Müəllim yalnız sorğu yolu ilə şagirdlərin materialı mənim səməsinin keyfiyyətini öyrənə və şagirdlərin bilik və bacarıqlarında problemləri aşkar edərək səylə rini onların aradan qaldırılmasına yönəldə bilər. Qeyd edək ki, sorğu mütəmadi olaraq hər dərsdə aparılmalı, şagirdlərin fərdi xüsusiyyətləri nəzərə alınmaqla aydın şəkildə planlaşdırılmalıdır. Sorğu şagirdlərin biliklərini möhkəmləndirir, onları dərinləşdirir və genişləndirir, nitqin inkişafına kömək edir. Dərsin quruluşundakı sorğuda sualların yerləşməsi (başlanğıcda, sonda və ya ortada) dərsin mövzusundan və müəllimin qarşıya qoyduğu məqsədlərdən asılıdır. Sorğu şagirdlərin məntiqi hafizə, təfəkküründü, məntiqi-rabitəli cümlə qurma qabiliyyətini öyrətməyi əhatə edir. Müəllim sorğu zamanı uşaqların verilən suala dolğun cavab verməsinə xüsusi diqqət yetirməlidir. Əmək dərslərində cavablar uşaqlar üçün nitq inkişafı məşqlərinin ən çox yayılmış növüdür. Suallara verilən cavablar lüğəti zənginləşdirir, sözlərin mənalı istifadəsini öyrədir, cümlələrin düzgün qurulması vərdişlərini aşılayır. Şagirdlərin sözləri yadda saxlamağı, cümləni düzgün qurmağı asanlaşdırmaq üçün onlara cavabın əhəmiyyətli hissəsini özündə birləşdirən suallar verilə bilər. [3]. Əşya-əməli məşğələlərdə müəllimin şagirdlərə verdiyi suallar şagirdlər qarşısın da müxtəlif növ tələblər qoya bilər. Məsələn: 1. Şagirddən ətraflı cavab tələb edən sual: Parçanı hansı ölçü aləti ilə ölçmək olar? 2. Cavab üçün motivasiya tələb edən sual. Bu cür suallar məntiqi təfəkkürü inkişaf etdirir. Müəllim: Niyə kağızl yapışdırır, parçanı isə tikirik? 3. İşlə bağlı hesabat tələb edən sual: Müəllim: İpi hansı üsullarla bağlamaq olar? Müsahibə. Məşğələ prosesində şagirdlərə yeni söz və anlayışların müsahibə yolu ilə hər dərsdə verilməsi şagirdlərin nitq inkişafına təkan verir. Bundan əlavə dərsdə didaktik oyunların keçirilməsi mövzu ilə sözlər arasında möhkəm semantik əlaqələrin qurulmasına kömək edir və bu bütün şagirdlərin diqqətini cəlb etməyə imkan verir. Yeni sözlərdən daimi istifadə, onların hansı mövzuya aid olduğunu bilmək şagirdlərə müəyyən bir suala cavab verərkən istiqamət verməyə kömək edir [2]. Müsahibənin gedişində, şagirdlər çox vaxt verilən tapşırığı səhv başa düşür və düzgün, tam cavaba nail olmaq üçün ona mövzuda əsas şeyi vurğulamağı, onun fərqli xüsusiyyətlərini tapmağı öyrətmək lazım gəlir. Bunun üçün şagirdlər müəllimin köməyi ilə əşyaların görünüşünü, onların təyinatını, əsas keyfiyyətlərini və həyata keçirilməsi texnologiyasını müqayisə edirlər.

Elmi yenilik. Şagirdlərin müəyyən bilik səviyyəsi artdıqca sualların mürəkkəbliyi də arta bilər. Verilmiş tapşırığı yerinə yetirdikləri zaman onların özlərini daha inamlı hiss etmələri üçün suallar daha aydın, nəyin soruşulduğunu düzgün bilməli, cavablarda mövzunun mahiyyətini açmalı, daha adekvat olmalıdır. Şagirdə təklif olunan suala cavab vermək tələbi qoyarkən müəllim mütləq təfəkkürü fəallaşdıran “Deyin ...”, “İzahat edin ....” kimi ifadələrdən istifadə edilməlidir. Müsahibə zamanı müəyyən yoxlama növlərindən: şifahi, yazılı, qrafik, praktik və s.istifadə də çox əhəmiyyətlidir.Yazılı yoxlamaların aparılması şagirdlərin biliyi haqqında obyektiv təsəvvür yaradır. Yazı işləri müəyyən bir mövzu üzrə bütün şagirdlərin biliklərini yoxlamağa, hər bir şagird tərəfindən tədris materialını necə mənimsənilməsinin gedişatını izləməyə imkan verir. Əşya-əməli məşğələlərdə sağlamlıq imkanları məhdud uşaqların nitqinin inkişafında iki tələbin birləşməsindən: praktik tapşırığı yerinə yetirmək və onun yerinə yetirilməsinin gedişatını təsvir etməkdən ibarət kombinə olunmuş yoxlama tapşırıqları da çox böyük əhəmiyyət daşıyır [4].

Nümayiş. Sağlamlıq imkanları məhdud uşaqların əşya-əməli məşğələlərdə nitqin inkişafında əyani vasitələrdən istifadə bir stimul kimi böyük rol oynayır. Məşğələlərdə əşya və hadisələrin dinamikada, yəni hazırlanmasının nümayişi za manı bir əməliyyatdan digərinə keçidin izlənməsi, şagirdlərin passiv lüğətinin aktivləşdirilməsi üçün lazımi şərait yaradır. Nümayiş olunan məmulatın texnoloji və ya əməliyyat xəritəsinin müəllimin sualları və ya qrafik kombinasiyalardan istifadə etməklə təhlili şagirdlərə əməliyyatları sözlü planlaşdırmağı öyrətməyə kömək edir. [4] Əşya-əməli məşğələ müəllimi təlimat sxemlərindən istifadə etməklə şagirdləri əşyaları kəsmək, ölçmək, yoxlamaq və s. haqqında suallara cavab verməyə təhrik edir. Bundan əlavə təlimat və cavab mətnlərin ayrı-ayrı cədvəl və ya sxemlərdə əks etdirilməsi də bir tərəfdən sağlamlıq imkanları məhdud şagirdlərin nitqini inkişaf etdirməyə kömək edir. Əyani, nümayiş etdirilən material şagirdlərin nitqini stimullaşdırır, onlar görülən işlər haqqında daha aydın, dolğun, düzgün danışmağı öyrənirlər. Beləliklə də, əşya-əməli məşğələ sağlamlıq imkanları məhdud şagirdlərin şifahi nitqinin inkişafında çox böyük rol oynayır və müəllimin müsahibəsi, yeni söz və ifadələrin mənimsənilməsi üçün lüğət üzərində işi, bacarıqla qoyulmuş suallar, əməliyyatların nümayişi və digər vasitələr onlarda biliklərini yada salmağa, müstəqil düşünüb, fikrini aydın ifadə etməyə, nəticələr çıxarıb ümumiləşmələr aparmağa kömək edir. Müəllimin şərhi. Müəllimin şərhi əsas şeyi vurğulamaq və yeni mövzunun şagirdlərə mənimsətmək məqsədi daşıyır.Müəllim şərhindən əsasən iki cür istifadə olunur: I – mövzunun ətraflı izahı aiddir. Bu zaman müəllim başa düşülən söz və ifadələrdən, nitqin əlçatanlığı və ifadəliliyindən, intonasiya vurğusundan,görmə və paylama materiallarından və s. istifadə edir. II – qısa təqdimatdan ibarətdir. Müəllim qısaca və bir qədər yavaş templə yeni materialın əsas məzmununu əks etdirən 3-5 mülahizəni izah edir. Bu zaman o, interaktiv lövhə ekranında onları proyeksiya edə bilər. Əsas müddəaları əvvəlcə müəllimin ardınca yüksək səslə, sonra isə özlərinə tələffüz etməyi şagirdlərə öyrətmək məqsədəuyğundur.

Ədəbiyyat

1. Дульнев Г.М. Учебно-воспитательная работа во вспомогательной школе. – М.: Просвещение, 1981. – 343 с.
2. Жидкина Т.С. Методика преподавания ручного труда в младших классах коррекционной школы VIII вида. М.: «Академия», 2005. – 192 с.
3. Зыкова Т.С. Методика предметно- практического обучения в школе для глухих детей. М.: Академия, 2002.
4. Мирский С.Л. Индивидуальный подход к учащимся вспомогательной школы в трудовом обучении. – М.: Педагогика, 1990. – 104 с.

А.А.Мурсалова

Предметно-практическое занятие как средство развития устной речи студентов с ограниченными возможностями здоровья

Резюме

Развитие речи в специальной школе является одной из основных задач коррекционной системы в целом. Помимо типичных нарушений произношения, словарного запаса и грамматики, у учащихся с ОВЗ возникают трудности с выбором слов в процессе общения, построением предложений для диалога, неспособностью использовать выразительные речевые средства. Поэтому формирование устной речи как средства общения выступает ведущей задачей коррекционного образования. В специальных школах применяют несколько видов трудового обуче-ния, одним из которых, и важнейшим, являются материально-практические упражнения, реализующие общее и речевое развитие, усвоение различных знаний, воспитание личности детей и формирование простых трудовых привычек у младших школьников.

A.A.Mursalova

Subject and practical lesson as a means of developing oral speech of students with limited health opportunities

Summary

The development of speech in a special school is one of the main tasks of the correctional system as a whole. In addition to typical violations of pronunciation, vocabulary and grammar, students with disabilities have difficulty choosing words in the process of communication, building sentences for dialogue, and inability to use expressive speech means. Therefore, the formation of oral speech as a means of communication is the leading task of correctional education. In special schools, several types of labor training are used, one of which, and the most important, is material and practical exercises that implement general and speech development, the assimilation of various knowledge, the education of the personality of children and the formation of simple work habits in younger students.

Rəyçi: filol.ü.f.d, dos. T.H.Ağayeva

Redaksiyaya daxil olub: 14.04.2023

M.H.NƏZƏROV
fəlsəfə elmləri doktoru, dosent
e-mail: muslimnazarov@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

TƏDRİS PROSESİNİN SƏMƏRƏLİ TƏŞKİLİNDƏ İNFORMASİYA TƏLİM TEXNOLOGİYALARININ ROLU

Açar sözləri: *informasiya, informasiya cəmiyyəti, təhsil, tədris prosesi*
Ключевые слова: *информация, информационное общество, образование, учебный процесс*
Key words: *information, information society, education, teaching process*

Bu gün informasiya texnologiyaları təhsilin inkişafının planlaşdırılmasında əsas prioritetlərdən birinə çevrilir. Bu pedaqoji nəzəriyyə və təhsil prosesinin praktikasında mühüm dəyişikliklərlə müşayiət olunur, müasir texniki imkanlara adekvat olan və təhsil alanların təhsilə ahəngdar daxil olmasına kömək edən tədris texnologiyalarının məzmununa düzəlişlərin tətbiqi ilə əlaqədardır. Müasir təhsil sisteminin mühüm xüsusiyyəti təhsilin keyfiyyətini və hər hansı bir təhsil müəssisəsinin imicini müəyyən edən təlimin təşkili üçün innovativ strategiyanın mövcudluğudur. Təhsilin keyfiyyəti dedikdə, təhsil məhsulunun və ya xidmətinin dövlət standartının və sosial sifarişin tələblərinə cavab vermək qabiliyyəti başa düşülür.

Kompüter texnologiyalarının bütün fəaliyyət sahələrinə qlobal tətbiqi, yeni kommunikasiyaların və yüksək dərəcədə avtomatlaşdırılmış informasiya mühitinin formalaşması ənənəvi təhsil sisteminin çevrilməsinin başlanğıcı olmaqla yanaşı, həm də informasiya cəmiyyətinin formalaşması yolunda ilk addım oldu.

Cəmiyyətin informasiyalaşdırılmasında əsas cəhətlərdən biri də təhsilin informasiyalaşdırılmasının rolu – təhsilin məzmununun keyfiyyətinin yüksəldilməsinə, habelə Azərbaycanın təhsil sistemində bütün fəaliyyət növlərinə yeni informasiya texnologiyalarının tətbiqi və inkişafına yönəlmiş bir prosesdir.

İnformasiya cəmiyyəti şəraitində müasir mütəxəssisin sahib olması lazım olan bilik, bacarıqların məzmunu daim artır. Kompüter texnologiyaları və tədris prosesinin inteqrasiyası onun intensivləşməsinə, gələcək mütəxəssis üçün təlim sisteminin modernləşdirilməsinə kömək edir.

İnformasiya texnologiyasının üstünlükləri öyrənmənin intensivləşdirilməsi və aktivləşdirilməsi, fərdiləşdirmə və təhsil prosesinin humanistləşdirilməsi, təhsilin yaradıcı inkişaf xarakterinin həyata keçirilməsi ilə bağlıdır. Bu texnologiyaların məqsədi informasiya cəmiyyətində tələbələrin intellektual bacarıqlarını artırmaq və təhsilin keyfiyyətini yüksəltməkdir.

İnformasiya texnologiyaları **(**İT**)** informasiyanın formalaşması, təşkili, işlənməsi, yayılması və istifadəsi üçün məlumatların çevrilmə prosedurları sistemidir.

Beləliklə *İnformasiya texnologiyası (İT)* idarəetmə obyektinin optimal parametrlərinə nail olmaq üçün aparat və proqram təminatından istifadə etməklə qərar qəbul etmək, ayrı-ayrı mənbəli etibarlı və aktual məlumatların işlənməsi üsullarının toplusudur [3, s.394].

Müasir İT aşağıdakılara əsaslanır:

- məlumatların müəyyən alqoritmlərə uyğun kompüterlə işlənməsi;
- külli miqdarda məlumatın kompüter daşıyıcılarında saxlanması;
- məlumatların məhdud bir müddətdə istənilən məsafəyə ötürülməsi.

Bunlar həyata keçirildiyi mühit və tərkibindəki komponentlərlə xarakterizə olunur:

- texniki mühit (əsas problemlərin həlli üçün istifadə olunan avadanlıq);
- proqram mühiti (İT tətbiqi üçün bir sıra proqram vasitələri);

– mövzu mühiti (biliklərin müəyyən bir mövzu sahəsinin məzmunu);
– metodoloji mühit (təlimatlar, fəaliyyətin qiymətləndirilməsi və s.).

Polat E.S. "Təhsil sistemində müasir pedaqoji və informasiya texnologiyaları" [7] adlı dərs vəsaitində müasir informasiya texnologiyalarından istifadənin əsas pedaqoji məqsədlərini aşağıdakı kimi müəyyənləşdirir:

1) Müasir informasiya texnologiyalarından istifadə etməklə tədris prosesinin bütün səviyyələrinin intensivləşdirilməsi:
– təlim prosesinin səmərəliliyinin və keyfiyyətinin artırılması;
– idrak fəaliyyətinin artan fəaliyyəti;
– fənlərarası əlaqələrin dərinləşdirilməsi;
– həcmi artırmaq və lazımi məlumat axtarışını optimallaşdırmaq.

2) Tələbə şəxsiyyətinin inkişafı, fərdi informasiya cəmiyyətində rahat bir həyat üçün hazırlamaq:
– müxtəlif düşüncə növlərinin inkişafı;
– ünsiyyət bacarıqlarının inkişafı;
– informasiya mədəniyyətinin formalaşması, məlumatın işlənməsi bacarığı;
– eksperimental tədqiqat fəaliyyətini həyata keçirmək bacarıqlarının formalaşdırılması.

3) Cəmiyyətin sosial sifarişini yerinə yetirmək üçün çalışmaq:
– informasiya savadlı bir şəxsin hazırlanması;
– istifadəçinin kompüter vasitəsi ilə hazırlanması;
– informatika sahəsində karyera rəhbərliyi işinin həyata keçirilməsi [7].

Tədris prosesində kompüter texnologiyalarından istifadə informasiya cəmiyyətində tamamilə təbii bir hadisədir. Bununla belə, onların tədrisdə istifadəsinin effektivliyi müəllim-şagird qarşılıqlı əlaqələri sistemində yaranan ən mürəkkəb münasibətlər kompleksində tutacaqları yer haqqında aydın təsəvvürdən asılıdır.

Təhsil prosesində İKT-dən aşağıdakı vasitələr kimi istifadə oluna bilər:
– idrak aləti;
– təhsil vasitələri;
– tələbə şəxsiyyətinin inkişaf vasitələri;
– təhsil prosesinin informasiya və metodiki təminatı vasitələri;
– nəzarət, düzəliş prosesinin avtomatlaşdırılması vasitələri
– təhsil fəaliyyətinin nəticələri, kompüter testləri;
– təlim təcrübəsinin nəticələrinin işlənməsi prosesinin avtomatlaşdırılması vasitələri;
– təlim avadanlıqlarına nəzarət;
– intellektual asudə vaxtının təşkili vasitələri [3, s.386]

Tədris prosesində ən müasir informasiya texnologiyalarından istifadə tələbələrin motivasiyasını və idrak fəallığını artırır, onların dünyagörüşünü genişləndirir, təhsilin fərdiləşdirilməsini və konstruktiv düşüncə tərzini formalaşdırır, gələcək müəllimlərin müstəqilliyini inkişaf etdirir.

Nəzərov M.H, Quliyev N.Z, Nəzərova X.M. "Pedaqoji Texnologiyalar" [4] adlı dərs vəsaitində "İnformasiya texnologiyalarının əsas vəzifələrin"i aşağıdakı kimi göstərmişlər:

1) təhsil prosesində müasir informasiya texnologiyalarından istifadə etməklə mütəxəssis hazırlığı keyfiyyətinin artırılması;

2) təhsil fəaliyyətinin yaradıcı və intellektual komponentlərini artıraraq aktiv tədris metodlarından istifadə;

3) müxtəlif növ təhsil fəaliyyətlərinin inteqrasiyası (təhsil, tədqiqat və s.);

4) tədris prosesində informasiya texnologiyalarından istifadəni tələbənin fərdi xüsusiyyətlərinə uyğunlaşdırılması;

5) tədris prosesində yeni informasiya texnologiyalarının inkişafı, tələbənin idrak fəaliyyətinin aktivləşməsinə kömək etmək və peşə fəaliyyətində səmərəli istifadə üçün informasiya vasitələrinin mənimsəmə motivasiyasını artırmaq;

6) təlimdə davamlılığın və ardıcıllığın təmin edilməsi;

7) məsafədən təhsil üçün informasiya texnologiyalarının inkişafı;

8) təhsil prosesinin proqram və metodiki təminatının yaxşılaşdırılması;

9) müxtəlif sahələrdə mütəxəssislərin xüsusi peşə hazırlığı prosesində informasiya texnologiyaları təliminin tətbii [4, s.101].

Müəlliflərin fikirincə "Təhsilin informasiyalaşdırılmasının ən vacib vəzifələrindən biri mütəxəssisin **informasiya mədəniyyətinin** formalaşdırılmasıdır, onun formalaşma səviyyəsi, 1. İnformasiya prosesləri, modelləri və texnologiyaları barədə biliklərlə müəyyənləşdirilir; 2. Müxtəlif fəaliyyətlərdə məlumatların işlənməsi və təhlili üçün alət və metodlardan istifadə bacarıqları; 3. peşəkar (təhsil) fəaliyyətində müasir informasiya texnologiyalarından istifadə etmək bacarığı; 4. açıq bir məlumat sistemi olaraq ətraf aləmin dünyagörüşü" [4, s.101].

İnformasiya texnologiyalarından istifadəsi tələbəyönümlü bir yanaşma tətbiq etməyə kömək edir, tələbələrin xüsusiyyətləri, öyrənmə səviyyəsi, meylləri nəzərə alınaraq fərdiləşdirmə təmin edir.

İnformasiya texnologiyalarından sistematik istifadə aşağıdakı nəticələri verir:

- öyrənilən mövzuya maraq artır, tələbələrin idrak fəaliyyəti artır;
- siniflərin ümumi təşkili yaxşılaşır;
- tələbələrin nəticələrinin monitorinqinin keyfiyyəti artır;
- tələbə və müəllimin yaradıcılıq potensialı aktivləşdirilir;
- tələbələrin ictimailəşməsi daha uğurludur.

Bununla bağlı, informasiya texnologiyalarının təlim prosesində möhkəm yer tutduğunu söyləmək lazımdır. Lakin müəllim dərsin əsas və aparıcı fiquru olaraq qalır və kompüter texnologiyalarından istifadə tədris prosesinin təşkilinin təsirli yollarından biri kimi qəbul edilməlidir.

Müasir informasiya texnologiyalarının təhsil prosesinə böyük təsirini nəzərə alaraq, gələcək pedaqoji kadrlar onları öz metodik sistemlərinə daxil etməyə getdikcə daha çox həvəs göstərəcəklər. Lakin məktəb təhsilinin informasiyalaşdırılması prosesi mərhələli və davamlı olduğundan bir anda baş verə bilməz.

Bu gün cəmiyyətin inkişafı həyatın bütün sahələrində yeni informasiya texnologiyalarından istifadə zərurətini diktə edir. Müasir məktəb dövrün tələblərindən geri qalmamalıdır, çünki məktəbin əsas vəzifəsi yeni savadlı, düşünən, müstəqil biliklərə yiyələnən vətəndaşlar yetişdirməkdir [9]. Bu isə o deməkdir ki, bu gün artıq müəllimin dərsdə sadəcə kompüterdən istifadə etməsi kifayət etmir, onların tədris və tərbiyədə tətbiqi üçün ciddi metod və texnologiyalara yiyələnmək lazımdır.

Beləliklə, informasiya texnologiyaları artıq təhsil sistemini tamamlayan alətlər deyil, biliklərin yeni nizamının və onun institusional strukturlarının yaradılmasının imperatividir. Təhsilalanların bilik əldə etmək tələbatını ödəmək üçün müəllim informasiya təhsil texnologiyalarına yiyələnməli, onların inkişafını nəzərə alaraq, özünütəhsil yolu ilə informasiya mədəniyyətini daim təkmilləşdirməlidir.

Müəllimin innovativ fəaliyyətində fərdi-yaradıcı yanaşma müəllimin özünü yaradıcı şəxsiyyət kimi dərk etməsini, təkmilləşdirmə və düzəliş tələb edən peşəkar və şəxsi keyfiyyətlərinin müəyyən edilməsini nəzərdə tutur. Özünü təkmilləşdirmə ehtiyacı yenilikçi müəllimin əsas motivi və əsas keyfiyyətidir.

Müəllimin innovativ fəaliyyətinin formalaşma səviyyəsinin spesifik xüsusiyyətlərində özünü göstərən təklif olunan meyarlar sistemi diqqətəlayiqdir. Beləliklə, pedaqoji yeniliklərə yaradıcı həssaslıq müəllimin daxili dünyasının mədəniyyətə, cəmiyyətə açıqlığını, digər təcrübələrə keçiriciliyini, dəyişikliyə hazır olmasını və s. yenilikçi müəllim şəxsiyyətinin yaradıcı-

lıq fəaliyyəti intellektual təşəbbüskarlıq dərəcəsində, pedaqoji intuisiya və improvizasiyanın təzahüründə özünü göstərir.

Beləliklə, təhsildə innovativ proseslər pedaqoji fəaliyyətin subyektinə çevrilərək müəllimin peşə şüurunun və davranışının yeni tipini müəyyən edir.

Məktəb və universitet arasında təşkilati-pedaqoji əməkdaşlıq çərçivəsində innovativ təhsil proseslərinin həyata keçirilməsi vasitəsi təhsil strukturlarının səmərəliliyini artıracaq innovativ təhsil mühitinin formalaşdırılması olmalıdır.

Ədəbiyyat

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu(2009). Bakı: "Bakı Çap Evi" 2012 – 64 s.
2. Mahmudov M.C. Boloniya prosesi: problemlər, perspektivlər, reallıqlar. Bakı: "Elm və Təhsil", 2010, – 504 s.
3. Nəzərov M.H, Quliyev N.Z, Nəzərova X.M., Pedaqoji Texnologiyalar. Dərs vəsaiti Bakı: ADPU, 2020. – 467 s.
4. Nəzərov M.H, Təhsilin sosiomədəni əsasları. Monoqrafiya. Bakı: "Elm və təhsil", 2017, – 256 s
5. Nəzərov M.H, Quliyev N.Z. Cəmiyyətin inkişafinda təhsilin informasiyalaşdiırılmasının rolu. GeoStrategiya jurnalı № 03 (63). Bakı, 2021, – s.186-192.
6. Капустин, Н.П. Педагогические технологии адаптивной школы:учебное пособие для вузов. М.Академия, 2010. – 214 с.
7. Полат Е.С. Современные педагогические и информационные технологии в системе образования: учебное пособие для вузов. М.: Академия, 2007. – 364 с.
8. https://geostrategiya.az/news.php?id=179
9. https://cyberleninka.ru/article/n/rol-informatsionnyh-tehnologiy-v-obrazovanii

M.Г.Назаров

Роль информационных технологий обучения в эффективной организации учебного процесса

Резюме

В статье рассматривается резкое увеличение содержания знаний и умений, необходимых современному специалисту в условиях информационного общества, основные факторы, определяющие важность и целесообразность реформ в действующей системе образования, основные задачи информационных технологий, одна из самых обсуждаются важные задачи информатизации образования, уровень образования.

В качестве одной из важнейших задач информатизации образования определяется формирование информационной культуры будущего специалиста, уровень ее сформированности, в первую очередь, знаний об информационных процессах, моделях и технологиях.

M.H.Nazarov

The role of information learning technologies in the effective organization of the educational process

Summary

The article discusses the sharp increase in the content of knowledge and skills required for a modern specialist in the information society, the main factors determining the importance and expediency of reforms in the existing education system, the main tasks of information technology, one of the most important tasks of education informatization. the level of formation is discussed.

As one of the most important tasks of informatization of education, the formation of the information culture of the future specialist, the level of its formation, first of all, knowledge about information processes, models and technologies is determined.

Rəyçi: p.ü.f.d. prof. İ.N.İsayev

Redaksiyaya daxil olub: 10.04.2023

Ü.M.QULİYEVA
dosent

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

ORTA VƏ ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN LEKSİKASININ ÖYRƏNİLMƏSİNİN METOD VƏ VASİTƏLƏRİ

Açar sözlər: *kompüter texnologiyaları, proqramlaşdırma, emosional hazırlıq, dinamik pauza, tədris vəsaiti*
Ключевые слова: *компьютерные технологии, программирование, эмоциональная подготовка, динамическая пауза, учебный материал*
Key words: *computer technologies, programming, emotional preparation, dynamic pause, educational material*

Hal-hazırda müasir metodikada yeni lüğətin təqdimat üsullarının yenilənib hazırlanması, onların metod səviyyəsinə qaldırılması prosesi davam edir. Yüksək keyfiyyətli texnologiyaların, innovasiyaların fonunda məktəblərdə və digər təhsil müəssisələrində leksikanın tədrisi metodları da yenilənir və şagirdlərə daha maraqlı təqdimat nümayiş olunur. Əvvəllər bütün fənlər, o cümlədən, ingilis dili və digər xarici dillər eyni bir metodla tədris olunurdusa, artıq nəinki, fənlər, onların ayrı-ayrı bölmələri də fərqli üsul və eyni metodlarla tədris olunur.

Beləliklə bir sira effektli metodları təqdim edirik;

1. Kompüter texnologiyaları metodu və İnternetdə istifadə.

Qloballaşan dünyamızda hər bir sahədə kompüter texnologiyalarından istifadə edildiyi kimi təhsildə də geniş istifadə olunur. İngilis dili dərslərində də dil materiallarını, xüsusən də leksikanı tədris edən zaman auditoriyalarda kompüterlərin olması vacib şərtlərdən biridir. Artıq bildiyimiz kimi, Azərbaycanda demək olar, bütün Ali məktəblərdə və digər təhsil ocaqlarında yüksək texnoloji təchizatlarla təmin olunub və tələbələr heç bir çətinlik çəkmədən sərbəst internet resurslarından istifadə edərək onları dərsdə tətbiq edə bilirlər.

Kompüterlərin istifadəsi həm müəllim, həm də şagirdlərə müəyyən mənada rahatlıq və komfort gətirir. Kompüterlərin dərs zamanı istifadəsi tələbələrə kecilən yeni sözlərin qrafik görünüşü ilə yanaşı, eyni zamanda onların səsli şəkildə tələffüzünü və qarşısında sözün leksik mənasına müvafiq rəsmlərin əks etdirilməsi yolu ilə mənimsinilməsinə şərait yaradır. Bu da o deməkdir ki, oyrənci eyni anda öz təfəkküründə üç əməliyyatı yerinə yetirir; görür, eşidir, anlayır. Bu şəkildə öyrədilən sözlər daha uzun müddətli yaddaşda qalır. Kompüter texnologiyalarından istifadə zamanı dərslərdə təqdimatlardan istifadə etmək labüddür, xüsusən də yeni sözləri əks etdirən mövzü vəya dil materialı öyrədildikdə. Burada önəmli olan rəsm nümunələrindən, internet resurslarının tətbiqindən və eyni zamanda audio, video və mövzuya uyğun olaraq prezentasiyalar təqdim etmək imkanlarından istifadə edə bilməklə təqdimatın görüntülü olmasını saxlaya bilməkdir. [12]

Kompüterlər leksikanin tədrisinin bütün mərhələlərində onu təşkil etməyə və yoxlamağa imkan verir. Kompüterlə leksikanın tədrisi zamanı tələbələr tapşırıqları eyni vaxtda yerinə yetirir və yerindəcə nəticələrdə tanış olurlar.

Kompüter texnologiyaları ilə bərabər İnternetin də xarici dil dərslərin böyük elmi üstünlükləri vardır. İnternetdən istifadə dərsdə tələbələrin yüksək səviyyədə motivasiya olunmalarına şərait yaradır. Onun məqsədi şagirdləri xarici dilin tədrisi zamanı maraqlandırmaq, onların bilik və təncrübələrinin genişləndirilməsini təmin etməkdir. Öyrəncilər dili dərslərdən kənar bir yerdə real kommunikasiya üçün işlətməyə hazır olmalıdırlar. Öyrəncilər dildən dərsdən kənarda da real kommunikasiya vasitəsi kimi istifadə etməyi bacarmalıdırlar; məsələn dili öyrənilən ölkəyə səyahət etdikdə, xarici qonaqların öz ölkəsində qəbul edilməsində, dili öyrəni-

lən ölkənin öyrənciləri ilə yazışmalarda, audio-video kasetlərin, tapşırıqların nəticələrinin paylaşılmasında və s. [12]

Belərikdə yuxarıda qeyd olunanları nəzərə alaraq xarici dillərin tədrisi zamanı müasir texniki vasitələrin rasional istifadəsi aşagıdakılara şərait yaradır;

1. Xarici dilin tədrisinin bütün mərhələlərində xarici dil mühitinin varlığını doldurur;
2. Öyrəncilərin xarici dil öyrənməyə motivasiyalarını yüksəldir;
3. Aydınlığın mühüm didaktik prinsipini demək olar ki, reallaşdırır;
4. Proqramlaşdırma və yoxlama ücün ən yaxşı şərtlər yaradır;
5. Hər bir öyrəncinin individual tipoloji baxımdan öyrədilməsini təmin edir;
6. Eşitmə özünümonitorinq bacarıqlarının formalaşması və inkişafının sürətlənməsini təmin edir;
7. Danışıq da daxil olmaqla, bütün öyrəncilərlə eyni vaxtda tapşırıqlarının bir çox aktiv növlərini yerinə yetirir;
8. Öyrəncilərin analitik və təqlidi bacarıqlarından maksimal dərəcədə istifadə etmək, onların daxili resurslarını tam səfərbər edir. [11]

2. Sağlamlığı qorumağa yönəlik texnologiyalar.

Müasir dövrümüzdə 60%-dən cox öyrənci mütəmadi olaraq, yaxud tez-tez tədrisə yönəlik stress keçirirlər. Bu da öyrəncilərin fiziki və psixi sağlamlıqlarının göstəricilərinin pisləşməsinə gətirib çıxarır. Öyrəncilərin dərs prosesi zamanı stresə gətirib çıxaracaq dərəcədə yüklənməsi tədris zamanı işin kəmiyyətidən deyil, keyfiyyətindən asılı olur. Əgər bilklərin öyrənilməsi prosesi maraqlı və motivasiya olunmuş şəkildədirsə, o zaman materialın mənimsənilməsi də yüklənmə effekti yaratmayacaq. Öyrəncilərin hərəki aktivliyinin yüksəldilməsinin yeni yollarının axtarışı tədris prosesinin təşkilinə, dərsin dinamik formada qurulmasına yeni baxışlarla bağlıdır.

Dərsdə tez-tez fəaliyyət növlərini və metodlarını dəyişmək və əvəz etmək lazımdır. Məsələn, oyun fəaliyyətlərindən, dərsin mövzusuna uyğun yaradıcı işlərdən, yarış xarakterli tapşırıqlardan istifadə etmək lazımdır. Bütün bunlar öyrəncilərdə əqli inkişafı, idrak fəaliyyətini, öyrənilən dilə motivasiyanı yüksəldir. Bəs müəllim dərs zamanı öyrəncilərdə sağlamlığı qoruyub saxlayan və onu möhkəmləndirən hansı üsullardan istifadə etməlidir? Bunlara nümunə olaraq aşağıdakıları qeyd etmək lazımdır;

1. Dərsə başlamazdan əvvəl emosional hazırlıq (qorxunu azaldır, uğur qazanmağa ruhlandırır);
2. Dinamik pauza (ümumi motorikanın gərgiliyini aradan qaldırır);
3. Maragın saxlanılmasına və artan yorğunluğun aradan qaldırılmasına yönəlik fəaliyyət növlərinin növbələşməsi.

Birinci növbədə müasir pedaqoqlar öz dərslərində mövzu ilə əlaqəli dinamik pauzalardan, hərəki oyunlardan istifadə edirlər. Belə oyunlarla istənilən leksik materialı işləmək mümkündür.

3. Şeir və qafiyələnmədən istifadə metodikası.

Təcrübə göstərir ki, müəllimlər ingilis dili dərslərində şeir və qafiyələnmələrə tez-tez müraciət edirlər. Onların istifadəsi halları isə yalnız ənənəvi yaradıcılıga əsaslanır və bu da öz növbəsində öyrəncilərdə etinasız münasibət yaradır. Yaxud da bir çox pedaqoqlar ücün bütün dərs prosesi "eşitməyə" və "öyrənməyə" yönəlir, buna görə də şagirdlər tez-tez öyrənilən şeirlərin mənasını belə anlamırlar. Şeir və qafiyələnmənin istifadəsi problemi ibtidai təhsildən başlayaraq yuxarı siniflərdə qurtararaq tədrisin bütün mərhələlərində diqqətəlayiq baxış tələb edir. Belə ki, dil materialının öyrənilməsi effekti yüksəlir. Poeziyaya sevgi uşaqlara erkən yaşlarda aşılanmalı və onları bütün həyatları boyu müşayət etməlidir.

Öyrəncilər adətən davamsız diqqət müşahidə olunur. Buna görə də, dərs zamanı tələbələrin və şagirdlərin gərginliyini aradan qaldıran, onların diqqətini cəkən, müsbət emosional əhval-ruhiyyə yaradan iş növlərinə müraciət etmək mühümdür. Şeirlərin, qafiyələnmələrin öyrənilməsi uşaqların yaş və psixoloji xüsusiyyətlərinə cavab verir. Onlar asan öyrənilir, ritmik-

lik, səsli təkrar kimi əlamətlərə malikdirlər. Qafiyələnmə və şeirlərin köməyilə şifahi nitqdə leksik-qrammatik materiallar asanlıqla mənimsənilir. Şeir və qafiyələnmənin leksik materialın mənimsənilməsindəki rolunu göstərmək məqsədi ilə bir dərs nümunəsinə nəzər salaq;

Müəllim bu zaman dərsdə əsasında tematik, didaktik və seçici (tanıdıcı) prinsiplərin durduğu şeirlərin cəminə böyük önəm verir. Müəllim öyrənciləri həmin şeirin müəllifi olan şairin həyat və yaradıcılığı ilə tanış edir. Lövhədə artıq yeni sözlər transkripsiyaları ilə qeyd olunub. Daha sonra müəllim fonetik məşğələyə başlayır və uşaqlara şeirin adını çatdırır. Bir dəfə oxuyur. Məsələn

"The duty of the strong. You who are the oldest, You who are the tallest, Don't you think you ought to help. The youngest and the smallest? You who are the strongest, You who are the quickest, Don't you think you ought to help. The weakest and the sickest? Never mind the trouble, Help them all you can, Be a little woman! Be a little man!" Daha sonra müəllim öyrəncilərdən şeirdə nədən bəhs olunduğunu tapmalarını tələb edir. Şeirdə istifadə olunmuş mürəkkəb sözlərin, söz birləşmələrinin, strukturların işlənib hazırlanması aparılır. Müəllim öyrəncilər individual şəkildə söz və strukturları təkrarlamasını təşkil edir. Daha sonra hər birindən şeiri oxumağı xahiş edir. Bu şəkildə müzakirə aparılaraq şeirin məzmunu aydınlaşdırılır.

Beləliklə, şeir və qafiyələnmənin müasir dövrümüzdə rolu böyükdür. Poeziya nümunəsi kimi onlar şagirdlərin nitqlərinin və eləcə də, diksiyalarının, eşitmə, temp, səsin gücünü idarə edə bilmək bacarıqlarının inkişafında böyük əhəmiyyətə malikdir.

4. Nəgmələrlə tədris metodu.

Bu tədris metodu əsasən orta məktəbdə istifadə etmək məqsədə uyğun olardı. Kifayət qədər tədris vəsaitlərində, xarici dilin öyrənilməsinin ilkin mərhələlərində nəğmələri bu və ya digər leksik mövzunun öyrənilməsində mühüm sayırlar. "*Chatterbox1*" tədris vəsaitində demək olar hər leksik mövzuya uyğun uşaqlara maraqlı, asan yadda qalan nəğmələr təklif olunur. "*The family song*" nəğməsini nəzərdən kecirək;

Bu nəğmədə ailənin adları sadalanan üzvləri onları təsvir edən və çox vaxt tədrisin erkən mərhələlərində uşaqlar tərəfindən mənimsənilməsi cətin olan sifətlərlə birgə təsvir olunur. "*Wonderland. Pre-Junior*" (Longman) dərsliyində "*Bədən üzvləri", "Qida" və s.* mövzularına əsaslanan musiqi altında çox uğurlu qafiyələnmələr verilir. Xüsusən də bu tip nəğmələrdən istifadə ibtidai sinif müəllimlərinin dərs planında yer alır. Nəzərə alsaq ki, bu gün kompüter texnologiyalarını dərslərə tətbiq edirik, o zaman mövzunun məzmununa uyğun nəğmələri də məhz, bu texnologiyaların köməyi ilə asanlıqla tapmaq olar və şagirdlər rahat şəkildə özləri dinləyib öyrənə bilərlər.

Nəgmələrin faydalı metod kimi istifadəsində əsas cəhələrdən biri də olur ki, onlar orijinal olurlar (authentic material) və öyrənilən xarici dildə ən cox rast gəlinən ifadələr, söz birləşmələri burada öz əksini tapır. Buna misal olaraq məşhur ingilis nəğməsi "*Two feet gentlemen*" i göstərə bilərik. Burada hər təkrar zamanı məşhur ingilis salamlaşma frazası "*How do you do?"* işlənir və müxtəlif insanların bir-birilə görüşməsi sujet xəttini əks etdirir. Nəğmə hər dəfə şagirdlər tərəfindən oxunduqca bu ifadə təkrar öyrənilir və yadda qalır. Daha bir nəğmə "*Who`s afraid of big black spiders?*" şagirdlərə qısa, lakonik sual-cavab verməyi öyrədir. Məşhur "*Good morning*" nəgməsi isə hazır dialoq rolunu oynayır. Bu nəğmənin köməyi ilə də şagirdlər salamlaşmağı, hal-əhval tutmağı və sağollaşmağı öyrənirlər. [10]

5. Oyun metodları

Keçilmiş leksik, qrammatik materialın təkrar edilməsi, tələbələrin lüğət ehtiyatının zənginləşdirilməsi və nitqin daha da avtomatlaşdırılmasında mühüm rol oynayan vasitələrdən biri də leksik oyunlardır. Düzgün və maraqlı təşkil edilmiş leksik oyunlar öyrəncilərin dərsdə fəallığını artırır, keçilmiş söz və ifadələri möhkəmləndirməklə onlarda xarici dil dərslərinə nə dərəcədə maraq oyatmağa, tələbələrin dərsdə fəallaşmasına səbəb olur. Bu zaman öyrəncilərin hissiyyat və görmə orqanları fəallaşır, onların diqqəti, yaddaşı, iradə və yaradıcılıq qabiliyyətləri inkişaf edir.

Xarici dil dərslərində oyunlar dərs və dərsdən kənar vaxtlarda aparıla bilər. Müəllim istər dərs və istərsə də dərsdən kənar vaxtlarda apardığı oyunların maraqlı olmasına, onun sinif, bilik və yaş səviyyəsinə uyğunluğuna fikir verməlidir. Bu zaman onlar – 1) Kim verilmiş mövzuya aid çox söz deyər?; 2) topla oyun, telefonla oyun, estafeta, hər bir sözün axırıncı hərfi ilə başlayan bir söz; 3) hecalar üzərində oyun və s. kimi oyun növlərindən istifadə edə bilərlər. Bu oyunların keçirilməsi bir tərəfdən şagirdlərin lüğət ehtiyatını zənginləşidirir, digər tərəfdən isə onlara lazımi dil mühiti yaratmaqla bərabər onların diqqət, hafizə və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir.

Yuxarıda qeyd olunan bütün təlim metodları və texnologiyaları tədris prosesində ingilis dilinin leksikasının tədrisi zamanı müəllimlər tərəfindən geniş istifadə olunmaqdadır və hər biri sınanmış vasitələrdir. Qeyd etmək istərdik ki, dərs zamanı bu metodlara müraciət edən müəllim və metodistlər uğurlu nəticələr əldə edəcəklərindən əmin ola bilərlər. Sadəcə olaraq, hər bir üsul və vasitə yerində və düşünülmüş şəkildə tətbiq olunmalıdır. Bu zaman heç bir vaxt itkisinə yol verilmədən qarşıya qoyulmuş məqsədə nail olmaq mümkündür. İngilis dili leksikasının tədrisi ilə əlaqədar olaraq tədqiqatımızın 1-ci fəslində fərqli dövrlərə aid olan metodik və nəzəri ədəbiyyatları analiz edərək müxtəlif fikirlərin mövcud olduğu qənaətinə gəldik. Tədris prosesi zamanı öyrəncilərin öyrəndikləri xarici dildə uğur əldə etmələrinə yönəlmiş həmin konsepsiyaların hər biri hər hansı bir aspektdən dolğun, eyni zamanda müəyyən qədər çatışmayan xüsusiyyətlərə malik olsalar da, ümumilikdə təlim metodlarının daha praktik, vacib və ən əsası isə yadda qalan olması ideyasını ön plana çəkir. Leksikanın tədrisi prosesi xarici dil öyrənmənin əsas komponenti olan lüğətə malik olmaq prinsipini ön plana çəkir. Bu proses dilin şöbələri arasında üzvi şəkildə bağ yaratmaqla, müasir interaktiv metodlara əsaslanaraq öyrəncinin individual taktika və strategiyasını müəyyən etməyə xidmət edir. Belə ki, öyrənci müxtəlif metodikalarla mənimsədiyi xarici dilin sözləri hesabına ana dilindən başqa digər bir dilin də onun üçün "ünsiyyət vasitəsi" olmasına əmin olur və özünü cəmiyyətdə ikinci bir "mən" kimi təsdiq edir. Əbəs yerə deyilməyib ki, "neçə dil bilirsənsə, o qədər də insansan".

Təqdim etdiyimiz məqalədə xarici dil təliminin ilkin mərhələlərindən diqqət mərkəzində saxlanılması vacib olan oyun metodlarından istifadənin araşdırılmasına çalışmışıq. İngilis dilinin öyrənilməsinin ilkin mərhələsində oyun meodlarının vasitəsi ilə öyrəncilərdə özünəgüvən, daxili enerjilərinin düzgün istiqamətləndirilməsi faktorları aşkarlanmalıdır. Öyrəncilərdə leksikanın tədrisində istifadə edilən oyun metodlarının konkret, düzgün və stimullaşdırıcı hədəf-vasitə kimi tətbiqi vərdişləri yaradılmalıdır. Öyrəncilərin öz uğurlarına nəzarət və özünüqiymətləndirmə hisslərinin inkişafına kömək edəcək rəğbətləndirici vasitələrin tətbiqinə nail olunmalıdır.

Ədəbiyyat

1. Babayev A. Dilin lüğət tərkibinin zənginləşdirilməsinin mənbə və üsullarına dair. Bakı: ADU, 1958, – 365 s.
2. Belinskiy B.G. Seçilmiş məqalələri. Bakı: Gənclik, 1979, – 289 s.
3. Quliyev Z. Şagirdlərin almanca lüğət ehtiyatlarını zənginləşdirmək üsulları. Bakı: "Azərb. Mək.", 1967.
4. Quliyev Z. Alman dili tədrisinin ilk mərhələsində şagirdlərə danışığın öyrədilmə yolları. Bakı, 1990.
5. Məmmədov N. Dilin lügət tərkibinin zənginləşdirilməsinin mənbə və üsullarına dair. Bakı: ADU, 1958, – 365 s.
6. Tahirov A., Salayev Ə., Orta məktəblərdə ingilis dilinin tədrisi metodikası. Bakı: Maarif, 1978, – 223 s.
7. Urr P., A Course in Language Teaching, Cambridge University Press, – p.375.
8. Арсентьева, Р.П. Игра-ведущий вид деятельность в дошкольном детстве – форум, 2009, – 144 с.

9. Безруких М.С. Психофизиологические основы эффективной организации учебного процесса // Здоровье детей (приложение к Первому сентябрю). № 19, 2005, – с. 12-21.
10. Гальскова Н.Д. Современная методика обучения иностранный языкам: Пособие для учителя. М., АРКТИ, 2003, 192 с.
11. Коменский Я.А. Мир чувственных вещей в картинках, «Orbis Sensualium Pictus» / Пер. с латинского Ю.Н. Дрейзина; Под ред. и со вступит. Статьёй проф. А.А.Красновского. – Изд. 2-е. – М.: Учпедгиз, 1957. – 352 с.
12. Полат Е.С. Интернет на уроках иностранного языка. ИЯШ № 2,3 2001 г.

У.М.Кулиева

Методы и средства изучения лексики и английского языка в средней и высшей школе

Резюме

В представленной нами статье мы попытались исследовать использование игровых методов, которые важно держать в центре внимания с начальных этапов изучения иностранного языка. На начальном этапе изучение английского языка с помощью игровых методов следует обучать студентов уверенности в себе и правильному направлению внутренней энергии. Необходимо сформировать у учащихся привычку использовать игровые методы, применяемые при обучении лексике, как конкретную, правильную и стимулирующую цель-средство.

U.M.Guliyeva

Methods and means of learning the vocabulary of the English language in secondary and higher schools

Summary

In the article we have presented, we have tried to investigate the use of game methods, which are important to keep in the center of attention from the initial stages of foreign language learning. At the initial stage of English language learning, the factors of self-confidence and proper direction of internal energy should be taught to the students by means of game methods. It is necessary to create the habit of using the game methods used in the teaching of vocabulary with students as a concrete, correct and stimulating target-means.

Rəyçi: dos. S.Cəfərova

Redaksiyaya daxil olub: 16.03.2023

Ü.M.QULİYEVA
dosent

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

İNGİLİS DİLİ LEKSİKASININ TƏDRİSİNDƏ LEKSİK MƏŞĞƏLƏLƏRİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

Açar sözlər: *leksik minimumların seçilməsi, leksikanın metodik tipologiyası, leksik materialın seçilməsi, statistik prinsiplər, metodik prinsiplər, linqvistik prinsiplər, dilin lüğət tərkibi*

Ключевые слова: *подбор лексических минимумов, методологическая типология лексики, подбор лексического материала, статистические принципы, методические принципы, лингвистические принципы, словарный запас языка*

Key words: *selection of lexical minima, methodological typology of the lexicon, selection of lexical materials, statistical principles, methodical principles, linguistic principles, vocabulary of the language*

Xarici dilin tədrisi zamanı dilin digər bölmələrində olduğu kimi, leksikanın tədrisi metodikası da hələ erkən dövrlərdən başlayaraq bir çox müəllim və metodistlərin diqqətini cəlb etmişdir. Buna başlıca səbəb olaraq aşağıdakı faktorları göstərmək olar; 1. Lüğət ehtiyatının dil öyrənənin nitq bacarığının inkişafında oynadığı böyük rolu; 2. Lüğətə sahiblənmək prosesinin zəhmət tələb etməsi; 3. Problemin özünün mürəkkəbliyi, belə ki, dilin leksik tərkibi özündə müxtəlif (rəngarəng) və mürəkkəb mənzərə əks etdirir. [11]

Hələ XVII əsrdə Y.A.Komenski tədris üçün lüğət formalaşdırmağa cəhd edərək özünün "Rəsmlərdəki dünya" adlı əsərinə uşaqların latın dilinin mənimsəmələri üçün öyrənməkdə faydalı olacaq 8000 sözü daxil etmişdir. Onun ardınca bir sıra alimlər də leksikanın tədrisi probleminə maraq göstərmişlər. K.D.Uşinski leksikanın mənimsənilməsində eşitmə orqanı ilə səs orqanlarının birinin digərini qarşılıqlı yoxlamasına imkan yaradan adət edilmiş assossasiyanın yaradılmasının əhəmiyyətini xüsusi olaraq qeyd edirdi. [7, s.65] L.V.Şerbanın da leksika və qrammatikanın qarşılıqlı əlaqəsi, nitqdə düzəltmə sözlərin rolu, ana dilində və xarici dildə sözlərin məna və struktur baxımdan leksik qaydalarla üst – üstə düşməməsi və s. bu kimi problemləri araşdırması bu sahədə mühüm yeniliklərə yol açdı. Bundan əlavə o dövrün bir çox görkəmli alimləri – Q.Palmer və M.Vest başda olmaqla, İ.A.Qruzinskaya, V.D.Arakin, V.S.Setlin, İ.M.Berman, N.İ.Hez leksik materialın seçilməsi və tətbiqinə dair öz nəzəriyyələrini irəli sürdülər. Bütün bu və ya digər tədqiqatçıların sayəsində nəzərdən keçirilən sahədən 4 başlıca problem şaxələndi; 1. Leksik minimumların seçilməsi; 2. Leksikanın metodik tipologiyası;

3. Öyrəncilərdə şəxsi söz ehtiyatının yaradılması; 4. Öyrəncilərin bu əsasda potensial söz ehtiyatlarının genişləndirilməsi.

İstənilən xariçi dilin leksikasının tədrisi onun leksik seçimi məsələsini ortaya qoyur. Leksik seçim 2 əsas sualla bağlıdır; 1. Vahidlərin təyin olunması və seçim prinsipləri; 2. Seçim prosedurlarının işlənilməsi.

Daha çox əsaslandırılmış və praktik cəhətdən məqsədyönlü vahidlərin minimum leksik seçiminə söz – mənalar daxildir. Eyni zamanda burada əsas əlamətlər və göstəricilər kimi başa düşülən seçim prinsipləri. Leksikanın dəyərləndirilməsi ilə baş tutan seçim prinsipləri 3 təsnifat qrupuna bölünür;

1. Statistik prinsiplər; 2. Metodik prinsiplər; 3. Linqvistik prinsiplər.

Sadalanan prinsiplərin hansından istifadə edilməsi sualı konkret situasiya, tədrisin məqsəd və şərtlərindən, sözün minimum həcmindən və onun aktiv, yaxud passiv lüğət ehtiyatına daxil olmasından asılıdır.

Aktiv sözlərin seçimində birinci və ikinci qrup prinsiplərdən və həmcinin üçüncü qrupa aid olan bəzi prinsiplərdən istifadə olunur. İstisna olaraq sinonimlər, uyğunluqlar, söz yaradıcılığındakı təkmənalılıq və çoxmənalılıq.

Beləliklə, ali məktəblərdə tədrisin qarşısında duran ən mühim vəzifələrdən biri tələbələrlə lüğət ehtiyatının planlı, ardıcıl olaraq inkişaf etdirilməsidir. Lüğət ehtiyatının zənginləşdirilməsi sayəsində tələbələr ingilis dilində sözlərin çoxmənalılığı, dilin üslubi və frazeoloji zənginliyi, söz yaradıcılığı və s. kimi leksik incəliklərlə tanış olurlar. Mətndəki sözlərə həssas münasibət yaradıldıqda tələbələrin hansı sözü öz dəqiq və məcazi mənasında anlamağı aydınlaşdırdığı zaman müəllim həmin sözün dəqiq, həqiqi, məcazi mənalarını tələbələrə çatdırmaqla onların lüğət ehtiyatını dəqiqləşdirmiş olur. Bu dəqiqləşdirmə eyni zamanda, lüğətin zənginləşdirilməsinə kömək edir. Bu məqsədlə şagirdlərə keçdikləri hər bir leksik vahidlərin mənalarını dəqiqləşdirmək öyrədilməlidir. Bu sahədə çoxmənalılığa, leksik və frazeoloji vahidlərin nitqə tətbiqinə, sözün üslubi çalarının araşdırılmasına və sinonimikaya dair çalışmalardan istifadə etmək lazımdır. Leksikanın üzərində işin əsas mərhələlərinə yeni materiallarla tanışlıq, ilkin möhkəmləndirmə, diskursun müxtəlif tiplərində leksik bilik və bacarıqların inkişaf etdirilməsi daxildir.

Müşahidələr göstərir ki, tələbələrin lüğət ehtiyatında kifayət qədər söz olmasına baxmayaraq, onlar nitqlərində bu sözlərin ancaq bir qismindən istifadə edirlər. Mənasının başa düşüldüyü hər bir sözü şagirdin fəal lüğət fonduna daxil edilmiş söz hesab etmək olmaz. Çünki, öyrənilən hər yeni söz nitqdə istifadə olunmursa, o aktiv lüğət ehtiyatına daxil olmur və passiv fondda saxlanılır. Lüğət üzrə aparılan işin bir mühüm istiqaməti də tələbələrin qeyri-fəal fondunda olan sözləri onun fəal lüğət fonduna çevirə bilməkdir. Aparılan işlər elə qurulmalıdır ki, tələbənin lüğətində olan bütün sözlərdən fərdi, müstəqil nitq praktikasında, müsahibədə, cümlə tərtibində, nəql etmədə, hər hansı sərbəst mövzu üzərində fikirlərini yazmaqda istifadə etməyi bacarsın.

Dil ilə təfəkkür bir-biri ilə dialektik əlaqədə inkişaf edir. Dil təfəkkürlə bilavasitə əlaqədar olmasaydı, insanlar arasında ünsiyyət və fikir mübadiləsi vasitəsi olmsaydı, təfəkkürün fəaliyyət vasitəsi, insanın idrak fəaliyyətinin nailiyyətlərini sözlər, söz birləşmələri vasitəsilə cümlələr şəklində qeyd və təsbit edə bilməzdi. Məlum olduğu üzrə, hər hansı bir dildə olan sözlərin cəmi, əsas lüğət tərkibi dilin ümumi mənzərəsini əks etdirir; lüğət tərkibi nə qədər zəngin və çox cəhətlidirsə, dil bir o qədər zəngin və inkişaf etmiş olur.

Dilin lüğət tərkibi bugünkü səviyyəsinə birdən-birə deyil, uzun və çox mürəkkəb inkişaf prosesi keçirərək gəlib çıxmışdır. Hər hansı bir dilin lüğət tərkibində, əsas lüğət fondunda, dildə yeni sözlərin yaranmasında bir sıra qrammatik və leksik sözdüzəltmə qaydaları vardır. [1, s.20]

İstehsalın bu və ya digər sahəsində baş verən müəyyən bir yenilik ümumxalq xarakteri daşıyırsa, bu yeniliyi ifadə edən söz də ümumxalq xarakteri qazanır – ümumxalq tərəfindən eyni tərzdə anlaşılır və beləliklə də həmin söz ümumxalq dilinin lüğət tərkibinə daxil olur. [2, s.285]

Deyilənləri ümumiləşdirərək lüğət fondu haqda aşağıdakı tərifi vermək olar; hər hansı bir dildə danışanların hamısı tərəfindən hər yerdə, hər vaxt anlaşılan sözlər sferinə lüğət fondu deyilir. Dilin lüğət fondu onun milli mənzərəsini təşkil edir. Yəni dili leksik cəhətdən yaşadan, onun müstəqilliyini şərtləndirən lüğət fondudur. Onlar arasında aşağıdakı ümumi və fərqli cəhətlər vardır;

1. Lüğət fondu lüğət tərkibinin içərisində yerləşir. Daha doğrusu onun bir hissəsidir. 2. Lüğət tərkibi ilə lüğət fondu arasında ziddiyyət yox, qarşılıqlı əlaqə vardır. Yəni onlar bir – birini zənginləşdirir. 3. Dilin lüğət tərkibi daha sürətlə dəyişdiyi halda, lüğət fondu ləng dəyişib müəyyən mənada sabit olur. 4. Dilin lüğət fondu qohum dillərin lüğət fonduna daha yaxın olur. Çünki, buradakı köklü sözlər əsrlər əsrlərlə dilin lüğət fondunda işlənmiş, başqa sözlə, ümumi bir mənbədən törəmişdir. 5. Alınma sözlər ilk dəfə lüğət tərkibinə daxil olur. [2, s.295]

Dövlət tədris proqramında göstərildiyi kimi orta məktəblərimizdə xarici dili tədrisi qarşısında duran əsas məqsəd – şagirdlərə bu dildə müəyyən oxu və yazı vərdişləri, vermək, on-

ların şifahi, eləcə də yazılı nitqini inkişaf etdirməkdir. Məlumdur ki, bu vəzifənin yerinə yetirilməsi müəyyən miqdarda söz ifadələri bilmək sayəsində mümkündür. Çünki, mədəni nitqə yiyələnməkdə həlledici amil zəngin lüğət ehtiyatına sahib olmaqdan, yeri gəldikdə ondan düzgün istifadə etməyi bacarmaqdan ibarətdir.

Dil öyrənmənin ilkin mərhələsi zamanı şagirdlərə lüğət fondu mənimsədilərkən öyrənilən yeni sözlər, ümumilikdə leksik vahidlər aşağıdakı sahələrdə tətbiq olunur;

1. Danışıq zamanı; məlumat vermək, elan etmək, məlumatlandırmaq, ifadə etmək bacarığı kimi; 2. Yazıda; həm özünün, həm də digərlərinin şərhlərini tez bir zamanda əlaqələndirə bilmək və yazılı formaya salmaq bacarığı; 3. Oxu zamanı; özü-özünə tez oxumaq bacarığı; 4. Dinləmə zamanı (eşitmə); canlı ünsiyyət zamanı normal tempdə olan nitqi anlamaq bacarığı; 5. Tərcümə zamanı; hər hansı situasiya zamanı tərcüməçi rolunda çıxış edə bilmək bacarığı.

Hər hansı bir dildə nitq vərdişlərinə yiyələnməkdə zəruri lüğət ehtiyatının olması ilkin şərtlərdəndir. Odur ki, xarici dillərin tədrisi qarşısında duran ən mühüm vəzifərdən biri də tələbələrin lüğət ehtiyatını zənginləşdirməkdən ibarətdir. Hər bir xarici dil müəllimi öyrənciərin dilin "tikinti" materialını, nitqin özülünü təşkil edən lüğət ehtiyatına mükəmməl yiyələnmələrinə diqqət yetirməli, yeni sözlər hesabına onların lüğət ehtiyatlarının zənginləşdirilməsi üçün ən səmərəli təlim metodlarından bacarıqla istifadə etməlidirlər. Məlumdur ki, tələbələrin şifahi nitqinin zənginliyi onların lüğət ehtiyatında sözlərin asılıdır.

Yeni sözlərin izahı üzərində aparılan iş ən mühüm məsələlərdən biridir. Bunun üçün müəllim müxtəlif üsullardan istifadə etməlidir. Yeni sözlərin izahı dedikdə, nəyi başa düşmək olar? Yəni sözün izahı o deməkdi ki müəllim hər şeydən əvvəl sözlərin mənasını açmaq, onun qrammatik formasını, səs və hərf tərkibini müəyyən etmək, həmin sözün keçilmiş sözlərlə əlaqəsini müəyyənləşdirməklə düzgün tələffüzünü öyrətmək və nitqdə işlənilməsini təmin etmək deməkdir.

Leksik məşğələlər dövründə müəllimin sualı və tələbələrin cavablarına verilən tələbləri də müəyyənləşdirmək vacib məsələlərdəndir. Bu dərslər də əsasən şifahi formada aparılır. Burada sual – cavab əsas yer tutur. Müəllimin sualı və tələbələrin cavablarına verilən tələblər metodik ədəbiyyatda ümumi şəkildə işıqlandırılmışdır. İngilis dilində canlı danışıq nümunələrini öyrətmək olduğundan müəllim təlim prosesində aşağıda göstərilən bir sıra xüsusiyyətlərə daha çox diqqət yetirməlidir. [3, s.52]

1. Suallar keçilmiş dil materialı əsasında tərtib edilməlidir; 2. Sualları təşkil edən sözlər fonetik, leksik, qrammatik cəhətdən keçilmiş dərslərə asaslanmalıdır; 3. Verilən suallar tələbənin bilik səviyəsinə uyğun olmalıdır və tədricən mürəkkəbləşdirməlidir.

İlk leksik məşğələlərdə müəllim çalışmalıdır ki, məşğələlər dövründə şagirdlər hər bir suala tam və düzgün cavab versinlər. Tələbələr suallara düzgün cavab verə bilmədikdə, həmin cavabı müəllimin özü deməlidir.

Leksik məşğələlərin keçirilməsi zamanı verilən materialın həcmi və xarakteri də mühüm amil sayılır. Təcrübə və müşahidələr göstərir ki, ilk leksik məşğələlərdə öyrədiləcək sözlər müəyyən tematika əsassında olmalıdır.

İstənilən xarici dildə zəngin lüğət ehtiyatına malik olmaq, hələ o dildə hələlik danışmaq deyildir. Buna görə də başlıca vəzifə şagirdə hər bir leksik vahidi təcrid olunmuş şəkildə deyil, onları cümlə və mətn daxilində işlətməyi öyrətmək bacarığını aşılamaqdan ibarətdir. Təəssüf ki, bir sıra ingilis dili müəllimləri tələbələrə yeni keçilən hər bir söz və ifadəni mətndən təcrid olunmuş şəkildə mexaniki olaraq əzbərlətməyə çalışırlar. Nəticədə öyrənci söz və ifadələrin ayrı-ayrılıqda leksik mənalarını izah edə bilsələr də, danışıq nitqində bunlardan düzgün istifadə edilməsində çətinlik çəkir, ən sadə cümlələr qurmağı belə bacarmırlar. Bütün bu göstərilənlərdən aydın olur ki, xarici dil tədrisinin ilkin mərhələsindən başlayaraq söz və ifadələri öyrəncilərə ifadə və cümlə daxilində öyrətmək lazımdır.

Müasir dövrümüz hər bir sahədə olduğu kimi təhsildə də yeni formaların, metod və üsulların axtarışı ilə xarakterizə olunur. Təhsil sistemi artıq köklü dəyişikliklər və innovasiya-

lar üzərində qurulur. Halhazırda müasir təhsil ocaqlarında elə yeni metodlara ehtiyac duyulur ki, bu metodlar yalniz keyfiyyətli təhsil deyil, eyni zamanda şəxsiyyətin potensialını inkişaf etdirərək onu kəşf etməyə kömək edə bilsin. Müasir təhsil sistemi öyrənciləri təkcə fəaliyyətə, elmə deyil, eyni zamanda sosial dəyişikliklərə uyğunlaşmağa hazırlayır və istiqamətləndirir. Bütün bu yeniliklər xarici dillərin tədrisi metodikasından da yan keçmir. Günü-gündən xarici dillərin öyrənilməsinə, xüsusən də, ingilis dilinə artan maraq bu sahədə innovativ metodların, üsulların axtarışını labüd edir.

Leksikanı tədris edərkən hər bir müəllim qarşısına müəyyən məqsədlər qoymalı və bu məqsədlərə çatmaqda ona kömək edəcək düzgün üsulları, metodları seçməlidir. Hər hansı bir yeni sözün öyrədilməsində məllimlərin qarşısında aşağıdakı tələbatlar dayanır;

1. Sözün quruluşu; tələffüz və yazı qaydaları; öyrənci sözün necə tələffüz edildiyini və eyni zamanda onun necə yazıldığını bilməli, yəni sözün görünüşündən xəbərdar olmalıdır. Tədris zamanı müəllimlər bu iki aspektin gözlənilməsinə fikir verməlidirlər.

2. Qrammatika; dil öyrənmənin ilkin mərhələsində öyrənciləri qrammatik qaydalarla çox da yükləməməli olduğumuz halda, yeri gəldikdə sadə formaları onlara öyrətməliyik. Belə ki, müəllim şagirdlərə yeni hərəkət bildirən sözlər (feillər) öyrədirsə, həmin nitq hissəsinin zamanları (və digər qrammatik kateqoriyaları) haqda da sadə şəkildə məlumat verməli, yaxud bu feilin birgə işləndiyi söz və söz birləşmələri haqda şifahi şəkildə danışmalıdır. Digər bir misal isimlərlə bağlı çəkmək olar. Əgər müəllim müəyyən isimlərin adını çəkirsə, onların cəm formalarını da qeyd etməli, yaxud bu isimlərin yalnız təkdə işləndiyini izah etməlidir. Eyni ilə digər nitq hissələrini ifadə edən yeni sözlər də tədris olunarkən oların daha yaxşı başa düşülməsini asanlaşdıran digər terminlərlə əlaqəli şəkildə izah olunmalıdır.

3. Yeni sözləri təqdim edərkən müəllimlər bu sözlərin mənalarını öyrəncilərə düzgün çatdırmalıdırlar. Burada xüsusi diqqət sözün həqiqi, məcazi, kontekst daxilində verdiyi mənalara ayrılır. İlk öncə şagirdlərə təqdim olunan yeni sözün həqiqi mənası izah olunmalı və onlar bunu yaxşı mənimsədikdən sonra digər mənalar, işlənmə dairəsi, söz birləşməsi şəkildən verdiyi mənalar öyrədilə bilər.

4. Sinonim və antonimlər; Hər hansı yeni bir sözü öyrədərkən müəllimlər onların sinonim və antonimlərindən istifadə edərək şagirdlərə təqdim etsələr, uğurlu nəticələr əldə oluna bilər. Şagird iki zidd məfhumu öz şüurunda canlandırdıqda və hər dəfə bu tərzdə yada saldıqda, yaxud iki yaxın mənalı sözü eşidib onları mənimsədikdə bu sözlər onun aktiv lüğətinə daxil olur. [7, s.60-70]

Yuxarıda qeyd etdiyimiz bəndləri nəzərə alaraq müəllimlər yeni lüğətin təqdimatına başlaya bilərlər. İngilis dilinin lüğət ehtiyatını da mənimsədərkən auditoriyada tələbələri maraqlandırmaq, onları aktiv şəkildə mövzuya cəlb etmək lazımdır.

Sözlərin leksikanın təqdimatı prosesi dedikdə, biz müəllimi informasiyanı ötürən, öyrənənləri isə passiv dinləyici və ya informasiyanı qəbul edən kimi anlayırıq. Ancaq biz bilirik ki, hər iki halda öyrənənlər işə cəlb olunmalı və bu prosesin aktiv iştirakçısına çevrilməlidirlər. Ən geniş yayılmış vasitələrdən biri "elicitation" (cavabın öyrənəndən alınmasıdır) üsuludur. Bu zaman müəllim sözün mənasını ifadə edən şəkil göstərməklə şəkildəkinin nə olduğunu sual-cavabla öyrənənlərdən almağa çalışır. Bu texnikadan istifadə etməklə dərs prosesində öyrənənlərin aktivliyini artırmaq, nitq vərdişlərinin inkişaf etdirilməsi üçün şərait yaratmaq, eyni zamanda öyrənənləri çevik və diqqətli olmağa sövq etmək, nisbətən zəif öyrənənləri də dərs prosesinə cəlb etmək və onlarda qavrama prosesinin nə dərəcədə alındığını müşahidə etmək olar.

Aşağıda qeyd etdiyimiz üsulların da çox vaxt öyrəncilərin marağına səbəb olduğunu və uğurlu nəticələrə gətirdiyini xüsusi olaraq qeyd etmək lazımdır;

1. Aydın və dəqiq məna izahı;
2. Təsvir, keyfiyyət, kəmiyyət haqqında dəqiq və izahlı təsəvvür oyatma;
3. İllustrasiyalardan istifadə etməklə (şəkillər, əşyalar) nümunələr vermək;

4. Kontekstin açıqlanması (sözün rast gəlindiyi mətn və ya cümlərin daxilində);
5. Sinonim, antonim, çoxmənalılığı əsas götürməklə sözün izahı;
6. Tərcümə yollaından istifadə ilə;
7. Seçilmiş yeni sözlərlə əlaqələ fikirlər, söz birləşmələri və s. misal çəkməklə.

Lüğətin mənimsənilməsinin 3 əsas mərhələdə öyrədilməsini; 1) hazırlıq (preparition), 2) təqdimat (presentation), və diskussiyanı (discussion) əsas götürərək dərs zamanı yuxarıda adını sadalalığımız bu üsullardan istifadə etməklə müəllimlər təqdim edəcəkləri yeni sözlərin planını hazırlamalıdırlar. Hər üç mərhələ özündə mühüm bacarıq və vərdişləri, fəaliyyət növlərini əks etdirir. Birinci mərhələdə öyrəncilər yeni sözləri öyrənməyə hazırlıq mərhələsindən keçirlər. Bu zaman onlar motivasiya olunmalı və təqdim olunacaq lüğətə aktiv şəkildə reaksiya verməlidirlər. İkinci mərhələdə yeni sözlər müəllim tərəfindən seçilmiş xüsusi metod və üsullar vasitəsilə təqdim olunur. Müəllim tələbənin yeni sözü anlaması üçün istənilən üsulu sınamalıdır. Çünki öyrəncilər fərqli öyrənmə strategiyasına və intellektual sferayamalikdirlər. Bu mərhələdə yeni sözlərin möhkəmləndirilməsi və mənimsənilməsi prosesi gedir.

Üçüncü mərhələdə isə artıq keçilmiş yeni materialın müzakirəsi başlayır. Bu mərhələdə şagirdlər özləri müstəqil yaradıcılıqlarını nümayiş etdirərək əvvəlki keçilmiş materiallarla yeni dil materiallarını ümumiləşdirə, müqayisə və təhlil edə bilərlər. Müəllimlər öyrənciləra müxtəlif suallar verərək onların lüğət ehtiyatlarını möhkəmləndirə və yaxud öyrənmə səviyyələrini yoxlaya bilərlər.

Qeyd etmək istərdimki orta məktəblərdədə leksikanın tədrisi çox əhəmiyyətlidir. Şagirdlər yeni lüğəti mənimsəyən zaman keçilən sözlərin hamısını yadda saxlaya bilmirlər. Buna səbəb onların maraq dairələri, öyrənmə bacarıqları və s. ola bilər. Hər bir öyrənci gündəlik həyatında daha çox ehtiyac duyduğu, ətrafında maraq göstərdiyi, sevdiyi məfhum və əşyaların adlarını daha tez yadda saxlayır. Beləliklə də, bu sözlər onun aktiv lüğətinə daxil olur, digər sözlər isə passiv yaddaşda qalır.

Lüğətin bir çox mənbələrdən öyrənilə bilməsi hamı üçün məlumdur, buna baxmayaraq bir çox tələbələr üçün dərsliklər və ya müəllim tərəfindən təqdim olunmuş oxu materiallarının öncədən müzakirəsi lüğətin öyrənilməsinə yönəlmiş ən geniş yayılan üsullardandır. Bu tip oxu çalışmalarının bir sıra faydalı cəhətləri vardır;

1. Kurrikulumun tələblərinə uyğun olaraq cümlə və ya məth yazıla və ya ixtisar oluna bilər; 2. Öyrəniləcək lüğət, həmçinin, qrammatikanın inkişafını da təmin edə bilər;

3. Tələbənin dil səviyyəsini və qiymətləndirməni təmin etmək üçün baza yarada bilər. Digər tərəfdən, isə bu texnika ayrı-ayrı tələbələrin ehtiyaclarını ödəməyə də bilər. Nəzərə alınsa ki, öyrənənlər həyat təcrübəsinə, inanclarına, münasibətlərinə, öyrənmə tərzlərinə görə fərqlənirlər, o zaman bütün bu fərqlər təqdim olunmuş mətnin hansı səviyyədə və nə dərəcədə öyrənilməsinə təsir etmiş olar. Mətn tipli tapşırıqlardan istifadə etməklə tələbələrin lüğət ehtiyatlarının zənginləşdirilməsi iki əsas məqsədə xidmət edir; a) Verilmiş mətni oxumağa həvəs oyatmaq, b) Oxudan öncə fikirləri cəmləmək və fikir yürütməyə stimul yaratmaq.

Ədəbiyyat

1. Babayev A. Dilin lügət tərkibinin zənginləşdirilməsinin mənbə və üsullarına dair. Bakı: ADU, 1958, – 365 s.
2. Belinskiy B.G. Seçilmiş məqalələri. Bakı: Gənclik, 1979, – 289 s.
3. Quliyev Z. Şagirdlərin almanca lüğət ehtiyatlarını zənginləşdirmək üsulları. Bakı: “Azərb. Mək.”, 1967.
4. Quliyev Z. Alman dili tədrisinin ilk mərhələsində şagirdlərə danışığın öyrədilmə yolları. Bakı, 1990.
5. Məmmədov N. Dilin lügət tərkibinin zənginləşdirilməsinin mənbə və üsullarına dair. Bakı: ADU, 1958, – 365 s.
6. Tahirov A., Salayev Ə., Orta məktəblərdə ingilis dilinin tədrisi metodikası. Bakı: Maarif, 1978, – 223 s.

7. Urr P., A Course in Language Teaching, Cambridge University Press, – p.375.
8. Арсентьева, Р.П. Игра-ведущий вид деятельность в дошкольном детстве – форум, 2009, – 144 с.
9. Безруких М.С. Психофизиологические основы эффективной организации учебного процесса // Здоровье детей (приложение к Первому сентябрю). № 19, 2005, – с. 12-21.
10. Гальскова Н.Д. Современная методика обучения иностранный языкам: Пособие для учителя. М., АРКТИ, 2003, – 192 с.
11. Коменский Я.А. МИР ЧУВСТВЕННЫХ ВЕЩЕЙ В КАРТИНКАХ, «Orbis Sensualium Pictus» / Пер. с латинского Ю.Н. Дрейзина; Под ред. и со вступит. Статьёй проф. А.А.Красновского. – Изд. 2-е. – М.: Учпедгиз, 1957. – 352 с.
12. Полат Е.С. Интернет на уроках иностранного языка. ИЯШ № 2, 3 2001 г.

У.М.Кулиева

Цели и задачи лексических упражнений при обучении английской лексике

Резюме

Представленная нами статья посвящена изучению целей и задач лексических упражнений в обучении английской лексике. В своем исследовании мы старались систематически изучить проблему и проанализировать ее сначала с теоретической, а затем с практической стороны. Анализ мнений различных педагогов, ученых и лингвистов в этой области, основанных на преподавании английской лексики, с расчетом на определенную хронологическую последовательность, означает, что проблема имеет педагогическую, психологическую сущность.

U.M.Guliyeva

Goals and tasks of lexical exercises in teaching English vocabulary

Summary

The article we presented is dedicated to the study of the goals and tasks of lexical exercises in the teaching of English vocabulary. In our research, we tried to systematically study the problem and analyze it first from the theoretical aspect, and then from the practical aspect. Analyzing the opinions of various pedagogues, linguists and scientists in this field based on the teaching of English vocabulary, expecting a certain chronological sequence, means that the issue has a pedagogical, psychological, and linguistic essence.

Rəyçi: dos. S.Cəfərova

Redaksiyaya daxil olub: 16.03.2023

S.M.SALAMLI
doktorant

Bakı Dövlət Universiteti
(Bakı şəh., Z.Xəlilov küç., 33)

PANDEMİYA ŞƏRAİTİNDƏ AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ KİTABXANASINDA OXUCULARA XİDMƏT

Açar sözlər: *distant təhsil, elektron kitabxana, inkişaf, açıq resurslar*
Ключевые слова: *дистанционное обучение, электронная библиотека, разработка, открытые ресурсы*
Key words: *distance learning, electronic library, development, open resources*

Giriş. 2020-ci ildə bütün dünyanın həyatını yeni koronavirus COVİD-19 dəyişdirdi. Məhdudlaşdırıcı tədbirlər müxtəlif ölkələrdə, iqtisadiyyatın müxtəlif sahələrində tətbiq edilmişdir. İlk "qadağa" işi vətəndaşların kütləvi ziyarətləri ilə əlaqəli olan qurumlar idi ki, bu da kitabxanaları istisna etmirdi. ÜST-nın pandemiya elan etdiyi vaxtdan MDB ölkələrinin milli kitabxanaları oxu zallarında oxuculara xidməti dayandırıb və distant iş rejiminə keçdilər. Bu keçidin müxtəlif çətinlikləri var idi. İlk və əsas çətinlik işçilərin işinin təşkili idi. Karantində işləməyin çətinliklərindən biri də kollektiv işin qorunması idi. Əvvəlcə şöbə müdirlərinin tabeliyində olan işçilər bir-birilə tez-tez təmas qurmaqda anlayış tapmırdılar, yoxlama hissi artdı, lakin tədricən qarşılıqlı əlaqə öz yerini tapdı və tənzimləndi. Karantinin ilk həftəsində kitabxananın bütün səviyyələrdə fəaliyyətini yenidən təşkil etmək üçün çox intensiv işləməli olan ilk öncə rəhbərlər idi. Hər bir işçi üçün distant rejimdə iş müəyyən edildi. Pandemiya dövründə hər bir ölkə öz inkişaf yollarını irəli sürdü. Məsələn, Fransada kitabxana işçilərinin ixtisaslarını artırmaq üçün tədbirlər görüldü. Beləliklə, bütün marağı olan işçilər yeni alətlərin (məsələn, OpenRefine) sınaqdan keçirilməsində iştirak edə bilərdilər. Bu zaman həmçinin kataloqların keyfiyyətini yaxşılaşdırmaq üçün istifadə edilmişdir [7]. Birincisi, dövlət səviyyəsində, "icmal elektron kataloqu"nu idarə edən Biblioqrafiya Agentliyinin (ABES) himayəsi altında, ali məktəblərin icmal elektron kataloqu üçün keyfiyyətini yaxşılaşdırmaq üçün yeni vasitələr təklif edildi (biblioqrafik və nüfuzlu qeydlər arasındakı əlaqələrin düzəldilməsi, müəlliflik atributlarının əlavə edilməsi və s.). Rusiyada bu dövrdə kitabxanaların veb saytının yenilənməsi üçün hazırlıq işləri aparıldı. Çox sayda işçi saytı yeni məzmunla, fondların və xidmətlərin təsviri ilə doldurmaqla məşğul idi. "Vikipediya"nın çoxdan təxirə salınmış inkişaf layihəsi yeni bir təkan aldı və kitabxananın səhifəsi ilə rus dilində tanış olmaq imkanı yarandı [8].

16 may 2020-ci ildən bu günə qədər Harvard Kitabxana Sisteminin bütün kitabxanaları distant işə başladı. İlk iş kitabxananın əsas səhifəsinin yenilənməsi idi. (https://library.harvard.edu). Kitabxananın veb saytının əsas səhifəsinin xüsusi bölməsi xidmətin dörd əsas sahəsindəki izahatlara həsr edilmişdir: 1) abunə; 2) uzaqdan tədris; 3) distant təhsil; 4) Tədqiqat fəaliyyəti və nəşrlər. Kitabxananın istinad şöbəsinin işçiləri "COVID-19: ictimai giriş resursları" bələdçisini yaratdılar. Bələdçi daim yenilənirdi ki , bu da yalnız müvəqqəti rejimdə əldə edilən resursları əhatə edirdi. Bələdçi həm Harvard istifadəçiləri üçün, həm də qlobal miqyasda mövcud olan materialları müxtəlif formatlarda (kitablar, dövri nəşrlər, audio və video yayım xidmətləri və s.) ehtiva edirdi. Müvəqqəti açılmamış mənbələr arasında kitabxana istifadəçiləri üçün ən məşhur olanlar: HathiTrust (kağız nüsxələrin kitabxana fondlarında saxlanılan kitabların elektron nüsxələrinə müvəqqəti onlayn giriş) və milli fövqəladə kitabxana (İnternet Arxiv fondlarından elektron kitablara müvəqqəti giriş) oldu.

Əsas hissə. Pandemiya dövrü Azərbaycanın inkişaf etmiş ali məktəb kitabxanalarından birinin, AzMİU Kitabxanasının işinə də əhəmiyyətli təsir göstərib. Qeyd etmək lazımdır ki, AzMİU-nun kitabxanası təkcə informasiya resurslarının, kitabların əldə olunduğu yer deyil,

həm də inkişaf etmiş beynəlxalq informasiya və mədəniyyət arenalarından biridir. Pandemiyanın başlanması bütün ictimai əhəmiyyətli tədbirlərin ləngiməsinə səbəb olub. Artıq 2020-ci ildə universitet onlayn olaraq vacib tədbirləri planlaşdırmağa və təşkil etməyə başladı. Onların arasında 2021-ci ildə aşağıdakı tədbirlər təşkil edilmiş və keçirilmişdir: 8 Mart Beynəlxalq Qadınlar Gününə həsr olunmuş virtual kitab sərgisi; Dizayn kafedrasının dosenti Sevda Dadaşovanın "Memarlıq muhitinin dizaynı" kitabının təqdimatı; 10 aprel İnşaatçılar günü bayramına həsr olunmuş virtual kitab sərgisi; 4 aprel tarixində Memarlar gününə həsr olunmuş kitab sərgisi; çox funksiyalı komplekslərin Memarlığın inkişaf tendensiyaları adlı məruzə ilə Memarlıq fakultəsinin müəllimi və memarlıq üzrə fəlsəfə doktoru Fidan Musayevanın təşkil etdiyi məruzə üzrə virtual görüş mütəşəkkil olunmuşdur [9].

Bu tendensiya 2022-ci ildə də davam edərək inkişaf etdirilirdi. Beləliklə, 2022-ci ildə virtual arenada aşağıdakı tədbirlər keçirilmişdir: 3 oktyabr 2022-ci il tarixində birinci kurs tələbələri üçün AZMIU elektron kitabxanasının işi ilə tanışlıq üzrə təlim kursları keçirilmişdir; 8 Mart Beynəlxalq Qadınlar Gününə həsr olunmuş konsert proqramı təşkil olumuşdur; aprelin 23-də beynəlxalq kitab günü olan fəal kitabsevərlərə mükafatların təqdim edilməsi təşkil olumuşdur; noyabrın 22-də inşaat kafedrasının müəllimi və elmlər doktoru Fidan Musayevanın elmi seminarı da təşkil olumuşdur. Yuxarıda göstərilənlərdən gördüyümüz kimi, durğunluq və təşkilati strukturun əsas çətinlikləri yalnız 2022-ci ildə müşahidə edilmişdir. Rəhbərlik universitetin gələcəkdə beynəlxalq səviyyədə aktiv olmasında fəal mübarizə apardı və bu yolda müəyyən uğurlar qazandı. Təşkilati quruluşa əlavə olaraq, universitet rəhbərliyi elektron kitabxananın inkişafına böyük diqqət yetirdi, bu dövrdə bu şəbəkənin istifadəçilərinin sayının necə artdığını hər kəs müşahidə etdi. Pandemiyanın başlanğıcında oxucular arasında tənəzzül və fikir ayrılığı müşahidə olunurdusa, növbəti mərhələlərdə vəziyyətin sabitləşdiyini müşahidə etdik. Belə ki, 2020-ci ildə AzMİU elektron kitabxanasına daxil olan istifadəçilərin sayı 7456 nəfər təşkil edirdisə, 2021-ci ildə onların sayında artım müşahidə olunaraq 9782-ə yüksəldi. 2022-ci ildə isə bu rəqım 224136 nəfər oldu.

Pandemiya zamanı universitet kitabxanasının sosial media fəaliyyətində də artım müşahidə edildi. Beləliklə, 2020-ci ildə sosial şəbəkələrdə aktiv sorğuda 10587 iştirak edirdisə, 2021-ci ildə onların sayı da 18153-ə yüksəldi və 2022-ci ildə 11844 oldu.

Nəticələr. Yekun olaraq onu qeyd etmək lazımdır ki, pandemiya dünyada təhsilin bütün sahələrinə təsir etmişdir, amma kitabxana sahəsinin özünə məxsus müsbət tərəfləri var idi. Bunun səbəbi müasir dövrdən əvvəl sinifdə öyrənilməyə yönəlmiş təhsil sistemindən fərqli olaraq, ən azı son iyirmi ildə kitabxanalar öz resurslarını tanıtmaq, tədbirlər keçirmək üçün internet məkanını fəal şəkildə mənimsəmişlər. Kitabxana kitabların rəqəmsallaşdırılması və elektron toplulların formalaşdırılması ilə məşğul olaraq məkan daxilində baş verən hər bir yeniliyi yayımlamağa başladılar. Beləliklə, kitabxananı ziyarət etmək üçün qapalı vəziyyətin iş üçün keçilməz bir maneə olduğunu söyləmək olmaz. Bu gün kitabxana divarlarından kənarda kitabxanaçıların oxucularla ünsiyyət qurarkən istifadə etdikləri ənənəvi ədəbiyyat icmallarından və müəlliflərlə görüşlərdən, oxu müsabiqələri, marafonlar və ağıl oyunlarına qədər onlarla iş formasını saya bilərik, həmçinin virtual sərgilər yaradırlar. Bundan əlavə olaraq təlimlər keçirir, məsləhətlər verir və kitabxana fəaliyyətindən kənara çıxan bir çox işlər görürlər. Əlbəttə ki, obyektiv səbəblərə görə onlayn işləmək üçün texniki imkanları olmayan kitabxanalar üçün çətinliklər ortaya çıxdı. Bəzi hallarda bütün kitabxanaçılar üçün yeni rejim asan deyildi, çünki obyektiv olaraq internet auditoriyası müəyyən bir kitabxananın həqiqi istifadəçiləri ilə tamamilə üst-üstə düşmürdü. Lakin universitet kitabxanaları arasında Azərbaycan Memarlıq və İnşaat Universitetinin Kitabxanasının işi təqdirə layiq olmuşdur.

Bildiyimiz kimi hər hansı bir kitabxananın işi istifadəçi sayından asılıdır. Kitabxanalar qarşısında duran əsas sual tətbiq olunan məhdudiyyətlər zamanı kitabxanaların xidmətlərindən istifadə etmək qərarına gələnlərin sayının artması və ya azalmasıdır. Bir tərəfdən, kitabxanaçılar əvvəllər həmin kitabxanadan istifadə etməyən oxucu qrupları əldə etdilər. Digər tərəfdən

isə evə kitab götürmək, oxu zalında oturmaq üçün kitabxanaya gələnlərin kitabxanadan istifadə imkanları çox azaldı. Onların informasiya boşluğunu kitabxanalar tərəfindən yaradılan elektron kitab topluları qismən doldurdu. Elektron kitabxanaya müraciət kəskin şəkildə artdı. Məqalədə Azərbaycan Memarlıq və İnşaat Universiteti Kitabxanasında xidmət işinin pandemiya dövrü başlayandan sonuna qədər baş verən yenilikləri ətraflı göstərildi.

Pandemiya dövrü başa çatdıqdan sonra isə ilk yaranan sual onlayn formata geniş keçidin kitabxanaların həqiqi istifadəçilərinə necə təsir etməsidir. Şübhəsiz ki, müsbət və ya mənfi təsirin olması mütləqdir. Hər şey hansı kitabxanın xidmətindən və onlayn fəaliyyətin hansı formalarının tətbiq edilməsindən asılıdır. Belə ki, sosial şəbəkələrdə fəal maarifləndirici fəaliyyət göstərən kitabxanalar üçün oxucu auditoriyası şübhəsiz ki, artır və əgər kitabxanaçı oxucularla kitabxana arasında yaxşı körpü qura bilirsə, o zaman onun həqiqi oxucularının sayı artır. Kitabxanaçılar oxucu üçün məlumatın onlara rahat ötürülməsi və qəbul edilməsini inkişaf etdirməlidirlər. Bu, müasir rabitə sisteminin ümumi tendensiyası olaraq bütün kitabxanalar üçün uyğun olmalıdır. Beləliklə, bu sahədə – istifadəçilərin azalması (mənbələrə çıxışın genişləndirilməsi ilə) – prosesi müsbətdir. Bir sözlə, distant metodlara keçidin qəfil olması yeni informasiya və kitabxana xidmətlərinə həyat verdi. Mövcud, lakin istifadə olunmayan xidmətlərin üstünlüklərini ortaya qoyaraq kitabxana xidmətindəki çatışmazlıqları və problemləri göstərdi.

Ədəbiyyat

1. Плотников В.А., Пролубников А.В. Специфика реализации государственной экономической политики в условиях новых вызовов // Социально-экономические и финансовые аспекты развития Российской Федерации и её регионов в современных условиях. Материалы I всероссийской научно-практической конференции. Грозный, 2020. С. 24-29.
2. Экономика корона кризиса: вызовы и решения. Сборник научных трудов / под ред. Р.М. Нижегородцева. М., 2020.
3. Мац Л.В. Активизация информационно-образовательной деятельности вузовской библиотеки экономического профиля // Информационное обеспечение экономического образования. Всероссийская научнопрактическая конференция. СПб., 2000. С. 56-58.
4. Мац Л.В. Кафедра на публикационном ландшафте университета // Известия Санкт-Петербург-ского государственного экономического университета. 2020. № 2 (122). С. 51-52.
5. Судьбы библиотечных коллекций. Сборник статей / под ред. О.В.
6. Никитиной; Санкт-Петербургский государственный экономический университет. СПб., 2015. 61 с.
6. https://library.harvard.edu.
7. https://www.bnf.fr/fr
8. https://nlr.ru/
9. https://azmiu.edu.az/az

С.М.Саламлы

Обслуживание читателей в библиотеке азербайджанского университета архитектуры и строительства в условиях пандемии

Резюме

Главной темой 2020 года для библиотек всего мира стала тема организации работы в условиях ограничений, связанных с COVID-19, о чем свидетельствуют результаты поиска крупнейшие мировые базы данных (Google Scholar, Web of Science, Scopus и др.), а также научные статьи, рассказывающие об актуальных проблемах функционирования библиотек в этот период. В целом, влияние пандемии на образование было огромным, оно отражалось на всех этапах образования: дошкольной подготовке, школе, и, конечно же, в системе высшего образования. Следует отметить, что по сравнению с другими уровнями область высшего образования стала наиболее устойчивой к пандемии. Университеты сразу же перевели обучение в дистанционный формат. Однако не все вузы были готовы к такому переходу. Вузы в отсталых и раз-

вивающихся странах не могли обеспечить необходимой технической оснащенностью и стабильным интернетом, что значительно снижало качество учебного процесса. Одним из основных вопросов, которые должна была решить система образования, было функционирование библиотек. В этот период большинство библиотек мира были вынуждены закрыть двери, чтобы обеспечить безопасность своих пользователей и сотрудников, изменить условия организации работы и виды предоставляемых услуг. Эти решения стали активно обсуждаться на различных онлайн-мероприятиях, в профессиональных сообществах, прессе, социальных сетях.

S.M.Salamli

Service to readers at the azerbaijan university of architecture and construction library in the pandemic

Summary

The main topic of 2020 for libraries around the world was the topic of organizing work under the constraints associated with COVID-19, as evidenced by the search results of the world's largest databases (Google Scholar, Web of Science, Scopus, etc.), as well as scientific articles telling about the current problems of library functioning during this period. In general, the impact of the pandemic on education was huge, it was reflected at all stages of education: preschool, school, and, of course, in the higher education system. It should be noted that in comparison with other levels, the field of higher education has become the most resistant to the pandemic. Universities immediately switched the training to a distance learning format. However, not all universities were ready for such a transition. Universities in backward and developing countries could not provide the necessary technical equipment and stable Internet, which significantly reduced the quality of the educational process. One of the main issues that the education system had to solve was the functioning of libraries. During this period, most libraries in the world were forced to close their doors to ensure the safety of their users and employees, to change the working conditions and types of services provided. These decisions have been actively discussed at various online events, in professional communities, the press, and social networks.

Rəyçi: ped.ü.f.d. E.Y.Əhmədov

Redaksiyaya daxil olub: 12.05.2023

Y.B.SƏMƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

M.N.ƏSGƏROV
dos.əvəzi

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr., 98)

T.E.QULİYEV
müəllim

ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji kollec
(Bakı şəh., İnşaatçılar pr., 11)

FİZİKİ HƏRƏKƏTLƏRİN HƏRƏKƏT TRAYEKTORİYASI VƏ ZAMAN XÜSUSİYYƏTLƏRİNƏ DAİR

Açar sözlər: *hərəkət trayektoriyası, sürət, texnika, temp, zaman*
Ключевые слова: *траектория движения, скорость, техника, темп, время*
Key words: *movement trajectory, speed, technique, pace, time*

İnsanın fiziki cəhətdən formalaşmasında hərəkətlər müstəsna əhəmiyyət kəsb edir. Hərəkərətsiz idman növü yoxdur. Hər bir hərəkətin də özünəməxsus texnikasıs vardır.

Hərəkət trayektoriyası – cismin (nöqtənin) bu və ya digər hissənin fəzada keçdiyi yoldur. Hərəkət trayektoriyası forma, istiqamət və amplituda ilə xarakterizə olunur.

Trayektoriyanın *forması* düzxətli və ya əyrixətli ola bilər.

"Hərəkətin trayektoriyası – bədənin hərəkət edən hissəsinin yoluna deyilir" [1, s.65].

Təcrübədə düzxətli hərəkətlər olduqca nadirdir. Bu, ayrı-ayrı oynaqlarda (qollar, ayaqlar və s.) hərəkətlərin fırlanma xarakterli olması ilə izah olunur. Buna görə də hərəkətlərin əyri xətti traektoriyaları insanlar üçün ən təbiidir. Trayektoriyanın formasına görə, fiziki hərəkətlərin texnikasının effektivliyini mühakimə etmək olar.

Müəyyən bir hərəkətdə ən yaxşı texnikanı xarakterizə edən ən düzgün əyridən sapma texniki ustalıq ölçüsü kimi qəbul edilə bilər. Məsələn, yüksək ixtisaslı ağırlıqqaldıranlar üçün birdən qaldırmada, həm də təkanla qaldırmada ştanqı qaldırarkən rasional trayektoriya qövsvari xəttdir.

Hərəkətin *istiqaməti* bədənin və onun hissələrinin məkandakı mövqeyinin hər hansı bir müstəviyə (frontal, sagittal, üfüqi) və ya hansısa xarici istinad nöqtəsinə (məşqedənin öz bədəni, partnyoru, idman avadanlığı və s.) nisbətən dəyişməsidir. Növbəti istiqamətləri ayırd edirlər: əsas (yuxarı – aşağı, irəli – geri, sağ – sol) və aralıq (irəli – yuxarı, irəli – aşağı və s.).

Bu istiqamətlər həm düzxətli, həm də fırlanma hərəkətlərini xarakterizə etmək üçün istifadə olunur. Hərəkətlərin istiqaməti yerinə yetirilən hərəkətlərin yüksək dəqiqliyini təmin etmək, qüvvəyə qənaət etmək, vaxt qazanmaq, lazımi əzələ qruplarını işə cəlb etmək (və ya onlardan imtina etmək), tənəffüs və qan dövranı orqanlarının fəaliyyətində daha əlverişli və ya əlverişsiz şərait yaratmaqda mühüm rol oynayır.

Hərəkət istiqamətində kiçik sapmalar belə, məsələn, qılıncoynadanlarda, boksçularda, basketbolçularda, onların öz hərəkətlərində son məqsədə çatmamasına gətirib çıxarır.

80 m-dən çox məsafəyə nizə atarkən mərminin uçuş bucaqlarındakı yalnız ±5° civarında olan səhvlər nəticənin təxminən 1 m azalmasına səbəb olur. Ümumi – inkişaf hərəkətlərin qeyri-dəqiq istiqaməti onların əzələ – bağ aparatına təsirinin effektivliyini azaldır.

Belə ki, iri döş əzələlərini uzatmaq üçün sinə önündə əyilmiş qolların çəkilməsi – yanlara və ya yanlara – yuxarıya deyil, yanlara – aşağıya doğru aparılarsa, tamamilə faydasız olacaqdır. Hərəkət istiqamətinə nəzarət etməkdə görmə qabiliyyəti xüsusi əhəmiyyət kəsb edir. Buna görə də fiziki hərəkətlərin texnikasının öyrənilməsində, təkmilləşdirilməsində hə-rəkətlərin optimal istiqamətini müəyyən etmək üçün ya xarici istinad nöqtələrindən istifadə olunur (məsələn, nüvəni raflarda uzanan ip istiqamətində itələyirlər) və ya yerinə yetirilən hərəkəti öz bədənlərinin əsas müstəviləri ilə əlaqələndirirlər.

Hərəkətin amplitudası – bu, bədənin ayrı-ayrı hissələrinin bir-birinə, ya da idman avadanlığının oxuna nisbətən hərəkət yolunun göstəricisidir. Hərəkətlərin amplitudası bucaq dərəcələri ilə, ya da xətti ölçülərlə ölçülür. Çox vaxt onu bədənin digər hissələrinin mövqeyinə və ya bəzi xarici əlamətlərə nisbətən müəyyən edirlər.

Bədənin bir neçə hissəsinin hərəkətlərinin ümumi amplitudasını təyin etmək üçün şərti işarələrdən istifadə olunur (məsələn, tam çömbəlmək, yarım çömbəlmək).

İnsan bədəninin fərqli hissələrinin hərəkətlərinin amplitudası oynaqların quruluşundan, əzələlərin və bağ aparatının elastikliyindən asılıdır. Amplitudanın böyüklüyü əzələlərin büzülməsi və ya uzanmasının tamlığına, bədənin hərəkət sürətinə, hərəkətin dəqiqliyinə və s. təsir edir. Belə ki, mərmi atmada mərmiyə təsir edən qüvvənin yolunun uzanması mərminin sürətinin artmasına səbəb olur. Buna görə də atıcı öz hərəkətlərini mümkün olan maksimal amplituda ilə yerinə yetirməlidir.

Çox böyük amplitudalı hərəkətlər adətən "iri", kiçik bir yol ilə olanları isə – "kiçik" adlanırlar. Hərəkətlərin amplitudu həll olunan fiziki tapşırığa uyğun gəlmirsə, onlar "qeyri-dəqiq" adlanır.

Bir çox fiziki hərəkətlər, bir qayda olaraq, maksimal, anatomik olaraq mümkün olan amplitudada istifadə edilmir. Müvafiq əzələ qruplarının qeyri-kafi inkişaf səviyyəsində hərəkətlərin amplitudunu həddindən artıq artırmaq istəyi oynaq – bağ aparatın və əzələlərin zədələnməsinə səbəb ola bilər.

Zaman xüsusiyyətlərinə aşağıdakılar daxildir: hərəkətin müddəti və tempi.

Hərəkətin müddəti onu tamamlamaq üçün istifadə olunan vaxtdır. Fiziki hərəkətlərin texnikasında ayrı-ayrı hissələrin icra olunma müddəti (məsələn, üzgüçülükdə bu başlanğıc, məsafədə üzmək, dönmə, bitirmədir), mərhələlər (voleybolda topu ötürmədə əli yellətmək və topa vurmaq, qaçışda dayaq və uçuş), dövrələr (konkisürmədə iki sürüşmə addımı), hərəkət elementləri və ya bədənin ayrı-ayrı hissələrinin hərəkətləri böyük əhəmiyyət kəsb edir. Bir çox fiziki hərəkətlər praktiki nailiyyətlərin müddətindən asılıdır.

Hərəkətdə hər bir fazanın, mərhələnin, dövrün müddətini ölçməklə onun nəticəyə təsirini müəyyən etmək olur. (məsələn, qaçışda dayaq və uçuş dövrlərinin müddəti). Fiziki hərəkətin yerinə yetirmə müddətinin dəyişilməsi, məşğul olanların bədəninin bu hərəkətdə iştirak edən müvafiq orqan və sistemlərinin fəaliyyətinə təsir göstərə bilər.

"Biomexanika baxımından hərəkətlər zamana görə davamlılığı və tempi (təkrarlanma tezliyi, yaxud zaman vahidində hərəkətlərin sayı) ilə xarakterizə edilir" [2, s.64-65].

Hərəkətin tempi – hər hansı bir hərəkətin nisbətən vahid təkrarlanmasının tezliyidir, məsələn, qaçışda addımlar, avarçəkmədə avarların çəkilməsi və s. Tək hərəkətlərdə (tək atmalarda, atmada) temp, əlbəttə ki, müşahidə edilmir.

Temp bir vaxt vahidində, adətən bir dəqiqə ərzində təkrarlanan hərəkətlərin sayı ilə müəyyən edilir. Belə ki, 120 yerimə sürəti dəqiqədə 120 addım tempə bərabərdir. Hərəkətlərin tempi onların müddəti ilə tərs mütənasibdir: zaman nə qədər kiçik olarsa, temp bir o qədər yüksəkdir. Məsələn, müəyyən bir məsafədə konki sürmədə bir addımın müddətinin azaldılması addımların tezliyinin artmasına səbəb olur.

Hərəkətlərin maksimal tezliyi insanın fiziki keyfiyyəti olan sürətin göstəricilərindən biridir. Hərəkətlərin tempi və sürəti anlayışlarını eyniləşdirmək olmaz, baxmayaraq ki, çox vaxt (lakin həmişə deyil) hərəkətlərin sürəti tempdən asılıdır və əksinə.

“Sürət komponentlərinin irsi asıllığı və dəyişkənlik həddi eyni deyil. Başqa hərəkət keyfiyyətləri ilə müqayisədə hərəkət sürəti daha çox fərdin genetik quruluşundan asılıdır...” [3, s.52].

Beləliklə, sürətin artması ilə qaçışda (addımların eyni uzunluğu ilə) hər addımda hərəkətlərin sürəti qaçılmaz olaraq artır, lakin addımların uzunluğu tempin artması ilə eyni vaxtda azalarsa, onda hərəkətlərin sürəti dəyişməz qala bilər. Bəzi hallarda (məsələn, gimnastikada sərbəst hərəkətlərdə) eyni amplituda sürəti saxlayaraq, hərəkətlər arasında fasiləni artırmaq hesabına tempi dəyişmək olar. Bu fikirlərə rəğmən “Bədən tərbiyəsi nəzəriyyəsi və metodikası” kitabından oxuyuruq: “ ...Həddindən artıq yüksək temp hərəkət texnikasında yanlışlığa gətirib çıxarır (hərəkətin amplitudasının qısaldılması – addımın qısaldılması). Digər tərəfdən həddindən artıq gərginliyə, enerjidən qənaətlə istifadə edilməsinə səbəb olur” [4, s.44-45].

Fiziki hərəkətlərin bir çox növlərində hərəkətlərin tempi bir tərəfdən sürətin inkişaf səviyyəsini, digər tərəfdən isə texnikaya yiyələnmə dərəcəsini əks etdirir.

Məsələn, avarçəkənin hərəkət sürəti nə qədər çox inkişaf etsə, onun göstərə biləcəyi hərəkətlərin (avar çəkmələrin) tezliyi bir o qədər yüksək olar. Eyni zamanda, onun texnikası nə qədər mükəmməl olsa, onun avarçəkməsinin bütün elementlərini düzgün yerinə yetirə biləcək tempi bir o qədər yüksək olar.

Məşqedənlərin yarış şəraitində hərəkətin sürətini dəyişdirmək qabiliyyəti onların hazırlığı ilə müəyyən edilir. Tsiklik (dövrü) idman növlərində (avarçəkmə, uzun məsafələrə qaçış) qaliblər, bir qayda olaraq, yarışlarda aşağı yerləri tutan idmançılara nisbətən hərəkətlərin tempində daha yüksək dəyişkənliyə malikdirlər.

Maksimal tempin tapılması – tsiklik hərəkətlərin texnikasını mənimsəməkdə əsas vəzifələrdən biridir. Müəyyən bir tsiklik hərəkətdə hər bir məşğul olan üçün optimal hərəkət tempi müxtəlif hərəkət tezlikləri ilə məsafənin seqmentlərini dəfələrlə aşmaqla müəyyən edilir. Bu zaman göstərilən vaxt qeyd edilir. Ən yüksək nəticə əldə etməyə imkan verən temp fərdi – optimal olaraq müəyyən edilir.

Ədəbiyyat

1. Əliyev İ., Ramazanov Ə., Qədimov R., Nuriyev Y., Məmmədova V. Fiziki tərbiyə nəzəriyyəsi və metodikası. Bakalavr və magistr pilləsi üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2018. – 192 səh.
2. Nəsrullayev M., Hüseynov E., Əliyev İ., Nuriyev Y. Bədən tərbiyəsi nəzəriyyəsi və metodikası. (Dərs vəsaiti). Bakı: “Araz” nəşriyyatı, 2012, – 372 səh.
3. R.M.Bağırova.Hərəki keyfiyyətlərin fizioloji səciyyəsi.-Bakı:Mütərcim,2010.-72səh.
4. Rzayeva Z.N., Cəfərov Q.M. “Bədən tərbiyəsi nəzəriyyəsi və metodikası” (Dərslik). Bakı, 2004, – 182 s.
5. Матвеев Л.П. Теория и методика физической воспитания Том1Общие основы теории и методики физического воспитания; Учеб. для ин-тов.физ. культуры. М.: Физкультура и спорт, 1991. – 543с.

Я.Б.Самедов, М.Н.Аскеров, Т.Э.Кулиев

О траектории движения и временных характеристиках физических упражнений

Резюме

Важное значение с точки зрения теории и методики физического воспитания имеет изучение траектории и временных особенностей физических упражнений. Именно с этой точки зрения трактуются траектория движения, направление движения, амплитуда движения, временные характеристики и включающая в себя продолжительность, темп упражнения. В представленной статье объясняется важность того, что амплитуда движений различных частей человеческого тела зависит от строения суставов, гибкости мышц, связочного аппарата, и все это вынесено на первый план, привлекается к теоретическому анализу.

Y.B.Samadov, M.N.Askerov, T.E.Guliyev

On the movement trajectory and time characteristics of physical movements

Summary

Have a major importance study of movement trajectory and time characteristics from the point of view of physical education theory and methodology of physical movements. Precisely from this point of view movement trajectory, movement direction, movement amplitude, time characteristics, duration and tempo is interpreted.İn the presented article, amplitude of movements of different parts of the human body, the importance of the dependence on the structure of the joints, the elasticity of the muscles, ligament apparatus is explained and bearing in mind all of these are synchronised with theoretical analysis.

Rəyçi: prof. Q.M.Cəfərov

Redaksiyaya daxil olub: 18.04.2023

Y.B.SƏMƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr., 98)

T.E.QULİYEV
müəllim

ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji kollec
(Bakı şəh., İnşaatçılar pr., 11)

FİZİKİ HƏRƏKƏTLƏRİN TEXNİKASI HAQQINDA ANLAYIŞ VƏ ONUN BƏZİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *fiziki hərəkətlər, məqsədli struktur, texnika, tapşırıq*
Ключевые слова: *физического упражнения, целевая структура, техника, задача*
Key words: *physical movements, purposeful structure, technique, task*

Fiziki hərəkətlərinin düzgün icrasında və mənimsənilməsində hərəkətlərin texnikası mühüm əhəmiyyət kəsb edir. Məhz ona görə də texnikasız icra olunan hərəkətin heç bir effeki olmur. Effekti olmadığından heç bir nəticə əldə edilmir. İdmanda qazanılan bütün nəaliyyətlər düzgün tətbiq edilən texnikaya əsalanır.

Hər hansı bir fiziki hərəkəti icra edərkən insan müəyyən bir hərəkətverici tapşırığı həll edir: müəyyən çəkili ştanqı qaldırmaq, müəyyən bir hündürlüyə tullanma, nüvəni mümkün qədər uzağa itələmək. Bir çox hallarda eyni problem bir neçə yolla həll edilə bilər. Məsələn, futbol topunu vurmaq üçün hərəkət ayağın xarici və ya içəri hissəsi ilə ayağın üstü və ya ayaq barmağı ilə edilə bilər. Beləliklə, söhbət hərəkətin texnikasından gedir.

"Fiziki hərəkətlərin texnikası dedikdə nisbi effektli məqsədəuyğun hərəkətin icrası üçün hərəkət fəaliyyətini yerinə yetirmə üsulu başa düşülür" [1, s.64; 3, s.41].

Bir hərəkətverici tapşırığın həll etməyin müxtəlif yollarına ümumiyyətlə fiziki hərəkətlərin texnikası deyilir.

Fiziki hərəkətlərin həyata keçirilməsinin hər bir üsulu bir-biri ilə əlaqəli olan hərəkətlər toplusuna əsaslanır. Fiziki hərəkətlərin ümumi semantik (hədəf) oriyentasiyası ilə birləşdirilən bu hərəkətlər əməliyyatlar adlanır (Şəkil 1.).

Əgər hərəkətverici tapşırıq mürəkkəbdirsə, onun yerinə yetirilməsi bir sıra kiçik hərəkətverici tapşırıqlardan ibarətdirsə, onun həlli metodu da mürəkkəb bir quruluşa malikdir və fiziki hərəkətlərin texnikasının mənimsənilməsi prosesində hər biri öyrənilmə obyekti olan müvafiq sayda əməliyyatların olmasını ehtiva edir. Fiziki hərəkətlərin əməliyyatlar tərkibinin pedaqoji aspektdən müəyyən edilməsi onun texnikasını öyrənmək üçün vacib şərtlərdən biridir. Hərəkətin bu üsulunu təşkil edən hərəkətverici tapşırığının və əməliyyatların mənasını vurğulamağı və əməliyyatların yerinə yetirilməsini xarakterizə edən hərəkətlərin məkan, zaman, sürət, qüvvə, ritmik parametrlərini təsvir etməyi nəzərdə tutur.

Hərəkətverici fəaliyyət ayrı-ayrı hərəkətlərdən ibarətdir. Bununla belə, içindəki bütün hərəkətlər eyni dərəcədə vacib deyil. Bu baxımdan, hərəkətlərin texnikasının əsasını, texnikanın əsas (aparıcı) əlaqəsini və detallarını fərqləndirirlər.

Texnikanın əsasını nisbətən dəyişməz və hərəkətverici tapşırığı həll etmək üçün kifayət edən hərəkətlər toplusu təşkil edir.

Məsələn, “addımlayaraq keçmək” üsulu ilə hündürlüyə tullanmalarda texnikanın əsasını qaçış addımlarının müəyyən bir ritmi ilə tədricən sürətləndirici qaçış, aşan ayağın uzadılması ilə eyni vaxtda itələmə və plankanın üzərindən keçid və eniş təşkil edəcəkdir.

Fiziki hərəkətlərin texnikasının icrasında enerjinin qənaətlə sərf olunmasının mühüm əhəmiyyəti vardır. “İdman texnikasını yaxşı mənimsəyən idmançılarda qənaətli enerji sərfi hərəkətlərin koordinasiyasının yaxşılaşmasından əlavə, vegetativ funksiyalardan da asılıdır. Hərəki fəaliyyət prosesində onlar əsas etibarı ilə şərtsiz refleks mexanizmləri əsasında işə cəlb olunur” [3, s.50].



Şəkil 4.1. *Hərəkətverici fəaliyyətin məqsəd və əməli strukturlarının əlaqəsi*

Texnikanın əsas (aparıcı) hissəsi – bu metodun texnikasında hərəkətverici tapşırığı yerinə yetirmək üçün ən vacib və həlledici hissədir.

Hərəkətlərdə texnikanın aparıcı hissəsinin icrası adətən nisbətən qısa müddət ərzində baş verir və böyük əzələ səyi tələb edir.

Texnikanın detalları – hərəkətin əsas mexanizmini (texnikanın əsasını) pozmayan kiçik ikinci dərəcəli xüsusiyyətləridir.

Müxtəlif formada məşqedənlərdə texnikanın təfərrüatları (detalları) fərqli ola bilər və onların özlərinin fərdi xüsusiyyətlərindən asılıdır.

Hər bir məşqedənin öz fərdi xüsusiyyətlərindən düzgün istifadə etməsi onun fərdi texnikasını xarakterizə edir. Hər hansı bir hərəkətin öyrənilməsi onun əsaslarının öyrənilməsi ilə başlayır, burada texnikanın əsas (aparıcı) hissəsinə, sonra isə onun təfərrüatlarına çox diqqət yetirilir. Fiziki hərəkətlərin texnikası daim təkmilləşdirilir və yenilənir. Bunun əsas şərtləri:

- fiziki hazırlıq səviyyəsini artıran tələblər;
- hərəkətləri yerinə yetirmək üçün daha mükəmməl yollar tapmaq;
- fiziki tərbiyə və idmanda elmin rolunun artırılması;
- tədris metodlarının təkmilləşdirilməsi;
- yeni idman avadanlıqlarının, ləvazimatların (məsələn, qaçış yollarının sintetik səthi, şüvüllə tullanmada fiberglas şüvül) və digər vasitələrin təmin olunması.

Məkan xüsusiyyətlərinə bədənin vəziyyəti, hərəkətin trayektoriyası (yolu) daxildir.

Bədənin vəziyyəti. İnsan hansı hərəkət fəaliyyətini icra edirsə etsin, o, öz bədəninə məkanda müəyyən vəziyyət verməlidir. Bədənin və onun ayrı-ayrı hissələrinin hərəkətsiz vəziyyətinin qorunması əzələlərin statik gərginliyinin köməyi ilə həyata keçirilir.

Məkan baxımından fiziki hərəkətlərin texnikası hərəkətə başlamazdan əvvəl məqsədyönlü çıxış vəziyyətini, operativ pozanın alınmasını təmin edən hərəkət aparatı hissələrinin səmərəli qarşılıqlı yerləşdirilməsini və hərəkətlərin optimal trayektoriyasına riayət edilməsi ilə xarakterizə edilir [2, s.62].

Bədənin vəziyyətini ayırmaq, vurğulamaq ehtiyacı onun fiziki hərəkətlərin texnikasının böyük əhəmiyyəti ilə izah olunur. Bədənin ilkin, aralıq, son vəziyyətini ayırd edirlər.

"Hərəkəti yerinə yetirərkən başın vəziyyəti xüsusi rol oynayır. Bir çox hallarda bu, müəyyənedici şərt sayılır" [4, s.43].

Sonrakı hərəkətlərin başlanması, ətraf mühitdə daha yaxşı oriyentasiya, sabitliyin qorunması, hərəkət azadlığının təmin edilməsi, orqanizmin müəyyən orqan və sistemlərinə müvafiq təsirləri, ən əlverişli şərait yaratmaq üçün ilkin vəziyyət qəbul edilir. Belə ki, sprinterin aşağı start mövqeyi idmançıya tez bir şəkildə maksimal sürəti inkişaf etdirməyə imkan verir; voleybolçunun və ya xokkeydə qapıçının gözləmə duruşu oyun vəziyyətinə uyğun hərəkətlərin yerinə yetirilməsi üçün effektiv hazırlığı təmin edir; boksçunun duruşu rəqibini rahat müşahidə etməsinə və istənilən istiqamətdə sürətlə hərəkət etməsinə, eləcə də bədənin ən həssas hissələrinin rəqibin zərbələrindən qorunmasına və tez cavab zərbələri endirmək qabiliyyətinə zəmanət verir. Bu vəziyyətlərdə məşğul olanların ilkin duruşları qarşıda duran hərəkət tapşırığını həll etmək hazırlığını xarakterizə edir. Bunları akademik A.A.Uxtomskinin "hərəkətsiz əməliyyat" adlandırdığı vəziyyətlərə aid etmək olar. Onlarda xarici hərəkətlər olmasa da, orqanizmin konsentrasiya edilmiş məqsədyönlülüyünün birliyi heç bir yerdə bu ilkin duruşlardakı qədər aydın şəkildə təzahür etmir.

Aralıq vəziyyət. Bir çox fiziki hərəkətlərin effektivliyi yalnız hərəkətlərə başlamazdan əvvəlki ilkin vəziyyətindən deyil, həm də hərəkətin özünün yerinə yetirilməsi prosesində bədənin və ya onun hər hansı bir hissəsinin ən əlverişli duruşunu saxlamaqdan asılıdır. Məsələn, biatlonda dayanarkən atış zamanı stasionar bədən duruşunun saxlanılması atışın effektivliyinə birbaşa təsir edən ən mühüm texniki xüsusiyyətlərdən biridir. Konkisürənin, xizəkçinin aşağı duruşu, üzgüçünün üfüqi vəziyyəti xarici mühitin müqavimətini azaldır və bununla da hərəkətin sürətinin artmasına səbəb olur.

Ayrı-ayrı fiziki hərəkətlərdəki **son vəziyyət** də mühüm rol oynayır. Məsələn, gimnastikada ləvazimatlardan və ya xizəklə tramplindən tullanmadan sonrakı eniş. Onlardan eniş zamanı bədənin düzgün vəziyyəti sabitliyi qorumağa və xəsarət almamağa imkan verir. Bədənin son vəziyyətinin nəticəyə təsir etmədiyi hərəkətverici fəaliyyətin növləri də var. Tutaq ki, futbolçunun futbolda topu ötürdükdən sonrakı duruşu.

Müəyyən bir proqramla hərəkətlərin dəqiqliyi və ifadəliliyi üçün yarışların nəticələrinin qiymətləndirilməsi ilə əlaqəli fiziki hərəkətlərin bəzi növlərində bədənin ümumi duruşu və onun ayrı-ayrı hissələrinin vəziyyətlərinə ilk növbədə estetik tələblər (bədii gimnastika, fiqurlu konkisürmə, suya tullanma, dalğıc və s.) qoyulur. Bu, onlardakı texnikanın müstəqil rol alması, idman nailiyyətlərinin qiymətləndirilməsi obyektinə çevrilməsi ilə əlaqədardır.

Ədəbiyyat

1. Əliyev İ., Ramazanov Ə., Qədimov R., Nuriyev Y., Məmmədova V. Fiziki tərbiyə nəzəriyyəsi və metodikası. Bakalavr və magistr pilləsi üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2018. – 192 səh.
2. Nəsrullayev M., Hüseynov E., Əliyev İ., Nuriyev Y. Bədən tərbiyəsi nəzəriyyəsi və metodikası. (Dərs vəsaiti) Bakı: "Araz" nəşriyyatı, 2012, – 372 səh.
3. Qayıbov R.H. İdman fiziologiyası. (Dərslik). Bakı: "Adiloğlu" nəşriyyatı, – 172 səh.
4. Z.N.Rzayeva, Q.M.Cəfərov. "Bədən tərbiyəsi nəzəriyyəsi və metodikası" (Dərslik), Bakı, 2004. – 182 s.
5. Матвеев Л.П. Теория и методика физической воспитания Том1Общие основы теории и методики физического воспитания; Учеб. для ин-тов.физ. культуры. М.: Физкультура и спорт, 1991. – 543с.

Я.Б.Самедов, Т.Э.Кулиэв

Понятие о технике физических упражнений и некоторые ее особенности

Резюме

С точки зрения теории физического воспитания важное значение имеет изучение техники движений. В связи с этим рассматривается взаимосвязь целей и практических структур двигательной деятельности. Потому что, не зная в совершенстве технику движений, возникают трудности в выполнении и отработке упражнений. В представленной статье объясняются детали техники, условия, пространственные особенности, положение тела, траектория движения, важное значение техники физических упражнений, и все это выводится на первый план, вовлекается в теоретический анализ.

Y.B.Samadov, T.E.Guliyev

Concept of the technology of physical movements and some of its features

Summary

In terms of theory of physical education, Have a major importance exploration of the technique of movement. In this regard it is interpreted the connection between the goal and the action structure of the moving activity. Because if we don’t know pefect about movement technique and action execution, meantime difficulty may arise. It is explained in this presented article; details of the technique, conditions, spatial features, body condition,trajectory of movements and all these are brought to the fore, after it is involved in theoretical analysis.

Rəyçi: prof. Q.M.Cəfərov

Redaksiyaya daxil olub: 11.04.2023

Y.B.SƏMƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

F.A.QUBANOVA

S.X.NƏCƏFOVA
baş müəllim

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr., 98)

FİZİKİ HƏRƏKƏTLƏRİN MƏKAN-ZAMAN XÜSUSİYYƏTLƏRİNƏ DAİR

Açar sözlər: *fiziki hərəkətlər, məkan-zaman xüsusiyyətləri, ritm, keyfiyyət*
Ключевые слова: *физические движения, пространственно-временные особенности, ритм, качество*
Key words: *physical movements, spatio-temporal features, rhythm, quality*

İnsan müxtəlif cəhətdən inkişaf edir: fiziki, psixi və s. Fiziki inkişaf fiziki hərəkətlərlə əldə edilir. Fiziki inkişaf orqanizmin forma və funksiyalarının mütərəqqi dəyişikliklərin qanunauyğun prosesidir.

İnsan hərəkət fəaliyyəti prosesində fiziki cəhətdən formalaşır.

Məkan-zaman xüsusiyyətləri. *Onlardan ən əsası hərəkətin sürətidir.*

Hərəkətin sürəti *– bədənin (və ya bədənin hansısa hissəsinin) keçdiyi yolun uzunluğunun bu yola sərf olunan vaxta nisbətidir.*

Adətən, xətti hərəkətdə sürəti təyin edərkən onu $m \cdot s^{-1}$ (xətti sürət), fırlanma hərəkətində isə $rad \cdot s^{-1}$ (bucaq sürəti) ilə ölçürlər.

"Hərəkətin məkan və zaman parametrləri yalnız fikən bölünə bilər. Real təzahürlərdə isə onlar ayrılmazdır. Onların nisbəti habelə sürət və təcil kəmiyyətlərində ifadə olunur" [2, s.65].

Hərəkət sürəti sabitdirsə, bu cür hərəkət bərabərsürətli adlanır və o dəyişərsə – qeyri-bərabər adlanır. Sürətin zaman vahidinə dəyişməsinə **sürətlənmə (təcil)** deyilir. Sürətlə eyni istiqamətə malik olan təcil müsbət ola bilər – bu zaman sürət artır, sürət istiqamətinə əks istiqamətə malikdirsə mənfi olar – sürət azalır.

Sürətdə kəskin dəyişiklik olmadan həyata keçirilən hərəkətlər hamar adlanır və qeyri-bərabər sürətlənmiş və ya qeyri-bərabər yavaşlayan hərəkətlər, yəni, sarsıntılı hərəkətlər – kəskin hərəkətlər adlanır. Adətən kəskin hərəkətlər eyni zamanda qeyri-dəqiq olur, sürətdəki kəskin dəyişikliklər hərəkətverici fəaliyyətin zəif yerinə yetirilməsini və ya səhv mənimsənilməsini göstərir.

"İdmanda optimal sürəti saxlamağın böyük rolu vardır." [4, s.44].

Sürətin göstəricisindən asılı olaraq sürətli və yavaş hərəkətlər də fərqlənir. Bundan əlavə, optimal, yəni ən rahat və maksimal sürətlər də fərqlənir. Sürət ixtiyari və məcburi olur. Məsələn, xizəkçi üçün yoxuşa çıxanda sürət ixtiyari olduqda, dağdan enərkən – məcburi olur.

Hərəkət sürəti anlayışı yerdəyişmə sürəti anlayışı ilə eyniləşdirilməməlidir.

Hərəkətin sürəti yalnız müvafiq hərəkətlərin sürətindən deyil, həm də digər amillərdən asılıdır. Məsələn, qaçışda – addımların uzunluğundan, tezliyindən, havanın müqavimətindən və s. Hərəkətlərin sürəti yerinə yetirilən hərəkətverici fəaliyyətin effektivliyinin təmin edilməsində çox mühüm rol oynayır. Belə ki, atış məsafəsi atıcının hərəkət sürətindən, xüsusən də mərminin havaya qalxdığı anından asılıdır. Tullanma zamanı təkan anında hərəkətin sürəti yüksək olmadıqda hündürlüyə və ya uzağa tullanmaq mümkün deyil.

Ən böyük nəticə əldə etmək üçün maksimal deyil, optimal sürətin vacib olduğu hərəkətlər vardır. Məsələn, nizə atarkən, start sürətlənmənin maksimal sürətinə can atmaq lazım de-

yil. Hər bir məşqedən üçün yekun final səyini ən yaxşı şəkildə yerinə yetirilməsini təmin edəcək sürəti müəyyən etmək lazımdır.

Bəzi hərəkətlərdə bu və ya digər hərəkətverici tapşırıqlarının vaxtında həlli hərəkətlərin sürətindən asılıdır. Məsələn, idman oyununda əlverişli mövqe tutmaq, rəqibin hücuma keçməsinin qarşısını almaq və s. Yarış şəraitində tsiklik hərəkətləri (qaçış, üzgüçülük, avarçəkmə və s.) yerinə yetirərkən, əvvəlcədən planlaşdırılmış sürəti dəqiq saxlamaq bacarığı böyük əhəmiyyət kəsb edir, yəni, əvvəlcədən tərtib olunmuş cədvəl üzrə məsafənin ayrı-ayrı hissələrini sürətlə keçmək. Bu, qüvvənin məsafədə məqsədəuyğun şəkildə paylamağa və yorğunluğun başlanğıcını gecikdirməyə imkan verir, hərəkətlərin sürətini özbaşına idarə etmək qabiliyyəti "sürət hissi" adlanır. Hərəkətverici fəaliyyətin texnikasını mənimsəyən məşq edənlər üçün müəyyən bir hərəkət sürəti təyin edən müəllim aşağıdakıları nəzərə almalıdır: həll ediləcək hərəkətverici tapşırığı, öyrənilən hərəkətin xüsusiyyətlərini, xarici şərtləri, məşq edənlərin yaşını, cinsini, fiziki hazırlıq dərəcəsini, müəyyən vaxtda orqanizmin vəziyyətini və s.

Qüvvənin xüsusiyyətləri. Praktikada hərəkətlərin qüvvə xarakteristikası üçün hərəkət qüvvəsi anlayışından istifadə olunur.

Hərəkətin qüvvəsi – bədənin hərəkət edən hissəsinin (və ya bütün bədənin) hər hansı maddi cisimlərə, məsələn, torpağa (qaçarkən, tullanarkən və s.), hər hansı cisimlərə (qaldırarkən, atarkən, s.) və s. fiziki təsirinin ölçüsüdür.

"İdman növündən asılı olaraq məşğələlərdə tətbiq edilən qüvvə hərəkətləri həcminə, istiqamətinə və xarakterinə görə dəyişir" [3, s.15].

Sıçrayışlarda itələyici qüvvə, boksda zərbə qüvvəsi, atma zamanı təkan qüvvəsi və s. haqqında danışarkən məhz bu fiziki təsirin ölçüsünü nəzərə almaq lazımdır.

Hərəkət qüvvəsi anlayışı ümumiləşdirilmişdir. Tətbiq olunan əzələ səyindən (gərginliyindən) asılı olsa da, əzələ qüvvəsi ilə eyniləşdirilməməlidir.

İnsanın hərəkətinin qüvvəsi daxili və xarici qüvvələrin birgə qarşılıqlı təsirinin nəticəsidir.

İnsana təsir edən qüvvələri bilmək fiziki hərəkətlərin texnikasını başa düşməyi və onun effektiv variantlarını axtarmağı asanlaşdırır.

Daxili qüvvələr bunlardır:

- hərəkətverici aparatın aktiv qüvvələri – əzələlərin dartma qüvvələri;
- dayaq – hərəkət aparatın passiv qüvvələri – elastik əzələ qüvvələri, əzələ büzülməsi (özlüyü) və s.;
- reaktiv qüvvələr – hərəkət prosesində bədən hissələrinin qarşılıqlı təsirindən yaranaraq əks olunan qüvvələr.

Daxili qüvvələr, xüsusən də əzələnin dartma qüvvəsi, insan bədəninin əlaqələrinin nisbi mövqeyində dəyişikliklərin qorunmasını və istiqamətini təmin edir. Əzələ dartmaları vasitəsilə insan xarici və daxili qüvvələrdən istifadə edərək hərəkətləri idarə edir.

Xarici qüvvələr aşağıdakılardan ibarətdir:

- öz bədəninin cazibə qüvvəsi;
- dayağın reaksiya qüvvələri;
- xarici mühitin müqavimət qüvvələri (suyun, havanın, qarın), xarici yüklərin, insanın hərəkət etdirdiyi cisimlərin ətalət qüvvələri.

Cazibə qüvvəsi daim təsir edir və həmişə şaquli olaraq aşağıya doğru yönəldilir. Bədən aşağı hərəkət etdikdə (yıxıldıqda və ya dağdan enərkən) o – hərəkətvericidir, bədəni yuxarı qaldırarkən isə – ləngidicidir.

Dayağın reaksiya qüvvəsi göstəricilərinə görə dayağa təsir edən qüvvəyə bərabərdir və əks istiqamətə yönəldilir. O, bədənin kütləsindən, hərəkətin sürətindən, sürtünmə dərəcəsindən və digər amillərdən asılıdır. Bu güvvə konki sürərkən, xizək sürərkən və s. xüsusilə aşkar edilir.

Xarici mühitin (havanın və suyun) müqavimət qüvvəsi hərəkətverici vəzifələrin həllinə bəzi hallarda müsbət, digərlərində isə mənfi təsir göstərir. Məsələn, konkisürənlər havanın daha az sıx olduğu yüksək dağlıq konkisürmə meydançalarında daha yüksək nəticələr göstərir-

lər. Eyni zamanda, disk və nizə atmada nəticələr hava sıxlığının azalması ilə əhəmiyyətli dərəcədə pisləşir. Bu zaman hava sıxlığın azalması nəticəsində mərmilərin uçuşuna təsir edən müqavimət qüvvəsi azalsa da, eyni zamanda qaldırıcı qüvvə də azalır.

Fiziki hərəkətlər zamanı sürtünmə qüvvələri də iki şəkildə özünü göstərir: onlar faydalı və zərərlidir. Məsələn, xizəklərin qar üzərində sürtünmə qüvvəsi xizəkçinin irəli sürüşməsini ləngidir. Bu vəziyyətdə sürtünmə qüvvəsi geriyə doğru yönəldilir. Xizəklər qardan uzaqlaşdırıldıqda isə, sürtünmə qüvvəsi xizəkləri qar üzərində saxlayır və geri sürüşməsinin qarşısını alır. Bu vəziyyətdə sürtünmə qüvvəsi irəli yönəldilir.

Ətalət qüvvəsi və ya geri çəkilmə qüvvəsi – bədənin sürətlənən halqası tərəfindən yaranan, bədənin hər hansı bir hissəsinin yaşadığı reaksiyadır. Bəzi hallarda ətalət qüvvələri faydalıdır, məsələn, atlet nüvə itəliyən zamanı bütün bədəninin ətalət impulsundan istifadə etdikdə. Digərlərində isə – hərəkətin yerinə yetirilməsini çətinləşdirirlər. Məsələn, alətlər üzərində yellənmə hərəkətləri zamanı gimnastlar bununla tez-tez qarşılaşırlar. Çox vaxt ətalət qüvvələri yalnız bəzi dəyərlərinə qədər faydalıdır. Hərəkətverici fəaliyyətin yerinə yetirilməsinin səmərəliliyi məşq edənlərdə yaranan ətalət qüvvələrindən düzgün istifadə etmək bacarığından asılıdır. Aktiv qüvvələrə "əlavə" kimi ətalət qüvvələrinin ən dolğun istifadəsi – texniki ustalığın ən mühüm göstəricilərindən biridir.

Hərəkətverici fəaliyyətin texnikasını mənimsəyərkən, ləngidən qüvvələrin təsirini azaltmaqla yanaşı bütün hərəkətverici qüvvələrin mümkün qədər tam istifadəsinə çalışmaq lazımdır.

Ritmik xüsusiyyət vaxt baxımından aktiv əzələ səyləri və gərginliyi ilə əlaqəli güclü, vurğulanmış hərəkətlərin zəif, nisbətən passiv hərəkətlərin mütənasibliyi kimi müəyyən edilir.

Ritm hər hansı bir fiziki hərəkətinin ayrı-ayrı hissələri, dövrləri, mərhələləri, elementləri arasında səy, zaman və məkan baxımından müəyyən əlaqəni əks etdirən kompleks xüsusiyyətdir.

"Hərəkətin ritmi güclü və zəif, qeyri-fəal hərəkət fazalarının qanunauyğun növbələşməsindən ibarətdir" [1, s.58].

Hərəkətlərin ritmi həm təkrarlanan (tsiklik) hərəkətlərə, həm də tək (asiklik) hərəkətlərə xasdır. Adətən, ritmi müəyyən fiziki hərəkət üçün xarakterik olan hər hansı bir mərhələnin müddətinin nisbi ölçülməsi ilə müəyyən edirlər. Məsələn, konki sürmədə ritm ritmin əmsalı ilə ifadə edilir ki, bu da itələmə vaxtının sərbəst sürüşmə vaxtına olan nisbətinə bərabərdir. Qısa məsafələr üçün bu nisbət 3,39, orta məsafələr üçün – 3,0, uzun məsafələr üçün isə – 2,57-dir. Buradan da görünür ki, qısa məsafələrə qaçış ritminə görə orta və uzaq məsafələrə qaçışdan fərqlənir. Hərəkətlərin ritmi rasional, düzgün, yüksək nəticələrə töhfə verən və irrasional, nəticələri azaldan ola bilər. Belə ki, ştanqı sinəyə qaldırmaq və ya birdən qaldırılması iki dəfəyə (rasional) və bir dəfəyə (irrasional) ritmdə həyata keçirilə bilər. Birinci halda, hərəkət başlanğıcdan güclü şəkildə başlayır, sonra, dizlər səviyyəsində səylər kəskin şəkildə azalır və qaldırmada yenidən artır; ikincidə – ştanqın başlanğıcdan götürülməsi və qaldırılması mərhələsində vurğu olmadan icra edilir. Kiminsə yerinə yetirdiyi texniki cəhətdən mükəmməl bir hərəkətdə olan rasional ritm hər kəs üçün eyni dərəcədə uyğun olan bir növ mücərrəd ideal ritm kimi qəbul edilə bilməz. Hər bir məşqolunan öz fərdi xüsusiyyətlərinə görə hərəkəti yerinə yetirmək üçün öz ritminə malik olmalıdır. Bununla belə, ritmin fərdiləşdirilməsi verilmiş hərəkətin əsas obyektiv rasional strukturu ilə müəyyən edilmiş məlum sərhədlərdən kənara çıxmamalıdır. Daimi (sabit) və dəyişkən (variativ) ritmləri ayırd edirlər. Fiziki hərəkətlərin icrası zamanı həll edilən hərəkət tapşırığı, xarici şərait, məşqolunanların vəziyyəti ritmin dəyişməsinə təsir göstərirlər. Məsələn, pis sürüşmə şəraitində xizək sürmə ritmi yaxşı sürüşmə zamanı olan ritmdən fərqli olacaq; ardıcıl iki addımlı şəkildə hərəkət etdikdə, dövrədəki hərəkət fazalarının vaxtının təbiətində bəzi dəyişikliklər baş verir – istirahət fazalarının müddəti azalır və iş fazalarının müddəti artır. Hərəkətlərin ritminin bu cür dəyişkənliyi azaldılmış olsa da, lakin verilmiş şərait üçün optimal olan hərəkət sürətinin əldə edilməsini və saxlanmasını təmin edir.

Tsiklik hərəkətlərdə (qaçış, üzgüçülük, xizək sürmə və s.) verilmiş şəraitdə məqsədəuyğun olan düzgün seçilmiş ritm lazımi sürətin təzahürünü və bədənin müvafiq iş qabiliyyətinin

kifayət qədər uzun müddət saxlanılmasını təmin edir. Asiklik hərəkətlərdə (tullanma, atma və s.) rasional ritm məşqin ən həlledici anında səylərin ən yaxşı konsentrasiyasına və insanın hərəkətverici imkanlarının maksimal şəkildə istifadəsinə kömək edir. Fiziki hərəkətlərin texnikasını mənimsəyərkən, hərəkətlərin ritmini musiqi ilə, sayın köməyi ilə və ya onu "ritmik vurmaq"la ifadə etmək olar.

Ümumiləşdirilmiş (keyfiyyətli) xüsusiyyətlər. Fiziki hərəkətlərin yerinə yetirilməsi texnikasını təhlil edərkən, kifayət qədər dəqiq kəmiyyət ölçüsü olan xüsusiyyətlərlə yanaşı, çox vaxt o qədər də ciddi olmayan, lakin faydalı olan, keyfiyyət xüsusiyyətlərinə müraciət olunur.

Bir hərəkətverici fəaliyyəti yerinə yetirərkən, keyfiyyət xüsusiyyətləri əlamətlərdən birini deyil, onların kompleksini əks etdirir. Onlar hərəkətə müəyyən orijinallıq, daha parlaq xarici ifadəlilik verirlər.

Hərəkətlərin xarici formalarının belə bir özəlliyini müəyyən edən xüsusiyyətlərin məcmusu onların xarakterini müəyyən edir: səlislik, dalğavarilik, yaylılıq və ya əksinə, yöndəmsizlik, sərtlik, gərginlik; yumşaqlıq, yüngüllük və ya kəskinlik, ağırlaşma; enerjilik və ya süstlük; səmərəlik və ya qeyri-səmərəlik, elastiklik və ya qeyri-elastiklik və s.

Adətən, texnikanın keyfiyyət xüsusiyyətləri onların xarici təzahürləri ilə qiymətləndirilir və mürəkkəb instrumental metodlardan istifadə etmədən müəyyən dərəcədə idarə oluna bilər.

Ədəbiyyat

1. Əliyev İ., Ramazanov Ə., Qədimov R., Nuriyev Y., Məmmədova V. Fiziki tərbiyə nəzəriyyəsi və metodikası. Bakalavr və magistr pilləsi üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2018. – 192 səh.
2. Nəsrullayev M., Hüseynov E., Əliyev İ., Nuriyev Y. Bədən tərbiyəsi nəzəriyyəsi və metodikası. (Dərs vəsaiti) Bakı: "Araz" nəşriyyatı, 2012, – 372 səh.
3. Səməddov Y.B., Vəliyev V.M. Fiziki feyfiyyətlərin ümumi xüsusiyyətləri. Dərs vəsaiti. Bakı: Mütərcim, 2022. – 224 s.
4. Z.N.Rzayeva, Q.M.Cəfərov. "Bədən tərbiyəsi nəzəriyyəsi və metodikası" (Dərslik), Bakı, 2004. – 182 s.
5. Матвеев Л.П. Теория и методика физической воспитания Том1Общие основы теории и методики физического воспитания; Учеб. для ин-тов.физ. культуры. М.: Физкультура и спорт, 1991. – 543с.

Я.Б.Самедов, Ф.А.Гурбанова, С.Х.Наджафова

О пространственно-временных характеристиках физических упражнений

Резюме

Важное значение с точки зрения теории и методики физического воспитания имеет изучение пространственно-временных особенностей физических упражнений и скорости движения. Именно с этой точки зрения трактуются сила движения (внутренние и внешние силы), ритмические особенности движения и обобщенные качественные характеристики движения. В представленной статье объясняется важность того, что амплитуда движений различных частей человеческого тела зависит от строения суставов, гибкости мышц, связочного аппарата, и все это вынесено на первый план, привлекается к теоретическому анализу.

Y.B.Samadov, F.A.Gurbanova, S.Kh.Najafova

On the spatio-temporal characteristics of physical movements

Summary

It is important to study the spatial-temporal characteristics of physical movements and the speed of movement from the point of view of the theory and methodology of physical education. It is from this point of view that the force of the movement (internal and external forces), the rhythmic characteristics of the movement and the generalized quality characteristics of the movement are interpreted. İn the pre-

sented article, amplitude of movements of different parts of the human body, the importance of the dependence on the structure of the joints, the elasticity of the muscles, ligament apparatus is explained and bearing in mind all of these are synchronised with theoretical analysis.

Rəyçi: prof. Q.M.Cəfərov

Redaksiyaya daxil olub: 13.05.2023

R.L.SULTANOV
biologiya üzrə elmlər doktoru, professor
e-mail: rsultanov@bk.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

FƏAL TƏLİM PROSESİNDƏ DOQQUZUNCU SİNİFLƏRDƏ İNSAN SAĞLAMLIĞI İLƏ ƏLAQƏDAR VALEOLOJİ BİLİKLƏRİN BİOLOGİYA İLƏ ƏLAQƏLİ TƏDRİSİNİN BƏZİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *valeologiya, irsi çatışmazlıqlar, insanın həyat tərzi, reproduktiv sağlamlıq*
Ключевые слова: *валеология, наследственные недостатки, образ жизни человека, репродуктивное здоровье*
Key words: *valeology, hereditary deficiencies, human lifestyle, reproductive health*

Məqalə fəal təlim prosesində doqquzuncu siniflərdə insan sağlamlığı ilə əlaqədar valeoloji biliklərin biologiya ilə əlaqəli tədrisinin bəzi xüsusiyyətlərinə dair aparılmış tədqiqat işinin nəticələri verilir.

Burada yuxu ilə əlaqədar valeoloji biliklər verilir və insan sağlamlığında onun əhəmiyyəti göstərilir. Yuxunun insan orqanizmində baş verən emosiyalardan asılı olması, normal yuxunun təmin edilməsi üçün görülən valeoloji tədbirlər barədə məsələlərə toxunulur.

Mövzu ilə əlaqədar insanın həyat tərzinin sağlamlığa təsiri və reproduktiv sağlamlığa dair valeoloji biliklərin tədrisinin xüsusiyyətləri araşdırılır və təhlil edilir.

Təhsildə inteqrasiya nə qədər vacibdirsə, inteqrasiyanın növlərinin də mənimsənilməsi və tədrisi bir o qədər mütləqdir. Valeoloji biliklərin tətbiqi zamanı əsas məsələ ondan ibarətdir ki, təhsilalan insan sağlamlığı ilə əlaqədar həyati bacarıqlara sahib olsun.Şagirdlər fənlərdən ilkin məlumat alarsa, öyrəndiklərini tətbiq edərsə həyati bacarıqlara yüksək səviyyədə nail olmuş olur. Fəndaxili, fənlərarası və çoxfənli inteqrasiyanın tədrisdə üstün rol oynaması ən vacib məsələlərdəndir.

Valeoloji biliklərin öyrənilməsi ilə əlaqədar şagirdlərdə insan sağlamlığının qorunmasına dair bacarıqların formalaşdırılmasına xüsusi fikir verilməlidir. Şagirdlərdə mövzu ilə əlaqədar bacarıqların formalaşdırılması zamanı aşağıdakı prinsiplərə əməl edilməlidir. Müəllim şifahi şərh zamanı, yeni biliklərin verilməsində mövzu ilə əlaqədar əvvəl keçirilmiş bilikləri şagirdlərə xatırlatmalıdır. Həmçinin əyaniliklərdən,nəzəriyyənin praktikaya tətbiqindən, çalışma və tapşırıqlardan istifadə etməlidir. Sanitar-gigiyenik və profilaktik tədbirlərin həyata keçirilməsi yolları öyrədilməlidir. Şagirdlərə insan sağlamlığı ilə əlaqədar orqanizmdə baş verə biləcək qüsurların qarşısını almaq qabiliyyəti aşılanmalıdır. [1]

Doqquzuncu siniflərdə irsi çatışmazlıqları,insanın həyat tərzinin sağlamlığa təsiri və reproduktiv sağlamlıq ilə əlaqədar biliklərin öyrədilməsində valeologiya ilə əlaqədar bacarıqların formalaşdırılması tədrisin keyfiyyətini yüksəldir.

Yuxu ilə əlqədar valeoloji biliklər. İnsan sağlamlığı ilə əlaqədar onun normal yuxusunun əhəmiyyəti böyükdür. Müəllim şagirdlərə bu istiqamətdə valeoloji bilikləri öyrətməlidir. İnsan orqanizmi yaşayış tərzi və həyat fəaliyyətilə əlaqədar olaraq daim onu əhatə edən canlı mühitdən fasiləsiz qıcıqları qəbul edir. İnsan düşünülmüş formada onlara qarşı müvafiq reaksiya verir. Orqanizmi idarə edən sinir sistemi oyanma və oyanmanı nəqletmə qabiliyyətinə malikdir. Buna orqanizmin impulsu deyilir. Nəticədə beynimiz mühitlə daim təmasda olub, onunla vəhdət təşkil edir. Orqanimzmin qıcığa qarşı cavab vermək qabiliyyətinə qıcıqlanma qabiliyyəti, verdiyi cavaba isə bioloji reaksiya deyilir. Ali sinir pozğunluqlarının ən geniş yayılmış forması nevrozlardır. Sinir sisteminin funksiyalarının pozulması ilə əlaqədar olan bü-

tün xəstəliklər nevroz adıanır. Yuxu insan orqanizmində baş verən emosiyalardan asılıdır. Emosiyasız həyat yoxdur. İnsan daim nə isə hiss edir: sevinc və qəzəb, ləzzət və ya ikrah, özündən, əhatəsindən razılıq və ya əksinə narazılıq.

Emosiyalar insan orqanizmi üçün müsbət və ya mənfi ola bilir. Bəzi emosiyalar yavaş-yavaş insan hiss etmədən yaranır, tədricən o dərəcə güclənir ki, insanin bütün davranışına təsir göstərir. Bu istər-istəməz insanın normal yuxu sisteminə təsir edir. Belə vəziyyətdə insanın yuxusuzluğu aylarla, illərlə və hətta on illərlə davam edir. Müsbət emosiyalara şadlıq, məmnuniyyət hissi, nədənsə razı qalmaq, qarşılıqlı sevinc, məhəbbət və.s., mənfi emosiyalara isə inciklik, qorxu, paxıllıq, qəzəb, özündən və ya nədənsə narazılıq, utanmaq, qısqanclıq və s. misal ola bilər. Bütün bu emosiyalar insanın yuxusuna və sağlamlığına təsir göstərir. Həddən artıq spirtli içki, narkotik vasitələr və orqanizmdə digər amillər insanın yuxusuna təsir göstərir. İnsanın gün ərzində həddindən artıq əsəbləşməsi, sinir sinir pozğuntuları və nəticədə yuxusuzluq sindromunun baş verməsinə gətirib çıxarır. Müəllim insan sağlamlığında yuxunun əhəmiyyəti, onun təsir gücü və orqanizmdə yaratdığı müsbət və mənfi emosiyalar haqqında valeoloji bilikləri şagirdlərə öyrətməlidir.

İnsan sağlamlığı ilə əlaqədar düzgün olmayan davranışlardan, mənfi emosiyalardan özünü qorumalıdır. Qədim yunan həkimi Hippokrat demişdir ki, qüvvətli ruh zəifləmiş bədəni də xilas edir. Yuxusuzluğun əsas dərmanı insanın hərəkəti,normal istirahəti və streslərdən,mənfi emosiyalardan qorumaqdır. Azərbaycanın böyük şairi Seyid Əzim Şirvani demişdir ki, "Rütubət dənizi yeyən kimi, həyəcan, qəm və kində insanın ürəyini yeyir. İnsanın normal yuxusu olduqca çox müxtəlif emosiyaların təsiri altında pozulur.

Yuxunun gigiyenası insan sağlamlığının qorunmasında müstəsna rol oynayır. Yuxunun fizioloji təbiəti, orqanizmdə rolu və onun əhəmiyyəti haqqında valeoloji biliklər şagirdlərə öyrədilməlidir. Yuxunun mərkəzi sinir sisteminin istirahətində tam dəyərli faktor olması müxtəlif yaşlı uşaqlar üçün onun müddəti və orqanizm zəifladikdə yuxunun müddətinin artırılması kimi gigiyenik biliklərə yiyələnməlidirlər. İnsanın gecə yuxusunun dərin və uzunmüddətli olması üçün yaradılan şərait gigiyenik tələblərə cavab verməlidir.

Dərs məşğələləri qurtardıqdan sonra şagirdlər boş vaxtlarında istirahətini düzgün təşkil edilməsi kimi gigiyenik qaydalara riayət etməlidirlər. Əsas etibarilə zehni əməyin vəziyyətinə uyğun tələblərə əməl edilməsi yuxunun normal olmasına səbəb olur.

Yuxu insanin dövri olaraq orqanizasında baş verən funksional sağlamlığı üçün vacibdir. Yuxu normal fizioloji prosesdir. Normal olaraq alınan yuxu insan sağlamlığı üçün vacibdir. Lakin insanlarda bəzi səbəblərdən yuxu pozulmaları baş verir. Məsələn: səs-küy, daxili orqanlardan gələn siqnal və s. yuxuya mane olan əsas səbəblərdir. Eyni zamanda gün boyu insan az hərəkət etdikdə, yorğunluğu olmadıqda yuxu pozular. Sağlamlığın qorunması üçün insan yuxunun müddəti və şərtlərinə qoyulan gigiyenik tələblərə əməl etməlidir. Məsələn: ağır fiziki iş və yaxud zehni işləri gecəyə saxlamaq olmaz, yatmazdan qabaq açıq havada gəzmək lazımdır, yemək yatmazdan 2 saat əvvəl yeyilməlidir,əsas isə çox yemək lazım deyil və s. kimi məsləhətləri qeyd edə bilərik. Valeoloji sağlamlığa dair valeoloji bilikləri insan daim yerinə yetirsə sağlamlığını qoruya bilər. [2]

İrsi çatışmazlıq ilə əlaqədar valeoloji biliklər. Müəllim valeoloji biliklərdən əvvəl ilk növbədə biologiya dərslərində irsi çatışmazlığın genetik mahiyyətini və hansi funksional – morfoloji sistemin daha çox zədələnməsinə dair şagirdlərə məlumatları çatdırmalıdır.

İrsi çatışmazlığın hər bir növü orqanizmin müəyyən bir orqan və ya sistemini daha artıq dərəcədə zədələyir. Gen çatışmazlığı orqanizmdə biokimyəvi proseslərin pozulmasının xarakterinə görə qruplara bölünürlər (məs: zülal və aminturşu, karbohidrat, lipid mübadilələrinin pozulması ilə əlaqədar olan irsi xəstəliklər). İrsi çatışmazlıqlar və anadangəlmə çatışmazlıqlar terminləri mənaca bir-birindən fərqlənir. Bətndaxili inkişaf dövründə orqanimzdə yaranan bütün çatışmazlıqlar anadangəlmə çatışmazlıqlar adlanır (virus və bakteriyalar, travmalar və s.)

Müəllim insan sağlamlığı ilə əlaqədar irsi çatışmazlıqların yaranma səbəbinə müvafiq (zülal və aminturşu mübadiləsinin,karbohidrat mübadiləsinin,lipid mübadiləsinin pozulması)

qida maddələrinin tərkibindən müəyyən maddələrin çıxarılması, mübadilənin zərərli məhsullarının orqanizmdən kənar edilməsi, bəzi fermentlərin aktivliyinin azaldılması və ya tənzimlənməsi istiqamətində valeoloji bilikləri şagirdlərə öyrətməlidir.

İnsanlarda müxtəlif pataloji əlamətlər vardır ki, onlar irsən keçir. Bu çatışmazlıqların meydana çıxması insanların genlərində və yaxud xromosomlarında baş verən dəyişikliklərlə əlaqədar olur. Məsələn: genlərdə baş verən dəyişikliklərlə əlaqədar olan xəstəliklərə "toyuq korluğu", "albinizm" kimi çatışmazlıqları misal göstərə bilərik. Müəyyən olunmuşdur ki, 4000-ə yaxın gen xəstəlikləri vardır. Ancaq bəzi irsi xəstəliklərdə vardır ki bunlar xromosom xəstəlikləri adlanırlar. Məsələn: Daun sindromu. Bu xəstəlik hüceyrənin bölünməsi zamanı autosom xromosomların 21-ci cütündə artıq xromosomunu olması nəticəsində baş verir. Bundan başqa talassemiya xəstəliyinin adını çəkə bilərik. Bu gün Azərbaycanda talassemiya xəstəliyinin yayılmasının əsas səbəbi qohum nigahlarıdır. Xəstəlik əsasən bu nigahlardan törəyən övladlarda üzə çıxa bilir. Sağlamlığımız üçün bu cür hallara yol verilməmək üçün müəllim şagirdlərə bu mövzu ilə əlaqədar valeoloji biliklər haqqında şagirdlərə məlumatlar çatdırmalıdır.

İnsanın həyat tərzinin sağlamlığa təsiri ilə əlaqədar valeoloji biliklər. Müəllim insanın həyat tərzinin, sağlamlığının qorunması və möhkəmlənirilməsi üçün şagirdlərə fiziki tərbiyənin sağlamlığa təsiri, qidalanma sağlamlığın əsasıdır, zərərli vərdişlərin insan sağlamlığına göstərdiyi mənfi təsirlər və.s mövzularla əlaqəli valeoloji bilikləri şagirdlərə öyrətməlidir.

İnsanların normal, sağlam həyat sürməsi və fəaliyyət göstərməsi üçün bir çox amillərin yerində olması vacibdir. İnsan orqanizmi sağlam olmadıqca onun heç bir normal fəaliyyət və inkişafı ola bilməz. Sağlam insan dedikdə təkcə onun bədəninin sağlamlığı deyil, həmdə onun əqli sağlamlığı nəzərdə tutulur.

İnsanın həyat tərzinin sağlamlığı dinamik bir anlayış olduğ üçün standart bir tərifi mövcud deyil. İnsanın valeoloji sağlamlığına dair aşağıdakı biliklər şagirdlərə tədris edilməlidir. [3]

1. İnsan orqanizminin xarici və daxili tarazlığının olması;
2. İnsan orqanizmində xəstəliklərin olmaması;
3. Normal yaşamaq və fəaliyyət göstərmək bacarığı;
4. Sosial rifahin olması və s.

İnsanın həyat tərzinin sağlamlığını müəyyənləşdirən əsas amillər 3 hissəyə bölünmüşdür. Həyat tərzi, ətraf-mühit, bio-tibbi amillər.

Bu amillər insanları fərdi şəkildə idarə edə bilmirlər. Bunlara hava, su, iqlim və digər ətraf mühit amilləri daxildir. Bio-tibbi amillərə isə insanların orqanizmlərində genetik olaraq yaranan, həmçinin fiziki və əqli sağlamlıq da daxil olmaqla insanlarda mövcud olan tibbi amilləri daxildir. Bunlara anadangəlmə və ya sonradan formalaşan müxfəlif qüsurlar,viruslar və ya bədənin fəaliyyət göstərməsi üçün lazım olan həyati ünsürlər daxildir. İnsanın adət etdiyi əmək, qidalanma, istirahət – yəni gündəlik fəaliyyəti həyat tərzi adlanır. İnsan yalnız sağlam həyat tərzi keçirməklə öz sağlamlığını qoruya bilir. Bəzi qaydalar vardır ki, insan artıq bu qaydalara əməl etmədikdə öz sağlamlığını təhlükəyə atır. Məsələn: zərərli vərdişlər- burada sağlamlığa zərər vuran əsas amillər – narkotiklər, siqaret çəkmək və alkoqollu içkilərdən istifadə etməkdir. Bütün bu amillər insanın şəxsiyyət kimi formalaşmasına mane olur. Uzun müddət siqaret çəkən adamlarda qastirit və xoralar inkişaf edir. Alkoqoldan çox istifadədən insanlarda qaraciyərində sirroz xəstəliyinin yaranmasına səbəb olur. Narkotik insanda güclü psixi dəyişikliklərə gətirib çıxarır. İnsanda asılılıq yaradır. Onu qəddarlığa sövq edir. Narkotik istifadəçilərinin sifətinin dərisi torpaq rəngi alır, dəri qırışır. İnsan öz sağlamlığını qorumaq üçün mütləq surətdə sağlam həyat tərzi keçirməlidir. Ona görədə müəllim bioloji biliklərin tədrisi prosesində mövzu ilə əlaqədar insan sağlamlığının qorunmasına dair valeoloji bilikləri şagirdlərə öyrətməlidir. Müəllimlər öz işinə məsuliyyətlə yanaşmaqla problemin həllini düzgün dərk etməli, valeoloji biliklərin şagirdlərə öyrədilməsinə və xəstəliklərdən qorunma tədbirlərinin həyata keçirilməsinə səy göstərməlidir.

Reproduktiv sağlamlıq ilə əlaqədar valeoloji biliklər. Reproduktiv valeoloji sağlamlıq insanların yaşaması və nəsil artırması üçün lazım olan ən vacib məsələlərdən biridir. Dünya ölkələri və beynəlxalq təşkilatlar valeoloji reproduktiv sağlamlığın insanın inkişafında ən vacib məqamlardan biri hesab edirlər. Reproduktiv sağlamlıq Minilliyin İnkişaf Məqsədlərində 5-ci hədəf kimi qarşıya qoyulmuşdur.

Qadın və uşaq sağlamlığı dünyada sosial rifahın və insan inkişafının ən vacib məqamlarından biridir. Buna baxmayaraq, qadın və uşaqlar qarşısı alınabilən qüsurlardan əziyyət çəkir və bəzən dünyalarını dəyişirlər. Ona görə ana sağlamlığı və qadınların reproduktiv valeoloji sağlamlıq xidmətlərinə əlçatanlığı çox vacibdir. Reproduktiv valeoloji sağlamlıq insanların yaşaması və artması üçün lazım olan ən vacib qlobal problemlərdən biridir. Ümumdünya Səhiyyə təşkilatına əsasən reproduktiv və cinsi xəstəliklər qadınlar arasında 20%, kişilər arasında 14% təşkil edir. Dünyada azyaşlılar arasında hamiləlik hələdə yuxarı səviyyədə qalmaqdadır. Uşaq və yenidoğulmuşların sağlamlığı həmçinin narahatçllıq doğuran məqamlardandır. 5 yaşına qədər uşaqların ölümlərində 28% azalma müşahidə olunsada bu nəticə Minilliyin İnkişaf Məqsədində göstərilən hədəflərə çatmır. Dünyada 67 ölkədə 1000 doğuşdan 40 və daha artığında uşaq ölümləri müşahidə olunur. Yeni doğulmuşların arasında ölüm halları ana ölümlərinin geniş yayıldığı ərazilərdə təsadüf edir. Bu da qadınların doğuş zamanı düzgün tibbi xidmət almamasından xəbər verir.

Düzgün qidalanmamaq nəticəsində 5 yaşına qədər uşaqlar arasındakı ölümlərin üçdə ikisinə səbəb olur. İki yaşına qədəd uşaqlar daha çox qidalanmamağa həssas olurlar.

Reproduktiv sağlamlıq insanın əlverişli fiziki, əqli və sosial rifahı şəraitində çoxalma orqanlarının sağlam olmasıdır. Zərərli vərdişlərin reproduktiv sağlamlığa təsiri – alkoqol, nikotin və s kimi zərərli vərdişlər reproduktiv sağlamlığa mənfi təsir göstərir. Zərərli vərdişlərə aludə olan hamilə qadınlarda zərərli maddələr dölün orqanizmində güclü dəyişikliklər yaradır və nəticə olaraq artıq onun normal inkişafını ləngidir. Reproduktiv sağlamlığa infeksiyaların təsiri – cinsiyyət yolu ilə keçən xəstəliklər zöhrəvi xəstəliklər adlanır. Bu cür xəstəliyi olan insanlar vaxtında müalicə olunmadıqda onlarda sonsuzluq yaranır.

Reproduktiv sağlamlığın və sağlam həyat tərzinin bir sıra şərtləri vardır: düzgün qidalanma, idman vərdişləri, əmək və istirahət rejiminin düzgün təşkil olunması. Qidalanma zamanı qida normalarına ciddi əməl olunmalıdır. Bədənin sağlam olması üçün insan daim idmanla məşğul olmalıdır. Müntəzəm idmanla məşğul olduqda ürəyin fəaliyyəti güclənir. Reproduktiv sağlamlığın qorunması üçün insan sağlam həyat tərzi kecirməli, gələcək nəslin sağlamlığının qayğısına qalmalıdır.

Müəllim reproduktiv sağlamlığı ilə əlaqədar bioloji bilikləri öyrətdikcə valeoloji biliklərə dair şagirdlərdə bacarıqları aşılamalıdır.

Problemin aktuallığı: Valeologiyanın bir sahəsi pedaqoji valeologiyadir. Pedaqoji valeologiyanın əsas vəzifəsi insan orqanimzinin sağlamlığını pozan amilləri aşkar etmək və aradan qaldırmaqdan ibarətdir.

Məqalədə yuxu, irsi çatışmazlıqlar, insanın həyat tərzinin sağlamlığa təsirivə reproduktiv sağlamlıq ilə əlaqədar valeoloji biliklərə dair geniş məlumat verilir. Bu elmi məlumatların insan sağlamlığında əhəmiyyəti böyük olduğu üçün şagirdlərə verilmiş biliklər aktual problemlərə həsr olunmuşdur.

Problemin elmi yenilikləri: Məqalədə ilk dəfə olaraq fəal təlim prosesində insan sağlamlığı ilə əlaqədar valeoloji biliklərin biologiya ilə əlaqəli tədrisi xüsusiyyətləri öyrənilmişdir. Burada həmçinin fəal təlimin tətbiqi ilə əlaqədar doqquzuncu sinifdə pedaqoji pedaqogikanın mövzuları müəyyən edilmişdir. Burada mövzular təhlil edilərək şagirdlərə valeoloji biliklərin aşılanmasının imkan və yolları müəyyən edilmişdir.

Problemin praktik əhəmiyyəti: Pedaqoji valeologiyanın bioloji biliklərlə əlaqəli öyrənilməsinin imkan və yolları müəyyənləşdirilərək onun tədris prosesində tətbiq edilməsi məqsədəuyğun hesab edilmişdir. Fənn üzrə dərsliklər, dərs vəsaiti və metodik vəsaitlər tərtib olunarkən nəticələrə istinad etmək mümkündür.

Ədəbiyyat

1. Sultanov R.L. Biologiya fənn kurikulumunda "İnsan və onun sağlamlığına dair" mövzuların inteqrasiya prinsipi əsasında tədrisinin xüsusiyyətləri.Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı: Slavyan Universiteti "Elmi məqalələr məcmuəsi" 2016, N4 səh. 329-331.
2. Sultanov R.L. Valeoloji tərbiyənin insan sağlamlığında mühafizə edilməsinin elmi,nəzəri və pedaqoji əsasları üzrə işin təşkili yolları. Naxçıvan: Müəllimlər İnstitunun Elmi əsərləri, 2021, N2 səh. 33-37.
3. Sultanov R.L. Təhsilalanların sağlamlığının qorunmasında və mühafizə edilməsində pedaqoji valeologiyanın imkanları // Bakı: Qızlar Universitetinin "Elmi əsərlər", 2020, cild II N3 (43), səh. 178-181.

Р.Л.Султанов

Некоторые характеристики биологического преподавания ценностных знаний, связанных с здоровьем человека, в девятом классе в процессе активного обучения

Резюме

В статье представлены результаты проведенного исследования некоторых особенностей преподавания валеологических знаний, связанных с биологией, в девятых классах в процессе активного обучения.

Здесь даются валеологические знания о сне и показывается его значение для здоровья человека, зависимость сна от эмоций, возникающих в организме человека, затрагиваются валеологические меры, принимаемые для обеспечения нормального сна. Применительно к теме исследуются и анализируются влияние образа жизни человека на здоровье и особенности преподавания валеологических знаний о репродуктивном здоровье.

R.L.Sultanov

Some characterıstıcs of bıology-related teachıng of valuelogıcal knowledge related to human health ın the nınth grades ın the actıve learnıng process

Summary

The article presents the results of the research conducted on some features of the teaching of valeological knowledge related to biology in ninth grades in the process of active learning.

Here, valeological knowledge about sleep is given and its importance in human health is shown. Sleep depends on the emotions occurring in the human body, and valeological measures taken to ensure normal sleep are touched upon.

Rəyçi: prof. M.Ş.Babayev

Redaksiyaya daxil olub: 12.05.2023

R.L.SULTANOV
biologiya üzrə elmlər doktoru, professor
e-mail: rsultanov@bk.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

MƏKTƏBİN SƏKKİZİNCİ SİNFİNDƏ İNSAN SAĞLAMLIĞI İLƏ ƏLAQƏDAR VALEOLOJİ BİLİKLƏRİN TƏDRİSİNİN MAHİYYƏTİ

Açar sözlər: *pedaqoji valeologiya, bilik, bacarıqlar, dayaq-hərəkət aparatı, ürək, tənəffüs, həzm orqanları*
Ключевые слова: *педагогическая валеология, знания, умения, опорно-двигательный аппарат, сердце, дыхание, органы пищеварения*
Key words: *pedagogical valeology, knowledge, skills, musculoskeletal system, heart, respiration, digestive organs*

Səkkizinci sinifdə insanların sağlamlığı ilə əlaqədar üçüncü məzmun xəttində insan anatomiyası və fiziologiyasına dair mövzuların tədrisi ilkin olaraq planlaşdırılmışdır. Burada müxtəlif mövzularla əlaqədar altı istiqamətdə valeoloji sağlamlıqla əlaqəli biliklərin bioloji biliklərlə əlaqəli tədrisinin aparılması nəzərdə tutulmuşdur.

Məqalədə dayaq-hərəkət aparatının, ürək-damar sisteminin, orqanizmin qoruyucu immuniteti, tənəffüs və həzm sistemlərinin mövzularının tədrisi prosesində şagirdlərə valeoloji biliklərin məzmunu və onun həyata keçirilməsi yolları göstərilmişdir.

Sağlamlıq anlayışı tarixin müxtəlif inkişaf mərhələlərində insanların şüurunda fərqli keyfiyyət və əhəmiyyət kəsb etmişdir. Hazırki müasir dövrdə sağlamlıq fərdin fiziki, intellektual, əxlaqi, psixoloji və mənəvi rifahda vəhdətinin təmin edilməsi deməkdir. Hal-hazırda valeologiya insanın öz sağlamlığının formalaşdırılmasında, qorunmasında və möhkəmləndirilməsində iştirakına dair bir elm sahəsi kimi formalaşma mərhələsidir [1].

Müasir dövrdə dünyada nöqsanlı uşaqların çoxluq təşkil etdiyi zamanda təhsilverənlərin və təhsilalanların valeoloji tərbiyəsi vacibliyi çox böyük mənəvi əhəmiyyət kəsb edir.

Biologiyanın tədrisi metodikası pedaqoji elmlər sırasına daxil olduğundan onun pedaqoji valeologiya ilə inteqrasiyası vacib problemlərdəndir. İndiki dövrdə valeologiya elmi formalaşma mərhələsindədir. İnsanların sağlamlıqla əlaqədar hissiyat orqanlarının fəaliyyəti və inkişafı onların cəmiyyətdə olan davranışına təsir göstərir.

İnsanlarda sağlamlıqla əlaqədar duyğu orqanlarının fəaliyyəti haqqında valeoloji biliklər – İnsanlar yaşadığı təbii mühitdə canlı və cansız aləmlə daim əlaqədədir. Onlar öz yaşayış tərzini həyata keçirmək üçün daxili və xarici qıcıqları duyğu orqanları olan göz, qulaq, dil, burun və dəri vasitəsilə qəbul edir. Onlar bu qıcıqlar vasitəsilə qida axtarir, özünü qoruyur və həyat tərzini idarə edir. Normal inkişaf etmiş insanlarda duyğu orqanları daim işləyərək öz həyatı fəaliyyətlərini davam etdirirlər [2].

Görmə orqanının sağlamlığı ilə əlaqədar valeoloji biliklər – görmə insan için çox mühüm bir duyğudur. İnsanın görmə analizatoru onun zehni və əmək fəaliyyətində, davranışında və həyatında böyük rol oynayır.Görmə orqanının insanın psixi inkişafında və həyat fəaliyyətində rolu böyükdür. İnsanın görmə orqanının funksiyası zəiflədikdə davranışında və həyat tərzində müəyyən dəyişikliklər əmələ gəlir. Lakin bəzən bəzi insanların görməsində müəyyən problemlər özünü göstərir. Bunlara: çəpgözlük, yaxindangormə, uzaqdan görmə, daltonizm, katarakt və s aiddir. Bunların yaranmaması üçün – televizora yaxından baxmamalı, çox güclü və çox zəif işıqda oxumamalı və yazmamali, A vitamini ilə zəngin qida qəbul etməliyik və s.

Müəllim şagirdlərə gözün sağlamlığı ilə əlaqədar onun görmə funksiyalarını və pozulmalarını izah etməlidir.

Ona görədə gözə dair valeoloji biliklər biologiyanın tədrisi ilə əlaqədar öyrədilməlidir. Gözü mexaniki zədələrdən, havanın tozundan,zəhərləyici qazlardan,göz yorğunluğundan qorumaq haqqında olan valeoloji biliklər şagirdlərə öyrədilməlidir. Gözün sağlamlığı ilə əlaqədar sanitar, gigiyenik və profilaktik tədbirlərin həyata keçirilməsinə dair şagirdlərə müvafiq bacarıqlar aşılanmaldır.

Eşitmə və müvazinət orqanlarının sağlamlığı ilə əlaqədar valeoloji biliklər-Müəllim insan sağlamlığı ilə əlaqədar qulağın eşitmə – müvazinət analizatorlarının funksiyaları barədə şagirdlərə məlumat verməlidir. Biologiya dərslərində müəllim insanın eşitmə analizatorlarının səs dalğalarını ayrıd etmək qabiliyyətinə malik olması, 20min hersdən yuxarı səs dalğaları ultrasəs sahəsinə, 10 min hersdən aşağı səs dalğaları isə infrasəs dalğaları sahəsinə aid olması barədə şagirdlərə məlumatlar çatdırır. Eşitmə analizatorları 1-3 min həddində maksimal həssaslığa malik olması, onun 3 hissədən (daxili qulağın reseptor sahəsi,eşitmə siniri və beyin qabığının eşitmə nahiyəsi) təşkil olunmasına dair biliklər şagirdlərə aşılanmalıdır. Bundan əlavə şagirdlərə daxili qulaqda eşitmə reseptorları ilə yanaşı müvazinət hissiyatının reseptorlarında olması və onların funksiyası barədə biliklər çatdırılmalıdır.

Bundan sonra eşitmə – müvazinət analizatorlarına dair qulağın sağlamlığının mühafizəsi ilə əlaqədar valeoloji biliklər şagirdlərə aşılanmalıdır.

Eşitmə analizatorları vacib olan duyğu orqanlarımızdan biridir. Bunun üçün qulaq kiri vaxtı-vaxtında təmizlənməlidir. Təmizlənmədikdə insanın eşitmə qabiliyyəti zəifləyir. Qulağı kibrit çöpü ilə təmizlədikdə onun daxili hissələri zədələnir. Qrip zamanı burun nahiyyəsini bərkdən silmək olmaz. Valeoloji tədbirlər kimi sanitar, gigiyenik qaydalara riayət etmək lazımdır.

Dəri, dərinin quruluşu və funksiyaları ilə əlaqədar Valeoloji biliklər – biologiya dərslərində müəllim şagirdlərə insanın dərisi və onun hissiyat analizatorları haqqında ətraflı məlumat verir. Müəllim bu zaman dəri və selikli qişalarında hissiyat reseptorlarının yerləşməsi, onların toxunmadan, təzyiqdən, soyuqdan, istidən və ağrıdan bu qıcıqlara cavab verməsinə dair şagirdləri valeoloji biliklərlə məlumatlandırmalıdır.

Aparılmış tədqiqat işləri göstərir ki, insanın 1 kvadrat sm dəri səthində 50 ağrı, 12 aşağı temperatur və 2 ədəd yüksək temperatura həssas reseptorlar yerləşmişdir.

Dəri səthində səpələnmiş reseptorlar vasitəsilə insan əl barmaqlarını əşyalara toxundurmaqla onların formasını və digər xassələrini müəyyən edə bilirlər. Bundan əlavə dəri duyğu və tənəffüs funksiyalarını həyata keçirir.

Müəllim valeoloji sağlamlığa dair bilikləri biologiyaya dair biliklərlə əlaqəli tədrisini həyata keçirməlidir. Dərinin çox müxtəlif funksiyalarının qorunub saxlanılması və mühafizə edilməsi məqsədilə valeoloji biliklər şagirdlərə aşılanmalıdır.

Qoxu və dad orqanlarımızın sağlamlığı ilə əlaqədar valeoloji biliklər – müəllim biologiyanın tədrisi prosesində qoxu analizatorları barədə əvvəlcə geniş məlumatları şagirdlərə çatdırır. Qoxu analizatoru haqqında valeoloji biliklər biologiyaya dair mövzularla əlaqəli tədris olunmalıdır [3].

Orqanimzdə digər analizatorlardan fərqli olaraq, qoxu analizatorları yalnız biryerdə burun boşluğunda tənəffüs yolundan bir qədər kənarda yerləşir. İnsan orqanizmində qoxu hüceyrələri yüksək həssaslığa malik olmaqla, beyinə iyli maddələr haqqında məlumatlar çatdırır.

Müəllim qoxu analizatorları barədə valeoloji biliklər haqqında şagirdlərdə bacarıqlar formalaşdırmalıdır. Bununla əlaqədar olaraq insan hər zaman burunun təmizliyinə diqqət yetirməlidir. O buruna sivri və sərt cisimlər salmamalı, siqaretdən uzaq durmalı, kəskin iyli və tanımadığı maddələrdən özünü mühafizə etməlidir. Bunlara əməl ermədikdə burun nahiyəsində müəyyən nöqsanlar yaranır.

İnsanın dili orqanizmdə ən mürəkkəb funksiyaları yerinə yetirməklə,quruluş və fizioloji cəhətdən çox sahəli bir orqandır. Onun ön hissəsi şirin, arxa hissəsi acı, yanlar turş, ucu və yanları isə şor dadı hiss edir.

İnsan orqanizmində dad orqanı kimi dil əsas rol oynayır. Həddindən çox isti və soyuq qida qəbul etmək olmaz, alkoqoldan uzaq durmaq vacibdir. Bu mövzu ilə əlaqədar müəllim əlavə mənbələrdən və İKT vasitəsilə əldə olunmuş mövzularla şagirdləri tanış edib, onlarda valeoloji bilikləri formalaşdırmalıdır.

Zərərli vərdişlərdən qorunma yolları ilə əlaqədar valeoloji biliklər – Cəmiyyətdə hər bir fərdin yaşayış dövründə həm müsbət,həm də mənfi vərdişləri mövcuddur. Mənfi vərdişlər arasında ən geniş yayılanı insan orqanizmasına müəyyən qüsurlar gətirən zərərli vərdişlərdir. Ona görə də insan sağlamlığını pozan zərərli vərdişlərdən qorunmaq üçün bu istiqamətdə valeoloji biliklərin şagirdlərə öyrədilməsi zəruridir.

Sağlamlığın ən böyük düşməni məhz zərərli vərdişlərdir. Bunlara – siqaret,narkotik çəkmək, alkoqoldan istifadə etmək və s. aiddir. Bu zaman, insanın orqanizmində "endorfinlər" adlanan maddələr əmələ gəlir. Bu maddələr ağrını kəsir,əhvalı yüksəldir, immuniteti situmullaşdırır. Orqanizmdə olan endorfin maddəsindən insan müəyyən zövq alır.Bu insan orqanizmasına xas olan normal bir təbii funksiyadır. Orqanizmə spirtli içki və narkotik maddə daxil olduqda endorfin maddəsinin funksiyasını həyata keçirir. Bu adi hal aldıqda insan orqanizması üçün normal fizioloji bir proses olan endorfin maddəsi tədricən öz təsirini itirir. Onun yerini spirtli içkilərin və narkotik maddənin yaratdığı endorfin maddəsi əvəz edir. Zərərli vərdişləri yaradan ailəvi, ictimai, genetik və digər bir çox səbəblər vardır.

İnsan sağlamlığını qorunması məqsədilə müəllim zərərli vərdişlərin yaranma səbəblərini şagirdlərlə birlikdə araşdırmalı və ona qarşı mövcud olan tədbirlərin həyata keçirilməsi yollarını müəyyənləşdirməlidir. Bu məqsədlə mövzu ilə əlaqədar insan sağlamlığını zərərli vərdişlərdən qorumaq üçün valeoloji bilikləri şagirdlərə öyrətməlidir.

Məqalənin aktuallığı: Məktəbin səkkizinci sinifində insan sağlamlığı ilə əlaqədar duyğu, görmə, eşitmə, müvazinət, qoxu və dad orqanlarının fəaliyyətinə dair valeoloji biliklərin şagirdlərə öyrədilməsi, onların mühafizə edilməsində əhəmiyyəti böyükdür. Bütün bunlar insanların sağlamlığının keşiyində durmaq üçün qabaqlayıcı praqnozların hazırlanmasında mühüm rol oynayır.

Məqalənin elmi yenilikləri: Valeoloji sağlamlığın qorunması,mühafizə edilməsi sanıtar gigiyenik tələblərə uyğun aparılmalı və lazımi profilaktik tədbirlər elmi-metodik tövsiyyələrə uyğun həyata keçirilməlidir.

Tədqiqat işinin praktik əhəmiyyəti: Tədqiqat işinin nəticələrindən tədrisdə, həyat fəaliyyətində, insan sağlamlığının qorunması və mühafizəsi prosesində istifadə oluna bilər.

Ədəbiyyat

1. Sultanov R.L.Valeoloji təhsilin keyfiyyətinin yüksəldilməsində müəllimin pedaqoji ustalığının rolu. Gəncə Dövlət Universitetinin elmi əsərləri. Gəncə, 2021, N3 səh. 41-46
2. Sultanov R.L. Təhsilalanların sağlamlığının qorunmasında və mühafizə edilməsində pedaqoji valeologiyanın imkanları // Bakı Qızlar Universitetinin "Elmi əsərlər" Bakı 2020, cild II N3(43), səh. 178-181.
3. Sultanov R.L.Ətraf mühitdə insan sağlamlığının qorunmasında valeoloji biliklərdən istifadənin imkan və yolları. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı Slavyan Universitetinin elmi məqalələr məcmuəsi. Bakı, 2021, N1səh. 258-260.

Р.Л.Султанов

Сущность обучения валеологическим знаниям о здоровье человека в восьмом классе школы

Резюме

В восьмом классе изначально планируется преподавание анатомии и физиологии человека по третьей линии содержания, связанной со здоровьем человека, здесь предполагается пре-

подавание валеологических медицинских знаний и биологических знаний по шести направлениям, связанным с различными темами.

В статье в процессе обучения опорно-двигательному аппарату, сердечно-сосудистой системе, защитной системе организма, дыхательной и пищеварительной системам студентам было показано содержание валеологических знаний и способы их реализации.

R.L.Sultanov

The essence of teaching valeological knowledge about human health in the eighth grade of the school

Summary

In the eighth grade, the teaching of human anatomy and physiology in the third content line related to human health is initially planned. Here, it is planned to teach valeological health-related knowledge and biological knowledge in six directions related to various topics.

In the article, in the process of teaching the musculoskeletal system, cardiovascular system, protector of the organism, respiratory and digestive systems, the content of valeological knowledge and ways of its implementation were shown to the students.

Rəyçi: prof. M.Ş.Babayev

Redaksiyaya daxil olub: 12.05.2023

Z.S.SULTANOVA
baş müəllim
e-mail: zemfirasultanova52@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

TƏLƏBƏNİN MUSİQİ DÜŞÜNCƏSİ VƏ ƏTRAF MÜHİTİNİN ONLARA ESTETİK TƏSİRİ

Açar sözlər: *mədəniyyət, musiqi, inkişaf, incəsənət, psixologiya*
Ключевые слова: *культура, музыка, развитие, искусство, психология*
Key words: *culture, music, development, art, psychology*

Prezidentimiz və hökumətimiz gənc nəslin musiqi-estetik tərbiyəsinə mühüm əhəmiyyət verir və daim qayğı ilə yanaşır. Musiqi – yetişən nəslin təfəkkür qabiliyyətinin inkişafında böyük əhəmiyyətə malikdir, böyük emosional təsir qüvvəsi kimi sənətdir, insanların etiqadını, əxlaqi və estetik ideallarının formalaşmasında mühüm vasitədir. Məlumdur ki, incəsənətin məqsədi "varlığımızda olan ən müxtəlif hissləri, meylləri və ehtirasları oyadıb canlandırmaq, qəlbi cuşa gətirmək və insan qəlbini dərindən riqqətə gətirə bilən qüvvələrin hamısını yenidən hiss etdirmək onun rəngarəng imkanlarını və cəhətlərini aşkara çıxarmaq, ruhun öz təfəkküründə və ideyasında yaşatdığı bütün əhəmiyyətli və ülvi ünsürlərlə, nəcibliyin, əbədiliyin və gerçəkliyin gözəlliyi ilə hisslərə və xəyallara zövq verməkdir" [5, s.50].

Musiqi təhsili estetik tərbiyənin ən mühüim bölməsidir. Tələbələrə ümumi musiqi tərbiyəsi vermək, onları yüksək musiqi sənətinə cəlb etmək və yaxşı xalq, klassik, xarici, Azərbaycan musiqisi, habelə müasir bəstəkarların əsərləri nümunəsində estetik zövq formalaşdırmaq lazımdır. Tələbələrin mənəviyyata dövrümüzün tələbləri ruhunda təkmilləşdirilməsinə köməklik göstərmək – tələbələrin musiqi inkişafı sahəsində musiqi fənninin istiqamətlərini vermək bizim borcumuzdur.

Böyük pedaqoqlar tələbələrin arasında həmrəylik yaratmaq, onların bədii zövqlərini düzgün qiymətləndirmək işində musiqinin əsas vasitələrdən biri kimi qiymətləndirirlər. O, tələbələrin estetik tərbiyəsinə xidmət edir. Tələbələrin musiqi tərbiyəsi müxtəlif şəkildə həyata keçirilir. 1 sinifdə tədris edilən musiqi dərsləri. 2. Sinifdənkənar musiqi kollektivləri. 3. Məktəbdənkənar musiqi işləri.

Musiqi tələbələrin zehni qabiliyyətlərini inkişaf etdirir, düşüncəsini fəallaşdırır, yaradıcı təxəyyül və fantaziyasını inkişaf etdirir, təsəvvür və mülahizələrinin təkmilləşdirilməsinə kömək edir. Musiqi böyük emosional təsir qüvvəsinə malik sənətdir.

Musiqi tərbiyəsinin qarşısında duran vəzifə şagirdlərin musiqi zövqlərini inkişaf etdirmək, onlarda milli musiqiyə maraq oyatmaqdan ibarətdir.

Əlbəttə insanın musiqi-estetik tərbiyyəsi uşaqlıqdan başlamalıdır. İnsanın əxlaqi keyfiyyətlərinin əsasları lap kiçik yaşlarından qoyulur,

Lakin mənəvi tərbiyədə əsas rolu məktəb oynayır. Ümumtəhsil məktəblərimizdə musiqi tərbiyəsində məqsəd heç də şagirdləri peşəkar musiqiçilər yetişdirmək deyildir. Musiqi tərbiyəsində məqsəd şagirdlərin musiqi zövqlərini, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək və eləcə də onlarda musiqi vasitəsilə bir sıra nəcib sifətlər tərbiyə etməkdir.

Hər musiqi müəllimi unutmamalıdır ki, onların yetirmələri ciddi musiqi təhsili alaraq gələcəkdə də yüksək mədəniyyətin mütəxəssisi olmalıdır. Bu məqsədin həyata keçirilməsinə pedaqoqlar hərtərəfli yardım göstərməlidirlər.

Müəllim tələbələrə qarşı diqqətli, həssaslı, ciddi münasibət bəslədikdə, onların şəxsi xüsusiyyətləri haqqında təsəvvürə malik olur. Tələbəni yaxından tanımaq vacib şərtlərdən biridir.

Musiqi tərbiyəsində tələbələrin estetik inkişafı üçün musiqini qavrama mədəniyyətinin böyük əhəmiyyəti vardır. Qavrama mədəniyyəti dedikdə bir tərəfdən tələbələrin musiqi əsərinin

məzmunu ilə əlaqədar hisslər keçirə bilməsi, digər tərəfdən əsəri qiymətləndirə bilməsi, onun ayrı-ayrı ünsürlərini təhlil etmək qabiliyyətləri müsiqiyə maraqlarının artması nəzərdə tutulur.

Musiqini sevmək, başa düşmək, ondakı gözəlliyi dərk etmək, musiqi əsərləri haqqında estetik mühakimə yürüdə bilmək tələbələrdə müntəzəm surətdə musiqi əsərlərini dinləməklə, musiqi sənəti ilə sıx ünsiyyət yaratmaqla mümkündür.

Tələbələrin musiqi tərbiyəsində instrumental musiqi əsərlərinin dinlənilməsi çox böyük əhəmiyyət kəsb edir. Tələbənin musiqi qabiliyyətini inkişaf etdirməyi qarşısına məqsəd qoyan hər bir musiqi müəllimi istər dərsdə, istərsə də dərsdənkənar məşğələlərdə musiqi dinlənilməsinə xüsusi fikir verməlidir. Musiqi dinlənilməsi aşağıdakı məqsədlərə xidmət etməlidir: musiqinin janr və formaları ilə tanışlıq, xalq musiqisinə həvəs və marağın daha da artırılması, peşəkar və klassik müsiqiyə münasibətin formalaşması, peşəkar və klassik musiqiyə münasibətin formalaşması, çoxsəsli musiqiyə həvəs və marağın artırılması, digər xalqların musiqi yaradıcılığı ilə tanışlıq, bəstəkarların həyat və yaradıcılığı ilə tanışlıq.

Musiqi estetikası musiqiyə reallığın bədii inkişafının spesifik forması, kimi baxır. Onun məzmununun əsasını müxtəlif həyat hadisələri, insanın mənəvi-daxili aləmi, təbiət hadisələri təşkil edir. Bədii əsərlərin mənəvi dəyərləri sosial hadisə kimi onun müasir ideya-estetik mənası ilə təyin edilir: xəlqiliyi, realizmi və demokratizmi, sosial və bədii ümumiləşdirilmələri, vətənpərvərliyi və bəşəriliyi.

Şagirdin psixi imkanlarına onun şəxsiyyətyönlü inkişafının potensialını və eyni zamanda pedaqoji prosesin nəticələrini nəzərə alaraq baxmaq lazımdır. Əgər qoyulmuş məqsəd qarşısında sosial tələblər, şagirdlərin yaş xüsusiyyətləri nəzərə almarsa onda musiqi təlimi bu inkişafı nəinki qabaqlayacaq (L.S.Vıqotski), eyni zamanda bu inkişafın düzgün istiqamətə yönəlməsinə köməklik göstərə biləcəkdir. Bu cür yanaşma şagirdlərin musiqi mədəniyyətinə yiyələnməsi prosesində psixi imkanlarını öyrənərkən xüsusi əhəmiyyətə malikdir.

Musiqi qabiliyyətlərinə bu cür münasibət şagirdlərdə bu qabiliyyətlərin intensiv inkişafına səbəb ola bilər. Bunun üçün aşağıda göstərilən şərtlərə riayət olunmalıdır: birinci, musiqinin həyatla fəal əlaqə yaradılması; ikinci, görmə, duyma və hərəkətlərlə əlaqədar qabiliyyətlərin musiqi eşitmə ilə əlaqəsinin yaradılması; üçüncü, musiqi qabiliyyətlərin ümumiləşmiş nəticəsi olan melodik eşitmə qabiliyyətinin inkişaf etdirilməsi; dördüncü, musiqi qavranılması prosesinə musiqi biliklərinin daxil edilməsi.

Qeyd etmək lazımdır ki, təhsil alan tələbələr istedad və bacarıqlarına görə bir-birindən fərqlənirlər. Lakin onların hamısı pedaqoqun diqqətinə, onun xeyirxah münasibətinə layiqdirlər. Pedaqoji etikanın əsas prinsiplərindən biri də elə budur.

Müxtəlif tərbiyəli və bacarıqlı tələbələrin psixologiyasına bələd olmaq üçün, pedaqoq ilk növbədə onun psixoloqu olmalıdır. Psixoloq olmadan tələbələrin düşüncə tərzini, onların qavrama qabiliyyətini başa düşmək çətindir.

İlkin mərhələdə pedaqoq bir neçə müddət tələbənin musiqini qavrama qabiliyyətini, onun yaddaşını bilavasitə inkişaf etdirməlidir. Bu xüsusiyyətlərin inkişaf etdirilməsi, gələcəkdə məşqələlərin gedişatı ilə ayrılmaz surətdə bağlı olacaqdır.

Müəllim tələbələrin qavrama qabiliyyəti ilə sıx əlaqəli olan musiqi qabiliyyətinə təsir göstərməyi bacarmalıdır.

İlk növbədə "musiqi qabiliyyəti" anlayışın izah edək. Ümumi xüsusiyyətlərinə görə "musiqi qabiliyyəti" musiqinin gözəlliyini və təsirliyini anlamaq və şəxsi ifadə bu musiqini dinləyicilərə çatdırmaq bacarığıdır. Hətta zəif musiqi qabiliyyətini də inkişaf etdirmək mümkündür. Bunun üçün ən başlıcası müəllim bu qabiliyyəti hiss etməlidir. Bu fikri B.M.Teplov "Musiqi qabiliyyətinin psixologiyası" adlı əsərində qeyd etmişdir. "İnsanın musiqi qabiliyyəti onun fərdi istedadından asılıdır, lakin o, həm də inkişafın, tərbiyənin və təhsilin nəticəsi ola bilər" [4].

Bir də təkrar etmək istəyirəm ki, estetik tərbiyənin qüvvətli təsir güçünə malik vasitələrdən biri də musiqidir. Musiqi səs incəsənəti, təfəkkürün səs obrazıdır. Musiqi böyük emosional təsir qüıəsinə malik sənətdir. O, insanların ideya etiqadının, əxlaqi və estetik ideallarının formalaşmasında mühüm vasitədir.

Əsərlərin seçilməsi zamanı tələbələrin işinin bədii dəyəri xüsusi əhəmiyyət kəsb edir. Bu əsərlərdən istifadə etməklə tələbələrin musiqi haqqında təsəvvürlərini genişləndirmək, onların musiqi zövqünü inkişaf etdirmək və tələbələrin maraqlı işi həyata keçirməsi mümkündür.

Öyrədilən repertuarın ümumi tərbiyəvi mahiyyətini həmişə diqqət mərkəzində saxlamaq lazımdır. Tələbələrin tərbiyə sahəsindəki tapşırıqlarının müvəffəqiyyətlə həyata keçirilməsi pedaqoqun müsbət işindən asılıdır.

Bethoven, Şopen, Şuman, Çaykovski, Raxmaninov, Şostakoviç, Ü.Hacıbəyli, Q.Qarayev, F.Əmirov kimi bəstəkarların əsərləri nəinki tələbələri məşhur şəxslərlə tanış edir, həm də bu şəxsiyyətlərin yaradıcılığının etik problemlərlə əlaqələnməsinə şərait yaradır. Musiqinin mahiyyəti və onun bilavasitə təsiri xüsusi əhəmiyyətə malikdir. Tələbənin həqiqi incəsənətə onun yüksək ideyalarına yiyələnməsi müəllimin işindən asılıdır. Tələbənin mənəvi simasının formalaşdırılması üçün həyata keçirilən bu iş ixtisas üzrə məşğələlərdə xüsusi əhəmiyyət kəsb edir.

Müxtəlif millətlərin nümayəndələri olaraq bəstəkarların əsərlərinin müxtəlif cəhətliliyi ondan ibarət olmuşdur ki, bu əsərlər tələbələri çoxmillətli musiqi mədəniyyəti ilə yaxından tanış etmişdir. Repertuar nəinki tələbələrin musiqi dünya görünüşü, pianoçu bacarığını inkişaf etdirir, həm də ümum estetik və etik planda tələbələrə tərbiyəvi təsir göstərir. Ona görə də pedaqoq tələbələrin musiqi və ümumi inkişafını, onun tərbiyəsinin inkişafını təmin etmək üçün fasiləsiz və ciddi iş aparmalıdır.

Ədəbiyyat

1. Кременштейн «Воспитание самостоятельности учащегося в классе специальность фортепиано».
2. Кремлев Ш. «Очерки по эстетике музыки».
3. Остроменский В. «Восприятие музыки как педагогическая проблема».
4. Teplov V.M. Musiqi qabiliyyətinin psixologiyası.
5. Hendel “Əsrlər”.

З.С.Султанова

Музыкальное мышление студентов и эстетическое воздействие на них окружающей среды

Резюме

Систематическое получение знаний о музыке, формирование умений и навыков должны быть направлены прежде всего на развитие эмоциональной чувствительности, интереса детей к музыке. Особое значение имеет проблема заинтересованности в обучении музыке, которая также является одной из основных проблем общей педагогики.

Z.S.Sultanova

The student's musical thinking and the aesthetic effect of the environment on them

Summary

Systematic acquisition of knowledge about music, the formation of skills and habits should be aimed primarily at the development of emotional sensitivity, children's interest in music. The problem of interest in the teaching of music is of particular importance, which is also one of the main problems of general pedagogy.

Rəyçilər: p.f.d., dos. N.N.Abutidze,
p.f.d., dos. A.Ə.Hüseynova

Redaksiyaya daxil olub: 14.02.2023

Z.S.SULTANOVA
baş müəllim
e-mail: zemfirasultanova52@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

TƏLƏBƏLƏRİN FOLKLORA OLAN MƏHƏBBƏTİ VƏ ONUN MÜASİR VƏ KLASSİK ƏSƏRLƏRLƏ ƏLAQƏSİ

Açar sözlər: *mədəniyyət, musiqi, inkişaf, incəsənət, psixologiya*
Ключевые слова: *культура, музыка, развитие, искусство, психология*
Key words: *culture, music, development, art, psychology*

Çoxcəhətli fəaliyyət diapazonuna malik bizim dahi bəstəkarımız Ü.Hacıbəyov musiqi mədəniyyətimizi inkişaf etdirmək, xalq musiqisinin elmi əsaslarına yiyələnmək məsələsinə çox böyük əhəmiyyət verirdi. Onun 20 illik əməyinin məhsulu olan "Azərbaycan xalq musiqisinin əsasları" fundamental əsəri musiqi mədəniyyətimizin əsasını qoymuşdur. Azərbaycan folklorunun ən mühüm sahələrindən biri mahnıdır. Bu janrda həm musiqi yaradıcılığı, həm də xalq poetik üslubu öz əksini tapmışdır. Xalq arasında mahnılarımız geniş yayılmışdır. Axırıncı onillik ərzində respublika folklorçuları tərəfindən bu sahədə müəyyən irəliləyiş əldə edilir, təcrübə qazanılır. Bu təcrübə müasir nəsil musiqiçilərimizin də həmin sahədə işi davam etdirilməsində müsbət rol oynaya bilər. Ü.Hacıbəyov bütün həyatı boyu xalq mahnılarının öyrənilməsinə böyük diqqət yetirmişdir. Xalqın musiqi-poetik təfəkküründün abidələri olan xalq mahnılarını toplamış və nota salmışdır.

Qayıdış feillərinin uğurlu şəkildə tədrisi məqsədilə tələbələrin təsirlik halını öyrənərkən qarşılaşacaqları təsirlilik / təsirsizlik fenomeninin izahı böyük əhəmiyyət kəsb edir. Tələbələr bilməlidirlər ki, təsirli feillər vasitəsiz tamalıqla işlədilməlidir. Azərbaycanlı tələbələrə ümumi qayıdış feillərinin mənasını və işlədilməsini izah etmək xüsusilə çətinlik törədir. Qayıdış və əlaqəli təsirli fellərin müqayisəsi zamanı ümumi qayıdış məna az-çox aydın şəkildə meydana çıxır. Bu feillər çox vaxt kontekstdə əlavə məna çaları yaradır.

S.H.Mehdiyeva

Studying reflexive verbs in lessons in russian as a foreign language

Summary

The article deals with reflexive verbs in teaching Russian as a foreign language. The lack of systematic work on reflexive verbs can lead to a large number of errors in the oral and written speech of students. The main point is the connection of the use of reflexive verbs with a certain sentence structure. When using reflexive verbs that are correlative with transitive, the direct object is lost in the sentence. Reflexive verbs are not the same in terms of structure: some of them are used only with the particle *-ся* (*нравиться, бояться, смеяться*), other reflexive verbs have a pair − a correlative verb: *мыть – мыться, одевать – одеваться*, finally, the third − do not connect with particle *-ся*, for example, *благодарить.*

Of great importance for the successful study of reflexive verbs is the explanation of the phenomenon of transitivity / intransitivity, which students will encounter when studying the accusative case. Students should learn that a direct object must be used with a transitive verb. It is especially difficult to explain the meaning and use of reflexive verbs to Azerbaijani students. The general reflexive meaning is revealed more or less clearly when comparing the reflexive and correlative transitive verbs. Often in context, these verbs get an additional connotation of meaning.

Рецензент: доц. Г.А.Гасанова

Redaksiyaya daxil olub: 13.04.2023

A.Ə.ABBASOV
e-mail: ismayilova2007@internet.ru

Azərbaycan Turizm və Menecment Universiteti
(Bakı şəh., Koroğlu Rəhimov küç., 23/822)

QARABAĞ İQTİSADİ RAYONUNDA TURİZMİN İNKİŞAFINDA DÖVLƏT SİYASƏTİNİN TƏTBİQİ DAİRƏSİNİN GENİŞLƏNDİRİLMƏSİ

Açar sözlər: *turizm, Qarabağ, İqtisadi Rayonu, dövlət, siyasət*
Ключевые слова: *туризм, Карабах, экономический район, государство, политика.*
Key words: *tourism, Karabakh, Economic Region, state, politics*

Giriş. Tədqiqatın məqsədi Qarabağ iqtisadi rayonunda turizmin inkişafına dövlət dəstəyinin tətbiq dairəsinin genişləndirilməsi, Qarabağda turizmin inkişafına dövlətin dəstəyinin zəruriliyini araşdırmaqdır. Bu məqsədə çatmaq üçün əsas vəzifələr müəyyənləşdirdik: Turizm biznesinin mahiyyəti və formalaşma mexanizmi; Turist xidmətlərinin təsnifatı; Qarabağda turizmin bölgələrə görə yerləşilməsi; Qarabağ iqtisadi rayonunda turizmin inkişafında dövlət siyasətinin tətbiqi dairəsinin genişləndirilməsi və s. Tədqiqatın işinin yazılmasında müxtəlif metodlardan istisadə olunmuşdur. Belə ki, analiz və sintez metodları, müqayisəli təhlil metodları, statistik analiz metodlarından biri olan qrafik metodu istifadə edilmişdir. Analiz metodu vasitəsi ilə Qarabağda turizm bazarının vəziyyəti öyrənilmişdir. Sonra sintez metodu vasitəsi ilə araşdırdığımız faktlar ümumiləşdirilmişdir. Təhlil metodu isə bu araşdırdığmız faktların öyrənilməsinin əsasını qoymuşdur. Həmçinin bu elmi işdə müqayisəli təhlil metodundan da istifadə olunmuşdur. Tədqiqat işində öz əksini tapan statistik məlumatlar qrafik metodu vasitəsi ilə nümayiş etdirilmişdir.

Tədqiqat yalnız Qarabağ iqtisadi rayonlarında aparılmışdır. Qarabağ iqtisadi rayonu Qafqazın cənubunda Ermənistan, Azərbaycan və özünü elan etmiş Dağlıq Qarabağ Respublikası sərhədləri boyunca uzanan dağlıq rayondur. Qarabağ iqtisadi rayonunda turizmin inkişafı sahəsində dövlət siyasətinin tətbiq dairəsinin genişləndirilməsi müxtəlif amillərin hərtərəfli təhlilini tələb edən çoxşaxəli və mürəkkəb mövzudur. Dağlıq Qarabağ və bəzi ona bitişik ərazilərin daxil olduğu Qarabağ iqtisadi rayonu uzun illərdir ki, mübahisəli rayondur. Region Azərbaycan və Ermənistan arasında uzun müddətdir davam edən və 1990-cı illərin əvvəllərində müharibə ilə nəticələnən münaqişənin obyekti olub. Münaqişə DQR-nin Azərbaycandan ayrılması və regionda Ermənistanın dəstəklədiyi faktiki hökumətin qurulması ilə nəticələndi. Siyasi qeyri-sabitlik və Azərbaycanla Ermənistan arasında davam edən gərginlik regionun inkişafına və turizm məkanı kimi potensialına mane olub. Lakin son illərdə regionda turizmin iqtisadi potensialının tanınması getdikcə artmaqdadır. Qarabağ iqtisadi rayonunda turizmin inkişafı sahəsində dövlət siyasətinin tətbiq dairəsinin genişləndirilməsi bu siyasətə cavab kimi qiymətləndirilə bilər. Bu siyasətin məqsədi regionu turizm məkanı kimi tanıtmaq və əraziyə daha çox ziyarətçi cəlb etməkdir [5]. Regionda turizmin inkişafı potensialına baxmayaraq, Qarabağ İqtisadi Rayonunda turizmin təşviqi üçün həll edilməli olan bir çox problemlər var. Qarabağ iqtisadi rayonunda turizmin inkişafı sahəsində dövlət siyasətinin genişləndirilməsinin iqtisadi səmərələrindən biri də iş yerlərinin yaradılması potensialıdır. Turizm çoxlu sayda

insan üçün iş imkanları təmin edə bilən əmək tutumlu sənayedir. Regionda turizm sənayesinin inkişafı yaşayış, qida və içki xidmətləri, nəqliyyat və əyləncə daxil olmaqla bir sıra sektorlarda iş yerləri yarada bilər. Bu da öz növbəsində yerli iqtisadiyyatı stimullaşdıra və regionun iqtisadi artımına töhfə verə bilər.

Bölgədə turizmin inkişafı üçün digər problem təhlükəsizlik məsələləridir. Regionda keçmişdə siyasi qeyri-sabitlik və münaqişə yaşanıb və bu, təhlükəsizlik narahatlığına səbəb olub. Turistlər təhlükəsizlik problemləri olan bölgələrə səfər etməkdə tərəddüd edirlər ki, bu da regionda turizmin inkişafını məhdudlaşdırıb. Qarabağ iqtisadi rayonunda turizmin inkişafı sahəsində dövlət siyasətinin genişləndirilməsinin daha bir iqtisadi səmərəsi valyuta gəlirləri potensialıdır. Turizm bir çox ölkələr üçün əhəmiyyətli valyuta gəlir mənbəyidir və eyni şeyi Qarabağ iqtisadi rayonu üçün də göstərmək olar. Xarici qonaqlar xarici valyuta gətirəcəkdilər ki, bu da regionun tədiyyə balansını sabitləşdirməyə və iqtisadi mövqeyini gücləndirməyə kömək edə bilərdi. Qarabağ iqtisadi rayonunda turizm sənayesinin inkişafı qarşısında duran əsas problemlərdən biri infrastrukturun olmamasıdır. Bölgə illərdir davam edən münaqişə və kifayət qədər sərmayə qoyuluşundan təsirlənib, bu da onu pis yollarla, qeyri-adekvat ictimai nəqliyyatla, mehmanxana və digər turizm obyektlərinin çatışmazlığı ilə tərk edib. Qarabağ iqtisadi rayonunda turizmin inkişafı sahəsində dövlət siyasətinin genişləndirilməsi infrastruktura əhəmiyyətli investisiyalar tələb edəcəkdir ki, bu da mövcud siyasi və iqtisadi şəraitdə çətinləşə bilər. Qarabağ iqtisadi rayonunda turizmin inkişafı sahəsində dövlət siyasətinin genişləndirilməsinin sosial əhəmiyyəti də var. Turizm sənayesinin inkişafı yerli ictimaiyyətə əhəmiyyətli təsir göstərə bilər. Turizm yerli ictimaiyyətə yeni imkanlar və faydalar gətirə bilər, eyni zamanda sosial və mədəni gərginlik yarada bilər. Birincisi, turizmin inkişafında dövlət siyasətinin rolunu etiraf etmək vacibdir. Dövlət siyasəti əlverişli tənzimləyici və institusional mühit təmin etməklə, infrastruktura və insan resurslarına sərmayə qoymaqla, turizm istiqamətlərini və görməli yerləri təşviq etməklə, özəl sektor və yerli icmalarla tərəfdaşlıq yaratmaqla turizmin inkişafına təsir göstərə bilər. Bununla belə, dövlət siyasətinin əhatə dairəsi turizm sənayesinə təsir edən siyasi, iqtisadi və sosial amillərlə məhdudlaşdırıla bilər. Ona görə də Qarabağ iqtisadi rayonunda turizmin inkişafı sahəsində dövlət siyasətinin əhatə dairəsinin genişləndirilməsi bu amillərin həllini tələb edir. Qarabağ iqtisadi rayonunda turizmin inkişafında əsas problemlərdən biri siyasi qeyri-sabitlik və ərazi mübahisələridir. Bölgə uzun müddətdir münaqişələr tarixinə malikdir və XX əsrin əvvəllərindən Ermənistan və Azərbaycan arasında ərazi mübahisələrinə məruz qalıb. 2020-ci ildə baş verən son münaqişə əhəmiyyətli dərəcədə insan itkisi və insanların didərgin düşməsi ilə nəticələnərək regionda siyasi və iqtisadi vəziyyəti daha da gərginləşdirib. Turizmin inkişafında dövlət siyasətinin əhatə dairəsini genişləndirmək üçün münaqişənin köklü səbəblərini aradan qaldırmaq, regionda sülhün və sabitliyin təşviq edilməsi vacibdir. Buna iqtisadi artımı və sosial birliyi təşviq edən diplomatik səylər, etimad quruculuğu tədbirləri və davamlı inkişaf təşəbbüsləri vasitəsilə nail olmaq olar.

Qarabağ iqtisadi rayonunda turizmin inkişafındakı digər problem infrastrukturun inkişaf etməməsidir. Bölgənin müasir nəqliyyat, rabitə və yerləşdirmə vasitələrinə çıxışı məhduddur ki, bu da turistlərin cəlb edilməsini və onlara xidmət göstərməsini çətinləşdirir. Turizmin inkişafı sahəsində dövlət siyasətinin əhatə dairəsinin genişləndirilməsi turistlərin ehtiyaclarına cavab verən və onların təcrübəsinin keyfiyyətini yüksəldən infrastrukturun inkişafına sərmayə qoyulmasını tələb edir. Bura yolların, hava limanlarının və dəmir yollarının tikintisi, telekommunikasiya və internet xidmətlərinin inkişafı, mehmanxana və kurort kimi yerləşdirmə obyektlərinin genişləndirilməsi daxil ola bilər [3]. Qarabağ İqtisadi Rayonuna turistlərin cəlb edilməsi üçün regionun təbliği mühüm əhəmiyyət kəsb edir. Dövlət regionun təbii və mədəni görməli yerlərini tanıtmaq üçün müxtəlif marketinq strategiyalarından istifadə edə bilər. Dövlət regionun unikal xüsusiyyətlərini nümayiş etdirən broşuralar, veb-saytlar və sosial media platformaları yarada bilər. Dövlət həmçinin bölgəni tanıdan və turistləri cəlb edən tədbirlər və festivallar təşkil edə bilər. Tədbirlər və festivallar musiqi və rəqs kimi mədəni mövzular ətra-

fında təşkil oluna bilər və turistlərə yerli mədəniyyətin unikal təcrübəsini təqdim edə bilər. Tədbirlər və festivallar həm də bölgənin yerli mətbəxini və məhsullarını tanıtmaq üçün istifadə oluna bilər ki, bu da yerli biznes üçün imkanlar yarada bilər [2]. Bölgənin təbliği beynəlxalq təşkilatlar və turizm agentlikləri ilə əməkdaşlıq vasitəsilə də həyata keçirilə bilər. Dövlət regionu turizm məkanı kimi tanıtmaq və dünyanın müxtəlif yerlərindən turistləri cəlb etmək üçün beynəlxalq təşkilatlarla işləyə bilər. Dövlət həmçinin regionun təbii və mədəni görməli yerlərini nümayiş etdirən turizm paketləri hazırlamaq üçün turizm agentlikləri ilə işləyə bilər. Turizmin inkişafı sahəsində dövlət siyasətinin əhatə dairəsinin genişləndirilməsində insan resurslarının inkişafı da mühüm əhəmiyyət kəsb edir. Turizm sənayesi əsasən tur bələdçiləri, otel işçiləri, səyahət agentləri və digər xidmət təminatçılarından ibarət işçi qüvvəsinin bacarıq və biliklərinə əsaslanır. Buna görə də, dövlət siyasəti turizm işçi qüvvəsinin təhsilinə və təliminə sərmayə qoyulmasına diqqət yetirməlidir ki, bura peşə hazırlığı, dil bacarıqlarının inkişafı və mədəni maarifləndirmə proqramları daxil ola bilər. Bundan başqa, turizm sektorunda sahibkarlığın və innovasiyaların təşviqi məşğulluq və iqtisadi artım üçün yeni imkanlar yarada bilər ki, bu da turizmin inkişafı sahəsində dövlət siyasətinin əhatə dairəsini daha da genişləndirə bilər [2]. Turizmin inkişafında dövlət siyasətinin əhatə dairəsinin genişləndirilməsinin digər mühüm istiqaməti turizm istiqamətlərinin və attraksionlarının təbliğidir. Qarabağ iqtisadi rayonu zəngin mədəni irsə, təbii gözəlliyə, geniş turist kütləsini cəlb edə biləcək tarixi əhəmiyyətə malikdir. Bununla belə, bu istiqamətlər və attraksionlar tam potensialına çatmaq üçün effektiv şəkildə satışa çıxarılmalıdır. Dövlət siyasəti effektiv marketinq strategiyaları yaratmaq, turizmin təşviqi şuralarını yaratmaq və turistlərin ehtiyac və üstünlüklərinə cavab verən turizm məhsulları və xidmətlərini inkişaf etdirmək üçün özəl sektorun maraqlı tərəfləri ilə əməkdaşlıq etməklə turizm istiqamətləri və cazibələrinin təşviqində həlledici rol oynaya bilər.

Nəticə. Qarabağ İqtisadi Rayonunda turizmin inkişafı regionun iqtisadiyyatına əhəmiyyətli töhfə vermək potensialına malikdir. Bununla belə, infrastrukturun olmaması, təhlükəsizlik məsələləri və siyasi qeyri-sabitlik kimi müxtəlif amillər səbəbindən regionda turizmin inkişafı məhdudlaşdırılıb. Dövlət regionda turizmin inkişafı üçün dövlət siyasətinin tətbiq dairəsini genişləndirə bilər. Bura infrastruktura sərmayə qoyuluşu, regionun təşviqi, turizm məhsullarının inkişafı və təhlükəsizliyin yaxşılaşdırılması daxil ola bilər. Bu strategiyalar regionda turizmin inkişafına təkan verəcək, iqtisadi artım və məşğulluq üçün imkanlar yaradacaq.

Ədəbiyyat

1. https://azerbaijan.travel/az/destinations/karabakh
2. Ələkbərov, M. (2020). Azərbaycanda Regional İnkişaf və Turizm. Beynəlxalq Davamlı İnkişaf və Planlaşdırma Jurnalı, 15(1), 107-118.
3. Cəfərov, C., & Mehrəliyev, R. (2019). Azərbaycanda turizm: cari vəziyyət və gələcək perspektivlər. Journal of Tourism and Hospitality Management,7, 1-13
4. https://sia.az/az/news/tourism/844259.html
5. http://www.anl.az/el/q/qarabag 6/q-12.htm. Əli Məsimli (2020). Qarabağın işğalının iqtisadi təsirləri.

А.А.Аббасов

Расширение сферы государственной политики в развитии туризма в Карабахском экономическом регионе

Резюме

Развитие туризма было определено в качестве важнейшего компонента экономического роста во многих странах, особенно в развивающихся регионах. Карабахский экономический район является одной из таких территорий, обладающих значительным потенциалом для развития туризма. Однако для того, чтобы в полной мере использовать этот потенциал, необходимо расширить рамки государственной политики в области развития туризма в регионе. Развитие туризма в Карабахском экономическом районе может принести значительную пользу региону.

A.A.Abbasov

Expanding the Scope of the State policy in the Development of Tourism in the Karabagh Economic Region

Summary

Tourism development has been identified as a crucial component of economic growth in many countries, especially in developing regions. Karabakh Economic Region is one of such areas with significant potential for tourism development. However, in order to fully use this potential, it is necessary to expand the scope of the state policy in the development of tourism in the region. The development of tourism in the Karabakh Economic Region has the potential to bring significant benefits to the region.

Rəyçi: iqtisad.ü.f.d., prof. P.Qurbanov

Redaksiyaya daxil olub: 17.06.2023

Ə.H.CABBARLI
tarix üzrə fəlsəfə doktoru, dosent
e-mail: elekber.cabbarli1947@mail.ru

Naxçıvan Dövlət Universiteti
(Naxçıvan şəh., Universitet şəhərciyi)

MİLLİ TARİX KONSEPSİYASININ MÜƏLLİFİ – HEYDƏR ƏLİYEV

Açar sözlər: *Heydər Əliyev, Naxçıvan, ictimai-siyasi şərait, Naxçıvan tarixi, müstəqillik*
Ключевые слова: *Гейдар Алиев, Нахчыван, общественно-политические условия, история Нахчывана, независимость.*
Key words: *Heydar Aliyev, Nakhchivan, socio-political conditions, history of Nakhchivan, independence*

Bildiyimiz kimi, Azərbaycan xalqı iki dəfə – 1918-ci və 1991-ci illərdə öz dövlət müstəqilliyinə qovuşmuşdur. Azərbaycan Respublikasının Ali Soveti 1991-ci il avqustun 30-da "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Bəyannamə qəbul etdi. Həmin il oktyabrın 18-də Ali Sovetin sessiyasında qəbul edilən "Azərbaycan Respublikasının dövlət müstəqilliyi-nin bərpası haqqında" Konstitusiya Aktı həmin Bəyannamənin hüquqi cəhətdən möhkəmləndirilməsi, müstəqilliyin hüquqi bazasının yaradılması istiqamətində mühüm konstitusion-hüquqi sənəd idi. Konstitusiya Aktının 2-ci maddəsi ilə Azərbaycan Respublikası 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan olundu. Noyabrın 15-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi üzrə Azərbaycan Respublikası referendumunun keçirilməsi haqqında" Ali Sovetin qərarı ilə 1991-ci il dekabrın 29-da müvafiq referendum keçirildi və Azərbaycan xalqı yekdilliklə müstəqilliyin bərpasına səs verdi.

Lakin 1991-1993-cü illərdə ölkə daxilində cərəyan edən ictimai-siyasi hadisələr müstəqilliyin perspektivdə daha böyük təhlükələrlə üzləşəcəyindən xəbər verirdi. Bir tərəfdən, xüsusilə müstəqillik ərəfəsində ermənilərin keçmiş sovetlər birliyi rəhbərliyinin fəal dəstəyi ilə Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə çıxış etməsi, azərbaycanlılara qarşı həm Qərbi Azərbaycan ərazisində, həm də Dağlıq Qarabağda deportasiya və qırğın siyasəti yürütməsi, digər tərəfdən isə SSRİ-nin süqutundan dərhal sonra onun yeni formada bərpası cəhdləri vəziyyəti daha da kəskinləşdirirdi.

Onu da qeyd edək ki, bu dəfə Azərbaycan öz dövlət müstəqilliyini qoruyub saxlaya və möhkəmləndirə bildi. Şübhəsiz ki, bu uğur ilk növbədə bütün dünya tərəfindən böyük siyasi xadim kimi tanınan və qəbul olunan, eləcə də XX əsrin son qərinəsində Azərbaycanın siyasi və dövlətçilik mühitində silinməz izlər qoyan Heydər Əliyevin ölkədə rəhbərliyə gəlməsi ilə bağlı oldu. 1993-cü ildə Azərbaycan dövlətçiliyi məhv olmaq, cəmiyyət isə vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qaldıqda məhz bu böyük dövlət idarəçiliyi təcrübəsinə sahib olan görkəmli siyasi xadimin ölkədə hakimiyyətə qayıdışı bütün ictimai-siyasi proseslərin axarının müstəqilliyimiz üçün arzu olunan istiqamətdə inkişaf etməsində həlledici amil oldu.

1969-cu il iyulun 14-də Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (Azərbaycan KP MK) birinci katibi vəzifəsinə seçilməsi tarixi bir hadisə idi. İstər 1982-ci ilədək – Azərbaycanda özünün ilk rəhbərliyi dövründə, istərsə də 1982-1987-ci illərdə SSRİ rəhbərliyində Nazirlər Soveti sədrinin birinci müavini və Sovet İttifaqı Kommunist Partiyası (Sov.İKP) Siyasi Bürosunun üzvü kimi mühüm hökumət və siyasi (dövlət) vəzifələri tutduğu illərdə Azərbaycanın hərtərəfli inkişafı məsələləri daim Heydər Əliyevin diqqət mərkəzində olmuş, o, bütün imkanlarından istifadə edərək doğma Vətəninin tərəqqisi naminə səylə çalışmışdı.

Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi yüksəlişi ilə yanaşı, respublikada elm və təhsilin, mədəniyyətin və incəsənətin inkişafı məsələləri də Heydər Əliyevin daim qayğı ilə

yanaşdığı sahələr olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 yanvar 2013-cü il tarixdə "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" imzaladığı Sərəncamda deyilir: "Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır" [2, 2013, 22 yanvar].

Heydər Əliyevin zəngin həyatı və fəaliyyətində Naxçıvanın özünəməxsus yeri və rolu vardır. Bu, xalqımızın ümummilli liderinin yalnız 1923-cü ildə Naxçıvanda dünyaya gəlməsi və uşaqlığını burada keçirməsi ilə bağlı olmayıb, onun həyatının, siyasi və dövlətçilik fəaliyyətinin sonrakı mərhələlərində də Azərbaycanın bu qədim diyarı ilə bağlılığı sübut edən faktlarda, o cümlədən 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi, muxtar respublikaya rəhbərlik etməsi, ölkəyə rəhbərliyinin hər iki dövründə buraya olan çoxsaylı səfərləri və daimi diqqəti ilə bağlıdır. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü ilin aprel ayında Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ilə bağlı təntənəli mərasimdəki nitqində dediyi sözlər ümummilli lider Heydər Əliyevin Naxçıvanla bağlı fəaliyyətinə verilən ən yüksək qiymətdir: "Naxçıvanın inkişafı ulu öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. İlk növbədə ona görə ki, Naxçıvan Azərbaycan xalqına ulu öndər Heydər Əliyevi bəxş etmişdir. Ulu öndər bütün dövrlərdə Naxçıvana böyük diqqət göstərmişdir. 1970-1980-ci illərin əvvəllərində respublikanın sosial-iqtisadi inkişafı üçün çox böyük işlər görmüşdür. O vaxt Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvanda da sürətli inkişaf dövrü müşahidə edilirdi. Ulu öndərin rəhbərliyi ilə Azərbaycan 1980-ci illərin əvvəllərində sovet məkanında ən qabaqcıl yerlərdə idi, o cümlədən Naxçıvanda da böyük sosial quruculuq işləri aparılırdı. Naxçıvanın sənaye potensialı formalaşırdı. Bir sözlə, muxtar respublika öz inkişaf dövrünü yaşayırdı" [10, s.70].

Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə çox mühüm tarixi qərarlar qəbul edildi. Naxçıvanda ictimai-siyasi şəraiti daha da stabilləşdirmək və sağlamlaşdırmaq üçün böyük tədbirlər həyata keçirildi. Getdikcə güclənən erməni təcavüzünün və düşmənin yaratdığı blokadanın ağır nəticələrinin qarşısının alınması üçün düşünülmüş və çevik siyasət yürüdüldü.

Heydər Əliyevin qonşu Türkiyə Cümhuriyyətinə və İran İslam Respublikasına ardıcıl səfərləri, bu səfərlər zamanı imzalanan müqavilələr Naxçıvanın və onun əhalisinin sosial-iqtisadi vəziyyətinin yüngülləşdirilməsində müstəsna rol oynadı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ulu öndər Heydər Əliyevin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illəri əsl tarixçi qələmi ilə qiymətləndirərək demişdir: "1990-cı ilin iyul ayında ümummilli lider Heydər Əliyevin Naxçıvana gəlməsi, burada siyasi fəaliyyət göstərməsi muxtar respublikanın ərazisini erməni işğalından, muxtariyyətini isə ləğv olunmaq təhlükəsindən xilas etmişdir. Həmin illərdə ümummilli liderimizin muxtar respublika parlamentində xüsusi bəyanatla çıxış etməsi, Türkiyə Respublikasına səfəri zamanı Moskva və Qars müqavilələrini yenidən gündəliyə gətirərək, dünya ictimaiyyətinin diqqətini Ermənistanın təcavüzkarlıq siyasətinə yönəltməsi Naxçıvanın muxtariyyət statusuna ikinci ömür vermişdir" [11, s.99].

XX əsrin 90-cı illəri və XXI əsrin ilk illərində Naxçıvanın təhlükəsizliyinin təmin edilməsi, muxtariyyət statusunun möhkəmləndirilməsi, dövlətçilik istiqamətində yeni tarixi qərarların qəbul edilməsi, burada elmin və təhsilin inkişafı, bölgənin tarixinin, arxeoloji abidələrinin öyrənilməsi, əsaslı tədqiqatların aparılması məhz Heydər Əliyevlə, onun müəyyənləşdirdiyi siyasi xətlə bağlıdır.

Beləliklə, Heydər Əliyevin Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında hər bir sahə ilə bağlı həyata keçirdiyi islahat xarakterli tədbirlər, yürütdüyü siyasət həm uğurla nəticələnmiş, həm də bu siyasətin özü daim tədqiqatçıların diq-

qət mərkəzində olmuş, Heydər Əliyevin çoxşaxəli siyasi və dövlətçilik fəaliyyətinin müxtəlif istiqamətləri ilə bağlı sanballı tədqiqat işləri aparılmışdır.

Belə ki, 1969-1982-ci, 1990-1993-cü və 1993-2003-cü illərdə Naxçıvanda baş verən hadisələr, proseslər, muxtar respublikanın inkişafı məsələləri, muxtariyyət statusunun möhkəmləndirilməsi, bölgənin tarixinin öyrənilməsi, ordu quruculuğu, bölgənin erməni təcavüzündən müdafiəsinin təşkil olunması və xilası, iqtisadiyyatın, elmin və təhsilin inkişafı məsələləri ulu öndərin adı ilə bağlıdır [5]. Ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətdə olduğu bu illər bütövlükdə Azərbaycan tarixinin mühüm bir dövrüdür.

1969-cu ildə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra məhz onun həyata keçirdiyi tədbirlər Naxçıvanın ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatına öz müsbət təsirini göstərmişdir. Həmin dövrdə Naxçıvanda dövlətçilik istiqamətində mühüm addımlar atılmış, muxtar respublikada sosial-iqtisadi sahə ilə yanaşı, elm, təhsil və mədəniyyət də inkişaf mərhələsinə qədəm qoymuşdur [13, s.145-263].

1990-cı ildə Heydər Əliyevin Naxçıvana gəlişi ilə bölgə erməni təcavüzündən xilas oldu. Milli dövlətçilik ənənələrinin bərpası və yaradılması istiqamətində tarixi qərarlar qəbul edildi, Naxçıvanın müdafiəsinin hərbi-siyasi və diplomatik yollarla təşkili sayəsində muxtar respublika erməni təcavüzündən qorundu, sosial-iqtisadi sahədə mühüm tədbirlər həyata keçirildi [8; 9; 13, s. 298-363].

Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti olduğu 1993-2003-cü illər ölkəmiz, o cümlədən Naxçıvan üçün daha əlamətdar və yaddaqalan oldu. Müstəqillik tarixinin taleyüklü həmin mərhələsində Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi üçün ciddi addımlar atıldı, ölkədə ictimai-siyasi sabitlik, sosial-iqtisadi dirçəliş təmin edildi, nizami milli ordu yaradıldı. Aparılan uğurlu xarici siyasət sayəsində ölkə beynəlxalq aləmdə öz mövqeyi ilə tanınan və qəbul edilən dövlətə çevrildi, elm, təhsil, mədəniyyət inkişaf etdi. Müstəqil Azərbaycanın 1995-ci il Konstitusiyasında [1] Naxçıvanın muxtar dövlətçiliyinin əsas konstitusion prinsipləri ali hüquqi səviyyədə təsbit edildi. Naxçıvana dövlət qayğısı daha da artdı, onun muxtariyyət statusunu möhkəmləndirmək istiqamətində bir sıra addımlar atıldı, muxtar respublikanın yaradılmasının yubiley ildönümləri dövlət səviyyəsində geniş qeyd edildi. Habelə Naxçıvan tarixinin hərtərəfli araşdırılıb tədqiq edilməsi, yenidən yazılması məsələləri mühüm bir vəzifə kimi qarşıya qoyuldu.

Bu baxımdan ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci, 1993-2003-cü illərdə, eləcə də Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi, Ali Məclisin Sədri vəzifəsində işlədiyi 1990-1993-cü illər-də milli dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində qəbul etdiyi qərarlar, ərazi bütövlüyü uğrunda apardığı mübarizə, Naxçıvanın konstitusion-hüquqi, hərbi-siyasi və diplomatik səviyyədə etibarlı müdafiəsinin təşkili, bölgənin muxtariyyət statusunun möhkəmləndirilməsi, tarixinin öyrənilməsi və tədqiqi məsələləri, elm, təhsil, mədəniyyət, ordu quruculuğu sahəsində həyata keçirilən islahatlar bilavasitə Azərbaycan xalqının ümummilli liderinin adı ilə bağlıdır [8; 9; 13, s.145-263].

Azərbaycanın dövlət müstəqilliyinin bərpası və ümummilli lider Heydər Əliyevin ölkəmizdə hakimiyyətə qayıdışı yalnız ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi həyatın bütün sahələrində əsaslı dönüşün yaranmasına, siyasi və dövlətçilik tariximizin obyektiv və dolğun, eyni zamanda doğru-düzgün yazılması üçün zəruri şərait yaratdı. Sovet hakimiyyəti illərində avtoritar rejimin siyasi-psixoloji və yad ideoloji buxovlarının müəyyən etdiyi çərçivədə yazılan, XX əsrin 80-ci illərinin sonu-90-cu illərinin populizm, nihilizm, diletantlıq və s. xoşagəlməz meyillərin təsiri duyulan Azərbaycan tarix elmi çoxminillik tariximizin mürəkkəb problemlərini elmi baxımdan uğurla həll edə bilmirdi. Xüsusən XIX-XX əsrlər Azərbaycan tarixinin ayrı-ayrı problem-məsələlərinə dair təzadlı fikirlər çoxalmışdı və sürətlə yayılırdı.

Həm dövlətçiliyimiz, həm də tarix elmimiz üçün belə bir mürəkkəb şəraitdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1993-cü il sentyabrın 21-də [2, 1993, 24 sentyabr] və 1997-ci il yanvarın 31-də [2, 1997, 1 fevral] Azərbaycan MEA-da aparıcı ziyalılarla, elmi

institutların və ali təhsil müəssisələrinin rəhbərləri ilə, elmi ictimaiyyətin və Azərbaycan tarixçilərinin qabaqcıl nümayəndələri ilə çox mühüm və ciddi dönüş nöqtəsi sayılacaq iki görüş keçirdi. Bu görüşlərdəki elmi proqram xarakterli nitqində Heydər Əliyev Azərbaycan tarixi elmində yaranmış vəziyyəti dərindən təhlil etdi, tarixçi alimlərin təklif və mülahizələrini də dinləyərək ölkəmizin və xalqımızın XIX-XX əsrlər tarixinin yenidən yazılmasına dair konkret göstərişlər və tapşırıqlar verdi, tarix elminin qarşısında mühüm vəzifələr qoydu. Bu görüşlərdə Heydər Əliyev bir tərəfdən sovet hakimiyyəti illərində antimilli ideoloji çərçivədə yazılmış, digər tərəfdən isə son vaxtlarda tarix elmində baş qaldırmış populist və volyuntarist meyillərin aradan qaldırılmasını, Vətən tarixinin, xüsusilə XIX-XX əsrlər tariximizin yeni təfəkkür tərzində, yüksək səviyyədə, obyektiv və ləyaqətlə tədqiq olunmasını əsas vəzifələrdən biri kimi müəyyənləşdirdi: "70 illik sovet dövründə Azərbaycan tarixi təhrif edilib. Tarixçilərin yadındadır ki, mən 70-80-ci illərdə alimlərlə dəfələrlə görüşmüşəm, hər dəfə də narahatçılığımı bildirmişəm… O vaxtlar da demişəm, indi də deyirəm ki, tarixçilərimiz üçün bütün şəraiti yaratmağa hazırıq. Bir şərtlə ki, tarixçilərimizdən bu gün üçün, gələcək nəsillər üçün yaxşı əsərlər ala bilək" [4, s.93].

Ümummilli liderin mövqeyi Azərbaycanın sovet dövrü tarixinin yeni müstəvidə tədqiq edilməsinin müasir dövrümüzdə olduqca aktual olduğunu sübut edirdi. Məsələn, XX əsrin 20-30-cu illəri, ümummilli lider Heydər Əliyevin dediyi kimi, Azərbaycan tarixşünaslığında ciddi tədqiqata ehtiyacı olan dövrlərdən biri kimi böyük aktuallıq kəsb edirdi. Çünki 1920-30-cu illər "Azərbaycan xalqı üçün, bir tərəfdən çox məşəqqəli olubdur, qurbanlar verilibdir, günahsız repressiyaya uğrayıbdır; ikinci tərəfdən də xalqımız inkişaf edibdir, savadsızlıq tamamilə ləğv olunubdur, ali təhsil müəssisələri, böyük sənaye və iqtisadi potensialı yaranıbdır, mədəniyyətimiz sürətlə inkişaf edibdir". Bu prizmadan çıxış edən Azərbaycan Prezidenti Heydər Əliyev Azərbaycanın XX əsr tarixinin yenidən obyektiv, doğru-düzgün yazılmasına xüsusi diqqət yetirilməsini vacib sayırdı: "Xalqımız böyük tarixi yol keçibdir. Tariximizin parlaq səhifələri də, qaranlıq səhifələri də var. Tariximizin hər bir səhifəsinə hörmətlə, ehtiramla yanaşaq... Biz qısa vaxtda heç olmasa, XX əsrin tarixini yazmalıyıq" [2, 1996, 23 iyun].

Heydər Əliyev XX əsrin tarixinin müstəqillik dövrünün yaratdığı imkanlar daxilində obyektivcəsinə yazılmasının tərəfdarı idi. O bu dəfə də sovet hakimiyyəti illərində qazanılan bir sıra nailiyyətləri tam inkarçılıq xətti tutan bəzi subyektiv düşüncəli tarixçiləri nəzərdə tutaraq demişdir: "Keçmiş tariximizi yüksək qiymətləndirərək, eyni zamanda XX əsrdə xalqımızın həyatında, tarixində böyük nailiyyətlər əldə olunmasını və böyük dirçəlişi, böyük irəliləməni xüsusi qiymətləndirməliyik. Biz bunu nəinki qeyd etməliyik, biz bununla fəxr edə bilərik və mən, şəxsən özüm, fəxr edirəm. Mən XX əsrin əvvəllərində doğulmuşam, indi XX əsrin sonuna qədər yaşayıram. Mənim həyatım bu dövrdə keçibidir və çox şeylərin şahidiyəm. Ona görə də mən bilirəm, görmüşəm və tarixi də oxumuşam ki, bizim xalqımız bu dövrdə böyük bir inkişaf dövrü keçibdir" [6, s. 449-450]. Xalqımızın tarixinin doğru-düzgün yazılmasına, hadisələrin və tarixi faktların obyektiv tədqiq edilməsinə, tarixi həqiqətlərin üzə çıxarılmasına, zəngin arxiv materiallarının elmi dövriyyəyə cəlb edilməsinə və fundamental tarix kitablarının hazırlanmasına böyük əhəmiyyət verən ümummilli liderimiz deyirdi: "...Tarix hər bir insan üçün yeniyetməlikdən başlayaraq ömrünün sonuna qədər lazımdır, ...hər bir gənc gərək Azərbaycan tarixini yaxşı bilsin, oxusun, öyrənsin" [2, 1997, 1 fevral].

Ulu öndər qətiyyətlə bildirirdi ki: "Biz Azərbaycanın XX əsr tarixini yazmalıyıq, XX əsrdə keçdiyimiz yolu araşdırmalıyıq, tədqiq etməliyik. Bu, bizim alimlərimizin, tədqiqatçılarımızın qarşısında duran vəzifədir. Biz bunu etməliyik" [2, 1996, 9 aprel]. Buna görə də "tarixçilərimiz apardıqları araşdırmalarına yüksək tələbkarlıqla yanaşmalıdırlar. Tarixi həqiqətlər aşkar edilməli, ...sovet dövründə qadağa qoyulmuş bütün dövrlər tədqiqat obyektinə çevrilməlidir. Azərbaycan xalqının və onun qurduğu dövlətlərin tarixinin araşdırılmayan bircə səhifəsi belə qalmamalıdır" [7, 2009, 9 dekabr].

Həmin görüşlərdə ulu öndər XIX-XX əsrlər Azərbaycan tarixinin yazılmasını daim nəzarət altında saxlayacağını, ona hərtərəfli kömək və yardım edəcəyini də bildirirdi. Bu, Prezident Heydər Əliyevin Azərbaycan tarixinə dövlət siyasəti səviyyəsində diqqət və qayğının parlaq ifadəsi, tarixçilər qarşısında isə duran dövlət proqramı, fəaliyyət proqramı idi. Ümumiyyətlə, Heydər Əliyev bütün fəaliyyəti boyu Azərbaycan tarix elminin də böyük qayğıkeşi kimi özünü göstərmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2000-ci il dekabrın 29-da "Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciəti" [3] əslində milli ideologiyamızın tarixi-nəzəri konsepsiyasıdır. Bu mühüm sənəd digər tərəfdən ulu öndərin sovet hakimiyyəti süqut etdikdən və müstəqillik dövründə tarix elminin əvvəlki dövrün ziyanlı ideoloji buxovundan yenicə qurtulduğu bir vaxtda tarixçi alimlər üçün Azərbaycan tarixinin yeni, dəqiq və bütün konturları əhatəli şəkildə cızılmış konsepsiyası kimi tarixə yazıldı. Bu baxımdan Heydər Əliyev həm milli tarix elminin böyük himayədarı, həm müasir dövr Azərbaycan tarixinin böyük bir mərhələsinin yaradıcısı, həm də milli tarix konsepsiyasının müəllifi kimi müstəsna hüquqla çoxminillik dövlətçilik tariximizə adını əbədi yazdıran ən böyük lider oldu.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009, – 68 s.
2. "Azərbaycan" qəzeti.
3. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. Naxçıvan: "Əcəmi" NPB, 2001, 192 s.
4. Bayramov Q. Heydər Əliyev və Azərbaycan tarix elmi. Bakı: Təhsil, 2004, – 263 s.
5. Cabbarlı Ə. Heydər Əliyev və Naxçıvan tarixi məsələləri. Naxçıvan: "Əcəmi" NPB, 2015, – 232 s.
6. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. IX kitab. Bakı: Azərnəşr, 2000, – 466 s.
7. "Xalq qəzeti".
8. Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan 1996, – 780 s.
9. Qayıdış (1990-1993). Sənədlər toplusu. Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan 2008, – 840 s.
10. Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi NPB, 2014, – 104 s.
11. Naxçıvan Muxtar Respublikasının yubileyləri. Naxçıvan: "Əcəmi" NPB, 2014, – 212 s.
12. Naxçıvan tarixi. Üç cilddə. İkinci cild. Naxçıvan: "Əcəmi" NPB, 2014, – 528 s.
13. Naxçıvan tarixi. Üç cilddə. Üçüncü cild. Naxçıvan: "Əcəmi" NPB, 2015, – 560 s.

А.Г.Джаббарлы

Гейдар Алиев – автор концепции национальной истории

Резюме

В конце XX века к руководству страной пришел Гейдар Алиев, оставивший неизгладимый след в политической и государственной среде Азербайджана. В 1993 году, когда государственность Азербайджана оказалась перед угрозой разрушения, а общество – перед угрозой гражданской войны, возвращение к власти этого видного политического деятеля, имевшего большой опыт государственного управления, явилось решающим фактором в развитии всей общественной жизни. -политические процессы в желаемом для нашей независимости направлении.

Нахчыван занимает уникальное место и роль в богатой жизни и деятельности Гейдара Алиева. В период, когда Гейдар Алиев был Председателем Верховного Совета Нахчыванской Автономной Республики, были приняты очень важные исторические решения. Были предприняты большие меры для дальнейшей стабилизации и улучшения социально-политических условий в Нахчыване.

Возросла государственная забота о Нахчыване, был предпринят ряд шагов по укреплению ее статуса как Автономной Республики, на государственном уровне широко отмечались

юбилейные годовщины создания Автономной Республики. Кроме того, в качестве важной задачи были поставлены вопросы тщательного исследования и переписывания истории Нахчывана. Такие вопросы исследуются в статье.

A.H.Jabbarli

Heydar Aliyev – the author of the concept of national history

Summary

At the end of the 20th century, Heydar Aliyev, who left an indelible mark on the political and state environment of Azerbaijan, came to the leadership of the country. In 1993, when Azerbaijan's statehood was facing the threat of destruction, and the society was facing the threat of civil war. The return to power of this prominent political figure who had great experience in state administration was a decisive factor in the development of all socio-political processes in the desired direction for our independence.

Nakhchivan has a unique place and role inHeydar Aliyev's rich life and activities of. During the period when Heydar Aliyev was the Chairman of the Supreme Assembly of the Nakhchivan Autonomous Republic, very important historical decisions were made. Great measures were taken to further stabilize and improvement of the social and political conditions in Nakhchivan.

State concern for Nakhchivan increased, a number of steps were taken to strengthen its status as the Autonomous Republic, and the jubilee anniversaries of the creation of the Autonomous Republic were widely celebrated at the state level. In addition, the issues of thoroughly researching and rewriting the history of Nakhchivan were set as an important task. Such issues are explored in the article.

Rəyçi: tarix ü.e.d. Ə.Qasımov

Redaksiyaya daxil olub: 05.03.2023

F.İ.CƏFƏROVA
filologiya üzrə fəlsəfə doktoru, dosent
e-mail: ceferova.fexriyye@ mail.ru

Naxçıvan Müəllimlər İnstitutu
(Naxçıvan şəh., Heydər Əliyev pr., 1)

HEYDƏR ƏLİYEV VƏ MƏDƏNİ İRSİMİZ

Açar sözlər: *Heydər Əliyev, Naxçıvan, mədəni irs, muzey, mədəniyyət, mədəni yüksəliş*
Ключевые слова: *Гейдар Алиев, Нахчыван, культурное наследие, музей, культура, культурное развитие.*
Key words: *Heydar Aliyev, Nakhchivan, cultural heritage, museum, culture, cultural advancement*

Zəngin tarixi mədəniyyətə malik olan Azərbaycan və onun Naxçıvan diyarı əsrlərdən bəri Şərqin inkişaf etmiş mədəni mərkəzlərindən biri kimi şöhrət tapmış və Azərbaycan mədəniyyətinə, incəsənətinə, ədəbiyyatına böyük və dəyərli töhfələr vermişdir. Lakin tarixin istənilən mərhələsində hər hansı bir cəmiyyətdə siyasi-iqtisadi sabitlik olmadan mədəni inkişafdan danışmaq mümkün deyil.

Heydər Əliyevin müstəqil Azərbaycanda hakimiyyətə gəlişi ilə millətin taleyi üçün misilsiz əhəmiyyət daşıyan bütün fəaliyyət sahələrinə, o cümlədən mədəniyyətə də lazımi diqqət yetirildi. Ölkəmizin müstəqillik tarixində Heydər Əliyev həm də Azərbaycanın mədəni həyatında misilsiz yeniliklərin ideoloqu, təşəbbüsçüsü, ilhamvericisi və təşkilatçısı kimi qaldı.

Heydər Əliyev Azərbaycanın bütün bölgələrinin, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan MR-nın mədəni yüksəlişini təmin etmək üçün sosial-mədəni obyektlərin tikintisini sürətləndirməyi məsul şəxslərdən ardıcıl olaraq tələb edir, bu məqsədlə Mərkəzi Komitə və respublika hökuməti səviyyəsində müvafiq qərarların qəbul edilməsinə nail olurdu. 1980-ci illərin əvvəllərində Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Naxçıvan şəhərində mədəniyyət sarayının tikintisinə başlanıldı. 1984-cü ildə sarayın istifadəyə verilməsi Naxçıvan ictimaiyyəti üçün böyük bir hadisə oldu.

Xalqımızın maddi-mənəvi sərvətlərinin, tarixi-mədəni xəzinəsinin qorunub mühafizə və təbliğ edilməsində muzeylərin rolu əvəzsizdir. Bir çox belə mədəniyyət müəssisələrinin yaradıcısı və banisi olan Heydər Əliyev muzeylərin əhəmiyyətini yüksək qiymətləndirərək demişdi: "Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün muzeylər lazımdır".

Azərbaycana rəhbərliyinin ilk illərində, həmçinin yenicə müstəqillk qazandığımız vaxtlarda respublikamızda sosial-iqtisadi, ictimai-siyasi vəziyyət tam qaydada olmasa da, o dövrdə ulu öndər Heydər Əliyevin göstərişi və tapşırığı ilə muzeylərin fəaliyyətinin daha da yaxşılaşdırılması üçün çox mühüm qərarlar qəbul edilmişdi. Belə ki, 1980-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə respublikamızda muzey işinə aid xüsusi qərar qəbul edilmişdi. Bu qərarın Azərbaycan xalqının milli sərvətinin, tariximiz və mədəniyyətimizlə bağlı maddi dəyərlərin toplanılması, qorunması, öyrənilməsi, təbliği və gənc nəslin tərbiyəsində istifadə edilməsi üçün böyük əhəmiyyəti oldu. Qərardan sonra respublikamızın əksər bölgələrində tarix-diyarşünaslıq muzeyləri yaradıldı [3, s.284].

Heydər Əlyevin göstərişi ilə Naxçıvan MSSR-in 50 illiyi ilə əlaqədar Naxçıvan şəhərində Xatirə muzey-salonu yaradılmışdı. 1976-cı ildə həmin muzey-salonun gələcək fəaliyyətini müəyyənləşdirmək üçün mütəxəssislərdən ibarət qrup Naxçıvana göndərilmişdi. Qrupun rəyi nəzərə alınmaqla Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti 18 noyabr 1976-cı il tarixdə Naxçıvan MSSR-də Tarix muzeyinin şöbəsinin təşkili barədə qərar qəbul etdi. Azərbaycan KP MK Bürosunun 10 noyabr 1980-ci il tarixli qərarı ilə Culfa, Şərur, Ordubad

rayonlarında Dövlət Tarix-Diyarşünaslıq muzeyləri yaradıldı. XII əsrin mədəniyyət abidəsi olan Mömineəxatın məqbərəsi yanında memarlıq və incəsənət muzeyi təşkil olundu. Muxtar respublikada 1970-ci ildə cəmi 2 muzey var idisə, 1980-ci ildə onların sayı 4, 1985-ci ildə 11-ə çatdırıldı [4, s.119].

Bu tədbirlər muxtar respublikada muzey işinin yenidən qurulması və təşkilinə əsaslı təsir göstərmiş, muzeyşünaslığın daha da inkişaf etməsinə təkan vermişdir. Zəngin, mənəvi irsimizin qorunmasında, inkişafında, böyüməkdə olan nəslin milli-mənəvi ruhda tərbiyə olunmasında böyük rol oynayan muzeylər bu gün mədəniyyət ocaqları və mərkəzləri kimi xalqımızın xidmətindədir. İnsanların muzeylərə marağı xeyli artırmış, tariximizin, mədəniyyətimizin hərtərəfli öyrənilməsinə, gənclərin mənəvi-əxlaqi, bədii-estetik tərbiyəsinin, elmi-ictimai dünyagörüşünün formalaşmasına və zənginləşməsinə səbəb olmuşdur. 1960-cı illər ərzində muxtar respublikada yeganə olan Naxçıvan Dövlət Tarix Muzeyinə 16 min nəfər tamaşaçı gəlmişdi. 1970-ci ildən etibarən muzeydə yaradılan şərait, xalqın muzeylərə marağının artırılması, gənclərin və məktəblilərin bu müəssisələrə kütləvi cəlb edilməsi sayəsində buraya gələnlərin sayının 52 minə, 1980-ci ildə 272 minə, 1990-cı ildə isə 274 minə çatdırılmasına nail olunmuşdu [5, 2004, 8 dekabr].

XX əsrin 70-ci illərindən başlayaraq Azərbaycanın bir çox yerlərində olduğu kimi, Naxçıvan MR-nın şəhər və rayonlarında müxtəlif profilli muzeylərin, o cümlədən ev muzeylərin yaradılması, fəaliyyət göstərən muzeylərin zənginləşdirilməsi işi daim diqqət mərkəzində olmuşdur. 1972-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Ordubad rayonunda böyük ədib M.S.Ordubadinin, 1975-ci ildə akademik Y.Məmmədəliyevin, XX əsrin 70-ci illərində və 80-ci illərinin əvvəllərində Naxçıvan şəhərində və Şahtaxtı kəndində görkəmli Azərbaycan dramaturqu və şairi H.Cavidin, Naxçıvan şəhərində məşhur sərkərdə C.Naxçıvanskinin ev muzeyləri təşkil edildi.

1980-ci ildə məhz Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilən "Respublikada muzeylərin şəbəkəsinin genişləndirilməsi haqqında" qərar Azərbaycanda muzey şəbəkəsinin inkişafına, bölgələrdə tarix-diyarşünaslıq muzeylərinin açılmasına şərait yaratdı. Muzeylərin sayı 1990-cı ildə 12-yə, 2000-ci ildə 16-ya, 2003-cü ildə isə 20-yə çatdırılmışdı.

Heydər Əliyevin bu sahədə böyük xidmətlərindən biri də Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli Sərəncamı ilə Naxçıvan şəhərində görkəmli yazıçı-dramaturq C.Məmmədquluzadənin ev muzeyinin açılması olmuşdur. 1999-cu ildə Naxçıvan MR-nın yaradılmasının 75 illik yubiley tədbirlərində iştirak edən Heydər Əliyev C.Məmmədquluzadənin Naxçıvan şəhərin-dəki ev muzeyinin açılışı mərasimində iştirak etmiş və nitq söyləmişdi. Prezident bu səfəri zamanı Heydər Əliyev Muzeyində, Naxçıvan Dövlət Xalça Muzeyində, H.Cavidin ev muzeyində də olmuşdu.

2002-ci ilin iyun ayında Naxçıvana səfəri zamanı Heydər Əliyev Naxçıvan şəhərində B.Kəngərli muzeyinin açılışında iştirak etmiş, muzeyin ekspozisiyası ilə yaxından tanış olmuşdu. Rəssamın irsini yüksək qiymətləndirən dövlət başçısı demişdi: "Bu gün demək olar ki, Bəhruz Kəngərli Azərbaycanın rəssamlıq sənətinin, mədəniyyətinin ən görkəmli nümayəndələrindəndir. Biz bununla fəxr etməliyik. Fəxr etməliyik ki, Azərbaycan xalqının belə böyük istedada malik insanları olubdur". Heydər Əliyev çıxışında onun irsinin tədqiqinin zəruriliyini qeyd etmişdi: "Hesab edirəm ki, Azərbaycanda, o cümlədən Naxçıvanda bizim sənətşünaslar, tədqiqatçılar Bəhruz Kəngərlinin yaradıcılığını daha professional səviyyədə tədqiq etməli, əsərlər yazmalıdırlar. Həm Bəhruz Kəngərlini Azərbaycan xalqının görkəmli və yüksək mədəniyyətə malik olan nümayəndəsi kimi təbliğ etsinlər, həm də böyük rəssam kimi təbliğ etsinlər" [1, 2002, 20 iyun].

Muzeyin həyata vəsiqə alması və fəaliyyətə başlaması XX əsr Azərbaycan boyakarlıq sənətinin görkəmli nümayəndəsi, Azərbaycan təsviri incəsənət tarixində portret və mənəzərə yaradıcılığının əsasını qoyan, rəssamlığa yeni ictimai məzmun gətirən, onu yeni forma və təsvir vasitələri ilə zənginləşdirən, Tiflisdə xüsusi rəssamlıq təhsili alan B.Kəngərli irsinə olan

böyük hörmət və ehtiramın nəticəsi idi. Təbii ki, bu muzeyin açılması da Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlı olmuşdur.

Ümumiyyətlə, Naxçıvan muzeylərinin əksəriyyəti ümummilli lider Heydər Əliyevin xeyir-duası ilə həyata vəsiqə almışdır. Bu gün Naxçıvan Dövlət Tarix Muzeyi, C.Məmmədquluzadə adına Ədəbiyyat Muzeyi, C.Məmmədquluzadənin, H.Cavidin, C.Naxçıvanskinin, B.Kəngərlinin ev muzeyləri, Dövlət Xalça Muzeyi, Açıq Səma altında Muzey, Naxçıvan Dövlət Rəsm Qalareyası, Xatirə Muzeyi, həmçinin rayonlarda fəaliyyət göstərən tarix-diyarşünaslıq muzeylərinin fondlarında ümumilikdə 81500-dən çox eksponat mövcuddur.

Heydər Əliyev böyük dövlət xadimi, nəhəng və ciddi siyasət adamı olmaqla yanaşı, həm də elmin və mədəniyyətin ardıcıl himayəçisi idi. Onun təşəbbüsü və iştirakı ilə muxtar respublikanın neçə-neçə ədəbiyyat, incəsənət və elm xadimlərinin yubileyləri keçirilmiş, onların fəaliyyəti yüksək dövlət mükafatları və fəxri adlarla qiymətləndirilmiş, abidələri ucaldılmışdır. Böyük tarixi şəxsiyyətlərin yubileylərinin keçirilməsinin əhəmiyyətindən bəhs edən Heydər Əliyev deyirdi: "Dünya birliyində, dünya xalqları arasında xalqımızın tarixini, mədəniyyətini, milli ənənələrini təbliğ etmək, yaymaq, sübut etmək üçün belə yubileylər həmişə böyük bir təsir vasitəsidir. Uzun illərin təcrübəsi göstərir ki, belə tədbirlər mənəviyyatın yüksəldilməsinə, insanların tariximizlə bağlı olmasına kömək göstərir" [2, s. 91-92].

Heydər Əliyevin dövlət rəhbəri kimi mədəniyyətin inkişafına göstərdiyi qayğı və diqqət təkcə sadalananlarla bitmir. Müstəqillik illərində Naxçıvan şəhərində istifadəyə verilən "Kitab evi" də mühüm mədəniyyət mərkəzi kimi, onun mədəni inkişaf strategiyasının Naxçıvanda davamı kimi diqqəti cəlb edir.

Heydər Əliyev tarixi abidələrimizi göz bəbəyi kimi qorumağı və mühafizə edib gələcək nəsillərə çatdırmağı daim tövsiyə edir və bu yolda mühüm tədbirlərin həyata keçirilməsinə böyük önəm verirdi. O, Azərbaycanın rəhbəri kimi bununla əlaqədar dəfələrlə tarixi qərarlar qəbul etmişdir. Bir çox tarixi abidələrimiz elmi-bərpa və təmir edilmiş, dövlət tərəfindən mühafizə altına alınmışdır.

Daim Naxçıvana diqqət və qayğı göstərən Heydər Əliyev bu diyarın çiçəklənməsi və inkişafı yolunda çox böyük işlər gördü. O, doğma elinə, obasına çox bağlı olan böyük insan idi. Onun səyi nəticəsində muxtar respublikada bir çox işlər görüldü.

Qədirbilən xalqımız Heydər Əliyevin bütün fəaliyyətini yüksək qiymətləndirmişdir. Onun doğulub boya-başa çatdığı, həyatının əhəmiyyətli bir dövrünü yaşadığı Naxçıvanda hazırda ən mühüm mədəni mərkəzlərdən biri məhz böyük liderin adını daşıyan Heydər Əliyev Muzeyidir. Görkəmli ictimai-siyasi xadim, dünya şöhrətli siyasətçi, Azərbaycan xalqının ümummilli lideri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilmiş Heydər Əliyevə böyük ehtiramın ifadəsi kimi həmin muzey Naxçıvan 18 fevral 1999-cu il tarixdə Naxçıvan şəhərində yaradılmışdır. 1999-cu il mayın 10-da fəaliyyətə başlayan Heydər Əliyev Muzeyi ümummilli liderimizin həyat və fəaliyyət fəlsəfəsinin, elmi-nəzəri irsinin, azərbaycançılıq ideologiyasının öyrənilməsi, təbliği və gələcək nəsillərə şatdırılması kimi şərəfli missiyanı üzərinə götürmüşdür və hazırda bu missiyanı uğurla həyata keçirir.

Ədəbiyyat

1. "Azərbaycan" qəzeti.
2. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 43 cilddə. Bakı: Azərnəşr, II c., 1997, 604 s.
3. Hacıyev İ.M., Həbibbəyli İ.Ə. Naxçıvanda elmin inkişafı // Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir – onu qoruyub saxlamalıyıq. Bakı: Elm, 2003, 288 s.
4. Qasımov Ə.Q. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər). Doktorluq dissertasiyasının avtoreferatı. Naxçıvan: 2011, 57 s.
5. "Şərq qapısı" qəzeti.

Ф.И.Джафарова

Гейдар Алиев и наше культурное наследие

Резюме

С приходом к власти в независимом Азербайджане Гейдара Алиева внимание было обращено на все сферы деятельности, имеющие непревзойденное значение для судеб нации. В истории независимости нашей страны Гейдар Алиев также был идеологом, инициатором, вдохновителем и организатором беспрецедентных новшеств в культурной жизни Азербайджана.

Одним из основных направлений деятельности Гейдара Алиева было создание новых музеев. По поручению и поручению великого лидера Гейдара Алиева были приняты очень важные решения по дальнейшему совершенствованию деятельности музеев.

Сегодня Нахчыванский государственный исторический музей, Литературный музей имени Дж. Мамедгулузаде, дома-музеи Дж. Мамедгулузаде, Г. Джавида, Дж. Нахчыванского, Б. Кенгерли, Государственный музей ковра, Музей под открытым небом, Нахчыванский государственный Картинная галерея, Мемориальный музей, а также действующие в регионах Исторические музеи созданы по инициативе великого лидера. В статье рассказывается о деятельности великого деятеля в этой области.

F.I.Jafarova

Heydar Aliyev and Our Cultural Heritage

Summary

With the coming to power of Heydar Aliyev in independent Azerbaijan, attention was paid to all areas of activity that are of unparalleled importance for the destiny of the nation. In the history of our country's independence, Heydar Aliyev was also an ideologist, initiator, inspirer and organizer of unparalleled innovations in the cultural life of Azerbaijan.

One of the main directions of Heydar Aliyev's activity was the establishing of new museums. On the instructions and instructions of the great leader Heydar Aliyev, very important decisions were made to further improvement in the activity of the museums.

Today, the Nakhchivan State History Museum, the Literary Museum named after J. Mammadguluzade, the home museums of J. Mammadguluzade, H. Javid, J. Nakhchivanski, B. Kangarli, the State Carpet Museum , Museum under the Open Sky, Nakhchivan State Art Gallery, Memorial Museum, as well as History museums functioning in the regions were created on the initiative of the great leader. The article talks about the activities of the great leader in this field.

Rəyçi: tarix f.d., dos. Ə.H.Cabbarlı

Redaksiyaya daxil olub: 05.03.2023

İ.Ə.ƏHMƏDOVA
baş müəllim
e-mail: ridvan_baku@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 34)

HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİNDƏ ROLU

Açar sözlər: *Heydər Əliyev, incəsənət, musiqi, mədəniyyət, xalq*
Ключевые слова: *Гейдар Алиев, искусство, музыка, культура, народ*
Key words: *Heydar Aliyev, art, music, culture, people*

"Xalqın incəsənət və mədəniyyət sahəsindəki nailiyyətləri Vətənini, millətini sevən hər bir şəxs üçün iftixar mənbəyidir".
Heydər Əliyev.[1]

Azərbaycan dövlətinin memarı və qurucusu Ümummilli Lider Heydər Əliyev özünün müstəqil bütün həyat və fəaliyyətini Azərbaycan xalqının və respublikasının hərtərəfli inkişafına, azərbaycançılıq ideyasının milli şüurda qərarlaşmasına, dövlət quruculuğuna, müstəqil dövlətçiliyin möhkəmlənməsinə və yüksəlişinə, Azərbaycanın müasir və sivil ölkə kimi qurulmasına və beynəlxalq aləmə inteqrasiyasına, müasir dünya düzənində millətimizin özünəlayiq yer tutmasına, dövlətin müstəqil daxili və xarici siyasət istiqamətlərinin müəyyən olunmasına, dünya azərbaycanlılarının milli birliyinə, Azərbaycan diasporunun yaranmasına həsr etmişdir.

Heydər Əliyevin xalqı və vətəni qarşısında ən böyük xidmətlərindən biri də milli mədəniyyəti, o sıradan musiqi mədəniyyətini inkişaf etdirməkdən, yaşatmaqdan, təbliğ etməkdən ibarət olmuşdur.

Heydər Əliyevin Azərbaycan musiqi mədəniyyəti və incəsənətinin inkişafı, təbliği, yüksəlişi sağlam ənənələr üzərində yeniləşməsi və müasirləşməsi, ənənəvi musiqi sərvətimizin qorunması və yaşadılması, yeni və müasir konsert salonlarının tikilməsi, peşəkar musiqi kollektivlərinin səmərəli fəaliyyəti, xalqlarla və ölkələrlə musiqi-mədəni əməkdaşlığın genişlənməsi, peşəkar musiqiçilərə yaradıcılıq şəraiti və imkanlarının yaradılması, musiqinin müxtəlif sahələri üzrə peşəkar kadrların yetişdirilməsi, musiqi əsərlərinin ifa olunması və nəşri, gənclərin musiqi-estetik tərbiyəsinin fəal və düzgün şəkildə qurulması onun siyasi və dövlətçilik fəaliyyətinin bütün dövrlərini əhatə edir.

Azərbaycan peşəkar musiqi incəsənətinin istər XX əsr sovet dönəmində, istərsə də yeni əsrin müstəqillik dövründə inkişaf mərhələlərini, tərəqqi yollarını və nailiyyətlərini, qazandığı mükafatları və təltifləri, bəxş etdiyi sənət əsərlərinin qiymətləndirilməsini Heydər Əliyev şəxsiyyətindən, onun mədəniyyət siyasətindən və xidmətlərindən, musiqi incəsənətinə və sənətkarlara diqqət və qayğısından, himayəsindən, bu sahədə həyata keçirdiyi milli lider və siyasi rəhbər missiyasından, onun azərbaycançılıq məfkurəsindən irəli gəlir.

Heydər Əliyevin həyata keçirdiyi inkişaf siyasətinin uğurlu nəticələri tezliklə bütün respublikamızda çoxlu sayda yeni mədəniyyət evləri, mədəniyyət sarayları, konsert salonları tikildi, opera və balet incəsənətinin inkişafına xidmət edən təhsil, mədəniyyət qurumları, binaları tikilib istifadəyə verildi.

Heydər Əliyevin fikrincə, xalq musiqisi, müğamlar bəstəkarlar tərəfindən daha çox işlənilərsə, bəstəkar yaradıcılığına, peşəkar ifaçılanın yaradıcılığına daha çox yol taparsa, onların dünya ictimaiyyətinə çatdırılması imkanları da genişlənər və biz müasir dünyaya qədim musiqi dəyərlərimizi bəstəkarlar vasitəsilə yeni texniki və bədii üsullarla da tanıtdıra bilərik.

Dəfələrlə Üzeyir Hacıbəyovun, Müslüm Maqomayevin, Bülbülün, Şövkət Məmmədovanın, Qara Qarayevin, Fikrət Əmirovun, Cövdet Hacıyevin, Niyazinin, Səid Rüstamovun, Raşid Behbudovun, Cahangir Cahangirovun, Tofiq Quliyevin, Arif Məlikovun, Vasif Adıgözəlovun, Vaqif Mustafazadənin, Zeynəb Xanlarovanın və b. yaradıcılığına qiymət verərkən, xalq-milli musiqisinə məhəbbətlə, ustalıqla yanaşdıqlarını vurğulamışdır.

Hər həftənin cümə günü Dövlət Filarmoniyasında respublikanın bütün dövlət və hökumət işçiləri, rayon və şəhər rəhbərləri, nazirlər və komitə sədrləri, mərkəzi komitənin bütün işçiləri üçün xüsusi konsertlər verilirdi. Bu konsertlərin bədii rəhbəri Niyazi idi. Her konsertdə onun dirijorluğu ilə dünya klassik musiqisi nümunələri, əsrin rus və Aropa bəstəkarlarının, Azərbaycan bəstəkarlarının əsərləri dinlənilirdi. Heydər Əliyev özünün təşəbbüsü ilə keçirilən bu konsertlərin hər birində iştirak edirdi. Çünki, mədəniyyəti, incəsənəti duya bilməyən, başa düşməyən, qiymətləndirməyən bu sahənin tərəqqisinə imkan yarada bilməz, incəsənətin milli inkişafdakı əhəmiyyətini dərk edə bilməz.

Əsər bitdikdən sonra bir qayda olaraq müəlliflə, ifaçılarla görüşmək, öz rəyini, təşəkkürünü, fikirlərini onlarla bölüşmək Heydər Əliyevin özünəməxsus ənənəsi, iş üslubu idi Məsələn, Ü.Hacıbəyovun "Leyli və Məcnun", "Koroğlu" operalarına, Qara Qarayevin "Yeddi gözəl", "lldırımlı yollarla", "Leyli və Məcnun", Fikrət Əmirovun "Min bir gecə" baletlərinə, "Sevil" operasına, Əfrasiyab Bədəlbəylinin "Qız qalası", Arif Malikovun "Məhəbbət əfsanəsi", "İki qaibin dastanı", Aqşin Əlizadənin "Babək" baletlərinə, Cahangir Cahangirovun "Xanəndənin taleyi" operasına tamaşa edən, D Şostakoviçin, D.Kabalevskinin, T.Xrennikovun, R.Şedrinin və milli bəstəkarlarımızın simfonik və kamera əsərlərini dinləyən, bəstəkar, dirijor və ifaçılarımızın yubileylərini və yaradıcılıq gecələrini xüsusi fərmanla və rəsmi göstərişlə təşkil edən Heydər Əliyev bu əsərlər, sənətkarlar haqqında olduqca qiymətli və musiqişünaslıq baxımdan çox maraqlı fikirlər söyləmiş, yaşlı, orta və gənc nəsil bəstəkarlar, ifaçılar haqqında yüksək rəylər vermiş, yeri gəldikcə tövsiyə və təkliflərini də demişdir.

Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə məhz onun təşəbbüsü, ideyası, rəsmi və qeyri-rəsmi icazəsi ilə televiziya və radioda gənclər və məktəblilər üçün ifaçılıq sənətinə, xarici, rus və Azərbaycan bəstəkarlarının əsərlərinə, musiqi janrlarına, bəstəkarlarla görüşlərə, musiqi tarixinə, muğamlara və xalq musiqisinə dair musiqi-maarifiandirici, bədii-tərbiyəvi verilişlərin təşkili, mətbuatda "Mədəniyyət universitetimiz", "Musiqi universiteti" rubrikalarının fəaliyyəti, Dövlət Filarmoniyasında, Dövlət Opera və Balet Teatrında hər həftənin şənbə və bazar günləri respublika məktəbliləri və ali məktəb tələbələri üçün xüsusi konsertlərin və tamaşaların təşkili, Konservatoriyanın opera studiyası nəzdində "uşaq musiqi teatrının", bəstəkar Oqtay Zülfüqarovun rəhbərliyi ilə "Tumurcuq" uşaq mahnı teatrının yaradılması, Bəstəkarlar İttifaqının xətti ilə 1970-ci ildən etibarən hər mart tətili günlərində ənənəvi Məktəblilərin musiqi həftəsinin keçirilməsi, Bəstəkarlar İttifaqı nəzdində böyük şöhrət qazanmış "Məktəbli filarmoniyası" nın yaradılması mərkəzdə və yerlərdə məktəblilər üçün "pionerlər evi" adlı yaradıcılıq və bədii özfəaliyyət evlərinin yaradılması və inkişafı, gənc istedadlar, ifaçılar, məktəblilər arasında musiqi müsabiqələrinə, olimpiadalara geniş vüsət verilməsi, aliməktəblərin özfəaliyyət kollektivlərinin, rayonların bədii və folklor kollektivlərinin təşkili və onların iştirakı ilə festivalların, müsabiqələrin, konsertlərin keçirilməsi, SSRİ və beynəlxalq miqyaslı nüfuzlu müsabiqələrdə Azərbaycandan olan istedadlı ifaçıların və bəstəkarların iştirakının təmin olunması, ifaçılıq sənətinin inkişafı haqqında qərar verilməsi, Bakı Musiqi Akademiyasında beynəlxalq müsabiqə qalibləri və istedadlı tələbələrlə, görüşləri, istedadlı gənclərin yaradıcılığına dövlət qayğısı haqqında xüsusi fərman imzalaması və s. bütün bu kimi yeniliklər, addımlar, tədbirlər, əlbəttə, Heydər Əliyevin tərəfindən siyasi rəhbər kimi bilavasitə gənclərin və məktəblilərin musiqi-estetik tərbiyəsinin, onların bədii mədəniyyətinin inkişafına hesablanmışdı.

Azərbaycanı tərənnüm edən əsərlərin-şerlərin, mahnıların, simfonik əsərlərin, rəsmlərin, tamaşaların yazılması, bu əsərlərin yaxşı təbliğ olunması və daim səslənməsi, onların

digər respublikalarda, mərkəzi şəhərlərdə keçirilən SSRİ miqyaslı tədbirlər zamanı ifa olunması, Üzeyir Hacıbəyovun ev-muzeyini yaratması, Üzeyir bəyə, Qara Qarayevə, Niyaziyə, Fikrət Əmirova və digər bəstəkarlara respublikada, SSRİ-nin mərkəzlərində təntənəli yubileylər keçirməsi, Dövlət Konservatoriyasının 50 illik yubileyini SSRl-də böyük musiqi bayramı səviyyəsində təşkil etməsi, yubileylərlə bağlı əsərlərin, kitabların nəşr olunması, Bakıda Nəriman Nərimanova, Üzeyir Hacıbəyova, Cəfər Cabbarlıya, Natavana heykəllər qoydurması, Şuşada Ü.Hacıbəyovun büstünün qoyulması, 18 sentyabrın Milli Musiqi Günü elan olunması və s. bu kimi addımlar Heydər Əliyevin strateji-siyasi məqsədinə əyani sübut ola bilər.

Prezident, Ulu Öndər Heydər Əliyev Azərbaycan mədəniyyətinin sağlam, sivil, milli və dünyəvi gələcəyini istedadlı, savadlı gənclikdə görürdü Müstəqil Azərbaycanın gənc istedadlarının incəsənətdə qazandıqları yeni-yeni nailiyyətlər, onu bir dövlət başçısı və milli lider kimi sevindirir, fərəhləndirirdi. Heydər Əliyevə həsr olunan Vasif Adıgözəlovun "Azərbaycan" kantatasını, Müslüm Maqomayevin "Azərbaycan", Rauf Hacıyevin "Azərbaycan" və s. musiqi əsərlərinin yazılması, Azərbaycan musiqi İncəsənətində Ümummilli Liderin obrazının yaradılması, müasir Azərbaycan mədəniyyətinin bədii həqiqəti, bədii faktıdır.

Heydər Əliyevə həsr olunan əsərlərin müəyyən hissəsi müstəqillik, vətənə, millətə sevgi, azadlıq və həmrəylik, qələbə mövzularımda yazılmışdır. Azərbaycan haqqında yazılan mahnıların Heydər Əliyevə həsr edilməsi də maraq doğurur. Bu mövzularda bəstələnmiş əsərlərin Ümummilli Liderə həsr edilməsi onun vətən, millat qarşısındakı tarixi xidmətlərinə bəstəkarlar tərəfindən verilən yüksək qiymətlə, onun müstəqil dövlət qurması ilə, bütün həyatını vətənə həsr etməsilə, Azərbaycanı dünyaya tanıtması ilə bağlıdır; Heydər Əliyev adının Azərbaycan, müstəqillik, milli taraqqi, vətən kimi anlayışlarla sinonimləşməsi ilə, Ümummilli Liderə əbədi ümumxalq məhəbbətinin tərənnümü ilə bağlıdır.

"Çox sevindirici haldır ki, Azərbaycanın böyük tarixə malik olan incəsənəti, musiqi sənəti hər il yeni istedadlar yetişdirir. Bu, xalqımızın mədəniyyətinin, incəsənətinin zənginliyini nümayiş etdirir". Heydər Əliyev [2]

Ədəbiyyat

1. "Musiqi dünyasi" jurnalı, 1-2/35, 2008, s.4-17
2. Səfərov Y. Heydər Əliyev və dövlətçilik ideoloqiyası, "Azərbaycan" qəzeti, 1998, 3 aprel
3. Məmmədova S. Azərbaycan musiqisinin inkişafında Heydər Əliyev mərhələsi, "Konservatoriya", №2, 2018.
4. Высокое искусство музыки: речь товарища Г.А.Алиева на торжественном вечере посвященном 60-летию государственного симфонического оркестра им.Уз.Гаджибекова., «Бакинский рабочий», Баку, 1982, 18 июля.
5. Пантелеев Г. Музыка и политика, М, «Советская музыка», 1991. №7, с.53-59.

И.А.Ахмедова

Роль Гейдара Алиева в музыкальной культуре Азербайджана

Резюме

В представленной статье обозначивается роль общенационального лидера Азербайджана Гейдара Алиева в музыкальной культуре республики. Отмечено его непосредственное участие в значимых событиях национального музыкального искусства. Результатом его заботливого отношения к деятелям искусства можно считать большое количество произведений, посвященных его великой личности, созданных видными представителями национальной культуры.

I.A.Ahmadova

Heydar Aliyev's role in Azerbaijan's musical culture

Summary

The presented article outlines the role of the national leader of Azerbaijan Heydar Aliyev in the musical culture of the republic. His direct participation in significant events of national musical art was noted. The result of his caring attitude towards artists can be considered a large number of works dedicated to his great personality, created by prominent representatives of national culture.

Rəyçilər: dos. K.R.Sədirxanova, dos. A.F.Aşumova

Redaksiyaya daxil olub: 12.05.2023

S.R.EYYUBOV
e-mail: ismayilova2007@internet.ru

Azərbaycan Turizm və Menecment Universiteti
(Bakı şəh., Koroğlu Rəhimov küç., 23/822)

AZƏRBAYCANDA TURİZM BAZARININ İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

Açar sözlər: *turizm, iqtisadiyyat, infrastruktur, turizm sektoru*
Ключевые слова: *туризм, экономика, инфраструктура, туристический сектор*
Key words: *tourism, economy, infrastructure, tourism sector*

Giriş. Hazırda Azərbaycanda turizm dinamik inkişaf edir. Bütün bunlar kurort zonalarının böyüməsinə və inkişafına kömək etdi. Bu ölkələrdə turizmin inkişafının müqayisəli təhlili göstərdi ki, Azərbaycanın üstünlüyü turizm agentliklərinin xeyli sayda olması, mənfi cəhətləri isə mehmanxana xidmətlərinin qiymətlərinin yüksək olması və əsasən xarici turizmin inkişafıdır.

Azərbaycanın cənub bölgələrində məhdud sayda mehmanxana, eyni zamanda cəlbedici resurslar və çimərlik turizminin daha intensiv inkişafı var. Təklif olunan turizm növlərindən biri də yenisi – ekoloji cəhətdən təzadlı və etno-türk turizmidir. Ekoloji cəhətdən təzadlı turizm növü düzgün ekoloji zehniyyətin formalaşmasını təmin edəcək, gələcəkdə ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadəni nəzərə alaraq ölkələrin iqtisadiyyatlarının inkişafında düzgün qərarların qəbul edilməsinə töhfə verəcək. Bundan əlavə, Xəzər regionunun turizm sahəsində inkişafı üçün birgə fəaliyyət tövsiyə olunur [2, s.74]. Azərbaycanda turizmin hazırkı vəziyyətinin təhlili göstərir ki, son illər bu sahə sabit və dinamik inkişaf edir. Daxili turizmdə hər il artım var. Ölkə daxilində turizm xidmətlərinə tələbatın sürətlə artması əsasən kurort rayonlarında mehmanxana tikintisinin artmasına, eləcə də Bakıda beynəlxalq mehmanxana şəbəkələrinin mehmanxanalarının sayının artmasına səbəb olub. Maraqlıdır ki, mehmanxana tikintisi üzrə investisiya təkliflərinin həcmində artım həm xarici, həm də yerli investorlar tərəfindən müşahidə olunur.Hazırda Azərbaycanda 170-dən çox turizm müəssisəsi fəaliyyət göstərirsə, 2002-ci ildə onların sayı cəmi 39 idi. Mədəniyyət və Turizm Nazirliyi "Azərbaycanda turizmin inkişafına dair 2016-2025-ci illər üçün Strategiya"nı hazırlayıb. Bu, ölkədə turizm sənayesinin hazırkı vəziyyəti və inkişafı ilə bağlı tövsiyələri, onun inkişaf potensialını, turizm sektorunun inkişafında dövlətin rolunu və dövlətlərarası əməkdaşlığın mümkün formalarını özündə əks etdirən siyasət sənədidir. Azərbaycanda turizmin gələcək inkişafı üçün lazımi ilkin şərtlər var. Azərbaycanda turizmin inkişafı üçün müsbət amillər bunlardır: əlverişli coğrafi mövqe; mülayim iqlim; inkişaf etmiş infrastruktura malik rekreasiya; təbii, unikal tarixi-mədəni, memarlıq obyektlərinin olması; kadrların mövcudluğu; dövlət tərəfindən lazımi dəstək; zəngin və rəngarəng mətbəxi [5, s.91]. Azərbaycanda sovet dövründə turizm ideoloji funksiyanı yerinə yetirən mədəni-maarif işi sisteminin elementlərindən biri idi. Dominant roluna baxmayaraq, o, qalıq əsasında maliyyələşdirilirdi və vacib qtisadi əhəmiyyətə malik deyildi. Azərbaycan həm daxili turizmin inkişafı, həm də xarici səyahətçilərin qəbulu üçün böyük potensiala malikdir. Burada sizə lazım olan hər şey var – nəhəng ərazi, landşaft zənginliyi baxımından müxtəlif, zəngin və maraqlı tarixi-mədəni irs, bəzi bölgələrdə isə qədim abidələr mövcüddür.

Ümumiyyətlə, Azərbaycanda turizmin inkişaf tendensiyaları əsasən oxşardır. Lakin son illər Azərbaycanda turizmin daha fəal inkişafı və sənayenin yüksək artım templəri müşahidə olunur. Azərbaycanda gəlmə və daxili turizm onun müxtəlif növləri ilə təmsil olunur. Turizmin ekoloji, aktiv, ekstremal, tarixi və koqnitiv növləri ən fəal şəkildə inkişaf edir. İşgüzar turizm də geniş vüsət alır. Təəssüf ki, Azərbaycan Respublikasında çıxış turizmi ölkəyə giriş

və daxili turizmi əhəmiyyətli dərəcədə üstələyir və bu göstəricidə əhəmiyyətli artım tendensiyası müşahidə olunur. Dünya turizminin inkişaf etdirilməsi təcrübəsi göstərir ki, bütün dövlətlər, ilk növbədə, gəlmə və daxili turizmin inkişafında maraqlıdır, çünki birinci növ dövlətin xəzinəsinə valyuta gəlirlərini, ikincisi isə maliyyə resurslarını toplamağa imkan verir.

Azərbaycan üçün daxili turizmin inkişafı vacibdir. Ölkəyə daxil olan turizm ölkə iqtisadiyyatına valyuta gəliri təmin edir. Daxili turizm ölkə əhalisinə öz gücünü bərpa etməyə imkan verir. Turizm gəlirlərini yerli istirahət obyektlərinə yönəltməyə və ölkənin daxili infrastrukturunu inkişaf etdirməyə imkan verir. Daxili turizm həm də maarifləndirici məqsəd daşıyıb, vətəndaşlarda vətənpərvərlik hissinin və öz ölkəsinə qürur hissinin artmasına töhfə verir. Azərbaycan vətəndaşları üçün əlçatan olan turların inkişaf etdirilməsi vəzifəsi xaricə səyahətin qiymətinin iki dəfə artması ilə əlaqədardır. Qalmaq məqsədi ilə gələn turist axınının təhlili göstərdi ki, qeyri-rezidentlərin 72,5%-i Azərbaycana işgüzar və peşəkar məqsədlərlə gəlir, turistlərin isə yalnız 20%-i Azərbaycana istirahət məqsədilə gəlirlər. Ölkəyə daxil olan turistlər kifayət qədər gəlir gətirirlər. Statistikaya görə, olduğu müddətdə bir əcnəbi turist respublikaya orta hesabla 700 ABŞ dolları qoyur. Əsasən standart turların inkişafına yönəlmiş turizm növləri üzrə eyni təkliflərə malik olmaqla, beynəlxalq bazarlarda artan rəqabəti nəzərə alaraq, yeni turizm növlərinin formalaşdırılması zəruri olur [1, s.42].

Azərbaycan hökuməti də turizm sənayesinə böyük sərmayələr qoyur ki, bu da bazarın möhkəmlənməsinə kömək edib. Hökumət müxtəlif marketinq kampaniyaları vasitəsilə Azərbaycanı turizm məkanı kimi tanıdır və sənayeni dəstəkləmək üçün infrastruktura da sərmayə qoyur. Məsələn, hökumət turistlərin ölkə daxilində səyahətini asanlaşdırmaq üçün yeni otellərin, hava limanlarının və nəqliyyat əlaqələrinin tikintisinə sərmayə qoyub. Azərbaycanın turizm bazarının güclü tərəflərinə baxmayaraq, aradan qaldırılmalı olan bəzi zəif cəhətlər də var. Ən əhəmiyyətli çatışmazlıqlardan biri də Azərbaycanın turizm məkanı olması barədə məlumatlılığın olmamasıdır. Dünyada bir çox insan bu ölkə ilə tanış deyil, bu da turistlərin cəlb edilməsini çətinləşdirir. Bu, xüsusilə Azərbaycanın o qədər də tanınmadığı Qərb ölkələrinə aiddir.

Azərbaycanın turizm bazarının digər zəif cəhəti turizm sənayesində müxtəlifliyin olmamasıdır. Azərbaycana gələn turistlərin əksəriyyəti Rusiya və İran kimi qonşu ölkələrdəndir. Bu turistlər vacib olsa da, Avropa və ABŞ kimi digər bölgələrdən də turistlərin cəlb edilməsinə ehtiyac var. Bunun üçün əhəmiyyətli marketinq səyləri və infrastruktura investisiya tələb olunacaq [3, s.32].

Azərbaycanın turizm bazarının üzləşdiyi çətinliklərə baxmayaraq, inkişaf üçün çoxlu imkanlar mövcuddur. Ən əhəmiyyətli imkanlardan biri dayanıqlı turizmin artan tendensiyasıdır. Getdikcə daha çox turist ekoloji cəhətdən təmiz və davamlı turizm variantları axtarır və Azərbaycanın bu cür təcrübələri təklif etmək potensialı var. Məsələn, ölkənin milli parklarını ekoturizm məkanları kimi tanıtmaq olar ki, burada turistlər ölkənin təbii gözəlliklərindən həzz ala, həm də qorunma səylərini öyrənə bilərlər.

Nəticə. Azərbaycanda daxili və gəlmə turizmin xüsusi çəkisinin artırılması zərurətindən çıxış edərək, yeni variantda təklif olunan turizmin prinsipcə yeni, eləcə də nisbətən inkişaf etməmiş növlərinin inkişafına diqqətin artırılması məqsədəuyğun hesab edilir. Bu, ekoloji turizmlə yanaşı, həm maarifləndirici, həm elmi, həm də tamamilə yeni – etno-türk turizmidir. Etno-türk turizmi birgə inkişaf etdirilə bilər, çünki ölkələrin hər biri təkcə müəyyən resurslara deyil, həm də turistləri cəlb edən tarixi xüsusiyyətlərə malikdir. Bunun üçün ilk növbədə, Azərbaycanda orijinal etnik kəndin yaradılması lazımdır.

Ədəbiyyat

1. B.A.Bilalov tərəfindən turizm menecmenti. Bakı, 2005 Tərcüməçi, s. 34-60
2. Azərbaycanın Xəzər sahili boyu turizm və rekreasiya resursları, V.Dərgahov. Bakı, 2003. s. 32-55
3. S.Eqanlı, E.Hacıyev. Turizm. Bakı: ABU, 2006. s. 11-30

4. A.Q.Əlirızayev. Turizm iqtisadiyyatı və menecmenti. Bakı: Universitetdə İqtisadiyyat nəşriyyatı, 2010.
5. B.A.Bilalov, Ç. Güləliyev. Turizmin əsasları. Bakı, 2015.
6. F.İ.Qurbanov. "Azərbaycanda turizmin inkişafı problemləri". Bakı: Adiloğlu nəşriyyatı, 2007.

С.Р.Эюбов

Пути развития туристического рынка в Азербайджане

Резюме

Одним из самых быстрорастущих секторов экономики во всем мире является туризм. Одной из устойчивых и долговременных тенденций, сопровождающих становление и развитие мировой экономики, является неуклонно растущее влияние сферы туризма как на мировую экономику в целом, так и на экономики отдельных стран и регионов. В настоящее время туризм стал важной самостоятельной отраслью экономики, его развитие позволит не только наполнить бюджет, но и позволит развивать инфраструктуру и смежные отрасли, удовлетворять спрос населения на рекреационные услуги, создавать рабочие места, что особенно важно для стран. В статье рассматриваются пути развития туристического рынка в Азербайджане.

S.R.Eyyubov

Ways to develop the tourism market in Azerbaijan

Summary

One of the economic sectors that is growing the fastest around the globe is tourism. One of the enduring and long-term trends that has accompanied the formation and development of the global economy is the steadily growing impact of the tourism sector on both the global economy as a whole and the economies of specific nations and regions. Currently, tourism has become an important independent sector of the economy, its development will not only fill the budget, but also allow the development of infrastructure and related industries, the satisfaction of the population's demand for recreational services, and the creation of jobs, which is especially important for countries.The article examines ways of developing the tourism market in Azerbaijan.

Rəyçi: p.ü.f.d., dos. X.Vahabova

Redaksiyaya daxil olub: 15.05.2023

A.Ə.MEHDİYEVA
tarix üzrə fəlsəfə doktoru, dosent
e-mail: ayten-69@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

NİDERLAND FENOMENİ (ORTA ƏSRLƏR VƏ MÜASİR DÖVR)

Açar sözlər: *Niderland, fenomen, iqtisadi inkişaf, Orta əsrlər, müstəqillik, təsərrüfat, İslahatçılıq hərəkatı*
Ключевые слова: *Нидерланды, феномен, экономическое развитие, Средневековье, независимость, хозяйство, Реформистское движение*
Key words: *Netherlands, phenomenon, economic development, Middle Ages, independence, economy, movement of Reformation*

Azərbaycanla Niderland arasında əlaqələr qədim tarixə malik olmuşdur. Niderlandlı səyahətçilərin Azərbaycana gəlişi ilə bağlı məlumatlara artıq XV əsrdə rast gəlmək mümkündür. Azərbaycanda istehsal olunan qobelen və süjetli xalçalar regiona səfər edən flamand missionerlərini heyran etmiş və XV əsr Niderland rəssamı Hans Melminqin rəsmlərində öz əksini tapmışdır. Suraxanıda Atəşgah məbədində rast gəlinən yazılar arasında XVII əsr holland dənizçisi, bu torpağa gəlib çıxmış Jan Janzon Strujsa aid ifadələri görmək mümkündür. XVIII əsr ticarət karvanları ilə ölkəmizə gələn səyyah Kornelis de Bruynu da diqqətdən kənarda qoymaq olmaz [6, s.7].

Dünya okeanında baş vermiş hadisələr Niderlandın coğrafi "landşaft"ını dəyişmişdir. Eyni zamanda insanın "fəaliyyət"i də Niderlanda müəyyən təsir göstərmişdir. Yerin təkindən torfun çıxarılması, yaranan boşluqların su ilə dolması və s. hadisələr bu torpaqda yaşayış, o cümlədən kənd təsərrüfatının inkişafını ləngitmişdir. Bu səbəbdən Niderland əhalisi terp adlanan xüsusi yüksəkliklər yaratmağa məcbur olmuşdur. Dambaların tikintisi və qurutma kanallarının çəkilişi qurunun dəniz sularından qorunmasına xidmət edirdi. Qeyd olunan bu proses XV-XVII əsrlərdə daha da inkişaf etdirilmiş və polder sistemi vasitəsilə həm aqrar sahə, həm də onun zooloji sistemi formalaşdırılmışdır. Torpaq landşaftının bərpası və kənd təsərrüfatı sahəsində balanslı idarəçilik sisteminin yaradılmasında əldə olunan uğurların müasir dövrdə istifadə edilməsi üçün tarixi təcrübəyə müraciət etmək zərurəti hər zaman aktualdır.

Niderlandın təsərrüfat həyatı təbii şəraitdən asılı olmuşdur. Ölkənin şərq və cənub hissəsində təbii sərhədlər olmamış, şimal və qərbdə isə Şimal dənizinin sərhəd təşkil etməsi, bir tərəfdən, dinc əlaqələrin yaradılmasına kömək edirdisə, digər tərəfdən, düşmən hücumunun qarşısını ala bilmirdi. Ovalıq əraziyə malik olan Niderland, əsasən, marşlar (bataqlıq düzənliklər), geyestlər (qumlu təpələr), dünalar (qumdan təpələr), geniş bataqlıq və məskunlaşmamış ərazilər, meşələr və təbii faydalı qazıntılardan (kömür, daş, minerallar, duz və s.) məhrum olan regionlardan biridir.

XV-XVII əsrlərdə Niderlandda iqtisadi və coğrafi inkişaf üçün şərait var idi. Lakin münbit torpaqlar çox az idi və taxıl əkini üçün əlverişli deyildi. Torpaq "dənizlə mübarizə" vasitəsilə əldə edilirdi. Bu səbəbdən Niderland taxıl idxalı ilə məşğul olurdu. Ölkədə, əsasən, maldarlıq, ət və süd məhsullarının istehsalına maraq göstərilirdi.

Niderlandda kənd təsərrüfatı və sənayenin inkişafına çayların zəif və üfüqi axını mane olur və su enerjisindən istifadəyə imkan vermirdi. Bu səbəbdən yel dəyirmanları vasitəsilə torpaqlar qurudulur və sudan suni enerji alınırdı [1, s.30].

Kənd təsərrüfatının inkişafına təsir edən tarixi – siyasi amilləri də nəzərə almaq lazımdır. Mərkəzləşmənin zəif olması, siyasi mərkəzin tam formalaşmaması, iqtisadi pərakəndəlik və s. öz təsirini göstərirdi. Son orta əsrlərdə Niderlandın Şimali Avropada yeganə respublika

olması iqtisadi inkişaf sahəsində azadlıqları artırırdı. Daimi ordu və bürokratik aparatın olmaması, dövlət və şəxsi təsərrüfat həyatının bir-birilə əlaqələnməsi və dövlətə "böyük ticarət şirkəti" möhürünün vurulması cəmiyyətin daxili strukturu və xarakterinin müəyyən edilməsinə səbəb olmuşdur.

XV-XVII əsrlərdə Niderland xalqının azadlıq, müstəqillik və dünya bazarı uğrunda apardığı iqtisadi mübarizə prosesində müxtəlif amillər, o cümlədən dini, siyasi və iqtisadi elementlərin birləşməsi və ya bir-birinə müqavimət göstərməsi mühüm rol oynamışdır. Orta əsrlər dövründə formalaşan ticarət amili həlledici rola malik olmuşdur. Belə ki, Utrext uniyası (1579) və Vestfaliya sülhü imzalandıqdan sonra Niderlandda (Birləşmiş Əyalətlər Respublikası) hakimiyyətin iri ticarət burjuaziyasının əlində cəmlənməsi təsadüfi xarakter daşımamışdır [2, s.208].

İqtisadi baxımdan müstəqil və güclü xalqın öz varlığını qorumağa müvəffəq olması ticari fəaliyyət perspektivlərini müəyyənləşdirməyə imkan vermişdir. Bu zaman xalqa kalvinist dünyagörüşünün təsirini də nəzərə almaq gərəkdir. XV əsrdən başlayaraq müstəqillik və azadlıq tendensiyaları niderlandların fəaliyyətini istiqamətləndirən əsas cəhətlərdən biri olmuşdur. Bu cəhəti avropalılar müxtəlif formada dəyərləndirmişlər. Belə ki, 1618-ci ildə venetsiyalı tacirin sözlərinə görə, hollandlar arasında təsvirolunmaz hərislik və tamah (avidita e avarizia) hökm sürürdü ki, bu da Kalvinin doqma və təliminə əsaslanırdı [1, s.35].

XV-XVI əsrin ortalarından Niderlandın kənd təsərrüfatının inkişafında yeni mərhələ başlanmışdır. Siyasi azadlıq, islahat, monastırların bağlanması, ticarət və gəmiçiliyin sürətli inkişafı, şəhərlərin əhəmiyyətinin artması və s. amillər kənd təsərrüfatının yeni inkişaf mərhələsinin başlanmasına səbəb olmuşdur. İqtisadi və sənaye cəhətdən inkişaf edən ölkənin qərb hissəsindən şərqə doğru uzanan və kənd təsərrüfatı ilə məşğul olan rayonlarında inkişaf zəif gedirdi. Frislandiya, Xroningen və digər regionlarda yağ, pendir, taxıl və s. məhsullar istehsal olunurdu.

Niderlandda İslahat ideyaları, əsasən, kilsə sinodlarının səyi nəticəsində yayılırdı. Bu fonda Xroningen, Hollandiya və Zellandiyada torpaqlar icarəyə verilirdi. Drent, Overeysel və Gelderndə patriarxal münasibətlər hökm sürürdü [1, s.51].

XVI əsrin birinci yarısında imperator V Karlın dövründə Niderland Avropanın iqtisadi baxımdan ən qabaqcıl ölkələrindən biri idi. Niderland Müqəddəs Roma imperiyası xəzinəsinin 45%-ni ödəyirdi. Bu isə Amerikadan gələn gəliri dəfələrlə üstələyirdi [8, s.115].

XVI əsrin ikinci yarısında azadlıq uğrunda mübarizə aparılan dövrdə ölkənin şərq və qərb rayonlarında Oranlı Vilhelm və İspaniya qoşunları arasında hərbi əməliyyatlar, yaranmış vəziyyət və s. amillər vəziyyəti gərginləşdirirdi. Eyni zamanda yeni yaradılan BƏR-da (1579) siyasi idarəçiliyin iqtisadiyyatın maraqlarına uyğun olması, bütün hakimiyyətin yalnız stathauderlərin əlində cəmlənməməsi, stathauder – Baş pensionarilərin bir-birinin hakimiyyətini məhdudlaşdırması, ölkə parlamenti – Baş Ştatların mövcud olması, əslində, iqtisadi və siyasi hakimiyyətin əlaqələnməsinə şərait yaradırdı [5, s.141].

XVI-XVII əsrlərdə Niderlandın kənd təsərrüfatının xarakterik xüsusiyyətlərini göstərmək olar:

- İri təsərrüfatlar şəhərdən kəndlərə köçürdü;
- XVI və XVII əsrlərdə iri bəndlərin salınması tacirlər tərəfindən həyata keçirilirdi;
- Erkən kapitalist müəssisələri formalaşırdı;
- İri təsərrüfatlarda gül soğancıqlarının yetişdirilməsinə şəhər kapitalı da cəlb edilirdi;
- Kənd təsərrüfatında islahatçılıq ləng inkişaf edirdi, lakin monastır və orden torpaqlarının dünyəviləşdirilməsi, qraf domenlərinin satılması vəziyyəti tədricən dəyişirdi;
- Xroningen, Hollandiya və Zellandiyada əmtəə xarakterli təsərrüfatların yaranması və inkişafı kəndliləri bir tərəfdən, torpağa bağlamırdısa, digər tərəfdən, onun becərdiyi torpağı uzun müddət əldə saxlamağa imkan vermirdi;

➢ Drent, Overeysell və Geldern patriarxal münasibətlərin hökm sürdüyü əyalətlər hesab edilirdi;

➢ Müstəqillik uğrunda aparılan müharibə ölkənin şərq və şimal əyalətlərinin kənd təsərrüfatında ciddi fəsadlara səbəb olurdu;

➢ Hollandiya və Qərbi Frislandiya əyalətlərində bənd quruculuğu işlərinə ciddi münasibət bəslənməsi bu ərazilərin dəyişilməsini şərtləndirirdi;

➢ XVII əsrin birinci yarısında Qərbi Frislandiyada batalıqlar tamamilə quruduldu.

Müasir dövrdə dünyada su resurslarının idarə edilməsi ciddi qlobal problemlərlə üzləşir. İqlim dəyişikliyi, iqtisadi inkişaf və s. amillər su sistemləri ilə bağlı məsələlərə diqqəti artırmağın vacibliyini göstərir. Bu proses xüsusilə düzənlik, delta, dəniz sahili, çaylar boyunca salınmış və əhalinin daha çox cəmləndiyi ərazilərdə özünü büruzə verir. Ona görə də təbii su sistemlərinin düzgün idarə olunması hakimiyyət orqanları qarşısında duran əsas problemlərdən birinə çevrilmişdir. Ona görə də yalnız müasir dövrdə baş verən hadisələrə deyil, eyni zamanda problemlərlə yüz illər boyu mücadilə aparan xalqların tarixi keçmişinə müraciət etmək doğru olardı. Bu xalqlardan biri niderlandlardır. Bu xalq haqqında danışarkən ilk növbədə "Tanrı dənizi, hollandlar (niderlandlar) sahili yaratmışlar" kimi atalar sözünü xatırlamaq gərəkdir. Avropada məşhur olan bu atalar sözünün əsasında dənizlə mübarizə aparan cəsarətli, qəhrəman və zəhmətkeş xalqın tarixi dayanır.

Niderlandın mərkəzi və əyalət orqanları bələdiyyələrlə birgə 26 su təsərrüfatı idarəsi dördüncü hakimiyyət institutunu təşkil etmişdir [4, s.12]. Su təsərrüfat və regional su orqanları urbanizasiyanın yüksək olduğu Niderlandda daha çox tanınmış orqanlar hesab olunur. Su təsərrüfatlarının idarə olunmasının holland modeli beynəlxalq miqyasda vergilərin balanslaşdırılması üçün modelləşdirilmiş sistem kimi qəbul edilir, maliyyə baxımdan müstəqil olub inkişaf tarixinə malikdir və çox dayanıqlıdır. Niderlandda su təsərrüfatlarının idarə edilməsi 800 illik tarixə malikdir. Torpaq sahələrinin böyük hissəsi dambalarla Şimal dənizindən "alınmışdır". Müasir dövrdə də həmin təcrübədən uğurla istifadə edilir. Bununla əlaqədar olaraq Son orta əsrlərdə Niderlandda kənd təsərrüfatı (Cədvəl 1) və XVI əsrin ikinci yarısında Hollandiyada qurudulan torpaqlarla (Cədvəl 2) əlaqədar xarakterik cəhətləri bu formada sistemləşdirmək mümkündür.

Subasmalarına məruz qalırdı	Dənizçilik və kənd təsərrüfatı ilə məşğul idi	Miqrantlar kənd təsərrüfatını inkişaf etdirirdi	Torpaq ehtiyatlarına tələb böyük idi	Dövlət subsidiyaları kənd təsərrüfatını inkişaf etdirirdi
Hollandiya Zellandiya Xroningen Frislandiya Drent	Frislandiya	Zellandiya	Hollandiya	Brabant

Cədvəl 1. Son orta əsrlərdə Niderlandda kənd təsərrüfatında vəziyyət

İllər	Vasitələr	Əldə olunan torpaq sahəsi	Torpaqlar aid idi	Dənizin qurudulmasını həyata keçirirdi	Qurudulan ərazi
1565-1590	Dənizin qurudulması (Əlverişsiz illər)	8046 hektar	Şimali Hollandiya	Nicolas de Nicolay Van Bokqolt	Zeyp körfəzi (1598)
1590-1615	Dənizin qurudulması və bəndlərin salınması	36213 hektar	Şimali Hollandiya	Villem Usselinks Dirk van Oss	Bemster (1612)

Cədvəl 2. Hollandiyada qurudulan torpaqlar

Şimal əyalətlərinin əksəriyyətində yaranan torpaq münasibətlərinin bəzi xüsusiyyətləri var idi. Burada hələ qədimdən azad kəndlilərin sayının çoxluğu və onların öz torpaqlarının sahibi olması faktı diqqəti cəlb edirdi. Mülkədarların əlində olan torpaqların sahəsi məhdud idi. Hollandiya, Zellandiya və Frislandiyada katolik kilsəsi və mül-kədarlara məxsus ərazilər bu torpaqlarda istifadə olunan torpaq sahələrinin 20-25 %-ni təşkil edirdi [7, s.20-21].

Su resurslarının idarə olunması və inkişafı dünya xalqlarının tarixində həmişə mühüm əhəmiyyətə malik olmuşdur. Bu sahədə hər xalqın öz tarixi keçmişi vardır. Onun öyrənilməsi müasir dövrdə kənd təsərrüfatının inkişafı sahəsində rastlanan müxtəlif problemlərin həllinə öz töhfəsini verə bilər. Bu baxımdan mühüm nailiyyətlər qazanmış Niderlandın su təsərrüfatının idarəçilik modelinin tarixi inkişafına nəzər yetirmək zəruridir.

Müasir dövrdə külək dəyirmanları, kanallar, zambaqlar, "Qauda" pendiri və ağac başmaqlar ölkəsi kimi tanınan Niderland kənd təsərrüfatı məhsullarının ixracına görə ABŞ və Fransadan sonra dünyada III yeri tutur. Burada hər nəfərə 45 min dollar (2007) dəyərində istehsal edilən ümumi daxili məhsul dünyada ən yüksək göstəricidir. Kənd təsərrüfatının yeri və payı burada böyükdür. Eyni zamanda kənd təsərrüfatının ölkə iqtisadiyyatında xüsusi çəkisi 9,4% olsa da, əhalinin cəmi 3,5 %-i bu sahədə çalışır. Kənd təsərrüfatına yararlı torpaqların xüsusi çəkisi 50 %-dir [3, s.7].

Müasir dövrdə Niderlandın kənd təsərrüfatının xarakterik xüsusiyyətlərini göstərmək olar:

- Torpağın hər hektarına görə istehsal olunan məhsul Avropa İttifaqı ölkələri üzrə orta statistik göstəricidən 3 dəfə artıqdır;
- Ölkə istehsalın intensivliyi və yüksək məhsuldarlıq səviyyəsi ilə əlaqədar kənd təsərrüfatı məhsullarının artım tempinə görə dünyada qabaqcıl mövqeyə malikdir;
- Kənd təsərrüfatı torpaqlarının 65 %-i xüsusi mülkiyyətdir və icarə münasibətləri geniş yayılmışdır;
- Kənd təsərrüfatı yüksək infrastrukturu və peşəkar işçi qüvvəsilə fərqlənir;
- Niderlandda çox sayda mükəmməl kənd təsərrüfatı üzrə təhsil verən institutlar şəbəkəsi mövcuddur və fermerlər elmi nailiyyətlərdən istifadə edirlər;
- Fermer təsərrüfatlarının inkişafına kooperativlərin fəaliyyəti ciddi təsir göstərir;
- XXI əsrin əvvəllərindən ölkədə meqafermaların sayı artaraq təxm. 2000-ə çatmışdır;
- Niderlandda kənd təsərrüfatına yararlı torpaqların 32 %-i otlaqlardan ibarətdir. Dənizdən "alınan" torpaqlarda 5 milyondan artıq ev heyvanı saxlanılır;
- Hər il ölkədən 5 milyard avro dəyərində süd məhsulları ixrac olunur. Ölkənin süd istehsalını artırmaq üçün böyük potensialı vardır;
- Əkin torpaqlarının kənd təsərrüfatına yararlı hissəsi 17% təşkil edir, əkilməyən sahələr yoxdur, tərəvəz və gül-çiçək ixracatından ildə 12 milyard avro gəlir əldə edilir;
- Kartof və un məhsullarına görə Avropada ən böyük istehsalçı olan Niderland adambaşına düşən kartof istehsalına görə dünyada II yeri tutur [3, s.7].

Beləliklə, Niderland təcrübəsi dünya ölkələrinin kənd təsərrüfatı və su resurslarının idarə edilməsində olduqca səmərəlidir. Niderland sisteminin tətbiqindən yalnız maddi rifah halının yüksəlişi deyil, həm də regionda insan amili asılıdır. Uzun illər ərzində Niderlandda fermerlərə böyük hörmət və ehtiram göstərilmiş, kənd təsərrüfatı şərəfli sahə olmuşdur. Bu prosesdə formalaşan "quru ayaqlar" anlayışı insanın təbiət qüvvələrinə qarşı mübarizəsini əks etdirir. Polder fəlsəfəsi isə lokal və ya regional deyil, ümummilli səviyyədə bu problemin həlli zərurətini ortaya çıxarır. Su təsərrüfatı strukturu və idarəçiliyin demokratik prinsiplər əsasında təşkili, özünü maliyyələşdirmə sistemi, unikal su təsərrüfatlarında holland bank idarəçiliyinin yaradılması və s. hadisələrin tarixi köklərinin əhəmiyyətinin dərk edilməsi və onların müasir dövrlə əlaqələndirilməsi gərəkdir.

Ədəbiyyat

1. Бааш Э. История экономического развития Голландии в XVI – XVIII веках. Пер. с нем. Н.М.Сегаль и О.К.Рыковской. Москва: Изд-во ИЛ, 1949. – 394 с.
2. Бауман Г.Г. Великая Французская революция и Нидерланды // Французская революция XVIII века: экономика, политика, идеология. Москва: Наука, 1988, с. 208-231.
3. Hacıyev M. Niderland dünyanın ən varlı ölkəsidir // Xalq qəzeti. – 2009. – 10 aprel.- S. 7.
4. Herman Havekes, Fon Koemans, Rafael Lazaroms, Rob Uijterlinde. Water Governance. The Dutch waterschap model (Водное самоуправление. Голландская модель управления водного хозяйства). Симферополь: ДИАЙПИ, 2010. – 77 с.
5. Осколков П.В., Шишулина Л.Е. Политическое лидерство в Нидерландах: От статхаудеров до правых популистов. С. 141 – 156 [Электронный ресурс]. Режим доступа: https: //cyberleninka.ru/article/n/politicheskoe-liderstvo-v-niderlandah-ot-stathauderov-do-pravyh-populistov.
6. Ölkələrimiz arasında əməkdaşlığı genişləndirmək üçün böyük potensial var // Mədəniyyət. – 2011. – 05 oktyabr. – S. 7.
7. Şahmalıyev Ə.M. Niderland burjua inqilabı tarixinə dair. Bakı: ADU mətbəəsi, 1966. – 59 s.
8. Шатохина – Мордвинцева Г.А. История Нидерландов. Москва: Дрофа, 2007. – 510 с.

A.A.Мехтиева

Феномен Нидерландов
(Средневековье и современность)
Резюме

Каждое событие имеет исторические корни. В этом отношении Нидерланды, являющиеся одной из известных стран Европы в современном периоде, не считаются исключением. От внедрения голландской системы зависит не только улучшение материального благосостояния страны, но и человеческий фактор в регионе. Агломерация Рандстад, созданная Амстердамом, Гаагой, Роттердамом и Утрехтом, еще больше повысила историческое значение страны на европейском уровне. Очень важно изучить историю этого государства, основанного в Позднем Средневековье, и сопоставить ее с современным периодом.

A.A.Mehdiyeva

The Netherlands Phenomenon
(The Middle Ages and the modern period)
Summary

Every event has historical roots. From this point of view, the Netherlands considered as well-known countries of Europe in modern period is not an exception. Not only the improvement of material well-being of the country, also the human factor in the region depends on the implementation of the Dutch system. The Randstad agglomeration created by Amsterdam, Hague, Rotterdam and Utrecht has further increased the historical importance of the country on the European level. It is very important to study the history of this state created in the late Middle Ages and compare it with modern period.

Rəyçi: prof. N.C.Mehdiyeva

Redaksiyaya daxil olub: 01.04.2023

S.C.NOVRUZƏLİYEVA
filologiya üzrə fəlsəfə doktoru, baş müəllim
e-mail: sevda.novruzaliyeva@mail.ru

N.Ə.ƏLİYEVA
baş müəllim
e-mail: nusabe.alıyeva@.ru

Azərbaycan Tibb Universiteti
(Bakı şəh., Səməd Vurğun, 167)

KOMMUNİKASİYA VƏ XOŞBƏXT YAŞAMANIN YOLLARI

Açar sözlər: *kommunikasiya, xoşbəxt yaşam, səbr, şükür, comərdlik, sevgi, internet resursları.*
Ключевые слова*: коммуникация, счастливая жизнь, терпение, благодарность, щедрость, любовь, интернет-ресурсы.*
Key words: *communication, happy life, patience, gratitude, generosity, love, internet resources.*

Giriş. Dünyaya gələn hər bir insan xoşbəxt olmağı arzulayır. Bu istək yaranış baxımından insanın genkodlarına yazılıb. Xoşbəxt olmaq həyatını sərvət yığmağa sərf etmək deyil. Xoşbəxt olmaq başqasının bədbəxtliyi üzərində öz xoşbəxtliyini qurmaq deyil. Xoşbəxt olmaq rüşvət almaq və ona vasitəçi olmaq deyil. Xoşbəxt olmaq həyatını dedi-qoduya, paxıllığa, pislik etməyə, qisas almağa, kin bəsləməyə, naşükürlük etməyə, təkəbbür sərgiləməyə yönəltmək deyil.

İnsan o zaman xoşbəxt olur ki, biliyini, bacarığını, istedadını, gücünü təkcə özünə və yaxınlarına yox, kommunikativ prosesdə qarşılaşdığı hər kəsə yönəldir. İnsan faydalar əldə edəndə yox, düz yollarla başqalarına faydalar verəndə və bu gözəl işdən sevinərək mənəvi zövq alanda gerçək anlamda xoşbəxt olur. İnsan psixologiyasının dərin bilicisi olan dahi rus yazarı Lev Tolstoy (1828-1910) yazırdı ki, "*İki arzunun yerinə yetməsi insanı gerçək anlamda xoşbəxt edə bilər – faydalı olmaq, təmiz bir vicdana sahiblənmək" [1].*

İnsan yeyəndə yox – yedirdəndə, sevinəndə yox – sevdirəndə, rahatlananda yox – rahatladanda, eldən üz döndərəndə yox – elə üz tutanda, arxalıya arxa olanda yox – arxasıza arxa olanda, fayda alanda yox – fayda verəndə hamının sevimlisi olaraq xoşbəxt olur. Dünyaca tanınan danimarkalı yazar Hans-Kristian Andersen (1805-75) xoşbəxt olmanın tək yolunu bunda görür ki, "*Dünyaya fayda yetirmək xoşbəxt olmanın tək yoludur" [2].*

Ancaq özünü düşünən, hər nədə öz faydalarını güdən bir insan zəngin ola bilər, tanınan ola bilər, əsla xoşbəxt ola bilməz. Nizami Gəncəvi ümumbəşəri poeziyası ilə özünə yox – dünya mədəniyyətinə, Üzeyir Hacıbəyli milli bəstələri ilə özünə yox – bütün Azərbaycana, Heydər Əliyev dövlət quruculuğunda uzaqgörən siyasəti ilə özünə yox – bütöv Azərbaycana, Mübariz İbrahimov düşmənlə ölüm-dirim savaşında şəhid olub Milli Qəhrəman olanda özünə yox – Azərbaycana xidmət ediblər. Dünyasını dəyişən bu dörd insan xoşbəxtdir, çünki Azərbaycan var olunca, onlar xoş duyğularla anılacaqlar, o taylı-bu taylı Azərbaycan insanları onların pak ruhlarına zaman-zaman rəhmət oxuyacaqlar. Eramızın 1-ci əsrində Roma filosofu Lutsi-Anney Seneka doğru buyurub ki, *"Ancaq özünü düşünən və hər nədə öz faydalarını güdən bir insan xoşbəxt ola bilməz. Özün üçün yaşamaq istəsən, başqaları üçün yaşa"[3].*

Səbir və xoşbəxt yaşam.

Xoşbəxt yaşam üçün gərək olan meyarların başında səbir durur. Səbir dünya adlı fırtınalı bir dənizdən sahilə sağ-salamat çıxmaq üçün mənəvi bir gəmidir. Dilindən, dinindən, dünyaya baxışından, tutduğu vəzifədən asılı olmayaraq hər kəs öz dilində Tanrısına dua edərək nəsə istəyir. Bəşər özünü tanıyan və nitqə sahib olan zamandan bu günə kimi bunu

edib və dünya durduqca, edəcəkdir. Hər istəyin gerçəkləşməsi bir hikmətin gerçəkləşməsindən keçir. Niyəsi bilinməyən hikmət (səbəb) bir istəyin gerçəkləşməsinə yol vermirsə, insan gərək tələsməsin, alın yazısından inciməsin, ona-buna gileylənməsin.

İnsan bilməlidir ki, hamını yaradan Tanrı hamının istəyini qarşılayır, amma zaman çərçivəsində. Zamanın nə deyəcəyini, nə edəcəyini ancaq səbir deyə bilər. Yer var, zamanın dilindən davranan Tanrı istəyənə "hə" deyir, yer var "yox" deyir, yer var "səbir elə" deyir. Bu yanaşmanın üçü də yaxşıdır, digəl ən yaxşısı üçüncüdür, çünki o, Tanrının zaman adlı ocağında gərəyincə bişib. Söz ağızda, meyvə ağacda, dilək zaman ocağında bişirsə, gözəl-tamlı-dəyərli-faydalı olur. İnsan psixologiyasını, duyğularını dərin bilən, xoşbəxt olmaq üçün ona qurtuluş yolunu göstərən Mevlana Rumi (1207-73) buyurur ki, *"Uca Tanrı üç yolla istəkləri qarşılayır. "Hə" deyir və sənin istədiyini verir. "Yox" deyir və daha yaxşısını verir. "Səbir elə" deyir və ən yaxşısını verir"[4]*. Demək, "səbir elə" Tanrının qaladığı zaman ocağında bişdiyindən ən yaxşısıdır. Bu "səbir elə" insanı xoşbəxt yaşama aparan yolların birincisi və ən önəmlisidir.

Səbir etmək oturub gözləmək deyil, həyatın qarşıya gətirdiyi çətinlikləri, problemləri, acıları yara-yara irəli getməkdir. Burda iki fayda vardır – həm hədəfə çatmaq üçün hərəkətə keçilir, həm də ard-arda gələn sınaqlara sinə gələrək sonrakı hədəflərə çatmaq üçün təcrübə qazanılır. İstəsək də, istəməsək də insanı qarşılayan problemlər ilk baxışda acı, bezikdirən, dağıdıcı olaraq gözə çarpır, amma bəsirət gözü (qəlb gözü) ilə baxa biləndə görürük ki, onlar acı, bezikdirən, dağıdıcı deyillər, insana qurtuluş, uğur, başqa sözlə, xoşbəxt yaşam bəxş edən bir dərmandır. Tibb dili ilə desək, bətnində körpəsini gəzdirən ana sancı çəkməsə, körpənin yerləşdiyi balalığın qapısı açılmaz. Bu tibbi sancı körpənin ana bətnindən dışarı çıxmasına yol açdığı kimi, çətin anlar da yepyeni, təptəzə bir həyata çıxarış verir. Tibbi təbib yox, insan davranışının psixologiyasının təbibi olan, acıları bir Tanrı sınağı sanaraq onların sonda dərman olacağını düşünən Şəms Təbrizi (1185-1248)vurğulayır ki, "*Mamaça bilir ki, sancı çəkmədən doğuş olmaz, ananın balalığından bəbəyə yol açılmaz. Səndən yepyeni, təptəzə bir "sən" in ortaya çıxa bilməsi üçün gərək çətinliklərə, sancılara hazır olasan" [5]*.

Hər insanın həyatında – istər zəngin olsun, istər yoxsul olsun, sıxıntılar olur. Xəstəlik və ölümdən kimsə sığortalanmadığı kimi, sıxıntılardan da kimsə sığortalanmayıb. Səbirli insanın qarşısına bir sıxıntı çıxırsa, o, özünü toparlayır, çılğınlığını cilovlayır, düşdüyü durumdan çıxmaq ya da ən az itki ilə çıxmaq üçün yollar arayır. Bu səbirli insan bir çıxış yolu tapa bilməsə, səbir edərək işin sonunu, nəylə bitəcəyini gözləyir, çünki bilir ki, sıxıntılar qonaq kimi gəlib gedəndir. Əgər bu səbirli insan dindar olsa, onda bu sıxıntını Yaradanın iradəsinə bağlayar və Onun xətrinə sıxıntıya dözər. Mevlana Rumi tam zamanında buyurur ki, "*Sıxıntılar qonaqdır, gəlib gedərlər. Önəmli olan Göndərənin xətrinə qonağa səbir etməkdir"[6]*.

Qeyd edək ki, sıxıntı əsnasında səbir etmənin bir çox faydaları var, ən böyük faydası budur ki, sıxıntıya düşən kəs səbrin hesabına sağlamlığını qoruyub saxlayır, ikinci faydası odur ki, üzləşdiyi sıxıntını bir başqasına söyləməsə, elin gözündə abırdan düşməz, başqasının qınağına tuş gəlməz. Hər səbrin Tanrı qatında bir mükafatı olduğu üçün sıxıntıya səbir edənin də mütləq bir mükafatı olacaq. Bu mükafatın nə olacağını Yaradandan başqası bilməz. Buda sıxıntıya səbir edənin üçüncü faydasıdır. Göründüyü kimi, Tanrı qatından gələn hər sıxıntı bir ilahi sınaq olub, ardınca üç fayda gətirir.

Dünya elə bir məkandır ki, burada hamının – yoxsulun da, zənginin də, cavanın da, yaşlının da dərdi var. Bir dərd aradan gedirsə, bir başqası və ya başqaları gəlir. Amma dərdlərin arasında elə dərd var ki, onu bir ayrısı özünə nemət sayır. Odur ki, birisi bir dərdə düçar olanda dərd üstə dərd gəlməsin deyə, ona dözsün, onu paylaşmasın. Gün gələr, bu dərd sovuşar, izi də qalmaz. Unutmayaq ki, dünyada heçnə, o sıradan heç bir dərd qalıcı deyil, zaman axarında hər şey öz çözümünü tapır. Demək, dərdin dərmanı var, oda səbir edib dərdi dərd etməməkdir. Dərd anında səbrə sarılmağı tapşıran Mevlana Rumi demişkən, "*Sanma ki, dərd sadəcə səndə var, səndəki dərdi nemət sayanlar da var"[7]*.

Yaradan bir qapını bağlayırsa, başqa bir qapını daim açıq saxlayır. İnsan hansı suça yol versə də, hansı cinayətə əl atsa da, hansı pisliklərə qol qoysa da, o açıq qapı onu gözləyir. Bu açıq qapının kilidi ancaq səbir açarı ilə açılır, başqa açar ilə açılmır. Səbir açarını üstündə daşıyanlar xoşbəxt olmağa layiq insanlardır. Səbir ümidə yol açır, ümid də səbir edənə enerji ötürür. Səbrin əksi olan səbirsizlik isə bədbinliyə qovuşdurur, bədbinlikdə xəstəliklərə, maddi-mənəvi itkilərə aparır. Bədbin, pessimist, hər nəyi pisə yozan insanın xoşbəxt olduğunu kimsə görməyib. Ümidsizliyə əsla qapılmamağı tövsiyə edən Şəms Təbrizi deyir ki, "*Başına nə gəlirsə gəlsin, bədbinliyə qapılma. Bütün qapılar qapansa belə, sonda Tanrı cığırlar açar" [8]*.

Qurani-Kərimin onlarla yerində səbir üstün bir davranış olaraq öyülür. Baxmayaraq ki namaz insan orqanizminə və mənəviyyatına dərin pozitiv izlər qoyur, amma səbri olmayanın biri gündə beş dəfə olmaqla namazı ömrü boyu qıla bilməz. Bu səma kitabında səbrin böyük önəmini qabardan bir neçə ayəni sıraya düzürük:

✓ *Əgər səbir edər və Allaha qarşı gəlməkdən çəkinsəniz, bilin ki, bu, uğrunda əzm etməyə dəyər işlərdəndir [9]*.

✓ *Oğlum! Namaz qıl, yaxşı işləri əmr et, pis işlərdən çəkindir və başına gələnə səbir et. Bil ki, bu, uğrunda əzm etməyə dəyər işlərdəndir [10]*.

✓ *Ey iman gətirənlər, Səbir edin, səbir yarışında düşmənlərinizi keçin [11]*.

✓ Biz sizi bir az qorxu və aclıqla, bir az mal, can və məhsul qıtlığı ilə sınayacağıq. Müjdələ o səbir edənləri [12].

Həyatda elə durum ola bilir ki, insan uzun illər səbir etdiyinə bir gün gəlib çatır. Amma elə durum da ola bilir ki, nə qədər səbir etsə də, çata bilmir. Dünyasını dəyişən yaxınlara qovuşmaq olmur, ötüb keçən uşaqlıq çağlarını və gənclik illərini qaytarmaq olmur. Belə hallarda ağıllı insan ağlayıb sızlamaq yerinə qəm-qüssəyə tuş gəlmək və xəstələnmək əvəzinə yenə də səbir etməyi seçir. L.A.Seneka demişkən, "*O şeyi ki, dəyişmək olmur, ona ləyaqətlə döz" [13]*.

Şükür və xoşbəxt yaşam

İnsanın xoşbəxt yaşama çatması üçün səbirdən sonra ikinci yerdə şükür durur. Olanına şükür edib, tələşlanmamaq insanı sağlam saxlayır, ruzisinin artmasına yol açır. Şükürlü insan hər olanına, olmayanına, hər gününə, hər qazandığına, hər itirdiyinə şükür edir. Belə insanın üzü nurlanar, ona baxan ondan sevinc notları alar. Mevlana Rumi dediyi kimi, "*Öz həyatın üçün, onun hər detalı üçün şükür elə, sənin üzün günəş kimi parlayar. Ona baxan sevinər və sakitlənər"[14]*.

Başına gələnlərə səbir edən, şükür edən, dua edən insan xoşbəxt insan olmağa ən çox layiq olandır. Bu adamın "səbir, şükür, dua" olmaqla üç güclü dostu var. Gün gələr, bu dostlar ona mütləq sürprizlər verəcəklər, ola bilməz ki, verməsinlər. Bax o zaman o şəxs bilər, necə də düzgün iş görübdür. Bu üçünü "gözəl şey" adlandıran Mevlana Rumi buyurur ki, "*Bir gün Allah sənə elə gözəl hədiyyə verər ki, dua etmənin, səbir etmənin, şükür etmənin nə qədər gözəl bir şey olduğunu bax o zaman anlayacaqsan"[15]*.

İnsanın xoşbəxt yaşamını, dincini , iç rahatlığını ondan qapıb oğurlayan faktorlar var. Bu faktorlar durduqca, onların əsiri olan insan dincəlmək üçün dünyanın ən komfortlu hotelinə getsə də, ən bahalı doktorların yazdığı dərmanlarla müalicə olsa da, onun rahatlığı olmaz, yaşa dolduqca, xəstəliklər onun qapısını döyəcəklər. Hindistanlı dini-ruhani lider Oşo (1931-90) "faktor" dediyimizi məcazi anlamda "tələ" adlandıraraq deyir, "*Sevinc və dincliyi oğurlayan üç tələ vardır – keçmiş üçün təəssüf, gələcək üçün həyəcan və indi üçün naşükürlük" [16]*.

Comərdlik və xoşbəxt yaşam

"Əliaçıqlıq" anlamında "comərdlik" bəyənilən insani davranışlardan biridir. Comərd insan cəmiyyətə faydalı bir fərd olub, insanların həyatında pozitiv iz qoyan bir persondur. Dünyaca tanınan filosoflar, yazarlar və alimlər comərdliyə fəqrli prizmalardan yanaşıblar.

Aristotelin qənaətincə "*Comərd insan odur ki, münasib insana münasib şeyi münasib vaxtda versin"[17]*. Göründüyü üzrə, dahi filosof hər kəsə yox – münasib kəsə, hər nəyi yox –

münasib şeyi, hər zaman yox – münasib vaxtda bağışlamağı, hədiyyə etməyi tövsiyə edir. Böyük filosofun bu üçlüyünü gözləmək ideal comərd olmaq deməkdir.

Mevlana Rumi içində comərdlik olmaqla beş insani özəlliyə yüksək dəyər verərək, onları beş təşbeh (bənzətmə) yanında işlədərək vurğulayır ki, belə insanlar mələklərlə bərabər mələkuti səmalarda uçan insanlardır, yəni yer üzündə belə insanlar üstün dəyərlər daşıyıcısı olan insanlardır [18]:

- ✓ *Varlıqlara şəfqət və mərhəmət etməkdə günəş kimi ol,*
- ✓ *İnsanların eyiblərini örtməkdə gecə kimi ol,*
- ✓ *Yumşaq və mülayim olmaqda ölü kimi ol,*
- ✓ *Təvazökar olmaqda torpaq kimi ol,*
- ✓ *Comərd olmaqda irmaq kimi ol,*

Bir kəs ki, ürəkyaxan yerinə ürəkyanan, eyib açan yerinə eyibörtən, kobud yerinə yumşaq, eqoist yerinə mülayim, simic yerinə comərd olandır, o kəs hamının bəyənib seçdiyi, hər kəsin gözlədiyi, hər fərdin yüksək dəyər verdiyi xoşbəxt insandır.

Comərd insan verdiyi sözü yerinə yetirər, onu dəbbələməz, nəsə verdiyinə və etdiyinə öyünməz, heç onun adını tutmaz, yalvar-yaxar, xahiş qarşısında yox, sorğu-sualsız bağışlar. İmmanuil Kant (1724-1804) dediyi kimi, *"Comərdliyin üç göstəricisi vardır – sözünün sahibi olmaq, gərəksiz yerə öyünməmək və sorğu-sualsız bağışlamaq"* [19].

Antik yunan filosofları comərdliyin insan həyatında önəmindən, cəmiyyətin bütün təbəqələrinə müsbət yöndə təsirindən çox bəhs ediblər. Bu filosofların birisi olan Platonun rəyincə, "*Əgər insana comərdlik verilibsə, demək, o, hamıdan nəcibdir"* [20].

Comərdliyi olmayan insan, başqa sözlə, simic olan insan pozitiv, yararlı, faydalı fərd sayılmır. Comərdliyi öyərək, simicliyi qınayan özbək şairi Əlişir Nəvai (1441-1501) sədəf, mirvari, qara bulud, qarışqa, sünbül, dən olmaqla altı təbiət varlığından, cənnət, cəhənnəm adlı iki dini anlayışdan yararlanaraq vurğulayır ki, "*Comərdlikdən məhrum olan bir insan mirvarisi olmayan bir sədəfə bənzəyir. Mirvarisi olmayan sədəf kimə gərəkdir?! Simic cənnətə düşməz, peyğəmbərlər soy-kökündən olsa belə. Comərd cəhənnəmə düşməz, qüsurlar köləsi olsa belə. Comərd bol məhsul verən bir qara bulud, simic isə sünbül, dən yığmağa alışmış bir qarıncadır"[21].*

Sevgi və xoşbəxt yaşam

Kainat adlı bütün varlıq aləmini idarə edən - Tanrının yaratdığı sevgidir. Harda sevgi var, ora cənnətə dönür, orda hüzur (qəlb rahatlığı), enerji bolluğu müşahidə olunur. İnsanı xoşbəxtliyə qovuşduran aparıcı faktorlardan olan sevgi deyilişcə bir söz olsa da, əslində hər şeydir, həyatın özüdür. Həyatın çətinlikləri çoxdur, onları gərəyincə çözmək üçün sevgiyə ehtiyac duyulur. Sevgi ilə görülən işin çətinliyi asan nəzərə çarpır, çünki hansısa ağır işi yoluna qoymaq üçün səbirlə yanaşı sevgi də hava-su kimi lazımdır. Bizim eradan öncə 5-ci əsr yunan dramaturqu Sofokl yazırdı ki, "*Bizi həyatın bütün ağır yükündən və ağrılarından bircə söz qurtarar, o söz – sevgidir" [22].*

Dünyada elə bir iksir, müalicə otu, şəfa verənin cadusu yoxdur ki, insanı sevilən fərdə çevirsin. Heç kim bu üçü ilə sevilən ola bilməz. Yalnız sevən insan sevilən insan olur. Beləliklə, sevərək sevilən bu dünyada xoşbəxt olur. Sözün bu yerində Üzeyir Hacıbəyli yada dü-şür. Bu böyük insan 1948-ci ildə dünyasını dəyişəndə xalq şairi Səməd Vurğun onun ölümünə "Eşq olsun sənətkara" adlı bir şeir yazmışdı. Şeirin dörd misrası "sevərək sevilən" anlayışının açıqlamasını verir. Bu misralar 1-ci Fəxri Xiyabanda şairin məzar daşına həkk olunub [23, s.23]:

Ölüm sevinməsin qoy, ömrünü vermir bada
El qədrini canından daha əziz bilənlər.
Şirin bir xatirətək qalacaqdır dünyada
Sevərək yaşayanlar, sevilərək ölənlər.

Azərbaycan milli musiqisinin şah əsərlərini yaradan Üzeyir Hacıbəyli 63 il yaşadı. Azərbaycan poeziyasının parlaq simalarından olan Səməd Vurğun isə 50 il yaşadı. Amma

ömrün uzunluğu yox, genişliyi önəm daşıdığından qeyd edə bilərik ki, onlar xalqın ürəyində əbədiyaşar olduqları üçün istər insan olaraq, istərsə də sənətkar olaraq sözün geniş anlamında xoşbəxt insanlardır.

Ailə kiçik bir dövlətdir, bu insan birliyinin dayaqlarını bərkidən yalnız sevgi və sayğıdır. Bu iksinin var olduğu ailə xoşbəxt ailədir, onu ölümdən başqa heçnə sarsıda bilməz. Ailədə sevginin, mərhəmətin (sayğının) önəminə diqqət çəkən Qurani-Kərimdə oxuyuruq ki, "*Qaynaşasınız deyə, sizə özünüzdən (cinsinizdən) zövcələr yaratması və aranızda sevgi və mərhəmət var etməsi də Onun (qüdrətinin) dəlillərindəndir. Şübhəsiz ki, bunda düşünən bir toplum üçün, əlbəttə, ibrətlər vardır" [24]*.

Qəlb – sevginin oylağıdır, sevgi insan orqanizminin yalnız qəlbində qərar tutur. Qəlbində sevgi daşıyan insan ona görə xoşbəxtdir ki, sevgi onun qəlbini:

- ✓ *Rahatsız etmir, əksinə, rahatladır, arındırır və safladır,*
- ✓ *Sıxıb daraltmır, əksinə, xoş izlər qoyaraq genəldir, genəldikcə sevginin tutumu böyüyür, böyüdükcə sevgidən doğan gözəl işlərin sayı artır, sayı artdıqca insanların gözündə bu insanın ad-sanı yüksələrək, Tanrı qatında heç zaman zavala getməyən bir dəyərə sahiblənir,*
- ✓ *Daim diri saxlayaraq, yeni-yeni işlərin gəlişinə körpü salır, bu minvalla da qınaq obyekti olan işlərə yer qalmır,*
- ✓ *Nifrət və kindən təmizləyir, çünki onlar qəlbi ağrıdaraq daraldır, daraldıqca sevgi üçün yaranan qəlb sevgisizlikdən həyəcan keçirir.*

Bir xaçpərəst din xadimi olan İoann Kronştadlı (19-cu əsrin sonu) sevginin insan yaşamında önəmindən bəhs açarkən yazırdı ki, "*Sevgi - qəlbi rahatladaraq, xoş duyğularla onu genəldir və dirildir, nifrət isə onu ağrıda-ağrıda daraldır və həyəcanlandırır" [25]*.

İnsanlar toyda, bayramda, doğum günündə və başqa tədbirlərdə bir-birinə hədiyyə verib alırlar. Hədiyyə verən də, hədiyyə alanda xoş duyğular keçirir, onların bir-birinə qarşı sevgisi artır, mehriban olurlar. Demək, hədiyyələşmə insanlar arası sevgini, sayğını, mehribanlaşmanı artıran kommunikativ bir proses, ululardan sonrakı nəsillərə yadigar qalan gözəl bir ənənədir. Hər sözü hikmət olan Məhəmməd peyğəmbər buyurub ki, "*Bir-birinizlə hədiyyələşin ki, sevginiz artsın" [26]*.

Məqalənin aktuallığı

Xoşbəxt yaşam hamıya sevgi və sayğı sərgiləyən insanların ömür payıdır, belə insanlar qaranlıqları aydınladan günəş şüalarına bənzərlər. Bəşər özünü tanıyan çağdan bu günə kimi kommunikativ prosesdə xoşbəxt yaşamın yollarını aramaq, analiz edib qruplaşdırmaq aktual olub, indi də aktualdır.

Bu məqalənin aktuallığı odur ki, məqalə müəllifi internet kanallarında türkcə və ruscadan çevirdiyi 25 sitatla və kimsənin rəyindən yararlanmayıb, özünün açıqlamaları ilə kommunikativ prosesdə xoşbəxt olmanın yollarını "səbir-şükür-comərdlik-sevgi" prizmasından incələyib, alim və tədqiqatçıların, özəlliklə, yaradıcı həyatının böyük bir qismi hələ qabaqda olan alim və tədqiqatçıların diqqətinə çatdırır.

Ədəbiyyat

1. https:/www.youtube.com/işşuşşiy istinu/Potrisayuşiye vıskazivaniya- Tolstoy
2. https:/www.youtube.com/jiznprekrasna/Xans-Kristian Andersen
3. https:/www.youtube.com/Sitatı iaforizmı/Lutsi-AnneySeneka
4. https:/www.youtube.com/işşuşşiy istinu/ Potrisayuşiye vıskazivaniya-Rumi
5. https:/www.youtube.com/Ortac Serdar/Şemsi Tebrizinin 40 kuralı
6. https:/www.instagram.com/Mevlanavesems/Mevlana
7. https:/www.instagram.com/Pamuk sozler/Mevlana
8. https:/www.instagram.com/Semsvemevlana.sözleri/Şemsi Tebrizi
9. https: www.kuranvemeali.com/Ali.İmran-suresi/186.ayet
10. https: www.kuranvemeali.com/Lokman-suresi/17.ayet

11. https: www.kuranvemeali.com/Ali.İmran-suresi/200.ayet
12. https: www.kuranvemeali.com/Bakara-suresi/155.ayet
13. https:/www.youtube.com/Sol jizni/Seneka
14. https:/www.youtube.com/Sitatı i aforizmı/Rumi
15. https:/www.youtube.com/ÖmerHançeri/Mevlana
16. https:/www.youtube.com/Nefakt/Osho
17. https:/www.youtube.com/Mudrost velikix/Aristotel
18. https:/www.youtube.com/Derin anlamlisözler/Mevlana
19. https:/www.youtube.com/Felsefi sözler/Düşünürler-Kant
20. https:/www.youtube.com/Mısli vslux/Mudrıyesitatı-Platon
21. https:/www.finewords.ru./Sitatı proşedrosti/Alişir Navoi
22. https:/www.youtube.com/Felsefi sözler/ Büyükfilozoflar-Sophokles
23. "Mədəniyyət.Az" jurnalı 2018, iyul-avqust(320), 107səh.
24. https: www.kuranvemeali.com/Rum-suresi/21.ayet
25. https:/www.youtube.com/Jizn prekrasna/İoannKronstadski
26. https:/www.instagram.com/İlahi.dua/Malik, Muvatta, Husnul-muluk,16

С.Дж.Новрузалиева, Н.А.Алиева

Коммуникация и способы счастливой жизни

Резюме

Эта статья, посвященная открытию и демонстрации способов жить счастливо, имеет введение и четыре заголовка.

Во вступительном разделе понятие счастливой жизни разъясняется в общей форме высказываниями таких гениальных писателей, как Луций Анней Сенека, Лев Толстой, Ханс-Христиан Андерсен.

В рубрике "Терпение и счастливая жизнь" с 10 цитатами рассказывается о доминирующей (ведущей) роли терпения для счастливой жизни в коммуникативном процессе, демонстрируются и мнения автора статьи.

В заголовке "Благодарность и счастливая жизнь" 3 соответствующих цитат говорят о благородной роли благодарности в жизни человека, в том числе о таком важном факторе, как счастливая жизнь, о оздоровительном влиянии благодарности на организм человека.

8 цитат, содержащихся в названии "Щедрость и счастливая жизнь", открывают разговор о приверженности счастливой жизни и щедрости, о положительных преимуществах, которые щедрость приносит обществу.

В заголовке "Любовь и счастливая жизнь" в свете 5 цитат показана роль любви в жизни человека, способы, которыми любовь влияет на счастливую жизнь.

Актуальность статьи представлена с плоскости "терпение-благодарность-щедрость-любовь". Список литературы содержит 26 источников, 25 из которых взяты из интернет-ресурсов.

S.J.Novruzaliyeva, N.A.Aliyeva

Communication and ways to live happily

Summary

This article, which is dedicated to revealing the ways to live happily, has an introduction and four titles.

In the introductory part, the concept of a happy life is clarified in general terms by the sayings of such great writers as LutsiAnney Seneca, Leo Tolstoy, Hans-Christian Andersen.

The title "Patience and a happy life " with 10 quotes speaks of the dominative (leading) role of patience for a happy life in the communicative process, the opinions and opinions of the author of the article are exhibited.

In the title"Thank you and happy life " 3 quotes talk about the noble role of gratitude in human life ,including such an important factor as happy life, and the health-improving effect of gratitude on the human body.

With 5 quotes in the title“Generosity and happy life", it opens up about the commitment to happy life and generosity, and the positive benefits that generosity (generosity) brings in society.

In the title “Love and happy life " 5quotes show the role of love in human life, the ways of influence of love on happy life.

The relevance of the article is presented from the plane “patience-gratitude-generosity-love”. The list of literature includes 26 sources, 25 of which were obtained from internet resources.

Rəyçi: dos. E.İ.Quliyev

Redaksiyaya daxil olub: 28.02.2023

Y.Q.NURİYEV
Əməkdar jurnalist, baş müəllim

F.F.POLADLI,

E.İ.ƏLİYEV,

T.H.ALLAHVERDİYEV

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr., 98)

AZƏRBAYCANDA İDMAN QURĞULARININ DÜNƏNİ, BU GÜNÜ VƏ PERSPEKTİVLƏRİ

Açar sözlər: *idman qurğuları, arxeloji tapıntılar, mağara, meydança, komplekslər, olimpiya mərkəzləri, idmanın inkişafı*

Ключевые слова: *спортивные сооружения, археологические находки, пещера, поле, комплексы, олимпийские центры, развитие спорта.*

Key words: *sports facilities, archaeological finds, cave, field, complexes, Olympic centers, sports development*

İnsanların yerinə yetirdikləri fiziki hərəkətləri və əmək vərdişləri üzrə sınaqlarını, döyüş və mübarizə növlərini, məsələn, güləş, qaçış, tullanma, ağırlıqqaldırma, üzmək, avar çəkmək, ox atmaq, qılınc oynatmaq, nizə tullamaq və sairəni ilk idman növləri kimi qəbul etmək olar. Heç şübhə yoxdur ki, bütün xalqlarda bu cür idman növləri olmuşdur. Bu növlərdən hər hansı biri üzrə ilk idman yarışının birinci dəfə harada, nə vaxt keçirilməsi haqqında dəqiq fikir söyləmək mümkün deyildir.

Arxeoloji tapıntılar əsasında onu demək mümkündür ki, atletlərin ilk yarışı güləş üzrə olmuşdur. Güləş Azərbaycanda da qədim dövrlərdən yayılmış ənənəvi idman növü olmuşdur. Azərbaycan xalqının dastan və nağıllarında, yazılı abidələrində güləş yarışlarından çox bəhs olunur. Tariximizin qədim yazılı abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanlarında güləşlə yanaşı, başqa təkbətək mübarizə növlərindən də geniş bəhs olunur. Bu mübarizələrin çox vaxt yarış məqsədi daşıması açıq-aşkar qeyd edilir. Nağıl və dastanlarda igidlər aslan, buğa, dəvə ilə güclərini sınayır, bir-biri ilə qurşaq tutub güləşirlər. Azərbaycanda qədim tarixə malik idman növü olan güləş yarışları da sonralar xüsusi yerlərdə – zorxanalarda keçirilmişdir. Bunlarla yanaşı, Azərbaycanda müxtəlif növlər üzrə yarışlar təşkil etmək üçün mağaralardan da istifadə olunurdu. Ölkəmizdə ən böyük mağara 2020-ci ildə 44 günlük müharibə zamanı mənfur ermənilərin işğalından azad etdiyimiz Azıx Füzuli rayonunun yaxınlığında, Xocavəndin Tuğ qəsəbəsində yerləşir. Orta əsrlərdə Azərbaycanda fiziki mədəniyyət və fiziki tərbiyə özünün əsl inkişafına çatmışdır. Bu dövrdə dünya idman tarixinin ən nadir hadisələrindən olan zorxanalar Səfəvilər dövründə yaranaraq, Azərbaycan, İran və İraq ərazisində geniş yayılmışdı. Zor – "güc", xana isə – "məkan" mənasını verir. Bu növün tarixi çox qədimlərə gedib çıxır. Əvvəl zorxanalar döyüşçü və pəhləvanların fiziki hazırlıq hərəkətlərini icra etdikləri məkan olub. Zorxanalarda nizə, toppuz, qılınc, ox kimi silahlardan istifadənin məşqləri keçirilərmiş. Zorxanalar bədən tərbiyəsi və idmanla məşğul olmaq üçün tikilmiş xüsusi örtülü evlər idi. İlk zorxanalar XIV əsrdə Təbrizdə tikilmişdir. Azərbaycanın bir çox şəhərlərində yerləşən bu tikililər ortasında kiçik kümbəzi olan tavanlı məscidi, hamamı var idi. Binanın ortasında 200-300 nəfərlik tamaşaçı yeri ilə əhatə olunan və eyni vaxtda 15-20 idmançı tutan oyun meydançası yerləşirdi. "Süfrə" adlanan bu meydança müasir sirk arenasına bənzəyirdi. Ölçüsü 10 x10 metr, yerdən aşağı, dərinliyi təqribən 1 metr olan səkkiz və ya altı güşəli meydan olur [1].

Oğuz elinin igidləri, o cümlədən qızları da at çapmaqda, qılınc oynatmaqda, ox atmaqda mahir olmuşlar. Bu diyarda oğlanlara döyüşdə, təkbətək mübarizədə qalib gəlməyincə, igidlik göstərməyincə ad verməzmişlər. "Kitabi-Dədə Qorqud" dastanlarının əsas qəhrəmanlarından biri Bamsı Beyrəklə Banıçiçək at çapmaq, ox atmaq və qurşaq tutub güləşməkdə güclərini sınadıqdan sonra bir-birlərinə könül verirlər. "Kitabi-Dədə Qorqud" dastanlarında adı çəkilən idman yarışlarına başqa mənbələrdə də rast gəlmək olur. XI əsr Azərbaycan şairi Xaqani Şirvaninin əsərlərində də çövkən, at çapmaq, şahmat, qılıncoynatma və s. idman növlərindən danışılır.

Qədim türkdilli xalqlar ömürlərinin böyük hissəsini at belində keçirmişlər. Oğuzlar atın belində ova çıxır, özlərinə azuqə toplalayır, ticarət edir, yürüşlərə gedirdilər. Cıdır yarışları, at üstündə güləşmə, qılınc sallama, çovqan kimi idman yarışları türkdilli xalqlar arasında geniş yayılmışdı. Mənbələrdə göstərilir ki, sonralar çinlilər çox sevdikləri at yarışlarını türklərdən və monqollardan görüb-götürmüşlər.

Komanda oyun növü olan "Çövkən" yarışları eramızın birinci minilliyinin ortalarında formalaşmış, yüzillər ərzində Azəbaycanda, Orta Asiyada, İranda, Türkiyədə, İraqda və digər qonşu ölkələrdə məşhur olmuşdur. Çövkənin qədim Azərbaycan oyunu olmasını sübut edən faktlardan biri də Azərbaycan miniatürlərində bu oyunun dönə-dönə təsvir edilməsi, yazılı mənbələrdə onun keçirilmə qaydaları haqqında məlumat verilməsidir. "Çövkən" oyunu da, Şərqdə təşəkkül tapmış başqa idman növləri kimi, dünyanın daha uzaq regionlarına yayılmasında və inkişaf etdirilməsində inglislərin rolu böyük olmuşdur. Belə ki, XIX əsrdə Hindistandan İngiltərəyə gətirilən bu oyun getdikcə inkişaf etdirilmiş, yeni qaydalar əsasında Amerika və Avropa ölkələrində yayılmağa başlamışdır. Məhz ingilislərin təşəbbüsü ilə bu oyun "polo" adı altında ilk dəfə 1900-cü ildə Parisdə keçirilən II Olimpiya Oyunlarının proqramına daxil edilmişdir.

Azərbaycan idmanının tarixi ilə bağlı fikirləri ümumiləşdirib belə bir nəticəyə gəlmək olur ki, ölkədə idman çox qədim bir tarixə malik olmuşdur. Arxeoloji qazıntılar zamanı tapılmış maddi mədəniyyət və qədim yazılı abidələrə, təsviri sənət əsərlərinə, ədəbi-tarixi mənbələrə, folklor, eləcə də orta əsr bədii yaradıcılıq nümunələrinə istinadla demək olar ki, qədim Azərbaycanda güləş, oxatma, qılıncoynatma, nizə atma, atçapma, Çovqan, Sürpapaq, Baharbənd, daşqaldırma, miloynatma, şahmat və sair idman oyunları geniş yayılmışdır. XX əsrin əvvəllərində Azərbaycan pəhləvanlarından Sali Süleyman və Rəşid Yusifovun adı bütün dünyada məşhur olmuşdur.

İdmanın geniş yayılması, kütləviləşməsi, ətrafına daha çox insanı cəlb etməsi üçün maddi-texniki bazanın genişləndirilməsi əsas şərtdir. Bu həm də idmançıların hazırlıq keçməsi və beynəlxalq miqyasda ölkəni layiqincə təmsil etməsi üçün çox vacibdir. Maddi-texniki baza olmadan idmanı inkişaf etdirmək sadəcə olaraq mümkün deyil. Fiziki tərbiyə və idmanın növləri çox qədim dövrlərə gedib çıxır. Arxeoloji qazıntılar nəticəsində fiziki hərəkətlər üçün tikilmiş idman qurğuları daş dövrünə təsadüf etdiyi aşkarlanmışdır. Belə tikililər Hindistanda, Misirdə, Orta Asiya və Cənubi Amerika ərazilərində tapılmışdır. Fiziki tərbiyənin ilkin formaları hələ XI-XII əsrlərdə Aralıq dənizi sahillərində mövcud olmuşdur. Burada gil qablar üzərində müxtəlif idman təsviri, akrobatların öküz üzərində tullanmalarının şəkilləri tapılmışdır. Orta əsrlərin əvvəlləri fiziki tərbiyənin tənəzzülə uğraması ilə səciyyələnir. XI əsrlərdə fiziki tərbiyə müəyyən məqsədlərə yönəldilmişdir. İdmanın bir neçə növü bu müddət ərzində inkişaf etməyə başlamışdır. Lakin XV-XVI əsrlərdə artıq topla oyunlar, atıcılıq və qılıncoynatma meydana gəlmişdir. Buna görə də mövcud oyun növləri üçün idman qurğuları tikilmişdir. Bu qurğular meydançalarda, oyun yerlərində, şəhər zadəganları üçün müxtəlif əyləncəli tamaşa obyektlərində və digər yerlərdən ibarət idi. Bunlara təhsil sistemində istifadə olunan qurğular, yüngül atletika, gimnastika, akrobatika, topla oyunlar, yay və qış idman oyunları, su oyunları və digər idman qurğuları daxildir.

İdman nəslin formalaşması, fiziki və mənəvi sağlamlıq baxımından mühüm əhəmiyyət kəsb etməklə yanaşı, ölkənin inkişaf göstəricisi kimi də qəbul edilir. Respublikamızda keçiri-

lən beynəlxalq turnirlər və onların gənc nəslin idmana yönəlməsində oynadığı rol xüsusilə əhəmiyyətlidir [2].

Bu baxımdan Azərbaycanda idmanın inkişaf göstəricisi ilə dövlətin ümumi göstəricisi arasında paralellik var. İqtisadi cəhətdən kifayət qədər güclü və inkişaf etmiş dövlət olan Azərbaycanda bu inkişafdan bütün sahələrə, o cümlədən idman sektoruna da xüsusi pay düşür. Azərbaycan dövləti idmanın inkişafını xüsusi diqqətdə saxlayaraq bu sahədə böyük dəyişikliklərin əldə edilməsinə nail olub. Azərbaycan Prezidenti İlham Əliyev həm dövlət başçısı, həm də Milli Olimpiya Komitəsinin rəhbəri kimi idmanın inkişafını yüksək səviyyədə dəstəkləyərək bu sahədə böyük və möhkəm maddi-texniki bazanın yaradılmasına nail olub. Dövlət başçısının idman sahəsində həyata keçirdiyi siyasətin ana xəttini müasir idman bazasının yaradılması təşkil edir ki, ötən illər ərzində bu sahədə ciddi uğurlar əldə olunub. Respublikamızın demək olar ki, hər bir bölgəsinin idman qurğuları, müasir idman infrastrukturu, o cümlədən Olimpiya İdman Kompleksləri ilə əhatə olunması idmanın inkişafı üçün möhkəm təməl yaradıb. Ötən illər ərzində dövlət başçısının rəhbərliyi ilə aparılan məqsədyönlü siyasət və planlı şəkildə həyata keçirilən işlər Azərbaycanı dünyanın inkişaf etmiş idman ölkələrindən birinə çevirib. "İdman ölkəsi" sözlərinin arxasında inkişaf etmiş dövlət, idman ətrafında birləşən böyük potensiala malik olan fiziki və mənəvi cəhətdən sağlam yeniyetmə və gənclər ordusu, müasir idman infrastrukturu dayanır. Azərbaycan bu şərtlərin hər birinə cavab verdiyi üçün dünyanın və Avropanın ən nüfuzlu idman ölkələrindən biri sayılır.

Azərbaycanda idmanın inkişafı dövlət tərəfindən dəstəklənir və məhz dövlət tərəfindən həyata keçirilən siyasət nəticəsində belə müasir baza yaradıla bilib. Dövlət başçısının rəhbərliyi altında həyata keçirilən bu siyasət təkcə idman qurğularının inşa edilməsi ilə məhdudlaşmayıb. Belə ki, istər paytaxt Bakıda, istərsə də regionlarda inşa edilən müasir idman bazaları elə müasir səviyyədə tikilir ki, onların fəaliyyəti təkcə bölgə gənclərinə xidmətlə məhdudlaşmayaraq istənilən beynəlxalq yarışı qəbul etmək gücündə olurlar. Yəni, bu şərtləri ödəmək üçün təkcə idman qurğusunun olması kifayət deyil, digər infrastrukturlar da müasir standartlar səviyyəsində olmalıdır. Bu faktlar Bakının dünyada idman paytaxtı kimi, ölkəmizin isə idman ölkəsi kimi tanınmasını şərtləndirən ən mühüm amillərdir. Bu gün ölkədə geniş infrastruktur layihələri həyata keçirilir və bunun nəticəsi olaraq beynəlxalq idman qurumları dünya və Avropa birinciliklərinə ev sahibliyini Azərbaycana həvvalə edəndə heç bir tərəddüd keçirmir, əksinə Bakının bu işin öhdəsindən layiqincə gələcəyinə əmin olduqlarını açıqlayırlar.

Bakı Avropanın idman mərkəzi statusunu dünyanın ən qabaqcıl yarış meydanına dəyişib. Artıq Bakı Olimpiada kimi planetin ən nüfuzlu idman yarışına ev sahibliyi etməyə hazırdır. Respublikamızda bir-birinin ardınca sıralanan beynəlxalq idman yarışları da qeyd etdiklərimizi təsdiqləyir. Ölkəmizin inkişafı bu gün elə səviyyədədir ki, bir neçə beynəlxalq yarış eyni vaxtda yüksək səviyyədə keçirilə bilər. Son bir neçə il ərzində keçirilən yarışların statistikasına diqqət etmək bu fikrimizi təsdiqləyir.

Azərbaycan ev sahibliyi etdiyi idman yarışlarını yüksək səviyyədə keçirir və bu da beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilir. Nüfuzlu beynəlxalq turnirlərin ölkəmizdə keçirilməsi gənclərin idmana axınını artırır. Eyni vaxtda bu qədər beynəlxalq yarışların ölkəmizdə keçirilməsi Azərbaycanın idman tarixində çox mühüm hadisədir. Beynəlxalq yarışların respublikamızda keçirilməsi son illər ənənə halını alıb.

Yeni idman-sağlamlıq mərkəzlərinin gənclərin fiziki-mənəvi inkişafına müsbət təsir göstərməsi də danılmazdır. Xüsusən yaşayış yerlərində idman-sağlamlıq mərkəzlərinin, qurğularının və bu yönümlü obyektlərin tikintisi, təchizatı və vətəndaşların istifadəsinə verilməsi çox əhəmiyyətlidir. Belə mərkəzlər gənc nəslin sağlam böyüməsinə, fiziki-mənəvi inkişafına, bədən tərbiyəsi və idman məşğələlərinə daha geniş cəlb olunmasına müsbət təsir göstərir.

Eyni zamanda yerlərdə bədən tərbiyəsi və idmanın inkişafının təşkili və idarə olunması məqsədilə bələdiyyələrdə, mənzil istismar və icma mənşəli təşkilatlarda bədən tərbiyəsi sağlamlıq və idman işləri üzrə xüsusi ştatların, mövcud idman təşkilatlarının filiallarının (yerli

idarələrinin) və digər yeni strukturların yaradılması planlaşdırılır. Bədən tərbiyəsi və idmanın inkişafında əhalinin kütləvi surətdə fiziki hərəkətlərlə məşğulluğa cəlb olunmasında yüksək səviyyəli idmançıların hazırlanmasında təbliğatın rolu və yeri böyük əhəmiyyət kəsb edir. Bununla əlaqədar ölkədə bədən tərbiyəsi və idmanın təbliği üzrə işlərin daha geniş və effektiv formada təşkili və həyata keçirilməsi nəzərdə tutulur.

Xalqımızın ümummilli lideri, dahi şəxsiyyət olan Heydər Əliyev istər sovet dövründə, istərsə də ölkəmiz müstəqillik qazandıqdan sonra Azərbaycana rəhbərlik etdiyi bütün illərdə idmana, onun inkişafına və maddi-texniki bazasının yaradılmasına, idmançılara dövlət səviyyəsində qayğı göstərilməsinə xüsusi diqqət yetirmiş, fiziki cəhətdən sağlam gənc nəslin yetişdirilməsi məsələsini daim nəzarətdə saxlamışdır. Dahi şəxsiyyət olan Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə – 1969-1982-ci illərdə respublikada bütün sahələrin, o cümlədən idmanın gələcək inkişaf perspektivləri ciddi nəzərə alınmışdı. Bu illərdə ölkədə bir çox idman kompleksləri, qurğuları, zalları tikilmiş, idman meydançaları salınmış, böyük idman-sağlamlıq mərkəzləri yaradılmışdır. Ümummilli lider Heydər Əliyevin idman sahəsində irəli atdığı ilk addım idman meydançaları və zallarının təyinatı üzrə işlədilməsi, onların bərpası haqqında verdiyi göstərişlərdə əksini tapmışdır. Sidney Olimpiya Oyunlarından sonra ölkə Prezidentinin şəxsi təşəbbüsü və qayğısı ilə idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsindəki iş daha da sürətləndirildi.

Müstəqillik dövrünə qədəm qoyduqdan sonra xüsusilə 1997-ci ildən cənab İlham Əliyev Azərbaycan Milli Olimpiya Komitəsinə prezident seçildiyi vaxtdan ölkədə olimpiya hərəkatında yeni yüksəliş dövrü başlanmışdır. Milli Olimpiya Komitəsinin fəaliyyət dairəsi genişlənərək Beynəlxalq olimpiya hərəkatında Azərbaycan qısa bir müddətdə özünə ön cərgələrdə yer tuta bilmişdir. Milli Olimpiya Komitəsi Dövlət orqanları, ictimai təşkilatlar, özəl qurumlar, idman növləri üzrə respublika federasiyaları, idman cəmiyyətləri, klubları və digər bu yönümlü təşkilatların imkan və səylərini birləşdirərək olimpiya hərəkatında birgə fəaliyyət göstərmək və bu fəaliyyəti mərkəzləşmiş formada idarə etmək mexanizmi hazırlaya bilmişdir. Məhz bu fəaliyyətin nəticəsində Azərbaycan artıq dünyada Olimpiya ölkəsi kimi tanınmaqdadır. Son illərdə ölkənin ayrı-ayrı regionlarında, o cümlədən kənd rayonlarında beynəlxalq standartlara və normativlərə uyğun 50-yə qədər Olimpiya idman kompleksi tikilib istifadəyə verilmişdir. Sevindirici haldır ki, bu proses bu gün də davam etdirilir. 2020-ci ildə sayca 32-ci Yay Olimpiya Oyunlarına qədər qalan müddət respublikanın bütün şəhər və rayonlarında müasir Olimpiya komplekslərinin inşası və xalqın sərəncamına verilməsi dövlət səviyyəsində planlaşdırılmışdır. Ayrı-ayrı idman növləri üzrə olimpiya mərkəzlərinin yaradılması və idmançıların istifadələrinə verilməsi hər il planlı şəkildə həyata keçirilir. Bədən tərbiyəsi və idmanın kütləvi inkişafının təmin olunması sahəsində konkret tədbirlər planlaşdırılır və uğurla reallaşdırılır.

Bütün qeyd olunanlar isə gənclərdə, uşaqlarda idmanla məşğul olmaq, görkəmli idmançılara oxşamaq həvəsini daha da artırır. Son vaxtlar Bakı şəhərinin parklarının bir neçəsində açıq havada idmanla məşğul olmaq üçün şərait yaradılıb, trenajorlar quraşdırılır. Hesab edirik ki, bu təcrübə ölkəmizin bütün bölgələrinə aparılacaq və orada geniş tətbiq ediləcəkdir.

Sevindirici haldır ki, hazırda mövcud olan Olimpiya İdman Komplekslərinin sayı ildən-ilə artır. İşğaldan azad edilmiş şəhərlərin hər birində idman qurğularının sayının artırılması perspektiv planda nəzərdə tutulur. Bütün şəhərlərin Baş planları təsdiq edilib, bərpa-quruculuq işləri Baş planlar əsasında aparılacaq və idman obyektlərinin yaradılması həyata keçiriləcək.

İki ildən artıqdır ki, tarixi Zəfərimizin sevincini və yaratdığı reallıqları yaşayırıq. Bu reallıqlar fonunda işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. Bu torpaqlarımızın "ağıllı şəhər" və "ağıllı kənd" layihələri çərçivəsində yenidən qurulması dünyanın diqqətindədir. Dünya hərb tarixində ilkə imza atan Azərbaycanın müharibə bitən kimi bu ərazilərdə bərpa-quruculuq işlərinə start verməsi həm Azərbaycan

xalqının qurucu xalq olduğunu təsdiqlədi, həm də ölkəmizin iqtisadi imkanlarını təqdim edir. Fərəhlidir ki, Azərbaycan bütün bu işləri öz daxili imkanları hesabına sıfırdan həyata keçirir.

Günümüzün qürurverici hadisələrindən biri də budur ki, bu gün nəinki paytaxt Bakımız, eyni zamanda, işğaldan azad edilmiş ərazilərimiz də iqtisadi, siyasi, humanitar, diplomatik mərkəz kimi diqqətdədir. Artıq bu ərazilərimiz beynəlxalq əhəmiyyətli idman tədbirlərinə ev sahibliyi də edir. Şuşada beynəlxalq şahmat turniri, Suqovuşan gölündə beynəlxalq avarçəkmə yarışı, Zəngilanın Ağalı kəndinin ətrafında triatlon üzrə yarış keçirilməsi böyük fərəh doğurur. Bütün bunlar xalqımız tərəfindən çox yüksək qiymətləndirilir və bu il də bu işlər davam etdiriləcəkdir.

Dövlət başçımız, MOK-un prezidenti cənab İlham Əliyev bu il yanvarın 9-da ötən 2022-ci ilin idman yekunlarına həsr olunan yığıncaqda işğaldan azad olunan ərazilərdəki idman yarışlarından söhbət açarkən onu da qeyd elədi ki, azad edilmiş şəhər və rayonların hər birində idman qurğularının yaradılması da nəzərdə tutulur. "İşğaldan azad olunan şəhərlərin Baş planları təsdiq edilib. Bütün bərpa-quruculuq işləri Baş planlar əsasında aparılacaq. Ağdamın məşhur "İmarət" stadionunun yeni layihəsi işlənilir. Stadion yenidən qurulacaq, eyni zamanda, onun yanında böyük Olimpiya İdman Kompleksi yaradılacaq. Bununla bərabər, keçən il Ağdamın Eyvazxanbəyli kəndində Qarabağ Atçılıq Kompleksinin təməli qoyuldu. Biz Qarabağ Atçılıq Kompleksini işğal dövründə Ağcabədi rayonunda yaratmışdıq, yenə də Qarabağ torpağında yaratmışdıq. Ancaq qərar qəbul olundu ki, bunun əzəli yerində – Eyvazxanbəyli kəndində çox gözəl, müasir atçılıq kompleksi yaradılsın. Artıq işlərə start verilmişdir." – deyə dövlət başçımız bildirilib [3].

Böyük Qayıdış proqramı bu gün uğurla icra edilir. Ötən il Böyük Qayıdışın ilk addımı atıldı. Zəngilanın Ağalı kəndi sakinlərini qarşılayaraq yeni həyatına başlayıb. "Ağıllı kənd" layihəsi çərçivəsində qurulan Ağalı kəndinin timsalında bu fikri böyük qürur hissi ilə qeyd edirik ki, işğaldan azad edilmiş bütün torpaqlarımız müasir tələblər səviyyəsində qurulur, soydaşlarımızın rahat yaşayışının təmin edilməsi üçün bütün vacib işlər görülür. Dövlət başçısı İlham Əliyev bir daha bu hədəfi diqqətə çatdırdı: – "Azad edilmiş bütün digər şəhərlərdə idman obyektlərinin yaradılması planlarımızdadır. Əlbəttə, biz, ilk növbədə, keçmiş köçkünləri öz dədə-baba torpaqlarına qaytarmalıyıq və bu istiqamətdə işlər gedir. İlk olaraq, məktəblər, xəstəxanalar, infrastruktur yaradılmalıdır. Ancaq idman obyektləri əlbəttə ki, yaddan çıxmır və çıxmayacaq. İşğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı quruculuq işləri ilə yanaşı, həmin ərazilərdə ekoloji tarazlığın bərpası istiqamətində də ciddi addımlar atılır. Bütün bu işlər 44 günlük müharibə zaman düşmən tapdağından geri qaytardığımız Füzuli rayonunu da əhatə edir. Belə ki, Füzuli şəhərinin yeni Baş plan layihəsinə əsasən orada məskunlaşacaq əhalinin kütləvi istirahətinə olan tələbatını nəzərə alaraq burada mərkəzi parkın salınması nəzərdə tutulur. Parkın salınması həm də ərazidə ekoloji tarazlığın bərpasına ciddi töhfə verəcək. Layihələndirilən park kompleksi şəhər sakinlərinin asudə vaxtlarının səmərəli keçirilməsinə imkan yaradan məkana çevrilməklə yanaşı, sağlam və təbii ekoloji mühitin yaranmasına və qorunub saxlanmasına da şərait yaradacaq. Eyni zamanda park sahəsində istirahət zonaları, açıq yaşıllıq sahələri, amfiteatr, kafe-restoranlar və s. kimi obyektlərlə yanaşı, müxtəlif yaş qrupları nəzərə alınmaqla idman məqsədilə istifadə ediləcək sahələrin, təbii hərəkətlilik və piyada gəzinti imkanlarının yaradılması məqsədi ilə rahat gəzinti və velosipedlər üçün yolların yaradılması da nəzərdə tutulub" – deyə ölkə başçısı bildirdi.

Ədəbiyyat

1. Nuriyev Y.Q. və Əkbərov V.R. "İdman qurğuları və trenajorlar" dərslik – Bakı, 2020
2. Məcidov N.B. "Fiziki tərbiyənin nəzəriyyəsi və metodikası" dərslik – Bakı, 2018
3. Prezident Ilham Əliyevin 2022-ci ilin idman yekunlarına həsr olunan tədbirdəki çıxışı. https://president.az Bakı, 9 yanvar 2023-cü il
4. Аристова Л.В. «Физкультурно-спортивные сооружения» Москва, 1999 г.

5. Каратаев О.П., Каратаева Е.С., Кузнецов А.С. «Спортивные сооружения» Учебник, Казан, 2011 г.

Я.Г.Нуриев, Ф.Ф.Поладлы, Э.И.Алиев, Т.Г.Аллахвердиев

Вчера, сегодня и перспективы спортивных сооружений в Азербайджане

Резюме

Развитие спорта в Азербайджане поддерживается государством, и именно в результате проводимой государством политики были созданы такие современные базы. Эта политика, реализуемая под руководством главы государства, не ограничивалась строительством спортивных объектов. Таким образом, современные спортивные базы, построенные как в столице Баку, так и в регионах, построены на таком современном уровне, что их деятельность не ограничивается обслуживанием молодежи региона и они способны принимать любые международные соревнования. То есть для выполнения этих условий недостаточно иметь спортивный объект, должны быть и другие инфраструктуры на уровне современных стандартов. Эти факты являются важнейшими факторами, определяющими признание Баку спортивной столицей в мире, а нашей страны – спортивной страной.

Y.G.Nuriyev, F.F.Poladli, E.I.Aliyev, T.H.Allahverdiyev

Yesterday, today and prospects of sports facilities in Azerbajan

Summary

The development of sports in Azerbaijan is supported by the state, and it was precisely as a result of the policy implemented by the state that such modern bases were created. This policy implemented under the leadership of the head of state was not limited to the construction of sports facilities. Thus, the modern sports bases built both in the capital Baku and in the regions are built at such a modern level that their activity is not limited to serving the youth of the region and they are able to host any international competition. That is, to meet these conditions, it is not enough to have a sports facility, other infrastructures must also be at the level of modern standards. These facts are the most important factors determining the recognition of Baku as a sports capital in the world, and our country as a sports country.

Rəyçi: prof. N.B.Məcidov

Redaksiyaya daxil olub: 11.04.2023

İ.E.QURBANOV
e-mail: ismayilova2007@internet.ru

Azərbaycan Turizm və Menecment Universiteti
(Bakı şəh., Koroğlu Rəhimov küç., 23/822)

HAVA NƏQLİYYATI VƏ BİZNES TURİZMİN İNKİŞAFININ MÜASİR FORMALARI

Açar sözlər: *hava nəqliyyatı,turizm, biznes turizmi, Dağlıq Qarabağ*
Ключевые слова: *воздушный транспорт, туризм, деловой туризм, Нагорный Карабах*
Key words: *air transport, tourism, business tourism, Nagorno-Karabakh*

Giriş. Azərbaycan Respublikasında, bir çox başqa ölkələrdə olduğu kimi, turizm iqtisadiyyatın inkişafında və ölkəyə xarici kapitalın cəlb edilməsində mühüm rol oynayır. Bundan əlavə, turizm yeni iş yerləri yaradır və ümumi daxili məhsulun formalaşmasında fəal iştirak edir, milli iqtisadiyyatların əlaqəli sahələrinin, ictimai iaşə, ticarət, nəqliyyat, qonaqpərvərlik və s.-nin inkişafına mühüm təsir göstərir. Turizm sektorunun inkişaf dinamikası bir sıra amillərdən asılıdır, xüsusən, resurs amili – turizm xidmətlərində bilavasitə istifadə olunan turizm və rekreasiya resurslarının regionda olması. Məsələn, mədəni-tarixi, təbii-iqlim, bəşəri və s. regionun zəruri turizm infrastrukturu və maddi-texniki bazası ilə təmin olunmasını nəzərdə tutan iqtisadi amil, mahiyyət etibarilə turizm məhsulu istehsal etmək vasitəsidir.

Turizm biznesinin aparılmasının beynəlxalq təcrübəsi göstərir ki, müasir şəraitdə biznes və konqres turizmi mütəşəkkil səyahətin ən yüksək gəlirli və fəal inkişaf edən sahələrindən biri hesab olunur. Həm Azərbaycanda, həm də xaricdə biznes turizmi kifayət qədər "yeni" turizm növüdür. Müstəqil səyahət istiqaməti kimi o, yalnız XX əsrin 70-80-ci illərində nəzərdən keçirilməyə başladı. Eyni zamanda, qlobal iqtisadi inkişafın yüksək templəri və işgüzar səfərlərin sayının artması ilə əlaqədar bu sahə hazırda aparıcı sahələrdən biridir. Avropa ölkələrində son on ildə bu turizm növü öz göstəricilərini demək olar ki, 10% artırıb, turizm göstəriciləri isə ümumilikdə təxminən 5% artım göstərir. Turizm və qonaqpərvərlik sahəsində ekspertlərin proqnozlarına görə, bu rəqəmlər yalnız regionlararası və beynəlxalq işgüzar kommunikasiyaların intensivləşməsi hesabına artacaq və nəticədə işgüzar səfərlərə tələbatın artmasına səbəb olacaqdır.

İşgüzar turizmin formalaşması və inkişafı xarici iqtisadi əlaqələrin güclənməsi ilə baş verdiyinə görə onun turizm sənayesinin müstəqil sferasına ayrılması müasir turizm təşkilatlarının biznesinin uğurlarına təsir göstərmişdir. Turizmin bu növü 20-ci əsrin iqtisadi hadisəsi kimi tanınır, çünki o, sürətli artım tempi və iqtisadiyyatın inkişafına əhəmiyyətli təsiri ilə seçilir və bu günə qədər müşahidə edə bilərik. Hava nəqliyyatının müasir formalarına nəzər yetirsək, müxtəlif səviyyəli və formalı sosial-iqtisadi sistemləri birləşdirən iqtisadiyyatın ərazi strukturunun formalaşmasında ən mühüm aktorlardan biri nəqliyyatdır ki, onun inkişafı bir çox ölkələrdə digər fəaliyyət növlərini üstələyir. Müasir nəqliyyat innovativ həllərin tətbiqi üçün sınaq meydançasıdır. Perspektivli yeniliklərin lideri hava nəqliyyatı hesab edilə bilər – ən gənc və ən intensiv inkişaf edən nəqliyyat növü. Hər il onun xidmətlərindən təxminən 4 milyard sərnişin istifadə edir. Azərbaycan üçün hava nəqliyyatının inkişafının aktuallığı təkcə iqtisadi-coğrafi xüsusiyyətlərlə (böyük ərazi, bir sıra regionlarda digər nəqliyyat növləri ilə etibarlı rabitənin olmaması) deyil, həm də nəqliyyat vasitələrinə inteqrasiya zərurəti ilə bağlıdır. Müasir dünya hava nəqliyyatı xidmətləri bazarının əsas xüsusiyyətləri, iqtisadiyyatın qloballaşması, dünya mal və xidmətlər bazarının, o cümlədən hava nəqliyyatı sektorunun liberallaşması əsrin son üçdə birində meydana çıxmasına səbəb oldu. Qərbi Avropada qovşaqların vahid strukturda aktiv birləşməsi prosesi dövlətlərin belə birləşməsi ilə asanlaşdırıldı. İndi qlobal qovşaqlar şəbəkəsi bütün qitələrin əksər ölkələrini əhatə edir. Ən intensiv qitələrarası

hava nəqliyyatı Sia - Şimal Merika, Sia – Avropa istiqamətləri üzrə həyata keçirilir. Qovşaq modelinə uyğun olaraq hava daşımalarının təşkili sərnişinlərin (yüklərin daşınması) birbaşa marşrut üzrə deyil, birləşdirici uçuşlar üçün qovşaq hava limanında köçürmə ilə uçuşunu təmin edir ki, bu da hava gəmilərinin sayını azaltmağa imkan verir [3].

Qovşağın rəqabət üstünlükləri aviaşirkətlər və hava limanı arasında qarşılıqlı əlaqə ilə bağlıdır, yəni, qovşağın rəqabət qabiliyyəti həm aviaşirkətin, həm də hava limanının vahid biznes sistemi kimi inkişaf strategiyasının nəticəsidir. Vahid dünya qovşaqları sistemi qlobal hava limanları şəbəkəsinin optimallaşdırılmasına nail olur və ən böyük aviaşirkətlər ittifaqları ilə birlikdə sərnişin və yük axınlarının səmərəli konsentrasiyasını və yenidən bölüşdürülməsini təmin edən ən rasional sxemlərə uyğun olaraq uçuşların kontinental və mekontinental əhatəsini təmin edir.

Aviasiya xidmətlərinin göstərilməsi üçün müxtəlif biznes strukturlarına malik olan hava limanı ilə aviaşirkət arasında qarşılıqlı əlaqənin effektiv modeli sərnişin axınının artması hesabına gəlirlərin artırılmasına yönəlmiş hər iki marağın mövcudluğunu nəzərdə tutur. Aviaşirkət üçün biznesin gəlirliliyinə təsir edən əsas amillər sərnişinlərin faktiki daşınmasının göstəriciləridir – biletlərin qiyməti, uçuşların tezliyi, müntəzəmliyi [5]. Ölkə bazar iqtisadiyyatına keçərkən Azərbaycan aviasiya sənayesi böyük tənəzzül yaşadı. Bununla belə, hələ də inkişaf etmiş bir elm sahəsi və təyyarə tikintisində yerli AR-GE məktəbi mövcuddur. Bununla belə, Azərbaycan hərbi təyyarələrin istehsalı sahəsində bir sıra uğurlara imza atmışdır. Mülki aviasiya sənayesi isə əksər hallarda rəqabətə davamlı deyil. Əksər ekspertlərin qeyd etdiyi kimi, sənayenin problemləri daha çox onun elmi, texniki və istehsal potensialının mülki və hərbi texnikaya effektiv tələbata uyğun gəlməməsi ilə bağlıdır. Bu, təyyarə istehsalının texnoloji səviyyəsinin aşağı düşməsi, əsas fondların köhnəlməsi, kadrların ixtisas səviyyəsinin aşağı düşməsi, aviasiya maliyyələşdirməsinin inkişaf etməməsi fonunda baş verir. Nəticədə, hava daşımalarının həcmində azalma, donanmanın yüksək dərəcədə köhnəlməsi, tələbatın tələb etdiyi müntəzəmlik dərəcəsi ilə yenilənə bilməyən, aviasiya infrastrukturunun geriliyi və hava nəqliyyatı ilə təchizat arasında uyğunsuzluq var.

Müəyyən bir məqamda xidmətə yararlı və müasir texnologiyanın olmaması səbəbindən çoxlu sayda regional uçuşların dayandırılması təhlükəsi var idi. Bu sahədə vəziyyətin normallaşdırılması zərurəti Hökumətin Azəbaycan aviadaşıyıcılarının icarəyə götürdüyü xarici təyyarələr üçün ölkə bazarını açmaq qərarını əvvəlcədən müəyyən etdi.

Paradoksal bir vəziyyət yarandı: Azərbaycan təyyarə parkının yenilənməsi yerli aviasiya sənayesinin deyil, xarici sənayenin inkişafına kömək etdi. Dünya iqtisadiyyatının qloballaşması şəraitində yüksək texnologiyalı məhsullar bazarlarında rəqabət kəskin şəkildə artır. Lakin Azərbaycan aviasiya sənayesinin inkişafına maneələr yaradaraq, qlobal iqtisadiyyat eyni zamanda, istifadə edilməli olan bəzi imkanlar yaradır. Söhbət beynəlxalq sənaye kooperasiyasından, böyük elmi mərkəzlərdə aparılan tədqiqatların nəticələrinin mübadiləsindən, texnologiyalardan, ümumi texniki platformalardan istifadədən gedir [4].

Strategiya tərtibatçıları güman edirlər ki, 2030-cu ilə qədər Azərbaycan mülki və hərbi təyyarələrin, eləcə də ikili təyinatlı təyyarələrin istehsalı və təchizatı üzrə dünya liderlərindən birinə çevrilməlidir. Sənəddə əsas məqsəd, aviasiya sənayesində ixracyönümlü mülki seqment formalaşdırmaq, yerli materiallardan yığılmış hazır komponentləri və konstruksiyaları xaricdə tədarük etməklə ölkənin qlobal dəyər zəncirlərində geniş iştirakını təmin etməkdir. Ehtimal olunur ki, ən sadə istehsal yerli təyyarə istehsalçıları tərəfindən həyata keçiriləcək. Lakin Azərbaycan aviasiya sənayesinin bu cür iddialı məqsədləri bütün ekspertlər tərəfindən paylaşılmır. Onlardan bəziləri bu fikirdədirlər ki, ölkə aviadaşıyıcılarının hər il orta dəyəri 100 milyon dollar olan təyyarələri icarəyə götürdüyü vəziyyəti geri qaytarmaq ölkə təyyarə istehsalçıları üçün çətin olacaq [2]. 2016-cı ilin üç rübünün aviasiya fəaliyyətinin göstəricilərini ayrıca nəzərdən keçirsək və onları ötən ilin eyni dövrü ilə müqayisə etsək, görərik ki, iqtisadiyyatda tənəzzülə və əhalinin real gəlirlərinin azalmasına baxmayaraq, sərnişin hava daşımalarının göstəricilərinə təsir göstərmiş, ton-kilometrlə yük dövriyyəsi 15,6 faiz, daşınmış yüklərin tonla həcmi isə 0,4 faiz artmışdır.

Nəticə. Turizm biznesinin aparılmasının beynəlxalq təcrübəsi göstərir ki, müasir şəraitdə biznes və konqres turizmi mütəşəkkil səyahətin ən yüksək gəlirli və fəal inkişaf edən sahələrindən biri hesab olunur. Həm Azərbaycanda, həm də xaricdə biznes turizmi kifayət qədər "yeni" turizm növüdür. Müstəqil səyahət istiqaməti kimi o, yalnız XX əsrin 70-80-ci illərində nəzərdən keçirilməyə başladı. Eyni zamanda, qlobal iqtisadi inkişafın yüksək templəri və işgüzar səfərlərin sayının artması ilə əlaqədar bu sahə hazırda aparıcı sahələrdən biridir. Avropa ölkələrində son on ildə bu turizm növü öz göstəricilərini demək olar ki, 10% artırıb, turizm göstəriciləri isə ümumilikdə təxminən 5% artım göstərir. Turizm və qonaqpərvərlik sahəsində ekspertlərin proqnozlarına görə, bu rəqəmlər yalnız regionlararası və beynəlxalq işgüzar kommunikasiyaların intensivləşməsi hesabına artacaq və nəticədə işgüzar səfərlərə tələbatın artmasına səbəb olacaqdır.

Ədəbiyyat

1. Azərbaycan iqtisadiyyatının inkişafında hava nəqliyyatının rolu // İqtisadiyyat və Davamlı İnkişaf Jurnalı, cild. 10, yox. 8, 2019, s. 66-71.
2. Azərbaycanın Hava Nəqliyyatı Sektorunun Müasirləşdirilməsi. https://abc.az/az/news/modernization-of-azerbaijans-air-transport-sector.
